1. Bühler, K (2011) Theory of Language, Amsterdam/ Philadelphia: John Benjamins Publishing Company.
2. Bondarenko O.C. Functional-semantical field of deixis in contemporary English [Text] dis. Rostov na Doni.
3. Fillmore, Charles J. (1971) Lectures on deixis. CSLI Publications (reprinted 1997)
4. Lyons G. (1977) Deixis, space and time "in Semantics" Vol.2. Cambridge University Press.
5. Levinson S.C. (1979) Pragmatics and social deixis in Proceedings of the Fifth Annual Meeting of the Berkley Linguistics Society. Berkley: Berkley Linguistic Society.
6. Levinson, Stephen C. "Deixis" in pragmatics, p.54-96
7. Levinson, Stephen C. (2006) "Deixis". In Laurence R. Horn, Gregory L.Ward (eds). The Handbook of Pragmatics, p.48-120. Blackwell Publishing.
8. F.Veysalli (2006) Linguistic encyclopedia, p.188-189. Morris A. (1983) Pragmatics, New-York: Longman
9. Vinogradov B.A. Deixis (Text)

Fiction

10. Charles Dickens (1837) Oliver Twist
11. Stanford P. (2013, March 29) Daily telegraph, Retrieved March 29, 2013, www.telegraf.co.uk/news, www.celebritynews/9961473/Darious-Guppy-That-element-of-madness-was-always-there

SƏFAQƏT MAHMUDOVA

İNGİLİS DİLİNDƏ DEYKSİS

XÜLASƏ

Bu məqalə ingilis dilində deyksisə və onun əsas üç növü olan şəxs, zaman və məkan deyksisinə həsr olunub. Deyksis dilçilikdə öyrənilən muhum sahədir . Dilçilikdə deyksis söz və ifadələrə aid olur .Hər hansi bir məna kəsb etmək üçün kontekstual informasiya tələb edən söz və ifadələr deyktik sayilir.

ШАФАГАТ МАХМУДОВА

ДЕЙКСИС В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В данной статье рассматривается уротребление дейксиса и его виды в английском языке. Дейксис является важной изучаемой частью лингвистики. Слова и фразы связаны с дейксисом. Эти слова и фразы считаются дейктические, которые требуют контекстуальную информацию чтобы иметь какого-либо смысла.

Rəyçi: İradə Nuriyeva, dosent

İLAHƏ ƏLİYEVA
Bakı Dövlət Universiteti

BUDAQ CÜMLƏSİ FRAZEOLOGİZM OLAN TABELİ MÜRƏKKƏB CÜMLƏ

Açar sözlər: *frazeologizm, tabeli mürəkkəb cümlə, budaq cümlə, komponent, konstruksiya, semantika, prepozitiv, postpozitiv.*
Ключевые слова: *фразеологизм, сложноподчиненные предложения, придаточные предложения , компонент, конструкция, семантика, препозитив, постпозитив.*
Key words: *phraseologism, subordinate complex sentence, branching sentence, component, construction, semantics, prepositive, postpositive.*

Dil insanlar arasında mühüm ünsiyyət vasitəsidir. Lakin dil sadəcə ünsiyyət prosesində əsas iştifadə olunan vasitə deyil, habelə ümumilikdə fikrin ifadəsinə, düşüncənin təzahürünə xidmət edir. Fikir isə gerçəklik faktını ifadə etdiyi kimi, danışanın ona olan münasibətini də bildirir. Belə ki, danışan söylədiyi fikrə özünün bu və ya digər formada emosional münasibətini əlavə edir ki, bu zaman cümlədəki fikir modal məzmunu da özündə ehtiva edir. Cümlədə modal məzmun müxtəlif forma və üsullarla verilə bilir; intonasiya, modal sözlər, feilin şəkilləri və s. bu məzmunun ifadəsində istifadə edilir.

Fikrin emosional ifadə tərzi ümumdil faktıdır, yəni dilin bütün qatlarını ehtiva edir. Fonetik, leksik və morfoloji səviyyələrdə olduğu kimi, sintaktik səviyyədə də emosional-ekspressiv məzmun, modal münasibət ifadə oluna bilir. Sintaktik fiqurlar, xüsusən də söz sırası, təkrarlar, bədii suallar və s. bu funksiyanın əsas daşıyıcılarıdır. Emosional-hissi münasibətin ifadəsində frazeoloji birləşmələrin, o cümlədən frazeoloji cümlələrin rolu böyükdür. Məlun olduğu kimi, frazeologizmlər sözlərin həqiqi mənasında deyil, məcazi mənada qovuşmasından yaranan ifadələrdir ki, onlar obrazlı fikrin ifadəsinə xidmət edir. Gerçəkliklə birbaşa deyil, dolayı şəkildə əlaqələnən bu məzmun özündə emosional münasibəti daha çox əks etdirir. "Nitqdə prosesin adlandırılması zamanı frazeologizmlərdən istifadə edildikdə onlar, adətən, özləri ilə nitqə gətirdikləri emosional-ekspressiv ifadəlilik naminə cəlb edilirlər"(1: 26).

Qeyd etmək lazımdır ki, "Cümlə səviyyəli frazeoloji vahidlərin içərisində sadə və mürəkkəb cümlə tipində frazeoloji vahidlərə də rast gəlinir(2: 266). Məcazi mənalı istənilən dil vahidi kimi, frazeologizmlər də əlahiddə deyil, digər dil vahidlərinin, xüsusən də,digər cümlələrin əhatəsində onlarla semantik-sintaktik əlaqədə işlədilir. Onlar da digər dil vahidləri ilə birlikdə və semantik-qrammatik cəhətdən qanunauyğun şəkildə əlaqələnərək, bütöv fikrin ifadəsinə xidmət edir. Frazeoloji vahidlər, bir qayda olaraq, daha böyük cümlənin daxilində onun bir komponenti kimi çıxış edir; bu zaman frazeologizm sadə cümlədə cümlə üzvü, yaxud tabeli mürəkkəb cümlədə baş və ya budaq cümlə funksiyasında çıxış edir. İkinci halda isə frazeologizm predikativ vahid olaraq, yəni cümlə olaraq, fikrin ifadəsinə birbaşa xidmət edir. M.Mirzəliyeva türk dillərində frazeologizmləri tədqiq edərək bu fikrə gəlir: "Cümlə səviyyəli frazeoloji vahidlər tabeli mürəkkəb cümlələrin formalaşmasında fəal iştirak edir. Belə frazeoloji vahidlər bütövlükdə tabeli mürəkkəb cümlə olur...Frazeoloji vahidlər tabeli mürəkkəb cümlənin ya baş, ya budaq cümləsi formasında olur...Cümlə səviyyəli frazeoloji

vahidlər nitqə emosionallıqla yanaşı, bir səmimiyyət, sadəlik, xəlqilik də gətirir" (3: 196).

Lakin bir məsələyə toxunaq ki, predikativ xarakterli hər ifadəni frazeoloji cümlə adlandırmaq olmaz. Məsələn, "ağlına batmaq..." tpli frazeologizmləri "cümlə tipli frazeologizm" adlandırmaq(4: 141-143), bizim fikrimizcə, düzgün deyil. Bu ifadələr əslində leksik vahid, daha doğrusu, feil olub, dildə bir sözə bərabər tutulur. Ona görə də digər leksik vahidlər kimi, bu tipli frazeoliji birləşmələr də hər hansı cümlənin, xüsusən də, nəqli cümlənin xəbəri funksiyasında çıxış edir.Bu ifadələr feilin təsriflənməyən forması halında digər cümlə üzvləri, o cümlədən mübtəda, tamamlıq ola bilir. Ona görə də bunların müstəqil cümlələr kimi öyrənilməsi fikri ilə razılaşmaq mümkün deyil. Azərbaycan dili frazeologiyasının tədqiqatçılarından olan H. Bayramov "acığı gəlmək", "xoşu gəlmək" tipli frazeoloji birləşmələri məhz frazeoloji cümlələr adı altında təqdim edir(5: 122-146). Halbuki bunlar hər hansı adi cümlənin xəbəri funksiyasında işlədilən feili frazeologizmlərdən başqa bir şey deyildir.

Düzdür, feili frazeologizm bəzi hallarda hər hansı cümlənin xəbəri ola bilir və eyni zamanda digər üzvlər olmadan frazeologizm bütün cümlənin yerində işlənə bilir. Məsələn: " *Başa düşürəm*" ifadəsi frazeologizm olub, müstəqil cümlənin feili xəbəri funksiyasında çıxış edir ki, burada şəxs əvəzliyi ilə ifadə olunan mübtəda (mən) ellipsisə uğramışdır. Bu vəziyyətində həmin frazeologizmi frazeoloji cümlə hesab etmək olmaz, çünki həmin ifadənin əslində əvəzliklə ifadə olunan xəbəri vardır ki, onun mövcudluğu xəbərdəki şəxs sonluğunda əksini tapır.

Frazeoloji cümlə dedikdə istənilən halda—həm ayrılıqda, həm də daha böyük konstruksiyanın, yəni mürəkkəb cümlənin tərkibində cümlə kimi fəaliyyət göstərən predikativ ifadələr nəzərdə tutulur. Təbii ki, hər iki halda qeyd olunan ifadələr feilin təsriflənən formasında, yəni sintaktik cəhətdən xəbər olur. Lakin əhatə olunduğu sintaktik mühit, habelə əlaqəyə girdiyi sözlər və cümlələr onları bir-birindən fərqləndirir. Ona görə də T.Müzəffəroğlu yazır: "Fikrin verilmə məqsədindən və bir çox hallarda mövcud situasiyadan asılı olaraq, mürəkkəb cümlədə fikrin məcazi ifadəsi müxtəlif səviyyələrdə ola bilər. Bu baxımdan komponentlərindən biri frazeologizmdən ibarət olan tabeli mürəkkəb cümlələrə dilimizdə daha geniş şəkildə rast gəlmək olur"(6: 216).

Tabeli mürəkkəb cümlə baş və budaq cümlə komponentlərinin birliyindən ibarət olub, bir mürəkkəb fikrin ifadəsinə xidmət edir. Baş və budaq cümlələr həm məna, həm də qrammatik cəhətdən əlaqələnib, bir vahid formalaşdırır, daha doğrusu, vahid bir cümlə kimi çıxış edir. Lakin hər hansı fikrin ifadəsi üçün, sözsüz ki, baş və budaq cümlələrin konkret məna-məzmun ifadə etmələrinin əhəmiyyəti danılmazdır. Baş və ya budaq cümləsi frazeoloji cümlə olan tabeli mürəkkəb cümlələrdə isə qrammatik əlaqələnmə aydın olduğu halda, semantik müəyyənləşmə bir o qədər də üzdə olmur. Yəni baş və budaq cümlələr müvafiq vasitələrlə əlaqələnir, lazımi olduqda baş cümlədən budaq cümləyə müvafiq suallar verilir. Lakin frazeologizm olan komponentin məzmunu konkret deyil, mücərrəd olduğundan tabeli mürəkkəb cümlə daxilində onun digər komponentlə semantik münasibəti də bir çox hallarda aydın olmur. Məsələn: *Vallah, ay qardaş, elə danışırsan ki, bişmiş toyuğun gülməyi gəlir*(Ə.Vəliyev); *Fələk göydən ensə də, mən sənin dediyinlə razılaşmayacağam* (S.Rəhimov).

Bu nümunələrin birincisi nəticə budaq cümləli tabeli mürəkkəb cümlədir; baş cümlə konkret məzmuna malikdir, lakin ondan doğan nəticə aydın olmadığı üçün budaq

cümlə tələb olunur. Budaq cümlə konkret, aydın semantikaya malik cümlə də ola bilərdi(Məsələn: *Mən buna təəccüb edirəm*). Amma verilmiş nümunədə budaq cümlə frazeologizmdən ibarətdir və o baş camlədən doğan nəticəni konkret məzmunda deyil, mücərrəd anlamda ifadə etdiyindən həmin frazeologizmin mənasını bilməyən üçün bütünlükdə tabeli mürəkkəb cümlənin də məzmunu anlaşılmaz, dumanlı qalar.

Uyğun fikri ikinci cümlə haqqında da demək olar. Burada da prepozitiv mövqedə olan budaq cümlə frazeoloji ifadədən ibarətdir. Əslində buradakı baş cümlə aydın və dəqiq məzmuna malikdir, məlum informasiyanı daşıyır, yəni "*mən sənin dediyinlə razılaşmayacağam*" cümləsi tam bitkin fikrə malikdir. Ona görə də ilk baxışda belə görünür ki, budaq cümlənin işlədilməsinə ehtiyac duyulmur. Lakin budaq cümlənin potensial olan semantikası aşkarlananda baş cümlədəki fikrin ciddiliyi daha da artmış olur, daha doğrusu, burada budaq cümlədəki qeyri-müstəqim, qeyri-real məzmun baş və budaq cümlə arasında konkret məna-məzmun əlaqəsindən daha çox emosional-ekspressiv münasibətin olduğunu göstərir.

Ümumi şəkildə götürsək, bu tabeli mürəkkəb cümlədə ikinci komponentdə verilən fikrin qəti olduğu nəzərə çatdırılır və qısa şəkildə budaq cümlənin məzmunu "*heç vaxt*" ifadəsi ilə əvəz etmək olar. Lakin "*heç vaxt*" ifadəsi konkret məzmun daşıyaraq, ümumi fikrin özünə də bir konkretlik aşılayır. Həmin məzmunun frazeoloji cümlə şəklində verilməsi burada cümlənin məzmununa emosional-ekspressiv çalar da əlavə edir. Bununla yanaşı, onu demək lazımdır ki, potensiyasında emosional-ekspressi çalar da olan həmin komponent ara söz və ya hər hansı köməkçi vahid deyil, fikri mücərrəd və emosional şəkildə ifadə edən cümlədir, yəni burada cümlə şəklində ciddi formalaşma vardır.

Bu tip konstruksiyalarda budaq cümlənin baş cümlə ilə olan semantik münasibəti müxtəlif səciyyələrdə təzahür edir. Yuxarıda verdiyimiz misallarda baş və budaq cümlənin qarşılıqlı semantik münasibətindən bütöv tabeli mürəkkəb cümlənin ifadə etdiyi məzmun, yəni bütöv konstruksiyada verilən informasiya aydın olur. Lakin bu tipli elə konstruksiyalar da var ki, frazeoloji vahid olan budaq cümlə ilə baş cümlənin semantik əlaqəsi ilk baxışda dərk olunan olmur, yəni tabeli mürəkkəb cümlənin ümumi semantikasının anlaşılması çox çətin olur. Məsələn, "*Fərman elə bir oğlandır ki, çayda balıq yan gedər*" tabeli mürəkkəb cümləsinin postpozitiv budaq cümləsi frazeologizmdir. Əslində bu frazeologizmin özünün məzmunu hər kəs üçün aydın deyil, hətta oradakı fikrin müsbət və ya mənfi məzmun bildirməsi də anlaşılmaya bilər. Belə olan halda bütöv tabeli mürəkkəb cümlədə fikrin konkret olaraq hansı məzmun-məqsədə malik olması da qaranlıq qalacaqdır.

Burada bir məsələyə də toxunmaq lazımdır. Dilimizdə bəzi konstruksiyalar var ki, onlar fikrin obrazlı ifadəsinə xidmət edərək, mübaligə və ya təşbehlə verilir. Bu zaman həmin konstruksiyada əslində qeyri-real məzmun olmur və elə buna görə də baş cümlə ilə əlaqəsi semantik-qrammatik cəhətdən normal cümlələrdən bir o qədər də fərqlənmir. Məsələn: *Padşahın qızı o qədər gözəl idi ki, tamaşasına iki göz lazım idi(*Azərb. nağıllarından). Bu konstruksiya təyin budaq cümləli tabeli mürəkkəb cümlədir; onun budaq cümləsi emosional-ekspressiv ifadə tərzinə malikdir, belə ki, budaq cümlə olan ikinci komponentin ifadə etdiyi məna-məzmun informativliyə malik olsa da, real məzmundan uzaq deyil. Ona görə də bu tipli konstruksiyalar frazeologizm xarakterli budaq cümlələrə aid edilə bilməz.

Frazeoloji budaq cümlələrin nitqdə işlədilməsi iki şəkildə mümkündür: 1)İstənilən nitq prosesində, yəni həm ayrılıqda, həm də başqa cümlələr mühitində; 2)Yalnız tabeli mürəkkəb cümlə daxilində. Birinci tip konstruksiyaların məcazlaşma dərəcəsi nisbətən zəifdir; onlar metafor kimi işlədilərək, fikrin obrazlı ifadəsini təmin edir. Məsələn, "*dəmir qapının taxta qapıya işi düşər*", "*aralarından su keçmir*" və s. frazeologizmləri ayrılıqda da, tabeli mürəkkəb cümlənin bir komponenti kimi də işlətmək olur. Məsələn: *Gün gələr, dəmir qapının da taxta qapıya işi düşər*(S.Azəri); *Bu iki qardaş o qədər yaxındırlar ki, aralarından su da keçmir*(Azərb.nağıllarından).

Bu konstruksiyalardan birincisi təyin, ikincisi isə dərəcə budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Bu cümlələrdə budaq cümlələr fikrin obrazlı ifadəsinə xidmət edir. Demək olmaz ki, baş və budaq cümlə arasında semantik münasibət aydın deyil; belə ki, birinci konstruksiyada budaq cümlə "güclü adamım da zəif adama işi düşər", ikinci cümlədə isə "aralarından su keçməyəcək qədər" anlamlarına malikdirlər. Bu cür müqayisənin özü təbiidir və baş cümlə ilə real məzmun münasibəti ifadə edir. Ona görə də bu tip konstruksiyalar tabeli mürəkkəb cümlənin bütün tələblərinə cavab verir.

İkinci qrup frazeologizmlər isə ayrılıqda işlədilmir, onlardan yalnız tabeli mürəkkəb cümlənin bir komponenti, yəni həm baş, həm də budaq cümlə kimi istifadə olunur. Bu frazeologizmlər məzmun etibarilə tam mücərrəd xarakterə malikdir. Mücərrədləşmənin belə üstün dərəcəyə malik olması onların hmüstəqil şəkildə nə məqsədlə işlədilməsinə pərdə salır. Ona görə də onlar ayrılıqda işlədilə bilmir, nitq prosesində daha böyük sintaktik mühitdə, başqa cümlələrlə birbaşa əlaqədə işlədilir. Onların ifadə etdiyi real məzmun məhz digər cümlələrlə əlaqədə məlum olur.

Bu tip konstruksiyalar, əsasən prepozitiv budaq cümlələrdə təsadüf edilir və adətən, onların xəbəri şərt şəklində olur. Lakin demək lazımdır ki, bu frazeoloji cümlələrin müstəqil işlənə bilməməsi heç də şərt şəkli ilə bağlı deyil; bütünlükdə onların semantik qeyri-müəyyənliyi müstəqil işlədilməyə imkan vermir. "*Allah qoysa", "üstünə diri ilan salsan*" və s. ifadələr bu qəbildəndir. Məsələn: *Üstünə diri ilan salsan, qorxmaz*(S.Rəhimov).

Qeyd edək ki, ayrılıqda işlədilməyən bu tip budaq cümlələr yalnız *–sa*[2] şərt şəkilçili budaq cümlələrə aid deyil. Digər ifadələr haqqında da bu fikri söyləmək olar. Müasir dilimizdə "*gəl görəsən*" ifadəsi vardır. İlk baxışda köməkçi dil vahidi təsiri bağışlayır, lakin hər şeydən əvvəl bu ifadə müstəqil işləkliyə malik deyil. İkincisi, birinci komponentlə baş-budaq cümlə münasibətindədir. Bu ifadə məcazi anlama malikdir, amma tabeli mürəkkəb cümlənin postpozitiv budaq cümləsi funksiyasında istifadə edildikdə məzmunu dərk edilən, lakin konkret olmayan ifadə olur. Məsələn: *İçəridə bir mərəkə var idi ki, gəl görəsən*(H.Mirələmov).

"*Çayda balıq yan gedər"* cümləsi ilk baxışda müəyyən informasiyanı verən adi nəqli cümlədir və bir çox halda genişləndirilmiş formada da işlədilir: *Belə havada çayda balıq yan gedir.*Əslində bu cümlənin bütün sözlərinin semantikası ilə müəyyənləşən məzmunu dəqiq aydın olmur, yəni çayda balığın yan getməsi məzmun etibarilə dəqiq olmur. Bu ifadə tabeli mürəkkəb cümlənin daxilində isə iki məqamda işlədilə bilər: birinci halda real məzmununda hər hansı budaq cümlə növündə ola bilir. Məsələn: *Mən görmüşəm ki, çayda balıq yan gedir*. Burada tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə vardır. Baş cümlənin formal əlamətlərindən, yəni ixah olunacaq əvəzlik-qəlibin və ya buraxılmış üzvün xarakterindən asılı olaraq, digər budaq cümlə növləri kimi də işlədilə bilər.

İkinci halda isə bu ifadə fikrin obrazlı-emosional təqdimi üçün məcazi anlamda işlədilir. Sözsüz ki, bu zaman baş və budaq cümlənin qarşılıqlı sümantik münasibəti əsas alınır.; belə ki, baş cümlənin məzmunu real, budaq cümlənin məzmunu isə məcazi anlamda olduğundan bu komponentlərin qarşılıqlı semantik əlaqəsi qeyri-real təsir bağışlayır. Məsələn: *Kamil elə oğlandır ki, çayda balıq yan gedər.*

Demək lazımdır ki, bu tip konstruksiyalar, daha doğrusu, tabeli mürəkkəb cümlələr dilimizdə üstünlük təşkil edir. Məlum olduğu kimi, frazeologizmlərin özləri tarixən məhz həqiqi məzmunlu birləşmə və ya cümlələrdə məcazlaşma nəticəsində yaranmışdır. Bu zaman müqayisə-bənzətmə məzmunu aparıcı rola malik olmuşdur. Obrazlı-mücərrəd təfəkkürü güclü olan xalqımız çox vaxt hər hansı fikrini söyləyərkən müqayisədən bir vasitə kimi istifadə edir və zaman keçdikcə bu müqayisə obrazlı ifadə formasını alır. Bəzən hətta ilk əvvəl həqiqi məzmununda işlək olub, aydın semantik-informasiyon xarakterə malik olan bir konstruksiya zaman keçdikcə nitq prosesində müstəqil işlənmə xüsusiyyətini itirir və yalnız fikrin obrazlı ifadəsində istifadə olunur. Bu konstruksiyalar zaman-zaman dinamikliyini də itirir və dəyişməz xarakterə malik sabit konstruksiyaya çevrilir.

Belə ifadələrdən biri də "*Başını orada islat, burada qırxdır*" cümləsidir. Əslində həmcins xəbərli olan bu cümlənin real məzmunu aydındır, lakin onun nə məqsədlə yaradılması özü məcaziləşməsinə yol açmışdır. Bu cümlənin ifadə etdiyi məzmun tələsməklə bağlıdır. Ona görə də mürəkkəb cümlə daxilində məhz həmin anlamda işlədilir. Bu ifadə həm tabesiz, həm də tabeli mürəkkəb cümlə daxilində işlənir. Məsələn: *Hamımız səni həyəcanla gözləyirik, başını orda islat, burada qırxdır(S.Rəhimov); Əmim məktubunda yazırdı ki, başını orada islat, burada qırxdır(S.Azəri).*

Bu nümunələrin birincisi aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə, ikincisi isə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. Qeyd etdiyimiz ifadə sonuncu nümunədə budaq cümlə funksiyasını yerinə yetirir. Burada baş və budaq cümlənin semantik-qrammatik əlaqəsinin müəyyənləşməsində çətinlik, demək olar ki, yoxdur, lakin ikinci komponentin məzmunu mücərrəd məzmuna malikdir.

Qeyd edək ki, bu tipli konstruksiyalar, o cümlədən onların iştirakı ilə formalaşan tabeli mürəkkəb cümlələr müasir dilimizdə kifayət qədər vardır və fikrin həm məqsədəmüvafiq, həm də obrazlı ifadəsində əhəmiyyətli rola malikdir. Həmin konstruksiyaların geniş, hərtərəfli tədqiqinə böyük ehtiyac vardır.

ƏDƏBİYYAT

1. Бабкин А.М. Фразеология и лексикография.—Проблемы фразеологии (исследования и материалы), Ленинград, 1964
2. Mahmudova Q. Türk dillərinin frazeologiyası. Bakı, "Nurlan", 2009
3. Mirzəliyeva M. Türk dillərinin frazeologiyası. I cıld, Bakı, "Nurlan", 2009.
4. Seyidəliyev N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası. Bakı, "Araz", 2006
5. Bayramov H.Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, "Maarif", 1978
6. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası. Bakı, "Azərnəşr", 2002

АЛИЕВА ИЛАХА

СЛОЖНОПОДЧИНЕННЫЕ ПРЕДЛОЖЕНИИ С ФРАЗЕОЛОГИЗМАМИ В СЛОЖНОПОДЧИНЕННЫХ ПРЕДЛОЖЕНИЯХ

Р Е З Ю М Е

Фразеологизмы бывают в форме словосочетании и предложении, носят лексическое или синтаксическое значение. Часть фразеологических предложений существуют в речи самостоятельно, а часть употребляется в виде компонента сложного предложения. Компонент сложноподчиненного предложения с типом фразеологизма не имеет открытую, явно выраженную семантику, в них больше проявляется усиленная функция. Реальное значение этих конструкции проявляется в связи с другими компонентами. Переносные значения этих предложении различны. Придаточные предложения с фразеологическим характером находятся и в препозитивном, и в постпозитивном позиции. В упорядочении этих компонентов значительную роль играют не только актуальность, но и эмоциональное отношение. Как главные, так и придаточные предложения могут носить фразеологический характер.

ALIYEVA ILAHA ABBASQULU

BRANCHING SENTENCES WITH PHRASEOLOGISM IN THE SUBORDINATE COMPLEX SENTENCES

S U M M A R Y

Phraselogical expressions can appear as word combinations or a sentence and have a lexical the or syntactic nature. Some part of phraseological sentences can be used independently in a language, separately from other sentences, while the other part can only be used as a component of a complex sentence. Phraseological sentences can be used as a component of both a dependent and independent complex sentences. The component of the subordinate complex sentence which is a phraseological sentence does not posses an open, i.e. obvious semantics; they mostly function to strengthen the meaning. The real context of those constructions can be defined in coordination with another component. The figurativeness of this kind of sentences tend to be different. Sentences of phraseological nature can be in prepositive and postpositive positions/ Along with topicality, emotional approaching plays a role in sequencing of the components. Both head and branching sentence can be of phraseological content.

Rəyçi: Tofiq Hacıyev
professor

XƏYALƏ MÜRSƏLİYEVA
Sumqayıt Dövlət Universiteti dissertant
murseliyeva.xeyale@mail.ru

FEİLİN İNTENSİVLİK YARATMADA ROLU

Açar sözlər: *intensiv hərəkət feilləri, aksionallıq, qoşa sözlərin intensivliyi, şəkil kateqoriyasının intensivliyi, intensivlik yaratmada tonun dəyişdirilməsi.*
Ключевые слова: *интенсивные глаголы действия, аксионализм, интенсивность парных слов, интенсивность наклонение глагола, изменение тона в создании интенсивности.*
Key words: *intensity motion verbs, intensity of double words, intensity of mood category, change the ton in forming intensity.*

Aparılan tədqiqatlar göstərir ki, dilin bütün səviyyələrində(fonetik, leksik, morfoloji, sintaktik, frazeoloji səviyyələrdə) intensivlik hadisəsi özünü göstərir. Bu səviyyələrdən olan morfoloji səviyyədə intensivlik hadisəsi özünü daha qabarıq göstərir.Morfoloji səviyyədə intensivlik yaratma dərəcəsi bütün nitq hissələrində eyni səviyyədə baş vermir.Belə ki, bəzi nitq hissələrində intensivlik dərəcəsi şkaladan yüksək, bəzilərində isə intensivlik şkaladan aşağını göstərir..

Nitq hissələrinə görə intensivlik yaradan dil elementlərini iki qrupa ayırmaq olar:

1.Əsas nitq hissələrinə aid elementlərin intensivlik yaratması;

2.Köməkçi nitq hissələrinə aid elementlərin intensivlik yaratması.

Nitq hissələri öz aralarında qrammatik əlamətlərin (morfoloji və sintaktik) məlum birliyi ilə bağlı olan, insanın onu əhatə edən gerçəkliyə olan əlaqəsini, bir qisim sözlərin digərlərinə olan əlaqəsini bildirən sözlər sinfi və ya qrupundan ibarətdir.

Nitq hissələrinin hamısı yox, bəziləri intensivlik yarada bilirlər. «İntensiv nitq»in yaranmasında ayrı-ayrı nitq hissələrinin də rolu inkaredilməzdir[8,s.88]. Nitq hissələri intensivliyin semantik-qrammatik dərəcələrini əmələ gətirir. İntensivlik əlamətinin yüksək dərəcələri (əlamətin, vəziyyətin və hərəkətin) nitq hissələrinin iştirakı ilə əmələ gəlir.

Feildə hərəkətin yüksək və aşağı dərəcəsi intensivliyə yol açır. Hərəkətin intensivlik sahəsinin qradual strukturu mövcuddur.

İntensivlik sahəsinin sərhədlərini müəyyənləşdirmək, feildə intensivliyin müxtəlif dərəcələrinin semantik potensialını üzə çıxarmaq əsas məsələlərdən sayılır.

Şəkilçilər vasitəsi ilə hərəkətin intensivlik mənaları reallaşır. İntensivlik hərəkət fellərində bir vasitə kimi özünü göstərir. İntensiv feillərdə leksik-qrammatik sahə fərqli şəkildədir. Bu sahənin semasioloji aspektləri müxtəlifdir. Aşağı intensivlik və yuxarı intensivlik arasındakı münasibət fərqlidir. Məsələn, türk dillərinə aid feillərdə 75 faiz hərəkət feilləri yüksək intensivliyə malikdir, 22 faizində isə aşağı dərəcəli intensivlikdir.

Feilin intensivlik sahələrindən ən birinci yerdə hərəkət, iş və fəaliyyət sahələri dayanır. Rus dilçiliyində hərəkətin intensivlik sahəsi A.İ.Fedosev tərəfindən öyrənilmişdir [5,s.192].

Hərəkət feilinin intensivlik sahəsinin semasioloji aspekti belədir:

I. Hərəkətin yüksək intensivliyi; II. Hərəkətin aşağı dərəcədə intensivliyi.

Hərəkət feillərinin leksik-semantik qrupları üzrə intensivlik sahəsi: 1. obyektə fiziki təsir göstərən hərəkət feilləri: döymək, vurmaq, dağıtmaq, sürümək və s.

2. keyfiyyətin vəziyyətini göstərən hərəkət feilləri;

3. hərəkət feilləri; artıb-əksilmə; gediş-gəliş, irəliləmə, artma (vəzifədə); qalxıb-düşmə; Qiymətlər qalxır. Qiymətlər düşür. Neft hasilatı azalır. Neft hasilatı artır. Mitinqdə iştirak edənlər hərəkətə gəlir. Qatar hərəkət edir.

4. obyektə yerləşdirmə, qoyulma;

5. sosial fəaliyyət feilləri (razılıq etmək, təşəkkür etmək; qadağan etmək, icazə verməmək; həyəcanlanmaq, təsirlənmək, oyandırmaq, hərəkətə gətirmək, irəli sürmək, məsələ qaldırmaq, həyəcana gətirmək, qıcıqlandırmaq, təhrik etmək, hirsləndirmək, acıqlandırmaq, əsəbləşdirmək, həvəsləndirmək, həvəsə gətirmək, qızışdırmaq, dikəltmək, yüksəltmək, tərifləmək, göylərə qaldırılmaq, həddən artıq şişirtmək, yüksəltmək, təşəxxüslənmək, lovğalanmaq, öyünmək, fərəhləndirmək, şadlandırmaq, sevindirmək, kefini açmaq, aparmaq, çatdırmaq, qalxmaq, xəbər verilmək, özünə gətirmək, can vermək, təzədən dünyaya gətirmək, diriltmək, geri dönmək, bərk maddəni buxara çevirmək və s.

İntensivlik yaradan digər qrup hərəkət feilləri: seçmək, bayıra yüyürmək, qaçıb çıxmaq, yüyürüb çıxmaq, ötüb keçmək, ayaq üstü bir yerə baş çəkmək, ayaqdan çıxarmaq, doyunca gəzmək, doyunca yüyürmək, yüyürməkdən yorulmaq, qaçmadan yorulmaq, yüyürüb küçəyə çıxmaq, qurtarılmaq, xilas olmaq, vurub çıxardılmış, vurub sındırılmış, qovulmuş, sıxışdırılıb çıxardılmış, əzilmiş, tapdalanmış, məhv edilmiş (əkin və s.), basılmış, vurulmuş (naxış, pul, damğa və s.), şüşəni vurub sındırmaq, vurub topu əlindən düşürmək, ağzından qaçırmaq, açıb söyləmək (sirri), davam gətirmək və s.

İntensivlik yaradan başqa qrup hərəkət feilləri: əlavə etmək, artırmaq, əlavə edilmiş, əldən düşənə *qədər(dək)* qaçmaq (yüyürmək), qaçıb çatmaq, yüyürüb yetişmək, *tərtəmiz* yumaq, ağarana *kimi* yumaq (təmizləmək), *ağarıncaya qədər* yumaq, ağardılıb qurtarmaq, divarı ağardıb qurtarmaq, nəfəsi kəsilmiş, axırına çıxılmış, öldürmək, nəfəsini kəsmək, qırıb (sındırıb) qurtarmaq, axırına çıxmaq, boşqabları qırıb axırına çıxdılar, əlavə etmək, nail olmaq, böyük müvəffəqiyyətlər əldə etmək, istəyinə nail olmaq, görməyə (görüşməyə, danışmağa) nai olmaq, çərənləyib biabır olma, çərənləyib başına iş açmaq, ətə-cana gəlmək, mehriban olmaq, tullayıb qurtarmaq, axtarıb tapmaq, axıra çatdırılmış, əksiyini qoyub düzəltmək (tərəzidə), çəkib qurtarmaq (tərəzidə) və s.

Feildə intensivliyin leksik-qrammatik sahəsi mövcuddur.

A.İ. Fedoseyev qeyd edir ki:" intensivlik anlayışına yalnız hərəkətin yüksək gərginlik dərəcəsinə malik semantikalı vahidlər deyil, eyni zamanda fəaliyyətin icrasının istənilən dərəcəsini göstərən vahidlər daxildir" [5,s.3].

İntensivlik yaradan rus dilinə məxsus bəzi qrammatik elementləri Azərbaycan dilindəki elementlərlə müqayisə etdikdə eynilik, yəni hər iki dildə intensivlik vasitələrinin ümumiliyi ortaya çıxmış olur. Məs.:

-за -artıq, çox, yuxarı: эму за пятдесять –onun yaşı əllidən çoxdur (əllini aşıbdır).

-із -ın, in :старшый из братьев -qardaşların böyüyü.

Feil funksional-semantik aspektdə tədqiq olunur. Feillə bağlı intensivlik fenomeninə hərəkət vasitəsi kimi baxılıb (Маслов 1965), intensivliyə kateqoriya kimi (Мусеинко 1984), intensivliyə dərəcə kateqoriyası kimi (Халина 1993), intensivliyə ekspressivliyin tərkib elementi kimi (Лукянова 1986), nəhayət, intensivliyə məna kimi (Черняк 1973; Сафанова 2003) baxılmışdır.

Ümumiyyətlə, feili leksikanın intensivliyi tədqiqatlarda qeyd olunub. Hərəkətin meydana çıxmasındakı gərginliyin yüksək dərəcəsi və "intensivlik anlayışının həcmi"

feilin yüksək intensivliyi ilə bağlıdır(Ermakova 1978, Martınov 1982). Bu dərəcə üçün xüsusi semlər: gərginlik (gərgin iş, gərgin vəziyyət, gərgin münasibət, gərgin surətdə, gərgin bir halda), hədsizlik, həddindən artıqlıq, son dərəcə böyüklük, son dərəcə güclülük; artıq, qalıq, bol, bolluca, bol məhsul, artıq ehtiyat; lazımdır. Bu semlər hərəkətdə, iş və fəaliyyətdə meydana çıxır.

Feillərdə intensivliyin təbiəti verbal əlamətlərə malikdir: dərəcə, qraduallıq, şkalanın qoyuluşu. Aksional adlanan feillərə- qaçmaq, qurmaq, inşa etmək, tədqiq etmək, evlənmək, döyüşmək və s. hərəkətlə bağlı olan feillər aid edilir.Aksionallıq-hərəkət dərəcəsinin azalmasıdır. Motivləşmiş feillərdə böyük intensivlik mövcuddur. Troşkina yazır: "intensivliyin əhəmiyyəti keyfiyyətin dərəcə formasında kəmiyyət xasiyyətnaməsidir. Bu dərəcə hərəkətin özünü göstərməyinin hesablama nöqtəsindən başlayaraq onun ən aşağı zəifləmədən ən yüksək güclənməyə qədər bütün dərəcələrini əhatə edir. Məsələn, pıçıldamaq - demək - qışqırmaq (rus dilində: шептат - говорить-кричать). Hərəkətin özünü gəstərməsinin norması haqqında təsəvvür intensivliyin mənasının dərk edilməsində xüsusui rol oynayır, çünkü məhz o hesablama nöqtəsi kimi çıxış edir " [7,s.20].

Feili xəbərlərin intensivlik yaratma xüsusiyyətlərinə hələ qədim türk yazılı abidələrinin dilində də rast gəlirik.Belə ki,qoşa sözlərdən ibarət olan feili xəbərlər göytürk yazılarında iş, hərəkətin icra prosesini qabarıq şəlikdə ifadə edir, emosionallığı artırır:Olurıpan türk bodunığ ilin törüsün tuta birmis, iti birmis (Taxtda oturaraq türk xalqının elini, hakimiyyətini təşkil etmiş, qoruyub saxlamışdır) [1,s.184].

Nizami Xudiyev yazır ki,sintaktik üsulda feillər daha çox qoşa sözlərlə ifadə olunmuşlar ki,bu feillər də cümlənin emosionallığını, ekspressivliyini artırmış, hərəkətin icrasını daha qabarıq şəkildə diqqətə çatdırmışdır[4,s.160].

Beləliklə, hərəkətin intensivlik sahəsinin tədqiqi intensiv, ekspressiv sözlərin və ifadələrin yaranması mexanimzləri haqqında fikir yürütməyə əsas verir, bu isə öz növbəsində tək feli hərəkətin üsulları haqqında deyil, bütövlükdə dil sistemi haqqında daha çox öyrənməyə imkan yaradır.

"Ayırmanın, yəni dünyanı dərk etməyin pillələri" olan kateqoriyaların, onların dildə ifadəsi olan qrammatik kateqoriyaların (sözləri bir-birinə bağlayan və onların arasında əlaqə yaradan vasitələr) bir mühüm xüsusiyyəti də intensivlik yaratmasıdır. Həmin kateqoriyalara xas olan morfoloji və sintaktik göstəricilər intensivlik yaradan vasitələr kimi çıxış edir. Bu vasitələr gücləndirici, qüvvətləndirici, şiddətləndirici və eyni formada fərqləndiricilik və qraduallıq əlamətləri yaratmağa xidmət edir. Mütləqlik və nisbilik qraduallığın, kəmiyyət fərqinin əsas keyfiyyətini müəyyənləşdirir.

İntensivlik yaratmada mühüm yer tutan qrammatik kateqoriyalardan biri də feilin şəkil kateqoriyasıdır. Əmr şəklinin semantikasını qüvvətləndirmək üçün həmin biçimdən əvvəl və sonra müəyyən gücləndirici sözlərdən istifadə edilir.Əmr şəklindən əvvəl gələn və onun semantikasını gücləndirən sözlər: buraya *di, qoy, qoysana, gəlin, təki, bircə* və s sözlər aid edilir: Bircə babamı görsəydim; Təki sən səslə məni.Əmr şəklindən sonra işlənənlər: *ha, barı, da, də*: Ha qışqırdım, səsimi eşidən olmadı; Barı oxu adam ol!

Adi danışıqda əmr şəklinin II şəxs tək və cəmində şiddətləndirici *–sana,-sənə,-sanız,-səniz* formaları da işlənərək intensivlik meydana gətirir: Tez gəlsənə; Alıb aparsana.

İntensivliyin hərəkət felləri ilə ifadəsi. Hərəkətin bir növü intensiv hərəkətlərdir. İntensiv hərəkətləri ifadə edən feillər mövcuddur. S.Maralbayeva qazax dilçiliyində

intensiv hərəkət bildirən felləri funksional-semantik aspektdə öyrənmişdir. Tədqiqatda intensiv hərəkət fellərinin hər bir semantik tipi xarakterizə edilmiş, dil sistemində, həmçinin funksional planda intensiv hərəkətləri ifadə edən feillərin ifadə vasitələri konkretləşdirilmişdir [6,s.17].

Əsas nitq hissələrindən biri olan feil və onun əmr şəklinin intensivlik keyfiyyəti yüksəkdir. Əmr, buyruq, öyüd, nəsihətlər əmr şəklində ifadə olunanda buradakı dərəcələr çoxalır.Gələcək üçün verilən əmrlər indiki zamana nisbətən uzaq və yaxınlığı müəyyənləşdirə bilmir. İntensivlik əmr cümləsinin ümumi məzmununda üzə çıxır və bu zaman gələcək zamanın uzaq və yaxınlığı müəyyənləşir.

Feilin əmr şəklində mövcud olan intensivlik semləri onun üslubi keyfiyyəti ilə əlaqədardır. Belə ki, əmr şəkli şərt formasının sinonimi ola bilir. Misal üçün: Harda *olur-olsun,* lap göyə *çıxsın, gizlənsin,* onu tutub sizin yanınıza gətirəcəyəm. Harda *olsa,* lap göyə *çıxsa, gizlənsə*, onu tutub sizin yanınıza gətirəcəyəm.

Müasir Azərbaycan dilində əmr şəkli vacib şəklinin sinonimi ola bilir. Misal üçün: Belə oğul lazımdır ki, anasının nazını *çəksin.* Bu cümlənin ümumi məzmunu vacib formasında bu cür olmalıdır: Belə oğlu anasının *nazını çəkməlidir.*

Dilimizdə əmr şəkli arzu formasının da sinonimi ola bilir. Misal üçün: Hələ şübhə altından çıxmayıb, özünü doğrultmayıb, istəyir dövlətdən mükafat alsın,hay,hay! [2,s.307].Hələ şübhə altından çıxmayıb, özünü doğrultmayıb, istəyir dövlətdən mükafat *ala,* hay, hay! [2,s.307]

Üslubi-semantik cəhətdən bu cür əvəzlənmələr, şübhəsiz, intensivliyi də genişləndirir. Dəyişmələrin üslubi xarakteri kəmiyyət fərqini yaratmaqla yanaşı, intensivlik şəraitini də artırır.

Dilimizdə əmr şəklinin mənasını intensivləşdirmək üçün həmin formadan əvvəl və sonra müəyyən genişləndirici, qüvvətləndirici sözlərdən də istifadə olunur. İntensivliyi qrammatik cəhətdən genişləndirən həmin qəbildən olan sözlərə aşağıdakıları misal göstərmək olar: *di, qoy, qoyun, qoysana, gəlin, təki, bircə; ha, barı, da, də* və s.

Bu məqamda intensivliyin dəqiqləşdirilməsi mümkün olur: *Di, dillən, qoy çıxıb getsin, Buyurun, gəlin. Tez gəlin! Indi gəlin. Hər halda gəlin! Gəl, vəssəlam. Gəl ha* və s.

«Tonun dəyişdirilməsi» də intensivlik şəraiti yaradır. Q.Mustafayevə yazır ki, danışıqda əmr şəkli əsasında formalaşmış eyni sözü tonun dəyişdirilməsi yolu ilə müxtəlif məqsədlərə uyğun olaraq rəngarəng məna və çalarlıqda işlətmək mümkündür. Məsələn, *oxu, get, gəl* sözlərini bir məqamda əmr, digər məqamda məsləhət, başqa bir məqamda isə xahiş yolu ilə işə təhrikedici vahidlər kimi işlətmək və başa düşmək olar [3,s.344].

Beləliklə, hərəkətin intensivlik sahəsinin tədqiqi intensiv, ekspressiv sözlərin və ifadələrin yaranması mexanizmləri haqqında fikir yürütməyə əsas verir, bu isə öz növbəsində tək feili hərəkətin üsulları haqqında deyil, bütövlükdə dil sistemi haqqında daha çox öyrənməyə imkan yaradır.

ƏDƏBİYYAT

1. Əlisa Şükürlü.Qədim türk yazılı abidələrinin dili.Bakı.Maarif.1993. 334 s.
2. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 384 s.
3. Mustafayeva Qızqayıt.Azərbaycan dilinin üslubiyyatı. Dərs vəsaiti. Bakı, "Elm" nəşriyyatı, 2010,392 s.
4. Nizami Xudiyev.Qədim türk yazılı abidələrinin dili.Bakı, "Elm və təhsil", 2015,596 s.

5. Федосеев А.И.Поле интенсивности действия русского глогола: АКД, Саратов, 2006, 192 с.
6. Маралбаева С.М. Семантика процессности действия и способы ее выражения в казахском языке. Авторев. Дис. ... кан. Филол. наук. Алма-Ата, 1991.17с.
7. Торошкина А.Н.Номинативный аспект категории интенсивности действия в разноструктурных языках (на материале русского и английского языков). Дисс. Канд.фил. наук. Саратов, 2001.42с.
8. Розенталь Д.Э.,Теленкова М.А. Словарь-справочник лингвистических терминов: Пособие для учителя- 3-е изд., испр.и доп.-М: Просвещение, 1985, 399 с.

МУРСАЛИЕВА ХАЯЛА

РОЛЬ ГЛАГОЛА В СОЗДАНИИ ИНТЕНСИВНОСТИ

РЕЗЮМЕ

Интенсивность показывает себя во всех уровнях языка, а на морфологическом уровне показывает себя наиболее наглядно. На морфологическом уровне интенсивность выражается с частью речи. Отмечается, что нельзя отрицать роль части речи в создании интенсивности. В статье также говорится о роли глагола, которая также создаёт интенсивность. Изучается и различается высокого уровня действия интенсивности и низкого уровня действия интенсивности. Определяется область интенсивности в лексико-семантических группах глагола действия. Интенсивность проявляет себя и в наклонениях глагола отчетливо.

Мы видим примеры о существовании интенсивности парных слов даже в древне- тюркских письменностях. Итак из главных часть речей, проявляется роль глагола в создании интенсивности с примерами. А также мы наблюдаем отчетливо выражение категории интенсивности и в глаголах.

MURSALIYEVA KHAYALA

THE ROLE OF VERB IN FORMING INTENSITY

SUMMARY

In all languages stages the intensity process is more salient in morphological stage.Intensity expresses with parts of speech in morphological stage.It is noted that, the role of speech parts in forming intensity is irrefutable.The role of verb as one of the speech parts in forming intensity have been analyzed in this article.

The directions of high and low intensity motion is differed and explained.Intensity field on lexical-semantic groups of motion verbs are determined in the article.Intensity is more salient in the mood of verbs.

We can see the samples about forming double verbs with repetition existing in written monument language.Thus, the role of verb in intensity is analyzed with samples.We observe salient expressions of intensity category in verbs.

Rəyçi: prof.Cəfərov Cəfər Əziz oğlu

ELNURƏ RZAYEVA
Qafqaz Universiteti
Doktorant/ Türk Dilləri

"İŞIQ" QƏZETİ VƏ ƏDƏBİ DİLİN FONETİK NORMASI

Açar sölər: *İşıq, qəzet, 1911-1912, dil, fonem*
Keywords: *Ishiq, newspaper, 1911-1912, language, phonetic*
Ключевые Слова: *свет, газета, фонема*

Hər bir xalqın mənəvi varlığının əsas, başlıca amili onun dilidir ve bu dili qorunub saxlanması, inkişaf etdirilməsi hər bir xalqın müqəddəs vəzifəsi sırasına daxildir. bu vəzifənin uğurla yerinə yetirilməsinin vacib şərtlərindən biri isə, şübhəsiz ki, ana dilinin sağlığının qorunması, onun zəngin daxili imkanlarının üzə çıxarılması, dilimizin minillər boyu formalaşmış qayda-qanunlarına uyğun gəlməyən, "qulaq cırmaqlayan" yad kəlmələrdən mümkün qədər az istifadə edilməlisidir. Dil o qədər güclü bir təfəkkür və mədəniyyət hadisəsidir ki, bəzən millət, etnos, xalq müəyyən obyektiv və subyektiv amillərin təsiri altında tarix səhnəsini tərk etdikdən sonra belə, yaşaya bilir. Azərbaycan Respublikasının doqquz milyondan çox əhalisinin gündəlik ünsiyyət vasitəsi və rəsmi dövlət dili Azərbaycan dilidir. Azərbaycan dili İran İslam Respublikasında yaşayan 20 milyonluq azərbaycanlının da ana dilidir. Rusiyada, ABŞ-da, Türkiyədə və Qərbi Avropa ölkələrində bir neçə milyon azərbaycanlı yaşayır. Bir neçə yüzilliklər ərzində müxtəlif ölkələrin sakinləri olmalarına baxmayaraq, bu gün də hansı ölkədə yaşamalarından asılı olmayaraq, azərbaycanlılar bir-birlərini sərbəst anlayırlar. Beləliklə, yer üzündə hazırda Azərbaycan dilində danışan 30 milyondan çox adam yaşayır. [1]

Azərbaycan dili geneoloji təsnifata görə türk dillərindən biri olub, həmin dil ailəsinin oğuz qrupuna daxildir və ən yaxın qohumları olan türk, türkmən və qaqauz dilləri ilə birlikdə ərazi prinsipinə görə türk dilləri arealının cənub-qərb qrupunu təşkil edirlər. Ənənəvi-morfoloji və ya tipoloji təsnifat baxımından Azərbaycan dili iltisaqi dillər qrupuna daxildir. Bu qrupa daxil olan bütün dillər kimi, Azərbaycan dilində də flektiv dillərdən fərqli olaraq bütün söz kökləri özümlü leksik və qrammatik mənası olan müstəqil sözlərdir; qrammatik mənalar və qrammatik əlaqələr isə həmişə söz kökündən və əsasından sonra gələn təkmənalı şəkilçilər vasitəsilə ifadə olunur.

Azərbaycan xalqının etnik əsasını təşkil edən türklər indiki Azərbaycan ərazisində eramızdan əvvəl görünməyə başlamış, birinci minilliyin əvvəlindən isə başqa mənşədən olan çoxsaylı tayfalarla birlikdə bu torpağın qədim sakinləri olmuşlar. Türk mənşəli Azərbaycan dilinin və həmin dildə danışan xalqın yaranması, başqa sözlə, bu dilin ümumi ünsiyyət vasitəsinə çevrilməsi uzun sürən, bir neçə əsr davam edən bir proses olmuşdur. Əhalinin etnik tərkibində türk tayfalarının sayı, habelə iqtisadi, siyasi, mədəni təsiri artdıqca dilin fəaliyyət dairəsi də genişlənmiş və beləliklə, bəzi etnik və antropoloji xüsusiyyətlərini bu gün də qoruyub saxlaya bilən çeşidli etnik qruplar ümumi mədəni-mənəvi və dini birliyi olan bir xalq halında birləşmişlər. Azərbaycan dili böyük inkişaf yolu keçmiş qədim ədəbi dillərdən biridir. "Kitabi-Dədə Qorqud" dastanlarının dili ədəbi dilimizin şifahi növü kimi qəbul edilərsə, hazırda xalqa ünsiyyət

vasitəsi kimi xidmət edən dilin yaşı 1300 ildən çox sayıla bilər. Azərbaycan yazılı ədəbi dilinin tarixi isə hələlik əldə olan materiallara görə XIII əsrdən başlayır.

Azərbaycan ədəbi dili öz 800 ilə yaxın inkişafı müddətində iki böyük dövrü əhatə edir. Əski dövr adlandırılan birinci dövr XIII əsrdən XVIII, yeni adlandrıla bilən ikinci dövr isə XVIII əsrdən yaşadığımız günlərə qədər olan bir dövrü əhatə edir.

Birinci dövr Azərbaycan dilində ərəb və fars sözləri çoxdur. O dövrün dil üslubları, xüsusən aparıcı poetik janr və vasitələr ədəbi dilimizə külli miqdarda alınma sözlərin axıb-gəlməsinə səbəb olmuşdu. İkinci dövrdə isə realist şer məktəbinin, realizm ədəbi metodunun bir yaradıcılıq metodu kimi yaranması və aparıcı yaradıcılıq metodu kimi formalaşması dilimizin əsas lüğət fonduna keçə bilməyən alınma sözlərin ədəbi dili tərk etməsinə səbəb olmuşdu.

İkincisi, əski Azərbaycan ədəbi dilinin osmanlı dili ilə müştərək olan bir sıra sözləri (şimdi, şöylə, şu, kəndi və s.) yeni dövrdə artıq işləkliklərini tamamilə itirmişdilər. Bu türk ədəbi dilləri sahəsində ayrılma (differensiyasiya) hadisəsinin tam başa çatmasının nəticəsi idi.

Dövrlər arasındakı fərqlər fonetik səviyyədə də güclüdür. Belə ki, yeni dövr Azərbaycan ədəbi dili eyni zamanda fonem tərkibinin sabitləşməsi ilə də səciyyələnir. Birinci dövrə xas olan o//a sait, h//q//x samit müvaziliyi artıq birincilərin (o və h) qələbəsi ilə nəticələnir. Söz ümumxalq dilində müxtəlif cür işlənsə də, ədəbi dildə əsasən bir cür-tək variantda işlənir, tələffüz olunur və yazılır. Sözün ədəbi dildəki tələffüz variantı orfoepik norm adlanır. Bu normlar orfoepiya lüğətində əks olunur. Sözün ədəbi dildəki yazılı variantı isə orfoqrafik norm adlanır və orfoqrafiya lüğətində əks olunur. Bu normlar dilimizin fonetik hadisələrini, xüsusən ahəng qanununu nəzərə almaqla müəyyən olunur.

Fonetik normada dəyişmə çox gec baş verir. Ona əməl olunması insanın savadlılığının, dilə bələdliliyinin göstəricisidir. Sözü düzgün tələffüz etməyən və dügün yaza bilməyən şəxsi şübhəsi, savadlı hesab etmək olmaq. Azərbaycan dilində çox sözlər var ki, onlar necə yaılırsa, elə də tələffüz olunur. Əlbəttə ki, dilimizdə yazıldığı kimi deyilməyən söz və morfemlər də var. Beləliklə, fonetik norma həm yazılışı, həm də tələffüzü müəyyən edir. Oxşar vəziyyət qrammatika sahəsində də özünü göstərir. İsmin birinci dövrə məxsus təsirlik hal şəkilçilərinin -yi,-yı,-yu,-yü//-ni,-nı,-nu,-nü müvaziliyi ikinci dövrdə artıq aradan çıxır. Felin -isər qəti gələcək zaman şəkilçisi öz vəzifəsini tamamilə -acaq//-əcək şəkilçisinə verir. [2;446]

Azərbaycan dilinin inkişafı da, problemləri də daha çox XX əsrlə bağlıdır. Məhz bu dövrdə Azərbaycan ədəbi dili bənzərsiz bir problemlə qarşılaşır. Əsrin əvvəllərindən başlayaraq, ədəbi dildə üç meyil, üç istiqamət özünü göstərir. Təbiidir ki, bu ən çox bədii əsərlərin dilinə və mətbuata aiddir.

1. Birinci meyil, ədəbi dili bacardıqca xalq dili ilə eyniləşdirmək meyli. Bu özünü "Molla Nəsrəddin" jurnalının və bu jurnalın əməkdaşlarının (C.Məmmədquluzadə, Ə.Haqverdiyev və b.) əsərlərində göstərir. Burada ədəbi dil ilə danışıq dili, dialektlər arasındakı fərq götürülür. Xalq bu dili asan başa düşür.
2. Daha çox osmanlı (indiki türk) və əski Azərbaycan dilinin ənənəsinə söykənən ədəbi dil yaratmaq meyli. Bu "Fyüzat" və "Həyat" kimi bir çox jurnal və qəzetlərin və əksərən bu redaksiyada işləyənlərin (Ə.Hüseynzadə, Səbribəyzadə və b.) əsərlərinin dilində özünü göstərir. Xalq bu ədəbi dili çətin anlayır. Bu dil o vaxtkı türk ədəbi dilindən, demək olar ki, seçilmirdi.

3. Hamı tərəfindən anlaşılan, ədəbi dil normalarına əsaslanan ədəbi dil yaratmaq meyli. Bu dil heç bir dialekt təsirini qəbul etməyən bir dil idi. Bu dili A.Şaiq, C.Cabbarlı, S.Hüseyn, A.Səhhət kimi şair və yazıçılar yaradırdılar. Ədəbi dil sahəsindəki bu vəziyyət əsrin əvvəllərindən 1930-cu illərədək davam etdi.

Türk dillərindən biri kimi müasir Azərbaycan dili bəzi xüsusiyyətləri ilə fərqlənən fonetik və qrammatik quruluşu olan bir dildir. Öz fonetik qanunauyğunluqlarına görə, bu dildə əmələgəlmə yerinə görə fərqlənən saitlər,yəni ön sıra (i,ü,e,ə,ö) və arxa sıra (ı,u,a,o) saitlər eyni bir söz və ya sözforma daxilində işlənə bilməz (işıq, ildırım kimi i saiti ilə başlayan bir neçə söz istisnadır): eyni zamanda bu dildə dilortası samitlərin (g, k) arxasıra, dilarxası saitlərin (k,q,ğ,x) ön sıra saitlərlə bir hecada işlənməsi də mümkünsüzdür. [14;267]

Azərbaycan dilinin fonem tərkibində 15 sait və 25 samit vardır. Bu 40 fonem Azərbaycan əlifbasında 32 hərflə işarə edilir.

Azərbaycan dilində 9 qısa (i,ü,e,ö,ə,a,o,u,ı), 6 uzun (i:,e:,ö:,ə:, a:,u:) saitlər vardır. Uzun saitlər bu dil üçün səciyyəvi deyil, onlar demək olar ki, yalnız alınma sözlərdə çox az hallarda işlənir.

Fonetik vurğu, bir qayda olaraq, sonuncu hecaya düşür. Fonematik vurğunun yeri sözün mənasından asılı olaraq dəyişmir: alma' - 'alma. Azərbaycan dilində söz əvvəlində işlənməyən 2 fonem var: ı saiti və ğsamiti. [15]

Sonsuz kainatı xatırladan dilimizi dərindən öyrənmədən, bir çox tarixi qrammatika məsələlərini elmi cəhətdən doğru-düzgün izah etmək mümkün deyil [1;12] "İşıq" qəzetinin məzmunu kimi dil siyasəti də illər boyu zülmət içərisində qalmışdır. Eyni zamanda səs quruluşu üzərində də heç bir tədqiqat aparılmamışdır. Bu dissertasiyada dilimizin fonetik baxımdan inkişaf, yol və istiqamətləri, səs quruluşundakı dəyişikləri tədqiq edildi. Çünki "İşıq" qəzetinin dili fonetik araşdırmadan kənarda qalmamalıdır. "İşıq" qəzeti zəngin elmi-mədəni dəyərə sahib bir qəzet kimi, həm də maraqlı dil xüsusiyyətlərini özündə əks etdirir.

"İşıq" qəzetinin dilinin araşdırılması çox böyük əhəmyyət daşımaqdadır. Belə ki, qəzetin dilinin təhlili XX əsrin əvvəllərində ədəbi dilin fonetik norma və özəlliklərinin öyrənilməsinə kömək edəcəkdir.

Qəzetdə dilin fonetik dəyişmələrə məruz qaldığı məlumdur. Bu dəyişmələrin bir qismi ərəb-fars dillərinin təsirindən, bir qismi isə Osmanlı türkcəsinin təsiri nəticəsində ortaya çıxmışdır.

"İşıq" qəzetinin fonetik tədqiqatı Azərbaycan dilinin qohum dillərlə əlaqə dərəcəsini də göstərir. qəzetin dilində olan maraqlı faktlardan biri samit dəyişməsi ilə işlənən sözlərdir. «Dilin inкişafı ırosesində səslərin rolunu inкar etmək, yaxud bu rolu həddindən artıq şişirtmək elmi bir yanlışlığa səbəb ola bilər» [13; 13]. Bu baxımdan, fonetiк təhlil və araşdırmalarda səslərin xaraкteriк xüsusiyyətləri nəzərə alınmışdır. Onların inкişafını öyrənmək müxtəlif tarixi mərhələdə ədəbi dilimizin fonetiк normalarını müəyyənləşdirmək baxımından faydalıdır. Həm də unutmaq olmaz кi, çağdaş dilin fonetiк sistemi müəyyən tarixi mərhələnin fonetiк sistemindən qaynaqlanıb. Milli dil nümunələrində qeyd edilən bir sıra fonetiк faкtlar "İşıq"dan sonra da işlək olmuş, laкin XX yüzilin yarısından sonra fonoarxaiк zonaya кeçmişdir. Bu mənada, sözün əvvəlində cingiltili samit əvəzinə кar samitin işlənməsi jurnalın fonetiк əlamətlərindən biridir:

Dün Pazar mümtadım üzrə Gəncə məktəbi- ruhani idarəsinə heyəti muallimiyyənin ifadələrindən ərzi- istifadə qəsdiylə içəri daxil oldum. [8; N22]
"Bu gün də bazardan gələndə məni yanına çağırdı və dedi: "Xoşbəxt qızım! Gəl bəri, gör sənin üçün mən nə gətirdim" [6; N10]

Tədqiqatçılar samitlərin əvəzlənməsinin dildə daha qədim hadisələrdən olduğunu təsdiq edirlər. "İşıq"ın fonetık sistemində nəzərə çarpan əvəzlənmələr məna dəyişikliyi ilə müşayiət edilməyən fərqlər yaradır. Türk dillərində – p-b, t-d, k-q kar-cingiltili samit cütlükləri hesab olunur. Bundan əlavə qəzetdə kəlimənin əvvəlində "t" samiti fonetik normaya gətirilən "d" samiti ilə əvəz edilmişdir.
... və ovladın hifz etmək üçün vacibdir ki uşağın ağzında dişləri çıxmamış onun çiçəyin dökdürmək. [10; N 24] "İşıq" ın dilində eyni sözdə gah «d», gah da «t» samitinin işlənməsi halları ilə də qarşılaşmaq mümkündür:

Yelin sürəti saatda 87 kilometr amma yüzdən ziyadə odamın yeri məlum olmayır, ağrı yüngül yaralarının hesabı yoxdur. [8;N22]
Və hər bir lavazimat idarədən verilib hətta otaqda vermək mümkündür. Xahiş edənlərdən rica olunur idarəyə rəcu etsinlər. [9; N 23]

"İşıq" qəzetinin fonetik araşdırması sübut edir ki, türk dillərində samit dəyişmələri əsasən sözün əvvəlində baş verib.

Qəzetdə daha çox m/b dəyişikliyi ilə qarşılaşmaq mümkündür. Dəyişimə uğrayan ən birinci söz isə kibi/kimi kəlimələridir.

Mən isə hər nağıl qurtaran kibi soruşurdum [12; N26]

Qəzetin fonetık əlamətləri içərisində dodaqlanan qapalı saitlərin öz mövqeyini dodaqlanmayan saitlərə verməsi və ya bunun əksini müşahidə edirik:
... Tripoliyə oblastını italyalılara verib onları razı salsunlar [14; N 28]

Qəzetin dilində dodaqlanma baxımından saitlərin öz qarşılığı ilə əvəzlənməsi dilin səs sistemində tarixən qədim hadisələrdəndir. «Belə ki, «ü» saiti «i»; «ö» saiti «ə»; «ü» saiti «i»; «o» saiti isə «a» saitindən dodaqların vəziyyətindən başqa heç nəyə görə fərqlənmir» [1;18]. Türk dillərində ahəng qanunu çox möhkəmdir. Saitlərin yalnız kökdə deyil, şəkilçidə də uyğunlaşması qanunauyğunluğu qəzetin dilində onun pozulmasının danışıq dili və şivə f ərqləri ilə bağlı olduğunu deməyə əsas verir.

Qəzetdə artıq «azərbaycanlaşmış» və bu mənada, ilk növbədə, ahəng qanununa tabe olmuş sözlərdə türk dillərinin bu möhkəm qanununun pozulduğu faktları var. Məsələn: «camaat» əvəzinə «cəmaət» yazılması buna nümunədir.

Qəzetin dilində sonradan düşməyə meylli səslər də mövcud-dur. Bu prosesi dildəki mürəkkəbdən sadəyə doğru inkişaf qanunauyğunluğu ilə bağlamaq olar. Həmin hadisə həm adlar qrupundan olan sözlərdə, həm də fonetık cəhətdən dəyişməyə meylli fellərdə müşahidə edilir: *Və əmcəkdən və anasından dəxi yüzünü çevirəcəkdir.[3;N 7]*

Əlbəttə ki, dildəki sözlərdə bir səsin törəmə prosesi olduğu kimi, düşməsi də mövcuddur. Eyni zamanda, qəzetdə «Qafqaz» sözü z-s əvəzlənməsinə məruz qalmışdır: *Təzə nəşrə başlayan İşıq qəzetəsini və Qafqazya da birinci dəfə olaraq müdirəliyinizi görüb çox sevindim. [4; N 8]*

Основные виды вопросительных предложении: общие вопросы, специальные вопросы, выборочные вопросы и отдельные вопросы. Общие вопросы конкретно требуют ответ «да» или«нет». Такие вопросительные предложения характеризуются высоким тоном. Специальные вопросы: кто? кого? кому? кого? что? какой? почему? где? куда? когда? как? и. др. начинаются с вопросительных слов и спрашивает особую информацию. Специальные вопросы произносятся низком тоном. Выборочные вопросы определяют выбор между двумя и ещё больше альтернативным ответом. Первая часть – высоким тоном произносятся, вторая часть низком тоном. Разделительные вопросы состоят из двух частей. Первая часть –повествовательное предложение, вторая часть в виде общей краткой вопросительной формы. Если первая часть утверждена, то разделительная часть бывает в отрицательной форме. Если повествовательная часть предложения находится в отрицательной форме, то разделительная часть бывает в утвердительной форме. Разделительные вопросы в первый части обладают низкой, во второй части обладают высокой интонацией.

Кроме этого в разговорной речи английского языка, а также есть другие виды вопроса: риторические вопросы, повторяющиеся и повествовательные.

Rəyçi: f.ü.f.d., dos. Səadət Xalid qızı Abdurəhmanova

PAKİZƏ MƏMMƏDZADƏ
AzTU
pakize.@.mail.ru.

OMONOMİKA SEMİSİOLOGİYANIN TƏRKİB HİSSƏSİ KİMİ VƏ İNGİLİS-AZƏRBAYCAN DİLLƏRİNDƏ ONLARIN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *söz, dil, məhfum, leksika, məna, çoxmənalı sözlər, omonimik, morfoloji quruluş, dilin lüğət tərkibi.*
Key words: *word, language, notion (concept), lexica, meaning, polysemantic words, homonymous, morphological structure, vocabulary structure of the language.*
Ключевые слова: *слова, язык, понятие, лексика, значение, многозначные слова, омонимический, морфологическая структура, словарная языка*.

Məlumdur ki, dilin lüğət tərkibi minlərlə səslərdən təşkil olunur. Söz əvvəldən hazır olub, nitqdə bütöv və sərbəst şəkildə təkrarlana bilən ən kiçik müstəqil dil vahididir. Bütün dillərdə olduğu kimi ingilis və Azərbaycan dillərində də söz bir növ xüsusi işarə vəzifəsi daşıyır. İşarə vəzifəsinin əsas əlaməti ondan ibarətdir ki, hər hansı bir məlumatı salıb-saxlamaq, başqa şəklə salmaq və başqasına vermək üçün bir şeyin rəmzi, göstəricisi kimi istifadə olunur.

Söz müəyyən mənanın daşıyıcısıdır. Məna sözdə ona görə yaşaya bilir ki, o şeirdə müəyyən maddi işarə ilə möhkəmləndirilir.

H.Həsənovun fikrinə görə: "Məna şüurda obyektiv aləmə məxsus əşyaların, hadisələrin, kefiyyətlərin, münasibətlərin əksi olub, həyatda keçdiyi müəyyən səs tərkibi ilə daimi və qırılmaz əlaqə yaranması nəticəsində dil faktina çevrilir". Məna insanın xarici aləmlə qarşılıqlı əlaqə və təsiri nəticəsində şüurda yaranır və formalaşır. Buna uyğun olaraq A.A.Leontiyev demiüdir: "Məna cəmiyyətin bütün üzvləri tərəfindən mənimsənilmiş ictimai təcrübə formasıdır". Dil sisteminin vahidi olan sözün mənasına əşyanın yalnız səs əlamətləri daxildir ki, bunlarda onu tanıyıb adını düzgün işlətmək üçün gərəkdir. Ona görə də sözün mənası problemi ilə əlaqədar məhfumdan söhbət getdikcə belə formal məhfum nəzərdə tutulmalıdır. Sözün mənası problemi ilə ən çox məşğul olan alimlərdən V.A.Lvenginstev belə hesab edir ki, sırf dilçilik baxımından sözün bir neçə mənası ola bilməz; sözün ümumi leksik mənası onun semantik variantlarının məcmusudur. İ.V. Arnold da Peter Hartmanın ardınca struktur çoxluq nəzəriyyəsinə əsaslanaraq sözün semantik quruluşunu nizamlanmış çoxluq kimi başa düşür; coxluğun elementləri konkretdir, çoxluq özü isə mücərrəd elmi anlayışıdır.

Məlumdur ki xalqlar arasındakı müxtəlif əlaqə və münasibətlər nəticəsində bir dildən başqa dilə müəyyən sözlər daxil olur. Buna görə də bir dilin leksikasında müxtəlif dillərə məxsus bir çox sözlər işlədilir. Bunsuz keçinmək mümkün deyildir və bu xüsusiyyət bütün dillərə aiddir. Bunun başlıca səbəbi xalqlar arasında yaranmış müxtəlif əlaqələr, elm və texnikanın, mədəniyyətin inkişafı, məişətdə olan dəyişikliklərdir. Xalqlar arasındakı əlaqələr həmin yeni yaranmış, ixtira edilmişəşyanın kefiyyətinin istifadə dairəsinin genişlənməsi zəruri edir. Bir sözlə, söz dilin və nitqin açarıdır.

Başqa dillərdən sözlərin alınması əsasən 2 qayda üzrə aparılır. Birinci qayda belədir ki, bir sözü ilk mənbədən alırıq. Məsələn: *samovar, paraxod, kalxoz, sovet* və s.

sözlər xalis rus sözləridir və biz də həmin sözləri birbaşa həmin dildən almışıq və cüzi dəyişikliklə həmin sözləri olduğu kimi işlədirik. Eyni qayda üzrə ərəb və fars dillərindən alınmış sözlər də ilk mənbədən götürülmüşdür.

İkinci ayda isə sözlərin başqa dillərdən dolayı yolla alınmasıdır, yəni sözlər ilk mənbədən deyil, ikinci və çüncü mənbədən alınır.

Hər hansı sözün ilk mənasından əmələ gələn yeni mənalar onun məna çalarlığı adlanır.

Çoxmənalı sözlərdən bədii əsərlərdə, xüsusən şerdə obrazlı ifadələr yaratmaq üçün istifadə olunur.

Məsələn: *Bəzən çörək də kəsirlər, sonra bir-birlərinin çörəyini də kəsirlər. (S.Vəliyev)*

İngilis və Azərbaycan dillərində çoxmənalı sözlərin və omonimlərin oxşar və fərqli cəhətləri vardır. Polisemantik sözdən birdən birə yeni söz əmələ gəlmir. Bu tədricən baş verir. Yeni yaranan sözlər həmin sözün əsas mənasından əlavə mənalarının tam ayrılması nəticəsində olur, yeni məna yaranır və söz mənaca dəyişməklə bərabər, başqa leksik cərgəyə daxil olaraq əvvəlki əlaqəsini itirir və çoxmənalı sözlərdən yeni omonim sözlər yaranır.

H.Həsənov yazır ki: "dilimizdə mövcud olan omonimlərin bir qismi fonetik dəyişmə prosesi ilə əlaqədar olaraq yaranmışdır. Bunlar əsasən söz kökündən səs düşümü, səsə artımı və ya səslərin yerdəyişməsi nəticəsində əmələ gəlir. Bu yolla demək olar ki müasir dilimizdə omonim yaranmır. Fonetik dəyişmə ilə yaranmış omonimlər dilimizin tarixi ilə bağlıdır".

Omonim sözünün mənşəyi yunan dilindən- homonyma (homos-eyni, Onyma-ad) sözündədir. Yazılışına və səslənməsinə görə eyni olub, mənaları arasında hec bir əlaqə olmayan sözlərə omonim deyilir. Omonimlər məsələsini tədqiq etmək və aydınlaşdırmaq üçün dildə olan sözlərin semantik münasibətləri müəyyən edilməlidir. Dildə olan bəzi sözlərin və ifadələrin mənalarını başa düşmək üçün onların ancaq leğıvi mənasını, qrammatik quruluşunu bilmək azdır; sözlər arasındakı semantik əlaqələri də izah etmək lazımdır. İstər çoxmənalı sözlərdə, istər omonimlərdə eyni səs tərkibinə malik bir söz müxtəlif mənalar ifadə edir. İstər ingilis, istərsə də Azərbaycan dillərində omonimlərin əmələgəlmə prosesi yeni bir hadisə deyildir. Azərbaycan dilində omonimləşmə hesabına lüğət tərkibinin zənginlışməsi prosesi onun qədim dövrlərindən mövcud olmuşdur. Omonimləri zənginləşməsi prosesi onun qədim dövrlərindən mövcud olmuşdur. Omonimləri törədən bir səbəblər vardır. Xüsusən müxtəlif dillərin qaynayıb-qarışması, dildə omonimlərin törəməsində çox rol oynayır.

Dilin lüğət tərkibində omonimlərin yaranıb artması başlıca olaraq aşağıdakı halların nəticəsidir.

1. Sözlərin məna dəyişməsi;
2. Sözlərin səs tərkibinin dəyişməsi;
3. Sözlərin quruluşca dəyişməsi;
4. Başqa dillərdən söz alınması;

Göstərilən hər üç alda ümumi- əsas məfhumu ifadə edən sözdən həmin ümumi-əsas məhfumla əlaqədar olan məhfumlardan bəzilərini də ifadə etmək üçün istifadə olunur, çoxmənalı söz tədricən omonim sözə çevrilir.

Məsələn: *gün,göy.*

İkinci halda söz əvvəldən ifadə etdiyi köhnəlmiş məhfumla az-çox olan yeni bir məhfumun ifadəçisi kimi də işlənir. Belə vəziyyətdə söz birinci mənada əksərən arxaik olur.

Məsələn: *ox, qızıl, aş*.

Üçüncü halda söz ümumi və geniş mənasını saxlamaqla bərabər, xüsusi və dar məna da kəsbe dir və bu mənada da işlənir. Belə hallar çox zaman ümumi sözlərdən xüsusi adlar düzəltdikdə baş verir.

Məsələn: *gözəl, yaxşı, ulduz.*

II. Sözlərin səs tərkibinin dəyişməsi bəzən omonimlərin azalmasına, bəzən isə omonimlərin yaranıb artmasına səbəb ola bilər. Məsələn: Azərbaycan dilində "ol" sözü həm **III** şəxs və işarə əvəzliyi, həm də "olmaq" məsdərinin əsli kimi işlənərək omonim söz idi; sonralar "ol" əvəzlikləri "o" şəklində formalaşdı və beləliklə "ol" feli ilə omonimlikdən qurtardı. Belə hal xüsusən alınma sözlərlə daha aydın görünür.

Məsələn: *"ağrı" sözü "ağı" şəklində;*
"əhməd" sözü "axmaq" şəklində
"əql" sözü "ağıl" şəklində
"dəva" sözü "dava" şəklində formalaşıb dəyişmiş və Azərbaycan dilində omonimləşmişdir.

III. Sözlərin quruluşca dəyişməsi əsasən morfoloji proses nəticəsində ola bilər: yəni sözə müəyyən şəkilçi artırmaqla yaradılmış yeni quruluşlu söz fonetik tərkibinə görə dildə bu və ya digər sözlə eyniləşərək omonim halına düşmüş olar. Məsələn: *qurum, qırım, parça, çaxmaq və s.*

IV. Alınma sözlər hesabına dildə omonimlər daha çox artır.

Məsələn: *çay, xor, tir, dil, dar, bağ və s.*

Qeyd etməliyik ki, alınma sözlərdən əvvəlki maddələrdə izah olunan hallar baş verə bilir və bu yolla da omonimlər artır. Azərbaycan dilində bir sıra sözlər ya tələffüzcə, ya yazılışca, ya da morfoloji quruluşca omonimlərə çox oxşayır. Belə sözlər dilçilik ədəbiyyatında omofon, omoqraf və omoform adları ilə tanınırlar.

Omofon- yazılışca müxtəlif, tələffüzcə eyni olan sözlərdir.

Məsələn: *aşiq-aşıq, açmaq-aşmaq, od-ot və s.*

Ot kökü üstündə bitər-Ot(d) olmasa tüstü çıxmaz.

Omoqraf- tələffüzcə müxtəlif, yazılışca eyniləşən sözlərdir.

Məsələn: *dava-dava (dəvə)*

O ipək yarpaqlar gözə nur verər. Birinin yarpağı həyat suyudur.

Davadan əvvəl burada təkcə kiçik gəlin səhərlər lap tezdən oyanırdı.

Özündən getmənin dəvası odur.

Omoform- yalnız şəkilcə oxşar olan sözlərdir.

Məsələn: *qara-qara (qar-a)*

Qara bax qara, gör necə yağır.

Tünd qara hisli, qırmızımtıl alovun hənirtisindən lap alçaq tavandan sallanmış qurumlar titrəşirdi. (İ.Hüseynzadə)

Omonimlərdən gülüşlü, çaşdırma və zarafatlı dolamalarda, lətifələrdə, ictimai-siyasi üslubda istifadə olunur.

Verilən bu izahat və nümunələrdən aydın olur ki, omonim sözlərin üslubi məqsədə uyğunluq əsasında istifadə imkanları çoxdur.

Dilimizdə omonimlər daha çox isim və fellərə mənsubdur. Belə ki, dildə bir çox sözlər vardır ki, onlar həm isim, həm sifət, həm də fel olur. Bundan əlavə, başqa nitq hissələrində də omonimləşmə özünü göstərir.

Məsələn: ağ-(sifət-S), açmaq-(fel-F), saç-(isim-İ), Sevil-(İ), sevilmək(F) və s.

Bütün bu deyilənləri ingilis dilinə də aid etmək olar. Yuxarıda qeyd etdiyimiz kimi, eyni cür səslənən, lakin müxtəlif məna verən sözlər omonimlər adlanır. Ominimlərin 2 növü var.

1. Yazılışı eyni olan, lakin müxtəlif məna verən sözlər.

2. Tam olmayan omonimlər. Onlar da 2 yerə bölünür-eyni cür yazılanlar və eyni cür səslənənlər.

Məsələn: bow [N]-kaman; bow [V]-baş əymək.

İngilis lüğəti belə cütlüklərlə zəngindir. Onlar çox az hallarda eyni olurlar. Omonimlərin çoxu fonetik dəyişikliklərlə üst-üstə düşür. İngilis dilində omonimlər aşağıdakıların nəticəsi olaraq əmələ gəlib.

1. Çoxmənalılığın dağılması belə ki, çoxmənalı sözün bir mənası ondan ayrılır və müstəqil sözə çevrilir. Çünki semantik olaraq bu özünün əvvəlki mənasına qayıda bilməz.

Məsələn *" board" is a blank of üord. Then it became "side" of a ship.*

2. Fonetik və morfoloji, bəzən də onların köklərinin müxtəlif formalarla üst-üstə düşməsi nəticəsində.

3. İsimdən felin əmələ gəlməsi nəticəsində.

Məsələn: *stuff -to stuff, water- to water, love- to love və s.*

4. Qısaldılmış sözlər nəticəsində.

Məsələn: *the add-advertisement, exam-examination, frig-refrigeration və s.*

5. Bəzən də alınma sözlər yerli kök sözlərlə omonimlik yaradır.

Məsələn: *ball(eng.) mon, ball(Fr.) bal, maskarad; match-to match*

Omonimlər dilin inkişafı nəticəsində əmələ gəlmişdir. Bəzən omonimlər çox dillərdə elə tez-tez istifadə olunur ki, biz bəzən onların dəqiq harada işlədiyindən xəbərsiz oluruq. Belə ki, omonimlər müxtəlif səbəblərdən əyləncə üçün, üslubi məqsədlər üçün və s. istifadə oluna bilər. Məsələn; *Don't trouble troubles entil trouble troubles you.*

Beləliklə göstərilən misallardan bir daha aydın olur ki, omonimlik istər ingilis, istərsə də azərbaycan dillərində dilin lüğət tərkibinin inkişafına stimul verir və dildə yeni-yeni sözlərin məna çalarları genişlənir. Bildiyimiz kimi söz nitqdə bütöv və sərbəst şəkildə təkrarlana bilən ən kiçik müstəqil səs vahididir. Söz eyni zamanda lüğət tərkibinin vahididir. Sözün bir neçə mənada işlədilməsi ünsiyyət zamanı anlaşılmazlıq törətmir. Əksinə, dilin lüğət tərkibinin inkişafına kömək edir, yəni dilin lüğət fondunun zənginləşməsində omonimlərin rolu danılmazdır.

Müasir ingilis dilində hər kəsin qarşılaşdığı çətinliklərdən biri də eyni yazılışa və ya tələffüzə mali kolan sözlərin fərqli mənalara malik olmasıdır. Tərkibində belə sözlər olan söz birləşmələri və ya cümlələr insanları çətinlik qarşısında qoyur, belə ki, sözləri tərcümə edərkən ifadənin tam mənasını başa düşmək mümkün olmur: I can not open this can without your help – göründüyü kimi, bu ifadədə iki can sözü işlədilmişdir. Birinci halda bu, Azərbaycan dilinə bilmək, bacarmaq kimi tərcümə olunan modal fel, ikinci halda isə dəmir banka (konserv) kimi tərcümə olunan isimdir.

I rose a rose near my house yesterday – bu nümunədə birinci halda rose – rise felinin keçmiş qeyri-müəyyən zaman forması, ikinci halda isə rose – qızılgüldür. Təbii

ki, verilmiş nümunələrdəki omonimlərin yalnız birinin mənasını bilmək cümlənin tam mənasını anlamaqda çətinlik yaradır.

Dildə omonimlərin mövcudluğu dilin, onun lüğət tərkibinin zəruri inkişafı ilə bağlıdır. Omonimlər dildə müxtəlif yollarla yarana bilər.

1. Əcnəbi dillərdən alınan sözlərlə dildə mövcud olan sözlər arasında yazıda və səslənmədə formal uyğunluq yaran bilər. Belə uyğunluq dildə omonimlərin sayını artırır. Dillərdə belə uyğunluğa tez-tez rast gəlinir.

ƏDƏBİYYAT:

1. Amasova N.N. Müasir ingilis dilinin lüğət tərkibinin etimoloji əsasları. M.: Xarici dillər ədəbiyyatı nəşriyyatı, 1956.
2. Arakin V.D. İngilis dilində omonimlər. İYŞ, 1958, №4.
3. Arakin İ.D. İngilis və rus dillərinin müqayisəli tipologiyası. L., 1989.

P.MAMEDZADE

THE HOMONYMOUS WORDS IN THE ENGLISH AND AZERBAIJANI LANGUAGES

SUMMARY

The article deals with the homonymous structure of the English and Azerbaijani languages. All the meanings and forms of the word have their own specific features. It is known that most words convey several concepts and they possess the corresponding number of meanings. Words the same in sound form, but different in meaning are called homonyms. Homonyms are the words with the same pronunciation but different in spelling an meaning. They play an important role either in English or in Azerbaijani. They help to enlarge the vocabulary structure of both languages.

П.МАМЕДЗАДЕ

ОМОНИМИЧЕСКИЕ СЛОВА В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Омонимы встречаются в английском языке часто и это достаточна интересная тема. Омонимы – это слова, которые имеют одинаковое написание и звучание, но разные смысловые значения. На сегодняшний день омонимы в английском языке гораздо больше чем в азербайджанском языке. В статье автор также рассказывает о классификации омонимов и различает омофоны (фонетические омонимы), омографы (графические омонимы).

Rəyçi: Nuriyyə Rzayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

RÜBABƏ MUSAYEVA
ADİU
rübabə.@.mail.ru.

İNGİLİS DİLİNİN SİNTAKSİSİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏ DAXİLİNDƏ TƏYİN BUDAQ CÜMLƏLƏRİNİN ROLU VƏ FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *təyin budaq cümləsi, tabeli mürəkkəb cümlə ,məhdudlaşdırıcı təyin budaq cümləsi ,bağlayıcı ,sintaktik qayda*
Key words: *the attributive subordinate clauses,the compond sentence, appositive attributive claauses ,particle,syntactical norms.*
Клочевые слова: *придаточное определительное, сложное предложение, союз, синтаксические нормы, отделительное придаточное определительное*

Sintaksis sözlərin birləşməsi qaydalarından ,söz birləşmələrindən ,cümlə və onun növlərindən bəhs edir.Söz birləşmələri kimi cümlə problemi də dilçilikdə mühüm məsələlərdən biri hesab olunur.Mürəkkəb cümlə problemi hələ də bir çox dilçi alimləri maraqlandırmaqdadır.Əvvəlcə sadə cümlələr bərabər hüquq əsasında birləşərək tabesiz mürəkkəb cümlələri əmələ gətirmiş ,tədricən hadisələr arasında ziddiyət, səbəb, şərt, nəticə, qoşulma və s. əlaqələr dərk olunduqca ,yeni sintaktuk modellər yarandıqca tabeli mürəkkəb cümlələr də formalaşmağa başlamışdır. Tabesiz mürəkkəb cümlə tərkibindəki sadə cümlələr bir- birinə bağlayıcılarla , bağlayıcı zərflərlə və intonasiya vasitəsi ilə bağlanırlar.

Tabeli mürəkkəb cümlə tərkibində budaq cümlə baş cümləyə iki yolla bağlanır: tabelilik bağlayıcıları vasitəsi ilə və heç bir bağlayıcı olmadan.

Təyin budaq cümləsi baş cümlədə isimlə yaxud əvəzliklə ifadə edilmiş hər hansı bir üzvə aid olur ,onu təyin edir.Təyin budaq cümləsi baş cümləyə nisbi əvəzliklə və nisbi zərflərlə bağlanır.Təyin budaq cümləsi iki cür olur : məhdudlaşdırıcı təyin budaq cümləsi və təsviredici təyin budaq cümləsi.

Məhdudlaşdırıcı təyin budaq cümləsi təyin olunan sözü mənaca lokallaşdırır ,dəqiqləşdirir və müəyyənləşdirir. Məhdudlaşdırıcı təyin budaq cümləsi ilə baş cümlə arasında ,bir qayda olaraq ,vergül qoyulmur.Təsviredici təyin budaq cümləsi təyin olunan söz haqqında əlavə informasiya verir.Təsviredici təyin budaq cümləsi baş cümlədən vergüllə ayrılır.

Təyin budaq cümləsinin tabeli mürəkkəb cümlədə yeri ,mövqeyi haqqında bir neçə bəzi fikir söyləmək lazımdır.Bir çox hallarda təyin budaq cümləsi təyin edilən sözdən sonra durur. Ancaq bəzən elə hallar olur ki, tərkibində ismi olmayan bir neçə söz birləşmələrindən sonra da gələ bilər.

Təyin budaq cümləsini təqdim edən nisbi əvəzliklər **(whom, whose , which,that,as)** məhdudlaşdırıcı təyin budaq cümləsini baş cümləyə bağlayır.Əgər nisbi əvəzlik sözönü ilə işlənirsə , sözönü budaq cümlənin axırında feldən sonra durur.

Məsələn: **The girils that I work are having lunch**.

–Mənimlə işləyən qızlar lanc yeyirlər.

Təyin budaq cümlələridə **who** əvəzliyinin obyrkt halı olan **whom** və **which** əvəzlikləri çox vaxt **that** əvəzliyi ilə əvəz olunur.

–Məsələn **: A letter that (which) is written in pencil is difficult to read.**

İngilis dilində **"appositive attrubutive clauses"**adlanan budaq cümlələri də var ki,onlar baş cümlədə olan hər hansı bir ismin əlavəsi kimi işlənir.Bu halda təyin olunan söz çox vaxt mücərrəd isimlə ,yəni **idea,chance , method**, **way, statement, fact** və s. sözlərlə ifadə olunur. Bu zaman budaq cümlə baş cümləyə bağlayıcələrla bağlanır və heç zaman cümlədən atıla bilməz .

Məsələn: "**appositive attrubutive clauses**" adlanan budaq cümlələri də var ki,onlar baş cümlədə olan hər hansı bir isimin əlavəsi kimi işlənir.Bu halda təyin olunan söz çox vaxt mücərrəd isimlə ,yəni **idea,chance ,method , way, statement , fact** və s. sözlərlə ifadə olunur.Bu zaman budaq cümlə baş cümləyə bağlayıcılarla bağlanır və heç zaman cümlədən atıla bilməz. *(Hichens).*

O, ispan apabaçılarının Əlcazairdə oxuduğu kimi ucadan mahnı oxuyurdu.

b) A week later Dorian Gray was at his house in the country, where he had invited Lord Henry and several other friends.

Bir həftə sonra Dorian Qrey Lord Henrini və bir neçə dostunu dəvət etdiyi kənd evində idi .

That was the time when thousands of workers in the area were streaming out of the plants. *(Carter).*

Bu, həmin diyarda minlərlə işçinin zavodlardan axışdığı bir vaxt idi.

I don 't lıke the method how he explained the matter .But he could see now no reason why he should not smoke. *(J.london)*

Mən onun məsələni izah etdiyi metodunu xoşlamıram .Ancaq o nəyə görə siqaret çəkməyəcəyinin səbəbini bilmirdi.

Məsələn :**The fact that he has not said anything surprises everbody** - Onun heç nə deməməsi faktı hər kəsi təəcübləndirir.Beləliklə ,tamamilə aydındır ki,nisbi əvəzliklər təyin budaq cümlələrini baş cümləyə bağlamaq üçün işlənir və bağlayıcılardan olunan təyin budaq cümləsində fərqlənir ki, onlar həm də bir cümlə üzvü kimi çıxış edə bilirlər.

Əvəzliklərin işlənməsində aşağıdakı qaydalar nəzər salaq .

1) **Who (whom),whose, which** sual əvəzlikləri orta əsrlər ingilis dilində nisbi əvəzliklər kimi işlədilmişdir.Erkən orta əsrlər ingilis dilində **that** geniş işlənmişdir,lakin indi **wh** əvəzliklərinin , xüsusilə ,canlılara aid olan **who** əvəzliklərinin işlədilməsinə geniş meyil var.

2) Heyvan,bəzən kişi və ya qadın cinsinə aid olduqda who əvəzliyi işlənir.Lakin bu qayda bəzən pozulur və biz tez-tez **which** əvəzliyinin kişi və ya qadın cinsi ilə , **who** əvəzliyinin isə orta cinslə əlaqələndiyinin şahidi oluruq.

3) Ölkə adları coğrafi nöqteyi nəzərdən götürüldükdə **which** əvəzliyi , siyasi anlayış kimi götürüldükdə isə **who** əvəzliyi işlənir.Lakin bununla belə həmin məsələdə həddindən artıq tərəddüdlər var.

4) Əgər kollektiv isim bütöv bir toplumu bildirirsə **which** əvəzliyinin (fel təkdə); ayrı-ayrı şəxsləri nəzərdə tutursa **who** əvəzliyini işlədirik(fel cəmdə).

5) Poeziyada əşyaları təcəssüm etdirmək üçün **who** əvəzliyindən istifadə edilir.

6) Əgər təyin olunan söz peşə ,şəxsiyyət ifadə edən ismi xəbərdirsə , onda **which** və ya **that** işlənir . Təyin etdiyi söz kimi **which** əvəzliyinin də sifəti

predifakatı və ya bütöv bir cümləsi ola bilər .Belə olan halda baş cümləyə which - lə bağlanan budaq cümlələr həmişə təsviredici olur.

7) Orta əsrlər ingilis dilində və erkən müasir ingilis dilində **that** həmişə nisbi əvəzlik kimi işlənmişdir.İndi **that** təsviredici təyin budaq cümlələrində nadir hallarda işlənir və hətta məhdudlaşdırıcı təyin budaq cümlələrində belə , who əvəzliyinin işlədilməsinə güclü ,that əvəzliyinin yalnız əşyalara uyğun olaraq işlədilməsinə isə nisbətən az meyl var.Lakin **that** əvəzliyinin insanlara və əşyalara aid olaraq sərbəst işləndiyi bəzi nümunələr var.

Təyin budaq cümləsində **that** tez-tez işlənir:

a)aşağadakı əvəzliklərlə: **all ,everything, nothingle, something, anything, much, little ,few**

b)Üstünlük dərəcəsi və the **first** - lə.

Təyin budaq cümlələri nisbi zərflərdən sonra işlənir.Nisbi əvəzliklərdən başqa nisbi zərflər də təyin budaq cümləsini baş cümləyə bağlaya bilər.Nisbi zərflər zaman ,səbəb ,yer və tərzi hərəkət mənaları olan isimlərdən sonra işlənilir. **When , where, how , why**, nisbi zərfləri təyin budaq cümlələrində işlənməsə də nəzərdə tutula bilər.

Təsviredici təyin budaq cümlələrində bu zərflərin işlənməsi vacibdir,çünki belə təyin budaq cümlələri bağlayacısız birləşə bilməz.

Əlavə kimi işlənən **Appositive Attributive Clauses** də həmçinin **when, where, how , why** sözləri ilə baş cümləyə bağlanır.

Təyin budaq cümlələri tabelilik bildirən **that, if , whether, as if, as though** bağlayıcıları ilə də baş cümləyə bağlana bilər.Bu bağlayıcılar **Appositive Attrubutive Clause** - larda daha çox işlənir .That bağlayıcısı təyin budaq cümləsini təqdim edəndə təyin olunan söz mücərrəd isimlərlə istifadə olunur :məsələn- **idea,thoufh,fuling ,impression ,doubt ,belief ,wish** , və s.

Məsələn:He calm heart couldn t bear the thought that Ann was lying there so cold - Onun sakit ürəyi Annsnın buz kimi orada uzanmasına dözmədi.

Baş cümlədə təyin olunan söz əlava kimi işlənən təyin budaq cümləsi **as if, as thought** ilə də bağlana bilər və cümlədən atıla bilməz.Belə cümlələr bağlayıcılarla yanaşı,bağlayıcı sözlərlə də bağlana bilər. Belə cümlələr vergüllə ayrılmır və bağlayıcı element olmadan işlənmir. Qeyd etdiyimiz kimi, təyin budaq cümləsi bağlayıcısız əlaqədə olanda iki mübtəda yanaşı gələ bilər.Ondan sonra isə iki müxtəlif cümlələrin xəbərləri yanaşı gəlir.

Wh, Whic,That əvəzliklərinin təyin budaq cümlələrində işlənməsi.

Əvəzliklərin işlənməsində aşağıdakı qaydalara nəzər salaq:

1)Who (whom),whose,which sual əvəzlikləri orta əsrlər ingilis dilində nisbi əvəzliklər kimi işlədilmişdir.Erkən orta əsrlər ingilis dilində that geniş işlənmişdir,lakin indi wh-əvəzliklərinin,xüsusilə canlılara aid olan who əvəzliyinin işlədilməsinə genis meyl var.

Məsələn:Miss Noylor,who had gone into the house, came back...

(J.Galsworthy).

Evə daxil olmuş xanım Naylor çölə çıxdı.

About this time Mrs. Decie ,his wife's sister, whose husband died in the East, returned to England. (*J.Galsworthy)*

Elə bu zaman arvadının bacısı, əri Şərqdə ölmüş xanım Desi İndiltərəyə qayıtdı.

This room,which served for studio, bedroom and sitting room, was bare and dusty.

(J.Galsworthy).

Studiya, yataq otağı və qonaq otağı kimi istifadə edilən bu otaq bəzəksiz və tozlu idi.

... the breeze that blew up the narrow street was fresh with the smell of the harbour.

(Cusack)

Darısqal küçədən əsən xəfif külək tərafətli dəniz ətri saçırdı.

2)Heyvan kişi və qadın cinsinə aid olduqda who əvəzləyici ,orta cinsə aid olduqda isə which əvəzliyi işlənir .Lakin bu qayda bəzən pozulur və biz tez-tez which əvəzliyinin kişi və ya qadın cinsi ilə who əvəzliyinin isə orta cinslə əlaqələndiyinin şahidi oluruq .

Məsələn :All at once I remembered that It might be Pilot :who when the kitchen – door chancedto be left open not unfrequently found his way up to the threshold of Mr.Rochester' s chamber. *(Ch.Bront)*

Dərhal xatırladım ki,bu,mətbəx qapısı təsadüfən açıq qalanda tez-tez yolunu cənab Roçesterin otağının astanasından salan Paylot ola bilərdi.

James ... shifted his feet uneasily ,and put one on the cat which had unwiscly taken refuge from old Jolyon beside him . *(J.Galsworthy).*

Ceyms narahatlıqla ayaqlarının yerini dəyişdirdi və ayağının birini böyründəki qoca Calyondan qaçıb canını qurtaran axmaq pişiyin üstünə qoydu.

3)Ölkə adları coğrafi nöqteyi nəzərdən götürüldükdə which əvəzliyi, siyasi anlayış kimi götürüldükdə isə who əvəzliyi kimi işlənir.Bununla belə həddindən artıq tərəddüd var.

Məsələn: For travelling I prefer Norway ,which is more mountainous than Sweden .

Səyahət üçün İsveçdən daha dağlıq əraziyə malik olan Norveçi üstün tuturam.

4) Əgər kollektiv isim bütöv bir toplumu bildirirsə which əvəzliyini (fel təkdə); ayrı- ayrı şəxsləri nəzərdə tutursa who əvəzliyini işlədirik(fel cəmdə)

Məsələn :The commission which consisted of ten members ,was unanimous in its decision .

On üzvdən ibarət olan komissiya öz qərarında yekdil idi.

The crew ,who were all asleep, forgot to hoist a lantern.

Yatmış dəstə üzvləri fənər yandırmağı unutmuşdular.

5)Poeziyada əşyaları təcəssüm etdirmək üçün who əvəzliyindən istifadə edilir.Məsələn:

And narcissi , the fairest among them all ,
ho gaze on their eyes in the stream 's recess,
Till they die of their own dear loveliness. *(PM.Shelley)*

6)Təyin olunan söz peşə ,şəxsiyyət ifadə edən isimi xəbərdirsə ,ona which və that işlənir.

Məsələn :He is not the man which you think him to be.

O sizin düşündüyünüz kimi deyil.

He is not the man whom you think him to be.

O zənn etdiyimiz adam deyil .

Təyin etdiyi söz kimi, which əvəzliyində də sifəti – predikiaktivi və ya bütöv bir cümləsi ola bilər. Belə olan halda baş cümləyə which -lə bağlanan budaq cümlələr həmişə təsviredici olur.

Məsələn :It was evedent ,indeed ,that she wished me to drop the subject, which I did accordingly.

ƏDƏBİYYAT

1. Barabash T.A.-A Gulide to Better Grammar - M; Visshaya Shkola .1975.
2. Ganshina M.,Vasilevskaya N;English Grammar.- M:1964.
3. İvan Michael.Practical English Usage.-M:Visshaya Shkola .1984.
4. Musayev O.İngilis dilinin qrammatikası .Bakı,1986
5. Əliyeva Ə.Tabeli mürəkkəb cümlələr və onların xüsusiyyətləri .Bakı :Maarif 1992.

R.MUSSAYEVA

THE GRAMMATICAL FEATURES OF ATTIBUTIVE SUBORDINATE CLAUSES IN THE ENGLISH LANGUAGE

SUMMARY

In the English language the attributive subordinate clauses are connected by means of particles or without them .In the majority of cases the attributive subordinate clause comes after the word which it defines .

In translations of English sentences with attributive subordinate clauses we must observe the syntactical norms of this language.

The article deals pith the definitional compound sentences in the content of complex sentences in English language awol their mutnalities in Azerbaijani.

Р.МУСАЕВА

ГРАММАТИЧЕСКИЕ ОСЕБЕННОСТИ АТРИБУТИВНОГО ПОДЧИНЕННОГО ПОЛОЖЕНИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В ангилийском языке часте сложных предложений с определительными придаточными соединяются с помощью союзов или без них.

В большинстве случаев придаточные определительные следуют за словами , которые они определяют суть и мотивы придаточного предложения.

В переводе английских предложений придаточными определительными следует соблюдать синтаксические нормы ангилийском языка.

Rəyçi: Yusif Süleymanov
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

SEVİNC YUSİFOVA
ADİU
sevinc.@.mail.ru.

AZƏRBAYCAN DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ İNGİLİS DİLİ VƏ BAŞQA QƏRBİ AVROPA MƏNŞƏLİ ALINMALARIN ROLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: *dilçilik, Azərbaycan dilçiliyi,söz yaradıcılığı, söz alma , alınma söz*
Key words: *linguistics, Azerbaijani linguistics, creative expression, borrowed word*
Ключевые слова: *языкознания, азербайджанское языкознание, творческое выражение, заимствованная*

Hər bir dil üçün mənsub olan sözlərin necə yarandığı, ilk dəfə hansı mənada işləndiyi, yaranma və inkişaf prosesini bütünlüklə özündə əks etdirir. Dildə mövcud olan sözlərin hamısı dilin lüğət tərkibini yaradir.Bu tərkib nə qədər zəngin olarsa ,dil bir o qədər zəngin hesab olunar .Dil və onun daxili inkişaf qanunlarına cəmiyyətdə baş verən yeniləşmələr ciddi təsir göstərir. Bu yeniliklər dünyada, o cümlədən dilimizin lüğət tərkibində müxtəlif istiqamətlərdə də dəyişikliklər yaradır. "Dil ictimai bir hadisədir. o, cəmiyyətlə birlikdə yaşayır və inkişaf edir. İctimai-iqtisadi, siyasi əlaqələrin dəyişməsi, elm, texnika və mədəniyyət sahəsində arası kəsilməyən yeniliklərin yaranmasi ilə əlaqədar olaraq dildə yeni-yeni sözlər meydana gəlir. Dilin lüğətinə daimi bir dəyişmə, artma və zənginləşmə prosesi gedir " (1.63)

Dilin` lüğət tərkibinə daxil olan sözlərin hamısı heç də hamı tərəfindən mənimsənilib, istifadə olunmur. Peşəsindən, təhsilindən asılı olaraq hər bir şəxsin özünün də özünəməxsus lüğət fondu var. Lakin dilimizdə elə sözlər var ki, hamı tərəfindən başa düşülür və mütamadi işlənir. Məs: ana, ata, xala, Bibi,çörək, at, it, məktəb, təhsil, uşaq, müəllim, fəhlə və s. Dilin əsas lüğət fonduna bir dildə danışan adamların hamısına məlum olan və hamı tərəfindən sistematik şəkildə işlədilən söxlər daxildir. Dildə istifadəsinə görə lüğət tərkibi aktiv və passiv sözlər olmaqla iki hissəyə ayrılır. Alimlərin fikrinə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, dilin lüğət tərkibinin özəyini dilin əsas lüğət fondu və ya lüğət tərkibini əsas hissəsi təşkil edir. Passiv sözlərə isə diqqət yetirsək görərik ki, bu fondda əsasən köhnəlmiş və yeni sözlərə təsadüf edilir. Dilin əsas lüğət fondu dilin lüğət tərkibinin əsasını təşkil etsə də ondan bir çox cəhətlərinə görə fərqlənir.

Bu gün Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibindəki sözlər mənşəcə iki qrupa bölünür; Azərbaycan sözləri və alınma sözlər. Azzərbaycan sözləri Azərbaycan dilinin özünəməxsus sözləridir və bu sözlər xalis Azərbaycan sözləri adlanır. Azərbaycan sözlərinin özü də dilçilər tərəfindən müəyyən qruplara bölünmüşdür. Beə ki, S. Cəfərov öz Leksikologiya əsərində xalis Azərbaycan sözlərini monqol dili ilə ortaq sözlər, qıpçaq qrup dilləri ilə ortaq sözlər, oğuz qrupu dilləri ilə ortaq sözlər, ümumtürk dilləri ilə ortaq olan Azərbaycan sözləri olmaqla 4 qrupa bölmüşdür. (1.s.41.42) B.Xəlilov isə fərqli olaraq əsl Azərbaycan sözlərini belə bölmüşdür.

1.türk dilləri ilə ortaqlı olan sözlər 2.həm türk, həm də monqol dilləri ilə ortaqlı olan sözlər 3.Şumer dili ilə ortaqlı olan sözlər 4. Xüsusi Azərbaycan sözləri (2.s.27-38)

Dünya dillərinə nəzər yetirsək görərik ki, bu gün heç bir dil tamamilə öz sözlərindən ibarət deyil. Bütün dillər mütləq şəkildə bir-birinə söz alıb, vermişdir.

Dilimizin lüğət tərkibində də xeyli sayda alınma leksemlər mövcuddur. Bu gün Qərbə inteqrasiya , elmi-texniki inkişaf , baş verən yeniliklər bir çox alınmaların yaranmasına səbəb olur. Dilin lüğət tərkibinin zənginləşməsində alınmaların rolu danılmazdır. Dillərarası əlaqələrin kökünü araşdırsaq görərik ki, bu tarix çox qədimdir.Belə ki, məntiqi təfəkkürün formalaşdığı , xalqlar arasında yaranan iqtisadi və hərbi əlaqələrin meydana gəldiyi dövrdən dillər arasında da müəyyən münasibətlər yaranmağa başlamışdır.

İbtidai dövrlərdə sözalmanım özü də ibtidai səviyyədə idi. Müharibələr, dinin yayılması hərəkatı baş verdikcə dilə zorakı yolla daxil olan sözlərin sayı artmağa başlayırş Misal olaraq İslam dininin yaranması ilə ərəb dilinin Müsəlman ölkələrinin dillərinə nüfuz etməsini göstərmək olar.

İslamdan qabaqkı dövrlərə aid abidələrin məhvi, kitabələrin və əlyazmaların baxımsızlığı ərəb xilafətinin məqsədli siyasəti idi ki, bunun sayəsində ərəb dilindən yeni leksik vahidlərin qəbulu zəruri hal almağa başlayir.

Alimlərin tədqiqinə nəzər yetirəndə məlum olur ki, sözalmanın ən mühüm şərti ünsiyyətdə olan dillərin rəsmi statusu və nüfuzluluğu sayılır, bu isə kammunikativ funksiyaların həcmi, ədəbi ənənələrin qədimliyi, dil daşıyıcılarınının sosial mövqeyi ilə müəyyən edilir.

Akad M.Z. Cəfərov buna əks olaraq bildirir ki,dillərin ünsiyyəti azad əlaqələrdə təzahür edir və heç bir dil öz sözlərini başqasına zorla etdirmir.(3.s.6)

Lakin tarixi keçmişə nəzər saisaq görərik ki, dilin zorka qəbul edilmə faktları var.

Elə dilimizin küğət tərkibinə nəzər salsaq görərik ki. Rus imperiyasının tərkibində olduğumuz dövrlərdə aparılan qərəzli dil siyasətinin nəticəsidir ki,bu gün dilin lüğət tərkibi kifayət qədər rusizmlərlə zəngindir. Lakin bununla yanaşı unutmaq okmaz ki,ən qatı dil siyasitinə sinə gərən, ona kəskin müqavimət gösərə bilən dillər də mövcuddur. Məsələn; Malayziyada ingilislərin hökmranlığı dövründə malay dilinə çox cuzi miqdarda ingilis leksemləri daxil olub.İşgaldan sonrakı dövrlərdə ingilis dilindən yerli dilə külli miqdarda söz alınıb.(4.s.79-80) Buradan belə nəticəyə gəlmək olar ki, dilə yeni sözləri gəlməsi ticari və məişət məsələləriylə də bağlı ola bilər. Fransız alimi V.Q.Qakın dili ilə desek "sozlərin alınmasında hər şeydən əvvəl, ticarət əlaqəsi öz əksinimn tapır.Müharibələr də sözalmanı stimullaşdırır" (5.s.92-93)

Dilçilik ədəbiyyatında söz alma hadisəsi ilə bağlı bir sıra dolaşıq fikirlər mövcuddur. Abbasova B. Iddia edir ki, alınmaların leksik alınmalar, fonetik alınmalar, orfoqrafik və qrafik alınmalar, semantik alınmalar, morfoloji alınmalar, sintaktik alınmalar və s.bölgüsü əslində dildə baş verən hadisəni düzgün ifadə etmir və alınma anlayışı ilə dilə təsir hadisəsinin eyni tutulmasına xidmət edir.(6.s.14)

Qarayev A.H. isə yazır: "Alınma dildə xarici amilləri, yəni başqa dil ünsürlərinin qrafik, semantik , morfoloji və sintaktik sahələrində özünü göstərən başqa dil təsirlərinin məcmusu kimi başa düşülməlidir. (7.səh 4-5). H. Həsənov isə daha konkretləşdirərək alınmalara sadə tərif verir: "Bir dildən digərinə müxtəlif ünsürlərin, söz, morfem, səs və mənanın keçməsi adlanır".(8.səh.71

Tədqiqlərə baxsaq görərik ki, "alınma" və "alınma söz" termini fərqli anlayışlardır. "Alınma söz" alınma termin adı altında ümumiləşdirilməlidir. Çünki dil sözdən əlavə səs, morfem və digər ünsürlər də alır ki, bunları sözlə qarışdirmaq olmaz. Hər ikisi nin, alınma alınma sözün dilə keçməsi ayrı-ayrı zərurətdən irəli gəlir.

N.Xudiyevin fikrincə "Alınma terminin özü iki mənadadır. Birinci halda bu termin başqa dildən keçib daxil olduğu dili zənginləşdirə linqivistik vahid mənasını

bildirir. Geniş mənada "alınma" bir dildən başqa dilə söz keçmə prosesini göstərir. Beləliklə, ikinci mənada bu proses, birinci mənada isə bu prosesin nəticəsini bildirir. "Alınma" termini mənaca "alınma söz" terminindən genişdir."Alınma söz" termini isə "əcnəbi söz" termini ilə eyni mənada işlədilə bilməz.(9.s.226-227).

Sözsüz ki,alınma sözlərlə əcnəbi sözlər eyniləşə bilməz. Çünki alınmalar assimilyasiya yolu ilə olsa bele dildə mənimsənilir,əcnəbi sözlər isə ədəbi dilə daxil ola bilmir, yalnız üslubi məqsədlə bədii nitqdə işlədilir.

Ə.Dəmirçizadə alınma sözləri şərti və nisbi olmaqla 2 qrupa ayırır və onları belə izah edir; Alınma söz anlayışı həm mürəkkəb həmdə şərti bir anlayışdır Müasir Azərbaycan dilinin üsbubiyyatında alınma sözlər dedikdə,əsasən,başqa dillərdən alındığı dərin tarixi tədqiqat aparmadan məlum olan və üslubi məqsədə uyğunluq çalarlığı nöqteyi-nəzərindən mənşə mənsubiyyətinə görə xüsusiyyət təşkil edən sözlər nəzərdə tutulur.(10.s.91)

Dil əlaqələri sözalma proseslərindən danışarkən bilinqvizm və polinqvizm haqqında danışmaq lazım gəlir. Alınmaların tədqiqini araşdırsaq görərik ki, bu barədə ilk tədqiqat aparmış dilçi H.Paul olmuşdur. Onun fikrincə alınma teoremini altında dillərçarpazlaşmış və ikidillilik yaranmışdır.

Bu gün Azərbaycanda ancaq şərti olaraq ikidillikdən istifadə. İmperiynın mstəmləkəsində olduğumuz dövrdən bu günnə kimi rus dilinin təsirini hiss etməkdəyik. Lakin əhalinin müəyyən qismi həm rus, həm azərbaycan dilində danışdığı üçün tam olaraq ikidillikdən söhbət gedə bilməz. Əgər hamılıqla iki dildə danışılardısa bu zaman ikidillilik olduğunu demək olardı." Ədəbi dillər genetik cəhətdən şəhərlərlə bağlıdır" (11.s.125) fikri ilə razılaşmamaq olmur. Belə ki, günümüzdə də ikidillilik şəraitinin olduğu yer paytxt Bakı olaraq qalır.Ərəb istilası dövrünə nəzər yetirsək məlum olur ki, müəyyən müdət ərəb və fars sözləri avtoxton dilinin zənginləşməsində böyük rol oynasa da, əyalətlərə geniş müdaxilə edə bilmirdi. Çünki, ərəbizm və farssizmlər əsasən ziyalı dilində özünə yer edirdi.

Alınma söz, alınma termin məsələləri rus dilçiliyində daha dərin və çox əvvəl öyrənilməyə başlanmışdır. Rus dilçilərinin fikirlərinə diqqət etsək bəzi məqamlara dəqiqlik gətirmək olar. Dilçi A.P.Krısın alınma sözlərin dilə gəlməsinin 6 şərtini göstərir:

1)Sözalan dildə alınma sözlərin fonrtik və qrafik uyuşması

2)Sözalan dildə qrammatik kateqoriyalarla alınma sözlərin əlaqələndirilməsi

3)alınma sözlərin fonetik mənmsənilməsi

4)alınma sözlərin qrammatik mənəimsnilməsi

5)alınma sözün söz yaradıcılığındakı aktivliyi

6)alınma sözlərin semantik mənimsənilməsi (12s.35)

Ümumiyyətlə bir dilin başqa dildən söz almasının səbəbləri vardır ki, bunu da dilçilər iki qrupa bölüblər; dildaxili vədilxarici səbəblər. Ddilxarici səbəblərə hakim dövlətin dil siyasəti, hər hansısa dövlətin elm, texnologiya,iqtisadi, sosial, mədəniyyət baxımıdan inkişafı nəticəsində yeni nailiyyətlərin əldə olunması və bunun başqa xalqlara yayılması aid ola bilər. Dildaxili səbəb kimi aşağıdakı bölgünü göstərmək olar:

1) ana dilində yeni predmet və hadisənin adlandırılması üçün ekvivalent sözün olmaması

2) ifadə olunan anlayışın üzvlənməsinin ifadə edənin üzvlənməsinin müvafiqliyi tendensiyası

3) lüğətvahidləərinin kommunikativ dəqiqliyinin artırılması və ya saxlanması tendensiysı

4) müvafiq mənanın müfəssəlləşdirilməsi, bəzi məna çalarlarının başqa sözlərə qoşaraq məhdudlaşdırılması tələbi

5) ekspressivliktendensiyası; bu zaman üslubi sinonimlər nümunələrin sayının artıırılmasına xidmət edə bilər

6) sözalan dildə alınma sölərlə eyni tipli struktura malik sözlərin mövcudluğu

7) sözalan dildə tərkib elementlərindən birinin üzvlənə bildiyi sözlərin topluluğu

8) əcnəbi sözdən derivatların yarana bilditi onun implisit söz yaradıcılığında iştirak etdiyi halda, ana dilindəki sözün bu cəhətdən zəif olması

Bu gün dünyada yeni hadisələr, irəliləyişlər baş verməkdədir. Bütün bunların adlandırılması isə bir dilin imkanları daxilində ola bilməz. Buna görə də yeniliyi yaradan xalqın dilinə müraciət edilir. Məs: televizor, video, kompyuter, disk, fotoaparat. Lakin yeni innovasiya yarandığı ölkənin sərhədlərini aşa bilmirsə, söz dildən alınır və ekzotizm kimi işlənir. Məs: Rusiya imperiyasının kolxoz təsərrüfatının almanlara, ingilislərə heç bir dəxli olmadığından bu söz ekzotizm səviyyəsinə qalxa bilmir. Dilçilikdə məcburi sözalma anlayışı vardır ki, bu proses dilin lüğət tərkibinin zənginləşməsinə, böyük köməklik göstərir. XIX əsrin sonu və XX əsr demək olar ki, yeni kəşflərin çoxaldığı günü gündən artdığı dövrdür. Sözsüz ki, yeni innovasiyaların belə sürətli inkişafı hər bir xalqın dilinin öz daxili imkanları şəraitində söz yarada bilməsinin qarşısını alır. Belə ki, bu elmi texniki tərəqqi bir-birinin ardınca sürətli yox, müəyyən illər, yüz illər ərzində baş versə idi, bəlkə də onları hər bir xalq öz dilində adlandıra bilərdi. Lakin baş verənlər yeni sözlərin bütün dünya dillərinə yayılmasını zəruriləşdirir. Məs:investisiya, birja, faks, menecer, printer, fizioterapiya vəs.

Bu barədə rus dilçisi Y.D.Polivanov yazır: ”Söz adətən o dildən götürülür ki, həmin dil özü anlayışın yayıcısı olmuş olsun”. (12.s.137) Ümumiyyətlə ehtiyac və zənginləşmə naminə baş verən sözalma prosesinin dilə ziyanı olmur. Əlbəttə ki, alınmış söz assimilyasiyaya uğramır, işləklikdən qalır, dilə uyuşmursa onsuz da lüğət tərkibindən çıxmağa məruz qalır.

Rus dilçiləri alınma və alınma söz problemini linqivistik, eyni zamanda sosial hadisə kimi qiymətləndirir və sözalma prosesi olmadan hansısa dilin inkişsfını mümkünsüz hesab edirlər. B.A.Serebrennikovun fikrincə “Yad söz daha ekspressiv görünür və bu cəhətdən tanış və adi milli sözdən üstündür”.(13.s.82) Alimin fikri ilə tam razılaşmaq mümkün deyil, çünki “ekspressiv” görünən hər sözün dilə qabulu bəzən dili çirkinləşdirə bilər. Dilə daxil olan sözlər mütləq dil qanunlarına tabe olmalı, dilə uyuşmalıdır. Bəzən elə olur ki, dilə gələn alınma söz öz səs tərkibini elə dəyişir ki, onu alınma kimi qiymıtlındirmık çox çətin olur. A.S.Çikobava doğru izah edərək yazır: “Çoxdan dilə keçmiş sözləri “yad” və “öz” sözləri ilə ayırmaq asan deyil. Bu sözün dil sahəsində uzun bir yol keçdiyinin göstəricisidir və tarix üçün qiymətlidir”.(14.səh14)

Alınmaları tədqiq edən alimlərdən İ.M.Kreyn sözalma hadisəsini “bir dilin təsiri altında başqa bir dilin lüğət tərkibinin zənginləşməsi” adlandırır. (15.səh.11) Lakin Kreynin bu fikri ilə razılaşmayan T.R.Yaqubova yazır: “Tədqiqatçıya görə alınma bir dilin digər dilə təsiri nəticəsində meydana çıxır. Bu fikir doğru deyil. Bu gün tibb terminlərinin 90%-i latın dilinə məxsusdur və bu onu sübut etmir ki, latın dili ingilis dilinə təsir edir. Axı bu gün latın dili yoxdur”. (16.səh.20) Dilçi T. Yaqubovanın bu fikri ilə razılaşmalı olsaq , belə bir fikir ortaya çıxar. Əgər bu gün hansısa bir dil və yaxud onun təsir qüvvəsi yoxdursa demek olmaz ki,nə vaxtsa həmin dilin axtoxton dilə

təsiri olmayıb.Əslində alınma sözlər i araşdırarkən,ölü dillərdən də alınmış kifayət qədər söz göstərmək olar.V ə yaxud bu gün ərəb və fars sözlərinin dilə qəbulu və yaxud təsiri yox səviyyəsindədir,lakin lüğət tərkibinə baxsaq xeyli ərəbizm,farssizmlərlə qarşılaşırıq.Deməli,bir dilin hansısa dilə təsir qüvvəsini tamamilə inkar etmək mümkün deyildir

ƏDƏBİYYAT

1. Səlim Cəfərov Müasir Azərbaycan dili.Leksika bakı 2007
2. Buludxan Xəlilov Müasir Azərbaycan dilinin leksikologiyası Bakı 2008
3. M.Z.Cəfərov Dilimiz və terminologiyamız. Terminologiya məsələləri, Bakı, 1984
4. Т.В.Дорофесва.Роль (английский эашитствавния в яэыках эарубежного Востока. М. 1991. Стр. 79-80

С.ЮСИФОВА

ИСТОРИЯ И ПРОИСХОЖДЕНИЕ ЗАИМСТВОВАННАЯ ОБОГАЩЕНИЕ ЛЕКСИЧЕСКИЙ СОСТАВ АЗЕРБАЙДЖНСЛОГО ЯЗЫКА

РЕЗЮМЕ

Происхождение Азербайджнского языка с точки зрения слов словаря богатые и разнообразна. Это разнообразие связано с вязано с политическими событиями, которые произошли в определенные исторические периоды. Известно, что лексика богатые арабского, персидского, русского слова. В статье говорит нам словам происхождения и история об источнике их получения. Иностранные лингвисты сослаться на мнения местных и заимствованных слов были снова учился, пытался дать подробную информацию о них .Лексические заимствования в языке, включенных в нынешней ситуации, статья отражает мнения, собранные о них. В данной статье представлены взгляды и мнения материалов можно использовать в качестве материала ,пригодного для возродиться зрения истории языка.

S.YOUSSIFOVA

HISTORY AND SOURCES OF BORROWINGS ENRICHING LEXICAL COMPOSITION AZERBAIJANI LANGUAGE

SUMMARY

The origin of Azerbaijani language in terms of vocabulary words is rich and diverse. This diversity is due to the political events that occurred in certain historical periods .It is known that the vocabulary is rich of Arabic, Persian, Russian words. In this article tells us about words of origin, and history the source of their studied again, tried to give detailed information about them. Lexical borrowing in the language included in the current situation, the article reflects the opinions collected about them. Presents the views and opinions of the materials can be used as a material useful for the revive of the history of language in this article

RƏYÇİ: İdris Əmirbəyov
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

ZAMİRƏ MƏMMƏDOVA
ZENFİRA NİFTƏLİYEVA
ADİU
zenfira.@.mail.ru.

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ƏVƏZLİKLƏRİN MƏTNYARATMA PROSESİNDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər:*əvəzlik,mətnyaratma,işarə əvəzlikləri,şəxs əvəzlikləri,postpozisiya, propozisiya,ismi əvəzliklər,sifəti əvəzliklər,mətn,əlaqə,sintaktik,bütöv,dil,mürək-kəb cümlə*
Key words: *pronoun, text-forming, demonstrative pronouns, personal pronouns, postposition, preposition, nominal pronouns, adjectival pronouns, text, relation, paragraph, language, complex sentence*
Ключевые слова: *местоимение,текстообразование,указателные местоимения, личные местоимения, постпозиция, пропозиция, местоимения существителъные, местоимения прилагателъные, текст, связъ, синтаксичес-кое целое, язык, сложное предложение*

Mətnə daxil olan cümlələr arasında əlaqə yaratmaq üçün bir sıra vasitələrdən istifadə edilir.Bu vasitələr arasında əsas nitq hissələri mühüm yer tutur.Doğrudur mətnin qurulmasında əsas nitq hissələrindən bəziləri daha çox rol oynayır.Bu zaman müxtəlif morfoloji göstəricilərdən,məsələn nitq hissələrindən,həmçinin sintaktik elementlərdən istifadə olunur. Morfoloji vasitələr mətnin hüdudlarının müəyyənləşmə-sində əhəmiyyətli rol oynayır.Bu məsələ ilə əlaqədar Ə.Xəlilov yazır ki,sintaktik bütövə daxil plan cümlələr ya bu vahidin daxilindəki morfoloji elementlərin ya da sintaktik vahidlərin(söz birləşmələrinin,cümlənin)mənasını,orada ifadə olunmuş fikrin tam açılmasına xidmət edir.Ona görə də sintaktik bütövün sərhədləri həmin vəzifəni ödəmək üçün mətnin lazım olan hissəsinin haradan başlayıb harada qurtarması ilə müəyyənləşir. (1,s.39).

Əsas nitq hissələrinin aktuallaşması və onların mətnyaratma imkanları arasında əvəzliklər daha çox rol oynayır desək yanılmarıq.Bu məsələ ilə əlaqədar azərbaycanlı dilçilər Ə.Xəlilov,K.Abdullayev və digərlərinin xüxuxi rolunu qeyd etmək lazımdır.İlk əvvəl Azərbaycan dilində bəzi əvəzliklərin mətnyaratmada rolunu nəzərdən keçirək.Məsələn,*özü* qayıdış əvəzliyi.Bu qayıdış əvəzliyi mətnlərin düzəlməsində çox rol oynayır.Məlumdur ki,Azərbaycan dilində qayıdış əvəzliyi əlaqəli *öz* təyini əvəzliyinə bütün şəxslər üzrə mənsubiyyət şəkilçisi artırmaqla əmələ gəlir.Bu əvəzlik mətndə subyektlə birlikdə işlənərək,subyekti daha da konkretləşdirir və onunla birlikdə cümlənin mürəkkəb üzvü olur (2,s.117-118).

Özü əvəzliyi mətndə propozisiyada də xəbərdən əvvəl işlənir və subyekti daha da konkretləşdirməyə xidmət edir.Nümunəyə baxaq:*Zülfiyyə qapını* ***özü*** *açdı.Kərimov görüb bir müddət onu süzdü,nəzərini onun baxışında saxladı* (Tahir Kazımov. Qisas.Bakı,1990,s.61).

Amma bu hal həmişə belə olmur.Yəni mətndə elə hallara rast gəlmək olar ki,özü əvəzliyi postpozisiyada,yəni xəbərdən sonra da işlənə bilər.O bu halda da subyekti konkretləşdirir.Məsələn:*Sən deyən yaxşı adam deyil.Şəkinin Oxud kəndindəndir* ***özü.***

İndi isə nümunəyə ingilis dilində baxaq:*I* ***myself*** *opened the door and lit the candle.Rose followed me in and Iheld it up so that she should be able to see* ***herself.***

Azərbaycan dilində də özü əvəzliyi bağlayıcı ilə birləşərək mətndə onu təşkil edən cümlələr arsında aktualizator kimi çıxış edə bilər.Məsələn,*Hamı sevinirdi.Səməd özü də sevincini gizlədə bilmirdi.Keçən bahar uşaq bağçasında reportaj hazırlayan bir tərbiyyəçi qızla tanış oldum.Adı Gözəldi.*

Belə hallara da rast gəlmək olar ki,özü sözü mənsubiyyət şəkilçisi ilə işlənməsinə baxmayaraq,də bağlayıcısı ilə birlikdə şəxs bildirmir və həm də bağlayıcısının məzmununu ifadə edir (2,s.120).Qeyd edək ki,həmin bağlayıcı da bədii mətnin yaranmasında mühüm rol oynayır.Bu halda əvəzliyin işlədilməsi mətndəki mənanı intensiv nəzərə çatdırır.Numunələrə baxaq; *Bakıya az-az qar yagır. Amma yağanda üzünü görmə. Bax belə bir qar yağmışdı Bakıya.* ***Özü*** *də novruzun astanasında. Lətifə qara bugdayı Bakı gözəllərindəndir.* ***Özü*** *də bu gözəlliyi sanki Saleh indi görürdü.*

Müşahidələr göstərir ki özü də mürəkkəb bağlayıcısı azərbaycan dili mətinlərində daha çox parsell cümlələrdə rast gəlmək olar.Çünki parselyet cümlələr ikinci hissəni-ayrılan hissəsini təşkil edir. Bu zaman formalaşan mətinlər postpozisiyada reallaşır. Məsələn, *Hələki orta dalğadan ancaq musiqi eşidmək olur.* ***Özü*** *də elansız*. Göründüyü kimi,musiqinin orta dalgada elansız eşidilməsi özü də bağlayıcısı vasitəsiylə məlum olur. Məlum olan hissədə mətnin mənası üzə çıxır.

Ümumiyyətlə,mətinlər arasındakı əlaqə əsas hesab olunur. Bu zaman təkcə sözlərin cümlə daxilindəki əlaqədən deyil,ayrı-ayrı cümlə qurupları da öz aralarında müxtəlif vasitələrlə əlaqələnir və bir-biriylə münasibətdə olurlar. Mətndə əsas hesab olunan bir cümlə mövcud olunur həmin cümlənin içərisində kankret məna ifadə edən söz və ya ifadə yerləşir. Mətnin bu və ya digər cümləsi kankret mənasi olmayan sözü və ya ifadənimüəyyənləşdirməlidir. Bu cümlə həmin cümlədən əvvəldə də , sonra da yerləşdirilə bilər. Ə.Xəlilov yazırki əsas mənanı ifadə edən cümlə müəyyənləşən kimi digər cümlələr onun mənasının açılmasına xidmət göstərmək üçün fəaliyyətə keçirlər. (1,s.67).. M.Z. Zəkiyev yazır ki,əsas məsələ cümlələr arasındaki əlaqələri,onların birləşmə üsullarını hər tərəfli öyrənməkdir. Müstəqil cümlələr arasındaki əlaqələri oyrənmək üçün lazım olan tələblərə əlaqənin nitqin hansı hissəsi cavab verirsə ,mətnin də hüdudları ondan aslı olaraq müəyyən olunur. (3,s.360).. Türk dillərində mətnin sərhədlərini müəyyənləşdirmək üçün müəllif öz meyarını təklif edir. O yazır; " Çox mümkündür ki bu xüsusiyyətlər hər hansı bir dərəcədə başqa qohum türk dilləri üçün də səciyyəvi ola bilər və təbii ki, bizim təklif etdiyimiz meyar müəyyən mənada başqa türk dillərindəki mürəkkəb sintaktik bütöv sərhədlərinin müəyyənləşdirilməsinə də tətbiq edilmə imkanina malikdir.(4.s.12)

Türk dillərində cümlənin strukturunun aşılmasında tərkib vahidlərinin dəqiq ardıcıllığının olması vacibdir.Bu o deməkdir ki,türk dillərində cümləni bitirmək üçün qrammatik(morfoloji) cəhətdən başlanğıca qayıtmaq lazımdır.Yəni türk dillərində mübtəda,ikinci dərəcəli üzvlər,xəbər,mübtəda və s.kimi ardıcıllığa əməl etmək lazımdır.K.Abdullayevin fikrincə,bu çərçivəliyin əsasında təkrar prinsipi durur.O yazır:"Yəni türk cümləsinin sonunda əslində mübtədanı təkrarlanması özünü göstərir.Bu təkrar ya tam şəkildə olur,yada ki,bəzi müassir türk dillərində bu təkrar natəmam şəkildə özünü göstərir.Yalnız güclü təkrar elementlərinə malik olduqdan sonra,yəni özünəməxsus sintaktik çərçivəlilik yarandıqdan sonra türk cümləsi monopredikatiz quruluşa çevrilə bilir".(4.s.203)

F.Veysərli "dilçiliyin əsasları" kitabında mətnin sərhədlərini müəyyənləşməsi barədə yazır:"Əslində bu,o qədər geniş sahədir ki,bütün abzas,periyod və mürəkkəb cümlələri vahid ad altında birləşdirmək olduqca çətin məsələdir.Dil strukturunun aşağı səviyyələrində müəyyən dəqiqlik vardır.Fone,morfem,leksem terminləri çox konkret və aydındır.Ancaq mürəkkəb sintaktik bütövlərin ardıcıllığı həm də mətn yaradır.Diskursu

konkret bir məqamda verilmiş mövzu ilə bağlı şifahi performans hesab etsək,yenə də sərhədlər dəqiq müəyyənləşməmiş qalır".(5,s.349)

Odur ki,mətnlərin həcmindən asılı olmayaraq onun başlanğıcının və sonunun olması vacibdir.Bu cür mətlərin tərkibində işlənən əvəzliyin mənası nə vaxt açılarsa,həmin mətni bitmiş hesab etmək olar.Mətnin mənasının açılmasında əvəzliklərin rolu meydana çıxır.Müşahidələr göstərir ki,əvəzliyin mənasının açılması özündən əvvəlki cümlənin məmasından asılıdır.Mətndəki cümlələrin birinin əvəzliklə başlanması onun özüdən əvvəlki cümlələrlə daha yaxından olduğunu göstərən faktdır.(6.s.133)

İngilis dilində də əvəzlik əsas nitq hissələrindən biri olub,malik olduğu leksik-qrammatik məna baxımında digər nitq hissələrindən fərqlənir.Müassir ingilis dilində əvəzliklər ismi əvəzliklər və sifəti əvəzliklər deyə iki qrupa bölünür(7.s.79).İsmi əvəzlik isim kimi hal və kəmiyyət kateqoriyasına malikdir.Lakin əvəzliklər hal kateqoriyası baxımından isimlərdən fərqlənir:isim-lər ümumi və yiyəlik hala malik olduğu halda,əvəzliklərin bir qismi adlıq və obyekt hala,digərləri isə ümumi və yiyəlik hala malikdir.O.Musayev yazır ki, müasir ingilis dilində mövcüd olan əvəzliklərin bir qismi,xüsusən işarə əvəzlikləri(this,these,thad,tuhose,such,the same)və III şəxs əvəzlikləri (he,she,it) ingilis dilində mətn yaratmada iştirak edirlər. Dilin komminativ funksiyası baxımından hər bir əvəzliyin işlənməsi üçün mütləq müəyyən şərait olmalıdır. Əks halda dilin komminativ funksiyası baxımından onların işlənməsi səhv məna yarada bilər. Əvvəldə qeyd etdiyimiz kimi əvəzliklərin işlənməsi üçün mütləq məna və ya mənalar əvvəlki cumlədən oxucuya malik olmalıdır. Əks tədqirdə,yuxarıda deyildiyi kimi işarə əvəzliyinin (həm təkdə həm də cəmdə) ifadə etdiyi məna aydın olmayacaq odur ki əvəzliklərin mətinyaratmada rolu cümlənin əvvəlində içlənən söz və ya ifadədən aslıdır. Muasir ingilis dilində mövcüd olan bütün işarə əvəzliklərinin mətinyaratmada rolu haqqında eyni sözləri demək olar. Qeyd edəkki ingilis dilində III şəxs şəxs əvəzlikləri də mətnyaratmada demek olar ki , bu xususiyyətlərə malikdir. Bu əvəzliklərin mətin yaratması üçün mütləq hər hansı bir makromətin olmalıdır. Məsələn, He has gone to the cinema-cümləsin işlətmək üçün mütləq hər hansı bir makromətin olmalıdır. Məsələn,*Where is* ***John?*** *He has yone to the cinema. Yaxud; No I haven " t heart aboud* ***John*** *since he left our country cümləsini işlətmək üçün belə bir makromətin quraq: Have you heart anything about* ***John?*** *Və ya : Do you kıno Where İ can see* ***John?*** Bu kimi cümlələrdə əgər əvvəl məlumat verilməsə söhbətin nədən getdiyini bilmək olmaz. Belə numunələrin sayını artirmaq olar.Qeyd edək ki adını çəkdiyimiz ingilis dili əvəzlikləri anaforik işlənmə xususiyyətlərinə də malikdirlər. Onların anaforik xüsusiyyətləri mətin yaratmada xidmət gostərirlər, eyni zamanda,əvəzliklər sonraki cümləyə də baglanaraq kataforik xüsusiyyətlərə də malikdirlər.Dediklərimizdən bu nəticəyə gəlirik ki əvəzliklərin mətinlərin yaranmasında rolu aşağıda ki 4 funksiya ilə müəyyən olunur. (6.s.136)

1. Əvəzlik semantik kataqoriyanı təmsil edir və onun pronominal

Xüsiyyəti sözlər arasında deyil,cümlələr arasında əlaqələri şərtləndirir.

2.Əvəzlik məlum olanı bildirir.

3.Əvəzlik həm anaforik(əvvəlki cümləyə bağlılıq),həm də katoforik(sonrakı cümləyə bağlılıq)funksiyalarını yerinə yetirir.

4.Əvəzlik yalnız sintaktik " donuq " yox,həmçinin dinamik (dəyişkən) funksiyasını da yerinə yetirir.

Qeyd etdiyimiz kimi əvəzlik artıq qeyd olunanı bildirir,çünki o artıq məlum olanı əvəz edir.Yəni kontekstdən məlum olur ki,dinləyənin (oxucunun) işarə edilən predmet haqqında artıq müəyyən məlumatı var.

Mətnyaratmada xüsusi rolu olan birinci və ikinci şəxs əvəzlikləri(I.you) yalnız praqmatik nöqteyi nəzərdən işlədildiyi halda qayıdış əvəzlikləri ancaq anoforik funksiya yerinə yetirir.Üçüncü şəxs əvəzlikləri(he,she,it)mətndə həm proqmatik,həm də anoforik vəzifədə işlədilir(6,s.137).

Sarah was laughing when she was reading a book.

An placet her book on the desk.

İngilis dilində əvəzliklər promonimal funksiyada əsasən iki cür fəaliyyət göstərir.

1.Vəziyyətdən asılı olan pronominal funksiya (eksofolik)

Məsələn, Mary wanted to give a book on history to Ann, but she had already bought it herself.

2. Mətindən aslı olan pronominal funksiya (endoforik). Bu cur pronominal funksiya öz növbəsində iki növə bölünür:

a)anoforik

b)katoporik (6.s.138)

Müxtəlif məqamlarda işlədilən əvəzliklərin ancaq bir funksiyası var -mətnin müxtəlif hissələrini bir-birinə baglamaq.

Nümunələrə baxaq:

1.One thingwas certain,that the white kitten had nothing to do with it – it was the black kitten"s fault ettirely(kataforik əlaqə)

2.A few doors away was the English Bridge and down in trams were clanging,vinging their bells as they went,motor buses were lumbering along,taxis were tooting their horns.Mrs.Hudson heard it,it was London she heard.

Qeyd etdiyimiz kimi,ingilis dilində əvəzliyin mətnyaranmasında əsas vəzifələrindən biri onun dinamikliyi,mətn daxilində daim hərəkət etməsidir.

Məsələn, John can open Bill"s safe.He is an interesting fellow.Mətn daxilində nəzərdən keçirsək görərik ki,he şəxs əvəzliyi cümlədəki John sözünü mətnin müxtəlif yerlərində əvəz edir. Bu əvəzetmə halı mətn boyu inkişaf edir,mətndəki hadisəri özündə cəmləşdirir.

Müşahidə olunur ki,Mətnlərdə əvəzliklərin yığcamlığı həm ingilis,həm də Azərbaycan mətnlərində onların tez-tez işlədilməsini şərtrləndirir.Əvəzliklər mətnlərdə təkrarlandıqca onların göstərdikləri hadisə,proses mətn daxilində irəliləyir,inkişaf edir.Və bu halla da onlar mətnyaratmada əlaqələndirici funksiyanı yerinə yetirirlər (6,s.138)

Bu məsələni də vurğulamaq lazımdır ki,mətnin məzmun cəhəti ilə əvəzliyin mətndaxiuli fəaliyyəti arasında qırılmaz əlaqə olur.Belə ki,mətnin məzmununu onun semantikasını müəyyənləşdirirsə,əvəzlik işarə etmə formasıdır ki,bu da semantik bütövlüyü ifadə edir.İngilis dilində əvəzliyin mətndaxili fəaliyyətini şərtləndirən müxtəlif vasitələr var(6,s.138).Bunlardan biri it is .....who (that)..... birləşməsidir. Məsələn, *My father, he is cutting trees.*

It is my father who is cutting the trees.

Beləliklə, məlum olur ki, əvəzlik həm ingilis,həm də Azərbaycan dilində şşəxsləri,əşyaları və ya onlara xas olan əlamət və keyfiyyətləri adlandırmadan bildirən əsas nitq hissəsidir.Əvəzliklər ismi əvəzliklər və sifəti əvəzlik olmaqla iki qrupa bölünür.Müasir ingilis dilində mövcud olan əvəzliklərin bir qismi,xüsusən işarə əvəzlikləri və üçüncü şəxs şəxs əvəzlikləri mətnyaratma xüsusiyyətlərinə malikdir.

ƏDƏBİYYAT

1. Xəlilov Ə.Ə.Sintaktik bütövlərin əmələ gəlməsində morfoloji elementlərin rolu.Azərbaycan dili morfologiyasının aktual məsələləri.Azərbaycan Dövlət Universiteti.Bakı,1987.
2. Hüseynzadə M.Müasir Azərbaycan dili.Maarif,Bakı,1983.
3. Закиев М.З.Актуалъные проблемы сложных предложений в тюркских языках СТ,1983.№3.
4. Abdullayev K.M.,Məmmədov A.Y.,Musayev M.M. və digərləri.Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər.”Mütərcim”, Bakı,2012
5. Veysəlli F.Y.Dilçiliyin əsasları.”Mütərcim”,Bakı,2013
6. Abdullayev Ə. Aktual üzvlənmə,mətn və diskurs .”Zərdabi LTD” MMC Bakı, 2011
7. Musayev O.İ. İngilis dilinin qrammatikası.”Qismət”,Bakı,2009.
8. Məmmədov A.Y.,Məmmədov M. Diskurs təhlilinin kopnitiv perspektivləri.
9. “Çaşıoğlu”,Bakı 2010.
10. Каушанская В.Л.,Ковнер П.Л.Грамматика Английского языка. “Просвещение Ленинградское отделение”, Ленинград, 1973.

Z.MAMEDOVA, Z.NIFTALIEVA

THE ACTUALIZATION OF TEXT-FORMING OPPORTUNITIES OF PRONOUNS IN AZERBAIJANI AND ENGLISH LANGUAGES

SUMMARY

The article deals with the pronouns in Azerbaijani and English languages. Investigating the article,it /s/been proved that the pronoun is a part of speech pointing out objects and their qualities without naming them in both languages. Pronouns are divided into two groups” nominal pronouns and adjectival pronouns. Some pronouns ,namely the personal pronouns in the third person singular heve the text-forming character in the English language.

З.МФМЕДОВА,З.НИФТАЛИЕВА

ТЕКСТООБРАЗУЮЩИЕ ВОЗМОЖНОСТИ АКТУАЛИЗАЦИЕЙ МЕСТОИМЕНИЙ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

В статъе речъ идет о местоимениях,существующих азербайджанском и английском языках.После анализа статъи стоновитъся ясно,гто местоимения казербайджанском,так и ванглийском языке является основной частъю речъю,служашей наимено-ванию предметов,лиц или присущие им признаков и качества местоимения делятся на две подгруппы;

а)местоимения сущест-вителные и;

б)местоимения прилагателъные.Частъ местоимения,особенно указателъные и местоимения третъего лица,обладают текстообразую-щими свойствами.

RƏYÇİ:Yusif Süleymanov
filologiya üzrə fəlsəfə doktoru,dosent.

LEYLA EMİNOVA
ŞƏFİQƏ ƏLİYEVA
AzTU
Leyla.@.mail.ru.

MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANDA XARİCİ DİLİN, O CÜMLƏDƏN İNGİLİS DİLİNİN TƏDRİSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Açar sözlər: *Azərbaycan dili, ingilis dili, alınma söz, qarşılıqlı əlaqə.*
Ключевые слова: *азербайджанский язык, английский язык, заимствованные слова, взаимосвязь.*
Key words: *Azerbaijani, English, borrwings, mutual relations.*

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra xalqımız dünya xalqları ilə beynəlxalq arenada bərabərhüquqlu əlaqələr yaratmaq imkanı qazandı. Bu əlaqələrin əsasında iqtisadi və siyasi faktorlar dayansa da, tarixi-mədəni amillər də kənarda qalmadı. Müasir dövr dünyanın qloballaşması ilə səciyyələnir. Texniki tərəqqinin indiki səviyyəsində dünya xalqları bir-birinin elmi, ədəbi və mədəni nailiyyətlərindən istifadə edə bilir. Bu da xalqları bir-birinə daha da yaxınlaşdırır. Bu yaxınlaşma və inteqrasiya prosesində dil amili əsas rol oynayır.

Azərbaycan iqtisadi cəhətdən dünyanın diqqət mərkəzində olduğu üçün bir sıra dövlətlərin marağı burada cəmləşmişdir. Buna görə ingilis, alman, fransız, rus şirkətləri Azərbaycana maraq göstərir. Rus dili artıq Azərbaycan üçün proritet xarici dil sayılmır. Çünki sovet dönəmində Azərbaycan xalqı rus dilini istər-istəməz öyrənməli olmuşdur. İngilis dilinin öyrənilməsi rəsmi şəkildə Azərbaycanda 1948-ci ildə başlasa da, bu, yalnız təhsil çərçivəsi ilə məhdudlaşmışdır.

Müasir dövrdə isə dünyanın iki qüdrətli ingilisdilli dövləti – ABŞ və İngiltərə Azərbaycana daha çox maraq göstərir. Azərbaycanın karbohidrogen ehtiyatları və geosiyasi mövqeyi sosial həyatın bütün sahələrində bu iki dövlətin diqqət mərkəzində dayanmışdır. Təsadüfi deyil ki, neft konsorsiumlarında 19 şirkət ABŞ və İngiltərənin payına düşür, bu isə ingilis dilinin Azərbaycanda nüfuzunun artmasına səbəb olmuşdur. Bu proses, demək olar ki, bütün dünyada getməkdədir. Beynəlxalq Aviasiya Təşkilatının qərarına görə, 1992-ci ildən rus dili həmin sahədən çıxarılmışdır. Eyni sözləri Beynəlxalq Dəniş Təşkilatı haqqında da demək olar. Azərbaycan hər iki təşkilatın üzvü olduğu üçün bu sahədə ingilis dilindən istifadə olunur. Bu və ya digər amillər Azərbaycan xalqı üçün xarici dil olaraq ilk növbədə ingilis dilini öyrənməyi zəruri edir.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi onun bir çox ölkələrlə, o cümlədən Böyük Britaniya, ABŞ və başqa ingilisdilli ölkələrlə siyasi, iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə səbəb olmuşdur. Respublikada neft sənayesinin güclü inkişafı ölkədə xarici şirkət və firmaların çalışmasına şərait yaratmış, nəticədə Azərbaycanda çalışan xarici ölkə vətəndaşlarının sayı xeyli artmışdır. Qeyd olunan kontingentlə ünsiyyət və işgüzar əlaqələrdə ingilis dili vasitəçi olduğundan Azərbaycan-ingilis təmaslı dil əlaqələri genişlənmiş, sözalma prosesi yeni istiqamət kəsb etmişdir. Bu cəhət ingilis dilindən sözalmanı yeni aspektdən araşdırmağı aktuallaşdırır.

Azərbaycan-ingilis dil əlaqələrinin uzun müddət vasitəçi dilin iştirakı ilə mövcudluğu, ingilis dilindən sözalmada bədii tərcümənin özünəməxsus rol oynaması bu

amillərin təsiri ilə leksik sistemdə baş vermiş dəyişmələrin spesifik xüsusiyyətlərinin həm dil əlaqələri, həm də sözalma baxımından öyrənilməsi əhəmiyyətli məsələlərdəndir.

Məlumdur ki, hər bir alınma söz keçdiyi dildə semantik dəyişikliyə məruz qalır və onun semantikasında daralma, genişlənmə baş verir. Söz dilə uyğunlaşma prosesini yaşayır, dilin qrammatik normalarına tabe olur, sözdüzəltmə prosesinə qoşulur. İngilis dilindən alınma sözlərin semantikasında baş verən dəyişmələr, bu sözlərin dilimizdə müxtəlif səviyyələrdə (fonetik, qrammatik, semantik) mənimsənilməsi məsələləri tədqiq olunmamışdır. Təhlil də göstərir ki, Azərbaycan dilində ingilis dilindən leksik alınmaların bir çox məsələləri tam araşdırılmamışdır.

Xalq və dillərin yaxınlaşdığı və qarşılıqlı münasibətlərin intensivləşdiyi hazırkı dövrdə, ictimai-siyasi, elmi-texniki üstqurumlara aid anlayışların yayılması prosesində dünya dilləri bir-biri ilə qarşılıqlı şəkildə faydalanmaqdadır. Uzun dövrlər ərzində davam edən bu proses millətlərarası əlaqələrin, ünsiyyət vasitələrinin artması nəticəsində daha da sürətlənmişdir. Elə bunun nəticəsidir ki, dünyada elmə məlum olan elə bir dil tapmaq çətindir ki, başqa dillərlə qarşılıqlı əlaqədə və ünsiyyətdə olmasın. Dillərin qarşılıqlı əlaqə və təsirindən danışdıqda isə təbii ki, ilk növbədə sözalma, yaxud sözvermə prosesi nəzərdə tutulur.

Dillərin uzunmüddətli qarşılıqlı təsirinin nəticəsində bir dildən digərinə keçən sözlər həm dil tarixini, həm də alınma prosesinin özünü öyrənmək üçün böyük maraq kəsb edir. Alınma sözlər eyni zamanda sözalmanın səbəblərini, mənbələrini, alınma yollarını, tiplərini və formalarını, eləcə də alınma sözlərin obyekt dildə məruz qaldığı dəyişmələri ətraflı öyrənməyə imkan verir.

Bar (ing. bar) – 1) müştərilərə ayaqüstü xidmət göstərən balaca yeməkxana, qəlyanaltı yeri; 2) dağ çapan maşın və ya dağ kombaynının işlək hissəsi.

Dilin mənşəcə öz sözləri ilə üst-üstə düşməyən fonetik tərkibli alınma sözləri də kifayət qədərdir. Belə leksik vahidlərə məxsus söz yuvası dilin fonetik sistemli vahidlərinin birləşmə normalarını pozmur. Azərbaycan dilində CVC quruluşlu söz yuvalarında mənşəcə dilin özünəməxsus olan *fut, bor, bak, rol* kimi leksik vahidlər yoxdur. Dil bu sözlərin hər birinin tələffüzünə imkan verir, həmin sözlər dilin morfoloji normalarına tabe olur. Lakin bu sözlər alınmalardır.

L.Krısin sözün alınma kimi qəbul edilməsi üçün dörd meyar irəli sürür:

1) alan dilin başqa dilin sözünü qrafik-fonetik ifadə imkanı; 2) alınan sözün dilin müəyyən qrammatik siniflərinə və kateqoriyalarına şamil edilməsi; 3) alınan sözün semantik müstəqilliyi; 4) ən azı iki funksional üslubda işlənmə və müəyyən terminoloji sistemdə termin kimi istifadə olunması.

K.Yeryomina qeyd olunan dörd əlamətdən birinci ikisini əsas sayır. Onun fikrinə görə, digər iki əlamətin olması mütləq deyil. Bununla yanaşı müəllif özü iki meyarı qəbul edir: 1) alınmanın alan dildə qrafik-fonetik ifadəsinin mümkünlüyü; 2) alınmanın dilin qrammatik normalarına uyğun işlədilməsi.

Sözün onu alan dildə qrafik ifadə olunması amili bəzi alimlər tərəfindən alınma meyarı kimi qiymətləndirilmir. Məsələn, E.Axunzyanov bu məsələyə münasibət bildirərkən postsovet dövründə bir sıra xalqların dilinə rus alınmalarının keçməsində heç bir qrafik məhdudiyyətin olmadığını bildirir. Zənnimizcə, bu, təbii hadisə sayılmalıdır, çünki əvvəla, keçmiş sovet xalqlarının əksəriyyəti Kirill əlifbasına keçmişdi; ikincisi, bir çox xalqların əlifbasında rus dilinin özünəməxsus qrafemləri (ü, ə, h, ö, ğ, c, y) özünə yer tapmışdı. Bu hadisə Azərbaycan dilinin əlifbasında da

müəyyən dövrdə qeydə alınır. Əgər əlifbada bu və ya digər sözü ifadə etmək üçün tələb olunan bütün qrafemlər varsa, onda sözün qrafik səviyyəsində alınmasına maneə də olmazdı. E.Axunzyanovun müddəası da bu zəmində formalaşmışdır. Bütün dillərdən, o cümlədən ingilis dilindən Azərbaycan dilinə, eləcə də başqa dillərə keçən bir sıra sözlərin qrafem-fonem dəyişmələrinə uğraması şübhəsizdir. Məsələn, *Will Clinton, William Shekespear* şəxs adlarındakı «**w**» qrafemi və ona uyğun fonem Azərbaycan dilində yoxdur. Nəticədə həmin adın *Bill, Uill, Vilyam, Uilyam* yazılışları, onlara uyğun oxunuşları qeydə alınır. Halbuki, ingilis dilində *Bill, Billi* adları da vardır. Onu da qeyd edək ki, *Will (wil)- Uill, Vill; Uilyam, Vilyam (tarixən-Vilhelm); Bill (bil)- Bill; Billy (bili)- Billi* – adlarının ikili oxunuşu vardır. Lakin «W» qrafemi ilə başlanan formaların oxunuşunda (B) fonemi yoxdur. Bunun müqabilində həmin adların kiçiltmə formaları olan *Bill, Billy* adlarında bu fonem var.

Alınma sözlər və Azərbaycan dilindəki alınmalarla bağlı müxtəlif məsələlər dilçiliyimizdə geniş tədqiq olunmuşdur. A.Qarayev sözalmaları alınma söz tipinin bir növü və sözalma prosesinin yekunlaşmış aktı hesab edir.

Dildə alınma sözlərin miqdarına müəyyən həddqoyulması, onlara dilin lüğət tərkibində müəyyən qədər yer ayrılması ilə bağlı müxtəlif fikirlər vardır. Alimlərin bir qismi belə hesab edir ki, alınma sözlər yeni realiyaların və anlayışların adlandırılması üsuludur. Digər qrup alimlər alınma sözlərin dilin lüğət tərkibində çoxalmasına qarşı çıxır. Hər iki nöqteyi-nəzərə müxtəlif istiqamətlərdən yanaşan tədqiqatçılar da az deyildir.

İctimai həyatda baş verən hadisələri adlandıran ingilis mənşəli sözlərin böyük əksəriyyəti semantik dəqiqliyə malik olub, konkretliyi ilə seçilir. Məsələn, *spiçteyker (speechmaker)* «yüksək vəzifəli şəxslər üçün nitq hazırlayan»; *sammit (summit)* «dövlət başçılarının görüşü və danışıqları» və s. deyilənlərə nümunə olaraq göstərilə bilər.

Bir sıra alınmalar üçün qənaət səciyyəvidir. Sözalan dildə bir sözə xas olan məna izah edildiyindən alınmış sözün istifadəsinə üstünlük verilir. Məsələn, *diler (diler*) «öz adından vasitəçilik fəaliyyəti göstərən fiziki şəxs və ya şirkət»; *broker (broker)* «alqı-satqı işlərinin görülməsi zamanı birja adından və ya müstəqil şəkildə müştərinin hesabına vasitəçilik edən ticarət yaxud maliyyə agenti); *peycer* (informasiyanın ötürülməsi və qəbulu üçün istifadə olunan portativ simsiz qurğu) və s.

Dilin sözalmasına təkan verən və mane olan bir sıra səbəblər mövcuddur. Qeyd olunduğu kimi, alınma sözə müraciət etmək intralinqvistik və ekstralinqvistik səbəblər kompleksindən bəhrələnir. Ekstralinqvistik səbəblərə siyasi, iqtisadi, sosial, mədəni sahələrdəki dil əlaqələri daxildir.

Əvvəl məlum olmayan predmet və hadisələrin adlandırılması zərurəti başqa dildən sözalmanın səbəbinə çevrilir. Lakin qeyd olunan sözalmanın dilxarici amillərdən asılı olduğu yalnız bir səbəbidir. Belə səbəblər isə az deyildir. Ekstralinqvistik amillər cərgəsində psixoloji, estetik, evfemistik ifadəyə canatma olduğu kimi, sözalma prosesində əhəmiyyətli rol oynayan tarixi şərait, dini mənsubluq, ölkənin siyasi vəziyyəti kimi şərtlər də az deyildir. Alınmaların dildaxili və dilxarici bütün səbəblərini ayırmaq çətin olsa da, bunları müəyyənləşdirmək mümkündür.

Sözün alınmasının əsas səbəblərindən biri onun ifadə etdiyi hadisə və əşyanın adının alan dildə olmamasıdır. Bəzən belə hadisə və əşyaları adlandırmaq üçün dilin öz sözlərindən, başqa dilə məxsus sözlərdən istifadə etmək olur. Söz yaradıcılığı da bu çatışmazlığı aradan qaldıran yollardan biridir. Lakin digər dilə məxsus elə sözlər vardır ki,

onları alan dildə dəyişmək həmin sözlərin adlandırdıqları əşyaların qavranmasına xələl gətirir. Məsələn: *funt-sterlinq, pens, lord, ledi, miledi, fut, konstebl, miss, missis* və s.

M.A.Breyter sözalmanın aşağıdakı səbəblərini qeyd edir: 1) reseptor dilin koqnitiv bazasında müvafiq anlayışın olmaması; məs.: *noutbuk, laptop, audiobuk, peycer, taymer, şreder, plotter, skayner, printer, tüner, toner*; 2) reseptor dildə müvafiq adın olmaması: *virtual, investor, dayjest, spiçrayter, sponsor, sprey*, *prays-list, imcj* (*obraz*), *top-model*.

Yuxarıda verilmiş nümunələrdən bəzilərini ifadə etmək üçün dilin lüğət tərkibindəki müəyyən sözlərdən istifadə etmək olar. Məsələn, *imic* leksemini bir çox məqamlarda *obraz* sözü əvəz edir. Çoxmənalı *obraz* sözü daha geniş semantikaya malikdir. *İmic* sözündə isə məna konkret və dəqiqdir. Ona görə də müəyyən mövqe və ətrafda *obraz* əvəzinə *imic* işlənir. Məsələn: «Təşkilat qarşısına ümdə bir məqsəd qoyub: xalqına, dövlətinə, vətəninə, millətinə ləyaqətlə xidmət etmək, onun *imicini* bütün dünyada daha da yüksəltmək».

Təbii ki, yuxarıdakı cümlədə *xalqın obrazını yaratmaq* ifadəsini işlətmək yerinə düşmür; izahlı kontekst tələbi meydana çıxır. *İmic* sözünün yerində işlədilməsi həmin tələbi aradan qaldırmışdır. Bu hadisə, yəni dilin başqa dildən konret məqamda istifadə olunan sözlər alması sözün müəyyən semantika üzrə xüsusiləşməsi də adlandırılır. Təhlildən belə nəticə çıxır ki, M.Breyter sözalmanın ikinci səbəbi kimi fərqləndirdiyi qrupdakı sözlər sırasına müəyyən səbəblərə görə daha asan tələffüz olunan, qısalığı, etimologiyasının şəffaflığı, semantikasının konkretliyi ilə seçilən alınma leksemləri də daxil edir.

Sözalma hadisəsi üslubi effektlə, sözün emfatik funksiyası ilə də səciyyələnə bilir. Lakin bu xüsusiyyət özünü dildə az göstərir. Danışanın, yaxud alınma sözü istifadə edənin yüksək bilik səviyyəsi ilə yanaşı, adresatın qavrama dərəcəsinin kamilliyi də nəzərdə tutulmalıdır. Məsələn, müasir informasiya vasitəsi - kompüterlə əlaqədar olan *WINUP* birləşməsinin *Vinap* şəklində istifadə olunması üslubi effektlə əsaslandırıla bilər. Bu cür alınmalar, bir qayda olaraq, kompüterlə işləyənlərin nitqində, daha çox isə danışıq dilində qeydə alınır.

Reseptor dildə müsbət və ya mənfi konnotasiyanın ifadəsi üçün ekvivalent leksik vahid olmadıqda da sözalma hadisəsi baş verir. Belə sözalma, həm də psixoloji amillərlə şərtlənir. Ölkənin iqtisadi vəziyyəti, burada istifadə olunan texnoloji proseslər, istehsal olunan mallar inkişaf etmiş ölkələrdə müvafiq şeylərdən keyfiyyətinə görə geri qalır. Qeyd olunan cəhət xarici malların, texnologiyanın daha yaxşı olması ilə bağlı fikri formalaşdırır. Nəticədə, nəinki malların, xidmətin adını bildirən sözlərin, hətta həmin məhsulların satıldığı, xidmətin göstərildiyi müəssisələrin adlarının da dilə keçməsi prosesi baş verir. Bu cəhət özünü daha çox reklamlarda, forma adlarında göstərir. Məsələn, *auto-rental* «maşın icarəyə verilən yer», *pab (pub*) «pivəxana», *market (market)* «mağaza» və s.

İngilis dili müasir dövrdə bütün dünyada ən geniş yayılmış dil olduğundan onun başqa dillərə təsiri də böyükdür. Bu cəhət özünü Azərbaycan dili ilə bağlı göstərdiyi kimi, rus dilinə münasibətdə də eyni, hələ bəlkə də yüksək səviyyədədir.Ona görə də ingilis dilində sözalma səbəbləri Azərbaycan və rus dilləri üçün eynidir. Şübhəsiz ki, başqa dillərdəki vəziyyət öyrənilərsə, bu eyniliyin ümumi səciyyə daşıması faktı ilə üzləşmək mümkündür.

L.P.Krısin sözalma səbəblərindən çıxış edərək sözalma ilə bağlı bəzi sosial məqamları açmışdır. O, alınma sözlərin işlənmə sahələrini və bunlarla bağlı sosial məqamları beş yerə bölür:

1) yeni əşyanın, yeni hadisənin adlandırılmasına tələbat;

2) məzmunca yaxın olan, lakin fərqlənən anlayışları ayırmaq;

3) bu və ya digər sahədə, yaxud bu və ya digər məqsədlər üçün anlayışın xüsusiləşdirilməsi;

4) tam, hissələrinə parçalanmayan obyektin bir sözlə adlandırılması meyli;

5) alınmanın sosial-psixoloji səbəbləri və amilləri: cəmiyyət (sosium) tərəfindən alınma sözün daha yaxşı olmasının, gözəl səslənməsinin qəbul edilməsi, eləcə də adlandırılan anlayışın kommunikativ aktuallığı.

ƏDƏBİYYAT:

1. M.Qasımov: "Azərbaycan dilinin terminoligiyasının əsasları".
2. N.Məmmədli: "Alınma terminlər".
3. N.Məmmədov: "Dilşiliyə giriş".
4. Ə.Qarayev, R.Zeynalov: "Neft və qaz quyularının qazılması texnikası və texnologiyası".

L.EMINOVA,.SH.ALIYEVA

MUTUAL RELATIONS BETWEEN ENGLISH AND AZERBAIJANI

SUMMARY

The article speaks about the mutual relations between English and Azerbaijani, analyses economical and political relations between Azerbaijani and Great Britain and America in contemporary phase, also investigates borrowings of English origin, gives examples some words of English origin in native language.

The article speaks about the use of the gerund in English and its equivalent in Azerbaijani?also analises some forms in simple and complex sentences in varicose situation.

Л.ЭМИНОВА,Ш.АЛИЕВА

ВЗАИМОСВЯЗЬ С АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАМИ

РЕЗЮМЕ

В статье рассматриваются взаимосвязь между английском и азербайджанском языками, анализируются экономический и политический связи между Азербайджаном и Великобританией и Америкой в современном этапе, а также исследуются заимствованные слова английского происхождения в азербайджанском языке, приводится примеры нескольких слов английского происхождения в родном языке.

В статье также рассматривается употребление английского языка во всех общеоброзавательных школах Азербайджана и в соседних бывших Республиках.

Rəyçi: Həbib Mirzəyev
Filologiya üzrə fəlsəfə doktoru, dosent,

DİLBƏR İBRAHİMOVA
ADİU
dilbər.@.mail.ru.

MÜXTƏLİF SİSTEMLİ DİLLƏRDƏN ALINMA FRAZEOLOGİZMLƏRİN İNGİLİS ƏDƏBİYYATINDA, ŞAİR VƏ YAZIÇILARIN ƏSƏRLƏRİNDƏ İŞLƏNMƏSİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ VASİTƏLƏRİ

Açar sözlər: *inglis dili, Azərbaycan dili, frazeologizmlər, alınma söz, leksika.*
Ключевые слова: *английский язык, азербайджанский язык, фразеологизмы, заимствованные слова, лексика.*
Key words: *inglish, azerbaijani, frazeological, words empruntes, lexical*

Müasir ingilis dilində yalnız bir neçə ispan dilindən alınmış frazeologizmlər var. Məsələn: the fifth column "beşinci kolon", "düşmənin gizli köməkçiləri"(bu frazeologizm İspaniyada vətəndaş müharibəsi dovründə yaranmışdır. Madridi azad edən faşist Mola əhaliyə onun şəhərdə beş kolonunun, yəni beş gizli köməkçi dəstələrinin olduğunu bildirmişdi), war to the knife "yaşamaq üçün deyil, ölüm üçün mübarizə"(bu frazeologizm qubernator Saraqosun fransızların təslim olma tələbinə Palafoksun verdiyi cavab ilə bağlı yaranmışdır) Migel de Servantesin əsərlərindən tərcümə olunmuş bəzi frazeologizmlər də ingilis dilinin frazeolgizmlər sırasına daxil olmuşdur.Hollandiya dilindən alınma frazeologizm: Forlorn hope "son ümid".Çin dilindən alinma frazeologizm: to lose face "etibarını itirmək", "nüfuzunu itirmək".Ərəb bədii ədəbiyyatından alınmış frazeologizmlər, əsasən, "Min bir gecə" nağıllarından tercümə edilmiş frazeologizmlərdir. Məsələn: Alladin's lamp "Ələddinin sehirli çırağı". Bu nağıldan rub the lamp "arzularını asanlıqla həyata keçirmək" frazeologizmi ingilis dilinin lüğət tərkibinə daxil olmuşdur.Alnaschar`s dream "boş xəyallar", "boş arzular" (Alnaşar bütün pullarını şüşədən olan mallara sərf edir, onları bir səbətə yığır və ümid edir ki, bir gün varlanacaq. Lakin Alnaşeri öz gələcək arvadına hirsləndiyi zaman bu səbətə əli ilə zərbə endirir və səbətdəki bütün şüşələr qırılır).The old man of the sea "zəhlətökən insan", "əlçəkməyən insan" (dəniz səyyahı Sindibad heç cürə öz yaxasını bir qocadan qurtara bilmirdi)An open Sesand "bir şeyi əldə etməyin asand və tez yolu" ("Əli baba və qırx quldur" nağılında istifadə olunan bu sehirli söz vasitəsi ilə quldurların mağarasının qapısını açmaq mümkün idi).(Кунин А. В. Фразеология современного английского языка)İngilis frazeologizmlərinin çoxu İngiltərəyə ABŞ-dan gətirilmişdir. Bunların sırasına aşağıdakı frazeologizmləri aid etmək olar:Bread-and-butter letter "təşəkkür məktubu", cut no ice "əhəmiyyət olmamaq; a hard row to hoe "çətin tapşırıq", "çətin iş"; in the soup "çətin vəziyyətdə"; to make a monkey out of somebody "bir kəsi ələ salmaq"; to make the fur fly "səs-küy salmaq","dava salmaq"; on the level "vicdanlı", "namuslu"; spill the beans "ağızdan qaçırtmaq", "sirri vermək"; strike oil "uğur qazanmaq"; to take back seat "çəkinmək", "gözdən itmək"; have a good time "yaxşı vaxt keçirmək"; you bet! "əmin olun"; do one's level best "əlindən gələni etmək"; fly off the handle "özündən çıxmaq", "hirslənmək"; paddle one's own canoe "öz yolu ilə getmək", "heç kimdən asılı olmamaq".Amerika mənşəli frazeologizmlərin müəyyən bir qismini Amerika bədii

ədəbiyyatından alınmış frazeologizmlər təşkil edir. Amerikalı yazıçıların əsərlərdən alınmış frazeologizmlər ingilis dilinin lüğət tərkibinə daxil olmuş və hal-hazırda da ingilislər tərəfindən geniş istifadə olunur. Bunlara aşağıdakı frazeolgizmləri misal göstərmək olar: Vaşinqton İrvinq (XVIII əsr) – A Rip Van Winkle "Rip Van Vinkl", "irticaçı", "köhnəpərəst", "tərəqqi düşməni".Fenimor Kuper (XIX əsr) –bury the hatchet "sülh bağlamaq", "barışmaq"; dig up the hatchet "müharibəyə başalmaq".Q. Lonqfello (XIX əsr) – ships that pass in the night "təsadüfi görüş"(Tales of Wayside Inn); smoke the pipe of peace "barışmaq" (The Song of Hiawtha)Ralf Voldo Emerson (XIX əsr) – hitch one`s wagon to a star "xəyala dalmaq"(Society and Solitude).Cek London (XX əsr) – the iron heel "dəmir daban", "imperializm" (romanın adı)Marqaret Mitçell (XX əsr) – gone with the wind "mövcud olmayan", izsiz itən" (romanın adı).İngilis dili frazeologizmlərinin müəyyən bir qismini ingilis ədəbiyyatından götürülmüş frazeologizmlər təşkil edir. Onların əksəriyyəti görkəmli yazıçı V.Şekspirin əsərlərindən alınmış frazeologizmlərdir. Yazıçı öz əsərlərində bədii məqsəddən asılı olaraq həm ümumxalq dilinə məxsus olan frazeologizmlər, həm də bir sıra hallarda sonralar ingilis ədəbi dilində özünə möhkəm yer tutmuş obrazlı ifadələr, frazeloji birləşmələr yaratmışdır. Ingilis dilində geniş yayılmış bu frazeologizmlər şekspirizmlər adlandırılır. Onlara misal olaraq aşağıdakı frazeologizmləri göstərmək olar:"Macbeth"To make assurance double sure "daha etibarlı olmaq üçün" ;the milk of human kindness "mərhəmət"; to screw one`s courage to the sticking place "cəsarət etmək", "ürəklənmək"; at one feel swoop "bir dəqiqədə"; pride of place " lovğalıq"; to cudgel one`s brains "baş sındırmaq"."Hamlet" The observed of all observers "diqqət mərkəzi"; to do yeoman service "vaxtında yardım göstərmək"; to shuffle off (this mortal cail) "fani dünyanı tərk etmək", "ölmək" germane to the matter "mətləbə keçin"; a towering passion "qəzəb"; in the mind`s eye " xəyalən"; to the top of one`s bent "doyunca", "ürəyin istədiyi qədər". "Othello" The green-eyed monster "qısqanclıq"; the seam side "xoşagəlməyən tərəf", "bir şeyin iç üzü"; to wear one`s heart upon one`s sleeve "öz hisslərini göstərmək", (~ ürəyiaçıq); the pity of it! "çox heyf! ". "King Henry IV" The wish is father to the thought "arzudan istək doğar"; to eat one out of house and home "bir kəsin hesabına yaşamaqla onu iflasa uğratmaq".Merchant of Venice" To have (smb.) on the hip "əlverişsiz şəratidən istifadə etmək"; to one`s heart`s content " ürəyi istədiyi qədər"; a Daniel come to judgement "vicdanlı hakim"; a pound of flesh"dəqiq sayTo gild refined gold "boş şeyə vaxt sərf etmək" (King John); midsummer madness "son dərəcə, "olduqca"; cakes and ale "həyatdan zövq almaq, "qayğısız həyat (Twelfth night); it how the wold wags? "işlər necə gedir? "; in good set terms "qətiyyətlə"; lay it on with a towel "şişirtmək" (As You Like); fancy free "qəlbi boş" (Midsummer Night's Dream); every inch a king "başdan ayağa kimi"(King Lear); good men and true "düzgün, vicdanlı, dürüst insanlar" (Much Ado About Nothing); a fool's paradise "xəyal dünyası" (Romeo an Juilet); salad days "gənclik dövrü" (Antonius and Cleopatra); an inching palm "tamahkar", " pul həvəskarı olmaq" (Julius Caesar); that's flat "qısa və konkret" (Love's Labour Lost)Yazıçının əsərlərindəki frazeologizmlərin əksəriyyətinin tərkibində arxaizmlər və ya köhnəlmiş sözlər var. Məsələn: from whose bourne no traveler returns "o dünya" bu frazeologizmdəki "bourne" sözü arxaizmdir və mənası sərhəd deməkdir. Hal-hazırda bu sözdən müasir ingilis dilində istifadə olunmur. Bu arxaizm yalnız yuxarıda göstərdiyimiz frazeologizmin tərkibində i°lənir.Bəzi şekspirizmlər isə zaman

keçdikcə dəyişdirilmiş və ingilis dilinin lüğət fonduna müasir formada daxil edilmişdir. Məsələn: at one fell swoop (Macbeth) "bir dəqiqədə" frazeolgizmi qismən dəyişdirilmiş və bu frazeologizm müasir ingilis dilinin lüğət fonduna "at one swoop" formasında daxil edilmişdir.To wear one's heart upon one's sleeve for day to pack it "hisslərini gizlətməmək" frazeolgizmi müasir ingilis dilində "to wear one's heart upon one's sleeve" formasnda istifadə olunur. V. Şekspir yuxarıda göstərdiyimiz frazeologizmlərlə öz fikrini çox yığcam, aydın və obrazlı ifadə etmişdir. V. Şekspirdən başqa digər ingilis yazıçılarının da ingilis dilinin frazeologizmlərlə zənginləşməsində böyük xidmətləri olmuşdur. Onların əsərlərindən götürülmüş frzaeologızmlərə aşağıdakıları misal göstərmək olar:Cefri Çoser (XIV əsr) – through thick and thin "qətiyyətlə", "inadla"; wet one's whistle "boğazını islatmaq" (The Canterbury Tales)Edmond Spenser (XVI əsr) – as sure as death "şüphəsiz", "yəqin"; a squire of dames "arvadbaz", "qadın düşgünü" (The Faerie Queen).Con Benyan (XVII əsr) – up and doing "çalışqan", "fəal", "işgüzar" (The Pilgrim's Progress).Con Milton – the cynosure of all eyes "diqqət mərkəzi"; darkness visible "zülmət"; the light fantastic toe "rəqs" (L'Allegro); fall on evil day "yoxsulluq çəkmək" (Paradise Lost).Con Bayrom (XVIII əsr) – tweedledum and tweedledee "əkizlər" (On The Feuds between Handle and Boanancini).Samuel Conson – from Chine to Peru "Çindən Peruya qədər", "hər yerdə" (The Vanity of Human Wishes).Samuel Riçardson – be under somebody's thumb "bir kəsdən asılı olmaq" (The History of Sir Charles Grandison).Tobayas Smollet – pop the question "evlənmə təklifi etmək"(Adventures of Gil Blas of Santilla).Çesterfild – small talk "boş söhbət", "cəfəngiyyat" (Letters to his Son)Corc Qordon Bayron (XIX əsr) – (as) merry as a marriage-bell – "həmişə şən" (Childe Harold's Pilgrimage).Çarlz Dikkens – not to put too fine a point upon it "üzünə demək" (David Copperfield).Valter Skott – to catch somebody red-handed "bir kəsi cinayət üstündə yaxalamaq" (Ivanhoe); dree one's weird "taleyi ilə barmaq" (Antiquary); far cry "böyük fərq", "yerlə göy arası qədər" (The Legend of Montrose).Qenri M. Stenli – the dark continet "qara kontinent", "Afrika" (Through the Dark Continent); a skeleton in the closet "ailə sirri" (The Newcomes).Con Berri (XX əsr) – little Merry "mədə", "qarın" (pyesin adı).Beləliklə yuxarda göstərdiyimiz frazeologizmlərin ingilis dilinin lüğət tərkibinin frazeologizmlərlə zənginləşməsində çox böyük rolu olmuşdur.

İngilis dilinin frazeologizmlərinin əsas mənbəyini Bibliya, bədii ədəbiyyat, mifik rəvayətlər və əfsanələr təşkil edir. Qədim dövrlərdən indiyədək Bibliya insanlar tərəfindən ən çox oxunan kitab olmuşdur. İngilis dili Bibliyadan götürülmüş frazeologizmlərlə o qədər zəngindir ki, onları sayımaq qeyri-mümkündür. Bibliyadan götürülmüş frazeologizmlər bibleizmlər adlandırılır. Ingilis dilində geniş yayılmış bibleizmlərə aşağıdakıları nümunə göstərə bilərik:

To be of one mind "bir fikirdə qalmaq"; to answer a fool according to his folly "bir kəslə layiq olduğu kimi davranmaq"; at the eleventh hour "son məqamda"; in the twinkling of an eye "bir göz qırpımında"; a wolf in sheep's clothing "qoyun dərisi geymiş canavar"; to possess one's soul in patience "səbrini yığmaq"; forbidden fruit " qadağan olunmuş meyvə-haram"; to strengthen somebody's hand "bir kəsi dəstəkləmək"; to hide one's light under a bushes "istedadını boğmaq"; a drop in the bucket "dənizdə bir damla"; daily bread "gündəlik ruzi"; to heap coals of fire on somebody's head "bir kəsi utandırmaq"; to cast pearls before swine "xamlamaq"; the promised land "həsrəti çəkilən yer"; the prodigal son "fərsiz oğul", "ata-anasına ağ

olmuş oğul"; can the leopard change his spots "qozbelə qəbr qazar"; to laugh to scorn "istehza ilə gülmək"; Juda's kiss "riyakarlıq", "xəyanət"; a dead letter "kağız üzərində qalmaq", "həyata tətbiq olunmamış"; to worship the golden calf "sərvətə baş əymək"; to beat the air "boş yerə çalışmaq", "xəlbirlə su daşımaq"; to bend the knee to (smb) "diz çökmək"; built upon sand "davamsız"; to call in question "sual altında qoymaq"; to change one's skin "tanınmayacaq dərəcədə dəyişmək"; to dig a pit for somebody "bir kəsə quyu qazmaq"; to draw a bow at a venture "bir şeyi düşünmədən etmək"; to fall on stony ground "nəticəsiz olmaq", "boşa çıxmaq"; to gnash the teeth "dişlərini qıcırdatmaq"; to go from strength to strength "qüvvətlənmək"; to gird up one's loins "gücünü yığmaq", "gücünü toplamaq"; to have pity on (smb) "yazığı gəlmək", "bir kəsə ürəyi yanmaq"; to fall upon one "bir kəsin davamçısı olmaq"; to lift up one's voice "səsini ucaltmaq"; to take counsel "məsləhətləşmək"; to wash one's hands off "məsuliyyəti öz üzərindən atmaq"; by the sweat of one's brow "öz alın təri ilə"; a labour of love "təmənnasız", "şəxsi mənfəət güdməyən"; the olive branch "zeytun budağı" (sülh simvolu); the law of the Medes and Persians "dəyişməyən qanun"; the mammon of unrigtheousness "pul", "zənginlik"; a little bird (whispered to) me "yerin də qulağı var" (Кунин А.В. Англо-русский фразеологический словарь).

Frazeologizmlərin bəziləri dualardan götürülmüşdür. Məsələn: for better, for worse "yaxşı və pis gündə", "hər nə olursa, olsun"; from the bottom of the heart "səmimi qəlbdən", "ürəkdən"; lay violent hands on oneself "özünə qəsd etmək"; the world, the flesh and the devil "yanlış həvəs"; like a giant refreshed "yeni qüvvə ilə", "yeni hisslə"(The Book of Common Prayer).

Bəzi bibleizmlər zaman keçdikcə formaca qismən dəyişdirilmiş və ingilis dilinin lüğət tərkibinə müasir formada daxil olmuşdur:

The gall and the wormwood "nifrət oyadan bir şey", "mənfur" frazeologizmin komponentlərindən "the" artiklı götürülərək onun forması qismən dəyişdirilmişdir. Bu frazeologizmin müasir forması belədir: "wormwood and gall".

A man soweth, that shall he reap "nə əkərsən, onu da biçərsən" frazeolgizmində to sow felinin arxaik forması atılmışdır. Bu frazeologizmin müasir forması isə belədir: "Whatever a man sows, that shall he reap".

"Hope against hope" "möcüzəyə ümid etmək", "möcüzələrə inanmaq" frazeologizmi "who against hope be alieved in hope" frazeologizminin müasir formasıdır. A lost sheep "yolunu azmış", "yolundan çıxmış (adam)" frazeologizmi bibliyada "for I found my sheep which was lost" formasındadır. A drop in the bucket "də-nizdə bir damla", "çox az" (Bibliyada: as a drop of bucket).

Müasir qloballaşma dövründə dünya xalqları ictimai həyatın bütün sahələrində:elm,mədəniyyət,iqtisadiyyat,siyasət,ədəbiyyat,incəsənət və s.,bir-biri ilə qarşılıqlı və sıx əlaqədədirlər. Bu dillərin yaxınlaşması və bir dildən digərinə frazeoloji birləşmənin keçməsi üçün zəmin yaradır. Bir dildən başqa bir dilə keçən, müxtəlif xalqların bir-biri ilə sıx əlaqəsi, əmək fəaliyyəti, elm və incəsənətin inkişafı nəticəsində əmələ gələn frazeologizmlər beynəlxalq frazeologizmlər adlanır.İngilis dili frazeologizmlərinin əksəriyyəti Qədim Roma və Yunan ədəbiyyatlarından götürülmüşdür. Bu frazeologizmlər aşağıdakılardır:

The golden age "qızıl əsr" (bu frazeologizm yunan yazıçısı Qesiodun poemasından götürülmüşdür. Bu poemada Saturun əsri təsvir olunmuşdur ki, bu əsrdə insanlar qayğısız, rahat, müharibəsiz həyat keçirmişlər); a labor of Hercules "Herkules

əməyi" (həddindən artıq çətin iş); Lares and Penates "larlar və penatlar" (dindar ailə); Achilles' heel "axilles dabanı" (yeganə ən zəif yer); Augean stables "avgi tövlələri" (bərbad, çirkin, baximsiz , xaraba qalmış bir yer); a labour of Sisyphus "sizif əməyi" (ağır və faydasız əmək).

Homerin "İlliada" və "Odissea" poemalarından və digər əfsanələrdən götürülmüş frazeologizmlərdən:Homeric laughter "qəhqəhə ilə gülüş", "qəhqəhə çalıb gülmək"; a sardromic laugh "acı gülüş", "istehzalı gülüş"; winged words "qanadlı sözlər"; between Scylla and Charybdis "iki od arasında qalmaq", "çıxılmaz vəziyyətdə qalmaq"; on the knees of the Gods "bir Allah bilir"; the trojan horse "troya atı" (gizli təhlükə); like a Trojan "cəsur", "igid"; on the razor`s edge "təhlükəli vəziyyət"; Penolope's web "Penelop planı".

ƏDƏBİYYAT

1. Амосова Н. Н. Основы английской фразеологии. Л.,1963 səh 8-10.
2. Hacıyeva Ə. H., Hacıyeva A. K. İngiliscə-azərbaycanca frazeoloji lüğət Bakı, 2006.
3. Кунин А. В. Английская фразеология. М., 1970. səh 7-12; səh 190-206. Кунин А.В. Большой англо- русский фразеологический словарь, М., 2005. Романов С. П., Коралов

D.IBRAGUIMOVA

BORROWED PHRASEOLOGISMS IN THE ENGLISH LANGUAGE

SUMMARY

According to the article about phraseologisms in "Borrowed Phraseologisms in the English Language" it notes that there are different sources of borrowed phraseologisms.The Bible ,fiction,myths and legends arrange the source of the borrowed phraseologisms .Phraseologisms entered the English language especially from the French ,German, Chinese,Arab ,Spanish,Italian,Holland languages .

Д.ИБРАГИМОВА

ЗАИМСТВОВАННЫЕ ФРАЗЕОЛОГИЗМЫ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье «Заимствованные фразеологизмы в английском языке»говорится о различных источниках заимствования фра-зеологизмов. Делается вывод о том,что фразеологизмы в большинстве своем заимстьуются из библии, художественной литературы, из мифов и легенд,с помощью примеров обосновывается проникновение в английский язык фразеологизмов через французский, немецкий, китайский, арабский, испанский, италянский, голландский языки.

Rəyçi: Adilə Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

MƏLEYKƏ ƏSƏDOVA
İRADƏ BƏDƏLOVA
AzTU
iradə.@.mail.ru.

MÜASİR İNGİLİS DİLİNDƏ ELMİ-TEXNİKİ TƏRCÜMƏNİN LEKSİK PROBLEMLƏRİ VƏ ONUN AZƏRBAYCAN DİLİNDƏ İFADƏSİ

Açar sözlər: *elmi-texniki tərcümə, mətn, feil, qrammatik terminlər, praktik tərcümə, cümlə.*
Ключевые слова: *научно-технический перевод, текст, глагол, грамматические термины, практический перевод, фразы.*
Key words: *scientific and technical translation, text, verb, grammar terms, practical translation.*

Bu məqalədə elmi-texniki tərcümənin bir sıra çətinliklərindən danışılır.

Texnikanın sürətlə inkişafı və elmi-texniki informasiyanın genişlənməsi ilə əlaqədar olaraq, elmi-texniki tərcümənin praktik əhəmiyyəti xeyli artmışdır. Tərcümə zamanı meydana gələn çətinlikləri aradan qaldırmağın yollarını göstərən bu məqalədə əsas məqsəd elmi-texniki mövzuda mətnin müxtəlif elementlərini analiz edə bilmək, düzgün tərcümə etmək bacarığı və vərdişlərini inkişaf etdirməkdir.

Giriş və üç hissədən ibarət olan bu məqalədə əsasən ingilis və Azərbaycan dillərinin leksik, qrammatik və stilistik xüsusiyyətləri aydınlaşdırılır.

Birinci hissədə, yəni «Elmi-texniki tərcümənin leksik problemləri»ndə elmi texniki tərcümənin bəzi xüsusiyyətlərindən, neologizmlərin yaranması üsullarından, onların qurulmasından və tərcümə vasitəsi ilə çatdırılmasından bəhs edilir.

İkinci hissədə – «Tərcümənin qrammatik problemləri»ndə praktik tərcümə zamanı rast gələn olduqca mürəkkəb qrammatik quruluşlar araşdırılır. Felin şəxsiz formaları və onların tərkiblərinin izahına xüsusi yer ayrılır. Bu hissədə xüsusilə ingilis və Azərbaycan dilləinin müxtəlif struktur quruluşundan irəli gələn tərcümə problemlərinə fikir verilir, məchul növlü tərkiblər, sözün çoxmənalılığı və çox funksiyalılığı izah edilir.

Üçüncü hissədə – «Elmi-texniki mətnlərin praktik tərcüməsi»ndə isə texniki məqalələrin başlıqlarının struktur və tərcüməsi açıqlanır.

Elmi-texniki məqalələri tərcümə edərkən nəzərə alarmaq lazımdır ki, onların dili ümummilli dilin bir hissəsi olsun. Elmi-texniki ədəbiyyatın dilini bədii ədəbiyyatın dilindən fəqləndirərkən əsas cəhət mətnlərdə müəyyən edilən termin bolluğudur. Mətnin tam dolğun bir şəkildə tərcüməsi üçün vacib olan tələblər aşağıdakaılardır:

1. Orijinalda olan mətnin dəqiq dolğun verilməsi;
2. Fikrin tam aydınlığı ilə lakonik formada çatdırılması. Bunun üçün ingilis dilinin spesifik xüsusiyyətlərini Azərbaycan dilində əks etdirmək vacib deyil. Burada milli kalorit gözlənilməlidir;
3. Tərcümə tam şəkildə Azərbaycan ədəbi dilinin normalarını özündə qoruyub saxlamalıdır. Tərcümə zamanı Azərbaycan dilində yox dərəcəsində olan, lakin ingilis dili üçün xarakterik hesab edilən sintaktik tərkiblərin nəzərə alınması da vacibdir.

Elmi-texniki ədəbiyyatda sübhəsüz ki, emosionallıq, obrazların fərqliliyi, metafora, yumor və s. olmur.

Lakin onu da qeyd etmək lazımdır ki, canlı danışıq dilinə aid olan bu ifadə üsulları olmasa da, elim-texniki mətnlərdə bəzən texniki üslubda obrazlı frazeoloji birləşmələrə də rast gəlmək olar.

Məsələn: *The wife is alive – Məftil cərəyan altındadır.*

Dead man's handle – Təhlükəsizliyi təmir edən düyməli dəstək.

4. Elmi-texniki terminologiyada bir neçə komponentdən ibarət çoxlu terminlər vardır. Çoxkomponentli terminlər elə sözbirləşmələridir ki, onların komponentləri arasında məntiqi əlaqə uzlaşma əlaqəsi ilə ifadə olunur.

Məsələn: *load governer – gücün tənzimlənməyicisi*.

Onlar həm də elə söz birləşmələridir ki, bunların komponentləri qrammatik yolla, yəni sözönü vasitəsilə, ya da saysız-hesabsız şəkilçilərin köməyilə düzəlir.

Məsələn: *rate of ejchange – valyuta kursu*.

Terminli söz birləşmələri sözün həqiqi mənasında tam leksik vahidlərdir.

Birinci qrupa elə terminli sözbirləşməlri aiddir ki, onların hər iki komponenti xüsusi lüğətə aid olan sözlərdir. Onları sərbəstdirlər və verilmiş birləşmələrdən kənarda işlənə bilər. Məsələn: *brake – tormoz*.

Belə ki, bu komponentlərdən ibarət olan terminli birləşmələr sərbəst şəkildə yeni məna kəsb edir.

Məsələn: *brake gear – tormozlaşdırma avadanlığı*.

İkinci qrupa elə terminlər aiddir ki, bu terminlərin birinci komponenti olan sifət bu və ya digər elm sahəsi ilə bağlı xüsusi, spesifik məna kəsb edir.

Məsələn: *vitreous electricty – yarımkeçirici cərəyan*.

İkinci qrupa həm də elə termin birləşmələr aiddir ki, onların 2-ci komponenti həqiqi mənalarda işlənmiş olsun, lakin 1-ci komponentlə birləşmədə isə müəyyən elmi sahəsinə uyğun xüsusi, spesifik məna kəsb etsin.

Məsələn, *electric eye – foto element*.

Üçüncü qrupa aid terminlər terminoloji cəhətdən bölünməzdirlər və onların komponentləri arasındakı əlaqə bir qədər sıx olur.

Məsələn, *wire – gərginlik altında olan naqil; live steam – ilkin buxar*.

Terminin xarakter xüsusiyyəti onun müəyyən anlayışla çıx əlaqədə olması, dəqiqliyi və təkmənalılığa meyd etməsidir. Terminli birləşmələrin komponentləri təyini əlaqədə olur. Bir qayda olaraq terminli birləşmələrin əsas komponenti axırda işlənin. Elmi-texniki terminli birləşmələrin tərcüməsinin əsas üsulları bunlardır.

5. Təyin kimi işlənən birləşmədə komponentlərin ardıcıllığında dəyişiklik etməklə tərcümə.

Məsələn: *avtomobile repair plant construction project – avtomaşın təmiri zavodunun tikinti proyekti*.

Elmin inkişafı, xüsusən də texnikanın, radiotexnikanın inkişafı dildə bir sıra neologizmlərin yaranmsına təkan vermişdir. Yeni sözlər digər bir tərəfdən atom texnikasının başa düşmən tələbatından yaranmışdır. Məsələn, *atom* sözündən bir çox terminlər əmələ gəlmişdir – *atomize, atomizatron, atom energy* və s.

Elmi-texniki terminologiyada neologizmlərin yaranma yolları aşağıdakılardır:

- şəkilçilərlə;
- konvensiya yolu ilə;
- mürəkkəb elmi-texniki sözlərlə;
- ixtisar etmə yolu ilə.

Şəkilçilərlə düzələn neologizmlər özləri də iki yerə bölünür: suffikslər və prefikslər.

Elmi-texniki terminologiya sahəsində ən geniş istifadə olunun prefikslər isə bunlardır: *-re, -over, -under*.

Məsələn: *undervoltage – azaldılmış gərginlik, instellar - ulduzlar* və s.

İngilis dilində yeni sözlər əks hallarda dildə mövcud olan sözlərin dəyişmədən bir nitq hissəsindən, başqa bir nitq hissəsinə keçməsi ilə əmələ gəlir. Bu proses konvensiya adlanır. Konvensiyanın ən geniş yayılmış növü isimlərin felləşməsi prosesidir. Məsələn: *power, to power, motor, to motor* və s.

Mürəkkəb elmi-texniki terminlər yeni söz əmələ gətirmənin elə bir üsuludur ki, burada iki sözün birləşməsindən bir söz yaranır və onlar ya bitişik, ya da defislə yazılır.

Məsələn, *bootleg – kabelin dirəyi, flashbulb – impuls lampası*.

Bəzi mürəkkərb neologizmlər bir-birinə sözün vasitəsi ilə birləşən iki sözdən ibarət olur. Məsələn, *voltage to groud – yerə nisbətən gərginlik*.

Son zamanlar ixtisaretmə yolu ilə yeni sözlərin əmələ gəlmə tendensiyası xeyli genişlənmişdir. İxtisarların sayca artımı onunla izah oluna bilər ki, mürəkkəb söz və söz birləşməlri həcmcə böyük və əlverişli deyillər və təbii ki, buradan onların qısa şəkildə verilməsi tələbatı yaranır. İxtisarların aşağıdakı növləri var:

- hərbi ixtisarlar – *E-east, R-ramlway, HB-hidrogen bomb;*
- hecalarla ixtisarlar – *Maxcap-maximum capacity – maksimum güc;*
- yeni söz əmələ gələrkən bəzən başlanğıc sözdən şəkilçi düşür;
- sözün sonuncu hecasının saxlanması ilə əmələ gələn neologizmlər: *chute – parachute*;
- iki sözdən süni yolla əmələ gələn neologizmlər də vardır ki, buraya əsasən *electronic – elektrikin köməyi ilə hərəkət edən, motel – avtoturistlər üçün mehmanxana* və s. bu kimi sözlər daxildir.

Elmi-texniki neologizmlərin tərcüməsi zamanı ilk növbədə onların yaranması üsullarını bilmək, bunlardan başqa söz və söz birləşməsinin strukturunu da analiz etmək baracığına malik olmaq lazımdır. Belə ki, *follower* sözündəki *er* suffiksi yarışın icraçısını, ya da əşyanı göstərə bilər. Bu sözün əsas mənası eisə follow sözündən yaranan izləmək sözüdür. Sözün strukturu baxımından məzmuna istinad edərək Azərbaycan dilində *follower* terminə bir qədər uyğun gələn məna tapırıq: *təkrarlayıcı, izləyici mexanizm*. Azərbaycan dilində oxşarlığı olmayan neologizmlər bir qayda olaraq əvvəlcə müxtəlif cür tərcümə olunur və müəyyən vaxt keçəndən sonra verilmiş neologizm üçün irəli sürülmüş variantlardan ən yaxşısı seçilir və doğma dilimizdə möhkəmləndirir.

İngilis dilində formaca məlum, məzmunca isə məchul olan felin səxsiz formalarına rast gəlmək olar. Bunlara misal olaraq gerund və məsdəri göstərmək olar.

Məsələn: *after weighing the loads were shipped to the consumers – yüklər çəkiləndən sonra slıcılara göndərildi*.

Bu cür cümlələr xəbəri məchul növdə olan tabeli mürəkkəb cümlə vasitəsilə tərcümə edilir.

To need, to want, to require, to stand, to endure və s. fellərindən sonra gerund məlum növdə işlənir, lakin mənaca məchul növ olur. Bu halda onun ifadə etdiyi hərəkətin kiminsə tərəfində icra edildiyi və ya icra edilməli olduğu göstərilir. Məsələn: *The equipment needs repairing – Bu avadanlıq təmir olunmalıdır.*

Bəzən elmi-texniki məqalələrdə bu cür cerundla yanaşı formaca məlum, məzmunca isə məchul növdə olan məsdə də işlənir.

Məsələn: They were not to use – Onlardan istifadə etmək lazımdı gəlmədi.

Bu cür məsdər əksər hallarda təyin funksiyasını yerinə yetirir və Azərbaycan dilinə təyin bucaq cümləsi kimi tərcümə olunur. Beləliklə də, formaca məlum növdə, lakin məzmunca məchul növdə olan məsdər və cerundlu cümlələr Azərbaycan dilinə ya məlum növdə olan qeyri-müəyyən şəxsli cümlələrdə, ya da müxtəlif budaq cümlələrdə tərcümə oluna bilər. Digər dillərdə olduğu kimi müasir ingilis dilində də modallıq kateqoriyası bir sıra vasitələrlə ifadə edilir. Bunlardan biri də modal fellərdir. Modal fellər məsdərin müxtəlif formaları ilə işlənir. Məsdərlə işlənərkən, modal fellər hərəkətin mümkünlüyünü, qeyri-mümkündüyünü, vacibliyini, gerçəkliyini, lazımlığını və s. bildirir. Modal fellər *car, may, must* məchul növdə olan məsdərlə işlənərkən Azərbaycan dilinə olar, bilər, lazımdır+məsdər növdə olan məsdərlə tərcümə olunur.

Məsələn: *The machine tool can be stopped at any moment –*

Dəzgahı istənilən anda dayandırmaq olar

və yaxud *Dəzgah istənilən anda bayandırıla bilər*.

Must, may və *micht* kimi modal fellər məsdərin bitmiş forması ilə işlənərkən bu zaman hərəkətin bitməsinə əhəmiyyətli dərəcədə əminlik ifadə edir.

Məsələn: *He may have got the condenser he needed – Bəlkə də o ona lazım olan kondenseoneri alıb.*

İndiki zaman feli sifəti, yəni Participle I cümlədə əsasən 2 funksiyanı – təyin və zərflik funksiyalarını yerinə yetirir və əsasənf elin axırına – *ing* şəkilçisi artırmaqla düzəlir. Bu feli sifət məchul növdə olanda çox nadir hallarda təyin funksiyasını yerinə yetirir və təyin olunan sözdən sonra işlənir.

Məsələn: *The compound being treated for several hours turned dark red – Bir neçə saat ərzində tədqiq olunan maddə tünd qırmızı rəngə çevrildi*.

Keçmiş zaman feli sifəti, yəni P II əsas felin 3-cü formasından əmələ gəlir və sərbəst işləndikdə iki funksiyanı yerinə yetiririr.

Təyin funksiyasında olanda o təyin etdiyi söz və yaxud isimdən əvvəl yazılır. Feli sifət II təyin etdiyi sözdən sonar gələ bilər. Bu halda feli sifət indiki və keçmiş zamanın məchul növü ilə, ya da bucaq cümlə kimi tərcümə oluna bilər.

Məsələn: *He offered the best solution of the problem concerned – O müzakirə olunmuş problemin çox yaxşı həllinə təklif etdi*.

Bəzi hallarda Partisiple I tərcümə edərkən Azərbaycan dilində söz sırasını dəyişməku tələb olunur.

Məsələn: *The capactance received is belived to be half the total capacatance required – Əldə edilmiş həcm tələb olunan ümmui həcmin yarısı hesab olunur*.

Feli sifət I və feli sifət II izah edici sözlərin köməyi ilə bir təyin birləşmə əmələ gətirir ki, bu da Azərbaycan dilinə ya indiki və keçmiş zamanın məlum və məchul növləri, ya da təyin budaq cümləsi şəklində tərcümə oluna bilər.

Feli sifət II zərflik funksiyasında işlənəndə onun qarşısında *when, while, if, az, thouch* bağlayıcıları işlənir. Bu zaman onlar Azərbaycan dilində zaman budaq cümləsi və güzəşt bucaq cəmləri şəklində, ya da feli bağlama kimi tərcümə oluna bilər.Məsələn:

They worked as ordered – Onlar tələb olunduğu kimi işlədilər.

While used precision instruments require very dedicate handing –

Dəqiq qurğulardan istifadə edrəknə, onlarla ehtiyatla davranmaq tələb olunur.

İngilis dilində tamamlıq feli sifət tərkii mövcuddur ki, bu da əsasən ümumi halda isim və feli sifətdən ibarətdir. Bu tərkib bütövlükdə cümlədə mürəkkəb tamamlıq funksiyasını yerinə yetirir və Azərbaycan dilinə budaq cümlə vasitəsi ilə, ya da təsirlik halda olan isim və feli sifət vasitəsilə tərcümə edilir.

Tamamlıq feli sifət tərkibi adətən hissi və əqli qavrayış ifadə edən fellərdən – *to have, to get* fellərdən və arzu, istək, niyyət ifadə edən *to want, to wish, to keep* fellərindən sonra işlənir.

They wanted the test results plotted and explained – Onlar istəyirdilər ki, yoxlamanın nəticələri diaqramlar şəklində olsun və izah edilsin.

ƏDƏBİYYAT:

1. Qurbanov A.M.Müasir Azərbaycan dilinin frazelogiyası.Bakı,1963.
2. Abbasova S.Ş.Onomastik əsaslı söz və söz birləşmələri.Bakı-Elm-1998.
3. Bayramov H.A.Azərbaycan dili frazelogiyasının əsasları.Bakı,Marif,1978.
4. Makkai A.İdiom Strukture in Engilish.The Hague-Paris,1972
5. Vəliyeva N.C.Nitq və təfəkkür felləri ilə formalaşan frazeloji vahidlər.Bakı, 1996
6. Oxford,Advanced Learners dictionary,Press 2000.

M.ASADOVA, İ.BADALOVA

IN MODERN ENGLISH TRANSLATION SCIENTIFIC AND ECHNICAL SOME PROBLEMS AND METHODS OF EXPRESSION IN AZERBAIJANI

SUMMARY

The article deals with the difficulties of scientific- technical translation and developments

Of technique problemes arising during the translation and elimination metods of these matters have been reflected in this article?too important terms of the translation are those that the text Should be fish in content$idea should be fully clear and laconic and should keep the norms of тhe literary

M.АСАДОВА,И.БАДАЛОВА

НЕКОТОРЫЕ ПРОБЛЕМЫ НАУЧНО-ТЕХНИЧЕСКОГО ПЕРЕВОДА В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕТ И СПОСОБЫ ИХ ВРАЖЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ.

РЕЗЮМЕ

В этой статье рассматривается некоторые трудности научно-технического перевода

в современном Английском языке и их способы выражения в Азербайджанском языке.

Встатье также анализируется основные трудности возникающие при переводе и методы их устранения также нашли за свое отражение.

Основными условиями при переводе является то что текст должен быть содержательным,идея-ясной и лаконической,обязательное сохранение норм литературного языка.

RƏYÇİ: Adilə Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

ALXASOVA ÇİMNAZ
ŞÜKÜROVA AİDA
çimmnaz-aida.@.mail.ru.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ QRAMMATİK ZAMAN VƏ MODALLIQ BİLDİRƏN SÖZÖNÜLƏRİN LEKSİK-SEMANTİK TƏHLİLİ

Açar sözlər: *İngilis və Azərbaycan dillərində zaman bildirən sözönlərinin semantikası; əsas məna daşıyan sözönləri; hadisə və faktla bağlı sözönləri.*
Key words: *The essence of prepositions, prepositions carrying essential meaning: prepositions attached with events and facts.*
Ключевые слова: *семантика предлогов в английском и азербвйджанском языках; предлоги, имеющие основное значение; предлоги, отображающее факты и события.*

Flektiv dil olan ingilis dilində sözönləri heç bir morfoloji dəyşikliyə uğramır. Azərbaycan dilində isə bəzən qoşma və köməkçi sözlər cəm şəkilçisi qəbul edir. İngilis dilində zaman bildirən sözönləri çox vaxt aid olduqları sözlərdən əvvəl, bəzən isə cümlənin sonunda gəlir. İngilis dilində zaman anlayışı bildirən sözönləri üçün sözönü+isim komponenti səciyyəvidirsə, Azərbaycan dili üçün ad+qoşma tipli birləşmələr daha səciyyəvidir.

Bundan əlavə, onu da qeyd etmək lazımdır ki, ingilis dilində cüt işlənən zaman sözönləri (from...to//till). Azərbaycan dilinə çıxışlıq hal şəkilçisi qəbul etmiş isimlə -can -cən -dək qoşması olan sözün birləşməsi vasitəsilə tərcümə olunur. Bunları nəzərə alaraq sözönlərinin Azərbaycan dilində ifadə vasitələrinin olduqca müxtəlif və bu fəsildə onların bu xüsusiyyətlərini ayrı-ayrı nəzərdən keçirəcəyik. Bu qrupa on, in, under, within, for, during, over, through, about, around, throughout, in the course of və outside sıqzıqnləri daxildir.

In sözönü müasir ingilis dilində ən çox işlənən sözönlərindən biridir. In sözönü fəsillərin adları qarşısında işlənir və Azərbaycan dilində yerlik halla ifadə olunur.

Məsələn, He is some brainless, beautiful creature, who should be always here in winter when we have no flowers to look at, and always here in summer when we want something to chill our intelligence.

Baxmağa güllər olmadığı qış fəslində həmişə burada olan və sərinləşməyə nə isə axtardığımız yay fəslində o, axmaq və gözəl yaraşıq həmişə burda idi.

In sözönü ay adları ilə işləndikdə ayların qarşısında artikl işlənmir. Məsələn: Now early in December before her death, Dorothy had written me about a man she had met in her English class.

Ölümündən qabaq, dekabırın pillərində Doroti mənə yazmışdı ki, ingilis dili dərsində bir oğlanla tanış olub.

In sözönü illərin də qarşısında işlənir və ondan sonra heç bir artikl yazılmır. Məsələn: He rememered hearing that he had bought a seat in 1920 for a hundred and twenty-five thousand of borrowed money, and just before the break sold it for more than half a million.

O, 1920-ci ildə borca götürdüyü yüz iyirmi beş minə birja əməliyyatları aparmaq hüququ əldə etmişdi və tənəzzüldən bir az əvvəl onu yarım milyondan baha satdı.

In sözönü hər hansı bir hərəkət və hadisənin baş verdiyi zamanı göstərmək üçün əsas məna daşıyan morning, afternoon, evening və night sözləri ilə işlədilir. Bu zaman the artiklı istifadə olunur. Məslən,

No one naturally be quite so cheery so early in the morning.

Hec kim səhər tezdən belə gьmrah ola bilməz.

It was five in the morning and there was liquor in the air as they argued and Srgeant Gaspar took them around to the station house.

Onlar mübahisə edəndə səhər saat beş idi, hava nəm idi və Serjant Qaspar onları polis idarəsinə apardı.

Nümunələrdən göründüyü kimi, in sözönü Azərbaycan dilində leksik cəhətdən təcrid olunmuş zərflə ifadə olunur.

Müxtəlif zaman məzmunu bildirən isimlərlə işlədilən in sözönü, mövcud sərhəd fərqini və zamanın keçən dövrünü ifadə etmək üçün də işlədilir. Gələcək zamanla əlaqədar olaraq in sözönü minimum vaxt bölgüsünü göstərir və minutes, moments, days, years sözlərindən əvvəl işlədilir. Məsələn,

In a day or two he was up again, but rough weather holding, he stayed in.

Bir-iki gündən sonra o yenidən qalxdı, lakin pis hava olduğundan o evdə qaldı.

In a minute it would be fitting for me to take my leave.

Bir dəqiqədən sonra mənim məzuniyyət götürməyim üçüm uyğun vaxt olardı.

Yuxarıdakı misallardan göründüyü kimi in sözünü Azərbaycan dilində sonra qoşması ilə ifadə olunur. Bu halda in sözönü after sözönü ilə əvəz oluna bilər. Məsələn,

After a minute I went for Bill, who was standing in the stag line, searching anxiously about for her, and told him she wanted to go home.

Bir dəqiqədən sonra mən, gənc insanların arasında dayanıb narahat şəkildə onu axtaran Bilin dalınca getdim və onun evə getmək istədiyini dedim.

Bəzən in sözönü Azərbaycan dilində içində, ərzində köməkçi sözlər ilə ifadə olunur. Məsələn,

Thare was not any dancingin those days and there was nowhere we could go.

O, günlər ərzində orada heç bir rəqs klubu yox idi və getməyə heç bir yer yox idi.

At sözünü qədim zamanlardan bəri zaman məzmunu bildirən isimlərlə istifadə edilən sıɀıɳlərindən biridir. Bu sıɀıɳьnün qədim ingilis dilində forması at olmuşdur.

Yuxarıda qeyd etdmişdik ki, in sözönü at sözönü ilə sinonim ola bilər, lakin bunlar arasında fərq var. Bu sözönləri bir-birini əvəz edə bilməz, çünki, bu sözönlərinin özünəməxsus xüsusiyyətləri vardır ki, bu da onları bir-birindən fərqləndirməyə imkan verir. At sözönü cümlədə işlədilən zaman dərhal baş verən hərəkəti bildirir. Məsələn,

He'd been in the National Guard division that preceded us in camp; at the last moment he had transferred to aviation and had been left behind/

O, bizi düşərgəyə gətirib çıxaran Milli Qvardiyanın bölməsində idi; son anda o, aviasiya bölməsində keçirildi və arxada qaldı.

Dəqiq yaş göstərildikdə də at sözönündən istifadə olunur. Məsələn,

At twenty-three there is no such thing as a preempted beauty; thoungh, had Bill asked me, I would doubtless have sworn in all sincerity to care for her like a sister.

İyirmi üç yaşında gözəllik itmir; Bilin soruşmasına baxmayaraq, men tarn səmimiyyətlə deyə bilərəm ki, mən bacım kimi onun qayğısına qalırdım.

During sözönü müəyyən bir zamanda və ya zaman içərisində baş verən hadisəni ifadə etmək üçün işlədilir. Bu sözönünün yaratdığı məna Azərbaycan dilində ancaq

zaman anlayışını ifadə edərək dövründə, ərzində, müddət və içində sözləri ilə ifadə olunur. Məsələn,

I promised to dine at Feme Court next day and meanwhile to write Gown what I cold remember of the two pereiods during which I had been in the habit of seeeng Edward Driffield.

Mən növbəti gün Feme Kortda nahar etməyə və Edvard Driffildi görməyə adət etdiyim zamanda yadda qalan xatirələri yazmağa söz vermişdim.

Gördüyümüz kimi, during sözönün Azərbaycan dilindəki başlıca ifadə vasitəsi təyini söz birləşməsi tərkibində işlənən zaman, vaxt sözləridir. Bu sözlər Azərbaycan dilində hərəkətin və ya hadisənin hüdudu məlum olmayan zamanda icrasını və yaxud meydana çıxmasını bildirən zaman anlayışı yaradır və cümlədə aid olduğu sözlə birlikdə zaman zərfliyi olur.

During və for sözönləri mənaca bir-birinə yaxındır. Lakin onların işlənməsində, şübhəsiz ki, müəyyən üslubi fərq vardır. Bunlar bir-birilə sinonimlik təşkil edir. Bunları bir-birinə bağlayan ümumi cəhət hər ikisinin zaman anlayışı ifadə edə bilməsidir. Bu sözönlərinin sinonim olmasına baxmayaraq, bunlar bir birindən müəyyən dərəcədə fərqlənir. During ancaq zaman anlayışı ifadə etdiyi halda, for başqa mənada da işlənə bilər.

During sözönü çox vaxt kitab dilində, for ilə işlənən konstruksiyalar isə daha çox danışdıqda işlənir. For sözönü ilə isim arasında vaxtı daha dəqiq təyin etmək üçün zərf də işlənə bilər. Məsələn,

I am always shy of seeing again people I have not seen for a long time.

Mən həmişə uzun müddət görmədiyim insanları yenidən görəndə utanıram.

For sözönü Azərbaycan dilində bəzən adlıq halda olan sözlərlə də işlənə bilər. Məsələn, I don't see how you can deny that there must be something in a man who's able to cany on for sixty years, writing book, and who's able to hold an everincreasing public. Mən başa düşmürəm ki, siz altmış il kitabi kitab dalınca yazan və inkişaf edən publikanı əlində saxlaya bilən insanı necə inkar edə bilərsiniz.

On sözönü zaman mənasında işləndikdə, tam vaxtı müəyyən etmək üçün işlədilir və hadisənin baş verdiyi tarixi və günü göstərir. On sözönü Azərbaycan dilində ismin yerlik və adlıq halı ilə ifadə olunur. Məsələn,

I knew very well that they had not been there on my last visit and in a casual way. I took one of them out and ran my fingers along the top to see whether there was dust on it.

Mən çox yaxşı bilirəm ki, onlar mənim sonuncu səfərimdə orada yox idilər və qəflətən mən onlardan birini çıxartdım və üzərində tozun olub-olmamasını bilmək barmaqlarımı üzərinə sürtdüm.

On önsözü həmçinin həftənin günləri ilə də istifadə olunur. Məslən,

On Wednesday he received another polite note from McGregor, James and Hay.

Çərşənbə günü o MakQreqor, Ceyms və Heydən digər bir nəzakətli məkyub aldı.

Dildə ən mürəkkəb kateqoriyalardan biii olan modallığa müxtəlif yanaşmalar mövcuddur. Onlardan modallığın söyləmin məzmununun gerçəkliyə olan münasibətinin müxtəlif növlərini, eləcə də söylənən fikrin sıibyektiv kvalifikasiyasının müxtəlif növlərini bildirməsi nöqteyi- nəzəri geniş yayılmışdır. «Modal obyekt»lərin ümumi semantik əlamətini «danışanın nöqteyi-nəzəri» hesab edənlər daha çoxdur. Bu baxımdan modallığın müxtəlif (qrammatik, leksik, prosodik [intonasiya ilə]) ifadə vasitələrinə ırıalik olan altı tipi göstəiilir: 1) danışanın öz söylədiyi fikrin məzmununu reallıq, qeyri-reallıq (hipotetiklik və s.) baxımından qiymətləndirməsi (felin müxtəlif şəkilləri və

zamanları, eləcə də bəzi I bağlayıcılar, partikllar və cümlə strukturunun başqa elementləri ilə ifadə olunur); 2) söyləmdə bildirilən situasiyanın onun mümkünlüyü, zəruriliyi və ya lazımlılığı baxımından qiymətləndirilməsi (modal fellər və başqa modal sözlərlə ifadə edilir); 3) danışanın öz söylədiyi fikrin həqiqiliyinə əminlik dərəcəsini qiymətləndirməsi (modal zərflərlə, ara sözləri ilə, eləcə də baş cümləsi budaq cümlədəki fikrin modal şəkildə qiymətləndirilməsini ehtiva edən tabeli mürəkkəb cümlələrlə ifadə edilir); 4) danışanın məqsədi və ya söyləmin kommunikativ funksiyası (Bıı əlamətə görə bütiin ciimlələr nəqli, sual cümlələrinə, təhrik, təşviq, arzu ifadə edən cümlələrə bölünür. Bu mənalar morfoloji [felin şokillərij, sintaktik [ciimlə konstruksiyası], prosodik [intonasiya] vasitələrlə ifadə ; edilir); 5) cümlədə haqqında danışılan oşya, əlamət vo hadisələr arasında obyektiv əlaqələrin olmasını - olmamasını əks etdirən təsdiq - inkar mənaları (oppozisiyanın birinci iizvii [təsdiq] nişanlanmır, ikinci üzvü qrammatik, sözdüzəldici, leksik və s. vasitələrlə nişanlanır); 6) söyləmin, məzmununun keyfiyyətcə və emosional şəkildə qiymətləndirilməsi (Bu, leksik və prosodik vasitələrlə nida cümlələri ilə, eləcə də nidaların köməyilə ifadə edilir. Bıından başqa, bıı məna ya əsas hissəsində ! qiymətləndirici modus (modal hissə) olan tabeli miirəkkəb cümlə, ya da tərkibində ara sözii olan konstruksiyalar və ifadələrlə təqdim olunur , (xoşbdxtlikdən, bədbəxtlikdən və s.) Lakin modallığın bu ciir şərhində qeyri-müəyyənlik vardır. Ona görə də bu anlayışın daha dəqiq şərh edilməsinə ehtiyac vardır.

Təsvir olunan faktın iştirakçısı ilə bu faktın özii arasındakı münasi- bətlər dörd sözdəyişdirici kateqoriya ilə xarakterizə oluna bilər: modallıq, versiya, obviativlik və nəzarət edilə bilmə. Modalltq elə bir kateqoriyadır ki, onun qrammemləri "P" iştirakçısını "F" faktı ilə əlaqələndirən modallığı xarakterizo cdir.

Modallıq kateqoriyası fellərə tətbiq edilir; onun qrammemləri miibtəda və felin bildirdiyi "F" faktı arasında modal semantik münasibətlər ifadə edirlər.

Modallıq qrammcmləri öz aralarında aşağıdakı semantik münasibətlərlə bağlanırlar:

'istəmək': baza semantik elementidir:

'X P etmək istəyir' ÇX istəyir ki, P etsin');

'bilmək/bacarmaq': 'istəmək' vasitəsilə təsəvviir edilir:

'X P edə bilər' = 'X P etmək istəyirsə, X P edir');

'borclu olmaq' 'bilmək, bacarmaq' vasitəsilə təsəvvür edilir:

'X P etməlidir' = 'X P etməyə bilməz'.

Hind-Avropa dillərində, bir sıra Avstroneziya dillərində müvafiq ınonalar ayrıca leksemləıiə - bir sıra qrammatik xüsusiyyətlərə malik olan modal felləıiə ifadə olunur. Hind-Avropa dillərində başqa fellərdən forqli olaraq, onlar infinitivi bilavasitə - sözönüsiiz və xtisusi partiklsız ifadə edirlər (ingilis dilində onların infinitivi və analitik zaman formaları yoxdıır). Lakin bəzi dillərdə deziderativ, potensialis və debitativ morfoloji yolla ifadə edilə bilər. Məsələn, macar dilində potensialis hər iiç zamanda və iiç fel formasında (indikativ, imperativ və kondisionalis) mümkündür. O, ingilis dilindəki may və ya alman dilindəki dürfen felinin ifadə etdiyi eyni potensiallıq mənasına malikdir: 'icazə verdiyinə görə... bilmək, olmaq', 'haqqı olmaq', 'cürət etmək'. İngilis dilindəki can və alman dilindəki können felinin bildirdiyi məna isə (fiziki imkana malik olmaq', 'fiziki cəhətdən qadir olmaq') bu dildə hərfən 'bacarmaq' mənasını verən tudni feli ilə ifadə olunur Bir sıra tiirk dillərində yalnız potensiali morfoloji yolla ifadə edilir.

Sadalanan məsələlər məruzədə müxtəlif sistemli bir sıra dillərin materialları əsasında geniş təhlilə cəlb edilir.

ƏDƏBİYYAT

1. Axundov Aş Ümumi dilçilik. Bakı, 1988.
2. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı, 1988.
3. Qurbanov A. Müasir Azərbaycan ədəbəi dili. I cild, Bakı, 2003.
4. Арнольд И.В. Лексикология современного английского языка. М., 1978.
5. Зятковская Р.Г. Суффиксальная система совремменого английского языка. М., 1971.
6. Карандащук П.М. Словообразование английского языка. М.,1977.
7. Леотьева С.Ф. Отрицательные аффискы в современном английском языке. М., 1974.
8. Смирницкий А.И. Лексикология английского языка. М., 1956.
9. Rayevskaya N.N. English Lexicology. 1967.

SH.KH.ALKHASOVA, A.SH.SHUKUROVA

ENGLISH AND IN AZERBAIJAN LANGUAGE INFORM TIMS GRAMMATICIEN PREPOSITIONS THE LEXICAL – SEMANTIC ANALYSIS.

SUMMARY

This article is devoted to the essence of prepositions and prepositions carrying essential meaning. The article touches prepositions attached with events and facts as well.

The article analyses the morphological transformation in the prosess of translation of article and parts of speech,also investigation,the category of quantity in the English and Azerbaijan language.

The article analyses mutual words of English origin,words used in the vocabulary of Azerbaijan also some grammatical peculiarities of English terms in Azerbaijan,also their etimolojy and use in Azerbaigani, and meanings in simple s

Ч.Х АЛХАСОВА, А.Ш.ШУКЮРОВА

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЙ АНАЛИЗ ПРЕДЛОГОВ И СУФФИКСОВ ГРАММАТИЧЕСКОГО ВРЕМЕНИ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ.

РЕЗЮМЕ

Данная статья посвящена сущности предлогов и предлогам, имеющим основное значение. Статья затрагивает предлоги, отображающие факты и события.

В статье также рассматривается служебные слова английского происхождения, их этимологии и употребление в Азербайджанском языке,а также их роль и значение в простых и сложнвх предложениях. В статье также анализируется суффиксы и предлоги английского языка и их эквиваленты в Азербайджанском языке.В статье также рассматриается трансформация предлогоов и суффиксов английского языка на русский и Азербайджанский языков.

Rəyçi: Aida Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

Fil.f.d. ƏLİYEVA NURİYYƏ
ADU
nuriye@gmail.com

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SADƏ NƏQLİ CÜMLƏLƏRİN EKSPERİMENTAL TƏHLİLİNƏ DAİR BƏZİ QEYDLƏR

Açar sözlər: *fonetika, intonasiya, tələffüz*
Ключевые слова: *фонетика, интонация, произношение*
Key words: *phonetics, intonation, pronunciation*

a) Şəxssiz cümlələrin eкsperimental təhlili.

Müqayisə olunan ingilis və Azərbaycan dillərində şəxssiz cümlələr əкsər hallarda enən tonla müşayiət olunur. Bunu şəxssiz cümlələrdə nəqli intonasiyanın səciyyəvi olması ilə izah etməк mümкündür.

Təhlil olunan Azərbaycan dilindəкi /Sevəcəк qədər ona bağlanmışdı// şəxssiz sadə nəqli cümləsində maкsimum zaman qiymətləri cümlənin başlanğıcında qeydə alınmışdır. Cümlənin başlanğıcında 80-70 m/san-yə olduğu halda, sonda bu göstəricilər 52-49 m/san-yə qədər aşağı düşür. /Sevəcəк qədər ona bağlanmışdı// cümləsində orta tələffüz sürəti 60 m/san-dir. Cümlədə orta intensivliк 56 db, orta ton tezliyi isə 128 hs-dir.

Qrafiк 1. /Sevəcəк qədər ona bağlanmışdı// və /It seemed so improbable// şəxssiz sadə nəqli cümlələrinin ton qiymətləri.



——————— ingilis dili
- - - - - - - - - - - - - - - - Azərbaycan dili

/Sevəcəк qədər ona bağlanmışdı// cümləsində amplitudların süкunət xəttindən maкsimum uzaqlaşması başlanğıcda qeydə alınmışdır 57-65 db. Cümlədə orta heca intensivliyi 56 db. /Sevəcəк qədər ona bağlanmışdı// cümləsində orta ton tezliyi 128 hs-dir.

Eкsperimentə cəlb olunan ingilis dilindəкi /It seemed so improbable// (Bu elə də inandırıcı görünmürdü.) cümləsində maкsimum ton tezliyi başlanğıcda qeydə alınmışdır. 128 hs-dən başlayan tezliк cümlənin ortasında 145 hs-dəк yüкsəlir, sonda isə tezliк 115 hs-dəк aşağı düşür. Cümlədə orta ton tezliyi 132 hs-dir (bax: qr. 1).

Qrafiк 2. /Sevəcəк qədər ona bağlanmışdı// və /It seemed so improbable// şəxssiz sadənəqli cümlələrində zaman qiymətləri.



_____ ingilis dili
- - - - - - - - - - - - - - - - Azərbaycan dili

İngilis dilindəki /It seemed so improbable// (Bu elə də inandırıcı görünmürdü .) cümləsində yüksək göstəricilər cümlənin əvvəlində qeydə alınmışdır – 124-130 m/san. Təhlil olunan cümlədə orta zaman qiyməti 93 m/san-dir (bax: qr. 2).

/It seemed so improbable// (Bu elə də inandırıcı görünmürdü.)cümləsinin sonuna doğru amplitudlar xeyli zəifləyir. Cümlənin başlanğıcında 84 – 86 db olduğu halda, sonluqda intensivlik 68 db-ə qədər aşağı düşür. Cümlədə orta intensivlik 77 db (bax: qr. 3).

Qrafik 3. /Sevəcək qədər ona bağlanmışdı// və /It seemed so improbable// şəxssiz sadə nəqli cümlələrində intensivlik qiymətləri.



_____ ingilis dili
- - - - - - - - - - - - - - - - Azərbaycan dili

Təhlil olunan digər Azərbaycan dilindəki /Həyatda çox əzablar çəkib// cümləsində akustik parametrlərin orta qiymətləri aşağıdakı qaydada paylanmışdır: orta ton tezliyi 138 hs., orta intensivlik 56 db, orta tələffüz tempi 62 m/san- dir (Bax: qr. 4).

Bu cümlənin başlanğıcında hər üç parametrin məxsus olduğu qiymətlər xeyli yüksəkdir. Cümlənin sonuna doğru hər üç parametrin qiymətlərində zəifləmələr müşahidə edilir. Məsələn, cümlənin əvvəlində zaman göstəricisi 68-71 m/san-yə, sonluqda isə 52 m/san civarında qeydə alınmışdır. Cümlənin başlanğıcında intensivlik 59 db, sonunda isə 4,8 db-ə qədər zəifləyir. /həyatda çox əzablar çəkib// cümləsində ton tezliyi 167 hs-dən başlayır və sonluqda 97 hs-dək enir (Bax: qr. 4).

Qrafik 4. /It was not hot// və /həyatda çox əzablar çəkib// şəxssiz cümlələrinin orta zaman qiymətləri



_____ ingilis dili

- - - - - - - - - - - - - - - - Azərbaycan dili

Ingilis dilindən seçilmiş /It was not hot// (İsti deyildi.) cümləsində akustik parametrlər aşağıdakı qaydada paylanmışdır: burada orta zaman 98 m/san, orta ton tezliyi 144 hs, orta intensivlik 8,3 db-dir (bax: qr. 4, 5, 6).

Qeyd etmək lazımdır ki, müqayisə olunan hər iki cümlədə, istər Azərbaycan, istərsə də ingilis dilindəki cümlələrdə maksimum akustik göstəricilər başlanğıc fazalar üçün səciyyəvidir. Bunu isə həmin cümlələrin nəqli intonasiya ilə tələffüz olunması ilə əlaqələndirmək mümkündür.

Qrafik 5. /It was not hot// və /Həyatda çox əzablar çəkib// şəxssiz cümlələrinin ton tezliyinin qiymətləri



_____ingilis dili

- - - - - - - - - - - - - -Azərbaycan dili

Qrafik 6. **/It was not hot// və /Həyatda çox əzablar çəkib// şəxssiz cümlələrinin intensivlik qiymətləri**



ingilis dili
Azərbaycan dili

b) Qeyri-müəyyən şəxsli sadə nəqli cümlələrin eksperimental-fonetik təhlili.

Qeyri-müəyyən şəxsli cümlələrdə adətən nəqli intonasiyadan istifadə olunur, başqa sözlə desək, bu tip cümlələr üçün bitkinlik intonasiyası səciyyəvidir.

Təhlilə cəlb olunan Azərbaycan dilindəki /Bu il də yazı Qarabağsız qarşıladılar/ cümləsində danışıq tempi cümlənin sonuna doğru zəifləyir: 58-56-60-75-58-60-58-57-55-56-36-50-43 m/san (bax: qr. 7).

Cümləboyu amplitudlar sönən istiqamətdə hərəkət edir. Intensivlik zirvəsi cümlənin başlanğıcında qeydə alınmışdır – 66 db. Təhlil olunan cümlənin sonunda amplitudlar zəifləyərək 54 db-ə qədər aşağı düşür (bax: qr. 7).

/Bu il də yazı Qarabağsız qarşıladılar/ cümləsində əvvəlki parametrlərdə olduğu kimi, ton tezliyi də cümlənin sonunda hiss olunacaq dərəcədə zəifləyir. Məsələn, cümlənin əvvəlində ton tezliyi 145 hs olduğu halda, sonunda melodiklik 92hs-ə qədər azalır (bax: qr. 7).

Təhlil olunan /Bu il də yazı Qarabağsız qarşıladılar/ cümləsində orta tələffüz tempi 57 m/san, orta ton tezliyi 139 hs, orta intensivlik isə 6 db-dir (bax: qr. 7).

Qrafik 7. /They couldn't stop him from greeting with her// və /Bu il də yazı Qarabağsız qarşıladılar/ cümlələrinin zaman qiymətləri



İngilis dili
Azərbaycan dili

Təhlil olunan ingilis dilindən seçilmiş /They couldn't stop him from greeting with her// (Onlar onu görüşdən dayandıra bilmədi .) cümləsində orta ton tezliyi 125 hs, orta intensivlik qiyməti 78 db, orta tələffüz sürəti isə 90 m/san-dir (bax: qr. 7, 8, 9).

/They couldn't stop him from greeting with her// (Onlar onu görüşdən dayandıra bilmədi .) cümləsində maksimum akustik göstəricilər başlanğıc fazada qeydə alınmışdır. Məsələn, cümlənin əvvəlində tələffüz tempi 126 m/san olduğu halda sonda bu göstərici 62 m/san-yə qədər zəifləyir. Cümlədə intensivlik zirvəsi başlanğıc fazada qeydə alınmışdır 88 db (bax: qr. 7, 8, 9).

Qeyd etmək lazımdır кi, qeyri-müəyyən şəxsli cümlələrin sonda göstərdiyi aкustiк göstəricilər onun cümlənin əvvəlində və ortasındakı qiymətlərindən xeyli aşağıdır. Buna həmin qiymətləri tutuşdurduqda tam əmin olmaq mümкündür.

Cümlə intonasiyasının tədqiqi zamanı dilin intonasiya və sintaktik vasitələrinin qarşılıqlı fəaliyyətinə diqqət yetirmək və cümlədə onların məna münasibətləri ifadə etməsində rolunu müəyyənləşdirmək üçün eksperimental-fonetik metoddan, yəni kompüteroqramlardan, səs siqnalının vizual müşahidəsi mümkün olan üç parametrdən; tezlik, uzunluq və intensivlik göstəricilərindən istifadə etmişik.

ƏDƏBİYYAT

1. Danes F.Sentence intonation from a functional point of vievv. Kopenhagen.,1960.
2. Widdowson H .Y. Exploration in Applied Linquistics..Oxford University Press, 1979
3. Brown, H.D.Principles of language learning and teaching. Longman publication, 2000.

NURIYYA ALIYEVA

SOME NOTES ABOUT THE EXPERIMENTAL ANALYSES OF SIMPLE DECLORATIVE SENTENCES İN MODERN ENGLİSH AND AZERBAİJANİ.

SUMMARY

This article is devoted to the experimental analyses of simple declorative sentences both in english and Azerbaijani languages. While analysing these sentences great attention vvas given to the linguistic facts taken from the experimental analyses on the basis of the methodology developed in the laboratory of Experimental Phonetics and applied Linguistics at Azerbaijan University of Languages.One of the important goals ofthe article is to detect and find out their intonational use in different positions.

НУРИЯ АЛИЕВА

НЕКОТОРЫЕ ОТМЕТКИ О ЕКСПЕРИМЕНТАЛЬНОГО АНАЛИЗА МОДЕЛЕЙ ПРОСТЫХ ПОВЕСТВОВАТЕЛЬНЫХ ПРЕДЛОЖЕНИЙ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Статья посвящена о експериментального анализа моделей простых повествовательных предложений в современном английском и азербайджанском языках. Течение анализа боль шое внимание обращено на лигвистические факты полученные от экспериментального анализа на основе методики разработанной в лаборатории экспериментальной фонетики и прикладной лингвистики при кафедре фонетики ,грамматики и истории немецкого языка АУЯ. Один из важнейщих цель раскрывать их интонационное употребление в разных позициях.

Rəyçi:fil.f.d.S.Səlimova

Fil.ü.f.d. ŞƏHLA KƏRİMOVA
Azərbaycan Dövlət İqtisad Universiteti
ş.kerimova@gmail.ru

MƏTNİN YARANMASINDA VERBAL VƏ QEYRİ VERBAL İFADƏ VASİTƏLƏRİNİN ROLU HAQDA

Açar sözlər: *mətn, verbal ifadə vasitələri, qeyri-verbal ifadə vasitələri, kompozisiya, süjet, leytmotiv, motiv, dialoq, dialoji nitq*
Key words: *text, explicit means of expressions, implicit means of expressions, structure, plot, leytmotive, motive, dialogue, dialogical speech*
Ключевые слова: *текст, вербальные средства выражения, невербальные средства выражение, художественный текст, композиция, сюжет, лейтмотив, мотив, диалог, диалогический речь*

Müasir dilçiliyin ən aktual problemlərindən olan mətn dilçiliyi struktur-semantik cəhətdən uzun müddətdən bəri mühüm tədqiqat obyektinə çevrilmişdir. Müxtəlif dilçilərin bu sahədəki uzun müddətli tədqiqatları bizə mətnin daha dərin, mürəkkəb bir anlam olduğunu bir daha sübut edir.

Mənti təşkil edən amilləri, əlaqə vasitələrini və sair analiz etmək istəyərkən onu müxtəlif meyarlara ayırmaq ehtiyacını hiss edirik. Çünki mətnin mürəkkəb quruluşunu makromətn çərçivəsində öyrənmək mümkün deyil. Biz onu mütləq müəyyən hissələrə – yəni mikromətnlərə ayırmalıyıq. Bu sahədə aparılan tədqiqat işlərinə nəzər saldıqda makromətnin müxtəlif adlarına rast gəlirik. Misal olaraq diskurs mürəkkəb sintaktik bütöv, frazeoloji vahid və s. göstərmək olar.

O.İ. Maskalskaya – makro – tekstin malik olduğu mikrokompozisiyanın mahiyyətini mübahisəli hesab edirdi. O əsərlərində mikrokompozisiyadan danışarkən ən çox abzas terminindən istifadə etmişdir.

E.A.Çernyaxovskayaya görə qeyri-dil situasiyasının əksini təmin edən informasiya komplekslərinin və onlar arasında əlaqələrin bütöv iyerarxiyası ayrılır. Bəhs etdiyimiz konsepsiyaya əsasən tərkibində, müəyyən məkan, zaman və modal parametrlərində mövcud hər hansı bir qeyri-mətn obyekti və yaxud bir neçə qarşılıqlı əlaqəli qeyri-mətn obyektləri haqqında danışılan mətn kəsiyinə söyləm adlandırılan standart mətn vahidi kimi baxılır. Mətn dil məhsuludur və mətn dilin ifadə vasitələri əsasında yaradılır. Mətn müəyyən bir tamdır və tamın ümumi, eləcə də əsas məzmunu vardır. Bununla yanaşı, hər bir mətnin yaradılmasının müəyyən bir məqsədi olur. Həmin məqsəd mətn üçün aparıcıdır. Mətni yaradan onun müəllifidir. Mətni yaradan onu özü üçün yaratmır. Deməli, mətni qəbul edən tərəf vardır. Mətni yaradan üçün onu qəbul edən tərəfin hansı informasiyanı əldə etməsi vacib şərtdir. Eyni zamanda, mətni qəbul edən tərəf üçün də hansı informasiyanı qavramaq istəyi mövcuddur. Mətnin yaradılma, ötürülmə, qəbuledilmə və qavranılması ilə bağlı amillər toplusu geniş və rəngarəngdir. Bu məsələ dilin funksional üslubları əsasında araşdırıla bilər. Makro – tekstdən fərqli olaraq, mikro – tekst əslində xüsusi linqvistik metodların koməyi ilə öyrənilə bilər, belə ki, o, özünü, makro-tekstin tərkib hissəsi kimi göstərir. Dilçilik ədəbiyyatında mikro-tekstlə yanaşı, eyni hadisənin elmi adı üçün «tekst», «mürəkkəb sintaktik bütöv», «period», «diskurs», «abzas», «fraza-fövqü vahid» və başqa sintaktik terminlərdən də istifadə olunur. Bu terminlərin, demək olar ki, hamısı genetik baxımdan qohumluq anlayışları ifadə edirlər və əsasən bir-birini əvəz edirlər [1,s.180].

Mətnin elə formaları da vardır ki, onlarda məlumat geniş spektri ilə seçilir. Belə, mətnlər adresata yalnız xəbərin, məlumatın çatdırılması məqsədini daşımayıb, həm də ona təsiri nəzərdə tutur. Bədi mətnlər bu baxımdan daha geniş aspektlidir. Adresata təsir mətnin yalnız verbal ifadə vasitələri əsasında formalaşmasından kənara çıxır. Bu zaman mətni yaradan qeyri-verbal ifadə vasitələrindən də istifadə edir. Qeyri-verbal ifadə vasitələrinin dairəsi də genişdir.

Bəzən tədqiqatçılar qeyri-verbal ifadə vasitələrini dilin ifadə vasitələrindən fərqlənən bir toplu kimi müəyyənləşdirirlər. Şəkil, cədvəl, qrafik, illüstrasiya, musiqi, kursiv, simvol, səs, jest, mimika və s. bu topluya daxil edilir. Lakin qeyri-verbal ifadə vasitələri dilin özündə də yer alır. Dilin metodik funksiyası onun müəyyən təsir, effekt və izahları reallaşdırmağı nəzərdə tutur. Mətn vahidləri əsasındakı əlaqələrin müəyyən bir qismi dil vahidləri əsasında gedir. Məsələn, təkrarların mətnyaratma xüsusiyyətləri vardır.

Mətndə özünü göstərən təkrarlar spesifik bir sistem yaradırlar. Belə ki, burada təkrarların ən müxtəlif struktur növlərinə rast gəlmək mümkündür və özünün struktur mürəkkəbliyindən və ya sadəliyindən asılı olmayaraq təkrar prinsip etibarilə mətn bütövlüyünə xidmət edən çox möhkəm bir üsul kimi üzə çıxır.

Məlumdur ki, mətn sözlərinin bir-biri ilə struktur-semantik əlaqəsi fövqündə formalaşır. Əlaqələnmə sintaktik, struktur və semantik vasitələrin köməyi ilə gedir. Yalnız cümlə formasında tamamlanmadan sonra mətn ilk vacib fazanı alır. Mətn sözdən başlayaraq genişlənir. Mətndə sözlər məna əlaqələri ilə bir-birinə bağlana-bağlana artır. Mətn, «müxtəlif leksik, məntiqi və qrammatik əlaqələrdə birləşmiş, müəyyən şəkildə təşkil olunmuş və istiqamətlənmiş informasiyanı ötürməyə xidmət göstərən cümlələrin düzülmüş çoxluğudur. Mətn struktur-semantik vəhdətdə mövcud olan mürəkkəb tamdır» [3,s.11].

Mətnə aid iki xüsusiyyət – koherensiya və koqeziya onun, yəni mətnin formalaşmasında xüsusi rol oynayır.

«Koherentliyi koqeziya ilə eyniləşdirmək olmaz. Koherentlik mətnə, kofeziya isə mətnin cümlədən kiçik olmayan vahidinə xas xüsusiyyətdir. Koherntlik mətnin leksik-semantik, qrammatik (hər şeydən əvvəl sintaktik və üslubi aidliyi, eləcə də onu təşkil edən cümlələrin qarşılıqlı asılılığından ibarət tamlığı kimi başa düşülür» [2,s.50].

Mətnin koqeziyası, yəni komponentlərin mətndaxili əlaqələrinin cəmi bir sıra faktorların köməyilə reallaşır. Praktik olaraq dilin istənilən səviyyəsi koqeziya üçün nə isə verir və bu vasitələrin əsasında iki ən ümumiləşdirici vasitələr qrupunu ayırmaq lazımdır. Bunlardan biri komponentlərin məna əlaqəsi, o biri komponentlərin struktur əlaqəsidir. Hər iki əlaqə tipini «sintaktik» adı altında birləşdirmək mümkündür. Bu əlaqələr sintaktik qəbildəndirlər. Amma bu tipli sintaktik əlaqələrdən başqa da mətndə komponentlərin bir-biri ilə bağlandığı əlaqə üsulları vardır. Məntiqi sintaktik üsul tekstdaxili əlaqələrin iki əlaqə növünü verir: zəncirvari və paralel.

Cümlənin tərkibinə daxil olan, onu təşkil edən elementlər sözlərdir. Bu sözlər həm də dilin leksik sisteminin vahidlərilir. Onların hər birinin semantikası vardır. Bir sıra sözlər leksik mənaya malik olmur. Dildə belə sözlər köməkçi nitq hissələri adı altında qruplaşdırılır. Sözlərin semantik tutumu onları bir-birindən fərqləndirməyə imkan verir. Lakin heç bir konkret məna ifadə etməyən söz ümumi məzmunun yaradılmasında müəyyən funksiyanı həyata keçirir. Bəzən bu funksiya qeyri-verbal ifadə vasitələrini əvəz etməyə xidmət göstərir.

A.Marti avtosemantiklik və sinsemantiklik kateqoriyalarından danışarkən onların bəzən dilin paradiqmatik və sintaqmatik oxları ilə yanlış olaraq eyniləşdirilməsini qeyd edir. A.Marti avtosemantik və sinsemantikaya ifadə və məzmun arasındakı bütöv əlaqələr sistemindən, dilin daxili formasından çıxış edərkən yanaşmanın düzgün olduğunu göstərir. Onun fikrinə görə, avtosemantik dil vasitələri psixi hadisələrin tam kommunikativ ifadəsinə imkan verən vasitələrdir. Sinsemantik vasitələr isə belə xüsusiyyətə malik deyillər, onlar başqa ifadələrlə, ünsürlərlə birləşdikdə avtosemantiklik qazanırlar [4,s.133].

Mətn elə bir çoxduqdur ki, onun elementləri (komponentləri) müəyyən şəkildə qarşılıqlı olaraq əlaqədədirlər. Mətnin komponentləri kimi ayrı-ayrı bitkin cümlələr özünü göstərir. Konkret olaraq mətnin kompozisiyasını müəyyənləşdirmək lazımdır. Bunu isə mətn komponentlərinin ötürdükləri informasiyanın vacibliyini nöqteyi-nəzərindən mətn quruluşunda nə şəkildə yerləşdirilməsi ilə müəyyənləşdirmək mümkündür. Kompozisiya ədəbiyyatşünaslığa aid anlayışdır. Lakin bir tam kimi mətnin qavranmasında kompozisiya özünəməxsus rol oynayır. Kompozisiyanın konkret linqvistik ifadə vasitələri yoxdur. Kompozisiya verbal və qeyri-verbal ifadə vasitələrinin toplusu ilə formalaşır. O.İ.Moskalskaya kompozisiya məsələlərindən tekst deyil, frazafövqü birlik deyil, məhz abzas terminindən istifadə edir. Onun fikrincə, abzas bilavasitə kompozisiya səviyyəsinin vahididir. Əlbəttə, kompozisiya formal plana aid hadisədir. Digər tərəfdən bir tekstin və abzasın münasibətindən danışarkən onu məzmun və formanın münasibəti kimi müəyyənləşdiririk. Əgər bu mövqedən yanaşsaq, kompozisiyanın əlaməti kimi qəbul edirik. Amma, bütün bununla yanaşı, qeyd etməmək olmaz ki, kompozisiya abzasın quruluşuna məhz mətn vasitəsilə yeridilir. Kompozisiya ölçüləri öz-özlüyündə məhz mətn yaradan struktur dəyərlərdir [1,s.225].

Kompozisiya mətn dilindəki compositio sözündən olub, «tərtib etmə, bağlama» mənasındadır. Bədii əsərin məzmunu, xarakteri, təyinatı və qavranması ilə bağlanan quruluşudur. Kompozisiya bədii formanın vacib elementi olub, onun tamlığını və bitkinliyini yaradır, bədii mətnin komponentlərini bir-birinə tabe edir.

Mətnin yaranmasında təkrarların mühüm rolu vardır. «Təkrar mətn daxilində dairəni cızmağa başlayır, həmin element özünəqayıdışı tələb edir, qapanma açıq olmaqla yanaşı, özünəməxsus intonasiya axını ilə də fərqlənir, daha doğrusu, mətnin hər iki nöqtəsində yüksələn intonasiya axını müşaiyətçi mövqedə durur» [3, s. 148]. İntonasiya, məntiqi vurğu, söz sırasının dəyişdirilməsi, bəzi orfoqrafik işarələrin yeni düzümdə istifadə olunması, üç nöqtə və s. mətnin daxilində yer alır. Dilə aid olan bu elementlərin praqmatik aspektləri vardır. Onların həm verbal, həm də qeyri-verbal ifadə vasitəsi olmaq imkanları məlumdur. Poeziya nümunəsinin bu sahədə püxtələşmiş aktyor tərəfindən oxunması ilə həvəskarın ifası arasında fərq vardır və bu fərqlər qeyri-verbal ifadə vasitələri toplusunda aşkara çıxır. Təkrarın mətnyaratma xüsusiyyətləri mətn dilçiliyinin tədqiqat arsenalı ilə açıqlanır. Lakin təkrarın şüuraltı təsiri qeyri-verballığı ilə seçilir. Oxucu özü də hiss etmədən eyni sözün mətnin müəyyən hissələrində təkrarlanmasını xatırlayır və məzmunla bağlı əlavə nəticələr çıxarır. Təkrar oxucuya, adresata təsir etmək imkanına malikdir.

Bədii mətn müəyyən kompozisiyaya malik olur. Bədii ədəbiyyatda kompozisiya əsərin komponentlərinin motivləşməsidir. Bədii əsərin kompozisiyasında dinamik inkişaf edən məzmun nitqin müxtəlif tip və formalarının, müxtəlif üslubların müəllif obrazında sintezini tapan və ekspressiv nitq vasitələrinin tam sistemini yaradan müəyyən ardıcıllığı ilə açılır.

Son illərdə linqvistikaya aid elmi ədəbiyyatda təkrar olunan komponentlərin

tədqiqi onların mətnyaratmanın zahiri tərəfi kimi formal təsviri və onların daxili kompozisiyanın təşkilindəki rolunu öyrənməyə köklənir. Eyni zamanda kompozisiyanın tematik cəhətlərinə, onun semantik təşkilinə də diqqət artmışdır [5].

Beləliklə, mətnin formalaşmasında verbal və qeyri-verbal ifadə vasitələrinin özünəməxsus rol oynaması, qeyri-verbal ifadə vasitələrinin bədii mətnin sujeti, leytmotivi, açar sözləri ilə bağlı olması aşkara çıxır. Deməli, mətn verbal və qeyri-verbal ifadə vasitələrinin qarşılıqlı əlaqəsi və təsiri zəminində yaranır.

Mətnin sujeti və leytmotivi olur. Alman dilindən alınma olan leytmotiv termini ədəbiyyatşünaslığa və dilçiliyə musiqidən gəlmişdir. Musiqişünaslıq termini leytmotiv personajın predmetin, hadisənin, ideyanın şərti göstəricisi kimi, musiqi əsərinə daxil edilən və təkrarlanan musiqi hissəsinə deyilir. Leytmotiv hadisələr ardıcıllığında insan fəaliyyətinin əsas dominant başlanğıcı kimi qəbul edilmişdir. Leytmotiv əsərin aparıcı xəttidir. Dilçilikdə Leytmoivin aparıcı sözlər əsasında formalaşması da qeyd olunur. Məsələn, N.L.Zıxovskaya söz leytmotivi terminini daxil edir və onu belə təyin edir: «Söz leytmotivi əsərin poetikasının təkrarlanan elementi olub məzmun dəyərinə görə fərqlənən mətnin qeyd olunmuş fraqmentində məzmun artımı kimi səciyyələnir».

Mətndə leytmotivin təyini, onun dinamikası müxtəlif formalarda təzahürünü tapır. 1) təkrarlanma, 2) leytmotiv eksplikasiyasının mətnin güclü yerində işlədilməsi; 3) leytmotiv eksplikasiyada leksik və qrafik göstəricilərin mövcudluğu; 4) leytmotivin yeni komponentlərlə zənginləşdirilməsi; 5) leytmotivlərin bir-biri ilə əlaqələnərək paradikmatik sırada birləşməsi altı paradikmadik sıraya daxil olan leytmotivlərin ambivalentliyi. Semantik mənası qabarıq görünən söz, intensivikatorlarla birgə işlənmə, ekspessiv sözlər, dissonans birləşmələr, hadisənin qəfil baş verməsinin, qeyri-adiliyinin göstəriciləri, məcazlar, üslubi fiqurlar – bunların hər biri müəyyən funksiya yerinə yetirir. Kontekstin əsas məzmununu üzə çıxarır. Motiv məzmunundakı konfiliktə və ya yerləşdiyi kontekstə görə həmişə leytmotivə çevrilmir. Leytmotivlər simvolik xarakter daşıyır, sujetdə sturuktur yaratmır və beləliklə, mətnyaratma funksiyasına malik olur. Belə hal özünü göstərdikdə təkrar imperativ təkrara çevrilir və başqa məqsədə xidmət edir.

Mətnin yaranması motivi «mand» (demand) termini ilə işarə edilən tələb və ya informasiya xarakterli və ünsiyyətlə əlaqədar hər hansı müraciət ola bilər. Bu akt (kontakt termini adlanır. Buraya həmçinin insanın öz fikrini daha aydın ifadə etmək istəyi ilə əlaqədar olan motivi də əlavə etsək (bunu şərti olaraq) «sept» termini ilə işarə etsək bu üç əsas motiv mətnin yaranmasının əsasını təşkil edir.

Əgər bu motivlərdən heç birisi mövcud olmursa, mətn yaranmır, eyni zamanda məlumat da verilmir. Deyilişin motivi həmsöhbətin sualına cavab vermək istəyi olur və insanın onun fəal deyilişə sövq etmək üçün məxsusi, xüsusi motivə ehtiyacı olmur. Beləliklə, burada da deyilişin yaranması üçün xüsusi müstəqil motiv lazım deyildir. Deyiliş cavab prosesi olmaqla aktiv deyil, daha çox reaktiv xarakterə malikdir. Dialoq nitqinin müxtəlif formaları vardır. Bunlardan ən sadəsi elə bir formadır ki, bu zaman cavab tamamilə sualın təkrarı olur. Və bu sualın bir hissəsini əks etdirir. Bu hallarda deyilişin yaranması üçün heç bir xüsusi yaradıcılıq fəaliyyəti uyğun gəlmir. Lakin unutmaq olmaz ki, dialoq mətnlərinin daha mürəkkəb forması da mövcuddur ki, bu zaman cavab sualın bir hissəsini təkrar etmir və subyektdən tələb edilir ki, nəsə yeni bir fikir formulə etsin. Dialoq nitqinin bu forması psixoloji cəhətdən daha mürəkkəbdir və psixoloji proseslərin daha mürəkkəb tərkibi ilə təmin edilir. Subyekt sualı başa düşməlidir (bu sual onda deyilişin əsas motivini yaradır) və daha sonra onda yaranan alternativlərdən birisini seçməli və sualı təkrar etməməklə fəal deyilişi formulə etməlidir. Beləliklə idrakın və nitqin qarşılıqlı əlaqəsinə aid olan əsas

koqnitiv problem, subyektiv olan, hələ sözlərlə tərtib olunmamış və yalnız fikrin subyektinə aydın olan mənanın sözlə tərtib edilmiş və mətndə formulə edilən və hər bir dinləyici üçün aydın olan mənalar sisteminə keçmək problemindən ibarətdir. Bu mənadan mənaya keçid problemi isə məhz mətn anlanmasının formalaşdırılmasının mərkəzi problemidir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə. Aktual üzvlənmə və mətn.: Bakı: 1998.
2. Аспекты общей и частной лингвистической теории текста. М.:Наука. 1982.
3. Тураева З.*Я.* Лингвистика текста. Москва.: Просвещение, 1986.
4. Максимов Л.Ю. О соотношении конструктивных и ассоциативных связей слова в стихотворной речи. // Русский язык. - М: МГПИ, 1975.
5. Зыховская Н.Л. Словесные лейтмотивы в творчестве Достоевского: Автореф. дисс. канд. филол. наук, Екатеринбург, 2000.
6. Доманскии К.В. Архетипические мотивы в русской прозе XIX века: Опыт построения типологии// литературный текст: проблемы и методы исследования. Вып. IV, Тверь, ПУ, 1988, с. 19-29, с.19.

KERIMOVA SHAHLA

THE ROLE OF THE VERBAL AND NON-VERBAL COMPONENTS IN THE FORMATION OF THE TEXT

SUMMARY

The article studies the questions of the verbal and non-verbal components in the formation of the text. Text as a complex whole contains verbal and nonverbal components. The analysis shows that these components are interrelated. They are interact and complement each other in the process of text. While analyzing the text great attention was given to the linguistic facts taken from linguistic literature.

КЕРИМОВА ШАХЛА

РОЛЬ ВЕРБАЛЬНЫХ И НЕВЕРБАЛЬНЫХ СРЕДСТВ ВЫРАЖЕНИЯ В ФОРМИРОВАНИИ ТЕКСТА

РЕЗЮМЕ

В статье рассматриваются, вопросы связанные с участием вербальных и невербальных средств выражения в формирования текста. Текст как сложное целое содержит вербальные и невербальные компоненты. Анализ показывает, что эти компоненты взаимосвязаны. Они в процессе формирования текста взаимодействуют и дополняют друг друга. В течение анализа текста большое внимание обрашено на лингвистические факты, полученные из лингвистических литератур.

Rəyçi: fil.ü.f.d. Nuriyyə Əliyeva

ГЮЛЬНАРА ИСМАИЛОВА
АзТУ
гюльнара.@.mail.ru.

НЕКОТОРЫЕ ПРОБЛЕМЫ МЕТАФОРЫ И ЕЕ ФУНКЦИИ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Açar sözlər: *metafora,ingilis dili,funksiya,potensial,mental operasiya,bədii əsər.*
Ключевые слова: *метафора,английский язык,функция,потенциаль менталь операция,художественная произведения.*
Key words: *the metafhor,English,function,the potentiall,mentals operation,belles lettres*

Метафора как языковое явление встречается ие только в устной речи, но также и в письменной. Огромное значение метафоры состоит в использовании ее в художественных произведениях. Нет ни одного автора, который не воспользовался бы метафорическим переносом для того, чтобы в ярких красках описать героев, различные явления и действия.

Метафору определяют как основную ментальную операцию, которая объединяет две понятийные сферы и создает возможность использовать потенции структурирования сферы-источника при помощи новой сферы.

В изучении метафор главное значение отводится основному лексическому значению слова. Метафора - это утверждение о свойствах объекта на основе некоторого подобия с **уже** обозначенным в переосмысленном значении слова. Здесь возможен гипотетический домысел и превалирует субъективное начало во взгляде на действительное.

İki hissədən ibarət müasir qadın adları (Anella-Anne+Ella, Marianne-Mary baıme, Saralinda-Sarah i Linda və s.) xeyli sonra istifada olunmağa başlamışdı. Demək olar ki, iki adın birləşməsi yolu ilə mürəkkəb adların yaranması bizim dövrümüzdə də məhsuldardır. İki ünsürün birləşməsi ilə yaranmış bu tipli mürəkkəb adlar sonralar Mary Anne, Mary Jane tipli qoşa adları sıxışdırıb istifadədən çıxardı. Hazırda qoşa ad ingilis və amerikan nomenklaturasıda çox nadir hallarda rast gəlinir.

İngilis adları arasında qeyri-rəsmi müraciət məqamlarında işlədilən törəmə adlar geniş yayılmışdır. Törəmə adların dəqiq miqdarı məlum deyildir. Bunun səbəbi onların xarakteri ilə əlaqədardır: dostlara, doğmalara, yaxınlara və uşaqlara müraciətdə istifadə edilmiş bu adları yaradanların fantaziyası xeyli genişdir və odur ki, törəmə adların ümumi sayı hesaba alınmaz dərəcədə çoxdur. Misal üçün, Ben şəxs adı- Benjamin adından, Dan isə Danieldandir. Bu törəmə adlara şəkilçilər artırmaqla kiçiltmə və əzizləmə bildirən düzəltmə adlar da geniş işlənir: Danny- Daniel, Jimmy - James və s.

Törəmə adlar əsl adların əvvəlinin, ortasının və axırının ixtisarı yolu ilə düzəlir:

1 . Ness- Aqness, Tony-Anthony, Tina- Christiana və s;

2 . Austin- Aqustin, Aline— Adeline və s;

3 . Alee- Alexader, Alf- Alfred, Aq- Aqness və s.

İngilis şəxs adlarının sistemində törəmə şəxs adlarının törəməsini aşağıdakı şəkildə təsəvvür etmək olar: bütöv və yaxud ilkin şəxs adlarından misal üçün, Daniel və Theodore adlarından əvvəlcə qısaldılmış Dan və Ted, onlardan isə şəkilçilərin köməyi ilə Danny, Teddy əmələ gəlir. Buna görə də qısaldılmış adların ilkin törəmə , onun əsasında şəkilçi ilə düzələn adların isə ikinci törəmə adlar adlandırmaq olar.

Ölkənin etnik rəngarəngliyi Amerika şəxs adlarında aydın əks olunur: Federiko, Rodolfo, Doloreo(ispan), Malcolm (şotl), Maqnus (isveç), Donovan, Patrick, Maura (iri.), Enrico, Paola, Qemma, Antonio

(ital), Manuel, Mario, Raul, Ruth (norm), Kalli, Math, Elvi (fin.) Rudolf, Rupert, Martha (alman.), Paul, Vevienne(fransız) və s. İnkişaf etmiş feodalizm dövründə (XI əsrin sonu-XV əsrlərdə) İngiltərədə feodal monarxiyasl hökm sürür, şəhərlər, sürətlə böyüməyə başlayır. Sənətkarlıq, ticarat, əmtəə pul, bazar münasibətləri inkişaf edir. İngiltərədə əhalinin sayı 1.250.000 dan 4 milyona qədər artır. Bu dövrdə ləqəblərin s'osial-fərqləndirmə funksiyası genişlənir. Eyni zamanda məsxərə, zarafat, açıq və ya gizli satira mənası daşıyan ləqəblərin xüsusi çəkisi artır. Bəzən katiblər özləri bir sıra

ləqəblər düşünüb tapır, onlar ingilis dilindən latın və fransız dillərinə tərcümə edirdilər. Belə ləqəblər dayanıqlı olmur, nəsildən nəsilə ötürülmürdü.İngilis ədəbi dilinin formalaşmasına, xüsusən onun leksik fonduna latın dili, skandinaviya dialekti və fransız dili güclü təsir göstərmişdir. Müasir ingilis antroponomiyası qohum qədim ingilis və skandinaviya dialektlərinin izlərini saxlayır. Məsələn, BAXTER, VRADLEY, FATT, MERRY, PİNK, SHARP və s. Qədim ingilis etimonlu familiyalarla ASHKETTLE, ASKWTTH, KETTLE, THOROLD qədim skandinav etimonlu familiyaların müqayisəsi bu yaxınlığı göstərir. İngiltərənin Normandiyanın işğalı altında olduğu dövrdə ingilis antroponimiyası radikal dəyişikliyə uğrayır, onun tərkibi fransız toponimləri və ümumi adlar əsasında düzəlmiş familiyalar müasir ingilis dilində qalmaqdadır. Məsələn, AGUİLAR,BASKERVİLLE, BAYARD, CHEEVER, CORBET, DEVEREUX, EVEREST, MONTAGUE, RÜSSEL və b. Antroponimlərin təkamülü, yeni antroponimik vahidlərin yaranması ingilis dilinin ad sistemi üçün də səciyyəvidir. İngilislərda ilk olaraq adlar, sonra ləqəblər işlənməyə başlamışdır. Familiyalar isə ləqəblərdən yaranmışdır. İngilis ləqəblərinin, adları nəsil adlarnı bildirən familiyalara çevrilməsinin dəqiq tarixi məlum deyildir. Lakin, onların əvvəlcə kübarlar, feodal elitasına daxil olanlar tərəfindən familiya kimi istifadə edilməsi dəqiqdir. Norman işğalından sonra ailədə böyük oğulun daşınmaz əmlak üzərində varisliyi qararlaşır. Bu hüquq nəsil adının yaranması hüququn meydana çıxarmışdı. Feodal lordlarının, baronlarının qraflarının, risarlarının ləqəbləri tədricən atadan oğula keçərək nəsil antroponimlərinə çevrilmişdir. Sonralar bu proses şəhər və kənd əhalisinin aşağı təbəqəsini sənətkarları, xırda tacirləri, kəndliləri də əhatə etmişdir. Cənubi və Mərkəzi qraflıqlarda familiyalardan istifadə şimal qraflığından Şotlandiyadan tez başlanmışdır. Uelsdə isə familiyaların istifadə olunması daha sonralar baş vermişdir.Tədqiqatlardan Fransson və Rini belə hesab edir ki, ləqəblərin familiyalar çevrilmasi XII əsrin əvvəlinə təsadüf edir. Bu proses XII-XIV əsrlərdə daha intensiv şəkil almışdır. XV əsrdə isə familiyalar İngiltərə əhalisinin bütün təbəqələrini əhatə etmişdir. Bela nəticəyə gəlmək olar ki, müasir ingilis familiyaları sistemi bütün klassik orta əsr dövründə (XI əsrin sonlarında-XV əsrlər) formalaşmışdır. Şotlandiya və Uelsdə formalaşma XVI —XVII əsrlərə gedib çıxır.İngilislərdə ata adlarının işlədilməsi şəxs adlarına nəzərən çox-çox sonralar baş vermişdir. Bu da nəsil admm göstərilməsi zərurətini meydana çıxması ilə bağlıdır. İngilislərdə əksər hallarda ata tərəfin, nadir hallarda isə ana tərəfin şəcərəsinə üstünlük verilmişdir. Geneoloji ləqəblərdə əsasən mac-mag « oğul », nadir hallarda ui « nəvə », fer «ər » işlənir. Müasir Macdonald - mac+ Donald, Macree-mac+ Rath bu qəbildən sayıla bilər. Alman mənşəli formatının təsiri ilə şotlandlarda Ferquson- Ferqus + son, Farquharson tipli adlar yaranmışdır. Norman işğalından əvvəl Britaniya adaları daim skandinavların hücumuna məruz qalırdı. Bunun nəticəsində İngiltərənin şimali – şərqi IX-X əsrdə onların güclü təsiri altına düşmüşdü. German mənşəli olduqlarından, onların nomenklaturası ilə anqlo —sakslarınkı bir çox ümumi cəhətlərə malik idi. Bunula belə, işğal etdikləri ərazilərdə onlara məxsus antroponimik xüsusiyyətlər formalaşmışdı. Həmin ərazilərdə skandinav və qədim ingilis adları olaraq işlənirdi.

Onların bir qrupu yer adlarından törəmişdir: şotland: Forbes, Dunlop, vali. Cardiff, Ca, Sansız Baskerville. İngilis şəxs adları həm etnik rəngarəngliyinə görə , həm geniş semantik və quruluş xüsusiyyətlərinə görə seçilir. Digər tərəfdən, fərdi şəxs və adları ilə familiyaların müxtəlif dövrlərdə meydana çıxdığını nəzərə alaraq onlardan ayrı

ayrılıqda bəhs etmək və onların hər birimə xas olmuş semantik və quruluş xüsusiyyətlərindən daha ətraflı bəhs etmək məqsədəuygundur.

1066-cı ildən başlayaraq, 36 il müddətində norman mənşəli cüt məfhumlu adlar zadəganlar və şəhər əhalisi arasında işlənən qədim adlar demək olar ki, tamamilə sıxışdırıb çıxardı. Tədricən bu proses kəndlərdə yayılırdı. İnğilis mənşəli adların miqdarı xeyli azaldı və eyni zamanda nəsildən nəslə ötürülən ikinci bir ad- familiya formalaşmağa başladı.Normanlar özləri isə fransızlaşmış cüt məfhumlu german adları gətirmişdilər. Misal üçün, Richard, Huqo, Gerard, və s. Onlar ilk dəfə olaraq əhalinin siyahıya alınmasını keçirdilər və XI əsrin sonunu əks etdirən zəngin şəxs adları siyahısını tərtib etdilər.

ƏDƏBİYYAT

1. Ashley L.RN-French surnames and English names, 1963.vol 11
2. Barben H- British family names-London 1903.
3. Dunkling l.a-First Names.London 1977
4. Ekkuall E-early london Personal Names lund. 1947

Л.КУСЕЙНОВА

ИСТОРИЯ РАЗВИТИЯ АНГЛИЙСКОГО АНТРОПОНИМОВ

РЕЗЮМЕ

Формулировка английской анхропономии вызвана обычаями культурой, системой языка, и политико-социологических связей Британских наций. Английская антропономия имеет отличительные и сложие черты с так называемыми других наций. Все ети черты появились в течение нескольких десятилетий и различных исторических нации. Все эти черты появились в течении нескольких десятилетий и различных исторических событий. До 11 века фамилии не были популярны среди граждан, но прозвища имени огромную ценность, хотя не охватывали всю семью и не наследовались следующим поколением. После захвата Норвегией фамилии стали быстро распространяться и поднялись до своего пика во время захвата Францией.

L.KUSSEYNOVA

THE HISTORY OF DEVELOPMENT ENGLISH ANTHROPONYMS

SUMMARY

Formulating of the English antroponomy has been caused by customs, language system, politico - sociological links of the British nations. English antroponomy has distinguished and similar feature with the so-named of other nations. All these features appeared during several decades and different historical events. Until XI century surnames were not popular among the civilians. But the niknames had great volue, through they didn't cover the whole family and weren't inherited by generation. After Norvegion surnames began to spread rapidly and had its highest level during French occupation.

Rəyçi: Adilə Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

LEYLAXANIM NƏCƏFOVA
AzTU
Leylaxanım.@.mail.ru.

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNİN LEKSİK SİSTEMİNDƏ ANTROPONİMLƏRİN SEMANTİK VƏ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *antroponim, leksik məna, inkişaf, məna, morfologiya*
Key words: *antroponyms, language, lexical meaning, development meaning, morphology*
Ключевые слова: *антропоним, язык лексические знание, развитие знание, морфология.*

İngilis dilinin antroponimiyasının tədqiqinin böyük praktiki əhəmiyyəti vardır. İngilis şəxs və soyadları həm ingilis dilinin, həm də ingilis xalqının özünün tarixini özündə birləşdirir.

Şəxs və soy adlarının dilçilik baxımından əhəmiyyəti ondadır ki, bu adlarda müasir ingilis dilində istifadədən çıxmış qədim ingilis leksik təbəqəsi aşkar olunur və bununla da qədim ingilis dilinin leksikası haqqında bizdə geniş təsəvvür yaranır.

İngilis şəxs və soy adlarının araşdırılması onların müxtəlif dillərə aid olduğunu üzə çıxır. Onlar arasında ölkənin etnik tarixinin müxtəlif dövrləri ilə bağlı olan adları vardır.

Latın mənşəli adlar yeni eranın I-IV əsrlərində Britaniya adalarında hkimiyyətdə olmuş romalılarla bağlıdır.

İngilis antroponimiyasında rastlanan Skandinav mənşəli şəxs və soyadları IX və X əsrlərdə Britaniyanın Şimal hissəsini işğal etmiş skandinavların təsiri ilə əlaqədardır.

Daha sonra ölkə fransız dilli normanların işğalına məruz qalmışdır. XI əsrin ortalarında Britaniyanı işğal etmiş normanlar ingilis dilinin tərkibinə çox böyük təsir göstərməklə bərabər, ölkənin onomastikasında öz izlərini buraxmışlar. Bu təsir xüsusilə şəxs və soy adlarında ifadə olunmuşdur.

Xristanlığın VI əsrdə yayılması ilə bağlı olaraq ingilis dilinə tain elementlərinin axını davam etmiş, bu təsir antroponimiyada da özünü göstərmişdir. Xristian dini ilə bağlı olaraq ingilis dilinə xeyli yəhudi mənşəli şəxs adları daxil olmuşdur.

Antroponimlər ingilis xalıqın tarixi, etnik tərkibi, həyat tərzi, mədəniyyəti haqqında zəngin məlumatı özündə birləşdirən bir mənbədir. Antroponimlər dilin tarixi leksikasını və morfologiyası haqqında bizə zəngin məlumat verir.

Antroponimlər şəxs və soy adlarını, ləqəb və təxəllüsləri özündə birləşdirir. Onların araşdırılması təkcə praktik baxımdan deyil, etnoqrafiya, ölkəşünaslıq, tarix, mədəniyyətşünaslıq elmlərinin müxtəlif problemlərinin görülməsim baxımından da əhəmiyyət daşıyır. Xalqın tarixi, məişəti, adət və ənənələri, cəmiyyətin sosial quruluşunun izlərini özündə saxlayan antroponimlərin öyrənilməsi, beləliklə böyük aktuallıq kəsb edir.

İngilis antroponimlərinin öyrənilməsi həm dilçilik baxımından, yəni onların qoruyub saxladığı dilin leksik və morfoloji xüsusiyyətlərini aydınlaşdırmaq üçün, həm də onlarda həkk olunan xalqın mədəni etnik həyatı, adət və ənənələri ilə bağlı tarixi xüsusiyyətləri üzər çıxarmaq baxımından aktuallıq kəsb edir. Antroponimlərin etnik laylarını araşdırmaqla ingilis xalqının formalaşmasında hansı xalqlrın iştirakını, onları

ölkənin hissəsində məskunlaşdığını, mənəvi aləmini, qədim Britaniyada xalqın məşğuliyyət və peşələrini, qədim ingilislərin astronomik və dini baxışlarını aşkara çıxarmaq olar. Buna görə də ingilis antroponimlərinin öyrənilməsi bir çox nöqteyi-nəzərdən aktualdır.

Antroponimika – antroponimlərin (şəxs adı, familiya, ləqəb, təxəllüs, titul, fəxri ad, əzizləmə və kiçiltmə adlar) əmələ gəlməsi qanunauyğunluqlarını, ad sistemində yerini, inkişafını, dəyişilməsini, digər ad kateqoriyaları ilə qarşılıqlı əlaqəsini, leksik-semantik və qrammatik xüsusiyyətlərini öyrənir.

Öz funksiyalarına və antroponimik sistemdə tutduqları yerə görə Azərbaycan antroponimlərini iki qrupa ayırmaq olar:

1. əsas ad kateqoriyası;
2. köməkçi ad kateqoriyası.

Anadan olandan sonra uşağın rəsmi sənədlərində – doğum haqqında şəhadətnaməsində, böyüyəndə isə onun təhsil haqqında sənədlərində əksini tapan əsl adı, ata adı və familiyası əsas ad kateqoriyamsına daxildir.

Şəxsin yuxarıda adları çəkilən rəsmi sənədlərdə əksini tapmayan, ən çox canlı danışdıqda, bəzən də digər rəsmi sənədlərdə əksini tapan əsl adları – təxəllüs, ləqəb, titul, fəxri ad, əzizləmə və kiçiltmə mənalı adlar köməkçi ad kateqoriyaları bütövlükdə şəxs adları termini ilə ifadə olunur.

Müxtəlif xalqların istifadə etdikləri antroponimlər dayanıqlığı və ənənəviliyi ilə seçilir. bu cəhət müəyyən amillərlə səciyyələnirö İqtisadi, coğrafi, tarixi və s. amillərin ümumiliyi xalqın istifadə etdiyi xüsusi adlar da öz əksini tapır. İnsanın bioloji təbiəti, onun antropoloji xüsusiyyətləri şəxs adların keçərək onlarda yaşayır. Antroponimlərdə zahiri görkəmə həm müsbət, həm də mənfi mənada münasibət təzahürünü tapır.

Adların yaranma tarici çox qədimdir. Müasir dilçilikdə adların insan birliklərin əmələ gəldiyi dövrdə yaranması qəbul edilmişdir. Aydındır ki, şəxs adlarının verilməsinin ən birinci məqsədi adamları bir-birindən fərqləndirmək olmuşdur. Bu adları şərti səciyyə daşımış, yalnız fərqləndirmə funksiyasını yerinə yetirmişdir. İlk dəfə qədim insanların cəmiyyət şəklində birləşdikləri dövrlərdə adamları bir-birindən fərqləndirmək zəruriətini hiss etmişlər.

Adlar cəmiyyət üzvlərini bir-birinə qarışdırmamaq məqsədilə meydana çıxmışdır. Hal-hazırda onlar rəsmi şəkil almışlar.

Zaman keçdikcə yeni-yeni amillərin təsiri ilə antroponimlərdə də dəyişmələr baş verir. Tarixi şərait və hadisələr nominasiyalar prosesinə nüfuz edir. Hər bir tarixi dövrdə ad özünəməxsus funksiyanı yerinə yetirir və müxtəlif dövrlərdə insanların adlara münasibətində dəyişiklik yaranır.

Araşdırmalar göstərir ki, adamlar bir-birindən müəyyən keyfiyyətlərinə görə fərqlənirlər. Bu keyfiyyətlər həm zahiri, həm daxili xüsusiyyətlərlə fərdin ətraf mühitə, real gerçəkliyə, eləgcə də başqalarının fərdi və daxili keyfiyyətlərinə münasibətii ilə təyin olunur. Qədim insanın zahiri və daxili keyfiyyətlərinə görə seçilməsi, onun başqa predmet və məfhumlara münasibət əsasında da formalaşmışdır. Qədim dövrlərdə ad adlandırılana bir qayda olaraq onun şəxsi keyfiyyətlərinə, daxili təbiətinə, fiziki xüsusiyyətlərinə görə verilsə də, müəyyən münasibətlə bağlı olmuşdur. Göstərilən amillərin izləri müasir dövrə qədər gəlib çıxmış bir sıra adlarda açıq aydın hiss olunur. Qədimdə da heç də hamıya verilməmişdi. Adlandır ma qəbilə və tayfada bir şəxsin başqalarından müəyyən keyfiyyətlərinə görə seçilməsi, üstün olmasını mərkəzə çəkmək üçün aparmışdır. Müasir dövrdə adın bu rolu qismən qorunur. İndi ad hamıya məcburi

verilir. Adlar daha çox şəxsin hüquqi leqallaşması funksiyasını yerinə yetirir, sanki bu adda bir şəxs var. İndi ad uşaq doğulan kimi verilir.

İnsanın zahiri xüsusiyyətləri, təbiəti, fiziki və daxili keyfiyyətləri onun adında ifadəsini ğapa bilmir. Aytəkin, Günel, Vüqar, Teymur kimi adlar daşıyıcısı haqqında olduqca az məlumat verir. Bu adlardakı informasiya yalnız valdeynlərin arzu və fiikrləri ilə bağlı olunur, çox zaman onların şərhindən sonra aydınlaşır.

Müxtəlif xalqlarda adlara münasibət bir-birinədn fərqlənir. Azərbaycanda böyüklərə hörmət vacib sayıldığından adətən oğul ata adı ilə tanınmış, atanın oğul adı ilə tanınmasına yol verməmişdir.

Cəmiyyətdə təbəqələşmənin baş verməsi, dini, siyasi institutların yaranması bilavasitə fərdin özü ilə bağlı cəhətlər, keyfiyyət və xüsusiyyətlər əsasında yaranan adlar sırasına yeni səciyyəli adların daxil olmasına imkan yaradır. Bu proses tədricən güclənərək özünəməxsus yaradıcılığı forması alır. Qeyd olunan şəkildə ad yaradıcılığı hələ Misir fironları dövründəki adlarda ifadəsini tapır. Misir çarlarının günəş allahının övladları olması haqqında təlim hamıya məlumdur. Qədim Yunanstan əyalətlərində günəş allahlarına Ra, Amon və Atona sitayiş fərqlənirdi. Məsələn, Nil deltasındakı Onu şəhərində Ra, Axetataon şəhərində isə Aton kuotu yayılmışdır. Misir fironları allah övladları olduqdarı göstərmək üçün adlarına qəbul etdiklər allah adını əlavə edirdilər. Amenxoten, Tutanxamon və s. qeyd etmək lazımdır ki, Misir fironlarının epitetləri də allahların adı ilə bağlı olmuşdur. Məsələn, Amonun varisi. Sonralar bu yerlərdə hökmranlıq etimş ərəb sərkərdələri də özlərinə oxşar epitetlər seçmişlər: Nurəddin (Dinin işığı), Şəmsəddin (Dinin günəşi), Seyfədin (Dinin qılıncı) və s.

Bəzi xalqlarda tarixi inkişafın müəyyən mərhələlərində şəxsin adının çəkilməsinə qabağan qoyulması, uşaq doğulan kimi onun adının qulağına pıçıldaması, bəzi adların müəyyən səbəblərə görə uşağa qoyulmaması, uşağa bir neçə adın qoyulması artıq məlum həqiqətlərdir.

Cəmiyyətin inkişafı, tayfa-nəsil münasibətlərinin meydana gəlməsi, nəsil adlarının yaranmasına səbəb olmuşdur. Şimali Amerikada yaşayan hundu qəbilələrindəki şəxs adlarında qəbiləyə mənsub nəsil adının işlənməsi bu gün də mövcuddur. Belə qəbilələrdə iki şəxsin eyni adı daşımasına yol verilməməişdir.

Qədim Yunanstanda da şəxs nəsil adının da daşımışdır. Eramızdan əvvəl 509-cu ilə Klisfen inqilabından sonra Afinada nəsil adının daşınması qadağan edilmiqdir. bu dövrdən başlayaraq kişilər üçün öz adları, bu addan sonra ata adı və evin adı kimi üstərkibli adlar qəbul olunmuşdur. Esxin Atrometa oğlu, Kofokid.

Antroponimik sistemdə ilkin yaranan şəxs adları olmuşdur. Şəxs adları birəsaslı, ikiəsaslı və çoxəsaslı formalarda rast gəlmişdir. Bu əsasların sonralar birləşdirilməsi nəticəsində mürəkkəb sözdən ibarət birəsaslı adlar yaranmışdır. Mürəkkəb sözlərin komponentlərinin sayı isə müvafiq olaran iki və daha artıq olmuşdur. Antroponimik sistemin növbəti inkişaf mərhələsi, daha doğrusu şəxs adların başqa antroponimik vahidlərin artırılması antroponimik sistemin yeni vahidlərlə zənginləşməsinə səbəb olmuşdur. Antroponimik sistemdə addan sonra yaranmış antroponimik vahidlər aşağıdakılardır: ləqəblər, familiyalar, ata adları, fəxri adlar.

Əsl adlara nisbətən ata adları azlıq təşkil edir. Çünki ana adlarından və sonsuz kişilərin adlarından ata adı yaradılmır. Kişi adlarının bütün leksik, qrammatik xüsusiyyətləri ata adlarında öz əksini tapır. Ata adları müasirliyinə görə əsl adlardan geri qalır. Lakin əsl ada nisbətən ata adı daha çox sabitdir. Əsl ad uydurma olduqda

(məsələn, sovet, kombayn və s.) ad sahibi onu rəsmi şəkildə dəyişdirə bildiyi halda ata adını dəyişmək qeyri-mümkdür.

Köməkçi ad kateqoriyalarının ən geniş və maraqlı növlərindən biri ləqəblərdir. Ləqəb ərəb sözüdür və şəxsə əsl adından başqa, xarici görünüşü, xarakteri, peşəsi və s. ilə əlaqədar olaraq verilən köməkçi ad mənasında işlənir. Azərbaycanın müxtəlif dialekt və şivələrində ləqəb və ayama mənasında ayalğa (Şamxor), nəssə (Culfa), əyəlağa, əyalağa əlğa (K.Ramazanov) və s. kimi variantları da vardır.

Ləqəblər şəxsə əsasən başqaları tərəfindən verilir, lakin heç bir rəsmi sənədlərdə qeyd olunmayır, daha çox canlı nitqcə işlənir: Koroğlu, Qatır Məmməd, Qaçaq Nəbi, Bəlli Əhməd və s.

Müasir şəxs adı ilə şəxsin özü arasında əlaqə zəifdir və demək olar ki, yoxdur. Bu hökm ləqəblərə aid edilə bilmir. Ləqəblər insan ömrünün müəyyən dövründə onunla həqiqi və ya məcazi şəkildə əlaqələndirilir və şəxs haqqında əlavə məlumat verir. Ləqəblər bəzən də əsl adı əvəz edib, onun yerində işləndiyi üçün atributiv mənalı adlar meydana çıxa bilmişdir. Ləqəblərin çoxu əsl adlarla birlikdə işlənir. Keçəl Həmzə, Kor Alı. Ləqəb insanlara müxtəlif vaxtlarda verilir. Uşaqlıq illərində verilən ləqəblər, bəzən gənclik illərində ya tamam unudulur, ya da başqası ilə əvəz olunur.

Sinifli cəmiyyətin meydana gəlməsi ilə əlaqədar titullar yaranmış və həmişə hakim təbəqələrə xidmət etmişdir. Elə buna görə də titullar digər antroponimik kateqoriyalara nisbətən tədqiqatçıların diqqətini daha əvvəllər cəlb etmişdir.

Titul termini ilə ləqəb və bunanla əlaqədar olaraq fəxri ad, fəxr ləqəb.ö fəzri titul terminləri quraşdırılmışdır.

Rütbə və titulların şəxs adlarına artırılmasının əsasında daha ali təbəqəyə mənsubluğu nəzərə çatdırmaq durmuşdur. Bu cəhət antroponimlərin inkişaf tarixində özünəməxsus yer tutur. Aydın olur ki, şəxs adları, müəyyən tarixi dövrdə eyni cəmiyyətdə yaşayan həmin cəmiyyətdə tutduqları mövqeyə görə fərqləndirilməsinə də xidmət göstərmişdir.

Antroponimlərin təkamül prosesində diqqəti çəkən bir cəhət də tədricən adların cinslə bağlı fərqləndirici informasiya daşımasıdır. Antroponimləri cinsə aidliyinə görə 3 qrupa bölmək olar:

1. kişi adları;
2. qadın adları;
3. ümumi (qarışıq) adlar.

Adlalın təkamülünü izlədikdə bir və ikiüzlü olması faktı ilə üzləşirik. V.P.Nerzonyak qədim Hind-Avropa dillərində həm birüzvlü, həm də ikiüzvlü adların çoxluğunun diqqəti cəlb etdiyini göstərərək bu formaların statistik hesablanmasından sonra birüzvlü adların ikiüzvliyinin təiyn olunduğunun qeyd etmişdir. Türk dillərinin yazılı abidələrində də həm birüzvlü, həm də ikiüzvlü adlar vardırö Bir sır adlar quruluşca mürəkkəb söz olub üç komponentin birləşməsindən yaranmışdır.

Hind Avropa dillərində həm bitematik, həm də monomatik adlar vardır.

Antroponimlərin təkamülünü, yeni antroponimik vahidlərin yaranması ingilis dili sisteminin ad sistem üçün də səciyyəvidir. İngilislərdə ilk olaraq adlar, sonra ləqəblər işlənməyə başlamışdır. Familiyalar ilə ləqəblərdən yaranmıqdır. İngilis ləqəblərinin, adlarını nəsil adlarını bildirən familiyalara çevrilməsinin dəqiq tarixi məlum deyildir. Lakin onları əvvəlcə kübarlar, feodal elitasına daxil olanlar tərəfindən familiya kimi istifadə edilməsi dəqiqdir. Normanın işğalından sonra ailədə böyük oğlun daşınmaz əmlak üzərində varisliiy qərarlaşır. Feodcal lordlarının, baronlarının, qraflarının,

ritsarlarının ləqəbləri tədricən atadan oğula keçərək nəsil antroponimlərinə çevrilmişdir. Sonralar bu proses şəhər və kənd əhalisinin aşağı təbəqəsini, sənətkarları, xırda tacirləri, kəndliləri də əhatə etmişdir. Cənubi və Mərkəzi qraflıqlardı familiyadan istifadə şimal qraflığından Şotlandiyadan tez başlamışdırö Uelsdə isə familiyaların istifadə olunması sonra baş vermişdir.

Tədqiqatçılardan Fransson və Rini belə hesab edir ki, ləqəblərin familiyalara çevrilməsi XII əsrin əvvəlinə təsadüf edir. Bu proses XII-XIV srlərdə daha intensiv şəkil almışdır. XV əsrdə isə familiyalar İngiltərə əhalisinin bütün təbəqələrini əhatə etmişdir. Belə nəticəyə cəlmək olar ki, müasir ingilis familiyaları sistemi bütün klassik orta əsr dövründə (XI əsrin sonu XV əsrlər) formalaşmışdır. Şotlandiya və Uelsdə isə formalaşma XVI-XVII əsrlərə gedib çıxır.

Müqayisə aparmaq müxtəlif sistemli dillərdə antroponimik sistemin təkamülü, bu sistemdə müxtəlif vahidlərin meydana gəlməsində ümmuit oxşarlıq tapmaq olur.

ƏDƏBİYYAT:

1. Sədiyev Ş. Adlar necə yaranmışdır? Bakı, 1969.
2. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları. Tbilisi, 1983.
3. Симина Г.Я. Фамилия и прозвище. Ономастика. М., 1969.

L.NADJAFOVA

IN AZERBAYJANI FND ENGLISH LANGUAGE INTO SYSTEMS LEXICAL THE ANTROPONIMS.

SUMMARY

Formulating of the English antroponomy has been caused by customs, culture? Language system? Politico-sociologicalines of the British nations. English antroponomy has distinguished and similar feature with the so-named of other nations. All these features appeared during several decades and different historical events.

Inthis article theantro antroponimizms fakts observed between the lexical systems of the Azerbaijanib fnd English language are studied in the aspect of the problems of the doubjet fnd intersystem paralelizm/

Л.НАДЖАФОВА.

СТРУКТУРНАЯ И СЕМАНТИЧЕСКАЯ СВОЙСТВА АНТРОПОНИМО В ЛЕКСИЧЕСКОЙ СИСТЕМЕ АНГЛИЙСКОГО И АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКОВ

РЕЗЮМЕ

Формулировка английской антропономии вызвана обычаями культурной, системой языка и политика социологический связи Британских наций. Английская антропономия имеет отличительные и схожие черты с так называемыми других нации. Все эти черты появились в течении нескольких десятилетий и различных исторических событий.В статье также исследуется отделные факты фнтропонимики между лексическими системами азербайджанского и английского языков.

Rəyçi: Həbib Mirzəyev
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

MİNA MÖVLİYAROVA
ŞƏRAFƏT ƏLİYEVA
AzTU
mina,şərafət.@.mail.ru.

FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏ DAXİLİNDƏ BAĞLAYICILARIN ROLU VƏ ƏHƏMUYYƏTİ

Açar sözlər: *tabelilik bağlayıcısı, məna, növ, müqayisə.*
Key words: *subordinating conjunction, meaning, type, comparison*
Ключевые слова: *подчинительный союз, смысл, вид, сравнение*

Mürəkkəb cümlələri əmələ gətirən sadə cümlələrdə iki cür bağlılıq ola bilər. Birincisi, bir tərəfdən formaca, hüquqca bərabər olan müstəqil sadə cümlələr bütöv bir fikri ifadə etmək üçün qarşılıqlı olaraq bir-birinə bağlanır. Bəzən sadə cümlələrdən biri ikinci sadə cümləyə bağlanır, onun mənasını tamamlayır. Buna görə də, bir növ, öz müstəqilliyini itirir və ona tabe olur. Belə cümlələrdə sadə cümlələrdən biri yerini dəyişdikdə, cümlələr arasındakı məna münasibətləri dəyişdiyi kimi, bu cümlələri tərkibinin ümumi mənası da pozulur.

Deməli, birinci növ bağlılığa tabesiz, ikinci növ bağlılığa isə tabeli adı verilir.

İstər məktəb qrammatikalarında, istərsə də yazılan elmi əsərlərin əksəriyyətində deyilir ki, tabesiz mürəkkəb cümlələr bərabərhüquqlu sadə cümlələrdən təşkil olunur. Tabeli mürəkkəb cümlələr isə qeyri-bərabərhüquqlu sadə cümlələrdən təşkil olunur. Yəni birləşməyə daxil olan sadə cümlələrdən biri öz müstəqilliyini itirir, digər sadə cümləni izah edir. Tabelilik əlaqələri əsasında ən azı iki sadə cümlənin birləşməsi sayəsində tabeli mürəkkəb cümlələr əmələ gəlir.Tabeli mürəkkəb cümlə iki hissədən-baş və budaq cümlələrdən ibarət olur.Baş cümlə, adətən, öz qrammatik vəziyyətinə görə sərbəst olub, budaq cümləni özünə tabe edir. Budaq cümlə qrammatik cəhətdən baş cümlədən asılı olur. Dilimizdə işlənən bağlayıcıların bir qismi də tabeli mürəkkəb cümlənin baş cümləsi ilə budaq cümləsini bağlamağa xidmət edir.

Tabelilik bağlayıcıları hər iki dildə - həm müasir fransız, həm Azərbaycan dillərində tabeli mürəkkəb cümlənin baş və budaq cümləsini bir-birinə bağlamağa xidmət edir. Hər iki dildə bu bağlayıcılar bir cümləni başqa cümləyə bağlamaqla, tabelilik münasibəti yaradır, biri tabe, digəri tabe edən cümlələrdən ibarət tabeli mürəkkəb cümlə əmələ gətirir. Hər iki dildə bağlayıcılar sözləri və cümlələri bağlamaqla onların əlaqələnməsinə kömək edir, bu yalnız xarici vasitə ilə edilmir, həm də mənaların, fikirlərin daxili rabitəsi üçün edilir.

Daşıdığı sintaktik vəzifəyə görə bağlayıcılar tabeli və tabesiz olmaqla iki yerə ayrılır. Bağlayıcıların bir qismi söz və söz birləşmələrini, tabesiz mürəkkəb cümlə- ləri və cümlə qruplarını, digər bir qismi isə tabeli mürəkkəb cümləni təşkil edən komponentləri bağlamağa xidmət edir.

Beləliklə, cümlə üzvləri və cümlələr arasında yaratdıqları mənaya görə bağ-layıcılar iki yerə bölünür:

1) tabesiz bağlayıcılar;
2) tabeli bağlayıcılar

Hər iki bağlayıcı növü mürəkkəb cümləni əmələ gətirən sadə cümlələr arasında olur.

Ə.Abdullayev "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr" kitabında tabeli və tabesiz mürəkkəb cümlələri aşağıdakı şəkildə müəyyənləşdirir.

Mürəkkəb cümləni əmələ gətirən sadə cümlələrdə iki cür bağlılıq mövcuddur:

Birincisi, bir tərəfdən mövzuca, hüquqca bərabər olan müstəqil sadə cümlələr bütöv bir fikri ifadə etmək üçün qarşılıqlı olaraq bir-birilə bağlanır..

İkincisi, isə sadə cümlələrdən biri ikinci sadə cümləyə bağlanır, onun mə- nasını tamamlayır. Başqa sözlə desək, öz müstəqilliyini itirir və ona tabe olur.Belə cümlələrdə sadə cümlələrdən birinin yerini dəyişdikdə, cümlələr arasındakı məna münasibətləri dəyişildiyi kimi, bu cümlələrin tərkibinin ümumi mənası da pozulur.

Ə.Abdullayev birinci növ bağılılığa tabesiz, ikinci növ bağlılığa isə tabeli adı verir.

Tabeli mürəkkəb cümlələr isə qeyri-bərabər hüquqlu sadə cümlələrdən təşkil olunur. Yəni birləşməyə daxil olan sadə cümlələrdən biri öz müstəqilliyini itirir digər(müstəqil vəziyyətdə qalan) sadə cümləni izah edir.

Beləliklə, dilçilər bu tərifərə əsasən, tabesiz mürəkkəb cümləni tabeli mürəkkəb cümlədən ayıran iki cəhətin olduğunu söyləyirlər:

1) müstəqillik;

2) asılılıq Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasındakı məna asılılığı zəif və tabesizlik əsasındadırsa, tabeli mürəkkəb cümlələrdə tərkib hissələr arasındakı məna asılığı daha qüvvətli və tabelilik əsasındadır.

İndi isə biz mövzu ilə əlaqədar olaraq, yalnız tabelilik bağlayıcılarından bəhs edəciyik.

Tabelilik bağlayıcıları işləndikləri yerə və daşıdıqları vəzifəyə görə tabesizlik bağlayıcılarına nisbətən məhduddur. Tabesizlik bağlayıcıları həmcins üzvlər, həmcins budaq cümlələr, söz birləşmələrinin tərkibindəki həmcins tərəflər, tabesiz mürəkkəb cümlənin tərkib hissələri və cümlə qrupları arasında işlənə bildiyi halda, tabelilik bağlayıcıları yalnız tabeli mürəkkəb cümlənin tərkibindəki budaq cümlələri baş cümləyə bağlaya bilir.

Bağlama vasitəsi roluna görə tabelilik bağlayıcıları tabesizlərə nisbətən üstün mövqeyə malikdir. Bu bağlayıcılar tərəflərdən birinin digərindən asılı vəziyyətə düşməsindən, birinin digərinə tabe olmasına ciddi təsir edir. Tabeli mürəkkəb cümləni təşkil edən hissələr eynihüquqlu deyildir. Tabeli mürəkkəb cümlədəki asılılıq birtərəflidir, yəni bir mürəkkəb cümlədə birləşən hissələrin biri digərindən asılıdır.

Bunu aşağıdakı misallardan da aydın görə bilərik. Fransız dilində, məsələn, "Cet homme pleura lorsqu'on lui amena sa fille.(E. Zola, "La joie de vivre")

Azərbaycan dilində: Nə qədər ki, Maya gəlməmişdi, indiki qaş-qabaq və sərt rəftar da gözə dəymirdi.(M.İbrahimov, "Böyük dayaq")

Fransız dili misalındakı sonrakı hissə, Azərbaycan dili misalında isə əvvəlki hissə asılı vəziyətdə olub, nisbətən sərbəst vəziyyətdə olanlara tabedir. Buradakı "sərbəstlik" budaq cümlənin asılı vəziyyəti ilə müqayisədə götürülür.

Qarşılaşdırılan hər iki dildə tabelilik bağlayıcıları müxtəlif tip budaq cümlələrində işlənirlər. Bu növ bağlayıcılar tabeli mürəkkəb cümlələrin, yəni mübtəda, xəbər, tamamlıq və zərflik budaq cümlələrini bağlamaq funksiyasını yerinə yetirirlər.

Tabelilik bağlayıcılarının əsas xüsusiyyətlərindən biri onların müxəlif tip budaq cümlələrində işlənmə xüsusiyyətləridir.

Bildiyimiz kimi, Azərbaycan dilçilik ədəbiyyatında bağlayıcı vasitələrdən asılı olmayaraq, mürəkkəb cümlələr tabesiz və tabeli olmaqla iki növə ayrılır. Mürəkkəb cümlənin tərkib hissələri yalnız intonasiya ilə əlaqələnmiş olduaqda intonasiyanın tələbləri əsasında cümləyə tabesizlik və ya tabelilik bağlayıcısı əlavə etmək olur.məs,

1)Cəmşid çolpanı pardaxladı,Mürşüd kişi Xəlil bəyin boğma stəkanına çay süzdü.(S.Əhmədov)

2) O bizi görürür, biz onu görmürük.(S.Əhmədov)

3) Bir yaxşı çomaq gərəkdi, onunla bu Hatəmxanı bir möhkəmcə çırpasan. (S.Əhmədov)

4) Heç bilmədim, nə söylədim yara mən.(Aşıq Məhəmməd)

Aydındır ki, birinci misalda tərkib hissələr arasına "və" (Mürşüd kişi sözlərindən sonra) "isə", ikinci misalda "amma" tabesizlik bağlayıcılarını, son iki misalda isə tərkib hissələr arasına "ki"bağlayıcısını artırmaq olar. Əvvəlki iki cümlə tabesiz, sonuncular tabeli mürəkkəb cümlələrdir. Lakin təkcə intonasiya ilə qurulub mübahisə törədən cümlələr də az deyil; məs: *Gər Xəlilin, elə bil, iştahı küsmüşdü, süfrəyə baş qoşmurd*u.(S.Əhmədov)- cümləsinin tərkib hissələri arasına "*çünki*" bağlayıcısını da artırmaq olar, "*ona görə də*" bağlayıcısını da. Birinci halda cümlə səbəb budaq cümləli, ikinci halda nəticə budaq cümləli tabeli mürəkkəb cümlə olacaqdır. Lakin həmin cümləni indiki halda səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlə də saymaq mümkündür.

Bağlayıcılar sintaktik və semantik olmaqla iki növə ayrılır. "Ki" bağlayıcısı sintaktik, qalan tabelilik bağlayıcıları semantik bağlayıcılarıdır, çünki "ki" bağlayı- cısı budaq cümlələrin müəyyənləşdirilməsində elə bil rol oynamadığı halda, digər bağlayıcılar qrammatik semantikası ilə budaq cümlələrin aydınlaşmasına kömək edir. Tabelilik bağlayıcıları, bir qayda olaraq, baş və budaq cümlənin arasında işlənir və baş cümlədən budaq cümlənin mənasını şərtləndirən fasilə ilə ayrılır.

Müasir fransız dilində tabelilik əlaqəsi bildirən bağlayıcılar aşağıdakı kimi qrplaşdırlır:

I. Mübtəda, xəbər, təyin və tamamlıq budaq cümlələrini baş cümləyə bağlayan bağlayıcılar;

II. Zərflik budaq cümlələrini baş cümləyə bağlayan bağlayıcılar. Zərflik budaq cümlələrini baş cümləyə bağlayan tabelilik bağlayıcıları da öz növbəsində aşağıdakı qruplara bölünür:

a) Yer budaq cümləsini baş cümləyə bağlayan tabelilik bağlayıcıları
b) Zaman budaq cümləsini baş cümləyə bağlayan tabelilik bağlayıcıları
c) Məqsəd budaq cümləsini baş cümləyə bağlayan tabelilik bağlayıcıları
d) Şərt budaq cümləsini baş cümləyə bağlayan tabelilik bağlayıcıları
e) Nəticə budaq cümləsini baş cümləyə bağlayan tabelilik bağlayıcıları
f) Müqayisə budaq cümləsini baş cümləyə bağlayan tabelilik bağlayıcıları
g) Səbəb budaq cümləsini baş cümləyə bağlayan tabelilik bağlayıcıları
h) Güzəşt budaq cümləsini baş cümləyə bağlayan tabelilik bağlayıcıları

N.Ştenberq özünün "Grammaire française" kitabında yuxarıda adı çəkilən tabelilik bağlayıcılarının ifadə etdikləri mənaya görə təsnifatını vermişdir.

1) zaman əlaqəsi bildirən tabelilik bağlayıcıları (conjonctions temporelles): *quand, comme, lorsque, alors que, pendant que, tandis que, en même temps que, tant que, avant que, aussitôt que, à mesure que, depuis que, une fois que, après que, jusqu'à ce que, du moment que;*

2) səbəb əlaqəsi bildirən tabelilik bağlayıcıları(conjonctions causales) : *parce que, comme, puisque, du moment que, attendu que, vu que, c'est que, ce n'est pas que, non que, selon que ;*

3) tərzi-hərəkət bildirən tabelilik bağlayıcıları(la manière): *de manière que, de façon que, de sorte que ; 4) məqsəd bildirən bağlayıcılar (le but): pour que, afin que, de peur que ;*

5) nəticə bildirən bağlayıcılar (conjonctions consécutives) : *si bien que, des sorte que, de façon que, de manière que, au point que (avec un mot corrélatif dans la principale : s,i tant, tel, tellement)*

6) şərt bildirən bağlayıcılar (conjonctions conditionnelles) : *si, à condition que, supposé que, à supposer que, au cas où, à moins que, en cas que, pourvu que, selon que;*

7) müqayisə bildirən bağlayıcılar (conjonctions adversatives): *alors que, tandis que, si;*

8) güzəşt bildirən bağlayıcılar (conjonctions concessives): *bien que, quoique, encore que, quel que, que, si...que, pour que, même si ;*

Göründüyü kimi, bəzi bağlayıcılar "alors que", "tandis que", "tant…que" bağlayıcıları həm zaman, həm müqayisə budaq cümləsini baş cümləyə bağlayan tabelilik bağlayıcılarına aiddir.

Daha sonra, "*de sorte que*", "*de manière que* " , "*de façon que*" bağlayıcıları həm məqsəd bildirən, həm də nəticə budaq cümləsini baş cümləyə bağlayır. Məsə- lən, "*une fois que*", "*du moment que*" bağlayıcıları həm zaman əlaqəsi, həm də mü- qayisə bildirirlər.

"*Si*" bağlayısı həm şərt, həm də qarşılaşdırma, "*quand*" bağlayıcısı isə həm zaman əlaqəsi və həm də güzəşt mənası bildirir. Qeyd etmək lazımdır ki, elə bağlayıcılar var ki, onlar həm tabeli budaq cümlə- lərdə, həm də tabesizlik əlaqəsi bildirən cümlələrdə təsadüf olunur. Belə bağlayıcı- ları fərqləndirməyi bilmək vacibidir.

Müasir fransız dilində mövcud olan tabelilik əlaqəsi bildirən bağlayıcıların müxtəlif tip budaq cümlələrdə işlənmə xüsusiyyətləri vardır.

Mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələr baş cümləyə "*qui*" nisbi əvəzliyi, "*que*" bağlayıcısı, nisbi əvəzliyin "ce, celui, celle" ilə bağlana bilər. Məsələn:

Qui va à la chasse perd sa place.

Celui qui veut le voir doit me suivre.

Xəbər budaq cümləli tabeli mürəkkəb cümlələr baş cümləyə "*que*" bağlayıcısı ilə bağlanır. Məsələn:

La vérité était que je ne pouvais rien retrouver.

Le fait est que les mères regardaient leurs enfants avec une emotion nouvelle.

V.Q.Qak "Теоретическая грамматика французского языка" kitabında tabelilik əlaqəsi bildirən bağlayıcılardan bəhs edərkən, fransız dilində iki sadə tabelilik bağlayıcılarının "si", "que" və üç("que" ilə duzələn) mürəkkəb bağlayıcı- ların olduğu fikrini söyləyir: *quoique, puisque, lorsque*.

V.Q.Qak "que" ilə yaranan tərkibi bağlayıcıları aşağıdakı modellər üzrə qruplaşdırmışdır:

a) zərf+que : *alors que, bien que, autant que, non que*;

b) sözönü+que: *avant que, sans que, pour que, pendant que*;

c) sözönü+ce+que: *parce que, à ce que, de ce que, en ce que*;

d) sözönü+isim+que(où): *à condition que, à mesure que, au cas que, au cas où, de peur que, de façon que, en fait que, sous prétexte que;*

e) fel formaları+que : *en attendant que, étant que*

ƏDƏBİYYAT

1. Abdullayev Ə. "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr".B.,1974
2. Cəfərov S. "Azərbaycan dilinin qrammatikası". B.,1963
3. İbrahimov M. "Böyük dayaq" B.,1957
4. Steinberg N. "Grammaire française" L.,1969
5. Zola E."La joie de vivre" P.,1884
6. Теоретическая грамматика французского языка", М., 1986

M.МОВЛИЯРОВА; Ш.АЛИЕВА

ПОДЧИНИТЕЛЬНЫЕ СОЮЗЫ КАК ОДИН ИЗ ВИДОВ СОЮЗОВ (НА МАТЕРИАЛЕ ФРАНЦУЗСКОГО И АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКОВ)

РЕЗЮМЕ

Подчинительные союзы в современном французском и в азербайджанс ком языках в сложноподчинительном предложении служат для связи главной и придаточной части. В обоих языках подчинительные союзы, соединяя одно предложение с другим, создают подчинительное отношение, одна из частей является главной, другая – придаточной, образуя сложноподчинительное предложение. В этих двух языках союзы, объединяя слова и предложения, по-могают установлению связи между ними. Это проделывается не только вне- шне, но и для внутренней связи смысла и понятий. Сравниваемые подчинительные союзы обоих языков используются в различных типах сложноподчиненных предложений. Можно прийти к такому выводу, что подчинительные союзы имеют не только реальное значение, но и формально-грамматическое содержание. В обоих языках связанные подчинительной связью стороны, никогда не бывают равными.

M.MOVLIYAROVA,SH.ALIYEVA

ROLE AND IMPORTENCE THE WORDS SUFFIKCIALS ALSO SENTENCE COMPOSITION AT FREINCH AND AZERBAYJANI

SUMMARY

The article deals with the article belonging to the English that connect the words to each other and define the concrete idea inside of the text,their role and importence, also the function and influence to the idea of the articles in the content of the sentence.

En this article methods of usage of suffiks in Azerbaydjan and English,the investigation history,as well as different features in both language are analised.

The article deals with the article belonding to the English that connect the words to each other and define the concrete idea inside of the text,their role and importance,also the function and influence to the idea of the article in the content of the sentence.

Rəyçi: Radiq Cəfərov
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

MEHRİBAN MURADOVA
QƏNİRƏ ALLAHVERDİYEVA
Qənirə,mehriban.@.mai.ru.

MÜASİR İNGİLİS DİLİNDƏ ÖLÇÜ VAHİDLƏRİNƏ ETMOLOGİYASI VƏ İXTİSASYÖNÜMLÜ ADLARIN İŞLƏNMƏSİNƏ ÖTƏRİ BAXIŞ

Açar sözlər: *metroloji terminlər, somatik, etimologiya*
Key words: *metrological terms, somatic, etymology*
Ключевые слова: *метрические термины, соматический, этимология*

Hər bir xalqın özünəməxsus ölçü vahidləri olduğu kimi ingilis xalqının da özünəməxsus ölçü vahidləri – metroloji terminləri mövcuddur. Hal-hazırda İngiltərədə istifadə olunan ölçü vahidlərinin tarixi orta əsrlərə təsadüf olunur. Bu ölçü vahidləri Anqlo-sakson və Roma ölçü sistemi əsasında yaranmışdır. 1824-cü il ölçü və çəki haqqında akta əsasən həmin ölçü vahidlərinin bəzilərinin adları dəyişdirilmiş, 1970-ci il Beynəlxalq Sistem (BS) tərəfindən ölçü sistemi yenidən sistemləşdirilmişdir.

Anqlo-Sakson ölçü sisteminin vahidləri ger**man** tayfalarından alınmış barleycorn və gyrd (rod) adlanan ölçü vahidəlri idi. Normanların işğalından sonra Roma ölçü vahidləri yenidən İngiltərədə istifadə olunmağa başladı. Belə nəticəyə gəlmək olar ki, ingilis ölçü vahidləri sisteminin əsasını Anqlo-Sakson və Roma ölçü vahidlərinin birləşməsi təşkil edir.

İngilis ölçü sisteminin sonrakı inkişafı 1215-ci il Maqna Karta qanunu ilə müəyyən edilmiş ölçü vahidləri ilə əlaqəlidir. Ölçü standartları 1496-cı, 1588-ci və 1758-ci illərdə yeniləşmişdir. İngilis ölçü sistem Britaniya ilə yanaşı, həm də onun müstəmləkələrində də yayılmışdır.

Anqlo-Saksonların əsas ölçü vahidi arpanın uzunluğuna bərabər olan və barleycorn adlanan ölçü vahidi idi. Bu ölçü vahidi ilə əlaqəli olan digər ölçü vahidləri də mövcud idi. Məsələn, qədim ölçü vahidi olan poppyseed təxminən ¼ barleycorna bərabər idi. Barleycon 1066-cı ildən sonra da əsas ölçü vahidi olaraq işlənmişdi. Bu ölçü vahidi əsasında inch (düym) yaranmışdır. Məsələn,

Her father rode sitting forward slightly in the saddle, holding the reins in one hand about two inches above the saddlehorn.

Onun atası yəhərdə oturub bir əlində yəhərdən iki düym yuxarıda olan yüyəni tutaraq irəliləyirdi.

Bu həm də ən kiçik uzunluq ölçü vahididir. Hal-hazırda düymün uzunluğu 23 mm-dir. Əvvəllər isə düym baş barmağın uzunluğuna bərabər olub. Belə ki, bu ölçü vahidinin adı Holland dilində duim baş barmağın adıdır. Lakin orta əsr qaynaqlarından məlum olur ki, bir inch – düym sünbülün orta hissəsindən götürülmüb baş-başa qoyulmuş üç ədəd aqpanın uzunluğuna bərabər idi. Düymün uzunluğu 1324-cü ildə İngiltərə kralı II Edvard tərəfindən dəqiqləşdirilmişdir. İndinin özündə də ingilislərin məişətində və dilində arpa toxunu adlı ölçü vahidi saxlanılmışdır ki, bu da düymün 1/3 hissəsinə bərabərdir. Müasir dövrdə Birləşmiş karllıq və Birləşmiş Ştatlarda da arxaik ölçü vahidi olan düymdən ayaqqabıların ölçüsünü təyin etmək üçün istifadə olunur. Ən böyük ayaqqabı ölçüsü 13 düymdür.

Orta əsrə aid olan digit, finger, nail, palm və s. kimi somatik ölçü vahidləri düym əsasında yaranmışdır. Belə ki, 1 digt 3/4 düymə, 1 finger 7/8 düymə, 1 hand 4 düymə, anil 21/4 düymə və 1/16 yarda bərabər idi.

Düym əsasında formalaşan ölçü vahidlərindən biri də 4 düymə bərabər olan hand idi. Bu ölçü vahidi müasir dövrdə də istifadə olunmaqdadır. Məsələn,

He was a deep chestnut in colour and stood sixteen hands high and weichec about fourteen hunderd pounds and he was well muscled and heavily boned for his breel.

Cinsinə görə o, güclü və irisümüklü, rənci şabalıdı, boyu 64 düym, çəkisi isə 100 fut idi.

Hal-harıda isə onun uzunluğu 10, 16 sm-ə bərabərdir.

Span adlı blçü vahidi tam açılmış əlin baş barmağının ucundan kiçik barmağın ucuna qədər olan məsafəyə, yəni 9 düymə bərabər idi.

İngilis dili ədəbiyyatlarından məlumdur ki, bəzən kəndlilər atın boyunu əlin içi ilə, ovucla ölçürdülər. Elə buna görə də, palm adlı ölçü vahidi yaranmışdır. İngilis dilindən tərcümədə palm ovuc deməkdir. Paly 3 düymə bərabər idi.

Dümlə müəyyən olunan digər ölçü vahidi foot adlanan ölçü vahididir. Məsələn,

He stopped a hundred feet from the bridge and got out, taking the open knapsack with his.

O, körpüdən 100 fut aralı dayandı və ağzı açıq olan bel çantasını özçü ilə götürüb yolu düşdü.

Bu ölçü vahidinin adı ingilis diliində foot – ayaq mənasındadır. Footun uzunluğu ştok adlanan ölçü vahidinin istifadəsindən sonra müəyyən olunmuşdur. onun uzunluğu «bazar günü səhər ibadətindən çıxan 16 insanın addımının uzunluğu»na bərabərdir. Ştokun uzunluğunu 16 bərabər hissəyə böldükdə bir addımın orta uzunluğu müəyyən olunurdur. XVI əsr riyaziyyatçısı Klavi həndəsi futu müəyyənləşdirmişdi, bu 64 arpa dənəsinin eninə bərabərdir. Keçmişdə futun uzunluğu 13 düym, hal-hazırda isə onun uzunluğu 30,479 sm-ə bərabərdir. bu ölçü vahidindən nəinki İngiltərədə, həm də digər ölkələrdə də istifadə olunur.

Digər ölçü vahidi ell – dirsəkdən barmağın ucuna qədər olan məsafənin ölçüsünə, 45 düymə bərabər idi. Bu ölçü vahidinin Azərbaycan dilində adı qulacdır. Bu sözün mənşəyinə nəzər yetirsək, görərik ki, qulac qədim slavyan dilinə локоть, ingilis diliinə elbow, alman dilinə isə Ellenbogen kimi tərcümə olunurö. E(o)l-, e(o)le- kimi hissəciklər Hind-Avropa dillərində dirsək mənasını bildirir. Həmin bu dillərdə dirsək sözü ölçü mənsında işləndikdə ell və elle kimi ifadə olunur.

Fathom adlanan ölçü vahidi də orta əsrlərə aiddir. O, yanlara geniş açılmış bir əlin barmağından o biri əlin barmağına qədər olan məsafəyə bərabərdir, yəni 6 futdur.

Rod adlanan ölçü vahidindən əsasən torpaq sahələrin ölçülməsində istifadə olunurdu. Bu 20 təbii addımın uzunluğuna – futa bərabərdir. Lakin 1066-cı ildən sonra bir sıra ölçü vahidləri kimi o da öz adını saxlamış, lakin uzunluğu dəyişilib 16 foot olmuşdur.

Chin adlanan ölçü vahidin uzunluğu 4 rod idi. Məlumdur ki, chain ingilis dilindən tərcümədə zəncir deməkdir. Bu ölçü vahidinin adı torpaq sahəsini ölçmək üçün istifadə olunan zəncirin adından götürülmüşdür. Bu yaxınlara qədər bu ölçü vasitəsindən torpaq sahələrini ölçmək üçün istifadə olunurdu. XVII əsrdən bəri istifadə olunmağa başlanan Gunter′s chain adlanan ölçü vahidinin uzunluğu 66 fut idi.

Furlong – furlonq həm keçmişdə, həm də indi istifadə olunan ölçü vahididir. Bu ölçü vahidinin mənşəyinə nəzərn salsaq, görərik ki, bu söz «istirahətsiz şumlanmış

torpağın uzunluğu» deməkdir. Onun uzunluğu torpağın növü və ferli vərdişlərdən asılı olaraq regiondan regiona fərqlənirdi. Güman edilir ki, onun uzunluğu 660 fut, 40 rad və ya 10 chain idi. 1066-cı ildən sonra yeni ölçü vahidləri istifadə olunmağa başlandı. Mile – mil bu ölçü vahidlərindən biriidi. Məsələn,

It was 15 feet but it was seemed like 15 miles as he pushed forward in the disorienting blindness of the flood.

Əslində o, 15 fut aralıda idi, amma daşqın vaxtı səmtini dəyişdiyi üçün 15 mil aralıda görünürdü.

Mile – mil Roma ölçü vahidi olub, mənası millia passuum – min addım deməkdir. İngiltərədə istifadə olunan Roma milinin uzunluğu 5000 fut – foot idi. 1592-ci ildə onun uzunluğu dəyişdirilmiş və 280 – fut olmuşdur. Hal-hazırda istifadə olunan milin uzunluğu 1,852 km-dir.

League adlanan ölçü vahidi də uzunluğ ölçü vahidi kimi istifadə olunurdu. Onun uzunluğu 1 saat ərzində gedilən yolun uzunluğuna, təxminən üç milə bərabər idi.

Yard adlanan qədim ölçü vahidi indinin özündə də öz işləkliyini qoruyub saxlamışdır. Məsələn,

In front of them, only three or four yards away, was a rocklike hump here no rock should be.

Onların qurşısında 3-4 yard aralıda qayaya bənzər təpə var idi.

Bu ölçü vahidinin tarixi kral Edqarla bağlıdı. Belə ki, onun uzunluğu kralın burnundan onun qabağa uzadılmış əlinin orta barmağının ucuna qədər olan məsafənin uzunluğuna bərabər idi. Kral dəyişiləndən sonra yardın uzunluğu kralın bədən ölçüləri ilə bağlı olduğundan, onun da uzunluğu artmışdı, çünki monarx iri bədənli idi.

Uzunluq ölçü vahidləri ilə yanaşı sahə ölçü vahidləri də tarixi keçmişə malikdir. Keçmişdə istifadə olunan ölçü vahidləri həm uzunluq, həm də sahə ölçü vahidi kimi istifadə olunurdu. Bu sahə ölçü vahidilərindən biri perch idi. Perch uzunluq ölçü vahidi kimi istifadə olunanda 1 rod sahə ölçüsü kimi istifadə olunanda isə bir kvadrat roda bərabər idi.

Acre – akr adlı ölçü vahidi də başqa metroloji termin kimi həm sahə ölçü vahidi, həm də uzunluq ölçü vahidi kimi istifadə olunurdur. Bu termin Sakson ölçü vahidi olub, mənası tarla demək idi, daha doğrusu, bir gün ərzində şumlanan torpaq sahəsini bildirirdi. Hal-hazırda öu ölçü vahidindən hələ də istifadə olunurn. Məsələn,

He opened 2000 acres of farmland dotted around the country of Yixian and even had some lands south of the Great wall.

Baxmayaraq ki, onun Böyük Çin səddinin cənub hissəsində torpaq sahəsi var idi, o, Yixiyan malikanəsi yaxınlığında 2000 akr torpağa da yiyələnmişdi.

Uzunluq ölçü vahidi kimi istifadə tolunanda o, bir furlonqa – furlonq, sahə ölçü vahidi olanda isə 4 roda bərabər idi. Furlonq kimi bu ölçü vahidinin də uzunluğu ölkədən ölkəyə fərqlənirdi. Məsələn, əgər İngiltərədə 0 4,840 kvadrat yarda bərabər idisə, Şotlandiyada 6,150 kvadrat yarda, İrlandiyada isə 7,840 kvadrat yarda bərabər idi.

Sadə ölçü vahidlərdən birinin də adı rood idi. Qədim əlyazmalarda bu ölçü vahidinin adı akr kimi də qeyd olunurdu. Uzunluq vahidi kimi istifadə olunanda o, furlonqa, sahə ölçü vahidi kimi istifadə olunanda isə 40 kvadrat roda bərabər idi.

Bir sıra ölçü vahidləri öküzüe torpağı şumlaması ilə təyin olunurdu. bunlardan biri carucate idi. Carucate bir ildə 8 öküzün şumladığı torpaq sahəsinin ölçüsünə bərabər, yəni təxminən 120 akr idi. Bir ildə bir öküzün şumladığı torpaq sahəsinin ölçüısü

bovarte adlanan ölçü vahidi ilə müəyyən olunurdu. Bu isə təxminən 1/8 carucate və ya 15 akr idi. bəzən bu ölçü vahidi oxgate adlanırdı.

Bir əil ərzində bir cüt öküzün şumladığı torpaq sahəsinin ölçüsü isə virgate adlanırdı. Təxminən 30 akra bərabər idi.

Uzaq keçmişə nəzər saldıqda görürük ki, nəinki uzuluq, sahə ölçü vahidləri, həm də çəki və həcm bildirən ölçü vahidləri də qədim tarixə malikdir. Mouthful, jigger, jack, gill, cup, pint, quart, gallon, pottle, peck, kenning, bushel, coomb, strike, hogsheal, barrel, butt və s. adlı çəki və həcm bildirən ölçü vahidləri də ta qədimdə formalaşmışdılar. Bu ölçü vahidlərindən bəziləri bir müddətdən sonra lüğət tərkibinin passiv fonduna keçərək arxaikləşmişdir. Bəziləri isə hələ də öz işləkliklərini qoruyub saxlamışlar. Belə ölçü vahidlərindən biri də barrel – barel adlanan ölçü vahididir. Bu ölçü vahidlərindən bir sıra ölkələrdə neftin ölçülməsində istifadə olunur.

Hələ də öz işləkliyini qoruyub saxlayan ölçü vahidlərindən biri də gallon adlanır. Məsələn,

Wn sold nine gallons to Mr. Jenkins, who run the store at the crossroads, at two dollars a gallon which you can see was a lot of money for our corn.

Biz yolayrıcında yerləşən mağazanı idarə edən Mister Cenkinə 9 qallon satdıq, aldığımız bu 2 dollar buğda almaq üçün xeyli puldur.

Keçmiş zaman məsdər forması, indiki zaman, köməkçi fel və feli sifət forması ilə təsrif olunan feldən düzəlir.

Keçmiş zaman məsdər forması indiki, keçmiş və gələcək zamanlara uyğun olaraq həmin hərərkəti göstərir

.Məs :Apres avoir passe ses examens il part au campus.

a) Məsdər sözönsüz işlənir.
b) Məsdər feldən sonra işlənir.

Bu fellər köməki fellərdir: devoir, pouvoir, vouloir, falloir, savoir.

Je dois aller au theatre.;Mən teatra getməliyəm.;
Tu veux visiter ce musee.Sən bu muzeyi gəzmək istəyirsən.
;Il ne savait ni lire, ni ecrire.;O nə yazmağı, nə də oxumağı bilmirdi.

b) Fikirləşməni bildirən feldən sonra :penser, croire, desirer felləri işlənir

Məs :.Je pence partir .

a) Apres (sonrq) sözü ilə birləşən birləşmələrdə keçmiş zaman məsdər forması təsdiq forma kimi tərcümə olunur
b) Məs :Ares avoir fini son travail il alla au cinema
c) işini qurtardıqdan sonra kinoya getdi;Apres etre arrive au stade, il commenca a sentrainer.
d) Stadiona çatan kimi, o məşqə başladı.

e) Avant de ifadəsi ilə olan birləşmələrdə indiki zaman və keçmiş zaman məsdər forma "əvvəlcə" sözü ilə qeyri-müəyyən və felin şəxsi forması kimi tərcümə olunur.

f) Avant de partir il fit ses adieux a tout le monde.
Yola düşməzdən əvvəl o hamı ilə görüşür.
Avant detre parti il fit ses adieux a tout le monde.
Yola düşməzdən əvvəl o hamı ilə görüşdü.

ç) Pour sözönü ilə ifadələrdə işlənən indiki zaman məsdər forma
Il prend ce livre pour le traduire.O bu kitabı tərcümə etmək üçün götürür.
Il est puni pour avoir manque la classe.
dərs buraxdığı üçün cəzalanıb

e) Sans sözönü ilə olan ifadələrdə :

Cümlədə məsdər formanın rolu müxtəlifdir. O cümlədə həm isim, həm də fel kimi işlənə bilər. Eyni zamanda aşağıdakı hallarda işləndiyini tədrisdə nəzərdən qaçırmamalıyıq.

Məsdər forma aşağıdakı hallarda işlənə bilər.
Mübtəda:Vivre-Cest travailler.
Xəbərin ad hissəs; Ton devoir est de bien apprendre.
Aşağıdakı bəzi fellərin məsdər formasını göstəririk.
Bu fellərdən sonra işlənən sözönüərə nəzər salaq :
ahever de - qurtarmaq, sona çatdırmaq
aider a - kömək etmək

Present de I′Indicatif	**Aider a**	**Futur simple**
	Passe compose	
J′aide a qn	J′ ai aide a qn	J′aiderai a qn
Tu aides a qn	Tu as aide a qn	Tu aideras a qn
Il (elle) aide a qn	Il (elle) a aide a qn	Il (elle) aidera a qn
Nous aidons a qn	Nous avons aide a qn	Nous aidorons a qn
Vous aidez a qn	Vous avez aide a qn	Vous aiderez a qn
Ils (elles) aident a qn	Ils (elles) ont aide a qn	Ils (elles) aideront a qn

b)FRANSIZ DİLİNDƏKİ HİSSƏVİ ARTİKLİN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ ÜSULLARI

Artikl partitif bu günkü gündə qeyri-müəyyən artiklin bir növü kimi dəyərləndirilərək sayılmayan isimlərin qarşısında işlədidir. Fransız dilinin tarixinə nəzərə salanda artikl partitif hissə bildirmə mənasına malik olan de sözönündən və müəyyən artikldən formalaşmışdır.

XVI əsrdən de sözönü və müəyyən artikl birləşərək xüsusi növ artikl əmələ gəlmişdir. Artikl partitifin statusu, yəni xüsusi bir forma kimi mövcud olması haqqında mübahisələr indiyənə qədər davam edir.

Mari Nobel və Qari Priörün fikirlərinə görə forma baxımından artikl partitif (du, de, la, de, l, des) müəyyənə, məna və sintaktik funksiya baxımından isə qeyri-müəyyənə uyğun gəlir. V.Q.Qakin fikrinə görə je mange du pain və il parle du loup cümlələrindəki du qrammatik omonim deyil, eyni formanın müxtəlif funksiyalarıdır.

Dilçilərdən Vaqner və Pənşonun fikirlərinə görə isə il y a du beurre sur la table cümləsindəki du xüsusi növ artikl, fellərdən sonra işlənən du is əde sözönünün müəyyən artikllə birləşmiş formasıdır (reprenez de ma soupe, reprenez de cette soupe, reprenez de la soupe). Amma onu da qeyd etmək lazımdır ki, fellərdən sonra işlənən de+isim konstruksiyalarında du heç vaxt birləşmiş artikl kimi ifadə olunmur.

Artikl partitifdən danışan dilçilər sayılmayan isimlər qarşısında kişi cinsində du qadın cinsində olanisimlər qarşısında de artikl partitiflərin işlənməsini göstərirlər. Artikl partitif haqqında dilçilər arasındakı iikncı mübahisəli məsələ des-nin artikl partitifin cəm forması kimi qəbul olunmuşdur.

Moris Grövisin fikrinə görə məna baxımından des həqiqi artikl partitif kimi deyil və sadəcə de sözönünün və müəyyən artiklin birləşməsi olaraq qeyri-müəyyən artiklin cəm forması hesab olunmalıdır. Buna misal olaraq, Grövis göstərir ki, j′ai mangé des pommes cümləsindəki des pommes əslində j′ai mangé de la pomme-un deyil j′ai mangé une pomme-un cəm formasıdır. Moris Grövisin fikrinə görə əgər məna baxımından artikl partitif qeyrni-müəyyən artikllə eynidirsə, onda des-nin artikl partitifin cəm forması kimi götürülməsində heç bir uyğunsuzluq yoxdur.

Des-nin artikl partitifin əsl cəm formasının olmaması haqqında eyni fikirlərnə Mari Noel və Qari Priörün «Fransız diliinin determinantları» adlı əsərində rast gəlinir. Grövisin göstərdiyi misallara oxşar misallar göstərməklə onlar da əslində des-ni artikl partitiflərin deyil, qeyri-müəyyən artikllərin cəm forması kimi dəyərləndirirlər.

Aqlutinativ dil olduğundan Azərbaycan dilində artikllər işlədilmir. Sadəcə olaraq Azərbaycan dilində qeyri-müəyyən kəmiyyət müxtəlif leksi5k vasitələrlə, ismin qeyri-müəyyən yiyəlik və qeyri-məyyən təsirlik halları ilə, miqdar və qeyri-müəyyən saylarla, qeyri-müəyyənlik bildirən bir sözülə və həmçinin bunların tələb etdiyi neçə, nə qədər sual əvəzliklərilə meydana çıxır.

Fransız və Azərbaycan dillərinin müqayisəli tədqiqatı ilə məşqul olan dilçi alim B.B.İsmayıloa fransız dilində isimlərin qrammatik determinasiyasına həsr etdiyi dissertasiya işində yazır: «Elə hallar rastlanır ki, qeyri-müəyyən isimlər Azərbaycan dilinə bir+isim konstruksiyasına uyğun gəlir.

Determinatif umumiyyətlə ola bilsin ki, Azərbaycan dilinə təcrübə olunmasın. Belə hallarda Azərbaycan dilində isimlər cümlə daxilində yalnız mövqe və intonasiya ilə formalaşır». Bu məqaləmizdə biz fransız dilində olan bədii dil materiallarında artikl partitifin işlnməsinə və onların Azərbaycan dilinə təcrübə olunarkən Azərbaycan dilində necə ifadə olunmasına diqqət yetirəcəyik.

Qeyri-müəyyən kəmiyyət mənasından çıxış edərək bu gün artikl partitif aşağıdakı sayılmayan isimlər qarşısında işlədilir:

I. Kəmiyyəti müəyyən olmayan və ya tam mənada götürülməyən maddə qarşısında.

Les bergers vous donnent du lait, du fromage, des châtaignes et vous n′aurez rien à craindre de la justice ou des parents du mort si ce n′est quand il vous faudra descendre à la ville pour y renouveler vos munitions.

Çobanlar sizə süd, pendir, şabalıd verər və ehtiyat üçün şəhərə enmək lazım gələnə qədər arxayın ola bilərsiniz ki, belə bir yerdə sizə məhkəmədən, yaxud öldürdüyünüz adamın qohum-əqrabasından, valideynlərindən heç bir xətər toxunmaz.

Yuxarıda verilmiq misalda qeyri-müəyyən kəmiyyətdə olan lait, fromage, châtaignes isimləri artikl partitiflə müşayət olunmuşdur və cümlədə vasitəsiz tamamlıq kimi işlənmişdir. Azərbaycan dilinə təcrübə zamanı müəllif qeyri-müəyyən miqdada olan süd, pendir, şabalıd isimlərinin ifadə yolunu qeyri-müəyyən təsirlik halda seçmişdir.

Après bien des hésitations, on m′a aussi donné de l′encre, du papier, des plumes et une lampe le nuit.

Bundan başqa, uzun tərəddüddən sonra mənə həmçinin mürəkkəb, kağız, bir neçə pero və bir lampa da verdilər.

Verilmiş misalda encre, papier, plumes isimlərinin kəmiyyəti qeyri-müəyyən olduğundan artikl partitiflə müşayət olunmuşdur. Və bu isimlər cümlədə rema kimi çıxış edərək tamamlıq funksiyasındadır.

Əslində bu misalda plumes isminin qarşısında artikl partitif işlənməklə artikl partitifin qeyri-müəyyən artiklin bir növü olduğu fikrini təsdiqləyir. Azərbaycan dilində təcrübədə isə qeyri-müəyyən təsirlik haldadır və cümlənin tamamlığı rolundadır.

Müəllif təcrübə zamanı pero ismini bir neçə qeyri-müəyyən sayı ilə müşayət etdirməklə adı çəkilən ismin qeyri-müəyyən kəmiyyətdə olmasını xüsusi vurğulayır.

II. Artikl partitifin mücərrəd isimlərin qarşısında işlədilməsi.

Cet homme avait sur le visage quelque chose de la tristesse officielle des empoloyés des pompes funèbres.

Bu adamın sifətində matəm mərasimində əllərində şam aparan xidmətçi kimi, nəsə rəsmi bir gərginlik özünü açıq göstərdi.

Bu misalda mücərrəd mənalı tristesse ismi sayılmayan isim olduğundan artikl partitiflə müşayət olunmuşdur. Azərbaycan dilinə təcrübədə isə müəllif qeyri-müəyyən kəmiyyəti ifadə etmək üçün qəmginlik ismini qeyri-müəyyənliyin Azərbaycan dilində əsas ifadə vasitəsi olan bir sözü ilə müşayət etdirmişdir. Və fransız dilində cümlənin tamamlığı rolunda olan tristesse ismi Azərbaycan dilinə təcrübə zamanı cümlənin mübtədası funksiyasını yerinə yetirir.

III. Artikl partitiflərin kollektiv mənada olan isimlərin qarşısında işlədilməsi.

Le directeur l′a prié d′attendre un instant, lui annonçant qu′il allait avoir du gibier à lui remettre, afin qu′il gonduisît sur le champ à Bicêtre par le retour de la carriole.

Rəis onu bir anlığa gözləməyi məhkəmə icraçısından xahiş etdi ki, çünki onun yeni bir ovu olacaqdı və ona mən gələən arabada təcili surətdə Bisetrə göndərmək lazım gələcəkdi.

Bu misalda kollektiv mənada olan, sayılmayan gibier isminin qarşısında artikl partitif işlənmişdir. Azərbaycan dilinə təcrübə zamanı müəllif sayılmayan, kollektiv mənada işlənən ov ismini bir sözü ilə müşayət etdirmişdir.

Qeyri-müəyyənliyin əsas vasitələrindən biri olan bir sözü ilə müşayət olunmasına baxmayaraq ov ismi müəyyən təsirlik haldadır. Və cümlənin reması olan ov ismi hər iki dildə cümlədə vasitəsiz tamamlıq funksiyasını yerinə yetirir.

IV. Artikl partitiflərin şəxssiz ifadələrin bir hisəssi olaraq təbiətin müxtəlif fenomenlərini göstərən vahid əşya qarşısında işlənməsi.

Il y avait du soleil et les rayons chauds d soleil, découpés par les longues cheminées, traçaient de grands angles de lumière au faîte des murs hauts et sombres de la prison.

Gün çıxmışdı və uzun borulardan keçən günəşin isti şüaları böyük işıq bucaqları cızaraq həbsxananın hündür, tutqun və çirkli divarlarının yuxarısına düşürdü.

Yuxarıda verilmiş misalda il y avait du soleil birləşməsindəki du vahid əşya, şəxssiz ifadələrin bir hisəssi olaraq təbiətin müxtəlif fenomenləfrin qarşısında işlədilən artikl partitifdir. Les rayons chauds du soleil birləşməsindəki du isə mənsubiyyət ifadə edən de sözönünün və le müəyyən artiklinin birləşmiş formasıdır.

ƏDƏBİYYAT

1. Həsənov A.Azərbaycan dilində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası. B.1970.
2. Илия Л.И. Артикль во французском языке. «Просвещение», М., 1956.

3. Исмайлов Б.Б. Способы грамматической детерминации имени существительного во французском языке (в сравнении с некоторыми подобными явлениями азербайджанского яызка). Баку, 1970.
4. Grevisse M. Le bon usage. Grammaire française. 8e édition. Duculot, Gembloux, Hatier, Paris, 1964.
5. Noëlle M., Prieur G. Les déterminants du français. Editions Ophrys, Paris, 2011.
6. Wagner R.L., Princhon J. Grammaire du français classique et moderne, Hachette, Paris, 1991.
7. Prosper Mérimé. Nouvelles. M., 1976.
8. Prosper Mérimé. Seçilmiş əsərləri. Bakı, 2008.
9. Victor Hugo. Le dernier jour d′un condamné. Paris, 1985.
10. Şamil Zaman. Ölümə məhkumun son günü. Bakı, 2002.

A.GASSANOVA,K.RZAYEVA

ARTICLE PARITIF IN FRENCH AND ITS MEANS OF EXPRESSION IN AZERBVAIJAN

SUMMARY

This article deals with the partitit article in the French language, ist development history, its opportunities of the use in the language. The means which express the equivalent of the partitit article in the Azerbaijani language were investigated in the article.

The solution of the problem was based on enough practical examples. Being investigated the problem from both the theoretical aspects and the practical aspect, the ideas of different linguists were considered and they were mutually compared and analyzed.

The relevance of the article is characterized by that the disputes about the status of the partitit article, its existence as a special form and its plural from still continue to this day.

А.ГАСАНОВА,К.РЗАЕВА

ЧАСТИЧНЫЙ АРТИКЛЬ ВО ФРАНЦУЗСКОМ ЯЗЫКЕ И ЕГО СПОСОБЫ ВЫРАЖЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Эта статья посвящена частичному артиклю во французском языке, развитию его истории и возможности его использования в языке. В статье были исследованы средства, которые выражают эквивалент частичного артикля Азербайджанском языке.

Решение проблемы было основано на достаточных практических примеров. Будучи исследуя поставленную проблемы были рассмотрены и взаимно сравнены и анализированы идеи разных языковедов в теоретическом, а также в практическом аспекте. Так как научные споры о статус частичного артикля и о его существовании в качестве особой формы продолжаются в настоящие время и это характеризуется в актуальности статьи.

RƏYÇİ: Rəfiq Cəfərov
Filologiya elmləri namizədi, dosent.

YEGANƏ ƏLƏSGƏROVA
SEVİNC BABAYEVA
ADİU
sevinc.@.mail.ru.

MÜASİR İNGİLİIS DİLİNDƏ İSMİN CİNS KATEQORİYASININ SÜPPLETİVİZM ÜSULU İLƏ DÜZƏLDİLMƏSİ VƏ ONUN AZƏRBAYCAN DİLİNDƏ MƏQBUL EKVİVALENTLƏRİ

Açar sözlər: *ingilis dili,azərbaycan dili,cins kateqoriyası,ekvivalent,süppletivizm.*
Ключевые слова: *Английский язык,азербайджанский язык,категория рода, эквивалент,супплетивизм.*
Key words: *English, Azerbaijani,categhory sex,ekvivalent,suppletivizm.*

Dildə mövcud olan gerçək həqiqətlərlə sıx surətdə bağlı olan kateqoriyalar aid olduğu dilin daşıyıcıları olan xalqın təfəkkürünün və dilinin inkişafının müəyyən dövrlərində yaranmış, inkişaf etmiş və təkmilləşmişdir. Kateqoriya eyni cinsli əşya və hadisələrin müəyyən qrupları üzrə toplanması haqqında anlayışdır.

Kateqoriyalar içində cins kateqoriyasının ingilis dilində qramatik səviyyədə deyil, leksik-semantik səviyyədə müşahidə etmək mümkündür.

İngilis dilində cins (gender) kateqoriyası III şəxs əvəzliklərinin tək formasında və isimlərdə müşahidə olunur. III şəxsin təkində əvəzliklərdə özünü biruzə verən cins kateqoriyası suppletivizm yolu ilə düzəlir.

Bu və ya digər sözün öz leksik mənasını mühafizə edərək, başqa sözə çevrilməsi və çevrilmə zamanı müəyyən bir mənanın əks olunması (6, s. 170) nəticəsi olan suppletivizm hadisəsi nəticəsində ingilis dilində III şəxs əvəzliklərinin təkində kişi, qadın və orta cinsin təzahür forması belədir.

He - (o-kişi cinsi); She - (o-qadın cinsi);

It - (o-orta cins, heyvanlar və cansız əşya və məfhumlara aiddir)

İsimlərdə cins kateqoriyası bir0biri ilə qarşılaşan, yəni qarşı-qarşıya duran iki oporisiyadan yaranır. Bu iki oporisiyadan biri isimləri iki yerə-insan (human) anlayışı və qeyri-insan (non-human) anlayışı isimlərə ayırır və bu qarşılaşmada əks olunur.

II opporisiya isə şəxs bildirən isimləri qadın (feminal) və kişi (masculine) cinslərinə ayıraraq onlardan təzahür edir və cinsin səciyyəvi sistemidə burdan yaranır.

Bu ənənəvi terminalogiya tərəfindən kişi (masculine), qadın (feminal) və orta cins (neuter) adlanır. İngilis dilində orta cins həm cansız isimləri, həm də heyvan anlayışı bildirən sözləri əhatə edir. Məsələn: “book”, “hill”, “world”, “city”, “friendshio”, “love”, “ant”, “horse”, “hen” və s. isimləri orta cinsə aiddir.

Müasir ingilis dilində ismin cinsini göstəricisi ola biləcək xüsusi morfoloji forma, səciyyəvi şəkilçi yoxdur. Cins ingilis dilində leksik mənada özünü göstərir.

Cins göstəricisi ola biləcək morfoloji vasitənin olmamasına baxmayaraq ismin cins mənaı leksik seviyyədə yetərincə təzahür edilir.

Kişi (male), qadın (female) və orta (neuter) isimlər bu dilin leksik tərkibində, lüğətində mühüm yer tutur. İsimlərin kişi cinsi bildirən sözləri kişi cinsinə, qadın cinsi bildirən sözləri qadın cinsinə aid olunur.

Qalan bütün isimlər orta cinsə şamil edilir (4, s. 205). İngilis dilində kişi və qadın cinsinə aid oluna isimlər struktur baxımından üç prupa bölünürlər.

1) Sadə isimlər

2) Düzəltmə isimlər

3) Mürəkkəb isimlər.

1. Sadə quruluşlu kişi və qadın cinsli isimlər yalnız bir kökdən ibarət olur. Məsələn: kişi cinsində: man, boy, husband, uncle və s., qadin cinsində: woman, girl, wife, ant və s..

2. Düzəltmə qruluşlu kişi və qadın cinsli isimlər analitik - flektiv qruluşlu ingilis dilində sözdüzəldici şəkilçilərin vasitəsilə düzəlir. Bu söz düzəldici şəkilçilər ingilis dilinə əsasən fransız dilindən keçmiş və qeyri-məhsuldar şəkilçilərdir.

Belə şəkilçilər əsasən kişi cinsli isimlərdən müvafikqadın cinsli isimlər əmələ gətirir. Məsələn:

- ess - Bu şəkilçi kişi cinsli isimlərə artırılaraq qadın cinsli ismlər əmələ gətirir:

actor - actress; host - hostess; poet - poetess; prince - princess; emperor -empress; peer - peeress; duke - duches; count - countess; waiter - waitress və s.

- ine - hero (qəhraman) - heroine (qəhraman (qadın c.))
- ette- usher (teatırda bilet yoxlayan kişi) - usherette (bilet yoxlayan qadın); cosmonette
- rix - testate [testit] - (miras qoyam kişi) - testatrix (miras qoyan qadın)

Bu şəkilçilərdən başqa ingilis dilində fel və isim köklərinə əlavə olunaraq kişi cinsli isimlər əmələ gətirən məhsuldar şəkilçi -er və onun variantı (-or) düzəltmə isimlər əmələ gətirir: actor (aktyor); widower (dul kişi); lover (məşuq); waiter (xörəkpaylayan kişi) və s.

3) Mürəkkəb quruluşlu kişi və qadın cinsli isimlər iki və daha artıq sözün birləşməsindən yaranır və əmələ gəlmə üsullarına görə fərqlənirlər.

Belə ki, bu tip isimlərin bəzisi iki sözün birləşib işlənməsindən , digərləri isə defis ilə yazılması youlu ilə yaranır. Buna görə də bu mürəkkəb isimlər iki növə ayrılır:

1) Bitişik yazılanlar: İki sözün bir-birinə yanaşma əlaqəsi ilə yanaşıb birləşməsindən yaranın. Məsələn:

Kişi cinsli isimlər: grandson, stepfather, stepson, fosterfather, godfather, godson, sportsman.

Qadın cinsli isimlər: granmother, granddaughter, stepmother, stepdaughter, fostersister, godmother, goddaughter, sportswoman.

2) Defislə yazılan kişi və qadın cinsli isimlər iki və üç sözdən yaranır.

Məsələn:

Kişi cinsli isimlər: father-in-law, brother-in-law və s.

Qadın cinsli isimlər: mother-in-law, sister-in-law və s.

İngilis dilində kişi və qadın cinsli isimlər ifadə etdikləri məna və aid olduqları siniflərə görə aşağdakı qruplara bölünürlər.

I. İnsan anlayışı bildirən isimlərdə cins mənası. Bu isimlər də öz növbəsində yarımqruplara bölünürlər:

1) Qohumluq mənası bildirənlər: kişi cinsi: father, brother, son, husband, nephew, heir, uncle, grandfather, grandson, father-in-law, brother-in-law, son-in-law; qadın cinsi: mother, sister, daughter, wife, niece, heiress, aunt, grandmother, granddaughter, mother-in-law, sister-in-law, daughter-in-law.

2) Ümumi cins fərqi bildirən isimlər: kişi cinsi: man, boy, fellow, lad, kid, male; qadın cinsi: woman, girl, amid, lass, dame, female.

3) Zadəgan titulu bildirən isimlər: kişi cinsi: king, prince, baron, count, tzar, duke, peer, emperor, marguess; qadın cinsi: queen, princess, baroness, countess, tzarina, duches, peeress, empress, marchioness.

4) Nigah prosesi ilə bağlı isimlər: kişi cinsi: bridegroom (bəy), fiance (bəy - toya qədər),l over (məşuq, sevgili), windower (dul kişi), birdesman (bəyin sağ dişi), bachelor (subay kişi); qadın cinsi: bride (gəlin - toyda), fiansee (gelin - toya qədər), sweetheart (sevgili), widow (dul qadın), spinster (ərə getməmiş qız, qarımış qız), bridesmaid (gəlinin sağdişi).

5) Müxtəlif əlaqələr əsasında yaranan isimlər: kişi cinsi: godfather - xaç atası, godson - xaç oğulluğu, stepfather - ögey ata, stepson - ögey oğul, foster father - atalıq, foster brother - süd qardaşı; qadın cinsi: godmother - xaç anası, goddaughter - xaç qızlığı, stepmother - ödey ana, stepdaughter - ögey qız, foster mother - analıq, foster sister - süd bacısı.

6) Nəciblik, alicənablıq bildirən isimlər: kişi cinsi: gentleman, knight (cəngavər); qadın cinsi: lady (xanım).

7) Müraciət forması kimi işlənən isimlər: kişi cinsi: miste (Mr.); qadın cinsi: (ərə getməmiş qıza müraciətdə işlənir), mistress (ərə getmiş qadına müraciətdə işlənir, (Mrs.)).

8) Peşə bildirən isimlər: kişi cinsi: actor, waiter, poet, milker (süd sağan kişi), salesman (satici kişi), cowboy (çoban), cowherd (çoban), policeman (polis), craftsman (sənətkar), sculptor (heykəltəraş), sportsman (idmançı) və s.; qadın cinsi: actress, waitress, poetess, nurse, (tibb bacısı), midwife (akuşer), needle woman (dərzi), saleswoman (satıcı qadın).

9) Sahiblik bildirən isimlər: kişi cinsi: host (ev sahibi), landlord (torpaq sahibi); qadın cinsi: hostess (ev sahibəsi), landlady (torpaq sahibəsi).

II. Heyvan anlayışı bildirən isimlərdə cins mənası: erkek cinsli: lion (şir), tider (pələng), boar (donuz), bick (maral), bull (kəl, öküz), ram (qoç), dog (it); dişi cinsli: lioness (dişi şir), tigeress (dişi pələng), sow (dişi sonuz), dol (dişi maral), cow (inək), ewe (qoyun), bitch (dişi it).

III. Quş anlayışı bildirən isimlərdə cins mənası: erkək cinsli: cock (xoruz), cockerel (beçə), drake (ördək), gander (qaz); dişi cinsli: hen (toyuq), pullet (fərə), duck (ördək), goose (qaz).

İngilis dilində isimlərdə cins mənası göstərmək üçün ismin qarşısına onun cinsini göstərə biləcək sözlər yazılır (5, 191).

Kişi və qadın cinsinin göstəricisiola biləcək bu sözlərin yaranmasının öz səciyyəvi cəhətləri var. Belə isimlərin yaranmasında vastəçi olacaq sözlər bunlaedır.

1) Man, woman, maid, boy, girl, he, she sözləri cins mənası göstərmək üçün əsasən peşə yönlü sözlərin qarşısında işlənir:

kişi cinsi:	qadın cinsi:
man - teacher	woman - teacher
man - doctor	woman - doctor
boy - friend	girl - friend
he - cousin	she - cousin

2) “Male”, “female”, “he”, “she” sözləri heyvan mənalı isimlərin cinsini göstərmək üçün onların qarşısında işlənir:

kişi cinsi:	qadın cinsi:
male - elephant	female - elephant
he - wolf	she - wolf
male - frog (qurbağa)	female - frog

3) Insan adları heyvan mənşəli isimlərin cinsini göstərmək üçün onların qarşısında cins göstəriçisi kimi işlənir.

kişi cinsi:	qadın cinsi:
Jack - ass (eşşək)	Jenny - ass
Tom - cat	Tabby - cat
Billy -goat	Nanny - goat

4) "Cock" və "hen" sözləri quşların cinsini göstərmək üçün quş adlarının qarşısında nə sonunda işlənir.

kişi cinsi:	qadın cinsi:
cock - sparrow (erkək sərçə)	hen - sparrow (dişi serçə)
cock - pheasant (erkək qırqovul)	hen - pheasant (dişi qırqovul)
heath - cock (erkək tetra quşu)	heath - hen (dişi tetra quşu)
peacock - (erkek tovuz quşu)	peahen - (dişi tovuz quşu)

İngilis dilində quş, balıq, heyvan adları, mücərrəd isimlər orta (neuter) cinsə aid edilir. Ancaq müəyyən qrup isimlərin cins mənası ilə bəzi ənənəvi əlaqələri mövcuddur.

Bu hal cümlə daxilində ismin əvəzedicisi kimi əvəzliklər işlədiləndə təzahur edir. Məsələn:

1) "Sun" (günəş) kişi cinsinə aid edilir.

It is pleasant to wacth the sun and his chariot of gold.

2) "moon" və "earthy" qadın cinsinə şamil edilir.

It is pleasant to wacht the moon in her chariot of pearl.

At firs the earth was large, but every moment she grew smaller.

3) Gəmi adları qadın cinsinə aid edilir.

(ship, boat, steamer, ice - breaker, cruiser, etc)

The new ice - breaker has started on her maiden voyage/

4) Nəqliyyat vastələrinin (car, carriage, coach) adları qadın cinsinə aid edilir.

Bu hal ən çox bu vastələrin sahibləri tərəfindən haqlarında danışdıqları anda mümkünlənir.

She is a fine car.

4) Ölkə adları əsasən qadın cinsinə aid edilir.

England is proud of her poest; Azerbaijan is famous for her oil.

Ümumiyyətlə, bəzən heyvan adları və mecərrəd isimlərin situasiya içərisində cins mənası kəsb etməsi halına təsadüf etməsi mümkündür.

Belə halda güc, qüvvət, dəhşət, vahimə bildirən sözlər kişi cinsinə; zəiflik, zəriflik, gözəllik ifadə edən isimlər qadın cinsinə aid edilir. Bu halda ancaq kontekst daxilində mümkündür.

ƏDƏBİYYAT

1. Amold I.V. "The English Word" Москва «Высшая школа» 1986.
2. Əsədova M.N. "İngiliscə - Azərbaycanca tematik sözlər lüğəti", Bakı Nurlan - 2001.
3. Blokh M.Y. "A Course in Theoretical English Grammar", Moscow - Vishay Shkola - 2000.

4. Gorden E.M., Krylova I.P. “A Grammar of Present Day English”, Moscow - Vishay Shkola - 1980.
5. Коврина Н.А., Корнеева Е.А., Оссовская М.И., Тузеева К.А. «Грамматика Английского языка». С.Питербург - Союз - 1999.
6. Məmmədov H., Axundov A., “Dilçiliyə giriş” Bakı - Maarif - 1980.
7. Смиринцикй А.И. «Лексикология Английского язык», Москва – 1956.
8. HacıyevT. Azərbaycan ədəbi dili tarixi.ADU nəşr. 1976.
9. Bayramov H.A. A zərbaycan dili frazeologiyasının əsasları.Bakı 1979.
10. Larin V.A. Rus dilində cins kateqoriyası.2006 il.
11. Musayev O.Ingilis dilinin grammatikası.1978 il.
12. Budaqova.Müasir Azərbaycan dili.Sintaksis.1981 il.
13. T.Todorov.The place of style in the strutur of the text.1971.
14. I.Rəhimov.İngilis diinin praktik grammatikası.Bakı 1986 il.
15. Логан П.Категория рода на русском языке.1987 г.

SEVINJ BABAYEVA

THE CATHEGARY OF GENDER IN ENGLISH

SUMMARY

This article deals with the Category of Gender in Modern English. The author proves it as a lexical category but not a grammatical category.

She also mentions the borrowed French gender suffix endings with the examples used in English language.

The article also speaks about the simple and compound nouns, the use of the category of gender in relations and analyses the English words such as “man, woman, maid, boy, girl, he, she” which are used with the category of gender.

СЕВИНДЖ БАБАЕВА

КАТЕГОРИЯ РОДА В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье описываются категории рода в современном английском язык. Автор отличает что категория рода является лексической категорией а не грамматической.

В тоже время автор доказывает, а наличии взаимоственных французских грамматических родовых окончаний, которые используются в современном английском язык, и приводит свои примеры.

В статье также рассматриваются простые и сложные существительные, употребление категория рода в родственных отношениях и анализируются английские слова как “man, woman, maid, boy, girl, he, she” которые употребляется с категориям рода.

Rəyçi: Rəfiq Cəfərov
filologiya elmləri namizədi, dosent.

NAİLƏ QASIMOVA
AYNUR YUNSUROVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
naile.m@gmail.com

BUILDING AND IMPROVING VOCABULARY

Açar sözlər: *dil, lüğət, zəngin, zənginləşdirmək, yiyələnmək, üsul, yeni söz, sinonim*
Key words: *language, vocabulary, rich, enrich, master, way, new word, synonym*
Ключевые слова: *язык, словарь, богатый, обогащать, овладеть, способ, новый слов, синоним*

Developing a good English vocabulary is the most important way to prepare for all tests generally. One of the best ways to build your vocabulary is to read authentic English language material. Examples of such material are newspapers, college text-books, encyclopedia articles, magazines and academic books. Reading articles on a variety of topics of interest to you will help you to develop your vocabulary.

It is very important to pay attention to new groups of word, expressions and phrases you encounter in your reading.

Another good way to learn new words is to make word lists. When you discover a new word, or group of words, add it to a list of words to be learned. On one side of the page, list the new words. To the right of this list, write synonyms for the new words. You can study the words by covering the synonyms, looking at the new word, and recalling the synonyms. It is also useful to reverse the process so that it is possible to practice both the new words and their synonyms.

It is very useful to become familiar with a thesaurus. A thesaurus is a dictionary of synonyms. When you find a word that you don't know, look it up in the thesaurus. Note a synonym for the word on a card or a word list. If you find a synonym, but still don't know the meaning of the word, look it up in an English language dictionary.

When readers find an unfamiliar word in a sentence they are sometimes able to determine its meaning by reading the other words in the sentence. The other words give the "context" that allows readers to make an educated guess about the meaning of an unfamiliar word.

Words fit into contexts in two ways. One is purely grammatical: the form of the word is grammatically correct for its position in the sentence. For example, you know that the space between "the" and "student" belongs to an adjective, so you know that "brilliant" fits into that space correctly, while "brilliance", which is a noun, does not.

Many English words consist of more than one part. There are three important parts you should know in order to improve your vocabulary.

WORD ROOTS

Many words in English contain Latin and Greek roots. These roots convey the basic meaning of the word and they occur repeatedly throughout the language. Knowing these roots will help you to determine the meaning of words with which you are not familiar.

Learning these roots will help you to recognize the basic meaning of hundreds of English words. For example the word manufacture. Manufacture is a combination of two root words, manu and fact. Using the list where root, meaning and example are indicated one can see that manu means "hand" and fact means "make" or "do". Therefore, we can infer the meaning "make by hand".

HOW TO STUDY WORD ROOTS

There are several ways to study word roots. One effective way is to make a flash card for each one. On each card write the room and a word containing the root. Also, write the meaning of the root and a synonym for the example word on the back of the card. As you practice with the cards, first identify the meaning of the root, then the word containing the root. Next, give a synonym for that word. As you study the roots set aside those you have learned and concentrate only on those roots and synonyms that you have not learned.

PREFIXES

Prefixes are the second important part of words. A prefix is a part of a word that is attached to the beginning of a word root. A prefix adds meaning to the base word. Thus, if you know the meaning of the prefix, you will be better prepared to determine the meaning of the word. Knowing both prefixes and word roots will unlock the meaning of thousands of English words.

Let's examine the word 'contact'. We can determine from the list of prefixes that 'con' means 'with'. Upon further examination of the word, we see the word root 'tact' means 'touch'. Without knowing the exact meaning of the word, we can guess 'with'. Indeed, contact conveys the meaning of communication with another person. Referring to the root words and prefixes we can ascertain that 'autobiography' means self, life and write, or the story of a person's life written by that same person.

SUFFIXES

The final word part is the suffix. A suffix is added to the end of a word. Similar to a prefix, a suffix adds meaning to the room word. However, the meaning is often grammatical, telling us the tense or the function of the word. Seldom does it change the actual meaning of the word in the way that prefixes do. Suffixes are attached to verbs, nouns, and adjectives.

THE DICTIONARY

For students of English as a second language, a good English dictionary is essential. It is a source of valuable information and if it is used correctly, the dictionary will serve as a useful tool toward your goal of English fluency.

There are many types of dictionaries that a student may consider, including collegiate, learner's, unabridged and bilingual dictionaries.

For more advanced students, collegiate or college dictionaries are preferred. In addition to the standard word entries, collegiate dictionaries often contain separate section that contain abbreviations foreign expressions used in English and biographical listings. Some may also contain geographical listings.

Highly recommended are learner's dictionaries. This type of dictionary is specifically written for students of English as a foreign language. Definitions are written in clear, easy to understand English. These dictionaries often anticipate learner's questions with special explanatory sections. They also use a standard phonetic alphabet to indicate the pronunciation of the entries.

Unabridged dictionaries are the most comprehensive, but not practical for second language learner's because of their size and detail. These dictionaries are often found in the reference sections of libraries on special tables to accommodate their size and weight. An unabridged dictionary is an excellent source for determining the historical development of words, examples of sentences that demonstrate proper usage, antonyms and synonyms.

A bilingual dictionary that contains words in your native language and English should be avoided. Often these dictionaries are incomplete and give only basic native

language equivalent words. These words are frequently out of date or inappropriate for the context of the sentence in which you want to use the unknown word.

Therefore, entries in bilingual dictionaries can be misleading. In fact, they can actually cause you to make mistakes.

VOCABULARY BUILDING TOOLS

We often speak of the meaning of words. In fact words have different of meaning. Firstly, there is the meaning that describes the thing or idea behind the vocabulary item: abroad is to or in another country. This meaning is called denotation, and we speak of denotative meaning.

For students of English as a Second Language, a good English dictionary is essential. It is a source of valuable information and if it is used correctly, the dictionary will serve as a useful tool toward your goal of English fluency.

There are many types of dictionaries that a student may consider, including collegiate, learner's unabridged and bilingual dictionaries.

Then there is figurative meaning. We speak, for example of "the three of life" or "a family tree". This imaginative meaning comes from, but is different from a word's denotative meaning. There is also the meaning that a vocabulary item has in the context (situation) in which it is used. Example: "We couldn't see the house because of the tall trees in front of it". In this sentence we understand how tall the trees are partly from knowing the meaning of tall and partly from knowing how tall a house is, so the meaning of tall in this sentence is partly defined by the context.

For more advanced students collegiate or college dictionaries are preferred. In addition to the standard word entries, collegiate dictionaries often contain separate sections that contain abbreviations, foreign expressions used in English, and biographical listings.

Highly recommended are learner's dictionaries. This type of dictionary is specifically written for students of English as a foreign language. Definitions\denotations are written in clear, easy to understand English. Unabridged dictionaries are the most comprehensive, but not practical for second language learners because of their size and detail. These dictionaries are often found in the reference sections of libraries on special tables to accommodate their size and weight. An unabridged dictionary is an excellent source for determining the historical development of words, examples of sentences that demonstrate proper usage, antonyms and synonyms.

A bilingual dictionary that contains words in your native language and English should be avoided.

These dictionaries are often incomplete and give only basic native language equivalent words. These words are frequently out of date or inappropriate for the context of the sentence in which you want to use the unknown words. Therefore, entries in bilingual dictionaries can be misleading. In fact, they can actually cause you to make mistakes.

A dictionary gives the information required to choose the best word for your needs. But we must remember that the meaning of some vocabulary items can also come from their form: from their prefixes, suffixes or compounds.

Adding prefixes or suffixes to base words, can, for example, give them an opposite meaning: safe-unsafe; or a comparative: easy –easier or superlative meaning: new-newest. It may also change their part of speech: adding affixes is called affixation.

Compound nouns get their meaning from being together telephone number; bookshop.

A typical dictionary entry contains the correct spelling of a word, followed by the word written in a phonetic alphabet. The word is separated by syllables. Its part of speech is indicated. The meaning of the word is given in a numerical order, sometimes followed by a sentence that shows the proper use of the word.

Some dictionaries provide synonyms, antonyms.

Some dictionaries give the derivation.

There are also dictionaries of idioms, fixed expressions which can't be changed: to tell you the truth, new born, it's up to you. Idioms are usually different from the combination of the meaning of the individual words they contain: to be under the weather, to have green fingers, once in a blue moon. Collocations, fixed expressions and idioms are of different kinds of chunks. "Chunks" refers to language that occurs in fixed (semi-) fixed units and that we usually learn as one piece: Have a good trip!

Words also have different relationships with one another. They may be synonyms, antonyms, lexical set: groups of words that belong to the same topic area (family, furniture, food). Words may also belong to the same word family (words that come through affixation from the same base word: read, reader, reading).

Let us see the word entry for the word maximum. By examining the word entry, we can determine that it contains three syllables; each syllable being separated by the mark [max-i.mum] The word is followed by a phonetic spelling: [mæk`s'-məm]. Following the pronunciation entry for the word maximum, an n, and the plural forms (identified by the abbreviation pl.).

To learn vocabulary efficiently, you must have a study plan and follow it carefully.

As your vocabulary grows, you'll be better prepared for the important day, when you can speak English fluently.

What is speaking? It is one of the four language skills: reading, writing, listening and speaking. Speaking and writing are productive skills. That means that unlike listening and reading, they involve producing language rather than receiving it. Very simply, we say that speaking involves using speech communicate meanings to other people.

When we speak we usually pronounce words, answer questions, use intonation, ask for clarification or explanation, correct ourselves, take part in discussions, use an appropriate register, take part in conversations, greet people, plan what we will say, smile, ask for and give information, use grammar and vocabulary. So it is very important to build our vocabulary!

VOCABULARY AND SPEAKING

The purpose of speaking is to communicate meaning and we do all these things to achieve this. We can see that speaking involves a lot more than just using grammar and vocabulary in speech. When we speak we constantly have in mind the person we are speaking to and our wish to communicate our meaning successfully to them. We use interactive strategies to help us achieve this. These include using body language such as gestures, eye contact, facial expressions and movement to put our message across more strongly and clearly and functions such as clarifying our meaning. For example: "I mean..-, What I'm trying to say is…), asking for opinions ("What do you think?"), agreeing (Yes, that's right) to keep the interaction (communication) going and check that is successful, language or body language interactive strategy we use.

View of language: vocabulary is the most important aspect of language. Vocabulary consists of individual words and different kinds of chunks such as collocations, idioms, fixed expressions.

View of language learning: language is learnt by learning chunks as whole and complete to become aware of chunks and focus on them.

Communication is the most important aspect of language. Meaning is **communicated** through functions, grammar, **vocabulary,** discourse and skills.

The best way to learn language is to use it in interaction, rather than to learn about it.

Research shows that it is easier to understand what you are reading if you begin with a general idea of what the passage is about. Other times, you will not find a direct statement. Then you will need to use the facts as evidence to make an inference. An inference is a logical conclusion based on evidence. It can be about the passage itself or about the author's viewpoint. For example, you may begin reading a passage, then you have to draw the conclusion, to make an inference.

It is very important to scan or to let your eyes travel quickly over a passage in order to find something specific that you are looking for. By scanning, you can find the place in a reading passage where the answer to a question is found. First, read the question and look for a reference.

What is reading? It is like having a conversation with the author. You have to improve your vocabulary every time.

You have to manage your time wisely! It is important to remember that knowing all the words you can work quickly and accurately.

There are words that regularly occur together, such as collocations. There are many words which collocate in a language, and the degree of collocation can vary. For example: to take a holiday, heavy rain.

All the words existing in contemporary English are called parts of speech, no matter whether they have full nominative meaning or not. Before starting to deal with the words, the parts of speech in any language, it is necessary to classify them into classes. Otherwise it is simply impossible to deal with the words so numerous and different in any language, including contemporary English.

In fact, classification is a scientific method and the starting point of every investigation without which no research can be carried out more or less successfully.

Every investigation begins or must begin with the classification of the matter in question. That is the main reason why classification is present in all branches if science.

It is a tradition to classify words into certain groups before starting to deal with them, and we also keep to the tradition and want to start the learning vocabulary existing in contemporary English by classifying them into classes.

Traditionally, English words are classified into certain classes according to their grammatical meaning, morphological characteristic and syntactic functions. On these bases almost in all books dealing with the classification of words into groups one can come across approximately the following groups of parts of speech: the noun, the adverb, the adjective, the pronoun, the numeral, the verb, modal words, the interjection, the article, the preposition, the conjunction, the particle.

Some of them are called notional parts of speech, such as: the noun, the adjective, the pronoun, the numeral, the verb, modal words, the interjection, but: the article, the preposition, the conjunction, the particle are called structural parts of speech.

But the best way is to give the classification of words in contemporary English taking into the consideration the characteristic features of the words we learn.

And at the end of this article we'd like to stress that one of the best way to improve your vocabulary and speaking is to read authentic English language material: newspapers, encyclopedia articles, magazines, academic books, etc. It will help you to

develop your vocabulary and of course, speaking. It is necessary to take advantage of resources that are native speakers of English. And remember: the ability to recognize new words and their meanings.

LITERATURE

1. Barron's pocket Dictionary, 2011.
2. Barron's Thesaurus, 2004.
3. American Accent Training. Grammar. 2007.
4. Write English Right, 2007.
5. Essential Words for the TOEIC, 4th edition, 2010.
6. Quirk R, Greenbaum S, Comprehensive Grammar of the English language, New York, 1998.
7. Longman "Vocabulary and building vocabulary". London, 1998.

N.İ.QASIMOVA, A.S.YUNSUROVA

LÜĞƏT EHTİYATININ ZƏNGİNLƏŞDİRİLMƏSİ

XÜLASƏ

İngilis dilinin lüğət tərkibi olduqca zəngindir. Dilin lüğət tərkibinin zənginləş-dirilməsi dilin mənimsənilməsi üçün çox vacibdir. Lüğət bazası olmadan istənilən dildə eləcədə ingilis dilində ünsiyyət qurmaq çox çətindir. Bu baxımdan lüğət tərkibinin zənginləşdirilməsi dilə yiyələnmək istəyənlər üçün mühüm bir tapşırıq olmalıdır. Dilin lüğət tərkibinin zənginləşdirilməsi üçün bir sıra üsullar mövcuddur. Bu üsullardan ən vacibi ingilis dilində orijinal materialların oxunmasıdır. Belə materiallara qəzet, dərslik, ensiklopediya məqaləsi, jurnal və s. daxildir. Lüğət ehtiyatının zənginləşdirilməsi üçün başqa bir üsul kimi öyrənilməli olan yeni sözlərin siyahısının tutulmasıdır. Bundan başqa öyrənilən yeni sözlərin sinonimlərini öyrənmək də lüğət ehtiyatının zənginləşdirilməsi üçün yaxşı bir vasitə ola bilər.

Н.И.КАСУМОВА, А.С.ЮНСУРОВА

ОБОГАЩЕНИЕ СЛОВАРЬ

РЕЗЮМЕ

Содержание словаря Английского языка очень богатый. Обогащение словарного запас языка является очень важным для развития языка. В любом языке, а также на английском языке без словаря базы данных общаться очень трудно. В связи с этим, обогащение словарного запаса должно быть важной задачей для тех, кто хочет выучить язык. Есть несколько методов для обогащения словарного запаса языка. Наиболее важным из этих методов чтения оригинальных материалов на английском языке. Такие материалы включены газеты, учебники, энциклопедии статей, журналов и т.д. В качестве другого способа, чтобы обогатить словарный запас это список новых слов. Кроме того, узнать синонимы новых слов, может быть хорошим инструментом для обогащения словарного запаса.

Rəyçi: **dosent F.Ə.Hüseynova**

LƏMAN QASIMLI
AMEA Nəsimi adına Dilçilik İnstitutu
e-mail:leman@bk.ru

SİFƏTİN LEKSİK-SEMANTİK MƏNA ÇALARLARI AZƏRBAYCAN DİLÇİLİYİNDƏ

Açar sözlər: dilçilik, *Azərbaycan dili, sifət, əsli sifət, nisbi sifət*
Ключевые слова: *лингвистика, азербайджанский язык, прилагательные, качественные прилагательные, относительные прилагательные.*
Key words: *linguistics, Azerbaijani language, adjective, qualitative adjectives, relative adjectives.*

Azərbaycan dilçiliyində sifətə müxtəlif yanaşma olmuşdur. Belə müxtəliflik hətta sifətin bir nitq hissəsi olaraq məna tutumunun müəyyənləşdirilməsində də özünü göstərmişdir. Belə ki, dilçiliyimizdə sifətin həm əşyanın əlamət və (ya) keyfiyyətini bildirən sözlər (Bax: 3, s.118; 4, s. 72-73; 2, s. 56; 7, s. 95 və s.), həm də ümumən əlamət və keyfiyyət bildirən nitq hissəsi olduğu göstərilir (8, s. 45). Hətta dilçiliyimizdə sifətin yalnız "əlamət" bildirən söz kimi təqdim olunduğu da müşahidə olunur (10, s. 82).

Azərbaycan dilinin "İzahlı dilçilik terminləri" sorğu lüğətində verilən izahda "sifət"ə "semantik cəhətdən əşyanın əlamət və keyfiyyətini bildirən, morfoloji baxımdan çox zaman xüsusi dərəcə əlamətləri qəbul edən, sintaktik funksiyasına görə təyin və ya tərkibində xəbərin ad hissəsi kimi işlənən nitq hissəsi" olaraq tərif verilir (1, s. 245-246).

Mahiyyətcə bu təriflər eyni məna yükü daşısa da, aralarında müəyyən fərqləri də sezmək mümkündür. Məsələn, ümumi şəkildə əlamət və keyfiyyət bildirməyi təkcə sifətə şamil etmək olmaz. Əlamət və keyfiyyəti bildirmək mənasına zərflər, sifətdən əmələ gələn isimlər də malik ola bilər. Ona görə də sifəti bir nitq hissəsi kimi fərqləndirmək üçün əşyaya istinad etmək zəruridir.

Azərbaycan dilçiliyində ümumiləşdirici əsərlər hesab edilən və yuxarıda istinad edilən akademik və monoqrafik nəşrlərdə sifətin tərifində işlədilən "əlamət" və "keyfiyyət" və ya yalnız "əlamət" terminindən istifadə edilməsi də müəyyən izahat tələb edir. Bu məsələyə münasibət bildirən prof. Y.Seyidov yazır ki, "əlamət və keyfiyyət müxtəlif anlayışlar kimi qəbul edilir. Əlamət deyəndə əşyanın zahiri görünüşü (*gözəl, uca, geniş, ağ, qara*), keyfiyyət deyəndə əşyanın daxili xüsusiyyətləri (*yaxşı, ağıllı, mərd, paxıl*) nəzərdə tutulur. Əlamət termini tək işlədiləndə bu xüsusiyyətlərin hamısı (həm zahiri, həm də daxili) anlaşılır." (11, s. 267). Görünür, bu mülahizələrdən çıxış edən alim, "təfəkkürün elementi kimi, məfhuma da tərif verəndə həmin termindən istifadə" edildiyini diqqətə çatdıraraq, "əlamət" terminini daha məqbul sayır, lakonikliyi, elmiliyi və anlaşıqlığı baxımından "əşyanın əlamətini bildirən nitq hissəsinə sifət deyilir" şəklində mülahizə irəli sürür (11, s. 267).

Y.Seyidov eyni sözün bir və ya bir neçə nitq hissəsinə aid edilməsi məsələsində ardıcıl mövqe tutan alimlərdən biridir. Ümumi dilçilikdə eyni sözün bir və ya bir neçə nitq hissəsinə aid edilməsi məsələsində iki fikrin üstünlük təşkil etdiyi müşahidə edilir.

1. Müxtəlif dillərin materialları üzrə yazılan qrammatika kitablarında sözlərin nitq hissələrinə bölgüsü göstərir ki, tədqiqatçılar sözün cümlədəki vəzifəsindən, yəni

sintaktik mövqeyindən çıxış edərək bir sözü müxtəlif nitq hissələrinə aid edirlər (F.A.Qəniyev, Q.A.Bertaqayev, B.R.Ardentov və b.).

2.Bir söz yalnız bir nitq hissəsinə aid olur. Bu və ya digər nitq hissəsinə aid sözün başqa nitq hissəsinə aid sözün sintaktik mövqeyində işlənməsi onun həmin nitq hissəsinə çevrilməsi demək deyildir (N.K.Dmitriyev, L.A.Pokrovskaya, V.Z.Panfilov, V.A.Serebrennikov, İ.İ.Meşşaninov, M.Şirəliyev, Ə.Dəmirçizadə və b.).

Y.Seyidov əsaslandırır ki, birinci fikrin tərəfdarlarının tətbiq etdiyi meyar əsasında sözləri nitq hissələri üzrə qruplaşdırmaq mümkün deyil. O, ikinci fikrin tərəfdarları sırasında dayanaraq göstərir ki, sözün ümumqrammatik mənasından çıxış edərək demək olar ki, bir söz yalnız bir nitq hissəsinə aid ola bilər. Başqa sözün sintaktik mövqeyində işlənməsi onun həmin nitq hissəsinə keçməsi demək deyildir (11, s. 110-117).

Bütövlükdə sifət əşyanın əlamət və keyfiyyətini bildirməklə öz spesifik xüsusiyyətlərinə görə digər nitq hissələrindən fərqlənir. Prof. Q.Kazımov qeyd edir ki, "sifət əşyanın əlamətini və ya keyfiyyətini bildirən bir söz qrupu kimi, başqa nitq hissələrindən mənasına, morfoloji əlamətinə və sintaktik vəzifəsinə görə fərqlənir. Sifətlər konkret lüğəvi mənasına görə əlamət və ya keyfiyyət bildirdiyi kimi, ümumiləşmiş qrammatik mənasına görə də əlamət, keyfiyyət birdirir və bu cəhət onu başqa nitq hissələrindən fərqləndirməyə imkan verir" (5, s. 98).

Alim əlamət və keyfiyyət anlayışlarını da bir-birindən fərqləndirməyi lazım bilir. Onun fikrincə, əlamət bildirən sifətlər əşyanın zahiri əlamətini əks etdirdiyi halda, keyfiyyət bildirən sifətlər bilavasitə əşyanın daxili aləmi ilə bağlı olur: "Əlamət əşyanın zahiri görünüşü, forması ilə bağlıdır: *yumru, böyük, uzun, sarı, qırmızı, göyçək* sözləri əşyanın zahiri cəhəti ilə bağlı olub əlamət bildirir. Keyfiyyət isə əşyanın məzmunu, mahiyyəti, daxili aləmi ilə bağlı olur: *acı, şirin, turş, dadlı, isti, soyuq* və s. sözlər daxili məzmun , keyfiyyət bildirir. *Qırmızı* alma dedikdə almanın əlaməti, *şirin* alma dedikdə keyfiyyəti nəzərdə tutulur." (5, s. 99). Q.Kazımov eyni bir sözün həm əlamət, həm də keyfiyyət bildirə bilməsini də qeyd edir: "Məsələn, nəhəng adam birləşməsindəki nəhəng sifəti həm insanın dahi şəxsiyyət olduğunu, həm də yekəpər adam olduğunu – bədən quruluşunu göstərə bilər. Birinci halda keyfiyyət, ikinci halda əlamət bildirir. Və ya gözəl insan birləşməsində gözəl sözü həm insanın daxili-mənəvi aləminə, həm də zahiri əlamətinə aid ola bilər." (5, s. 99-100).

Q.Kazımov əlamət və keyfiyyət bildirən sifətlər qrupunun hər ikisini 3 yarım-qrupa bölür: Əlamət bildirən sifətlər: 1) rəng bildirənlər 2) İnsanın və başqa canlı və cansız varlıqların xarici, cismani xüsusiyyətlərini bildirənlər; 3) həcm, ölçü bildirənlər.

Keyfiyyət bildirən sifətlər: 1) dad bilmə, eşitmə, duyğu, lamisə üzvləri ilə dərk edilən keyfiyyətləri bildirənlər; 2) Xasiyyət, psixoloji vərdiş və vəziyyət bildirənlər; 3) Ümumi keyfiyyət, hal-vəziyyət bildirənlər (5, s. 100).

Azərbaycan dilçiliyində ilk dəfə olaraq Ə.Dəmirçizadə sifət nitq hissəsinin parametrlərini dəqiq təyin etmişdir. Alim sifətin əlamət və keyfiyyət bildirməsini onun məna əlaməti, dərəcə şəkilçiləri qəbul etməsini və digər sözlərlə əlaqə qaydalarını morfoloji və sintaktik əlamət saymışdır. Göründüyü kimi, Ə.Dəmirçizadə sifət nitq hissəsinə ümumi dilçilikdə qəbul edilmiş meyarlar əsasında yanaşmışdır. Alim sifətin məna əsası kimi onun məna növlərini aşağıdakı kimi müəyyənləşdirir: 1) Rəng bildirən sifətlər; 2) məkan və həcm bildirən; 3) dad və lamisə üzvləri ilə dərk edilən əlamət və keyfiyyət bildirən sifətlər; 4) canlıların xarici və cismani xüsusiyyətlərini bildirən

sifətlər; 5) ümumi keyfiyyət bildirən sifətlər. Alim bu məna qruplarının sayını artırmağın mümkünlüyü barədə də danışır.

1951-ci ildə nəşr olunan və Azərbaycan dilinin ilk kollektiv qrammatikalarından sayılan əsərdə Ə.Dəmirçızadə bir nitq hissəsi kimi, sifət haqqında fikirlərini belə yekunlaşdırır: "1) Sifət əşyanın keyfiyyət və ya əlamətini bildirir; 2) ayrılıqda *nə cür? necə? hansı?* suallarından birinə cavab olur; 3) əsil məzmunu ifadə etdiyi zaman hal və cəm şəkilçisi qəbul etmir; 4) hal və cəm şəkilçisi qəbul etdiyi zaman öz əsil məzmunu ilə birgə bir də əşyalıq məzmunu ifadə edir; 5) düzəltmə sifətin sözdüzəldici şəkilçisi olur; 6) əsli sifətlər dərəcə əlamətləri qəbul edir. Cümlədə əşyadan əvvəl gələrək onun keyfiyyət, əlamətini bildirdikdə sifət, iş-hərəkətin əlamətini bildirdikdə zərf olur." (3, s. 124).

Azərbaycan dilçiliyində əşyanın əlamət və keyfiyyətinin sifətdə birbaşa və ya dolayısı ilə ifadə olunmasından asılı olaraq sifətlər əsli və nisbi sifətlərə bölünür (Bax: 7, s. 115-120; 18, c. 60-61; 8; 5, s. 111).

Ə.Dəmirçizadə sifətin semantik bölgüsündə *əsli* və *nisbi* sifətlər terminindən də istifadə etmişdir. Amma o, əsli sifətlər deyərkən sadə sifətləri, nisbi sifətlər deyərkən düzəltmə sifətləri nəzərdə tutur. Alim sifətlərin məna növlərini sadalayır və qeyd edir: "Bunlar, əsasən, əsli sifətlərin məna qruplarıdır, buraya bir sıra düzəltmə sifətləri də əlavə etsək, məna qruplarının miqdarını bir az da artırmaq olar" (3, s. 118-119).

Y.Seyidov əsli və nisbi sifətlərdən bəhs edərkən qeyd edir ki, "Azərbaycan dilçiliyində sifətlərin bu bölgüsündən təsadüfi hallarda istifadə edilir. Ona görə də bızi qrammatika kitablarında belə təsnifata rast gəlmək olmur. Bəziləri belə bölgü aparmasa da, əsli sifət terminindən istifadə edir, lakin əsli sifət terminini sadə sifət mənasında işlədirlər." (11, s. 268-269). Alim sözünə davam edərək qeyd edir ki, "dil faktı baxımından əsli sifətlərlə sadə sifətlər, nisbi sifətlərlə düzəltmə sifətlər, əsasən üst-üstə düşür, lakin bölgü prinsipləri eyni deyil və üst-üstə düşmək də tam deyil." (11, s. 269).

Y.Seyidov sifətin əsli və nisbi sifətlərə bölgüsü ilə bağlı bildirir ki, birincilər "heç bir başqa məfhumu yada salmadan əşyanın birbaşa əlamətini bildirən sifətlərdir. Söz anadangəlmə əlamət bildirmək xassəsinə malik olur, bu xassəni sonradan qazanmır." (11, s. 269-270). Bundan sonra alim xeyli nümunə göstərərək onların hamısının müasir dildə sadə sifətlər olduğunu, birbaşa əlamət bildirmək xüsusiyyəti kəsb etmiş sözlər olduğunu qeyd edir. Bundan əlavə *sınıq, uçuq* kimi düzəltmə sifətləri də misal göstərərək deyir ki, "Bu o deməkdir ki, əsli sifətlər həmişə sadə deyil; bu həm də o deməkdir ki, düzəltmə sifətlər də həmişə nisbi sifətlər deyil." (11, s. 270).

Y.Seyidov sifətin məna növlərini aşağıdakı kimi fərqləndirir: rəng adları: *ağ, sarı, qırmızı, qara, göy, boz*; həcm bildirən sifətlər: *uzun, gödək, uca, alçaq, hündür, dərin, gen, dar*; xüsusiyyət bildirən sifətlər: *tənbəl, lovğa, dinc*; əşyaların müxtəlif keyfiyyətlərini bildirən sifətlər: *acı, şirin, turş, möhkəm, bərk*; canlılara aid zahiri əlamətləri bildirən sifətlər: *kök, arıq, kar, kor, keçəl, çopur, gözəl, çirkin* və s. (11, s. 269).

Göründüyü kimi, bu bölgüdə dad bildirən sifətlər yer almamışdır. Göstərilən nümunələrə əsasən deyə bilərik ki, tədqiqatçı dad bildirən sifətləri "əşyaların müxtəlif keyfiyyətlərini bildirən sifətlər" qrupuna daxil etmişdir.

Azərbaycan dilində sifət haqqında, onun məna növləri, şəkilçiləri, dərəcələri haqqında orijinal fikirlər söyləyən tədqiqatçılardan biri M.Hüseynzadədir. O, keçən yüzilliyin 50-ci illərində nəşr etdirdiyi əsərlərdən tutmuş onların sonrakı nəşrlərinə qədər (1983) sifəti "əşyanın əlamət və keyfiyyətini bildirən nitq hissəsi" kimi səciyyələndirir. Sifətlərin digər nitq hissələrində şəkli əlamətlərinə görə fərqlənmədiyini,

sözlərin sifət olub-olmadığı yalnız onların daxili məzmunu və vəzifəsi ilə müəyyən edildiyini göstərir (4, s. 72). Alim *əsli sifət* dedikdə sadə sifətləri nəzərdə tuturdu, amma *nisbi sifət* terminini işlətmir, onun əvəzinə *düzəltmə sifət* terminindən istifadə edir. (4, s. 74). O, əsli sifət termininin mahiyyətini də açıqlayır: "Əşyanın rəngini müəyyən edən sözlər olduğu kimi, onun keyfiyyət, əlamət, xasiyyət və sairəsini də müəyyənləşdirən sözlər vardır ki, bunlar sifət hesab olunur. Keyfiyyət və əlamət bildirən sifətlər də heç bir xarici əlamətlə başqa nitq hissələrindən fərqlənmir. Bunlar da vəzifələrinə, mənalarına və qismən də dərəcələnmələrinə əsasən sifət hesab olunur. Məsələn: *yaxşı, pis, bərk, boş, gözəl* kimi sözlər həm cümlədə daşıdıqları vəzifə, həm ayrılıqda qəbul etdikləri dərəcə əlaməti, bütövlükdə isə öz əsl mənalarına görə sifət sayılır. Sifətlərin mənasındakı bu xüsusiyyətə əsasən onlara *əsli sifət* adı verilmişdir." (4, s. 73).

M.Hüseynzadə əsli sifətləri ifadə etdikləri mənaya görə üç qrupa ayırır: "Əsli sifətləri, başlıca olaraq, üç qismə ayırmaq olar: 1) keyfiyyət bildirən; 2) əlamət bildirən; 3) rəng bildirən" (4, s. 73). Alim əsli (sadə) sifətlərin keyfiyyət və əlamət mənaları arasında qəti bir sərhədin olmadığını nəzərə çatdırır. Azərbaycan dili morfologiyasının mahir tədqiqatçısı və bilicisi olan M.Hüseynzadə sifətin quruluşca növlərindən bəhs edərkən *sadə sifət* termininin mahiyyətini belə açıqlayır: "Madam ki, bir söz heç bir xarici əlamətə (dərəcə şəkiçisindən başqa) ehtiyac olmadan müəyyən bir varlığın və ya hadisənin əlaməti ola bilir, deməli, o sözün vəzifəsi və ilkin məzmunundakı sifətlik mənasına əsasən onu sifət adlandırmaq mümkündür. Buna görə də belə sifətlərə sadə sifət adı verilmişdir." (4, s. 75). Tədqiqatçı Azərbaycan dilində sadə (əsli) sifətlərin aşağıdakı qruplarını sadalayır: a) rəng bildirən; b) keyfiyyət bildirən; c) müxtəlif cəhətdən ölçü və həcm bildirən; ç) dad bildirən; d) zahiri əlamət bildirən (4, s. 75).

Azərbaycan dilinə aid yazılmış dərsliklərdə "əsli sifətlər" və "nisbi sifətlər" terminləri də sabit şəkildə istifadə edilməmiş, hətta müəyyən dövrlərdə dərsliklərdən çıxarılmışdır. Azərbaycan dili morfologiyasının tədqiqi tarixini araşdıran S.Zeynal sifətlərin əsli və nisbi sifət terminlərinin işlənməsi ilə bağlı göstərir ki, "1938-ci ilə qədər nəşr olunan dərsliklərə daxil edilən əsli sifətlər və nisbi sifətlər mövzusu da yenidən – 20 ildən sonra bu dərsliyə (1959-cu ildə S.Cəfərovun müəllifliyi ilə nəşr edilən "Azərbaycan dilinin qrammatikası" (I hissə) dərsliyi nəzərdə tutulur) daxil edilmişdir. "Əsli sifətlər"in izahı əvvəlki dərsliklərdəki izahdan fərqlənməsə də, nisbi sifətlərin izahı əvvəlki izahdan fərqlənir. Əgər 30-cu il dərsliklərində leksik şəkilçi qəbul edib sifət olan, yəni digər nitq hissələrindən düzələn sifətlər nisbi sifətlər sırasına daxil edilirdisə, bu dərslikdə düzəltmə yox, yerinə görə həm isim, bəzən də sifət kimi işlənən sözlər nisbi sifətlər sırasına daxil edilir." (12, s. 131).

Azərbaycan tədqiqatçıları yalnız Azərbaycan dilində deyil, başqa dillərdə də sifət nitq hissəsinin araşdırılmasında öz səylərini göstərmişlər. Belə ki, Azərbaycan təddqiqatçıları ingilis, alman, fars və digər dillərdə sifətin tədqiqi ilə məşğul olmuşlar. İngilis dilinin qrammatik quruluşu, nitq hissələri sistemi, o cümlədən sifət nitq hissəsinin öyrənilməsində O.Musayev, Z.Verdiyeva, C.Quliyev, N.Əliyeva, M.M.Şabani və digər tədqiqatçıların adlarını çəkmək olar.

Azərbaycandilli auditoriyada ingilis dilinin tədrisində uzun müddət dərslik qismində istifadə olunmuş əsərində O.Musayev sifət nitq hissəsinə Azərbaycan dilçiliyi ənənəsində yanaşmışdır. O, sifətləri əsli və nisbi olaraq qruplara ayırır, onların müqayisə dərəcələrində işlənmə xüsusiyyətlərini araşdırmışdır. O.Musayev əsli sifətləri əşyaların (1) rəngini, (2) formasını, (3) əqli və (4) fiziki keyfiyyətlərini və s. ifadə

etməsinə görə qruplaşdırır. (6, s. ...). Müasir ingilis dilində bəzən nisbi sifətlərlə əsli sifətlər arasında qəti sərhəd qoymağın mümkünsüzlüyündən bəhs edən O.Musayev eyni bir söz bir halda nisbi, digər halda isə əsli sifət kimi işləndiyini, nümunə olaraq *iron door* və *iron will* birləşmələrini göstərir. Onun fikrinə görə, 1-ci birləşmədə *iron* sifəti nisbi, 2-ci birləşmədə isə əsli sifət kimi işlənmişdir. Fikrimizcə, tədqiqatçının nisbi sifətlərlə əsli sifətlər arasında qəti sərhəd qoymağın mümkünsüzlüyü fikri doğrudur və biz digər dillərdə də belə halın müşahidə edildiyindən xəbərdarıq. Amma onun *iron will* söz birləşməsindəki iron sifətini əsli sifət sayması ilə razılaşmaq çətindir.

Z.N.Verdiyeva namizədlik dissertasiyasında müasir ingilis dilində "yoxsul" və "zəngin" anlayışlarını ifadə edən sifətləri semantik cəhətdən araşdırmış (15), doktorluq dissertasiyasında isə müasir ingilis və Azərbaycan dillərində sifətlərin semantik uzlaşma xüsusiyyətlərini müqayisəli-tutuşdurma metodu əsasında tədqiq etmişdir (17). Z.Verdiyeva həmin tədqiqatlar əsasında hazırladığı və pedaqoji institutların tələbələri üçün nəzərdə tutulan iki dərs vəsaitindən birində maddi vəziyyət anlayışı ifadə edən sifətlərin semantik təhlilini vermiş (16), ikincisində isə ingilis dilinin sifətlərinə sahə prinsipi ilə yanaşma sərgiləmişdir. Sonuncu vəsaitdə ingilis dilinin semantik lüğətinin praktik qurulmasına cəhd göstərilmişdir. Tədqiqat nəzəri planda semantik sahələr əsasında qurulur ki, onların da tədqiq edilməsi mənanın komponent təhlilindən istifadəni nəzərdə tutur. Müəllif dilin lüğət tərkibinə müxtəlif səviyyəli yarımsistemlər və ya paradiqmalar sistemi kimi yanaşma nümayiş etdirir. (14).

M.M.Şabani flektiv analitik ingilis, fars və aqlütinativ Azərbaycan dillərinin materialları əsasında dildə ölçü bildirən sifətlərin linqvistik təhlilini vermişdir. Əsərdə *böyük, kiçik, hündür* və *alçaq* məfhumlarını ifadə edən sifətlər araşdırılmışdır (13).

Beləliklə, əlamət və keyfiyyət bildirən sözlərin Azərbaycan dilçiliyində tədqiqi məsələlərinin nəzərdən keçirilməsi və onun ümumi dilçilik kontekstində müqayisəsi bir daha belə bir qənaətə gəlməyə əsas verir ki, həm Azərbaycan dilçiliyində, həm də ümumi dilçilikdə sifət nitq hissəsinə yanaşmada təxminən eyni və kifayət qədər mübahisəli mənzərə müşahidə olunur.

ƏDƏBİYYAT

1. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri (sorğu lüğəti). Bakı: Maarif, 1989.
2. Azərbaycan dilinin qrammatikası. Azərbaycan SSR EA nəşri, Bakı, 1960.
3. Azərbaycan dilinin qrammatikası.I hissə, Azərbaycan SSR EA nəşri, Bakı, 1951.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. 3-cü hissə. Bakı: Maarif, 1983.
5. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Nurlan, 2010.
6. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, 1979.
7. Müasir Azərbaycan dili, II cild, Morfologiya. Bakı: Elm, 1980.
8. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı: V.İ.Lenin adına APİ-nin nəşriyyatı, 1961.
9. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı: V.İ.Lenin adına APİ-nin nəşriyyatı, 1961.
10. Seyidov Y. Azərbaycan dili. Bakı: Maarif, 1978.
11. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya (ikinci nəşr). Monoqrafik dərs vəsaiti. Bakı: Bakı universiteti nəşriyyatı, 2002.

12. Sərdar Zeynal. Azərbaycan dili morfologiyasının tədqiqi tarixi (XX əsr) Bakı: Elm və təhsil, 2011.
13. Şabani M.M. Dildə ölçü bildirən sifətlərin linqvistik təhlili. Fil.ü.f.d. ... diss. avtoreferatı., Bakı, 2010.
14. Вердиева З. Н. Семантические поля в современном английском языке: учеб. пособие для студ. пед. ин-тов. - М.: Высш. школа, 1986.
15. Вердиева З.Н. Семантический анализ групп слов, обозначающих понятия "бедный", "богатый" в современном английском языке: Автореф. дисс. ... канд. филол. наук. / Моск. гос. пед. ин-т им. В. И. Ленина. Москва: 1966.
16. Вердиева З.Н. Семантический анализ прилагательных, обозначающих понятие материального состояния: (Учеб. пособие по лексикологии англ. яз.). Азерб. пед. ин-т иностр. яз. им. 50-летия СССР. Баку, 1976.
17. Вердиева З.Н. Сравнительно-сопоставительное исследование семантической сочетаемости прилагательных в современном английском и азербайджанском языках: Автореф. дисс. ... док. филол. наук. Азербайдж. гос. ун-т им. С. М. Кирова. Баку, 1970.
18. Грамматика азербайджанского языка. Баку: Элм, 1971.

LEMAN QASIMLI

LEXICAL-SEMANTIC MEANING SHADES IN AZERBAIJANI LINGUISTICS

SUMMARY

The article discusses the opinions expressed in the Azerbaijani linguistics in connection with the definition of the adjective as a part of speech and types of the semantic classification of adjectives in the Azerbaijani language. The study shows that there are different approaches to the adjective in the Azerbaijan linguistics. Consideration of issues related to words denoting quality and property of a noun in Azerbaijani linguistics, and comparing it in the context of general linguistics allows us to conclude that there are almost identical and fairly controversial picture.

ЛЯМАН КАСЫМЛЫ

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ОТТЕНКИ ПРИЛАГАТЕЛЬНЫХ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИНГВИСТИКЕ

РЕЗЮМЕ

В статьи рассматриваются мнения, высказанные в азербайджанской лингвистике в связи с определением прилагательного как части речи и классификации семантических типов прилагательных на азербайджанском языке. Исследование показывает, что были разные подходы к прилагательным в азербайджанской лингвистике. Рассмотрение вопросов исследования слов, обозначающие признак и качества имени существительного, и сравнения его в контексте общего языкознания позволяет прийти к выводу, что существует почти идентичная и достаточно спорная картина.

Rəyçi: Yusif Süleymanlı
Filologiya üzrə fəlsəfə doktoru dosent

NƏRMİN İSGƏNDƏROVA
Azırbaycan Dillər Universiteti- Magistr
nermin.iva@gmail.com

TƏLİM MATERİALLARININ SEÇİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR

Açar sözlər: *təlim materialı, bilik səviyyəsi, tədris prosesi*
Key words: *instructional material, level of knowledge, teaching process*
Ключевые слова: *учебные материалы, уровень знаний, процесса преподавания.*

Təlim sisteminin əsas komponentlərindən biri təlim materialının məzmunudur. "Təlim materialının məzmunu" dedikdə şagirdə "Nəyi öyrətmək, nəyi aşılamaq lazımdır?"- sualına verilən düzgün cavab başa düşülür. Onu təlim prosesinin məzmunu ilə qarışıq salmaq olmaz. Təlim materiallarının əsas məzmununu məlumatlar, anlayışlar, prinsiplər, qaydalar, bacarıq və vərdişlər təşkil edə bilir. Həmin məzmunun düzgün seçilməsi təlimin səmərəliliyi üçün zəruridir. Təlim materialları məzmunca dolğun, anlayışları dəqiq açacaq, şagirdlərin yaş və bilik səviyyələrinə uyğun olmalıdır. Müəllimin rəhbərliyi altında həyata keçirilən təlim prosesinin məzmununa müəllimin fəaliyyəti, şagirdlərin fəaliyyəti və təlim materialının məzmunu daxildir. Təlim materialının məzmunu özündə başlıca olaraq dörd elementi-biliklər sistemini, bacarıq və vərdişlər sistemini, yaradıcı fəaliyyət təcrübəsini, münasibətlər sistemini əhatə edir. Bu dörd element qarşılıqlı münasibətə girərək bəşər təcrübəsinin zəruri hissəsini özündə saxlayan təlim materialının məzmununu əmələ gətirir. Təlim materialı seçilib sistemləşdirilərkən aşağıdakılar nəzərə alınır: 1. Elmin tarixi inkişafında anlayış, qanun, prinsiplər hansı ardıcıllıqla əldə edilmişdirsə, tədris fənnində də həmin ardııllıq əsasən gözlənilir; 2. Tədris fənninin məzmunu elmin nailiyyətləri baxımından müəyyən edilir; 3. Tədris fənninin məzmunu şagirdlərin əqli inkişafı baxımından formalaşdırılır. Təlim materialı şagirddə düşüncə qabiliyyəti ilə hazırcavablılığı birləşdirməyə kömək etməlidir. Bu iki keyfiyyət bir adamda birləşdikdə ecazkar bilik ən qiymətli, yeni bir keyfiyyəti, ağılı yaradır (Kant). Təlim prosesində bilik, bacarıq və vərdişlərin formalaşdırılması onun, təlimin başlıca funksiyasıdır, təhsilləndirici vəzifəsidir. Təlim materialının məzmunu bu funksiyaya xidmət etməlidir. Həmçinin təlimin digər komponentləri kimi təlim materialının məzmunu tərbiyə və şagird şəxsiyyətinin inkişafı funksiyasına müvafiq gəlməlidir.

Məlumdur ki, dərslik təhsil sistemində məzmun və funksiyasına görə əhəmiyyətli resurslardan biridir. Şagird şəxsiyyətinin formalaşmasında dərsliklər mühüm rol oynayır. Şagirdlərin təfəkkürünü inkişaf etdirmək, əqli fəaliyyətinin əsas üsullarını formalaşdırmaq üçün dərsliklər ən etibarlı vəsait kimi dəyərləndirilir. Hazırda dərslik yeganə bilik mənbəyi deyildir. İnformasiya texnologiyalarının inkişafı məlumat mənbələrinin sayını da xeyli artırmışdır. Bununla bağlı, indi dərsliyin vəzifəsi şagirdə qaydaları, anlayışları, tərifləri əzbərlətdirməkdən ibarət olmayıb, onlarda müstəqil düşünmə, tədqiqatçılıq, yaradıcılıq vərdişləri aşılamaq, tənqidi təfəkkürü inkişaf etdirməkdir. Yaxşı seçilmiş dərslik tədris prosesində qarşıya çıxa biləcək bir çox problemi aradan qaldırır, təlimin səmərəliliyini artırır, şagirdlərin biliklərinin

sistemləşdirilməsinə, yaradıcı qabiliyyətlərinin inkişafına imkan verir. Dərsliklərin seçimi problemi çox vacib məsələlərdən biridir, çünki dərsliklər təhsil prosesinə çox güclü təsir göstərir. Dərsin planlaşdırılmasında və gedişində dərsliyin rolu böyükdür. Dərsliklərdə verilən materiallar kurikulumun tələblərinə, şagirdlərin yaş səviyyələrinə, maraqlarına və bilik səviyyəsinə uyğun olmalıdır. Elmin, texnikanın və mədəniyyətin müasir nailiyyətləri haqqında yoxlanılması mümkün olan və səlahiyyətli mənbələrdən götürülmüş məlumatlar öz əksini tapmalıdır və şagirdlərdə demokratik dünyagörüşü formalaşdırmalıdır

Təlim materialı fəal təlim prosesində bir komponent kimi şagirdi idraki fəallığa sövq etməli, onu tədqiqatçılığa və yaradıcılığa istiqamətləndirməlidir. Belə olan halda dərsliyin bilik vermək, məlumatlandırmaq kimi keçmiş ənənəyə söykənən funksiyası arxa plana keçir. Hazırda şagirdləri fəaliyyətə sövq etməklə tətbiqi xarakter daşıması dərsliklərin əsas keyfiyyətlərindən hesab edilir, onlarda bacarıqları formalaşdıra bilmək imkanının olması mühüm cəhət kimi dəyərləndirilir. Bunun üçün kifayət qədər müxtəlif növ çalışma və tapşırıqlardan istifadə edilməsi tələb olunur. İnteqrativ bacarıqların inkişafına imkan yaratmaq, onu şəxsiyyətin ümumi keyfiyyətinə çevirmək dərsliklərin xarakterik cəhətlərindən biri hesab edilməlidir. Bundan əlavə, şagirdlərin dünyagörüşünün formalaşdırılması da diqqət mərkəzində saxlanılmalı, ətraf aləmin obyektiv reallıqları ilə qəbul edilməsi üçün zəruri təlim materiallarından istifadə olunmasına üstünlük verilməlidir.

Keyfiyyətli dərsin təşkil edilməsi üçün məqsədin reallaşdırılmasına xidmət edən, dəqiq düşünülmüş təlim materialları və təlim tapşırıqları müəyyən edilməlidir. Müəllim dərsin qarşısında duran məqsəd və vəzifələrdən, tələbələrin hazırlıq səviyyəsindən çıxış edərək öyrənilən materialın həcmini, çətinlik dərəcəsini, başlıca məsələlərini, fənlərarası əlaqə imkanlarını müəyyənləşdirməli, dərs zamanı məzmunun mənimsənilməsinə nail olmalıdır.

Tədris prosesinin müvəffəqiyyətini təmin edən xarici amillər təlim materialının xüsusiyyətləri ilə bağlıdır. Çoxlu sayda belə xüsusiyyətlər mövcuddur. Psixoloqların apardıqları tədqiqatlar həmin xüsusiyyətlərin sistemini müəyyənləşdirməyə imkan vermişdir. Təlim materialını öyrənmənin müvəffəqiyyətini təmin edən xarici amil kimi mühüm bir xüsusiyyəti onun formasıdır. Adətən, təlim materialları müxtəlif formaya malik ola bilər. Foma etibarilə o, əşyavi, obrazlı, sözlü və simvolik şəkildə ifadə edilir. Təlim materialının göstərilən formalarının hər birinin özlərinə məxsus dil və üslub xüsusiyyətləri vardır. Ona görə də təlimin həmin formalarından və onların xüsusiyyətlərindən asılı olaraq öyrənmə, mənimsəmə də müxtəlif şəkildə gedir. Müəyyən yaş dövründə təlim materialının müvafiq formasından istifadə olunması öyrənmənin müvəffəqiyyətini təmin etmək üçün mühüm əhəmiyyətə malikdir. Psixoloji tədqiqatlar əsasında materialın formaca düzgün tərtib edilməsinə verilən psixoloji tələblər müəyyənləşdirilmişdir. Bu tələblərə düzgün əməl edilməsi təlim materiallarını şagirdlərin səmərəli şəkildə öyrənmələrinə imkan yaradır. Belə tələblərdən biri fikri istinadların, mətnin quruluş «vahidinin» qabarıq şəkildə verilməsidir. Bu tələbə görə təqdim edilən təlim materialının əsas cəhətlərini qabarıq şəkildə nəzərə çarpdırmaq lazımdır. Material elə tərtib olunmalıdır ki, əsas cəhətləri bir-birindən dərhal fərqlənə bilsin, onları birləşdirmək, qruplaşdırmaq və ümumiləşdirmək mümkün olsun (A.A.Smirnov).

Tədrisin müvəffəqiyyətinə təsir göstərən xarici amillərdən biri də təlim materiallarının çətinlik dərəcəsidir. Öyrənmənin səmərəliliyinə, onun sürətinə və düzgünlüyünə bu amilin böyük təsiri vardır. Materialın çətinliyi onda olan informasiyaların tələbənin

idrak imkanlarına müvafiq olmaması ilə müəyyən edilir. Materialın ayrı-ayrı ünsürləri arasında əlaqənin zəif olması, onun bir tərkib hissəsinin özündən sonra gələn tərkib hissəsini ətraflı aydınlaşdıra bilməməsi, səbəb-nəticə əlaqəsinin pozulması, ardıcıllığın itməsi, mətn daxilində qayda və tərifləri üzə çıxarmaq imkanı verən ümumiləşdirmənin zəif olması materialın çətinlik dərəcəsini artırır. Ona görə də bu cür materiallar şagirdlər tərəfindən çətin mənimsənilir. Təlim materialının öyrənməyə təsir edən əsas xüsusiyyətlərindən biri də onun əhəmiyyətidir. Materialın əhəmiyyətlilik dərəcəsi müxtəlif sahələrlə bağlı ola bilər. Material, ola bilsin ki, tələbələrə təqdim edilmiş digər materialları mənimsəmək, qarşıda duran məsələni həll etmək, yeni məlumatlar əldə etmək, tələbələrdə şəxsiyyətin bu və ya digər keyfiyyətlərini formalaşdırmaq və s. baxımından əhəmiyyətli olsun. Bunların hamısında materialdan insanın faydalanması nəzərdə tutulur. Çox vaxt dərsliklərdə və ya şagirdlərə təqdim olunan əlavə ədəbiyyatdakı materiallar bu tələbə cavab verdiyinə görə şagirdlər tərəfindən rəğbətlə qarşılanmır, əksinə asanlıqla psixoloji doyumluluq yarada bilirlər. Ümumiyyətlə götürdükdə təlim materialının əhəmiyyətliliyi qnostik (idraki), praktik (əməli), etik (əxlaqi), estetik (bədii), sosial (ictimai), tərbiyəvi (pedaqoji) sahələri əhatə edir. Lakin buradan heç də belə bir nəticə çıxarmaq olmaz ki, materialın təkcə öz-özlüyündə əhəmiyyətli olması onun müvəffəqiyyətlə mənimsənilməsini təmin edə bilər. Dərsin daha müvəffəqiyyətlə tədris edilməsi üçün material tələbə üçün əhəmiyyətlilik kəsb etməli, onun tələbat və maraqlarına cavab verməlidir.

Təlim materialının anlaşıqlılığı da onun öyrənilməsinə təsir edən əsas amillərdəndir. Oxunaqlığın nəzərə alınması üçün ilkin olaraq, məzmun materiallarının maraqlı olması vacib hesab edilir. Belə materiallar şagirdlərin diqqətinə səbəb olur, onları öyrənməyə təhrik edir. Təlim materiallarının lakonikliyi, aydın üslubda, sadə dildə olması öyrənmə fəaliyyətinin səmərəliliyini artırır. Psixoloqların apardıqları müşahidə və eksperimentlər göstərmişdir ki, anlaşıqlılıq dərəcəsi yüksək olan materiallar daha tez mənimsənilməklə yanaşı bu prosesdə buraxılan səhvlərin miqdarı da az olur və həmin material uzun müddət yaddan çıxmır. Anlama öyrənmənin səmərəli yollarından hesab olunur. Materialın mənasını dürüst və dərindən anlayaraq öyrənmənin mexaniki öyrənmədən fərqli olduğu şübhəsizdir. Şagird dərindən anlayaraq, əsaslı şəkildə düşünərək öyrəndikdə həmin materialı bir o qədər düzgün və möhkəm yadda saxlayır. Psixoloji tədqiqatlar göstərmişdir ki, mənanı anlamadan, başa düşmədən materialı mexaniki öyrənmək üçün daha çox təkrar tələb olunur, bu cür öyrənilən material, mənası anlaşılaraq öyrənilən materialdan tez unudulur. Adətən, hər bir idrak məsələsi, fikri məsələ beyində sual və suallar sistemi kimi əks olunur. İnsanda yaranmış sual nəyi isə anlamaq tələbatını ifadə edir. Belə sualın cavabı məlum olduqda anlama dərhal baş verir, məlum olmadıqda isə cavabın fəal şəkildə axtarılması və ya anlama prosesinin yaranması başlanır. Anlama yarandıqda öyrənmə də bir o qədər səmərəli olur. Lakin bununla yanaşı olaraq, nəzərə almaq lazımdır ki, materialın anlaşıqlılığı mənimsəmə subyektindən asılı olmayan təcrid edilmiş keyfiyyət deyildir. Materialın anlaşıqlı olması eyni zamanda şagirdin həmin materialı anlaması üçün zəruri anlayış və işlərə nə dərəcədə yiyələnməsindən də asılıdır. Bununla yanaşı anlaşıqlılığın səviyyəsi də müxtəlif ola bilər. Bütün bunlar müəllimin həmin prosesi idarə etməsini tələb edir. Təcrübə göstərir ki, bəzən şagird müəllimin izahında müstəqil oxuyub öyrəndiyi materialda hər hansı bir cəhəti anlamadıqda, onu müəllimdən xəbər almayıb başa düşmədən mexaniki olaraq öyrənir ki, bu da biliyin keyfiyyətinə mənfi təsir göstərir.

Ona görə də müəllim öz şagirdlərinə başa salmalıdır ki, aydın olmayan, az anlaşılan məsələlərin üstündən keçməmək, onları tamamilə anlayıb öyrənmək vacibdir. Ən düzgün və səmərəli yol fikirləşə-fikirləşə öyrənməkdir. Məhz buna görə də L.N.Tolstoy haqlı olaraq yazmışdır ki, bilik yalnız o zaman bilikdir ki, o, təkcə hafizə ilə deyil, həm də adamın öz fikirlərinin gücü ilə qazanılmış olsun. Tədris materialının strukturu, quruluşu da onun öyrənilməsinə, yaxşı və ya pis mənimsənilməsinə öz təsirini göstərir. Materialın bu xüsusiyyəti onun anlaşıqlılığı ilə sıx bağlıdır. Materialın anlaşıqlılığı yeni ilə köhnə, məlum olmayanla məlum olan arasındakı əlaqəyə, materialın strukturu isə bu əlaqənin necə, hansı yollarla yarandığına əsasən müəyyən edilir.

Materialın həcmi də onun qavranılmasına təsir edən mühüm xüsusiyyətlərdəndir. Materialın həcmi dedikdə ona daxil olan ünsürlərin miqdarı nəzərdə tutulur. Mənasız materialda yadda saxlanılacaq ünsürlərin miqdarını müəyyənləşdirmək o qədər də çətin deyildir. Mənalı yadda saxlanılacaq materialın həcmini müəyyənləşdirmək isə çətindir. Burada fikri proseslərin iştirakı lazım gəlir. Şagirdin təcrübəsi və biliyindən asılı olaraq həmin material sistemləşdirilir. Öyrənilən materialda ikinci dərəcəli məsələlər atılır, fikri dayaqlar– mətnin struktur vahidləri ayrılır, onun bütün bir hissəsi ümumiləşdirilir. Ona görə də təlim materialının həcmini təkcə onun ünsürlərinin miqdarı ilə ölçmək olmaz. Çünki şagirdlər dərslikdə yazılanı olduğu kimi deyil, mətni fikrən işləmək əsasında onda alınan formada, öz təcrübəsinə uyğun şəkildə öyrənir, yadda saxlayırlar. Şagirdlərin hər birində bu proses özünəməxsus şəkildə gedir. Mənalı təlim materialının həcmini yalnız mənimsənilməsi tələb olunan yeni anlayış və işlərin miqdarı ilə ölçmək mümkündür. Bu cür materialın həcmini eyni zamanda onda müəyyənləşdirilən əlaqələrin və mühakimələrin miqdarı ilə də ölçmək mümkündür. Materialın həcminin həddindən artıq şişirdilməsi, şagirdlərdə yorğunluq, materiala qarşı ikrah hissi yaradır. Şagirdlər belə materialdan birtəhər yaxa qurtarmağa çalışırlar. Materialın həcmi az olduqda, daha doğrusu, buradakı yeni anlayış və əlaqələrin miqdarı həddindən aşağı olduqda material şagird üçün maraqsız olur.

Nəhayət, təlim materialının emosionallıq dərəcəsi də tələbələrin həmin materialı mənimsəmələrinə təsir edən xüsusiyyət kimi özünü göstərir. Buraya materialın cazibədarlığı, tələbələrdə müəyyən hiss və emosiya yarada bilmə xüsusiyyətlərini aid etmək olar. Adətən, şagirdlərdə qüvvətli müsbət hissi hal yaradan material cansıxıcı materiala nisbətən asan öyrənilir və yadda saxlanılır. Mənfi emosional təsirə malik olan material isə bəzən pis, bəzən də cansıxıcı materiala nisbətən yaxşı yadda saxlanılır.

İdrakın inkişaf etdirilməsi və şəxsiyyətin mühüm göstəricisinə çevrilməsi müasir təhsilin mühüm fəaliyyət istiqamətlərindən biridir. Tədris prosesində idrak (psixi) prosesləri konsepsiyasının əsas paradiqmaları inkişafetdirici və tərbiyəedici təlim prinsipləri ilə bağlıdır. Bu iki önəmli prinsipin qovşağında isə müasir təlim özünün ən başlıca misiyasını yerinə yetirir. Ona görə də təhsilə aid hazırlanan bütün resurslar, o cümlədən də dərsliklər bu məqsədə yönəldilməli, şəxsiyyətin inkişaf dinamikasını təmin edən, onu daim izləyə bilən bir vasitə rolunu oynamalıdır. Bunun üçün ilk növbədə, şagirdin fəaliyyət dairəsi, formalaşdırılacaq bacarıqlar konkret olaraq müəyyənləşdirilməli, dərsliklərin məzmununda olan materiallar bilavasitə onların hərəkət mexanizminə çevrilməlidir.

Müasir təlim prosesinin əsas məqsədi tədrisin səmərəliliyini artırmaq, öz düşüncəsi, ağlı, potensial enerjisi, güclü məntiqi ilə fənləri dərindən mənimsəyən və onu tətbiq etməyi bacaran, hər cür situasiyalarda işin məğzini tutub çıxış yolunu tapmağı

bacaran yüksək intellektli gənclər yetişdirməkdir. Bu məqsədləri yerinə yetirmək üçün fəal- interaktiv təlim metodlarından və təlim materiallarından istifadə edərək, pedaqoji prosesi belə aspektdə qurulmalı, keyfiyyətli təlim prosesinin təşkili təmin edilməlidir.

ƏDƏBİYYAT

1. Brumfit, C. J. General English syllabus design. Oxford: Pergamon press 1984.
2. Richards, J.C. Curriculum development in language teaching. Cambridge: Cambridge university press. 2001
3. M□mm□dov A. T□limin psixoloji □sasları. – Bakı, 1993. s□h.62-80
4. Ağayev □.□. Yeni t□lim metod v□ texnologiyalarından istifad□nin n□z□ri v□ praktik m□s□l□l□ri // Az□rbaycan Respublikasının T□hsil Probleml□ri Institunun elmi □s□rl□ri. Bakı , 2006 s□h. 29-44
5. Q□dimova X. Interaktiv t□lim metodlarının t□tbiqi yolları. Bakı, Nur 2003
6. Abbasov □. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. //"Kurikulum" jurnalı, 2008, N 1, səh.31-37
7. Ümumtəhsil sistemində dərslik siyasəti. Azərbaycanın təhsil siyasəti (1998-2004), II Kitab. Bakı: Təhsil, 2005.
8. www.wikipedia.org

NARMIN ISKANDAROVA

RECOMMENDATIONS FOR SELECTING INSTRUCTIONAL MATERIALS

SUMMARY

The article deals with the selection of the relevant instructional materials in teaching process. The materials are essential components of the teaching process. The individual needs and varied interests, abilities, socio-economic backgrounds, learning styles of the students must be taken into consideration while selecting instructional materials as well as their level of maturity and knowledge. Well-defined teaching materials are the main indicators of the effective learning process.

НАРМИН ИСКАНДЕРОВА

РЕКОМЕНДАЦИИ ПО ВЫБОРУ УЧЕБНЫХ МАТЕРИАЛОВ

РЕЗЮМЕ

Статья про выбор учебных материалов при преподавании. Учебный материал основной компонент прочесса обучения. Быбирая учебные материалы необходимо учитывать не только возраст и уровень знаний, но и наряду с этим потребность и интерес к предмету. Правильный выбор вышеуказанных факторов является основным указателем эффективного процесса преподавания.

Rəyçi: Arif Əsədov
Filologiya elmləri doktoru, dosent

ESMİRA QULİYEVA
Azərbaycan Tibb Universitetinin
Azərbaycan dili kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN İNKİŞAF TƏMAYÜLÜ: DİL VƏ NİTQ

Açar sözlər: *ədəbi dil tarixi, dil və nitq, dilin funksional inkişafı, monoloji nitq, dioloji nitq, şifahi nitq, yazılı nitq və s.*
Ключевые слова: *литературный язык история, язык и речь , язык, функциональное развитие , монологи , письма , речи и так далее.*
Key words: *literary language history , language and speech , language, functional development, monologues , speaking , writing, speech and so on.*

Aydındır ki, nitq mədəniyyəti milli mədəniyyətin tərkib hssəsidir. Dilin özünün səlisliyi, ifadə imkanlarının genişliyi, həmin dildən istifadə edənlərin hazırlığı, yəni dilin səlisliyindən, ifadə imkanlarının genişliyindən düzgün faydalanmaq qabiliyyətinin olması, təbii ki, gözəl və emosional nitq üçün əsas şərt hesab edilir. Gözəl nitq millətin mədəni-intellektual səviyyəsinin etiketidir. Həm fonetik, həm leksik, həm də qrammatik quruluşuna görə dünyanın ən inkişaf etmiş zəngin dillərindən biri olan Azərbaycan dili fikri ifadə imkanlarına, poetik və psixoloji – estetik təsir gücünə görə dünya dilləri içərisində özünəməxsus cizgiləri ilə seçilir. Bu dildə çox qədim dövrlərin şifahi, eləcə də yazılı ədəbiyyatı formalaşmışdır. Böyük türk tədqiqatçısı Fuad Köprülü yazırdı ki, bütün türk ədəbiyyatını (yəni bütün türk xalqlarının ədəbiyyatını) tərəzinin bir gözünə, təkcə "Dədə Qorqud kitabı"nı o biri gözünə qoysan, Dədə Qorqud gözü ağır gələr. Bu dildə xalqımızın zəngin nitq mədəniyyətindən xəbər verən Nəsimi, Füzuli, M. F. Axundov, M.Ə. Sabir, C.Məmmədquluzadə, Ü. Hacıbəyli kimi dahi sənətkarlarımızın sənət əsərləri yaranıb. Məlumdur ki, milli mədəniyyətin, o cümlədən də nitq mədəniyyətinin qoruyucusu, daşıyıcısı xalqdır. Azərbaycan dili genealoji təsnifata görə, türk dillərindən biri olub, Ural-Altay dilləri ailəsinin oğuz qrupuna daxildir və ən yaxın qohumları olan türk, türkmən və qaqauz dilləri ilə birlikdə ərazi prinsipinə görə türk dilləri mühitinin cənub-qərb qrupunu təşkil edirlər. Ənənəvi-morfoloji və ya tipoloji təsnifat baxımından Azərbaycan dili iltisaqi (aqlütinativ) dillər qrupuna daxildir. Bu qrupa daxil olan bütün dillər kimi, Azərbaycan dilində də flektiv dillərdən fərqli olaraq bütün söz kökləri özümlü leksik və qrammatik mənası olan müstəqil sözlərdir; qrammatik mənalar və qrammatik əlaqələr isə həmişə söz kökündən və əsasından sonra gələn təkmənalı (monosemantik) şəkilçilər vasitəsilə ifadə olunur. Azərbaycan xalqının etnik əsasını təşkil edən türklər indiki Azərbaycan ərazisində eramızdan əvvəl görünməyə başlamış, birinci minilliyin əvvəlindən isə başqa mənşədən olan çoxsaylı tayfalarla birlikdə bu torpağın qədim sakinləri olmuşlar. Türk mənşəli Azərbaycan dilinin və həmin dildə danışan xalqın yaranması, başqa sözlə, bu dilin ümumi ünsiyyət vasitəsinə çevrilməsi uzun sürən, bir neçə əsr davam edən bir proses olmuşdur. Cəmiyyətin etnik tərkibində türk tayfalarının sayı, habelə iqtisadi, siyasi, mədəni təsiri artdıqca dilin inkişaf imkanları da genişlənmiş və beləliklə, bəzi etnik və antropoloji xüsusiyyətlərini bu gün də qoruyub saxlaya bilən çeşidli etnik qruplar ümumi mədəni-mənəvi və dini birliyi olan bir xalq halında birləşmişlər. Azərbaycan yazılı ədəbi dilinin tarixi hələlik əldə olan materiallara görə XIII əsrdən başlayır. Lakin "Kitabi-Dədə Qorqud" dastanlarının dili ədəbi dilimizin şifahi növü kimi qəbul edilərsə,

deməli, bu gün xalqa ünsiyyət vasitəsi kimi xidmət edən dilin yaşı on üç əsrdən çoxdur. Orta əsrlərdə əski Azərbaycan dilinə aid tərcümə lüğətləri və qrammatik tədqiqatlar aparılmış olsa da, Azərbaycan dilinə aid elmi əsərlər və dərsliklər XIX əsrdən etibarən yazılmağa başlayır. Mirzə Kazımbəyin rusca yazdığı "Türk-tatar dilinin ümumi qrammatikası" əsəri məşhurdur. M. Vəzirovun, L. Budaqovun, Q. Makarovun, N. Nərimanovun, M.L. Məmmədovun, S.M. Qəniyevin Azərbaycan dilinə aid dərslikləri də rus dilində yazılmışdır. L. Budaqovun ikicildlik lüğəti də ("Сравнительный словарь турецко-татарских языков") var. M. Əfşarın Azərbaycan dilinə aid "Fənni-sərfi-türki" ("Türk dilinin qrammatikası") adlı dəyərli əsəri isə öz dilimizdə işıq üzü görmüşdür. XX əsrin əvvəllərindən başlayaraq, ədəbi dildə üç meyl, üç istiqamət özünü göstərir. Təbiidir ki, bu ən çox bədii əsərlərin dilinə və mətbuata aiddir. Birinci istiqamət, ədəbi dili bacardıqca xalq dilinə yaxınlaşdırmaq, onunla eyniləşdirmək meyli. "Molla Nəsrəddin" jurnalının və bu jurnalın əməkdaşlarının (C. Məmmədquluzadə, Ə. Haqverdiyev və b.) əsərlərində bu tendensiya özünü göstərir. Burada ədəbi dil ilə danışıq dili, dialektlər arasındakı fərq hiss olunmur. İkinci istiqamət daha çox osmanlı (indiki türk) və qədim Azərbaycan dilinin mahiyyətinə, qrammatik quruluşuna söykənən ədəbi dil formalaşdırmaq istəyi ilə bağlıdır. Bu "Füyuzat", "Həyat" kimi bir çox jurnal və qəzetlərin, xüsusilə də bu redaksiyada işləyənlərin (Ə. Hüseynzadə, Səbribəyzadə və b.) əsərlərinin dilində əks olunurdu. Xalq bu ədəbi dili qavramaqda çətinlik çəkirdi. Həmin dövrdə türk ədəbi dili ilə Axərbaycan ədəbi dili arasındakı sərhəd və özəlliklər o qədər də hiss olunmurdu. Üçüncü istiqamət isə hamı tərəfindən anlaşılan, mədəni dil normalarına əsaslanan ədəbi dil yaratmaq meyli iedi. Bu heç bir dialekt təsirini qəbul etməyən bir dil idi. Bu dili A. Şaiq, C. Cabbarlı, S. Hüseyn, A. Səhhət kimi şair və yazıçılar yaradırdılar. Ədəbi dil sahəsindəki bu vəziyyət əsrin əvvəllərindən 1930-cu illərədək davam etdi.

Yeni dövr Azərbaycan ədəbi dilinin sonuncu , yəni müasir mərhələsində dil həyatının mühüm hadisələrindən biri Azərbaycan ədəbi dilinin dövlət dili statusu almasıdır. Ancaq dilimizin tarixindəki həlledici, taleyüklü ictimai-siyasi hadisələrə nəzər salsaq, gərək XIX əsrin sonlarına qayıdaq. XIX əsrin 80-ci illərində Qafqazda olmuş Y. Veydenbaum çıxışlarında vurğulayırdı ki, sadəliyi, ahəngdarlığı və öyrənmək üçün asanlığı Azərbaycan dilini bütün Şərqi Qafqaz üçün beynəlxalq dilə çevirmişdir. Maraqlıdır ki, hələ o zaman "Şərqi Qafqaz üçün beynəlxalq dil" statusu almış Azərbaycan türkcəsinin inkişafı və qorunması, qloballaşma siyasətinin içərisində duruş gətirə bilməsi üçün sonrakı dövrlərdə də dövlət səviyyəsində mücadilə edən rəhbərlər, siyasi xadimlər olmuşdur. Məsələn, Azərbaycan dilinin funksional inkişafı sahəsində köklü dəyişikliklərə məhz 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən sonra nail olmaq mümkün oldu. Çünki dil sahəsində milliləşdirmə siyasətinin əsas mahiyyətini Azərbaycan dilinin çarizm dövründə itirilmiş mövqelərinin bərpası təşkil edirdi. Bu inqilabi hadisə Azərbaycan dilinin inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Dil sahəsində milliləşdirmənin həyata keçirilməsi bu dövrdə milli hökumətin fəaliyyətinin əsas istiqamətlərindən biri idi. 1918-ci il iyunun 27-də milli hökumətin qərarı ilə ilk dəfə olaraq Azərbaycan dilinə dövlət dili statusu verildi və dövlət orqanlarında sənədləşmələrin bu dildə aparılmasına başlandı. 1918-ci il avqustun 28-də Azərbaycan dilində təhsilli milli kadrların hazırlanması məqsədilə ölkədəki təhsil müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul olundu. 1918-1920-ci illər müstəqillik dövrünün əsas nailiyyətlərindənbiri də Azərbaycan dilində fəaliyyət göstərən ali təhsil müəssisələrinin yaradılması və Azərbaycan əlifbasının islahatı üçün ilk addımların atılması oldu. Ona görə də 1918-1920-ci illər

dövrünü Azərbaycan dilinin hərtərəfli inkişafında intibah nöqtəsi hesab etmək olar. XX əsrin sonrakı onilliklərində bu sahədə atılan fundamental addımlar 1918-1920-ci illərdə əsası qoyulmuş ideologiyanın əsaslı şəkildə inkişafı və şaxələnməsinin təzahürü idi.

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş yeni Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi öz layiqli yerini tutur: Konstitusiyanın 21-ci maddəsində "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir" – qanunu təsdiqini tapır.

Bütün bu deyilənləri nəzərə alaraq, Azərbaycan dilinin inkişaf təmayüllərində bir əsas məsələyə diqqət yönəltmək istəyirik: Dilin funksionallığı, genişmiqyaslı əhəmiyyəti üçün nitqin, nitq və ünsiyyət mədəniyyətinin rolu danılmazdır. Dilsiz nitq olmadığı kimi nitqsiz də dilin formalaşması məsələsindən danışmaq olmaz. Dildən istifadə zamanı nitq yaranır. Nitqdə işlədilməyən dil yox olmaq təhlükəsi ilə üz-üzə qalır. Ana dilində mükəmməl danışmaq, onu yad təsirlərdən qorumaq üçün ana dilində fikirləşmək, düşünmək lazımdır. Həm şifahi, həm də yazılı nitqin qanunları ədəbi dil normalarına uyğun şəkildə inkişaf etdirilərsə, mədəni-intellektual düşüncədə dil öz aparıcı funksiyası ilə milli mədəniyyət simvolu kimi daima öz yerini mühafizə etmiş olar. Şifahi nitq özünəməxsus xüsusiyyətləri (Şifahi nitq danışılır və eşidilir, şifahi nitq leksikasında hamıya aydın ümumişlək sözlərə daha çox yer verilir, şifahi nitqdə cümlələr, əsasən qısa və sadə olur, şifahi nitqdə danışıq dilinin xüsusiyyətləri mühafizə olunur, şifahi nitqdə intonasiya, fasilə vurğu və s. vasitələrdən istifadə olunur, mimika, jest və başqa hərəkətlər özünü göstərir, şifahi nitqin axını sürətli olur və s.) ilə yazılı nitqdən (yazılı nitqdə elmi, texniki, siyasi və başqa terminlər çox işlədilir, yazılı nitq ədəbi dilin əsasında formalaşıb inkişaf edir, yazılı nitqdə intonasiya fasilə vurğu və s. şifahi nitq ünsürlərini əks etdirən durğu işarələrindən istifadə edilir, yazılı nitqdə mimika və jest əsas rol oynamır, yazılı nitq hər hansı məlumatın fikirlərin nəsildən – nəslə keçməsində əsas rol oynayır və s.) fərqlənir. "Dil" və "nitq mədəniyyəti" məfhumları eyni obyektli müxtəlif planlıdır. Hər iki anlayışlar bir – biri ilə əlaqədardır. Bir – birini tamamlayır. Hər ikisi birbaşa insanların münasibəti davranışı və nitqi ilə bağlıdır. Dil mədəniyyəti anlayışı genişdir. Dilimizdə dil mədəniyyəti ilə yanaşı, mədəni dil termini də işlədilir. Dil mədəniyyəti dedikdə hər bir xalqın öz dilində öz fikrini bütün incəliyi ilə ifadə edə bilməsi başa düşülür. Hər bir mədəniyyət dili üçün onun ahəngdar fonemlər sistemi, geniş lüğət tərkibi sabit qrammatik quruluşu, mükəmməl və dəyişməz yazı sistemi olmalıdır. Dil mədəniyyəti anlayışı ümumidir. Burada şifahi və yazılı nitqlər birgə götütülür. Nitq mədəniyyəti əsasən yazılı, şifahi nitqlə bağlıdır. Dil mədəniyyəti nəzakətli ünsiyyət, xoş rəftar mehribançılıq, qarşılıqlı anlama ilə bağlıdır". [1]

Dil mədəniyyəti tarixi səciyyə daşıyır. Ona görə də dil mədəniyyəti keçmişin canlı şahidi, müasir mədəniyyətin fəal iştirakçısıdır və nitq mədəniyyəti dilin funksional və struktur inkişafının ən yüksək mərhələsidir. Nitq mədəniyyəti sözün geniş mənasında həm də fikir, düşüncə mədəniyyətidir. Öz düşüncəsini düzgün yazmaqla və danışmaqla ifadə edərək kamil nitqə malik olmaq mədəni nitqin əsas əlamətidir. Nitq mədəniyyəti dilin normalarının və kateqoriyalarının tələbələrinə riayət etmək deməkdir. "Dil bütün ictimai, o cümlədən, əxlaqi-etik münasibətləri öz formaları və kateqoriiyaları sayəsində əks etdirir. Bunların içərisində cəmiyyətin bütün üzvləri üçün zəruri hesab edilən etiket normaları xüsusi yer tutur. Buraya salamlaşma, təbriketmə, arzulama, təqdimetmə və s. daxildir. Bir çox dilçilər dilin bir sistem kimi ictimai təbiətə malik olduğunu qeyd edirlər. Görkəmli dilçi alim J.Vandriyesin yazdığı kimi, "yalnız dilin ictimai rolunu öyrənməklə onun mahiyyəti haqqında təsəvvür əldə etmək mümkündür". [2,110]

Monoloji və dioloji nitq nitq mədəniyyəti sahəsində fərqli xüsusiyyətləri ilə diqqəti cəlb edir. "Danışan və dinləyənin nitq prosesində iştirakı həmişə eyni formada olmur. Bir nitq praktikasında danışan və dinləyən, demək olar ki, eyni dərəcədə fəaliyyət göstərir: sual verir, dinləyən cavab, danışan rəyini söyləyir, müsahib ona münasibətini bildirir. Başqa bir nitq formasında isə dinləyən ya ehtiyac, ya da imkanının olmaması üzündən müsahibinin danışığına müdaxilə etmir, münasibət göstərmir. Bu cür şərhetmə və dinləmə nitqin dialoji və monoloji formalarını yaradır.

Dialoji nitq. Bu nitq fəaliyyətinin bir forması olaraq müəyyən situasiyada iki və daha artıq şəxs arasında bir-birini izləyən, növbələşən canlı ünsiyyət, danışıqdır. Burada danışan, daha doğrusu, fikri ifadə edən şəxs əvvəlcə daxilən öz-özünə düşünür, sonra isə xarici nitqə keçir, demək istədiyini sözlə ifadə edir. Fikri qəbul edən (dinləyən, eşidən) əvvəlcə dinləyir, sonra düşünür, daxili nitqdən xarici nitqə keçərək müsahibinə müvafiq cavab verir. Dialoji nitqdə həmsöhbətlərdən birinin ifadə etdiyi fikir digəri tərəfindən qavranılır. Burada monoloji nitqdən fərqli olaraq söhbətə öncədən hazırlıq görülmür. Bu səbəbdən dialoji nitqdə tərəflər daha fəal olurlar. Lakin nitqin situasiyasından, təşkili formasından asılı olaraq dialoji nitqə də hazırlıq görülə bilər. Dialoji nitqin bütün formalarında (dialoji söhbət, danışıq formalarında) onun iştirakçıları hadisəni təfərrüatı ilə danışır, olanlara öz münasibətini bildirir, dediklərinin daha inandırıcı olması üçün sübutlar, dəlillər gətirirlər. Qarşılıqlı söhbət zamanı tərəflərin işlətdikləri müxtəlif formalar (müraciətlər, ara sözlər, ritorik suallar və s.) ümumi bir bütövlük, fikri vəhdət yaradır.

Dialoq zamanı leksik təkrarlara, suala sualla cavabvermə, cümlədə söz düzümünün pozulması, fikrin elliptik qurulması, pauzalar və s. özünü göstərə bilir. Əlbəttə, belə ünsiyyət prosesində anlaşılmanın təmin olunması üçün dilin bütün normalarına riayət edilməklə yanaşı, normal intonasiyanın gözlənilməsi vacib sayılmalıdır.Nitqin dialoji forması mükalimə də adlanır. O, danışıq dili üçün səciyyəvi, yığcam və ixtisar olunmuş nitqidir. Orada ifadələr bir qədər qısa, sintaktik quruluşlar sadədir. Yarımçıq cümlələrdən daha çox istifadə olunur. Nitqin bu növündə digər vasitələrdən də - jest, mimika, əl-qol hərəkəti və s. geniş istifadə olunur. Dialoji nitqdə intonasiya mühüm rol oynayır.Dialoji nitqin özünəməxsus xüsusiyyətləri vardır. Psixoloji ədəbiyyatda həmin xüsusiyyətlərə aşağıdakıları aid edirlər. Hər şeydən əvvəl dialoji nitq bilavasitə reaksiya tələb edən nitqdir. Belə ki, dialoji nitq zamanı həmsöhbət deyilənlərə öz münasibətini bildirir: ya sual verir, ya təsdiq edir, ya inkar edir. Dialoji nitqin bu cəhəti danışanan öz fikrini ifadə etmək istiqamətinə təsir göstərir, onu müəyyən səmtə yönəldir".[3]

İnformasiya mübadiləsi prosesində insanlar bir-birlərinin fikirləri, düşüncə və ideyaları, hissləri, istək və arzuları ilə tanış olurlar. Bu informasiya mübadiləsi zamanı dioloji nitq yaranır. Bu cür informasiya mübadiləsi olmadan insanların birgə yaşayışı və fəaliyyəti çətinləşər, mümkün olmazdı. İnsanların bir-biri ilə informasiya mübadiləsi psixoloji ədəbiyyatda ünsiyyətin kommunikativ tərəfi adlanır. İnformasiya mübadiləsi zamanı iki tərəf iştirak edir: məlumatı, informasiyanı ötürən və məlumatı qəbul edən. Birinci tərəf – informasiyanı ötürən kommunikator, ikinci tərəf – informasiyanı qəbul edən isə resipient adlandırılır. Dil ifadəetmə miqyasına görə nitqdən çox geniş anlayışdır. Dil cəmiyyətə, millətə, xalqa məxsus olduğu halda nitq ayrıca bir fərdə aid olur. Fərd nitqini qurarkən sadəcə dilin cüzi bir qismindən istifadə edir. Dildən fərqli olaraq nitqi ünsiyyət prosesinin özü hesab edirlər. Bu proses məlumat, göstəriş, sual, əmr və s. şəklində həyata keçir. Dildə ümumi məzmun daşıyan anlayışlar nitqdə konkretləşir, nisbətən fərdiləşir. Hər bir söz ümumiləşdirmə mahiyyətinə malikdir. Ona

görə də nitq prosesində hər bir söz özünün müvafiq mənasında çatdırılmalıdır. Buna isə sözü müvafiq kontekstdə işlətməklə nail olmaq mümkündür. Nitqdə sözlərin mənasının köməyi ilə müvafiq məzmunu çatdırmaqla yanaşı danışdığımıza öz emosional münasibətimizi də bildiririk. İctimai-tarixi təcrübənin mövcud olma, saxlanma və ötürülmə, kommunikasiya, eləcə də insanın davranışını tənzim etmə, intellektual fəaliyyətin silahı kimi fəaliyyət göstərmə spesifikasına malik olan dilin funksiyaları nitqin də fəaliyyət istiqamətini təyin edir. nitqin funksiyalarına isə aşağıdakıları aid etmək olar. Şifahi nitqdə danışıq üslubu daha aydın şəkildə öz ifadəsini tapır. Danışıq dili üçün sərbəstlik, emosionallıq, sintaktik konstruksiyaların sadələşdirilməsi, dil norması sərhəddini aşmaq kimi yaradıcı yanaşma metodu səciyyəvidir. Dil paradiqmasının mövcud formalarından kənara çıxılanda belə danışıq dili yeni çalar qazanır. Nitqdə dilin lüğəvi zənginliyi, intonasiyası, poetikası, estetik funksiyaları az və çox dərəcədə ifadəsini tapır. İntensivliyi və estetik funksiyaları, ekspressivliyi nitq və onun məhsulu olan diskurs və mətnlərin vasitəsi ilə öyrənmək mümkündür.

Nitqdə yalnız qrammatik məna ilə sözün leksik mənası arasındakı uyğunsuzluğun aradan qaldırılması nəticəsində ifadəlilik əldə edilə bilər.Yoxsa, leksik və qrammatik mənanın sintezi əvəzinə onlar arasında ziddiyyət aşkarlanar.

"Nitqin birinci funksiyası əşyaları, hərəkəti, vəziyyəti adlandırmaqdır. Bu, nitqin siqnifikativ və ya semantik funksiyası adlanır. Bu funksiya insan nitqini heyvanların ünsiyyətindən fərqləndirir. Heyvanların çıxardığı səs əşyaları deyil, onların öz vəziyyətlərini bildirir. İnsanda isə müəyyən söz deyilərkən həmin sözlə bağlı hər hansı cismin, hadisənin təsəvvürləri canlanır. Nitqin sonrakı funksiyası onun ümumiləşdirmə funksiyasıdır. Nitq sözlərə əsaslandığına görə daima ümumiləşdirməyə imkan yaradır. Nitqin mühüm funksiyalarından biri di kommunikativ funksiyadır. Bu funksiya da öz növbəsində məlumat vermə və fəaliyyətə təhrik etmə vəzifələrini yerinə yetirir.

Ümumiyyətlə götürdükdə nitqin köməyi ilə başqaları ilə ünsiyyət saxlayır, fikir mübadiləsi edir, ictimai təcrübəni mənimsəyir, zənginləşdirir, yeni nəslə veririk. Nitq vasitəsi ilə hisslərimizi, arzu və istəklərimizi, bu və ya digər cismə, hadisəyə münasibətimizi bildiririk. Nəhayət nitq vasitəsilə başqalarına təsir edir, onların davranış və rəftarlarında müəyyən dəyişiklik yaradır, hər hansı bir işi yerinə yetirməyə təhrik edirik". [4]

Monoloji nitq daha çox məsuliyyət və diqqət tələb edən nitq növüdür. Örnək, liderlik assosiasiyalı bu danışıq tipində məntiq, yenilik və fəlsəfilik, emosionallıq, ahəngdarlıq, intensivlik və ekspresivlik kimi mühüm xüsusiyyətlər cəmlənir. İclaslarda, konfrans və s. bu kimi tədbirlərdəki aratorların, eləcə də müəllimlərin danışığı, çıxışı monoloji nitqə misal ola bilər. Bədii ədəbiyyatda da, xüsusilə dram əsərlərində çoxlu monoloqa rast gəlirik, məsələn, Oqtay Eloğlunun, İsgəndərin monoloqu, Hamletin monoloqu və s. monoloqlara diqqət yetirdikdə onun intensiv, əlaqəli, emosional və məntiqli olduğunu görürük. Monoloji nitqin rəvan getməsi üçün ondan istifadə edən adamın çatdıracağı məzmunu dərindən və aydın dərk etməsi, zəngin söz ehtiyatına malik olması, nitqin təsirlilik, emosionallıq xüsusiyyətlərinə, danışdığı dilin qayda-qanunlarına mükəmməl yiyələnməsi vacibdir. Hər bir cümlə öz məna-məzmun və forma-qrammatik çəkisi ilə nitqə ağırlıq, siqlət, monumentallıq çaları qatır.

"Cümlə kommunikativ cəhətdən müstəqildir, nitqdə ayrıca məlumat verən vahid kimi işlənir. Bununla yanaşı, danışıq dilində bir sıra diferensiallaşmamış ifadə vasitələri vardır ki, onlar kommunikativ müstəqilliyə və nitqdə müəyyən məlumat bildirmək imkanına malikdirlər. Danışıq dilində zəngin semantikası və quruluş müxtəlifliyi ilə seçilən nida cümlələri belə ifadə vasitələridir.

Nitqdə istifadə olunan qiymətləndirici nida cümlələri daha zəngin struktur tipləri ilə seçilir. Qiymətləndirici nida cümlələri həm müsbət, həm də mənfi məzmun daşıyır. Məzmunun mənfiliyi və ya müsbətliyi kontekst əsasında müəyyənləşir. Qiymətləndirici nida cümlələrində emosiyanın ifadəsi deyil, daha çox münasibət və qiymət bildirilir".[5,6]

Əlbəttə, cümləni yaradan, onu təşkil edən elementlər sözlərdir. Dilin leksik sisteminin vahidləri olan bu sözlərin hər birinin semantikası vardır. Elə sözlər var ki, (köməkçi nitq hissələri) müstəqil leksik mənaya malik olmur. Lakin bu cür ifadələr nitqdə emosionallığı, intonasiyanı tənzimləyir və mənanı qüvvətləndirmə, nitqin axarını tənzimləmə funksiyasını yerinə yetirir.

Aydındır ki, şifahi nitqdə emosional-ekspressiv xüsusiyyətlər daha çox diqqət çəkir. İnsanlar öz emosional vəziyyətlərini dil vasitəsi ilə müsahibinə çatdırır. Mimika və jest kimi paralinqvistik və intonosiya, ritm kimi supreseqment dil faktları emosionallığın və ekspressivliyin dildə ifadəsini tapması üçün mühüm şərt hesab edilir.

Jest və mimika kimi paralinqvistik vasitələr dil vahidləri ilə eyni zamanda fəaliyyət göstərir. Təkcə sözlər deyil, jestlər, üz mimikaları da fikrin dəqiqliyi və əhatəliliyi üçün informativ funksiyalı olur. Dəqiqlik, intensivlik, ifadəlilik, modallıq kimi intonasiyaya aid olan xüsusiyyətlər nitqin gözəlliyini təmin edən əlamətlər hesab olunur. T.Qabriel yazır: "Siz insanın haqlı olmadığını ona baxışınızla, intonasiyanızla və ya jestlə söz ilə olduğundan daha yaxşı başa sala bilərsiniz, lakin siz ona haqsız olmadığını söylədikdə bununla onu sizinlə razılaşmağa məcbur edə biləcəksinizmi? Heç vaxt! Çünki bununla siz onun intellektinə, sağlam düşüncəsinə, onun mənliyinə və ləyaqət hissinə zərbə vurmuş olursunuz. Bu isə onu öz fikrini dəyişməyə deyil, sizə cavab zərbəsi vurmağa təhrik edəcək". (6, 14).

Çox zaman kitab dilinə qarşı qoyulan danışıq dilini –nitqi ədəbi dilin qeyri-rəsmi forması kimi səciyyələndirirlər. Adətən iki şəxs arasında yaranan bu dil xüsusi üslubi səciyyə daşıyır, özündə intellektual, daha intonasiyalı, ifadəli, emosional nitqi birləşdirir. Leksik səciyyəli vasitə hesab edilən sinonim, antonim və omonimlər, frazioloji vahidlər də mətn daxilində üslubi funksiyalar yaradır. Belə olanda nitq sahibinin danışığı (nitqi) emosional və ekspressiv obrazlılığını doğru-düzgün əks etdirə bilir. İfadəliliyə xidmət edən vasitələr, o cümlədən, nidalar nitqdə müəllifinin hiss və həyəcanını, psixoloji durumunu lazımi şəkildə göstərə bilir. Müxtəlif intonasiyalarla tələffüz olunan nidalar məzmunundan asılı olaraq nitqdə fərqli mənaları ifadə edə bilir.

"Nitqdə elə konstruksiyaları yaranır ki, onların fikir ifadə etməsində intonasiya həlledici amilə çevrilir. İntonasiya müəyyən ünsiyyət şəraitində cümlələrin məna və məzmununu konkretləşdirməkdə və onların kommunikativ növlərini təmin etməkdə mühüm rol oynayır. Emosional narazılıq bildirən təkrarlarda istehza, gülüş, nifrət məna çalarları var.

Emosionallığın kommunikativ ifadə vasitələri müxtəlif münasibətləri bildirməkdə mühüm rol oynayırlar. Emosionallığın intensivliyini əldə etmək üçün bu vasitələr bir mərkəzə toplanır.

Nitqdə iştirakçı tərəflər yalnız informasiyanın ötürülməsi ilə kifayətlənmirlər. Hər bir kommunikant müsahibənin hisslərinə təsir göstərməyə çalışır. Müsahibə təsir göstərmək arzusu nə qədər çox olursa, dil vasitələrinin seçilməsi, nitqdə işlədilməsinə diqqət artırılır. Məlumatın ekspressivliyi dil vasitələrinin daha ciddi şəkildə seçilməsinə səbəb olur. [5, 8]

Əlbəttə, danışıq dili ilə şifahi nitq (dil) qarışdırılmamalıdır. Bədii əsərlərdə, bədii mətnlərdəki danışıq dili bizim gündəlik həyatımızdakı şifahi nitqdən fərqlənir. Nitq

yalnız dildən istifadə zamanı yaranır. Nitq prosesində istifadə olunmayan dilin yox olmaq ehtimalı qaçılmazdır. Ana dilində düşünmək və bu düşüncəni doğma sözlərlə ifadə edib nitq yaratmaq kimi bir missiyanın özündə də dilə xidmət funksiyası var. Bu funksiyanı yerinə yetirmək üçün isə dilin qanunlarını, gözəl nitq normalarını, dilin və nitqin qarşılıqlı təsirini aşılayan elmin nəzəri və praktik mahiyyətini mükəmməl şəkildə öyrənmək lazımdır.

ƏDƏBİYYAT

1. http://www.cahid.info/
2. http://files.preslib.az/projects/remz/pdf/atr_dil.pdf
3. https://az.wikibooks.org/wiki/Nitq_m%C9%99d%C9%99niyy%C9%99ti/Nitqin_n%C3%B6vl%C9%99ri_(monoloji_v%C9%99_dialoji)
4. www.elmler.net - Virtual İnternet Resurs Mərkəzi. Ümumi psixologiya
5. AMEA.Dilçilik institunun əsərləri. Xüsusi buraxılış. Bakı, 2012.
6. Титц Габриэле. Этикетные формулы обращения и привлечения внимания в современной русском языке. АКД. Воронеж., 1977.

ЛИТЕРАТУРНЫЙ ТЕНДЕНЦИИ РАЗВИТИЯ ЯЗЫКА АЗЕРБАЙДЖАНА: ЯЗЫК И РЕЧЬ

РЕЗЮМЕ

В статье говорится, что функциональность языка, на важность масштабной речи, речи, общения, культура играет значительную роль. По вопросу о формировании речи не речи немым не говорить на языке. Во время выступления , есть язык . Не используемый язык речи сталкиваются с угрозой исчезновения . Говорите на родном языке отлично, чтобы защитить его от естественного языка иностранца,вы должны думать . Устных и письменных языков разработана в соответствии с законами литературного языка, культурной и интеллектуальной мысли , языка и национальной культуры , как символ своего ведущего функции всегда поддерживать свое место .

AZERBAIJANI LITERARY LANGUAGE DEVELOPMENT TREND : LANGUAGE AND SPEECH

SUMMARY

The article states that the language functionality, to the importance of large-scale speech , speech , communication, culture played a significant role . Formation of speech is not a speech dumb. During the speech , there is a language . Unuseful speech language are facing the threat of extinction . Speak the native language perfectly , to protect it from natural language alien to meditate , you have to think about it . Both oral and written language developed in accordance with the laws of the literary language , cultural and intellectual thought, language and national culture as a symbol of its leading function would always maintain its place .

Rəyçi: İsmayıl Kazımov
filologiya elmləri doktoru

YEGANƏ ABBASOVA
f.ü.f.d., ADİU
hüseynovayegane@mail.ru

DİLİN TARİXİ ƏHƏMİYYƏTİ VƏ MƏDƏNİYYƏTİ, ONUN CƏMİYYƏTDƏ ROLU

Açar sözlər: *psixolinqvistika, sosiolinqvistika, neyrolinqvistika, etnolinqvistika.*
Ключевые слова: *психолингвистика, социолингвистика, нейролингвистика, этнолингвистика.*
Keywords: *psycholinguistics, sociolinguistics, neryolingvistics, ethno linguistics.*

Tarixə baxdığımızda, dil qədim zamanlarda toplu yaşayan insanların bir-birinə söz demək ehtiyacından, bir-biri ilə ünsiyyət saxlamaq zərurətindən ortaya çıxmışdır. Deməli, dil insanlar arasında ünsiyyət vasitəsidir. Dil ünsiyyət vasitəsi ilə yalnız müəyyən şəraitdə insan cəmiyyətində yaranır və fəaliyyət göstərir. Buna görə də dil ictimai hadisə sayılır. Dilin varlığı üçün bəşər cəmiyyətinin var olması mühüm şərtdir. İnsan cəmiyyəti olmayan yerdə dil mövcud ola bilməz.

Dilin cəmiyyətdəki yeri, onun cəmiyyətin zümrələrinin eyni dərəcədə təmin edib-etməməsi mütəxəssisləri çoxdan düşündürən məsələdir. Bu gün dilçiliyin bir sıra elmlərlə üzvü şəkildə bağlı olaraq sosial psixoloji, bioloji, mədəni, texniki və s. məsələləri həll etməyə çalışması heç bir şübhə doğurmur.

Dil haqqında Soqratın, Platonun, Aristotelin fəlsəfəsində maraqlı düşüncələr vardır. İntibah dövründə yunan və latın dillərini öyrənmək klassik filologiyasının əsasını qoydular və yeni dövrün fəlsəfəsində təfəkkür varlığın əsas mahiyyəti kimi qəbul edildi və dil də bu təfəkkürü ifadə edən bir predmetdir. Alman təbiətşünası və filosofu (1767-1835) V.Humbolda görə dilin xüsusi reallığı vardır və həmin reallıq əsas xarakterik cəhətini öz-özünə inkişaf edərək ruhi yaradıcılığa çalışır. O, yazırdı «xalqın dili onun ruhudur» dil cansız bir orqanizmdir, ruhi fəaliyyətin mənbəyi və zəminidir. Hegel də insan şüurunun və təfəkkürünün formalaşmasında dil mütləq rol oynamışdır. XIX əsrdə dil haqqında təsəvvürlər tam formalaşaraq klassik təlimə çevrilmişdir. Dilin klassik təsəvvürlər mövqeyindən insan və cəmiyyət həyatında mühüm əhəmiyyətə malik olduğunu göstərir. Dil ancaq insanın nailiyyəti kimi qiymətləndirilir və insanın təfəkkürü, onun mücərrədləşdirmə qabiliyyəti ilə əlaqədardır.

Dili müxtəlif aspektlərdən nəzərdən keçirən makrolinqvistika bir neçə istiqamətin olmasını açıq etiraf edir; psixolinqvistika, sosiolinqvistika, neyrolinqvistika, etnolinqvistika və s. Adətən sosiolinqvistikanı dili cəmiyyətə münasibətində götürən elm kimi müəyyənləşdirirlər. Məsələnin qoyuluşundan asılı olaraq birincini ya linqvistik sosiologiya, ya da sosioloji dilçilik adlandırmaq olar. Bunun davamı olaraq etnolinqvistikanı da geniş mənada dilin mədəniyyətlə əlaqəsini öyrənən elm kimi götürmək olar. Bu da mədəniyyətlə cəmiyyətin qarşılıqlı əlaqəsini ehtiva edir. Doğrudur, onların qarşılıqlı əlaqəsi dilin işləndiyi sahədir, ancaq buna baxmayaraq cəmiyyətin dil problemləri ümumilikdə onun mədəni təsisatlarının içərisində getməlidir. Cəmiyyətin strukturu cəmiyyətdəki inam və adətlərlə sıx surətdə bağlıdır. Dil və cəmiyyət strukturları bir-birini ehtiva edir. Bu Sepir-Uorf anlamında nisbilik deməkdir.

Dil vasitəsi ilə insan üçün həqiqi imkanlar yaranır. Dil əxlaq, hüquq, ənənələr, adətlər ilə yanaşı insan nəslini təbiətdən ayırıb onda zəkasının genişləndirməsi ilə insani keyfiyyətlər formalaşdırır.Dil hər xalqın varlığı deməkdir, fikir və düşüncələrin önəmli ünsürüdür ki, hər millətin ədəbiyyatı, şeiri, musiqi və digər mədəniyyətinin xəzinəsidir.

Günter Krass və Peny Kok: Dil mütəfəkkirləri bu düşüncədədirlər ki, dil bir ictimai fonemendir və dil heç bir zaman millətdən və cəmiyyətdən ayrılmaz, bu iki kəlmə dil və cəmiyyət bir vəhdətdir, çünki, bir millətin və ya cəmiyyətin varlığı dilsiz düşünülməz, təsəvvür belə edilməz. İnsanların yaşamı dilin daxilində cərəyan edər, dilin sahəsi keşməkeşlərlə, toqquşmalarla və sürtünmələrlə doludur, dil şəffaf bir ayna kimidir ki, hər millətin yaşam tərzimi və onun həyatının rəmzini və sirrini göstərir. Dil ümumiyyətlə ədəbiyyat xəzinəsinin qəlbində əfsanələri, dastanları, atalar sözlərini miras olaraq toplamış bir milli dəyərdir və o, elə qiymətli bir mirasdır ki, insanların yeganə varlığını, xalqın kimliyini, düşüncələrin axtarışını, inkişafını və tənəffüsünü, inkişaf hərəkətini yönləndirir. Həmin bu münasibətdə insanların tarixinə, sivilizasiyasına, bütün millətlərin əhval – ruhiyyələrinə ilk dəfə olaraq dil ilə keçmişinə diqqət edilmişdir.

Birinci növbədə sosial dilçiliyi maraqlandıran məsələlər dilin müxtəlifliyi, dil-dialekt və idiolektlə bağlıdır. İlk növbədə ayırd etmək lazımdır ki, dil yekcinsdir, yoxsa müxtəlif və rəngarəngdir? Hər halda dili bir sistem kimi götürmək heç də o demək deyildir ki, dil hər yerdə hər zaman eyni şəkildə işlənir, yəni yalnız və yalnız sintopikdir. Fövqəlmilli və fövqəldialekt bir qurumdur, onda heç bir diatopik fərq nəzərə çarpmır. E.Koserin bunlar arasındakı fərqləri çox aydın və ətraflı şərh edir.

Adətən bu aspektdən məsələyə yanaşanlar dilin iki böyük variativliyini xüsusi qeyd edirlər. Biri onun işlənməsi zamanı fonetik, morfoloji, leksik və sintaktik səviy-yələrdə özünü biruzə verən variativlikdir, o birisi isə ərazi, dialekt və digər fərqlərlə bağlıdır ki, bu da həm tələffüzdə, həm qrammatikada, həm də leksikada açıq – aydın hiss olunur. Məsələn, rəsmi ingilis dilində danışan adam o qədər müxtəlif ərazi və bölgə aksentilə bağlı olur ki, onun bəzən dialektdə danışan adam kimi qələmə vermək olar.

Ancaq dialektlərin və ədəbi dilin birliyini göstərən ən mühüm amil ortaq leksikanın olmasıdır. Azərbaycanın müxtəlif bölgələrində /kərənti/ və /dəryaz/ deyilsə də, ikinci ümumişlək söz hesab edilir. Fərqlər sintaktik səviyyədə də müşahidə edilir. Bəzi yerlərdə /istiyirəm gedəm/ (Şirvanda) ancaq /getmək istəyirəm/ daha çox ədəbi dil üçün səciyyəvidir. Amerikalılar /gotten/ (/get/ felindən alınmış) bəzən isə /between you and I/ deyirlər, halbuki /between you and I/ (sənin lə mənim aramda) olmalıdır. Britaniya ingiliscəsi britaniyalıların ədəbi dili, Amerikan ingiliscəsi isə amerikanlıların danışdığı ingilis ədəbi dilidir:

Məlumdur ki, sözün əvvəlində ingilislər /h/ samitini tələffüz etmirlər, söz ortasında saitlər arasında xirtdək kipləşən – partlayışlı samitin işlənməsi və s. adi danışıq əlaməti hesab edilir.

Məs. /hav/ - /əv/ (malikəm) /batə/ - bathə/ (yağ)və s. /farm/ ferma), /fazə/ sözlərində /r/ samitinin düşməsi N.Yorkda düzgün tələffüz hesab edilmir, ancaq İngiltərədə bu normativ sayılır.

Beləliklə idiolekt, yəni fərdin danışdığı nəzərə çarpan olsa da, o qədər də həll edici deyildir.

Təbiidir ki, yazılı dil daha tez və mütəşəkkil formada standartlaşır. Yazının hamı üçün eyni şəkildə olması müxtəlif dövlət sənədlərində və qərarlarında təsbit olunur. Təsadüfi deyil ki, savadlı adamlar yazıya daha çox üstünlük verir, yazıdan nümunə kimi

istifadə etməklə onlar öz sosial statusun qaldırmağa çalışırlar. Mədəni xalqlarda ədəbi dilin formalaşmasına yazının təsiri böyük olmuşdur. Leksik ümumişlək sözlər və qrammatik strukturların əksər hallarda ilkin olaraq müəyyən yazı normasına söykənməsi inkar olunmaz faktdır. Bəzi hallarda dialektlərlə ədəbi dil arasında fərqlər o qədər böyük olur ki, müasir sosiodilçilik əsərlərində bu cür funksional fərq bilinqvizm – diqlossiya kimi müəyyənləşdirilir.

Dialektlərdən birincinin ədəbi dil kimi seçilməsi cəmiyyətdə sosial narazılıq yaradır. Qeyd edək ki, bir dialektdə danışanlar daha üstün şərtlər daxilində yaşamalı olurlar. Məs., Hindistan kimi bir ölkədə və ya Qazaxıstanda insanlar bu cür vəziyyətlə üzləşməli olurlar, ona görə də bu ölkələrdə müvafiq olaraq ingilis və rus dillərini dövlət dili seçməklə problemi həll etməyə çalışırlar. Hazırda bizim Respublikada transmilli danışıqlarda rəsmi dil kimi ingilis dili götürülür, Avropa Şurasında və AŞPA-da rəsmi işçi dili kimi ingilis və fransız dilləri qəbul edilib.

Çoxdilli ölkələrdə dillərin real vəziyyəti haqqında dolğun informasiya dünyada dil çarpışmalarının konkret mənzərəsini yaratmağa kömək edər.

Bununla yanaşı dildə mədəniyyət xüsusi rol oynayır. Antropoloji məna hər xalqın öz mədəniyyəti var. Cəmiyyət daxilində ayrı-ayrı qrupların öz mədəniyyəti var. Y.Herder bunu belə izah edirdi: dil də təfəkkür əlaqəlidir, dil və mədəniyyət ilə millətin ruhunun və düşüncə tərzinin inikasıdır. O yazırdı: «Dil bizim əqlimizin xarakteridir». Elə bu ideya sonralar Sepir-Uorf fərziyyəsinin əsasında dururdu. Mədəniyyət insanın üzvü olduğu cəmiyyətdə əldə etdiyi bilik, adət və vərdişlərin toplusudur. Elm də bu mənada mədəniyyətin tərkib hissəsidir. Bəzən dini və mifik ifadələr başqa cür qiymətləndirilir. Beləliklə, vəziyyətdən xaric olan hər şeyi düzgün qiymətləndirmək və buna münasib hərəkət etmək əsl mədəniyyətdir.

V. Fon Hümboldt insan dilinin struktur rəngarəngliyini insan əqlinin məhsulu sayırdı, ancaq o universal şəkildə əksini tapırdı. Ona görə də dilin yaradıcı olması ideyasının rüşeymini N.Xomski V.fon Humboldtda görürdü. V. fon Humboldta görə, romantizm rasionalizmin kəsişmə nöqtəsində durur. Hər necə olursa, dil və təfəkkür haqqında Herder-Humboldt fəlsəfəsi sonradan, ötən əsrin 50-ci illərində sepir-uorf fərziyyəsi kimi yayılmağa başladı və linqvistik nisbilik nəzəriyyəsi kimi tanındı. Bunu da L.Blumfildən sonrakı dövr yaradıcılığı daxil olmaqla Amerika strukturalizminin bir variantı kimi qələmə verirlər. Amma müasir dilçilikdə bu əlaqələri bir az başqa cür vermək mümkündür. Məlumdur ki, obyektiv aləm hər bir dildə müxtəlif cür adlanma və ifadə formaları ilə kadrlaşır. Məsələn, eyni obyekt ingilis və azərbaycan dillərində müxtəlif cür kodlaşır. İngilislər də almanlar və ruslar kimi atanın və ananın qardaşına müvafiq olaraq /uncle/, /onkel/, /дядя/ deyirlər. Bizim dildə isə bunlardan hər birinin öz adları var.

Dilin lüğət fondunun genişləndirilməsində alınmalar mühüm rol oynayır. Burada kalka çox vacibdir. Söz və ya bütövlükdə birləşmə hərfi tərcümə edirlər. Məsələn, ingilis dilində yaranmış /summit conference/ (yüksək səviyyədə görüş) bizim dilə ya «sammit» kimi, ya da «zirvə görüşü» kimi tərcümə olunur ki, bu da sonralar diplomat, jurnalist və tərcüməçilərinin malına çevrilir. Bəzən alınma sözün alan dildə ekvivalent strukturu olmadığı üçün və ya ona münasib, qarşılılıq olmadıqda ifadələri birbaşa tərcümə etmək olunmur. Məsələn, /They are playing cricket/ (onlar kriket oynayırlar) cümləsini birbaşa tərcümə etmək mümkün deyildir. Ya /kriket/ sözü alınmalı, ya da şərhlə birgə tərcümə olunmalıdır. Buraya «value» [vælju:] (dəyər) sözünü də əlavə

etmək olar. Məlumdur ki, tərcümələrin çoxu kalkadır. Ona görə də çoxları haqlı olaraq guman edir ki, bir dildən başqa dilə tərcümə bir neçə aspekti əhatə edir. Tərcümədə qrammatik fərqlər də leksik fərqlər kimi çox çətin problemdir. Məsələn, ingilis dilindəki artiklli isim qrupları ruscaya tərcümə etmək olmur, çünki rus dilində qrammatik səviyyədə müəyyən, qeyri-müəyyən artikl qarşılaşması yoxdur. Ona görə də konkret tərcümə prosesində tərcüməsi bununla bağlı informasiyanı buraxır. O bəzən onu bərpa etmək üçün söz əlavə edir. «Bu», «o» və s. Halbuki bunların funksiyası tamam başqadır. Məsələn, ingilis dilindəki /The man is sick/ (adam xəstədir) cümləsindəki informasiyanı azərbaycan dilində tam vermək o qədər asan deyildir. Müqayisə et /adam xəstədir/: (Mənim tanıdığım, gördüyüm) /adam xəstədir/; (Gələn, uzanan, oxuyan, gülən) /adam xəstədir/; (kiminsə mənə tanıtdığı) /adam xəstədir/ və s.

Burada mentalitetlə qrammatik və leksik strukturdakı fərqlər, doğrudan da, linqvistik nisbiliyin müxtəlif variantları kimi götürülə bilər. Ancaq real tərcümədə mədəniyyətlər və dillər arasındakı fərqləri bilmək tərcüməçi üçün vacibdir. Məlumdur ki, müxtəlif dillərdə baza rənglərinin adları müxtəlif miqdarda olur. Dillərin gül adlarını başqa dilə tərcümə etmək çox çətin, bəzən isə heç mümkün olmur. Məsələn ingilis dilində /brown/ (çəhrayı) sözünün fransız dilində dəqiq qarşılığı yoxdur., /blue/ (mavi) sözünün isə rus, ispan, italyan dillərində qarşılığı yoxdur.

Aparılan tədqiqatlar birmənalı şəkildə göstərdi ki, hər bir dil rəng spektrinin ardıcıllığını özünə məxsus şəkildə (yəni ixtiyarı) bölür. Rənglərin fokus və periferik yerə ayrılması ilə bağlı aparılan təcrübələr bu fikrə gəlməyə əsas verdi. Məsələn, ingilislər /blue/ və /qreen/ rənglərini asan fərqləndirir və işlədirlər, ancaq hansı rəngin onlar üçün fokus, yəni tipik olduğunu müəyyən edə bilmirlər.

Ancaq dillər rənginin fokus hissəsini ifadə etməkdə oxşarlıqlara malikdir və bu hər dildə neçə əsas rəng adının olmasından asılıdır.

XIX əsrdə L.N.Tolstoyun əsərlərini oxuyanda görürük ki, ruslar fransızca danışanda /siz/, rusca /sən/ işlədirdilər. Deməli o zaman ruslarda fransız mədəniyyətinə rəğbət hökm sürürdü. İngilis dilində /thou/ və /you/ ingilis mətnlərinin tərcüməsində çox ciddi çətinliklər törədir. Belə hallarda mədəniyyətləri bilmək çox vacibdir. Dil həm bioloji, həm də mədəni hadisədir. Hər bir universal substruktura malikdir, bu leksikada və qrammatikada, və ola bilsin, fonologiyada da öz əksini tapır, eyni zamanda qeyri-universal superstruktura da malikdir ki, bu da bir bütöv kimi həmin substruktura əsaslanır. Dilin universal cəhətlərinin mənimsənilməsi bioloji yolla mədəniyyətin verilməsindən asılıdır. Qeyri-universal superstruktur isə mədəniyyətin verilməsindən asılıdır. Nəsildən nəslə təkcə dil səriştəsi deyil, həm də mədəniyyət ötürülür. Əgər insan konkret dildə səriştəsi cümlə düzəltmək və onu başa düşməkdirsə, deməli, bu sosial məna kəsb edən mədəniyyətdir.

Bir dildən digərinə tərcümə nə qədər çətin olsa da, bəzi təhriflər və yanlışlıqlar olsa da, bir xalqın mədəniyyətini o biri xalqın dilində vermək mümkündür. Bu ona görə mümkündür ki, iki cəmiyyət arasında çox və ya az dərəcədə mədəniyyət eyniliyi mövcuddur. Dünyanın müxtəlif yerlərində bioloji yaranmış, yeni universal qaydada baş verir, o, bütövlükdə mədəniyyətlərin ətraf mühitin oxşarlığı ilə müəyyən edilə bilər.

Deməli, nəzakət formasının işlənməsinə sosial üstünlük, yaş, qohumluq və cins kimi sosial faktorlar da təsir edir. Onlar adların, müraciətin simmetrik və assimetrik şəkildə işlənməsinə təsir edir. Məsələn, azərbaycan dilində belə bir məqamda dediyimiz kimi, /Məgər sizə demədilər ki, içəri gərəndə papağınızı çıxardın?/. Yalnız mədəniyyəti

bilməklə qrammatik strukturu və leksik tərkibi başa düşüb açmaq olur. Dil mədəniyyətə açar, ədəbiyyata isə ötürücüdür. Məhz buna görə də dil və mədəniyyət qarşılıqlı şəkildə öyrənilməlidir. Mədəniyyətdəki fərqləri dil öyrənmədə nəzərə almaq lazımdır.

Dillərin bərabərliyi o demək deyil ki, onlar eyni hüquqludur, ancaq müxtəlif dillər onlarda danışan xalqların mədəniyyətlərini əks etdirir.

ƏDƏBİYYAT

1. F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş, Bakı, 2003.
2. Дж. Лайонз. Язык и лингвистика. М.: 2004.
3. F.Y.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004.
4. N.Xourski. Dil və təfəkkür. İngiliscədən tərcümə edəni və «Giriş» məqaləsinin müəllifi prof. A.Məmmədovdur, redaktoru prof. F.Y.Veysəlli. Bakı, 2006.
5. R.A.Hudson. Sociolinguistics. Cambridge, 1980.
6. R.H.L.Philipson. Linguistic İmperialism. Oxford, 1993.
7. F.Y.Veysəlli. Dilçilik ensiklopediyası. I cild, Bakı, «Mütərcim», 2006.

Г. АББАСОВА

ИСТОРИЧЕСКАЯ ЗНАЧИМОСТЬ И КУЛЬТУРА ЯЗЫКА, ЕГО РОЛЬ В ОБЩЕСТВЕ.

РЕЗЮМЕ

В данной статье говорится о том, что в древние времена язык возник в результате необходимости общения между совместно проживающими людьми и поддержания отношений друг с другом.

Язык - важнейшее средство человеческого общения. Язык как средство человеческого общения возникает и действует в обществе только в определенных условиях. И поэтому язык является социальным фактором. Для наличия языка важнейшим условием является наличие человеческого общества.

G.ABBASOVA

HISTORY, ESSENCE AND CULTURE OF LANGUAGE, ITS ROLE IN THE SOCIETY

SUMMARY

This article is about that the language is arised from the need of people to speak to one another, from the necessity of communication of people with one-another that lived collectively in old times.

Language is a mean of communication among people. Language arises and acts only in human society in certain condition by the mean of communication. That is why the language is considered public case. The existence of human society is an important condition for existance of language.

Rəyçi: Həbib Mirzəyev,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

МАМЕДОВА ДЖАВАХИР ФУАД
Аз.ГЭУ ст.пр.

СРЕДСТВА ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ И ИХ РОЛЬ В ПРОЦЕССЕ ФОРМИРОВАНИЯ ДЕЛОВЫХ КАЧЕСТВ СТУДЕНТОВ

Açar sözlər: *işgüzar bacarıqlar, rus dili, prinsip tərkibi, məzmun, tədqiqatın forması və işlənmə dərəcəsi*
Ключевые слова: *формирование деловых свойств, российский язык, профессиональная компетентность, принцип, содержания, формы и разработка исследования.*
Keywords: *business skillsdevelopment, Russian language, professional qualification, principles, contents, forms and technology of learning.*

Наглядность в обучении - дидактический принцип, согласно которому обучение строится на конкретных образах, непосредственно воспринятых учащимися. Наглядность обогащает круг представлений, делает обучение более доступным, развивает наблюдательность и мышление, помогает более глубокому и прочному усвоению учебного материала .

Наглядные учебные пособия - средства наглядности в обучении, представляющие собой плоскостные и объемные изображения предметов и явлений реального мира или природные объекты в их естественном или препарированном виде. Основными типами наглядного учебного пособия является картины, карты, схемы, диаграммы, альбомы, атласы, макеты, модели, муляжи и прочие.

Все виды наглядных учебных пособий можно разделить на натуральные являющиеся реальными предметами, и изобразительные, передающие предметы и явления в точном изображении (картины, рисунки, диапозитивы, кинофильмы стериокартины, диорамы, макеты, модели, муляжи) или схемы (карты, планы, чертежи).

Наглядные учебные пособия различают:

а) демонстрационные, которую преподаватель показывает (стенные карты, картины и таблицы, диапозитивы, кинофильмы, крупные модели, макеты, диорамы);

б) так называемые лабораторные, предназначенные для самостоятельных занятий под руководством преподавателя (небольшие картины и рисунки, альбомы, дидактический раздаточный материал, гербарии).

Применение наглядных и технических средств обучения способствует не только эффективному усвоению соответствующей информации, но и активирует познавательную деятельность обучающихся; развивает у них способность указывать теорию с практической, с жизнью; формирует навыки технической культуры; воспитывает внимание и аккуратность; повышает интерес к учению и делает его более доступным.

Таким образом, педагог должен руководствоваться золотым правилом - зримое воспринимать зрением, слышимое - слухом, благоухающее - обонянием.

Особое значение имеет взгляд Коменского на восприятие наглядности, так как он находится в прямой связи с мышлением. Педагог Я.А. Коменский в своем

труде "Великая дидактика" сформулировал правило, предполагающее непосредственное знакомство с изучаемыми объектами или их изображениями. Это требовало вовлечения в процесс восприятия нового материала как можно больше числа органов чувств. В своем известном "золотом правиле дидактики" Коменский указывал, что обучение следует начинать "не со словесного толкования о вещах, а с реального наблюдения над ними".

Коменский считал, что наглядное обучение - "это ход учения, от конкретного к отвлеченному, от представления к мысли". И именно принцип наглядности, по мнению Я.А. Коменского, является "золотым правилом дидактики", которое требует сочетания наглядности и мысленных действий, наглядности и слова. Наглядность в понимании Коменского становится решающим фактором усвоения учебного материала. Причем вредным является как недостаточное, так и избыточное применение средств наглядности: их недостаток приводит к формальности знаний, а избыток может затормозить развитие логического мышления, пространственного представления и воображения.

В отличие от него, Г. Песталоцци видит в наглядности единственную основу всякого развития. Чувственное познание сводится к наглядности обучения. У Песталоцци наглядность превращается в самоцель.

К.Д. Ушинский считает правильным такое обучение, которое ведется от конкретного к абстрактному. Так как наглядное обучение опирается не на отвлеченные представления и слова, а на конкретные образы, которые воспринимаются непосредственно, то необходимо сочетание наглядного обучения с активной умственной деятельностью обучаемых.

К.Д. Ушинский дал глубокое психологическое обоснование наглядности обучения. Наглядные пособия являются средством для активизации мыслительной деятельности и формирования чувственного образа. Именно чувственный образ, сформированный на основе наглядного пособия, является главным в обучении. Ушинский придавал большое значение наглядному обучению как методу, который должен как можно чаще использоваться на уроках в первоначальный период, поскольку он:

·стимулирует элементарные умственные процессы;

·развивает устную речь;

·способствует лучшему закреплению изучаемого материала в памяти.

Реализация комплексной программы в вузе невозможна без учёта целей и задач подготовки специалистов к той деятельности, которая им предстоит. Исходя из известного положения о том, что речевая деятельность имеет четыре взаимосвязанных вида (слушание, говорение, чтение, письмо), две формы: устную и письменную - и реализуется в диалоге и в монологе, можно обозначить направленность каждого вузовского предмета на формирование языковых навыков одновременно с усвоением теоретического содержания. Чем больше сведений получают студенты о русском языке, тем яснее становится для них богатство и величие русского языка, тем сильнее пробуждается их желание изучать русский язык. При обучении русскому языку студентов одной из основных задач является обучение правильному литературному произношению.

Наглядностью называются средства обучения (макеты, модели, таблицы и т.д.), обеспечивающие формирование наглядных психических образов, т.е.

образов, доступных и понятных для них. Выделяются различные виды и формы наглядности. Все известные виды наглядности связаны с особенностями познания, в котором в единстве представлены чувственный и логический аспекты. В ходе познания образуются определенные образы изучаемого, яркость и действенность образов зависят от того, насколько эффективно происходило восприятие объекта. Необходимо подчеркнуть, что, хотя происхождение слова «наглядность» правомерно вести от слова «глядеть», наглядность в современной педагогике и психологии не связывается только с визуальной наглядностью. Наглядность предполагает охват всех каналов восприятия человека. В связи с этим выделяются различные в и д ы н а г л я д н о с т и: зрительная, слуховая, кинестетическая. Приведем примеры: иллюстрации, модели, макеты относятся к визуальной наглядности; аудиозаписи голосов животных и птиц, исторических персонажей — это аудиальная наглядность; а раздаточные образцы коллекций, которые можно ощупать, сделать вывод о прочности, гладкости и т.д., — это кинестетическая наглядность.

Наглядные методы повышают эффективность обучения, особенно с более выраженным наглядно-образным мышлением, пробуждают интерес к учению, повышают работоспособность обучаемых. Неоспорима также роль практических методов обучения, особенно в формировании практических умений и навыков, в укреплении связи теории с практикой. Но вместе с тем эти методы также не могут решить всего круга задач обучения, так как они не обеспечивают систематического и глубокого усвоения теоретических знаний, развития логической речи, абстрактного мышления.

Таблицы – наиболее распространённый, традиционный вид пособий по русскому языку, реализующий зрительную наглядность. Ведущее место таблиц среди других средств зрительной наглядности определяется тем, что они обеспечивают длительное, практически неограниченное во времени экспонирование языкового материала. Таблицы просты в использовании (для демонстрации их не требуется сложные дополнительные приспособления).

В отличие от плаката таблица предполагает не просто зрительное предъявление материала, но и определенную группировку, систематизацию. Таким образом, в самой табличной форме заложены возможности для широкого использования приема сравнения, облегчающего понимание изучаемого материала, сознательное усвоение его. Указанные особенности таблиц позволяют наметить наиболее целесообразную сферу применения их: формирования навыков (прежде всего орфографических и пунктуационных).

Учебные средства наглядности облегчают восприятие теоретического материала, способствуют быстрому его запоминанию, причём не механическому и бездумному, а осмысленному и более прочному, поскольку при такой подаче учебной информации наглядно демонстрируется логические связи между явлениями языка. Из всех существующих форм наглядности сейчас наиболее распространены схемы, представляющие собой особую организацию теоретического материала в форме графического изображения, которое зрительно подчёркивает соотношение и зависимость явлений, характеризующих определенную языковую проблему (грамматическую, орфографическую, пунктуационную и т. п.) Такое изображение создаётся в упрощённо — обобщённом виде.

Наблюдения показывают, что несистематическое использование схем приводит к тому, что студенты, случайно столкнувшись с ними на отдельных занятиях, рассматривают как эпизодическую, не очень важную форму работы и не осознают, какую практическую помощь может оказать схема при усвоении теоретического материала и выполнении упражнений. Между тем опытным путём доказано, что систематическое использование даже одного какого-то методического приёма способно придать сложному многоплановому процессу обучения определённую цельность и стабильность.

Для формирования грамматических понятий, допускают широкое использование элементов абстракции, в частности отдельных морфем. Именно так построены многие таблицы по морфологии и орфографии. Схематическое изображение языкового материала является своеобразным моделированием, т. е. воспроизведением существенных сторон изучаемых правил, определений, понятий. Подобные модели в наглядной форме раскрывают грамматические закономерности, облегчают формирование не только представлений, но и понятий.

Главная задача речевой наглядности для уроков русского языка — облегчить запоминание наиболее трудных случаев словоупотребления, словообразования, соблюдения норм литературного произношения. Поэтому средства речевой наглядности, призванные облегчить воспитание культуры речи, воспроизводят конкретные слова, словосочетания, предложения. Не менее важна опора и на слуховое восприятие, поскольку изучение языка и развитие речи, может быть, в еще большей степени слуховой наглядности». Действительно, изучение лексики, морфологии и орфографии предполагает в основном использование зрительных образов. Для синтаксиса и пунктуации этих образов недостаточно: они должны подкрепляться озвученными материалами, облегчающими организацию наблюдений над интонацией как одним из специфических средств выражения грамматических значений и организации синтаксических единиц.

Учебные средства наглядности облегчают восприятие теоретического материала, способствуют быстрому его запоминанию, причём не механическому и бездумному, а осмысленному и более прочному, поскольку при такой подаче учебной информации наглядно демонстрируется логические связи между явлениями языка. Из всех существующих форм наглядности сейчас наиболее распространены схемы, представляющие собой особую организацию теоретического материала в форме графического изображения, которое обнажает и зрительно подчёркивает соотношение и зависимость явлений, характеризующих определенную языковую проблему (грамматическую, орфографическую, пунктуационную и т. п.) Такое изображение создаётся в упрощённо — обобщённом виде.

Наблюдения показывают, что несистематическое использование схем приводит к тому, что ученики, случайно столкнувшись с ними на отдельных занятиях, рассматривают как эпизодическую, не очень важную форму работы и не осознают, какую практическую помощь может оказать схема при усвоении теоретического материала и выполнении упражнений.

Между тем опытным путём доказано, что систематическое использование даже одного какого-то методического приёма способно придать сложному многоплановому процессу обучения определённую цельность и стабильность. Понимание обучающих возможностей схемы приходит к школьнику не сразу.

Требуется тщательно продуманная работа, которую, конечно, лучше всего начать с первых уроков в 5 классе. В это время одно за другим идут чередой орфографические правила.

ЛИТЕРАТУРА

1. Берулава, М. Н. Интеграция содержания образования / М. Н. Берулава. - М.: Совершенство, 1998. -192 с.
2. Баранов, М. Т. Методика преподавания русского языка / М. Т. Баранов. - М.: Просвещение, 1990. -366 с.
3. Беспалько В. П. Педагогика и прогрессивные технологии обучения / В. П. Беспалько. - М.: ИПО МОРФ, 1995. - 336 с.
4. Караулов, Ю. Н. Русский язык и языковая личность / Ю. Н. Караулов. - М.: Наука, 1998. - 263 с.
5. Зимняя, И. А. Психология обучения неродному языку / И. А. Зимняя. - М.: Русский язык, 1989. -219 с.
6. Кузнецова, А. А. Изучение иностранных языков в неязыковом вузе / А. А. Кузнецова. - Казань, 1979. - 112 с.

CƏVAHİRXANIM MƏMMƏDOVA

RUS DİLİ DƏRSLƏRİNDƏ ƏYANİ VƏSAİTLƏRDƏN İSTİFADƏNİN TƏLƏBƏLƏRDƏ İŞGÜZARLIQ KEYFİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASINDA ROLU

XÜLASƏ

Bu gün ölkəmizin təhsil sahəsində aparılan işlərin məqsədi, təhsildə tədris keyfiyyətinin yüksəldilməsi, ölkəmizin gələcək inkişafını və tərəqqisini təmin edən, sərbəst düşünən və sərbəst fikir yürüdən yaradıcılıq qabiliyyətinə malik gənc nəsil yetişdirməkdir. Minlərlə müəllim İKT üzrə treninqlərdən keçmiş, bütün təhsil müəssisələri, internet şəbəkəsi, kompyuter və digər texnoloji avadanlıqlarla təmin olunmuşdur. Ayrı-ayrı fənlər üzrə əyani vasitələr və elektron tədris resursları hazırlanmışdır. Bu vasitələrdən hər bir müəllim öz dərslərində lazım gəldikcə yerli – yerində istifadə etməlidir.Son illər ənənəvi dərslərə nisbətən, öz yüksək səmərəliliyi ilə fərqlənən fəal dərslərdən istifadə xeyli çoxalmış, müəllimlərin təlim fəaliyyətlərinin planlaşdırılmasına aid olduqca maraqlı, faydalı nümunələr meydana gəlmişdir. Bu sahədə uğurlar qazanmış digər həmkarlarım kimi mən də tədris etdiyim fənn üzrə dərslərimi fəal təlimlə, yeni təlim texnologiyalarından, İKT vasitələrindən yaradıcı istifadə əsasında qurmağa çalışıram.

JAVAHIRHANIM MEMMEDOVA

THE MEANS OF TEACHING THE RUSSIAN LANGUAGE AND THEIR ROLE IN DEVELOPING STUDENTS' BUSINESS SKILLS IN ECONOMIC SCHOOLS

SUMMERY

The author notes that the objective of contemporary philological education at any level of studies is to form and develop the linguistic identity. Quality linguistic education meets the goal of higher education: forming comprehensive communicative competence, which includes language and speech components. The priority direction of teaching students in universities is improving all kinds of speech activities. The author points that one of the main tasks in designing the new approach to arranging the education process in the economic schools, and finding new forms and methods of developing business skills within the framework of the "Russian Language" as the subject, can be solvedby proper selection of education tools. This choice determines the whole process of teaching Russian as a factor of developing future economists' professional competency.

Rəyçi: Fariza Şahbazova
Filologiya üzrə fəlsəfə doktoru

MƏMMƏDOVA SEVİNC
Azərbaycan Texniki Universiteti
mamedzade.92@bk.ru

BƏXTİYAR VAHABZADƏ DİLİNİN LEKSİK ÜSLUBI XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sinonim, antonim, frazeoloji birləşmələr, xitab sözlər, atalar sözü, həmcins üzvlər.*
Key words: *synonym, antonym, compound phraseology, salutation, proverbs, same sentences members.*
Клочевые слова: *синоним, антоним, фразеологические единицы, обращение, пословицы, однородные члены*

Görkəmli şair və ədəbiyyatşünas, ictimai xadim, akademik Bəxtiyar Vahabzadə (1925-2009) Çağdaş Azərbaycan ədəbi-bədii, ictimai-siyasi həyatında tanınmış şəxsiyyətlərdən biri olub. Onun geniş və səmərəli bədii yaradıcılıq yolu, elmi, pedaqoji fəaliyyəti, fəal vətəndaşlıq mövqeyi müasir Azərbaycan ziyalılığının salnaməsinə ən qiymətli, ən yaddaqalan, səhifələr yazmışdir.

Bəxtiyar müəllim şair kimi də, ictimai xadim kimi də, vətəndaş kimi də ana dilimizin həm təbliğatçısı, həm qoruyucusu, həm də yaradıcısı olaraq tanınırdı. Qətiyyətlə demək istərdim ki, Bəxtiyar müəllimin sözün əsil mənasında müasir Azərbaycan ədəbi dilinin inkişafında xüsusi xidmətləri olub.

Ana dilimiz haqqında Bəxtiyar müəllimin yazdığı bu misralar çoxlarının dillər əzbəridir:

Bu dil-bizim ruhumuz, eşqimiz, canımızdır Bu dil-bir-birimizə əhdi-peymanımızdır.
Bu dil-tanıtmış bizə bu dünyada hər şeyi, Bu dil-əcdadlarımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiztək Qoruyub, nəsillərə biz də hədiyyə edək.

Görkəmli şair və ədəbiyyatşünas,ictimai xadim,akademik Bəxitiyar Vahabzadə çağdaş Azərbaycan ədəbi-bədii,ictimai-siyasi həyatında tanınmış şəxsiyyətlərdən biri olub.O,şair kimi də,ictimai xadim kimi də,vətəndaş kimi də ana dilimizin həm təbliğatçısı,həm qoruyucusu,həm də yaradıcısı olaraq tanınır.B.Vahabzadə əsərlərinin leksikası üslubi cəhətdən xüsusi əhəmiyyətə malikdir.Şair leksik,frazeoloji materialların nominativ mənasından daha çox üslubi çalarlarından istifadə edir.

Azərbaycan dili zəngin sinonimlər sisteminə malikdir.Sinonimlər emosional məna çalarlığı ifadə etmək üçün bizim şifahi və yazılı nitqimizdə böyük əhəmiyyətə malikdir.B.Vahabzadə əsərlərində fikrin dəqiq və obrazlı ifadəsi üçün sinonim sözlər elə ustalıqla seçilib işlədilmişdir ki,onlar əsərin əsas qayəsinin açılmasına yönəldilir,bədii dilin poetikləşdirmə imkanlarını nümayiş etdirir.Bəxtiyar Vahabzadənin əsərlərində müşahidə onunan yüzlərlə sinonimik birləşmə xalq dilindən alınmışdır:

Göstərir haqq yolu,doğru-düz yolu (192,91)
Qızılı döydülər...haray-həşirsiz (192,91)
Sinəsində çalın- çarpaz yarası (193,96)və s.

Bəxtiyar Vahabzadənin əsərlərində sinonimlik hər şeydən əvvəl ifadə gözəlliyi vardır. Müəllif "danışmaq" anlayışını və ona yaxın təsəvvürləri ifadə etmək üçün yerinə

görə,kəlmə kəsmək,çənə döymək,söhbət açmaq,mızıldanmaq,deyinmək,çərənləmək,dilə gəlmək və s.ifadələrdən istifadə etmişdir.Şair obrazlara məxsus psixoloji vəziyyəti-hirslənməyi,əsəbiləşməyi göstərmək üçün onun dərəcəsinə uyğun gələn ifadələri işlədir:sifəti qan rənginə boyanmaq,cin atına minmək,qaniqaralmaq,içəridən odlanmaq,od götürmək,hirsindən qapqara qaralmaq və s.

Dilin lüğət tərkibində mövcud olan sözlərin mühüm bir qismi öz mənalarına görə birbiri ilə semantik əkslik münasibətində işlənən antonimlərdir.Antonim sözlər şairin təsvir və fikirlərində aydınlıq yaradan dil vahidləri kimi də qiymətlidir.Şairin əsərlərində antonimlər,əsasən aşağıdaki üslubi məqsədlər üçün işlədilmişdir:

a)Təbiətin obrazlı şəkildə təsviri üçün:
Gəl,qışa "zəhrimar",yaza "can"demə
Qışın dəhşətləri yaz içindədir.

b)Zaman və məkan anlayışlarını verərkən:
Gecə-gündüz, səhər- axşam
Mən yazıram,oxuyuram.

c)Bəzən obrazın keyfiyyətləri,cəhətləri qarşı qarşıya qoyulur:
Baş çıxarmaq həm çətindir,həm asan
İblisindən,mələyindən dünyanın

Əsərlərində surətin daxili həyəcanının,psixaloji gərginliyinin dolğun əks etdirilməsində,milli koloritin verilməsində,şairin xalq dilindən istifadə etmək bacarığının üzə çıxarılmasında,əsərin ideyasının oxucuya tez,aydın və bədii şəkildə çatdırılmasında frazeoloji birləşmələr də istifadə edir:ürəyinin teli qırılmaq,ürəyinə salmaq,ürəyini üzmək,gözlərinə qaranlıq çökmək,göz qoymaq,baş sındırmaq,baş çəkmək,dilindən çıxmaq,əldən getmək,əldən salmaq,qulağı səsə düşmək və s.

Bəxtiyar Vahabzadənin şeirlərində xitablardan geniş şəkildə istifadə olunur. Bunlar bədiifunksional səciyyə daşıyır və şairin əsərlərində-şeir və poemalarında tez-tez istifadə olunur. Belə ki, xitablara şairin bədii əsərlərinin həm əvvəlində (daha doğrusu, poetik misraların əvvəlində), həm ortasında (misraların), həm də sonunda rast gəlirik. Bunun şahidi olmaq üçün şairin poeziyasına müraciət edək:

1. Xitablar misranın əvvəlində:

Qaliley! *Hələlik kəşfin bir yana, Onun qiymətini alimlər bilər!* (184, 30)

Dostlar! *Bizim bu həyatda, bizim nəhəng qurğularda Qoca dəmiryolçunun da öz kiçicik xidməti var.* (194, 45)

Verilmiş misallarda xitab müvafiq surətdə xüsusi və ümumi isimlə ifadə olunmuşdur. Ümumi isim cəmdə işlənmişdir.

Misranın əvvəlində başında xitab vokativ sözlərlə *(ey, ay, a)* birlikdə işlənə bilir. Məsələn:

Ey Mədain! Mədain, nə böyük tarixin var!
Bircə qəsr qalıbdır bugün səndən yadigar! (184, 183)

Burada *Mədain* xitabı *ey* vokativi ilə birgə işlənmişdir. Ancaq bu, *Mədain* sözünün misranın başında işlənməsi fikrini təkzib etmir, çünki *ey* və *Mədain* sözləri müraciət obyektinə bir bütöv şəklində aiddir.

Ey vokativinin daha çox danışıq dilində işlənən *ay* və *a* variantları da vardır. Bu mətndə *ey* variantı daha çox işə yarayır. O, ali üsluba məxsus olan ünsürdür, tarixən bir çox dövlətlərin paytaxtı olmuş şəhərin adı ilə məhz bu variantın işlənməsi məqbul sayıla bilər. Bu şəhərin taleyi böyük şairimiz Xaqani Şirvaninin «Mədain xərabələri» qəsidəsinin də mövzusunu təşkil edir.

Ey vokativi təkcə tarixi keçmişə aid olan xitablarla işlənmir. O, müəlliflə müraciət ediləni eyni səviyyəyə qoymayan, bunlar arasında lazımi məsafə, distansiya, adilikdən uzaqlaşmağı tələb edən bütün hallarda işlənir. Bu zaman müraciət edilən obyekt müxtəlif olur. Məsələn:

Ey bahar! *Mizrab al çal ürəyimi, Kaş, o da sənin tək aşıb-daşaydı!* (194, 139)
Ey rəssam*, dünyada yeddicə rəng var, Arzular rəngarəng, diləklər zəngin.* (194, 139)

Burada Azərbaycan poeziyasında geniş yayılmış bədii priyoma da rast gəlirik: Şair ilk növbədə özü - özünə müraciət edir:

Ey Bəxtiyar! *Olma bu qədər heyran o mahə, Sən heyran olan tək, qoy, o da heyranın olsun!* (194, 169)

Bəzən isə şair konkret olaraq belə müraciətlər də edir:

Ey könül !...
Elə bil ki, sən dağların başında Ucalan bir qayasan! (184, 110)

Şair müəyyən məqamlarda təkcə birbaşa, müstəqil mənada olan sözlər deyil, məcazi mənada olan sözlər də işlədilir. Məsələn:

Ey gül! *Vurulan tək ovu tez qaldırır ovçu, Vurdun məni, qaldırmadın ancaq, qanın olsun!* (194, 169)

Bəxtiyar Vahabzadə poemalarında təzad yaratmaq üçün antonim sözlərdən geniş istifadə etmişdir. Şairin «Təzadlar» poemasındakı bölmələrin, yaxud ayrı-ayrı şeirlərinin bir qisminin adlarına baxaq; *«Qara saçlar-ağ saçlar», «Tapmaq-itirmək», «Biri varmış, biri yoxmuş», «Yaxın uzaq oldu», «Nə ondansan, nə bundan» «Piyada-sərnişin»*, *«Nida-sual»*, *Saray-daxma», «Bəm-zil», «Yox düşmürəm, qalxıram», "Haqqa haqsız dedilər», "Aclardan toxlara», «Bulaq başında susuzluq», «Yaşaya-yaşaya yaşamayan var»..., «Zaman-məkan», «Göz ya qulaq», «Ana və balalar», «Ata və oğul»*.Bu əsərlərdə zahirən təzad görünməsə də, əslində, bu başlıqlardakı müxtəlif anlayışlar bir-biri ilə müqayisədə qütblər səviyyəsindədir və şair həqiqətən bunları qarşılaşdırmış, aralarındakı fərqlə onları bağlamışdır. Bəzən cümlə üzvü kimi başlıqda həmcinslik görünməsə də, sözün sematikasında təzad qavranılır: Məsələn: «Satqınlıq» başlığını götürək: Şübhəsiz, «satqınlıq» anlayışı dərhal oxucunun təsəvvüründə öz mənfi qütbünü canlandırır və onunla müqayisədə içindəki naqisliyi biruzə verir. Satqınlıq həyatda normal davranışın, müsbət təsəvvürün, bütövlükdə, gözəlliyin ən iyrənc düşmənidir. O, səmimiliyin qənimidir. Buna görə də sərlövhədəki həmin anlayış özünün qıcıqlandırıcı fonu ilə oxucunun hisslərini oyatmağa başlayır. Təbiidir ki, şair bədii mətləbi qabartmaq üçün təzadlardan geniş istifadə edir. Babəki satan Səhl-Sumbatdan danışılan bədii parça maraqlıdır:

O düşməndən qorxuram ki,
İçindəki zülmətini...

Üzündəki gülüş *ilə örtə bilə.*
Səhl-Sumbat!
Yollarıma diyirlədin
Xəyanətin ilk daşını,
Üzündəki gülüş ilə
Sən axıtdın,
Bir ölkənin ***göz yaşını.***
Bu gülüşlə
Xəyanəti zəhərlə qatmısan.
Bu gülüşlə.

Bəxtiyar Vahabzadə öz əsərlərində atalar sözləri və zərb-məsəllərdən tez-tez və mətləbə uyğun şəkildə istifadə etmişdir.

Müşahidələr göstərir ki, şairin əsərlərində atalar sözlərindən istifadə iki şəkildə özünü göstərir. Birincisi, atalar sözləri və məsəllər əsərə heç bir dəyişikliyə uğramadan, canlı dildə olduğu kimi daxil edilmişdir. İkinci halda isə atalar sözləri və məsəllər konkret üslubi tələbə uyğunlaşdırılaraq işlənilmişdir. Məsələn:

«Nağıl - həyat» *kitabında* «*El içində, öl içində*» (189, 17); «*Azca aşım*, *ağrımaz başım*» (188,

37); «*Ot kökü üstündə bitər*» (189, 55); «*Yad yerin halvası şirin olar*» (187, 55); «*El gücü, sel gücü*» (196, 121); «*Niyyətin hara, mənzilin ora*» (192, 122); «*Kələk ilə gələn, külək ilə gedər*» (189, 137); «*Yalan ayaq tutar, amma yeriməz*» (194, 137); «*Tələsən təndirə düşər*» (194, 138); «*Öldü var,döndü yoxdu*» (187, 140); «*Xeyirlə şər qardaşdır*» (193, 176); «*Suyun lal axanı, insanın yerə baxanı*» (192, 178); «*Ağzımı yandıran aş, bir aş olasan. Başıma düşən daş, bir daş olasan*» (194, 193); «*Arı şirəyə gələr*» (194, 200)

Azərbaycan dilçiliyi və ədəbiyyatşünaslığında müqayisə anlayışını ifadə etmək üçün "təsvir", "oxşatma, "bənzətmə", "təşbeh", "müqayisə" terminlərindən, müqayisə vasitələri üçünsə "təsvir ədatı", "bənzətmə ədatı", "bənzətmə qoşması", "müqayisə ədatı" ifadələrindən istifadə olunur. Bəxtiyar Vahabzadənin şeir yaradıcılığında orijinal və maraqlı müqayisələrə rast gəlirik. Bunlar müxtəlif leksik və qrammatik vasitələr əsasında qurulmuşdur. Onu da qeyd etmək lazımdır ki, şairin əsərlərində müqayisə obyektləri və müqayisə obrazları çoxdur, müxtəlifdir və bunların bir hissəsi müəllifin öz qələminin məhsuludur. Məsələn: *Dəniz kimi* kükrədilər, *dalğa kimi* gərdilər Harınlamış polislərə onlar yumruq göstərdilər (195, 324.); *Sarmaşıq zoğu tək* qıvrım sallanan Buruq tellərində işarır yağış (194, 327); Elə bil ki, paltar sıxır Bədənini *məngənə tək* (194, 339). Uşaqkən getmişdi, indi cavandır *Sərv ağacı kimi* boyu ucalmış (171, 46); Könlüm *yarpaq kimi* titrəyib əsir Yenə bu yollardan ötüb keçəndə (184, 16); Ondan bir azca sonra bir qızım oldu mənim, Elə bil ki, gül açdı son baharda gülşənim (184, 14); Dolanıram başına *dolanan dövran kimi*, Yer günəşin başına *müdam dolanan kimi* (182, 163).

Şairin əsərlərində işlənən müqayisələrin bir qismi danışıq dili, şifahi xalq ədəbiyyatı nümunələri əsasında qurulmuşdur. Aşağıdakı müqayisələr dediyimizə misal ola bilər: *xoruzbeçə kimi* dikəldi (183,

21); *Arı pətəyi kimi* şan-şan oldu (180, 42); gün altında qalmış *zoğal kimi* boğub qırmızı rəngə çaldı (187, 17); *ilan vurmuş kimi* yerindən sıçradı (195, 271); *qızıl* ilan kimi parlayıb (194, 190); yerindən qopmuş *bir dağ kimi* (195, 93); külək qarşısına düşmüş *bulud kimi* uçurdu (189, 192); *dişi aslan kimi* dayanan (194, 274); Simruqdan

soraq gətirmək kimi baxır (194, 129); quruya düşmüş *balıq kimi* atılıb (191, 295); könlüm *yarpaq_kimi* titrəyib əsir (188, 16); qələminin gövdəsinə o *sarıldı ilan* tək (191, 105); elə bil ki, *başından bir duman çıxır* (194, 136); Vətənin qoynuna bala tək sığın (189, 60); bu gülüşdən ananın üstünə elə bil ki, qaynar qazan töküldü (188, 16); İllər axıb keçdi, *axar su kimi* (194, 299); görən necə uzadım ona kömək əlimi? O ki, məni böyütmüş *doğma balası kimi* (194, 308); *Qoca heykəl kimi* quruyub ancaq (195, 316); *Palçıq saqqız kimi* yapışıb möhkəm, Qopmur uzunboğaz çəkmələrimdən (195, 326) və s. Belə müqayisələr əsərin dilini zinətləndirir, ona obrazlılıq məziyyəti verir. Məsələn: *Payız yarpağı tək* pərişan olur, Dolablar küncündə qalan məktublar (194, 448); Bil ki, iradəsiz, məqsədsiz bəşər, *Payasız meynə tək* ayağa düşər (195, 351); Tutdu *sillə kimi* bu sözlər onu, Bir cavab tapmayıb çıxdı qapıdan (194, 367) və s.

ƏDƏBİYYAT

1. Abdullayev S. Ə. Dil və bədii qavrayış. Bakı, Yazıçı, 1984.
2. Abdullayev C. Səməd Vurğun poetikası. Bakı,Gənclik, 1976.
3. Ağayev Ə. İlhamlı və zəhmətli yaradıcılıq yolu-Azərbaycan 1970, №3.
4. Azərbaycan dilinin izahlı lüğəti. I cild, Bakı, Çıraq, 1997.
5. Azərbaycan bədii dilinin üslubiyyatı. Oçerklər.Bakı,Elm, 1970.
6. Azərbaycan dilçiliyi məsələləri. (Məqalələr məcmuəsi) - Bakı, Azərb. SSR EA nəşriyyatı, 1967.
7. Azərbaycan ədəbiyyatının tarixi poetikası. Bakı, Elm, 1989.
8. Azərbaycan bədii dilinin üslubiyyatı (Oçerklər) Bakı, Elm, 1970.
9. Arif M. Ədəbi-tənqidi məqalələr. Bakı, Azərnəşr, 1958.

МАМЕДОВА СЕВИНДЖ

ОСОБЕННОСТИ ЛЕКСИЧЕСКИХ РАЗМЕТОК ЯЗЫКА ПРОИЗВЕДЕНИЙ БАХТИЯРА ВАХАБЗАДЕ

РЕЗЮМЕ

В статье автор обратился к творчеству Б.Вахабзаде. Здесь речь идет о его мастерстве в области использований слов синонимов. А на занятиях культуры речи это очень важно. Использование синонимов в речи делает её разнообразной и интересной. А образное описание служит увеличению эмоциональности речи. Проведенные в статье исследования имеют большое значение в изучении поэтическога наследия поета.

MAMMADOVA SEVIDJ

LEXICAL STYLISTIC FEATURES OF VAHABZADE LANGUAGE

SUMMARY

İn this article applied the creativity of B.Vahabzade. The richness of synonyms expression is shown in his works. It is also very suitable for use in speech classes. Described figuratively is also important to enhance the emotionality of speech. The research in article,is also very important to study of Vahabzadeh poetic heritage.

Rəyçi: dosent Həbib Mirzəyev

TAMELLA MEHDİYEVA
ADNSU

SPEECH, WRITING AND LISTENING

Açar sözlər: *nitq, yazı, dinləmə, aspekt, element, dil, üsul, növ, kateqoriya, ünsiyyət, diliçilik*
Key words: *speech, writing, listening, aspect, element, language, way, kind, category, communication, linguistic*
Ключевые слова: *речь, письма, прослушивание, аспект, элемент, язык, способ, тип, категория, коммуникация*

One of the basic assumptions of modern linguistics is that speech is primary and writing is secondary. The most immediate manifestation of language is speech and not writing. Writing is simply the representation of speech in another physical medium. Spoken language encodes thought into a physically transmittable form, while writing, in turn, encodes spoken language into a physically preservable form. Writing is a three-stage process: thinking of an idea, expressing it in mental grammar, and then transferring it to written form.

All units of writing, whether letters or characters are based on units of speech: words, sounds or syllables. When linguistics study language, therefore, they take the spoken language as their best source of data and their object of description except in instances of languages like Latin for which there are no longer any speakers.

You may see that with the advent of so many "instant messaging" programs, writing can now be as immediate as speech. But it is important to remember that even though the written form can be nearly immediate these days, there is still an extra step between conceptualizing the message you want to communicate and the reception of that idea, if you have to write it –regardless of whether you do longhand or type it into a computer.

Speech is the vocalized form of human communication. It is based upon the syntactic combination of lexical and names that are drawn from very large (usually about 1,000 different words) vocabularies. Each spoken word is created out of the phonetic combination of a limited set of vowel and consonant speech sound units. These vocabularies, the syntax which structures them and their set of speech sound units differ, creating the existence of many thousands of different types of mutually unintelligible human languages. Most human speakers are able to communicate in two or more of them, hence being polyglots. The vocal abilities that enable humans to produce speech also provide humans with the ability to sing.

A gestural form of human communication exists for the deaf in the form of sign language. Speech in some cultures has become the basis of a written language, often one that differs in its vocabulary, syntax and phonetics from its associated spoken one, a situation called diglossia. Speech in addition to its use in communication, it is suggested by some psychologists such as Vygotsky is internally used by mental processes to enhance and organize cognition in the form of an interior.

Speech is researched in terms of the speech production and speech perception of the sounds used in vocal language. Other research topics concern speech repetition, the

ability to map heard spoken words into the vocalizations needed to recreate them, that plays a key role in the vocabulary expansion in children and speech errors. Several academic disciplines study these including acoustics, psychology, speech pathology, linguistics, cognitive science, communica-tion studies, otolaryngology and computer science. Another area of research is how the human brain in its different areas such as the Broca's area and Wernicke's area underlies speech.

It is controversial how far human speech is unique in that animals also communicate with vocalizations. While none in the wild have compatibly large vocabularies, research upon the nonverbal abilities of language trained apes such as Washoe and Kanzi raises the possibility that they might have these capabilities. The origins of speech are unknown and subject to much debate and speculation.

There are several reasons for maintaining that speech is primary and writing is secondary. Writing is a later historical development that spoken language.

Archeological evidence indicates that writing was first utilized in Sumer, that is, modern-day Iraq, about 6,000 years ago.

Writing does not exist everywhere that spoken language does. This seems hard to imagine in our highly literate society, but the fact is that there are still many communities in the world where a written form of language is not used. Even in those custures using a writing system, there are individuals who fail to learn the written form of their language. In fact, the majority of the Earth's inhabitants are illiterate, though quite capable of spoken communication. However, no society uses only a written language with no spoken form.

Writing must be taught, whereas spoken language is acquired automatically. All children, except children with serious learning disabilities, naturally learn to speak the language of the community in which they are brought up. They acquire the basics of their native language before they enter school, and even if they never attend school, they become fully competent speakers. Writing systems vary in complexity, but regardless of their level of sophistication, they must all be taught.

Writing is a medium of human communication that represents language and emotion through the inscription or recording of signs and symbols. In most languages, writing is a complement to speech or spoken language. Writing is not a language but a form of technology that developed as tools developed with human society. Within a language system, writing relies on many of the same structures as speech, such as vocabulary, grammar and semantics, with the added dependency of a system of signs or symbols. The result of writing is generally called *text*, and the recipient of text is called a reader. Motivations for writing include publication, storytelling, correspondence and diary. Writing has been instrumental in keeping history, maintaining culture, dissemination of knowledge through the media and the formation of legal systems. It is also an important medium of expressing oneself by way of written words as do authors, poets and the like.

Neurolingustic evidence

Neurolingustic evidence demonstrates that the processing and production of written language is overlaid on the spoken language centers in the brain. Spoken

language involves several distinct areas of the brain; writing uses these areas and others as well.

Despite all this evidence, it is a widely held misconception that writing is more perfect than speech. To many people, writing somehow seems more correct and more stable, whereas speech can be careless, corrupted and susceptible to change. Some people even go so far as to identify "language" with writing and to regard speech as a secondary form of language used imperfectly to approximate the ideals of the written language.

What gives rise to the misconception that writing is more perfect than speech. There are several reasons. Writing can be edited, and so the product of writing is usually more aptly worded and better organized, containing fewer errors, hesitations and incomplete sentences than are found in speech. This "perfection of writing" can be explained by the fact that writing is the result of deliberation, correction and revision, while speech is the spontaneous and simultaneous formulation of ideas; writing is therefore less subject to the constraint of time than speech is. Writing must be taught and is therefore ultimately associated with education and educated speech.

Since the speech of the educated is more often than not set up as the "standard language", writing is associated indirectly with the varieties of language that people tend to view as "correct". However, the association of writing with the standard variety is not a necessary one, as evidence by the attempt of writers necessary one, as evidence by the attempt of writers necessary one, as evidence by the attempt of writers to transcribe faithfully the speech of their characters. Mark Twain's Huckleberry Finn and John Steinbeck's of Mice and Men contain examples of this.

Writing is more physically stable than spoken language, which consists of nothing more than sound waves traveling through the air, and is therefore ephemeral and transient.

Writing tends to last, because of its physical medium (characters on some surface) and can be preserved for a very long time. Spelling does not seem to vary from individual to individual or from place as easily as pronunciation does. Thus, writing has the appearance if being more stable especially in the modern era. Of course, spelling does vary, as exemplified by the differences between the American ways of spelling gray and words with the suffixes –ize and –ization as compared with the British spelling of grey and –ise and –isation.

Writing could also change if it were made to follow the changes of speech. The fact that people at various times try to carry out spelling reforms amply illustrates this possibility.

LISTENING

Listening tests your ability to understand spoken English that is typical of interactions and academic speech.

We can listen to conversations and lectures and answer questions about them.

Jean Piaget, the famous Swiss developmental psychologist, changed the way we think about the development of children's minds.

Listening is not less important than speaking or writing. So we have to pay attention to it from the first steps of our generation. But as the infant or child seeks to construct an understanding of the world, the developing brain creates schemes. These

are actions or mental representations that organize knowledge. To explain how children use and adapt their schemes, we can offer two concepts:

a) assimilation
b) accommodation

Assimilation occurs when children use their existing schemes to deal with new information or experience. Accommodation occurs when children adjust their schemes to take new information and experiences into account.

Assimilation and accommodation operate even in the very young infant's life. Newborns reflexively suck everything that touches their lips; they assimilate all sorts of objects into their sucking scheme. By sucking different objects, they learn about their taste, texture, shape and so on. After several months of experience though, they construct their understanding of the world mother's breast, can be sucked, but others should not be sucked. In other words, they accommodate their sucking scheme.

Listen to good models of speaking in similar situations.

Research is clearly on the side of those who advocate as a method to improve speaking. This means that one of the best ways to learn to speak will is to listen to good speakers.

It is also important to simulate the kind of speaking situation that you will be required to complete.

Practice using the telephone to speak.

Call a friend to practice some of the speaking questions by phone. Speak directly into the phone. Ask your friend to confirm that you are speaking at a good volume to be heard clearly and that you sound confident, but not arrogant. If your friend is a native speaker, you can ask some of the speaking questions and listen to the responses. Some telephones have a recording option. With your friend's permission, you can record the call.

Listening is a receptive skill, as it involves responding to language rather than producing it. Listening involves making sense of the meaningful sounds of language.

As we see, spoken language is generally less planned and less well structured than written language. There are very good reasons for this. When we speak we usually don't have time to organize our thoughts and our language beforehand, so we just say things as we think of them. Also when we listen, we need to listen to simply structured messages. As spoken texts usually disappear as soon as they are said, they need to be simple enough for us to process and understand in the time that is available. We can see that written and spoken language have different features because they are produced and understood in different kinds of circumstances. Their features respond to their circumstances.

To understand spoken language we need to be able to deal with all the characteristics of spoken language listed in the table above. Here is an example of spoken language. You can see that it can be less well organized and less exact than written language.

Like written language, spoken language has different text types:

a) conversations
b) stories
c) announcements
d) songs

e) instructions
f) lectures
g) advertisements

Listening also involves understanding different speeds of speech and different accents.

Some people speak more slowly and with more pauses. Other speak fast and with few pauses.

Aspect for listening

1. for specific information
2. listening extensively
3. for detail
4. for gist
5. activating knowledge of the world
6. working with authentic texts
7. deducing meaning from context
8. dealing with connected speech

We can see that listening is very important for understanding the grammar, vocabulary and functions of what we hear.

All aspects of language are necessary to be a good English speaker. We have to pay attention to all aspects, mainly

1. accuracy
2. connected speech
3. appropriacy
4. fluency
5. functions
6. interaction

They give opportunities for speaking practice as learners focus on language before the text and discuss its topic, and then after they have worked on understanding the text they can go on to do speaking activities related to its topic.

And finally let's remember that we can ignore neither speaking, writing nor listening. We can't do without them.

LIST OF LITERATURE

1) Leech L. Reading as one of the main aspects in modern English. New York. 1998.

2) Hagen S. Basic English Grammar. Third Edition. Washington, 2006.

3) Practice and review in listening comprehension, speaking and reading English, New York, 2001. Pamela J.

4) General orientation of required academic skills. Sharpe, Ph.D, Canada, 2010.

5) Melanic Williams. Sample essays and speaking responses. Cambridge University Press, 2011.

T.M.MEHDİYEVA

NİTQ, YAZI VƏ DİNLƏMƏ

XÜLASƏ

Məqalə nitq, yazı və dinləmədən bəhs edir. Bu üç aspekt dilin mühüm elementlərindən sayılır. Onlar ayrı-ayrılıqda dilin öyrənilməsi üçün böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən onların hər birinin geniş öyrənilməsi çox mühümdür. Bu elementlərin hər birinin müxtəlif növləri var. Eyni zamanda bu elementləri, yəni nitq, yazı və dinləməni öyrənmək üçün müxtəlif üsullardan istifadə edilir. Məqalədə bu üsullar haqqında geniş verilir. Bu baxımdan məqalə nitq, yazı və dinləməni dərindən öyrənmək istəyənlər üçün faydalı ola bilər.

T.M.МЕХТИЕВА

РЕЧЬ, ПИСАНИЕ И ПРОСЛУШИВАНИЕ

РЕЗЮМЕ

В статье рассматриваются речь, писание и прослушивания. Эти три аспекта считаются важные элементы языка. Они имеют большое значение для изучения языка в отдельности. Из-за этого обширного исследования каждого из них очень важно. Каждого из этих элементов существуют различные типы. В то же время различные способы используются для изучение эти элементы, а именно, речь, писание и прослушивание. В статье этих методах широко рассматриваются. В связи с этим, статья может быть полезным для тех, кто хочет узнать о письмо, речь и прослушивание.

Rəyçi: dosent R.X.Şamiyeva

AYNURƏ ƏLİYEVA
elmi işçi
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aeliyeva5@ mail.ru

AĞDAM RAYONUNUN BƏZİ ANTROPOTOPONİMLƏRİ

Açar sözlər: *antropotoponimlər, oykonimlər, toponim, onomastika, semantika, etimologiya*
Ключевые слова: *антропотопоним, ойконим, топоним, семантика, этимология*
Key words: *anthrotoponym, oykonym, toponym, onomastics, semantics, ethimologics*

Antropotoponim yunan mənşəli antropos – "şəxs, adam, insan", onim – "ad" sözlərindən ibarət olub şəxs adı mənasını bildirir.

Ağdam rayonunun onomastik sistemində müşahidə olunan toponimlərin müəyyən hissəsini antroponimlər əsasında meydana çıxan yer adları təşkil edir. Bu adların bir qismi ərəb və fars mənşəli sözlərdən yaranıb. Məsələn: Qiyaslı (Ağdam r.), Kəlbəhüseynli (Ağdam r.), Əlimərdan (Ağdam r.), Bəşirlər (Ağdam r.) və s.

Lakin həmin sözlər Azərbaycan dilinə qədim dövrlərdə keçdiyindən dilimizin qayda-qanunları ilə qaynayıb-qarışaraq vətəndaşlıq hüququ qazanmış və söz yaradıcılığında mühüm rola malik olmuşlar. Odur ki, onları alınma sözlər kimi qəbul etmək doğru sayılmaz. Rayon ərazisindəki bəzi antroponimləri nəzərdən keçirək.

İskəndər bəy yurdu. "XIX əsrdə Üçoğlan kəndindən olan İskəndər (Xanməmmədin qardaşı) adlı bir gənc döyüşlərdə qəhrəmanlıq, şücaət göstərdiyinə görə Nikolay hökuməti ona bəy titulu verir və o, yüzbaşı təyin olunur. Bundan başqa böyük bir ərazi – meşəlik və yaşayış məntəqəsi Nikolayın möhürü ilə İskəndər bəyin əmlakı élan edilir" (10, 126). O vaxtdan bu yurd İskəndər bəy yurdu adlanır.

Xanməmməd ocağı. Bu ocaq Ağdam rayonunun vaxtilə Üçoğlan kəndinin tərkibindəki Səfərli yaşayış məntəqəsində qeydə alınmışdır. Üçoğlan kəndi Qarabağ xanlığı vaxtında Otuz-ikilər tayfasının oymaqlarından biri olmuşdur. Sonralar bu mülklər Behbudovların ixtiyarına keçmişdir.

"Mənbələrin verdiyi məlumata görə, kəndin nüfuzlu ağsaqqallarından olan Xanməmməd ağa xanlıqda sayılıb-seçilən şəxsiyyətlərdən hesab edilirdi. Günlərin bir günü o, Səfərli meşələrinə çıxarkən köhnə qəbirstanlıqdan işıq gəldiyini görür. O gəlib bunu kənd camaatına danışır. Kənd camaatı həmin yerə getdikdə heç nə görməyib geri qayıdır və Xanməmmədə heç nə görmədiklərini deyirlər. Xanməmməd özü camaatla birlikdə meşəyə gedir və onlar doğrudan da, həmin qəbrin üzərində şam yandığının şahidi olurlar. Elə o zamandan Xanməmmədə ocaq oğlu, ocağa isə Xanməmməd ocağı deyilmişdir" (10, 118). Xanməmməd antroponimi iki sözün birləşməsindən yaranıb. Şəxs adının birinci komponenti türk mənşəli arxaik "xan" vahidi, ikinci komponenti isə ərəb mənşəli "Məmməd" vahididir. Xan tituluna qədim türk dillərində, həmçinin fars, monqol, əfqan və başqa dillərdə "hakim", "el başçısı", "hökmdar", "cənab", "ağa" və s. mənalarda təsadüf olunur (1, 56-57). «Древнетюркский словарь»da isə xan sözünün müxtəlif məna-larda – "hökmdar", "stol örtüyü", "xüsusi adların bir komponenti" və s. işləndiyi göstərilir. Dili-mizin onomastik sistemində xan sözü fəal şəkildə iştirak edir. Məmməd sözünün ərəbcə mənası "bəyənilən", "tərifəlayiq" deməkdir. İslam dininin

əsasını qoyan peyğəmbərin ərəbcə Mühəm-məd adındandır (5, 47). İslam Azərbaycanda bərqərar olunduqdan sonra Məhəmməd və onunla əlaqəli digər adlar xalqımızın məişətinə daxil oldu (7, 636). Dilimizin daxili qanunları üçhecalı Məhəmmədin ikihecalı variantı olan Məmməd formasını da yaratdı. Rayonlarımızın bəzilərində bu adın Məmi, Məmiş variantlarına da rast gəlirik. Türkiyədə isə həmin ad Mehmet formasında işlənilir.

Sultanbəy keçidi. Ağdam rayonunun Abdal və Gülablı kəndləri yaxınlığında qeydə alınmışdır. Bu "oroqrafik obyekt XX əsrin əvvəllərində ermənilərə qan uddurmuş, Zəngəzurda, Qarabağda daşnaqlara qarşı vuruşmuş məşhur Xalq Qəhrəmanı Sultan bəy Əlipaşa (Paşa) bəy oğlunun adı ilə əlaqədar yaranmışdır" (10, 210-211). Toponim Sultan bəyin buradan keçməsi ilə bağlıdır. Sultan ərəb mənşəli söz olub "hökmdar", "hakim", "dövlət başçısı" mənalarının verir (5, 53).

Bəşirlər. Bu oykonim Bəşirlər nəslinin adı ilə bağlı olaraq yaranmışdır. Bu tirə Qarabağda yaşayan türk mənşəli tayfanın bir qoludur. Oykonim patronimik toponimdir. Coğrafi ad Bəşir şəxs adından və -lər şəkilçisindən yaranıb. Antroponim ərəb mənşəli söz olub "xoş xəbərlər verən", "muştuluqçu", "müjdəçi" (1, 16) mənalarını bildirir.

Bəşirlər kəndi 12 mart 1992-ci ildə erməni işğalçıları tərəfindən zəbt edilib.

Bəybabalar. Ağdam rayonu Xındırıstan inzibati-ərazi vahidində, rayon mərkəzindən 30 kilometr şimal-şərqdə, Qarabağ düzündə yerləşir. "Yerli məlumata görə, yaşayış məntəqəsinin əhalisi Bəybaba adlı bir bəyin rəiyyətlərindən ibarət olduğu üçün belə adlanmışdır" (4, 77). Bəybaba antroponimi "bəy" və "baba" sözlərinin birləşməsindən yaranıb. Bəy sözü qədim türk dilində hökmdar, rəhbər, knyaz mənalarında işlənmişdir (7, 91). Müxtəlif türk dillərində bek, bik və s. şəklində işlənən bu qədim türk titulu rus dilinə "Boq" formasında keçmişdir (3,68). Müasir ədəbi dilimizdə bu söz hörmət mənasında işlənilir.

"Bundan əlavə, "bəy" sözü azərbaycanlıların bugünkü toy mərasimində də işlənir. Toya yığışanlar qıza "gəlin", oğlana "bəy" adı verir…" (2, 414). Bəy sözünün iştirakı ilə həm antroponimlər (Bəylər, Bəyim, Bəybaba, Elbəy, Əlibəy və s.), həm də toponimlər (Ağabəyli – Ağdam, Böyük-bəyli – Ağdam, Kərimbəyli – Füzuli, Musabəyli – Füzuli, Şahbəyli – Ağsu, Bəylik – Saatlı və s.) əmələ gəlmişdir.

Baba sözü də qədim tarixə malikdir. "Türk dillərində geniş və müxtəlif mənada işlən-diyinə təsadüf edilir. Lakin Azərbaycan dilində əsasən "baba" dedikdə atanın və ya ananın atası başa düşülür" (2, 414). Müasir Türkiyədə bu söz ata mənasında işlənir. "Древнетюркский словарь"da "baba" sözü yalnız "ata" mənasında verilir (7, 76). Baba sözünün ata mənasında işlədilməsinə qərb qrupu şivələrində də rast gəlinir. Belə ki, bu bölgədə uşaq atasına "bava" deyə müraciət edir.

Beləliklə, aydın olur ki, Bəybabalar oykonimi sırf türk mənşəli toponimdir.

Qaraşlar. Oykonim Sırxavənd inzibati-ərazi vahidində yerləşir. Kəndin adı Qarabağda qədim zamanlardan məskunlaşmış Qaraşlar nəslinin adı ilə bağlıdır. Qaraşlar coğrafi adı Qaraş şəxs adı və -lar cəmlik şəkilçisinin birləşməsindən yaranmışdır. Qaraş – qaraşın, qaratəhər (6,40) mənalarını ifadə edir.

İsalar. Kənd Ağdam rayonunda, Əfətli inzibati-ərazi vahidində, Qarabağ düzündə yerləşir. Kəndin əsl adı Molla İsalardır. "Toponim "İsanın törəmələri, isagillər" mənasındadır" (4,253). Oykonim Cənubi Azərbaycanda yaşamış, şahsevən tayfa ittifaqına daxil olan isalılar tayfası adı ilə əlaqələndirirlər. Bizə görə, İsalar Boyəhmədli tayfasının Molla İsalar tirəsinin burada məskunlaşması nəticəsində

yaranmışdır. Coğrafi ad İsa şəxs adı və -lar cəm şəkilçisindən yaranmışdır. İsa xristianlığın əfsanəvi başçısı, "İncil"in yaradıcısıdır. "Bu ad qədim yəhudicə Yexoşa, yunanca İisus, ərəbcə İsa kimi dəyişilib, "allahın köməyi, tanrının yardımı" deməkdir" (1,29). Rəvayətə görə, İisus Xristos Roma imperatoru Avqustun dövründə Fələstinin Vifleyim şəhərində anadan olmuşdur. Böyüdükdən sonra Samirə, Qalileya və İudeya şəhərlərində yaratdığı yeni dini təlimi təbliğ etdiyi üçün dəmir çarmıxa çəkilmişdir.

İsanın adı Quranda da hörmətlə çəkilir. İncilə görə İisus yarıallah, yarıinsandır. Quran-dakı İsa isə yalnız peyğəmbərdir, o, insanlara allahın nidasını, əmrini yetirir. Bu səbəbdən də müsəlmanlar arasında İsa və "İsa" komponentli şəxs adları (İsabala, İsaxan), həmçinin həmin antroponimdən yaranan toponimlər (İsalar – Ağdam, İsalı – Gədəbəy, İsakənd – Tovuz) yaran-mışdır.

Rzalar. Ağdam rayonunda, Qaradağlı inzibati-ərazi vahidində, dağətəyi ərazidə yerləşir. Kəndin tam adı Rza Sərkarlı olub. Qaradağlı tayfasının Sərkar qoluna mənsub Rzalar (İrzalar) tirəsinin məskunlaşması nəticəsində yaranmışdır. Oykonim "Rzaya məxsus olan sərkarlar" mənasını bildirir.

Rza "məişətimizdə yeganə birhecalı addır. Əsli ərəb dilindən gəlir, amma özü İranda yaranıb. Lakin nə ərəblərdə, nə də farslarda "rza" deyilən söz yoxdur. Adı yaradan söz "rida"dır ki, ərəbcədən tərcümədə "razılıq, məmnuniyyət" deməkdir. Farslar bu sözü "riza" kimi qəbul etmiş, ondan ad yaratmışlar.

Şiələrin səkkizinci imamı Əli ibn Musaya məhz Reza təxəllüsü verilmişdir. Onun şəninə Rzaqulu, Məhəmmədrza, Əlirza adları yaranıb" (11, 174). Osman Mirzə adın birhecalı söz kimi dilimizə daxil olması haqda yazır ki, "Rida" sözünün ərəbcə yazılışı elədir ki, fars onu ancaq "reza" kimi oxuya bilər. R ilə z arasında heç bir sait yazılmır. Biz də onu elə birbaşa "rza" oxumuşuq (11, 174).

Azərbaycan dili üçün iki samitin yanaşı işlənməsi səciyyəvi hal sayılmadığına görə Rza adının deyilişi dilimizdə müəyyən çətinliklər yaradıb. Onun üçün bu ad gah Riza, gah da İrza kimi tələffüz olunmuş, lakin xalqımızın savad səviyyəsi artdıqca ad yazıldığı kimi də tələffüz edilib.

Hüseynallar. Oykonim Ağdam rayonunda, Xaçın çayı sahilində yerləşir. "Yaşayış məntəqəsi boyəhmədli tayfasının hüseynalı tirəsinin özlərinə məxsus qışlaq yerində daimi məskulaşması nəticəsində yaranmışdır" (4, 527). Oykonim Hüseynalı// Hüseynəli antroponimi və -lar cəm şəkilçisinin birləşməsindən yaranıb, "Hüseynalının nəslindən olanlar, hüseynalılar" məna-sındadır. Hüseyn ərəb mənşəli söz olub mənası "gözəl, göyçək" (1, 60) deməkdir.

Alıbəyli. Ağdam rayonunda, Üçoğlan inzibari-ərazi vahidində, düzənlik ərazisində yerləşir. Kəndin keçmiş tam adı Tərəkəmə Alıbəyli olub. "Kəndi tərəkəmə elatının alıbəyli tirəsi saldığına görə belə adlanmışdır. Toponimin tərkibindən tərəkəmə komponenti sonralar düşmüş-dür" (4, 33). Oykonim Alıbəy//Əlibəy şəxs adından və -lı mənsubluq bildirən şəkilçinin birləşməsindən yaranmışdır.

Böyükbəyli. Kənd Ağdam rayonunda, Üçoğlan inzibati-ərazi vahidində, Qarabağ düzündə yerləşir. "Böyükbəyli kəndinin əhalisi keçmişdə "Tərəkəmə - Böyükbəy" adlanırdı. Çünki bu ailələr Böyükbəyə məxsus idi" (2, 216). "XIX əsrin axırında Üçoğlan kənd icmasına mənsub bir qrup tərəkəmə elat öz bəylərinin adları ilə Tərəkəmə Abdulbəy, Tərəkəmə Böyükbəy, Tərəkəmə Mirzəbəy və Tərəkəmə İmamqulubəy adlanırdı. Sonralar toponimin tərkibindəki tərəkəmə sözü düşmüş (4, 97), -li şəkilçisi əlavə edilmiş və kənd bəyin adı ilə Böyükbəyli adlanmışdır. Böyükbəy

antroponimi Böyük və bəy komponentlərindən ibarətdir. "Böyük" Azərbaycan mənşəli söz olub "iri, yekə, uca, hörmətli" və s. mənalarını ifadə edir. Böyükbəy – "hörmətli bəy" anlamını bildirir.

Cavahirli. Ağdam rayonunda, Göytəpə inzibati-ərazi vahidində, Kiçik Qafqaz dağlarının ətəyində yerləşir. Yaşayış məntəqəsinin adı Qarabağ xanı İbrahimxəlil xanın arvadı Cavahir xanımın adı ilə bağlıdır. "Cavahirli kəndinin əhalisi hələ xanlıqlar dövründə Cəfərbəy adlı birisinə mənsub olmuşdur. Qarabağ xanlığı Rusiyaya birləşdiriləndən sonra çar hökuməti orqanları həmin ailələri Qarabağ xanı İbrahim xanın arvadı Cavahir xanıma bağışlamış və bundan sonra onlar "Cavahirxanımlı – tərəkəmə" adlanmışlar. Sonralar həmin maldar (tərəkəmə) ailələr məskunlaşaraq daimi yaşayış məntəqəsi yaratdıqda kənd sadəcə olaraq Cavahirli adlanmışdır (2, 215)..

T.Əhmədov Cavahirli toponimini bəy, xan və mülkədar adlarından yaranmış və sonralar etnonim səciyyə kəsb etmiş adlar qrupuna daxil edir: "…Zərdab rayonundakı Əlibəyli kəndinin XIX əsrin ortalarında 11 evdən ibarət sahibkar kəndi kimi qeyd olunması, Ağdamdakı Cavahirli (keçmiş Cavahir Xanımlı (Üçüncü Tərəkəmə) kəndinin Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra Qarabağ xanı İbrahim xanın arvadı Cavahir xanıma bağışlanması kimi faktlar göstərir ki, bu qrupa daxil olan adlar bəy, xan və mülkədar adlarından yaranmış və sonralar etnonim səciyyə kəsb etmişlər" (12, 164). Cavahir (Cəvahir kimi də yazırlar) ərəb mənşəli sözdür. Ərəbcə "cohər sözünün cəmi cəvahir – "qiymətli daşlar (almaz, yaqut və s.)" deməkdir. Ərəbcə cohər sözünün əsli farsca "qouhər"dir (10, 61).

Eyvazxanbəyli. Yaşayış məntəqəsi Ağdam rayonunun Maqsudlu inzibati-ərazi vahidində, dağətəyi ərazidə yerləşir. "1835-ci il məlumatına görə, əsl adı Ərəb Eyvazxan olmuşdur. Eyvazxan yerli bəylərdən Məmmədxan bəyin oğludur (hazırda kənddəki nəsillərdən biri məmmədxanlıbəyli adlanır). 1826-cı ildə İrana qaçan Eyvazxan sonralar geri qayıdarkən çar hökuməti 1830-cu ildə yenidən Şəlvə, Tərnəgüt, Əliməmməd adlı kəndləri, İsaq Pənah Sərkar köçünü ona vermişdi. Bundan sonra kənd Eyvazxanlıbəyli adlanmışdır" (4,209). A.Qurbanov oykonimin "Ərəb-Eyvazxan bəy" adlanmasını, mənşəcə ərəb olan bir qrup ailənin Eyvazxan bəy adlı birisinə mənsubluğu ilə bağlayır. Sonralar "ərəb" sözü düşmüş və bəyin adı toponimə çevrilmişdir (2,216). T.Əhmədov Eyvazxanbəyli toponimini də bəy, xan və mülkədar adlarından yaranmış və sonralar etnonim səciyyə kəsb etmiş adlar qrupuna daxil edir (12, 164). Eyvaz şəxs adı "qədim türk dilində "düzülmüş, düzəlmiş, qaydaya salınmış" mənasında işlədilmişdir" (1,21). Ölməz Xalq Qəhrəmanı Koroğlunun igid oğulluğunun adı da Eyvaz olub. Osman Mirzə yazır ki, ad əslində Əvəzdir. Gəlib, dağlıq mahallarda, qartal və Koroğlu yurdunda ləhcə təsiri ilə Eyvaz (bəzən Əyvaz, hətta Ayvaz) şəklinə düşmüşdür. Həmin yerlərdə Əli adı Alı şəklinə düşən kimi (11, 68). Xan sözü dilimizdə qədim zamanlardan işlənir. "Древнетюркский словарь"da bu söz "hökm-dar", "stol örtüyü", "xüsusi adların bir komponenti" və s. mənalarda işlənmişdir (7, 636). "Kitabi-Dədə Qorqud"da həmin söz iki şəkildə titul və müraciət məqamında işlənmişdir. Məs.; Titul: "Qalqubanı xan Bayandır yerindən turmuş, bir yerə ağ otağ, bir yerə qızıl otağ, bir yerə qara otağ dikdirmiş" (9, 35) Müraciət məqamında "Xan qızı, yerimdən turayınmı?" (9,35); Xan sözünə Mahmud Qaşqarlının "Divanü lüğat-it türk" (Türk dillərinin lüğəti) əsərində də rast gəlinir.

Xan titulu vasitəsilə yaranan antroponimlərin və toponimlərin sayı dilimizdə çoxdur. Məs.; Xan, Xanlar, Ağaxan, Ataxan, Babaxan, Qardaşxan, Muradxan,

Mehdixan, Əhmədxan, Elxan və s. (şəxs adları); Xanlıq (Qubadlı), Xankəndi (İsmayıllı), Xankeçən (Sabirabad), Xanbulaq (Yardımlı), Xanabad (Yevlax), Xanalı (Şuşa) və s. (toponimlər).

Eyvazlı. Ağdam rayonunun Quzanlı inzibati-ərazi vahidində, düzənlik ərazidə yerləşir. "Toponim oğuz tayfa ittifaqına daxil olan təklələrin (sonralar şahsevənlərin) tərkibində olmuş eyvazlı tirəsinin adı ilə bağlıdır" (4, 209). Eyvaz həmin tirənin sayılıb-seçilən ağsaqqallarından olmuşdur. Eyvazlı "Eyvaza məxsus, eyvazlılar" mənasındadır.

Qubadlı və Beyləqan rayonlarında da Eyvazlı (eyvazlılar) adlı kənd vardır.

Dadaşlı. Ağdam rayonunda, Xındırıstan inzibati-ərazi vahidində, dağətəyi düzənlikdə yerləşir. "Yaşayış məntəqəsi dadaşlı nəslinin məskunlaşması nəticəsində yaranmışdır" (4, 182). Dadaşlı nəsil adının əsasını antroponim təşkil edir. Oykonim Dadaş şəxs adı və -lı mənsubiyyət şəkilçi-sindən ibarət olub, "Dadaşın nəslindən olanlar, dadaşlılar" anlamını verir. Sabirabad rayonunda Dadaşbəyli kənd adının olması Dadaşın şəxs adı olduğunu bir daha təsdiqləyir. Dadaş türk mənşəli söz olub, ataya, böyük qardaşa hörmət əlaməti olaraq verilən addır. Osman Mirzə "Dadaş"ın "dədə" sözündən yarandığını qeyd edir. Müəllifə görə, əvvəllər, hələ Dədə Qorqud zamanında "dədə" ananın və ya atanın atasına deyilirdi. Müasir dilimizdə işlənən baba isə ata mənasında idi. Əsrlər keçdikcə "dədə" "baba"dan "ata"ya çevrilmişdir (11, 64-65). Dildəki "ata" ilə kifayət qədər rəqabət apara bilməyən "dədə" sonra bir pillə də enib, "böyük qardaş" olmuşdur. Bu zaman o əzizləmə əlaməti olan "-ş" şəkiçisini qəbul etmişdir. Baba-Babaş, Bala-Balaş, Əli-Əliş törəmələrində olan kimi Dədəş əvəzinə Dadaş yaranması da təəccüb doğurmur. Üç qalın samitin arasında ə incə saiti asanlıqla qalın a-ya çevrilmişdir. Ə.Tanrıverdiyev Dadaş kimi adının yalnız qohumluq münasibətini ifadə edən sözlər əsasında düzələn şəxs adlarına aid edir ((8,86).

Bəzi dialekt və şivələrimizdə ataya və ya böyük qardaşa bu gün də "dadaş" deyə müraciət olunur. Hazırda Dadaş, Dadaşbala şəxs adlarından bu gün də istifadə olunur.

Əliağalı. Ağdam rayonunun Əlimədədli inzibati-ərazi vahidində, Xaçın çayının sol sahilində, dağətəyi düzənlikdə yerləşir. Əliağa XIX əsrin axırlarında maldarlıqla məşğul olmuş kiçik bir elin adıdır. "Yaşayış məntəqəsi əliağalı nəslinin məskunlaşması nəticəsində yaranmış-dır" (4,215). Kəndin qəmzəlilər, hacılar, məmmədbağırlılar, vəliməmmədlilər, məşədihüseynlilər və s. nəsilləri vardır.

Kənd 1993-cü il 12 iyunda ermənilər tərəfindən işğal edilmişdir.

Əliağa şəxs adı Əli və ağa komponentlərindən ibarətdir. Əli ərəb mənşəli olub "ali, yüksək, ulu, uca" mənalarını bildirir (1, 24) . Vaxtilə Əli məişətimizdə ən çox yayılan oğlan adlarından olub. Bu isə, ilk növbədə, Azərbaycanda şiəliyin intişarı, IV xəlifə Əli ibn-Əbutalibə pərəstişin təbliği ilə bağlıdır. Əli adından bu gün də geniş istifadə olunur. İkinci komponent kimi işlənən ağa sözünün tarixi qədimdir. Bu söz qədim türk lüğətində "Böyük qardaş" mənasında izah edilir (7, 310).

Ə.Tanrıverdiyev qeyd edir ki, ağa apelyativi bəy, sahib, hakim, zadəgan, böyük qardaş və s. mənalı arxaik tituldur (8, 58). Ağa sözü "Kitabi-Dədə Qorqud" dastanında da işlənir. Məs.; "Qaragünə oğlı Qarabudağ aydır: "Ağam Qazan, məsləhətdir" (9, 60). Bu söz ilkin mənasında ("böyük qardaş") bəzi şivələrimizdə də saxlanmaqdadır. Belə ki, böyük qardaşa "ağa" deyə müraciət edilir. Bu söz vasitəsilə bir çox şəxs adları və toponimlər yaranmışdır. Məs.; Ağa, Ağalar, Ağası, Ağasəlim, Ağaşir, Ağacan, Ağadadaş, Ağayar, Ağakərim, Ağarza, Əliağa, Məmmədağa, Ağabacı və s. (şəxs adları); Ağabəyli (Ağcabədi), Ağabəyli (Ağsu), Ağaverdioba (Xaçmaz), Ağakişibəyli

(Masallı), Ağamalı (Gədəbəy), Ağaməmmədli (Tovuz), Ağabağı (Zərdab) və s. (toponimlər).

ƏDƏBIYYAT

1. Abdullayev B. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı, 1985.
2. A.Qurbanov. Azərbaycan onomalogiyasının əsasları. II c., Bakı, 2004.
3. Aydın Paşayev, Alimə Bəşirova. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı, 2003.
4. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, 1999.
5. Azərbaycan şəxs adları. Tərtibçilər. M.Şirəliyev, B.Abdullayev, Ş.Sədiyev. Bakı, İşıq, 1987.
6. Azərbaycan şəxs adları. Bakı, 1978.
7. Древнетюркский словарь. Л., «Наука», 1969.
8. Əzizxan Tanrıverdiyev. Türk mənşəli Azərbaycan antroponimləri. Bakı, 1996.
9. "Kitabi-Dədə Qorqud". Bakı, 1988.
10. N.Tapdıqoğlu, A.Əliyev. Ağdam rayonu və onun toponimiyası. Bakı, 2006.
11. Osman Mirzə. Adlarımız. Bakı, 1993.
12. T.Əhmədov. Azərbaycan toponimiyasının əsasları. Bakı, 1991.

АЙНУРА АЛИЕВА

НЕКОТОРЫЕ АНТРОПОТОПОНИМЫ АГДАМСКОГО РАЙОНА

РЕЗЮМЕ

В статье дано научное объяснение антропотопонимов используемые на территории Агдамского района, были выдвинуты интересные мысли и суждения. Название некоторых мест(Бейбалалар, Исалар, Рзалар и т.д.) были привлечены лексическо-семантическому анализу, представлено этимологический анализ этих слов. Результаты исследования топонимов еще раз доказывает что территория Агдамского района принадлежат местным туркам.

AYNURA ALIYEVA

SOME ANTHROTOPONYMS OF AGDAM DISTRICT

SUMMARY

In the article was gived scientific explanation, interesting thoughts and opinions of the anthrotoponyms of Agdam district. The name of some places(Beybalalar, Isalar, Rzalar and ect.) were involved to lexical-semantic analysis, ethymological analysis. The study of these places' names in the district of Agdam region once again proves that this territory relates to turks.

***Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir* – Qrant № EİF/MQM-3-Shusha-2014-7(22)-05/03/5.**

PƏRİ ƏHMƏDOVA
kamalya.akhmedova@mail.ru

SEMANTİK ÜSULLA YARANAN PEDAQOGİKA TERMİNLƏRİ

Açar sözlər: *semantika, üsul, terminologiya, məna, leksik qat, vahid, mənşə, anlayış.*
Ключевые слова: *семантика, способ, терминология, значение, лексический пласт, единица, происхождение, понятие.*
Key words: *semantics, method, terminology, meaning, lexical layer, unit, source, conception.*

Elm inkişaf etdikcə onun anlayışlar sistemi zənginləşdirliir və bu anlayışların adlandırılmasına ehtiyac yaranır. Belə ki, elmlərin diferensiasiyası və müəyyən istiqamət üzrə inteqrasiyası prosesi son dövrlərdə güclənmişdir. Nəticədə yeni elmi istiqamətlərin yaranmasında sürətli artım müşahidə olunur. Belə bir şəraitdə yeni anlayışların adlandırılmasına tələbat artır. Şübhəsiz ki, bütün elm sahələrində olan anlayışları fərqli vahidlərlə adlandırmaq mümkün deyildir. Ona görə anlayışların nominasiyası zamanı sözün semantik cəhətdən genişlənməsindən də istifadə olunur. Pedaqoji terminlərin yaranmasında da bu proses özünü qabarıq şəkildə göstərir. Onu da qeyd edək ki, həm dilin daxili imkanları, həm də alınma pedaqoji terminlərin semantik üsulla termin yaradıcılığında da fərqli münasibət müşahidə edilir.

M.Qasımov sözün semantikasının inkişafında üç əsas prosesin müşahidə olunmasına istinad edərək semantik üsulla termin yaradıcılığının da üç formada getməsi qənaətinə gəlmişdir: 1) adi məişət sözlərinin terminləşməsi; 2) sözlərin mənasının xüsusiləşməsi; 3) yeni məcazi mənalar hesabına sözlərin mənasının genişlənməsi (3,123). Aydındır ki, dil yalnız leksik cəhətdən yeni söz kimi meydana çıxan vahidlər hesabına deyil, həm də mövcud olan sözlərin mənaca dəyişməsi ilə də zənginləşir. Bu zaman mənanın qismən və tam dəyişməsi hadisəsi baş verə bilir. Belə proses yalnız terminlərin yaranması ilə bağlı deyil, söz yaradıcılığı üsullarından da biridir. Bu ədəbiyyatda «leksik», «leksik-semantik» və «semantik» üsul adlandırılır. Məsələn S.Cəfərovun tədqiqatlarından biri sözlərin leksik üsulla yaranmasına həsr olunmuşdur. O, leksik üsul haqqında belə yazır: «Leksik yolla sözlərin əmələgəlmə prosesinin mahiyyəti ondan ibarətdir ki, burada yeni əmələ gələn leksik vahidlər (sözlər), əsasən, hazır şəkildə dilə daxil olur və ya əmələ gələn hər hansı yeni leksik vahid törədiyi ilk mənşə formasından öz məzmunu və hətta forması etibarilə uzaqlaşır, yeni məzmunlu, yeni formalı müstəqil bir söz kimi təşəkkül tapır» (2,81). Verilmiş izah geniş əhatə dairəsinə malikdir. Burada sözün həm mənaca, həm də formaca dəyişməsi də nəzərdə tutulur. Lakin söz yaradıcılığında leksik üsul dildə mövcud olan sözün mənasındakı dəyişmə ilə əsaslandırılırsa, onda forma və ya struktur dəyişməsi nəzərə alınmamalıdır. Yalnız sözün semantikasındakı dəyişmə nəzərə alınmalıdır. Deməli, məsələyə bu istiqamətdən yanaşdıqda, semantik üsulla söz yaradıcılığından danışmaq mümkündür. Yeni söz lüğətdə əvvəl olmayan sözdür. Sözün yeni məna qazanması və ya onun mənasının dəyişməsi isə başqa hadisədir. Yəni dildə mövcud olan leksik vahidin yeni məna qazanması hadisəsi baş verir. Forma planı qalır, məzmun planında dəyişmə baş

verir. İstər yeni sözün yaradılması, istərsə də sözün semantikasında dəyişmənin baş verməsi adlandıran vasitələrin (leksik səviyyədə sözlərin) həcmində genişlənməni səciyyələndirir. Yeni söz lüğətə yeni vahid kimi daxil olur. Əvvəl mövcud olmuş sözün mənasında dəyişmə yarandıqda isə lüğət fonduna yeni söz daxil edilmir, əvvəlki sözün mənaları sırasında yeni mənanın qeyd olunması hadisəsi baş verir. «Nominasiya (adlandırma) problemi ilə bağlı hər cür məsələnin şərhində aydınlıq o zaman mümkündür ki, dildə bu və ya digər sözün yaranmasını gerçəkləşdirən bütün amillər nəzərə alınsın. Bu amillər aşağıdakılardır: təcrübə, linqvistik texnika, insan psixologiyası və ayrıca fərdin rolu, cəmiyyətin rolu, xarici şəraitin təsiri, adlandırma və dil sistemi, dilin, təfəkkürün real gerçəkliklə qarşılıqlı münasibəti» (5,147). Doğrudan da, göstərilən bütün amillər nəzərə alındıqda, bir halda sözün mənasında qismən dəyişmənin baş verməsi nəticəsində adlandırmanın gerçəkləşməsi, başqa halda yeni anlayışa ad vermək tələbinin yerinə yetirilməsi, üçüncü halda obrazlılıq, daha geniş təyinetmə məqsədilə məfhuma yeni əlavə adın verilməsi və s. ilə üzləşməni aydın görmək mümkündür. Deməli, formanı saxlayıb yeni məna yaratmaq da, yeni mənanı adlandırmaq üçün yeni söz yaratmaq söz yaradıcılığıdır. Qeyd edilən cəhətlər bütünlüklə terminlərə də şamil olunur. Sadəcə olaraq, bir halda söz, ikinci halda isə termin yaradıcılığı hadisəsi baş verir.

S.Cəfərov leksik yolla söz yaradıcılığı prosesinin bir-birindən fərqli bir neçə üsulla əmələ gəldiyini söyləmişdir. O, konkret olaraq 5 üsuldan bəhs edir: 1) sözün dialektlərdən götürülməsi; 2) sözün alınması; 3) sözlərin çoxmənalılıqdan (polisemantiklikdən) omonimliyə doğru inkişafı; 4) sözün səs cildində dəyişmə nəticəsində yeni sözün yaranması (dağ, tağ); 5) söz kökünün müstəqilliyini itirərək sözdüzəldici şəkilçi ilə qarışıb, tərkib hissələrinə ayrılmayan yeni bir söz əmələ gətirməsi (2, 86-91). Fikrimizcə, birinci və üçüncü üsulda dildə mövcud olan sözdən istifadə edilir. Dialektdən sözün götürülməsi mənbə dil ilə əlaqədardır. Terminin dialektdən götürülmüş sözlə verilməsi həmin dialektizmin mənasının dəyişdirilmədən terminləşməsi olur. Deməli, sözdə semantik dəyişmə baş vermir. «dialektlərdən gələn sözlər təkcə ədəbi dilimizin bədii üslubunda deyil, bütün sahələrində öz təsirini göstərir. Müxtəlif elmi terminlərin yaradılmasında dialektlər çox böyük rol oynayır. Bu cəhətdən dialektləri öyrənmək və onların müxtəlif təsərrüfat sahələrinə aid olan zəngin lüğət materialını toplamaq olduqca faydalıdır. Bu material dilimizin bütün sahələrində getdikcə artan terminlərin xalq dili əsasında yaradılması üçün imkan verir» (2,83). Hesab etmək olar ki, dialektlərimizdə də pedaqogika terminləri üçün material axtarıb tapmaq mümkündür.

Semantik üsulla termin yaradıcılığı məsələsinə M. Qasımovun münasibətinə qayıtsaq, onun adi sözlərin yeni məna alaraq terminləşməsi, sözlərin ilkin mənasının arxa plana keçməsi və intensiv olaraq terminoloji mənada işlənməsi (sözlərin xüsusiləşməsi) və nəhayət, məcazi məna hesabına mənanın genişlənməsi ilə bağlı irəli sürdüyü üç istiqamət sözün semantikasındakı dəyişməni göstərir. Biz belə hesab edirik ki, mənanın daralması və ya genişlənməsi, eləcə də ilkin mənanın arxa plana keçməsi terminin yaranmasının fərqli üsulunu yaratmır. Sözün terminləşməsi onun ilkin mənasının arxa plana keçməsini bütün hallarda tələb edir. Söz terminləşərkən yeni məna alır. Bu məna terminoloji mənadır. Terminoloji məna isə definisiya və ya tərifl müəyyənləşir, konkret olur. Sözün mənasında daralma və genişlənmə çoxmənalı sözlərə xas semantik prosesdir.

T. Əfəndiyeva göstərir ki, müasir Azərbaycan dilində semantik inkişaf nəticəsində sözlərin bir qisminin mənaca dəyişir, bir qismi mənaca genişlənərək yeni məna qazanır, bir qismi isə əvvəlki məna ilə əlaqəni itirərək omonimləşir. O, sözləri mənaca inkişafa görə üç yerə ayırır: 1) mənaca dəyişən sözlər; 2) mənaca genişlənən və əlavə məna ilə zənginləşən sözlər; 3) omonim sözlər (6,240). Mənanın dəyişməsi, fikrimizcə, bütün üç qrupa xas olduğundan belə ayırma bir qədər mübahisəlidir. Terminologiyada söz terminləşir və terminoloji məna qazanır. Bu halda semantik inkişafın mərkəzində yeni mənanın yaranması durur. Çünki söz terminə çevrilir və definisiyası olan anlayışın adını bildirir.

S. Sadıqova semantik üsulla termin yaradıcılığı prosesinin iki istiqamətdə getməsini qeyd etmişdir: 1) ümumişlək sözlərin terminləşməsi; 2) mövcud terminin strukturca dəyişməsi ilə yeni terminin yaradılması (7,72-73). Göründüyü kimi, burada sözün terminləşməsi və terminin terminləşməsi məsələsi qoyulur. Sözün hansı mənbədən götürülməsi və ya onun mənasındakı dəyişmənin hansı şəkildə (qismən, tam və ya mənanın daralması, mənanın genişlənməsi) getməsi meyar səviyyəsinə qaldırılmır. D.Lotte də məsələyə bu istiqamətdən yanaşaraq yazmışdır: «Adi söz elmi-texniki terminə çevrilərkən terminoloji sistemdə müəyyən məna kəsb edir, daha doğrusu, belə sözün əvvəl qeydə alınmış mənasına yeni bir məna əlavə olunur.» (5,123).

Qeyd edək ki, bir sahə terminin terminoloji mənasında müəyyən dəyişiklik baş verməsi ilə başqa sahə termininə çevrilməsi halı da baş verir. Bu hal transterminləşmə adlanır.

Termin yaradıcılığında semantik üsul müəyyən vahidin terminoloji məna qazanması prosesidir. Yeni terminoloji mənanı ya söz, ya da termin qazanır.

Pedaqogika terminologiyasında semantik üsulla termin yaradıcılığı sahənin yaranma dövrü üçün daha səciyyəvidir. Bu sahə terminologiyasında ümumişlək sözlərin terminləşməsi geniş yayılmışdır. Həmin terminlərdən bəzilərini nəzərdən keçirək.

Axşam. Sutkanın müəyyən hissəsini bildirir. Günün axırından gecənin başlanmasına qədər olan vaxtı ifadə edən ümumişlək sözdür. Söz pedaqogika terminologiyasında «tədbir, yığıncaq, mərasim» mənasında işlənir. Tədbirin keçirilmə zamanı üzrə motivləşərək terminoloji məna kəsb etmişdir. Pedaqoji terminologiyada «axşam məktəbi», «axşam şöbəsi», «axşam təhsili» terminlərindən də istifadə olunur ki, bu termin söz birləşmələrində motivləşmə zamanla bağlıdır.

Axşam təhsili - bu və ya digər səbəbdən gündüz təhsil almaq imkanları məhdud olan gənclərin və yaşlıların əmək fəaliyyətindən ayrılmamaq şərtilə orta və ya ali məktəbdə davam etdirdikləri təhsildir [AMIEPL 12].

«İki -təlimdə müvəffəqiyyətin qiymət normalarının səviyyəsini yazılı formada müəyyənləşdirən rəqəm» [AMIEPL 120]. Pedaqogikada «iki» qiymət məfhumunu bildirir. «İki» aşağı qiymətdir və bu qiyməti alan şagirdin fənni mənimsəmədiyi aydın olur. İki qiyməti imtahana aid olduqda keçici sayılmır. Müəyyən dərsdən iki almaq həmin dərsin mənimsənilmədiyini göstərir. Ümumişlək söz kimi «iki» rəqəmi bildirir, saydır. «İki» pedaqoji terminlərin izahlı lüğətinə daxil edilmişdir. Qəbul edilmiş beş ballı qiymətləndirmə sistemində «iki» qiymətindən başqa «üç» (kafi), «dörd» (yaxşı), «beş» (əla) də istifadə edilir. Buradan belə nəticə çıxarmaq olar ki, bu rəqəmlər də pedaqoji terminlər sırasına daxil edilməlidir. Fikrimizcə, bilik səviyyəsinin qiymətləndirilməsi şkalasında «kafi», «yaxşı», «əla» terminoloji vahid ola bilər. «İki»

qiymətini ayırmanın səbəbi bilik səviyyəsinin qənaətbəxş olmadığını göstərməklə bağlıdır.

Ali məktəblərdə əvvəlki sistemdə semestr yoxlama sınaqlarında «məqbul» və «qeyri-məqbul» qiymətləndirmə meyarları da olmuşdur.

Semantik üsul yalnız dilin mənşəcə öz sözləri əsasında termin yaradıcılığını əhatə etmir. Bu, həm də alınma sözlərin terminləşməsini də nəzərdə tutur. Müasir Azərbaycan dilində bir çox sözlər vardır ki, onlar tarixən daha qədim dövrlərdə alınmışdır. Hazırda dilin lüğət fondunda belə sözlər özünəməxsus yer tutur və dilin ümumişlək leksik qatına aid olması ilə seçilir. Belə sözlərdən bəzilərinin terminləşərək pedaqogika və digər sahələrə daxil olması faktlarını nəzərdən keçirək.

«Adət. is. (ər.)1. Hər bir xalqın həyatında qədimdən bəri qəbul edilmiş və kök salmış ənənə. 2. Bir adam üçün adi hal almış qayda, üsul, hərəkət tərzi, təmayül; vərdiş» (1,57). Bu söz həm psixologiya, həm də pedaqogika terminologiyasına daxil olan termindir.

Psixologiya terminologiyasında anlayışın definisiyası aşağıdakı kimidir: «Adət - müəyyən şəraitdə icra edilməsi insan üçün tələbat olan möhkəm mənimsənilmiş iş və hərəkətlər sisteminə deyilir» (4,9).

Pedaqogika terminologiyasında verilən izah bir qədər fərqli şəkildədir.

«Adət - həyat və fəaliyyət zamanı müəyyən şəraitdə özü hiss etmədən avtomatlaşmış hərəkətlərə adamın meyilli olması» (1,246).

Termin psixologiyaya aid olmuşdur. Psixologiya və pedaqogika sahələrinin yaxınlığı nəticəsində cüzi dəyişməyə uğrayaraq pedaqogikaya keçmişdir. Bu baxımdan ümumişlək alınma sözün terminləşməsi psixologiya ilə bağlıdır. Pedaqogikada isə transterminləşmə hadisəsi əsasında yer almışdır. Sahələrarası omonim termin sayılsa da, demək olar ki, eyni terminoloji mənaya malikdir və psixologiya termini kimi qəbul olunandır.

Təkrar - Hər hansı bir cismi, hadisəni, materialı qavradıqda baş beyin böyük yarımkürələri qabığında müvafiq rabitələr əmələ gəlir. Bu rabitələri möhkəmləndirmək üçün bir neçə dəfə təkrar etmək lazımdır.

Vərdiş - insan fəaliyyətinin tərkibinə daxil olan və bu fəaliyyətin bir çox dəfə icrası sayəsində avtomatlaşıb daha mükəmməl icra olunan ünsürlərinə deyilir.

Hafizə - keçmiş təcrübənin beyində nəqşləndirilməsi, hifz edilməsi sayəsində sonralar tanıma və yada salınmasından ibarət psixi prosesdir.

Semantik üsulla yeni terminlərin yaranması iki istiqamətdə gedə bilər. Birinci halda dilin ümumişlək leksik qatındakı sözün semantikasında dəyişmə baş verməklə terminləşmə gedir. İkinci halda bir sahə termini semantikasını dəyişərək başqa sahə terminə çevrilir. Bu iki istiqamətdə terminləşmə həm dilin mənşəcə öz vahidləri, həm də alınmalarda özünü göstərir.

ÇALIŞMA. Mənşəcə Azərbaycan dilinə aiddir. Çalışmaq felinə -ma isim düzəldici şəkilçi artırılmaqla əmələ gəlmiş düzəltmə sözdür. Azərbaycan dilinin ümumişlək leksik qatında istifadə olunmuş sözdür. Yəni düzəltmə söz termin olmazdan əvvəl dilin lüğət tərkibində yer almışdır. Azərbaycan dilinin izahlı lüğətində də iki mənada verilir.

ÇALIŞMA 1. "Çalışmaq"dan f.is.2. is. Şagirdə evdə yerinə yetirmək üçün verilən tapşırıq. Fonetikadan çalışmalar. Çalışmanı yerinə yetirmək (ADIL).

Birinci mənada nəyisə yerinə yetirmək üçün göstərilən səyi bildirir. İkinci mənada isə termin kimi çıxış edir.

Semantik üsulla termin yaradıcılığında terminin semantikasında dəyişmə nəticəsində sahələrarası yeni omonim terminin əmələ gəlməsinə aid bir neçə nümunəni nəzərdən keçirək.

Kredit. İngilis dilindəki credit sözündən düzəlmişdir. Çoxmənalı sözdür. 15-dən artıq mənası vardır. 1. İnam, etibar. 2. Yaxşı imic, yaxşı ad, nüfuz. 3. Şan, şöhrət, şərəf. 4. Hörmət. 5. Ali məktəbdə zaçot balı. 6. Zaçot. 7. Kredit, borc. 8. Gəlirə yazılmış məbləğ 9. Bankda hesab. 10. Mühasibat kitabının sağ tərəfi. 11. İnanmaq, etibar etmək. 12. Nüfuzu qaldırmaq. 13. Kreditləşdirmək, kredit vermək, pul buraxmaq, borc vermək. 14. Mənfəət bölməsinə yazmaq. 15. zaçot qəbul etmək, kurs keçmək haqqında vəsiqə vermək (8,360).

Sözün birinci mənası «inam, etibar»dır. Yeni mənaların əksəriyyəti əsas məna üzrə formalaşmışdır. İngilis dilində ilk olaraq iqtisad termini kimi işlənmiş, XVII əsrədək terminoloji debit, debt terminlərinin sinonimi funksiyasında istifadə edilmişdir. Kredit termini həm ingilis, həm də Azərbaycan dili iqtisadiyyat terminologiyasında iki anlayışı ifadə edir. Hər iki anlayış iqtisadiyyata aiddir. Onlardan biri mühasibat terminologiyasında «mühasibat uçotu hesabının sağ tərəfi»ni bildirir. Digər terminoloji məna isə «pul və ya natural formada verilən borc»u ifadə edir. Termin «borc» mənası üzrə motivləşərək pedaqoji terminologiyaya keçmişdir. Kredit təhsil alanın tədris planı üzrə nəzərdə tutulmuş imtahan, məqbul yoxlamalarını. Bunlarla bağlı borclarını ifadə edir. Göründüyü kimi, termin semantik daralma keçmiş, imtahan və məqbul borcunu ifadə etməyə başlamışdır. Beləliklə, iqtisadiyyat, maliyyə və pedaqoji sahədə işlənən sahələrarası omonim termin əmələ gəlmişdir.

Kurs. Orta latın dilindən ingilis dilinə keçmiş sözdür. İlkin mənası «axın, yol» olmuşdur. Gəmiçilikdə 1720-ci ildən termin kimi işlənir. Gəminin getmə istiqamətini bildirir. Sonralar aviasiya terminologiyasında da istifadə edilmişdir. İqtisadiyyat termini kimi ingilis və başqa Avropa dillərində istifadə olunur. Azərbaycan iqtisadiyyat terminologiyasında qeyri-standart termin sayılır. Azərbaycan dilində ərəb sözü «məzənnə» ilə kalka edilmişdir. Pedaqoji terminologiyada üç terminoloji mənada qeyd olunur: 1) qısa müddətdə müxtəlif ixtisaslar üzrə kadrlar hazırlamaq və ya ixtisası təkmilləşdirmək formalarından biri; 2) ali və orta ixtisas məktəblərində tədris dövrü; 3) hər hansı tədris fənninin, bilik səviyyəsinin müəyyən hüdud daxilində bitkin şərhi (AMIEPL 138). Göründüyü kimi, pedaqoji terminlərin yaranmasında semantik üsul mühüm rol oynayır.

ƏDƏBİYYAT

1. Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğəti.- Bakı: Azərbaycan Dillər Universiteti nəşri, 2005 -246 s.

2.Cəfərov S. Leksik yolla sözlərin əmələgəlmə prosesi// Azərbaycan dilçiliyi müntəxəbatı. II c. -Bakı: AMEA Nəsimi adına Dilçilik İnstitutu nəşri, 2003. - S.80-101. S. 81, 84, 86, 91, 93].

3. Qasımov M.Ş. Azərbaycan dili terminologiyasının əsasları. Bakı: Elm, 1973,s.123

4. Məhərrəmov M. İzahlı psixoloji lüğət. -Bakı: ADU nəşri, 1960. -119s. s.9.

5. Lotte D. Основы построения научно-технической терминологии. -M., Изд-во ANSSSR, 1961,s.123.

6. İsrafilova R.D. Azərbaycan dili lüğət tərkibinin zənginləşməsi yolları// Müasir Azərbaycan dili. -Bakı: Elm, 1973. - s. 230-245. s.240.
7. Sadıqova S. Azərbaycan dili terminologiyasının nəzəri problemləri. -Bakı: Elm, 2002, 230s. s. 72, 73.
8.İngiliscə-azərbaycanca lüğət. Bakı: Qismət, 2003. -1696 s. s.360; Credit// http:/ /www.abbyyon line.ru/ translate. aspx? LingvoAction= translate &Ln=1&words=debt.

Педагогические термины, образованные семантическим способом

Резюме

Статья посвящена анализу обогащения педагогических терминов семантическим способом на основе многочисленных примеров. В результате исследования было выявлено, что образование новых терминов семантическим способом происходит в двух направлениях. В первом случае образование терминов происходит на основе изменения семантики слов в общеупотребительном лексическом пласте языка. Во втором случае термины одной сферы изменяют свою семантику, превращаются в термины с новым значением в педагогической сфере. Следовательно, в обоих направлениях образование терминов проявляет себя как в исконных единицах языка по происхождению, так и в заимствованиях.

Ahmadova Peri

Pedagogical terms formed by semantic way

Summary

Enrichment of pedagogical terms by semantic method was analized with numerous facts in the article. It was clear from the investigation, the arising of new terms with semantic method happens in two directions. In the first circumstance terminalization happens with changing in the semantics of the word in lexical layer of a language. In the second circumstance, an area tern changes its semantics and turns to the new meaning term in pedagogical field. So, in these two directions, terminalization shows itself both in units of the same language, and in its borrowings.

Rəyçi: professor Sayalı Sadıqova

AYNUR MURADOVA
ADİU-nin "Xarici dillər-1" kafedrasının (Istiqlalyyət küçəsi, 6), baş müəllimi,
aynurmuradova.1975@mail.ru

MÜASİR DİLÇİLİKDƏ TEMATİK PROQRESSİYANIN DİSKURSYARATMA İMKANLARI

Açar sözlər: *mətn, diskurs, dilçilik, Tema, bağlayıcı, budaq cümlə.*
Ключевы слова: *текст, дискурс, лингвистика, тема, союз, придаточное предложение*
Key words: *text, Linguistics, the Theme, conjunction, subordinate clauses.*

Tematik proqressiya (TP) probleminin tədqiqində növbəti mərhələ onun daha çox mətn sferasına daxil edilməsi ilə əlaqədardır. Bununla bağlı olaraq son illərdə TP-nin mətnlə bağlı aspektləri (mətnin məna təşkili, onun struktur-cümlələr arasında bağlılığı, əlaqə, münasibət, rabitə və s.) nəzərdən keçirilmişdir. Lakin bu sahədə tədqiqatlar aparmış alimlərin bir çoxunun (məsələn, nə Halideyin (1), hətta Frayzın (2)) da müraciət etmədiyi bir mövzunun, yəni budaq cümlənin üzərindən Temanın imkanlarının araşdırılması məsələsinin hələ də tədqiq olunmamış aspektləri qalmaqdadır. Bununla bağlı olaraq, Teylor (3) Temanın formal kateqoriya olmaqdan daha çox semantik xarakterli olması fikrini irəli sürərək göstərirdi ki, tabesiz mürəkkəb cümlələrdə birinci cümlənin temasının işlənmə dairəsi ikinci cümləyə doğru genişlənə bilər, məs:

After the concert we drove round to Alec's but Jim stayed back with Penny.

Temanın açıq-aydın cümlə səviyyəli formal təhlili, "*after the concert*" ifadəsinin ikinci cümlə üçün tematik xarakterli olması faktını nəzərdən qaçırır. Ortodoksal Halideyçilər qeyd olunmamış Subyekt Temalarının işləndiyi hallarda bu cür təhlillərə yol verirlər.

He roared in fury and () struggled with all his might (4; 29).

Burada Martin zənn edir ki, mötərizələr "başa düşülən", yaxud ikinci cümlənin buraxılmış Subyektinin göstəricisidir və "(buraxılmış) əsas Tema" kimi qəbul olunur. Bu zaman buraxılmış Temaların analoji olaraq qeyd olunmuş (qeyri-Subyekt) Temalar (məs: *During the arrest*) kimi təhlil olunacağı aydın deyil.

During the arrest he roared in fury and () struggled with all his might.

Teylor nümunəsində "after the concert" ifadəsində olduğu kimi, "Geniş sahə" Temaları adlandıracağımız vahidin mövcudluğu, mətn analitiklərinə Tema sahəsini təhlil etmək üçün asılı və ya sərbəst budaq cümlələrə deyil, tam cümləyə üstünlük vermək imkanı yaradır. Bununla belə, Duboisin (5; 111) göstərdiyi kimi bu cür ölçmələr geniş sahə problemini bütünlükdə həll etmir. Qeyd olunmuş həmin temaların sahə bazası üç sərbəst cümlədən artıq genişləndirilə bilər, məs:

In the first pair [of sentences], I want to talk about William and the team I am not making generalizations, but rather, am taking the person or people as topic, and I am saying something about them on a specific occasion. (3; 209).

Burada Teylorun Temanın quruluş yox, semantik xarakterli olması fikrinə dəstək olaraq belə bir faktı da qeyd etmək olar ki, situativ konstruksiyaların yaradılması prosesi bağlayıcılar, yaxud birləşdirici kimi xidmət edən budaq cümlənin işlədilməsi ilə məhdudlaşmır.

Aşağıdakı balaca mətn nümunələrində bütün [a] cümlələri (Halideyin (6;346) qrammatik metafora nümunələrindən birinə uyğunlaşdırılıb), [b] cümlələrində müvəqqəti və məkan strukturu kimi "*the fifth day*" və "*the summit*" ifadələrini təyin edir:

[1] Yer = birləşdirici; Zaman = birləşdirici
[a] On the fifth day they were at the summit.
[b] They took photographs.
[2] Yer = iştirakçı (obyekt); Zaman = birləşdirici
[a] They reached the summit on the fifth day;
[b] They took photographs.
[3] Yer = birləşdirici Zaman = iştirakçı (subyekt);
[a] The fifth day found them at the summit.
[b] They took photographs.
[4] Yer = iştirakçı (subyekt); Zaman = birləşdirici
[a] The summit was reached on the fifth day.
[b] They took photographs.

Temanı strukturla eyniləşdirsək, belə görünür ki, Berinin sözləri ilə desək (7), diskurs Teması hər cümlədə cümlə Teması qarşılığını tələb etməyə bilər və özü də heç vaxt cümlə Teması kimi cavablandırılmır.

Yuxarıdakı nümunələrə ("Dağ" mətni) qayıtsaq, strukturun müəyyənləşməsində diskursun rolunun faktiki olaraq, ilkin (Temalara) elementlərdən asılı olması fikrinin özünü doğrultmadığını iddia edə bilərik. Məs: "*the fifth day*" ifadəsi "*They took photographs*" cümləsi üçün öz vəziyyəti nəzərə alınmadıqda (1 və 3-cü mətndə ilkin / tematik, 2 və 4-cü mətndə son rematik) müvəqqəti struktur rolunu oynayır. Sonda işlənməsinin geniş işlənmə ilə əlaqəli olmasını izah etmək üçün Dauning aşağıdakıları təklif edir:

Onlar [vəziyyət və situativ elementlər] post-subyekt kimi işləndikdə yeni anlayış irəli sürdüyü üçün Subyekt rolunu alır və vəziyyət situativ quruluşun işlənməsi ilə məhdudlaşdırılır. (8; 141)

Bu izahata zidd olan iki fikir yaranır: birinci - subyektlərin yeni anlayış irəli sürdüyü fikir özünü doğrultsa da, bu, heç də o demək deyildir ki, bütün Subyektlər yeni anlayışlar təkilf edir. Məs: yuxarıdakı [1] və [3] mətnlərdəki əvəzlik Subyekt "*They took photographs*" cümləsində yeni anlayış kimi çıxış etmir, lokal elementin (*at the fifth day*) – diskursun mövqeyinin Subyektdən (Remada) sonra işləndiyinə görə qısalması faktı açıq-aydın şəkildə özünü biruzə vermir. Ümumiyyətlə, "strukur" və "topik" anlayışlarının müstəqilliyini təyin etmək üçün Dauning yeni topikin mövcud strukturunu rədd etməsinin səbəbini izah etmir (onun bu ifadəsini biz "üstünlük əldə etmək" kimi izah edirik).

"Dağ" mətni üçün yeni subyekt və topik təsəvvür edək:

[5] Yer = iştirakçı (subyekt); Zaman = birləşdirici
[a] The summit was reached on the fifth day.
[b] Bears stole their cameras.

Görünür ki, [b]-nin semantik strukturu, ləğv olunmadıqda "*the fifth day*" ifadəsinin zirvəsində qalır (məs: *Bears stole their cameras back at base camp the next day*).

Əlbəttə ki, [1]-dən [5]-dək olan xırda mətnlər quraşdırılmışdır. Bununla belə, cari tədqiqat toplusu bu məsələnin təbii halda, işləndiyi material daxilində yoxlanılmasına imkan yaradır.

Frayz (9;319) belə bir fərziyyə irəli sürür ki, "mətnin empirik məzmunu, mətn daxilində quruluşun müxtəli ümumi elementləri ilə əlaqədə olur" və Polanyidən (10) əsaslı nümunələrlə sitat gətirərək, Temanın təhlilində əsas mətn iştirakçısı Temalarının "İncident" və "Crisis" kimi quruluş elementləri (90%) və "Reorientation", "Interpretation" və "Abstract" (60%) kimi digər elementləri arasındakı mühum fərqlərin meydana çıxmasını şərh etmişdir.

Frayz daha bir fərziyyəsində iddia edir ki, "bir kəs mətn daxilində quruluş elementinin birindən digərinə keçirsə, bu keçid budaq cümlə və cümlə kompleksinin Temasında qeyd olunur." O, həmçinin, Prido və Hoqanın (11) bir neçə empirik işindən sitat gətirərək qeyd edir ki, "budaq cümlələrin ilkin yerləşməsi diskurs qeydetmə funksiyasına malik ola bilər (9;338)". Həmçinin, o qeyd edir ki, budaq cümlə Temasının empirik məzmununun, yaxud budaq cümlə temasının mövcudluğunun sərhəd xəttinin müəyyənləşdirilməsində kafi göstərici olması aydınlaşmır və bu fərziyyəni araşdırmağa ehtiyac duyulur.

Burada geniş tema sərhədinin təbiəti və işlənmə tezliyinə dair empirik tədqiqat bu fərziyyəni izah etməkdə köməyimizə gələ bilər. Bu tədqiqat sualları, məna və vəziyyət anlayışları, xüsusi olaraq da, budaq cümlələri və vəziyyət birləşdiricilərinin diskursdakı semantik sahə variasiyalarına dair müddəalarla əlaqəli olur:

- Qeyri-başlanğıc vəziyyət bağlayıcıları və budaq cümlələri sahə daxilində yalnız yerli xarakter daşıyır?
- Başlanğıc vəziyyət bağlayıcıları və budaq cümlələr sahə daxilində nə dərəcədə yerli xarakterdən üstün xüsusiyyətə malikdirlər?

Bundan sonra ləğvetmə məsələsi gəlir. Matizen (11;60) növbəti müddəanı sübut etmək üçün Frayzdan (2) və Tompsondan (12) sitat gətirir. Əgər o, ritorik olaraq dominant cümlədə işlənərsə, budaq cümlənin məlum tematik elementi, yaxud mürəkkəb cümlənin tematik budaq cümləsi "LƏĞV OLUNANA" qədər öz semantik sahəsini işlənmiş olduğu qrammatik vahid sərhədindən xaricdə də genişləndirməyə meyllidir.

Bu müddəa aşağıdakı sualı doğurur:

- Hər hansısa bir vəziyyət strukturu (qeyd olunmuş Tema) qeyri-başlanğıc vasitəsilə də ləğv oluna bilərmi? Məsələn, yuxarıda göstərilmiş "Jim" bioqrafiyasından götürülmüş hissə ilə aşağıda verilmiş IV seqmentin modifikasiyası uyğunlaşdırıla bilərmi?

[3] While there he began working as music director at WONOFM.

[4] He then taught highschool after that, was music director at WCRB-FM...

Yuxarıdakı sualları manual təhlil əsasında cavablandırmaq olar. Suallar dərəcələrinə uyğun olaraq iki aspektdən cavablandırıla bilər: a) Tematik sahənin genişliyi, cümlələrin sayı ilə ölçülür və b) ümumi materialda geniş Tema sahəsinin işlənmə tezliyi.

Növbəti sual aşağıdakı kimi səslənə bilər:

- Qeyd olunmuş Temalar mətn seqment sərhədləri ilə nə dərəcədə eyni vaxtda işlənə bilər?

Burada yaranmış problemlərdən biri, bu cür sərhədlərin qeyd olunmuş temalarını təyin etmək üçün fərqlənən meyarlardan istifadə etməkdir. Öz tədqiqatımızda orfoqrafik abzas sərhədlərindən istifadə etməyi və qeyd olunmuş Temaların mətn seqmenti sərhədləri ilə birgə işlənməsinə dair fərziyyəni tədqiq etməyi təklif edirik. Bu fikir, belə bir konservativ ehtimal üzərində irəli sürülür ki, bütün mətn seqment sərhədləri abzas sərhədləri ola bilməsə də, əksər hallarda abzas sərhədləri mətn seqment sərhədləri kimi çıxış edə bilərlər.

İndi də yuxarıda göstərilmiş üç sualla bağlı irəli sürülmüş bəzi məlumatları təhlil edək. Qeyd olunmuş Temalar cümlənin əvvəlində işləndiyi halda üç müxtəlif növ hadisə özünü biruzə verir:

(i) yer bağlayıcıları
(ii) vasitəsiz məqsəd budaq cümlələri
(iii) "Əgər" (şərt) budaq cümlələri

Yuxarıda göstərilmiş materiala əsasən, (i) və (ii) vahidləri ön bağlayıcılarının müxtəlif növləridir və tekstual, fərdlərarası bağlayıcıları özündə ehtiva etmir, yalnız Halideyin vəziyyət bağlayıcıları adlandırdığı "ideyaya əsaslanan" bağlayıcıları birləşdirir. Halideyin "yer bağlayıcıları" adlandırıdğı termin faktik olaraq yer və zaman göstəricilərini əhatə edir. Bu vahidləri daha asan tapmaq üçün yalnız yer bağlayıcılarını seçmişik – *in, at, by, ago, then, here, now*. Eyni səbəbdən də, (ii) vahid üçün yalnız "*in order to*" sintaqmı ilə işlənən cümlələri, (iii) vahid üçün isə"*if"*-lə işlənən bütün cümlələri nəzərə almışıq (6;151).

Yuxarıda göstərilən üç növ cümlə elementi (i), (ii) və (iii) məna və formaca bir-birindən qəti fərqlənərək, qeyd olunmuş Temalar kimi çıxış edən və ən geniş yayılmış hadisələrin mümkün ola biləcək nümunəsi sayıla bilər.

Birinci metodik problem "yerlidən daha üstün olan" hüdudun tanınması və ölçülməsi məsələsidir. (i) vahidə nəzər salsaq, yer bağlayıcıları aşağıdakı bir və ya birdən daha artıq element vasitəsilə ləğv olunmadığına qədər hüdud vəzifəsini daşıyır:

1. digər yer bağlayıcıları

[1] The love of whatever represents the financial exchange between parties wreaks havoc in a nation, a family and even an individual life. [2] Not the money itself but rather the love of it persuades men's hearts, captivates their minds and influences their priorities and their behavior. [3] The hoarding of wealth for personal benefit or security when pushed to an extreme is the root of all evil. [4] It produces selfishness in even the smallest child. (3 NA5)

Burada [1] cümlədəki mürəkkəb yer bağlayıcısı semantik cəhətdən daha balaca [4] cümlədəki bağlayıcı ilə əvəz olunana qədər öz mövqeyini qoruyur.

2. birləşdirici, yaxud modal bağlayıcı

[1] Bringing this to a more present time, we are now reaping the benefits of advanced technology, expanding knowledge, and modern times. [2] We have many machines to held us meet our food, clothing and shelter needs with little or no effort on our part, it would appear. [3] Persons with great technical minds are using their talent on the job and paying someone to do their labor.[4] However, just as in earlier days, the harder you work, the greater the reward. (3NA7)

Burada birləşdirici bağlayıcı sayılan [4] cümlədəki however, [1] cümlədəki [how] vasitəsilə ifadə olunan texnologiya əsrindən diqqəti mətni yüksək keyfiyyətlə yekunlaşdıran daha çox zamansız tekstual ümumiləşməyə doğru yönəldir.

3. Bağlayıcının təsir etdiyi mətn seqmentinin germetizasiya olunması

[1] In Kosovo, these elementary requirements were not met. [2] Portable Global positioning Systems, vital for operating at night, in Kosovo's difficult terrain in bad weather were in such short supply that most commanders and many soldiers were forced to buy their own. [3] Troops could not find targets at night because only commanders had laser pointers… [11] The Ministry of Defence responds that these defects would not have prevented a successful operation. (4NE9)

Bu daha mürəkkəb bir cümlədir və buradakı [11] cümləsində mətn nominallaşdırıcı "*these defects*" müvafiq olaraq "*responds*"-dan zaman dəyişikliyi ilə birgə göstərir ki, biz "*In Kosovo*"da nəyin səhv işlənməsinə dair cümlə kataloqundan uzaqlaşırıq – halbuki, bu 10 cümlədə özünü qoruyur- epizoda dair daha cari məsələlərə yönəlirik.

4. Fel zamanının dəyişməsi (yalnız zaman bağlayıcıları üçün).

[1] In the 1920s in American, it became very popular to disdain people who did not actually work for a living, but merely lived off the interest of their investments. [2] The stock market was experiencing a boom, and several formerly working – class citizens became wealthy and relished the idea of retiring early.

[3] But several great authors of that period questioned the right of these investors to effectively live as parasites; [4] they received money, but they contributed nearly nothing to society.

[5] People who inherit money or live off the interest of investors often seem to spend their time in search of a new thrill, some of excitement that money cannot buy. (3 NA8)

Burada bütün ləğvetmə məsələsi felin zamanı vasitəsilə həyata keçirilir. Bunu [5] cümlədəki "*inherit*" felini dəyişərək "*inherited*" formasına keçirməklə müşahidə etmək olar. Əgər fel keçmiş zamanda olsaydı, mətnin hələ də [2], [3] və [4] cümlələrdə olduğu kimi "*in the 1920s in America*" ifadəsində hadisələrlə bağlı olduğunu qəbul etməli olardıq. "*Inherit*" felinin indiki zaman forması [5] cümlədəki bağlayıcı məhdudiyyətini ləğv edir.

Yuxarıdakı nümunələrdəki ləğv etmələrə birdən daha çox cümlənin işləndiyi diskurslarda rast gəlinir, lakin bir çox hallarda bu hadisə dərhal baş verir, məs:

[1] Dome tickets flop forces big relaunch', the Telegraph proudly proclaims on successive days on page one. [2] On side pages, columnists get to work. (4NE3).

Təhlil

[1] vahidə yer bağlayıcılarına əsasən, qruplardakı mətnlərin yalnız yarısı təhlil olunmuşdur (hər yarımqrupdakı ilk on mətn). Vahidin hər birinin nümunəsinə dair aşağıdakılar nəzərə alınmışdır:

- Bağlayıcının hüdudu daxilindəki mətn cümlələrinin məsafə uzunluğu
- Ləğvetməyə təsir edən cümlənin Tema və ya Remasında məhdudiyyətin ləğv olunub-olunmaması

Temanın yerləşdirilməsi heç də hər zaman bağlayıcının növündən asılı olmur və bağlayıcının görünüşü geniş diskurs sahəsinin göstəricisinə çevrilmir. Bu fikir Dauningin (8; 133) müddəasına ziddir: "Zaman göstəricisi cümlənin sonunda işlənərsə, o, ümumiyyətlə, sahə yaratmır". Bununla belə, hətta Dauningin öz müddəasını sübut etmək üçün gətirdiyi nümunədə zidd fikir irəli sürür:

[1] The extension of Roman power began in the fifth century BC.

[2] Until that time they had waged war and generally unsuccessfully, with the Etruscans.

Belə görünür ki, "*until that time*"ifadəsinin [2] cümlədə yaratdığı ləğvetmə olmasaydı, "*in the fifth century B.C.*" ifadəsinin təsiri [2] cümləyə qədər yayıla bilərdi, lakin felin (*had waged*) keçmiş bitmiş zamanda işlənməsi də ləğvedici təsirə malikdir və bu fakt cümlənin şərhində belə bir müəmmalı vəziyyət yaradır ki, Etruskanlarla aparılan müharibənin V əsrdə, yoxsa daha əvvəl baş verməsi müəyyənləşməmiş qalır. Cümlənin sonunda işlənən bağlayıcıların adətən ləğv olunması faktı Dauningi belə bir səhv nəticəyə gəlməyə vadar etmişdir ki, cümlənin sonu öz-özlüyündə ləğvetməyə təsir edir. Bu zaman aşağıdakı faktlara bir o qədər əhəmiyyət verilməmişdir: (i) cümlənin əvvəlində işlənən bağlayıcılar da adətən ləğv olunur; (ii) cümlənin sonunda işlənən bağlayıcılardan heç də hamısı dərhal ləğv olunmur.

Cari materialdan gəldiyimiz nəticə bundan ibarətdir ki, Tema əvvəlki bağlayıcıların sahəsinin ləğv olunmasından asılı deyil. Bununla belə, bu sadəcə bağlılıqdır, məcburiyyət deyil, məs: "*In the 1920s İn America*" mətnindən götürülmüş yuxarıdakı parçada olduğu kimi, bağlayıcılar Remada da ləğv oluna bilər.

"*İf*" budaq cümlələrində sahənin genişliyini təyin etmək daha asandır. Şərt budaq cümləsinin ilkin olaraq işləndiyi cümlənin hüdudları sahısından kənara çıxması əsas felin modallığından və yaxud zamanından asılıdır. Məs:

[1] If the individual is incarcerated whether for one hour or for a lifetime money will be lost on the cost of incarcerration.

[2]This money may not come from the perpetrator of the crime but it will come from the individual's family, friends and acquantances in the form of tax dollars.

[3] As the number of criminals increases so to will the tax money needed to house these individuals.

[4] The moral aspect of crime for the criminal is also something to take into account. (3NA14)

Görünür ki, [2] və [3] cümlələrindəki fellər [1] cümləsindəki "*if*" budaq cümləsinin irəli sürdüyü şərti qoruyub saxlayır və [4] cümləsindəki felin indiki zamanında işlənməsi və qeyri-modallığı şərti ləğv olunur. Qeyd edək ki, mövzunun dəyişməsi (Dauningə zidd olaraq) ləğvetməyə təsir etmir. [4] cümlənin dəyişmiş variantı aşağıdakı kimi səslənir:

[4a] The moral aspect of crime will also be something to take into account.

Burada, zamanın və modallığın davamlı olması əvvəldə qeyd olunmuş şərti qoruyub saxlamağa xidmət edir və verilmiş cümlənin kontekst mənası aşağıdakı kimi səslənə bilər:

[4b] If the individual is incarcerated, the moral aspect of crime will also be something to take into account.

Faktiki olaraq, əsas cümlədə modal felin işlənməməsi, situativ strukturun nəzərə alınmadığını göstərir: diskurs "improsement" məsələsindən uzaqlaşır (essenin digər mövzusuna keçir).

Bununla belə, feli birləşmədəki ləğvetməyə əlavə olaraq, qeyd etmək lazımdır ki, bir çox hallarda "*if*" şərti budaq cümləsində tutumun ləğvi feldən əvvəl başlanılmışdı və yer bağlayıcılarını təsvir etdiyimiz üsulla həyata keçirilmişdi. Xüsusi olaraq, aşağıdakı nümunələrdən də gördüyümüz kimi, mətn bağlayıcıları və azaltma adlandırmanın müxtəlif növləri şərtin ləğv olunması ilə birbaşa əlaqəlidir:

A [1] If women can tell everyone that females should be the dominant gender and all men should adhere to their wishes and call it feminism then they are home free. [2]

Consequently, the feminist movement has become a shelter for the radical women to get angry under , to shout from and to feel safe within. (3NA17)

B [1] if he is, then this key plank of Labour's decentralisation programme will be seen as a sham. [2] That is the risk of the Dobson candidacy. (4NE4)

C [1] if he had been allowed to keep the circus whip for longer, he might just have persuaded more people for more time that the show was the greatest;

[2] but reality of a different sort drove him far away out of town. (4NE13)

Birləşdirici bağlayıcılar və azaltma adlandırma şərti sahəsinin ləğv olunmasının göstəriciləridir. Şərtlərdən sonra onların daha geniş yayılması və xüsusilə, Temada daha çox işlənməsi bizə belə deməyə əsas verir ki, şərt budaq cümlələri elə bir nəzərdə tutulmuş əzəmətə malikdir ki, bunu Natiqlər (Danışanlar) daha da çox aradan qaldırmaq niyyətində olurlar.

Bəzi hallarda belə məlum olur ki, "*if*" budaq cümlələrində olduğu kimi, bu cür keyfiyyət göstəricisi adətən aradan qaldırılır. Aşağıdakı nümunələrə nəzər yetirək:

[1] What has happened to 'smart procurement' if the digital Bowman system which is to replace the old Clansman is more than six years behind schedule? (4NE9)

[2] So if one wants to eat, have somewhere to sleep, have transportation and clothing, the almighty dollar is a must. (3NA20)

[3] If society should learn anything from the turn of events, it is this: (3NA17)

Müəyyən edirik ki, yuxarıdakı nümunələrdə növbəti cümlələrdə "*if*" budaq cümlələrinin tutumunu ləğv etməyə ehtiyac yoxdur. Ləğvetməni doğuran elementlər: [1] cümlədə sual [2] cümlədə məhz bu cümlənin nəticə yox, başlanğıc olduğunu göstərən bağlayıcı və [3] cümlədə budaq cümlənin mənasını azaldan əvəzlik (azaltma Sinklerin prospeksiyasını ləğv etməyə xidmət edir (6)).Buna da nəzər yetirək ki, ləğvetmə "*if*" budaq cümlələrinin cümlə quruluşunu tənzimetmə funksiyasının daşıyıcısı deyil ([2] və [3] cümlənin başlanğıcı), əksinə hər bir cümlənin semantik mənasını ön plana çəkir.

"Geniş sahəli" şərt budaq cümlələri nə dərəcədə çox yayılmışdır və onlar yalnız Temada işlənir? Bu bölmədə nəzərdən keçirdiyimiz qeyd olunmuş Temanın digər vahidləri kimi, mətn cümləsinin daxilindəki elementdən asılı olan bir çox şərt budaq cümlələri mövcud olmuşdur. Biz yalnız bütün cümləyə şamil edilə biləcək budaq cümlələri təhlil etmişik. Təhlil edərkən onu da nəzərə almışıq ki, tutumun ləğv olunduğu cümlədə felin modallığına və zamanına əlavə olaraq yuxarıdakı Temada qeyd olunmuş əlavə ləğvetmə vasitələrinin olub-olmaması müəyyən etmək zərurəti mövcuddur (adətən bu Remada baş verir). Həmçinin, ləğvetmənin cümlə daxilində hə-yata keçirilmiş cümlələri də xüsusi olaraq qeyd etmişik.

Ümumiyyətlə, təhlil olunmuş materiallardan belə bir fikir irəli sürmək olar ki, bütün mətn cümlələri üzərində təsirə malik olan "*if*" budaq cümlələrinin qeyd olunmamış vəziyyəti xarakter olaraq Tema ilə səciyyələnir. "*If*" budaq cümlələrində hər iki vəziyyətdə ləğvetmə daha çox Temada başladılır və yalnız felin modallığına, yaxud zamana həvalə olunmur. "*If*" budaq cümlələrinin 80%-dən artığında cümlə tutumu bir cümlədən artıq olmur. Yalnız bir rematik "*if*" budaq cümləsində birdən artıq cümlə tutumu mövcuddur, ilk iki cümlə aşağıdakı kimi səslənir:

[1] The other advantage of team work is that everybody will have good name if a project or work is properly done by them. [2] They will be given fair assessment and grades. (1LH1)

Lau (17; 22) göstərir ki, o, qrup daxilində (digər tarixi mətn) yalnız bir son "*if*" budaq cümləli nümunəyə rast gəlmişdir və onun fikrincə, mətnin "mümkün dünyanı" təyin etmək funksiyasını yerinə yetirmir (bu funksiyanı o, başlanğıc "*if*" budaq cümlələrinə şamil edir). Bununla belə, yuxarıdakı nümunə məhz bunu həyata keçirir və bizdə xüsusi olaraq problemli təəssürat oyatmır. Rematik "*if*" cümlələrindən sonra ləğvetmənin hələ də mövcud olması faktı onların tematik "if" cümlələr kimi eyni dərəcədə güclü potensiala malik olmalarının bariz göstəricisidir.

Aydındır ki, sonda işlənmiş şərt budaq cümlələrində heç bir tutum yaradılmır və başlanğıc anı fərqlənərək, ola bilsin ki, başlıca iştirakçı vasitəsilə təyin olunur. Bununla belə, "müddəanın aydınlığı" növbəti cümlənin yeni struktur yaratması inamına əsaslanır. Əvvəlki bölmədə müzakirə olunmuş vəziyyət bağlayıcılarına nəzər saldıqda yeni strukturun olmayacağı ehtimalını Dauning nəzərdən qaçırmışdır (yeni əsas iştirakçılar, topik, yaxud vəziyyət strukturu). Biz razılaşırıq ki, (i) bu halda mövcud struktur öz qüvvəsində qalır, (ii) hətta quruluşun ləğv olunduğu hallarda "*if*" cümləsindəki ixtisar tutumu cümlənin sonda yerləşdirilməsi təsirinə düşmür. Əksinə, növbəti cümlənin ləğvediciliyinə tabe olur. Bu fikirləri sübuta yetirmək üçün aşağıdakı mətn parçalarını nəzərdən keçirək:

1. *[a] If I were you I'd buy a dog. [b] I'd bolt the door as well.*
2. *[a] I'd buy a dog if I were you. [b] I'd bolt the door as well.*
3. *[a] I'd buy a dog if I were you. [b] But it's your choice.*

Hamı razılaşar ki, Mətn 1-in başlanğıc forması *If I were you* [b] cümləsinə doğru genişlənir. Aydın olmayan bir məqam var ki – hər halda bu tədqiqatçıya - Mətn 2-də "*if*" cümləsinin sonda yerləşməsi öz təsirinin oxşar olaraq [b] cümləsinə genişlənməsinə mane olur. Buna zidd olaraq, Mətn 3-də ləğvetmə həyata keçirilir, amma "but" tekstual bağlayıcısının və "it" əvəzliyinin təsirinə düşür – [a] cümləsindəki "if" cümlənin yerinin yaratdığı funksiyaya əks sayılır.

Launun nümunəsi V. Çörçilin tarixindən, Dauning nümunəsi ilə H.G. Velsin tarixindən götürülmüş parçalardan ibarət idi, ola bilsin ki, onların materiallarındakı sonda işlənmiş "*if*" cümlələrinin geniş işlənmə dairəsinin açıq-aydın yoxluğu geniş diskurs normalarından daha çox, yalnız bir janrın diskursa məxsus ritorik janrın – diskursa məxsus ritorik janrın təcəssümüdür. Rematik "*if*" cümlə 26 nümunənin 10-u NES yarımqrupunda işlənmişdir və burada belə bir müddəa irəli sürmək olar ki, cümlə sonundakı "*if*" cümlələrinin birdən artıq cümlə ilə işlənmiş bir nümunəsinə NNES qrupunda rast gəlinir. Aydındır ki, geniş sahəli sonda işlənmiş "*if*" budaq cümlələrinə NES nəsrinə heç vaxt rast gəlinməməsi fikrini qəbul etmək üçün daha geniş mətnə ehtiyac duyulur – bu, diskursun yaxşı qurulması prinsipinin nəzərə alındığının göstəricisidir – yaxud, onlar məhdud xarakterdə bəzi janrlarda işlədilə bilər.

Tompson (12) ilkin və son budaq cümlələri arasında diskurs funksiyasında əsaslı fərqin müəyyənləşməsini tələb edir. O qeyd edir ki, ilkin məqsəd budaq cümlələri oxucunun diqqətini işləndiyi mətn hissəsi daxilində yönəltməyə kömək edir, burada əsas məqsəd oxucunun məqsəd budaq cümləsindən sonrakı materialı daha əvvəlki materialla neçə uyğunlaşdırmasını öyrənməkdir. (18; 61)

O, həmçinin belə bir fikir də irəli sürür ki, əvvəldə işlənən məqsəd budaq cümlələri həm ideyaya əsaslanan, həm də mətn səviyyəsində işləndiyi halda sonda işlənən budaq cümlələr yalnız ideyaya əsaslanan səviyyədə işlədilir. Xüsusi olaraq, o iddia edir ki, ilkin budaq cümlələri məsələni irəli sürür, son budaq cümlələr isə, yalnız hər hansısa bir

hərəkətin təhrik səbəbini müəyyən edir. O, öz tədqiqatı daxilində bunu da müəyyən edir ki, heç bir son budaq cümlənin "birdən artıq sadə cümləsi mövcud deyil"(19).

Məqsəd budaq cümlələrinin hüdudlarını müəyyən etmək asan məsələ deyil, sadəcə, bu tədqiqatda "*in order to*" budaq cümlələrinin irəli sürdüyü göstəricilər Tompsonun müddəalarını dəstəkləməyə imkan yaratmır. Bəzi hallarda analitik müəyyən edir ki, sonda işlənən məqsəd budaq cümlələri əsas cümlənin hüdudlarını aşan sərhədlərə malikdir, lakin bu hüdudların mətndə dəqiq yerini müəyyən etmək hər zaman mümkün olmur. Tompsonun ilkin budaq cümlələrinin qeyri-ədəbi qrupu adlandırıdığı hallarda bu cümlələrin ardında işlənən seqmentlərdə müəyyən çətinliklər yaranır (20).

Bununla belə, bir budaq cümlənin işləndiyi mürəkkəb cümlələrdə ritorik və üslubi nöqteyi-nəzərdən baş cümlə > məqsəd budaq cümləsi ardıcıllığı üstün tutulan ardıcıllıq sayılmır. Belə ki, bu iki nümunə eyni mətndə ardıcıl olaraq, diskurs baxımından "pis quruluşlu" kimi bu analitikin təəccübünə səbəb olmamışdı.

[1] Money perhaps, is a necessary evil in order to conduct the daily affairs of life.

[2] Money, in some form or other, is reqiured in order to carry out business trading, commerce and exchange of property. [3] Money enables a human being to store what he owns, to pay his expenses, to share with others or even to give to those in need. (3NA5) (132, 133)

Belə görünür ki, [2] cümlə [1] cümlənin məqsəd budaq cümləsini yeniləyib və verilmiş hər iki cümlə [3] cümlənin – ümumilikdə, müəyyən dərəcədə bütöv essenin anlaşıla biləcəyi strukturu təyin edir. Tompsonun materialına prosedural mətnlər və nağıllar daxil olunmuşdur. Cari material əsaslı mətnlərin fərqlənə biləcəyini istisna etmir. Məsələni aydınlaşdırmaq üçün daha böyük materialı müxtəlif janrlar üzrə təhlil etmək bizə kömək edə bilər.

Digər vahidlərə əsasən, Tema vəziyyəti ilə diskurs tutumunun ləğvi arasında əlaqə müəyyən olunmur. Məqsəd budaq cümlələrinin ləğv olunmasının müşahidə olunduğu hallarda Remadan daha çox Temada Ləğvolunma nəzərə çarpır.

Tədqiqatın əvvəlində verilmiş suallara qayıtsaq, yuxarıdakı nümunələrə əsasən, cari tədqiqatın müddəalarından belə görünür ki:

1. Rematik vəziyyət bağlayıcıları mövqe baxımından yerli xarakter daşımır, lakin rematik budaq cümlələr buna meyllidirlər.
2. Tematik və Rematik vəziyyət bağlayıcıları və tematik budaq cümlələr adətən yerli xarakter daşımır, lakin bəzi hallarda bu, daha uzun müddət davam edir.
3. Hər hansı bir bağlayıcının və ya budaq cümlənin tutum ləğvi ya Temada, ya da Remada baş verir, lakin səciyyəvi olaraq Temada həyata keçir.

Bu məqalədə müxtəlif qeyd olunmuş Tema növləri ilə diskurs quruluşu arasındakı əlaqənin potensial imkanları nəzərdən keçirilmişdir. Xüsusi olaraq, belə bir müddəanı sübuta yetirmək lazım idi ki, – bəzi qeyd olunmuş temaların cümlədən daha geniş diskurs sahəsinə malik olması faktı əsasında – bu Temalar diskurs vahidləri arasındakı sərhədlərdə rast gəlinir (21).

Bu göstəricilər mürəkkəb xarakter daşıyır və yalnız bəzi hallarda əsaslı ola bilər, çünki nəzərdən keçirilən cəhətlərə az-az rast gəlinir. Ümumiyyətlə, belə görünür ki, müəyyən cümlə hissələrinin diskurs üzrə "geniş sahəsi" bu hissələrin Temada işləndiyi nümunələrlə təsdiqlənmir. Başqa sözlə desək, vəziyyət strukturunun "geniş sahəsi" onların tematikləşməsinin deyil, ideyaya əsaslanan məzmununun funksiyasıdır. Tema əvvəlki diskursun "geniş sahəli" ideyasına əsaslanan vahidlərin diskurs sahələrinin ləğvi

üçün səciyyəvi məkan olmasa da, ləğvetmə qeyd olunmuş temaların vahidlərinin təsirinə məruz qalır (məs: ismi birləşmələrin və birləşdirici bağlayıcıların azaldılması) (22).Yuxarıda göstərilənlər belə deməyə əsas verir ki, diskursun nə başlanğıc, nə də son sərhəd vahidləri, "*unit*" ümumi ideyasına əsaslanan vahidli cümlələri şərh etməyə imkan yaratmasada (vəziyyət, şərt, məqsəd) qeyd olunmuş Tema quruluşu ilə müşayət olunur (23).

ƏDƏBİYYAT

1. Hallidey, M.A.K. (1985). An Introduction to Functional Grammar. London: Arnold.
2. Fries, P.H. (1981/1983). On the status of Theme in English: arguments from discourse. Forum Linguisticum 6/1, 1-38. [Reprinted in Petöfi, J.S. and E. Sozer (eds.), Micro and macro connexity of texts (pp. 116-152). Hamburg: Buske.]
3. Taylor, C.V. (1983). Structure and theme in printed school text. Text 3/2, 197-228.
4. Martin, J.R., C.I.M. Matthiessen, and C. Painter. (1997). Working with Functional Grammar. London: Arnold.
5. Dubois, B.L. (1987). A reformulation of thematic progression typology. Text 7/2, 89-116.
6. Hallidey, M.A.K. (1994). An Introduction to Functional Grammar. (second edition). London: Arnold.
7. Berry, M. (1996). What is Theme? A (nother) personal view. In Berry, M., C. Butler, R. Fawcett, and G. Huang (eds.), Meaning and form: systemic functional interpretations. Norwood, NJ: Ablex.
8. Downing, P. (ed.).(1995) Word order in discourse. Amsterdam: Benjamins.
9. Fries, P.H. (1995c) Themes, methods of development, and texts (pp. 317-359). In R. Hasan and P.H. Fries (eds.), On Subject and Theme: A discourse Functional perspective. Amsterdam: Benjamins.
10. Polanyi, L. (1988). A formal model of the structure of discourse. Journal of Pragmatics 12, 601-638.
11. Matthiessen, C.M.I.M. (1992). Interpreting the textual metafunction (pp. 37-81). In Davies. M. and L. Ravelli (eds.), Advances in Systemic Linguistics. London: Printer.
12. Thompson, G. (1996). Intoducing Functional Grammar. London: Arnold.
13. Гиндин С. И. Внутренняя организация текста. Автореф. дисс. канд. филол. наук. 10. 681. - М., 1972. – 23 с.
14. Dunning, T. (1993). Accurate methods for the statistics of surprise and coincidence. Computational Linguistics 19/1, 61-74.
15. Givon, T. (1995). Functionalism and grammar. Amsterdam: Benjamins.
16. Ghadessy, M. (1995). Thematic development and its relationship to register and genres. In: Ghadessy, M. (ed.), Thematic development in English texts. London: Pinter.
17. Lakoff,George P. Cognitive Scientist Looks at Daubert.American Journal of Public Health | Supplement 1, 2005, Vol 95, No. S1
18. Loman, B. and N. Jorgensen (1971). Manual for analys och beskrivning av makrosyntagmer. Lund: Studentlitteratur.

19. Wang,Ling (1992). Analyses of thematic variations in Buried Child. M.A. Thesis, Department of English Language and Literature, Peking University.
20. Mathesius, V. (1928). On linguistic characterology. Actes du ler Congres International des Linguistes, 56-63.
21. Lorenz, G. (1999). Learning to cohere: casual links in native vs. non-native argumentative writing (pp. 55-76). In Bublitz, W., U. Lenk and E. Ventola (eds.). Coherence in spoken and written discourse. Amsterdam: Benjamins.
22. Mathesius, V. (1942). Ze srovnavacich studii slovoslednych (From comparative word order studies). Casopis pro moderni filologii 28, 181-90, 302-7 (Prague).
23. Miller, T. (ed.) (1997) Functional approaches to written text. Washington, DC: USIA. Minsky, M. (1985) A framework for representing knowledge (pp.245-62). In Bracham, R.J. and H.J. Levesque (eds.), Reading in knowledge representation, Los Altos, CA: Morgan Kaufman.

МУРАДОВА АЙНУР

ВОЗМОЖНОСТИ ТЕМАТИЧЕСКОЙ ПРОГРЕССИИ В ОБРАЗОВАНИИ ДИСКУРСА В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ

РЕЗЮМЕ

В статье автор пытается раскрыть возможности тематической прогрессии в создании дискурса в сфере лингвистики. Она, ссылаясь на работы учёных исследовавших эту область лингвистики, старается выяснить возможности темы на придаточных предложениях. Здесь автор придерживается мнения Тейлора о том, что тема сама по себе носит не структурный, а семантический характер и не ограничиваясь этим отмечает, что в процессе создания ситуативных конструкций, союзы и придаточные предложения используются как соединительные элементы. Используя примеры привидённые в ряде работ учёных – лингвистов автор выражает своё несогласие с мнением того, что в определении структуры текста роль дискурса зависит от первичных элементов.

MURADOVA AYNUR

THE CAPABILITIES OF THEMATIC PROGRESSION IN CREATING DISCOURSE IN MODERN LINGUISTICS.

SUMMARY

In this article the author has tried to reveal the capabilities of Thematic Progression in the process of creating the discourse in Linguistics. Refering to the works of scientists, that have been researched in this field of Linguistics, she has endeavored to clarify the facilities of the Theme on the subordinate clauses. Here the author has maintained Taylor's point of view.It has also been said that according to its character the Theme is more semantical than structural. Besides, she has noted that in the creation of situational constructions, conjunctions and subordinate clauses are used as the linking elements. Using some examples given in the works of linguists, the author has expressed her disagreement with the viewpoint which constitutes that in the determnation of structure , the role of discourse depends on the primary elements.

Rəyçi: Əfqan Abdullayev
filologiya elmləri doktoru, professor

ƏDƏBİYYATŞÜNASLIQ

PAŞA KƏRİMOV
Filologiya elmləri doktoru
İBRAHİM QULİYEV
Filologiya üzrə fəlsəfə doktoru

KLASSİK DÜŞÜNCƏDƏ KAMİL İNSAN OBRAZI

Açar sözlər: *Mövləvilik, kamil insan, təsəvvüf, musiqi, rəqs*
Ключевые слова: *приверженцы учения Джалал-ад-дина Руми, духовное совершенствование человека, суфизм, песнопения, мистический танец*
Key words: *followers of the teaching of Jalal ad-din Rumi, spiritual improvement of the human, Sufism , chants , mystic dance*

İnsanın ruhən kamilləşməsi, mənəvi düşkünlükdən xilas olmaq üçün özünün "ali ideya" olduğunu dərk etməsi bu gün hər zamankından daha vacib məsələ kimi qarşıda durur. Çünki hazırki dünya düzənində əsrlər boyu damcı-damcı toplanmış dəyərlər öz yerini yabançı xüsusiyyətlərə verir: mənəvi deqredasiya bəşəri humanizmin mahiyyətini dərk etməyə imkan vermir, cəmiyyətin enerji mənbəyi olan fərdlər ümidsizliyə qapılır, konfliktlər vüsət götürür... Ümumilikdə götürdükdə, problem yeni deyil, klassik irs insanı "ali ideya" elan edəndə məhz ətrafda baş verən bu cür bənzər hadisələri nəzərə almışdı.

"Ali ideya" bütün zamanlarda dini-fəlsəfi fikrin diqqət mərkəzində olmuş, onun maddi-mənəvi konturları böyük filosof və mütəfəkkirlərin müzakirə və mübahisə obyekti olmuşdur. Bu barədə mühakimələrin ilk rüşeyimlərinə biz hələ antik fəlsəfənin ilk axtarışlarında rast gəlirik. Məsələn, qədim Afinada məntiq və natiqlik məharətinə malik olan sofistlər, əslində, elə kamil insan obrazını təcəssüm etdirirdilər. "Təbiəti təbiətin özü ilə izah edən" bu alimlər bütöv fəlsəfi sistem yaratmağa çəhd göstərmir, mübahisələr, müsahibələr zamanı əldə olunan biliklərə üstünlük verir və qalibləri kamil insan hesab edirdilər.

Bu fəlsəfənin insan ruhu ilə bağlılığı az idi, o, daha çox kortəbii materializm rolunda çıxış edir, insanı çoxsaylı yunan allahlarından üstün tutmasa da, hər halda ondan aşağı da hesab etmirdi. Bu məktəbin nümayəndəsi - Demokritin tələbəsi olmuş Protaqor "kamil insanı hər şeyin ölçüsü" hesab edirdi.

Lakin antik mədəniyyətin növbəti mərhələsinin nümayəndəsi Sokrat insan kamilliyinin tamamlanması üçün ona ruh faktorunu əlavə etdi. Sokrat özü qədim dünyada hikmətin təçəssümü, müdrikliyin nümunəsi idi; bununla belə o özünü müdrik hesab etmirdi, çünki müdrik "dünyada hər şeyə qadir, hər yerdə mövçud olan böyük Allah idi". Sokrat müdrikliyə çatmağın yolunu da bilmirdi, lakin o, sonrakı filosoflar üçün "insan ruhunun ilahi nurun tərkib hissəsi olması" barədə məntiq yolunu açdı. Aristotelin insan ruhunun paralel aləmdə - Allah yanında mövcudluğu fəlsəfəsi də məhz Sokrat təliminin içində yetişmişdi. O, insanın kamilləşməsinin insan ruhunun "katarsis"indən keçdiyini bəyan elədi, bununla da insanı bütün digər canlılardan ayırdı.

Bu fəlsəfi təlim Platonda öz zirvəsinə çatdı. Beləliklə, kamil insan problemi antik fəlsəfənin həm materialist, həm də idealist qollarının sinkretik ideyası kimi təzahür edərək, onu fakt kimi etiraf elədisə də, ona nail olmağın yollarını müəyyən edə bilmədi.

Bu məsələdə din fəlsəfənin köməyinə gəldi. Ən qədim baxışlardan olan şaman təlimində ruhlarla ünsiyyət, onların şüa ilə yerə enməsi, yenidən öz əslinə qayıtması, rəqs və səma məclisi kimi hallar kamil insana doğru yolun mümkünlüyünün ilkin "kəşfi" oldu. Yəni insanın digər canlı varlıqlardan fərqlənməsinin əsas üsulunun ikinci mərhələdə insanın öz əlində olduğu bu təlimin ana xəttini təşkil edirdi. Zərdüştilik isə bu baxışları xeyirlə şər qarşıdurmasında insanın xeyir tərəfində dayanması ilə kamilliyə doğru irəliləməsinin mümkünlüyü kimi sadələşdirilmiş halda ictimai şüura yönəltdi. Əslində, bütün dinlər kamil insan məntiqi ətrafında vəhy ounduğundan onların quru ehkam kimi qəbul edilməsi, fikrimizcə, məntiqsizlik və ədalətsizlikdir. Din əslində özlüyündə bütöv bir prosesi nəzərdə tutur, orada sükunət halı yoxdur, bu da təbiidir, çünki evolyusiyasız onun heç bir mənası olmaz: hər şey bəllisə, heç nə dəyişməyəcəksə, kiminsə cəhənnəmdə yanmağı, yaxud kiminsə cənnətdə oynamağı hökmdürsə, onda dinlərin mənası nə olardı. Din hind mistikasında Nirvana ibadətlə, nəfslə mücadilə ilə brahmanizmidə vəhdət və batini mərifətlə, yəhudi mistikasında maddi varlıqdan çəkinməklə, batini nurlanma ilə, «ölmək yaşamaqdır» inamı ilə, xristianlıqda zahidlik, xəlvətə çəkilmək, ilahi eşqlə və s. kamilləşməni mümkün hesab edir. (1. 10)

Kamil insan ifadəsi islam ədəbiyyatına nisbətən gec daxil olmuşdur. Amma Quranın "Bəqərə" surəsində Allah-təala bu barədə öz xəbərdarlığını etmişdi: "Mən yer üzündə bir xəlifə yaradacağam" (2, s.6). Mürətəza Mütəhərri yazır ki, hicri–qəməri tarixinin yeddinci əsrinə kimi islam ədəbiyyatında bu termin mövcud olmamışdır: "... O, islam dünyasında ilk dəfə məşhur arif Mühyəddin Ərəbi tərəfindən işlədilmişdir. Yeddinci əsrdən sonra meydana çıxmış bütün ariflər islam irfanının atası hesab olunan bu şəxsin məktəbinin yetirmələridir. Mövlana Cəlaləddin Rumi də Mühyəddin məktəbinin yetişdirmələrindən sayılır. O, bütün əzəmət və böyüklüyünə baxmayaraq, irfan baxımından Mühəiddinlə müqayisə oluna bilməz. Ərəb soylu Mühyiddin Hatəm Tainin nəslindən olmuş və vaxtilə müsəlman ölkəsi olmuş Andəlusda (indiki İspaniya) dünyaya göz açmışdır" (3).

İslam ölkələrinə səfərlər edən bu böyük arif Şamda vəfat etmişdir. Ondan sonra ən böyük arif hesab edilən Sədrəddin Konyəvi də onun şagirdi olmuşdur. İslam irfanının elmi şəkil alması Mühyiddinin və Sədrəddinin zəkasının məhsuludur. Mövlana də Sədrəddinin müasirlərindən olub, Mühyiddinin fikirləri ilə Sədrəddinin vasitəsi ilə tanış olub. Bu fikirlərin ən başlıcası «kamil insan» məsələsidir.

Beləliklə, kamil insan idealı özünün zirvəsini təsəvvüfdə tapır. Bəs təsəvvüf insanın kamilliyini nədə görürdü? "Bütün ilahi parametri və ölçüləri dolu olan, gözəl bir şəkildə pərvəriş tapan insan insani-kamil olur. Kamil insan bütün dünyanı özündə əks etdirən, varlıq aləmindəki hər şeyi özündə təcəlla eləyən insandır. İrfan tədqiqatçılarının fikrincə, kamil insan bir ayna kimidir, həzrəti xaliq özünü o aynada görmək istəyir".

İbn Ərəbi kainatı böyük insan hesab etmiş və fərdin özünü bu aləmin bir hissəsi saymışdır. O, heyvani hisslərdən uzaq tutduğu, qəlbi ilahi həqiqət və ilahi nurun aynası olan insanı kamil insan bilirdi. Kamil insan onun nəzərincə, "səmada mələklərin

müəllimi, varlıqların ən kamili, haqqın mükəmməl surəti, cəmiyyətin ideal sözü, yaradılışın göz bəbəyi, Allahın kamil nüsxəsi, yerin, göyün sütunudur".(4, s.50)

O**,** "kamil insan" üçün xüsusi istilahlar işlətmişdir: "əl insanül-əqli", "əl insanül-ali", "əl insanül-həqq", "əl insanül-əvvəl", "əl insanül-əvvəlül-həqq". İslam lüğətində "əl insan fil aləm-ül ali və kamil" ibarəsi işlənmişdir.

Onu da qeyd edək ki, Bəyazid Bastami İbn Ərəbidən öncə mənəvi baxımdan yüksək məqama çatmış insanla bağlı "əl kamilül-təmmam" terminini işlətmişdir. Ondan sonra Həllac Mənsur kamil insan kimi bütün kamal mərtəbələrini keçmiş, ilahi keyfiyyətin təzahürünə çevrilmiş, "ənəlhəqq" məqamına nail olmuş insandan söz açmışdır. Lakin "əl insanül-kamil" termini açıq-aşkar İbn Ərəbiyə məxsusdur və özünün "Füsus əl-hökm" kitabında ilk dəfə bu termini işlətmişdir.

O, öz kitabında "kamil insan" üçün digər adlardan da istifadə etmişdir. İbn Ərəbi, ümumiyyətlə, insanı yer üzündə "naibül-həqq" hesab etmiş, haqq-təalanın və "insanül-kamil"in "fotuhate-məkiyyə"sində və "şan"ında bir çox mətləblərin olduğunu bildirmişdir. İbn Ərəbinin şərhçilərindən və ardıcıllarından olan Əzizəddin Nəsəfi (VII-ci əsr), Əbdülkərim Cili (711-767) də "əl-insanül-kamil" adlı kitab yazmış, onlar da kamilliyə yetməyin üsullarını müəyyən etməyə çalışmışlar. İbn Ərəbinin nəzərincə, bütün peyğəmbərlər kamil insandırlar, onlardan sonra vəli, sonra vəsi və daha sonra kamil arif gəlir...

Mövlanədə də bu kateqoriyanı qəbul edirdi: o, insanlığın ağıl və canını heyvan fəhmindən və canından ayrı hesab edir, peyğəmbərlərin ağıl və canınını isə daha yüksəkdə tuturdu, kamil insan ifadəsini o, ilk növbədə peyğəmbərə aid edirdi:

غیر فهم و جان که در گاو و خرست
آدمی را عقل و جان دیگرست
باز غیر عقل و جان آدمی
هست جانی در نبی و در ولی

(İnəkdə və eşşəkdə olan fəhm və candan başqa, insanın digər ağlı və canı vardır. Yenə insanın ağlından və canından başqa peyğəmbər və vəlidə başqa bir can vardır).

Cəlaləddin Ruminin kamil insan konsepsiyasında ilk yerdə "zülmət və nur örtüklərindən xilas olmuş insan dayanır. Kamil insan öz əslinə qayıtmış, fəna məqamına nail olmuş insandır. O, İbn Ərəbinin bütün bu əsas postulatlarını qəbul etməklə bərabər, təsəvvüf və irfanın sənətlə qovuşmasının kamil insana aparan yolda mühüm rol oynadığı qənaətinə gəldi və bu sahədə böyük əməli iş gördü. O, şeiri, musiqini və səma'nı xanəgaha, sufi məclislərinə daxil edib, onları bir növ mənəvi-əxlaqi cəhətdən qanuniləşdirdi.

Bu dövrdə kamil insan formalaşdırılması arzusu zamanın tələbindən doğurdu. Belə ki, Cəlaləddin Məhəmməd Movlanə Rumi Xarəzimşah dövlətinin zəiflədiyi, monqol-tatar hücumlarının intensivləşdiyi, həyacanlı, qorxunc, dağıdıcı hadisələrin vüsət götürdüyü bir zamanında dünyaya gəlmişdi. Bu elə bir dövr idi ki, qətllər, işgəncələr, insan başlarından minarə tikmək, zorakılıq, oğurluq, qarət, qətlamlar adi hal almışdı. Fəqirlik və qanunsuzluq əksər Şərq ölkələrini bürümüş, mədəniyyətlər iflasa uğramış, elm, sənət gözdən düşmüşdü. Mövlanə riyakarlıq və fəsada qarşı mübarizə aparır, islam və insanlıq ziyası yayırdı.

O, əsərlərində iflasa və tənəzzülə uğrayan insanlığa qarşı "ali ideya"- kamil insan tezisini irəli sürdü. Onun təsəvvüf və irfani görüşlərini ifadə edən lirikası bir tərəfdən irfanın bədii zövq və sənət nəşəsinə çevrilməsində, digər tərəfdən, kamil insana doğru

yolda vasitə oldu. Mövlanə üçün insan "formaca kiçik dünya, mənaca böyük aləm" idi. O, "Məsnəvi"sində deyirdi:

پس به صورت عالم اَصغر تويي
پس به معني عالم اكبر تويي

(Bəs formaca kiçik aləm sənsən, mənaca böyük aləm sənsən).

Mövlanənin fikrincə, insan ilahi zata malikdir, onun ruhu Allahdan gəlmişdir, buna görə də ilahiləşmək iqtidarındadır, yəni insan kamalı ilə özünün varlığını təsdiq edə və kökündən qüdrətlənə və nəhayətsiz ola bilər. Mövlanə "Məsnəviye-mənəvi"sində bir çox məsələləri Qurana istinad etməklə bəyan edirdi, onun fikrincə, o insan kamil olur ki, o, Allahla əlaqədə olur, bütün işlərində Allahı nəzərə alır. "İnsan-Allahı, onun kamilliyini ən yaxşı, ən mükımməl şəkildə göstərən varlıq və məxluqdur: o öz varlığı ilə məsələnin mahiyyətini çox yaxşı ifadə edir. Allahın gözəl adları onun vücudunda ən yaxşı şəkildə təcəlla edir. Bu təcəlla elə bir şəkildədir ki, onu müşahidə etmək Allahı müşahidə etməkdir və onun camalı mütləq cəlalı göstərir. O, həzrət haqqın tam təzahürüdür" (5.422-423)

Bir sözlə, onun qənaətincə, maddi olmayan, yəni ilahi keyfiyyətə malik olan haqq adamı Allahın özü kimi sahilsiz dəryadır:

... مرد خدا شاه بود زير دلق مرد خدا گنج بود در خراب
مرد خدا نيست ز باد و ز خاك مرد خدا نيست ز نار و ز آب
مرد خدا بحر بود بيكران مرد خدا بارد دُر بي حساب
مرد خدا عالم از حق بود مرد خدا نيست فقيه از كتاب
مرد خدا زان سوي كفرست و دين مرد خدا را چه خطا و صواب

(Allah adamı dərviş palтarı altında şah idi, Allah adamı yuxuda xəzinə idi, Allah adamı küləkdən və torpaqdan yaranmayıb, Allah adamı oddan və sudan deyildir,Allah adamı sahilsiz dəniz idi, Allah adamı saysız-hesabsız dürr verir, Allah adamı həqq aləmi idi, Allah adamı kitabdan gəlmiş fəqih deyil, Allah adamının küfr və din tərəfindən nə xətası və nə savabı var)

Beləliklə, Allahdan gələn insan öz düşüncə tərzinin inkişafı və təkamülü ilə kamala çata və kamil insan ola bilər. Mövlanənin fikrincə, Quranda gəlmiş ilahi sifətlər kamil insanın təzahürüdür. Buna görə də Allahın əmri ilə mələklər ona səcdə etmişlər. Hər bir ruh öz başlanğıcını Allahdan götürmüşdür və əbədidir. Yaradılışın səbəbi kamil insandır. Kamil insan sonda Allahda fani olur və onun tərkibində əbədi yaşayır.

ز كجا آمده‌اي مي‌داني؟ ز ميان حرم سبحاني
ياد كن هيچ بيادت آيد آن مقامات خوش روحاني ؟
پس فراموش شدستت آنها لاجرم خيره و سرگرداني
جان فروشي بيكي مشتي خاك اين چه بيعست بدين ارزاني ؟!
باز ده خاك و بدان قيمت خود ني غلامي ،ملكي ، سلطاني

(Bilirsənmi, sən haradan gəlmisən? Sən Sübhanın hərəmindən gəlmisən. Xatırla, heç yadına düşürmü, sənin o ruhani məqamların? Bəs onlar unudulmuşdur, şübhəsiz, heyrət və sərgərdanlıq. Bir ovuc torpağa görə canını satırsan, bu, nə ucuz alverdir? Yenə torpağa öz qiymətini ver, nə qulamlıq, nə mülkədarlıq, nə də sultanlıq elə).

O, kamil olmayan insanın əvvəl fəzada bəndəlik etdiyini, sonda yer üzündə mehtər olduğunu bildirirdi. İnsanın içindən eşq günəşinin "qaçmasını" onun heyvani səviyyəyə enməsi kimi təfsir edirdi. Aşiq olan insana müraciət edən Mövlanə deyirdi:

خورشيد عشق لم يزل زان تافتست اندر دلت
كاوّل فزايي بندگي ، واخر نمايي مهتري

(“Ləm yəzəl” eşq günəşi qəlbindən qaçmışdır, əvvəl fəza bəndəliyi edirdin, axırda mehtərlik edirsən).

Bu beytdə biz müəyyən atəşpərəstlik elementlərini də görürük, insanın bətnindən işığın yoxa çıxması zülmətin orada hakim kəsilməsi deməkdir. Bətnindən işıq yoxa çıxan insan heç vaxt kamil insan ola bilməz, deməli, onun Allaha qovuşması da mümkün deyil. “Avesta”nın ən qədim hissələrindən olan Qatların birində deyilir: “...Onlar bu iki gövhər arasında yaxşı ilə pisi düzgün ayırd edə bilmədilər... Buna görə də onlar uğursuz davranışı seçdilər və öz həyatlarını puça çıxardılar” (6.s.6)

Bundan əlavə, yuxarıda haqqında danışdığımız beytlərdə də zərdüşti ehkamları ilə üst-üstə düşən məqamlarla qarşılaşdıq. Məsələn, təsəvvüfün “hər bir ruh öz həyatını Allahda başladığından Allah yanında əbədiyyət qazanır” kəlamı zərdüştiliyin 31-ci qatının 8-ci bəndi ilə demək olar ki, eyni mahiyyəti ifadə edir: “Ey Məzda, mən düşüncəmlə dərk etdim ki, hər şeyin əvvəli də, axırı da sənsən”. (6. 22)

Mövlanə bu dünyanı qeyri-sabit, müvəqqəti sayır, mının əslinə, ibtidasına qayıdacağına inanırdı. O, ölümü başqa bir təvəllüd hesab edir və insanın Allaha qovuşması kimi qəbul eləyirdi. Onun nəzərincə, ruh yoxa çıxmır, fəna deyildir. Mövlanə ruhun Allaha keçməsinə, tənasüx və təcəssümünə inanırdı. Buna görə də başqalarının nəzərində qorxu, faciə kimi görünən ölüm onun şeirlərində həyat kimi təzahür edirdi:

قُلْ تَعالَوْا آيتيست از جذب حق
ما بجذبهٔي حق تعالي مي‌رويم

(“Qal təalv” haqqın cəzbəsi haqqında ayədir, biz haqq təalanın cazibəsinə gedirik).

Deyilənə görə, özü kamil insan nümunəsi olan Mövlanə bu kamilliyi hesabına digər övliyalar kimi kəramətə yiyələnmişdir. Müridləri ibadət, ziyafət, səfər zamanı onun kəramətini görür və heyrətlənirdilər. Əflaki “Münağibül- arifin” kitabında Mövlanənin bir çox kəraməti sadalanmışdır ki, onlardan birini burada qeyd etmək yerinə düşər: “... Şam tərəfdən böyük bir karvan gəldi və xəbər verdilər ki, monqol ordusu Dəməşq şəhərini mühasirəyə alıb. Dedilər ki, 55-ci ildə Hülakü xan zülmlə Bağdadı qılıncdan keçirmiş, xəlifəni öldürmüşdür. 57-ci ildə Şam şəhərinə hərəkət etmiş və Hələbi götürmüşdür. Deyirdilər ki, Kətbuğa ağır ordu ilə Dəməşqə yola düşüb ki, şəhəri mühasirəyə alan orduya kömək etsin. Ancaq Dəməşq əhalisi islam ordusunun müdafiəsinə qalxıb, monqolları əzdi və onları qovub tamamilə səhərdən çıxardı. Ravi xəbər verir ki, bu xəbəri eşidəndə mən də şad olub, tez həzrəti Mövlanənin yanına gəldim ki, Dəməşqdəki vəziyyəti ona deyim. O, məni görən kimi dedi:
“Cəlaləddin,

آن سواري كو سپه راشذ ظفر اهلِ دين را كيست سلطانِ بصر

(O süvari ki, zəfər çalan ordunun qəhrəmanıdır, din əhlinin gözündə kimdir ki, sultan ola) (7.1362).

Həqiqətən Mövlənə məktəbi eşq və nur məktəbidir. Allaha yönələn və Allahı təqdir edən eşq onun üçün hər şeydir, çünki hər şey ona məxsusdur, ondan qeyri bir nəsnə yoxdur: “İki aləmdə yəzdandan başqa kimsə yox”, ona isə rəqs, musiqi, dinləmə yolu ilə çatmaq olar.

قامت عشق صلا زد كه سماع ابديست
جز پي قامت او رقص و هياهوي مكن

(Eşqin qaməti dedi ki, dinləmə əbədidir, onun qamətindən başqa bir şey üçün rəqs etmə və hay-küy salma).

جبريل همي رقصد در عشق جمال حق
عفريت همي رقصد در عشق يكي ديوه

(Cəbrayıl onun camalının eşqi ilə rəqs edər, İfrit bir div sifətlinin eşqi ilə rəqs edər).

Burada yuxarıda vurğuladığımız nur söhbətinin üzərinə qayıdıb onu da əlavə etməliyik ki, bu atribut Mövlanənin kamil insan konsepsiyasının əsas sütunlarındandır. Həm də Mövlanə bu məntiqini Quranı- məcidin ehkamı ilə izah edir: "Allah asimanların və yerin nurudur". Bu mənada nur Mövlanənin fikir məhvərini formalaşdırır, onu böyük işığa qovuşdurur. Mövlanə nur içməyi canın qüdrəti hesab edir. O, həyatı və əbədiyyəti nurla bağlayır, həyatda hər şeyi nurla bitirir; nurla əqidə və təriqətlərə çatır. Mövlanə deyir ki, əgər istəyirsən ki, torpağın altına getməyəsən, nurun içinə qaç, çünki nur torpağın altına getmir. Mövlanənin kamil insan obrazı məhz nur haləsində təzahür edir.

نور از درون هيزم بيرون كشيد آتش
آتش ز خود نيامد منوّر منوّر

(Odunun içindən nur atəş çıxarar, atəş öz-özünə münəvvər olmadı).

سلسلهي عاشقان با تو بگويم كه چيست
آنك مسلسل شود طرّهي دلدار من

(Deyirəm sənin aşiqlərinin silsiləsi nədir ki, mənim dilddarımın bir türrə buruq saçına dəyməz).

Göründüyü ki, Mövlanə təkcə kamil insan konsepsiyasını irəli sürmür, həm də həyatda buna nail olmağın mükəmməl yolunu nişan verirdi. Onun fikrincə, ali məxluq olan insan ilahi potensiala malik idi və o, kamilləşməklə məxluqdan xaliqə çevrilə bilərdi. Bu, təkcə islam fəlsəfəsində deyil, ümumbəşər düşüncəsində ciddi bir inqilab idi.

Ədəbiyyat

1. Yaqub Babayev, Təriqət ədəbiyyatı: Sufizm, Hürufizm, Bakı. «Nurlan»2007, s.10
2. Quran, Bakı, Azərnəşr, 1992, tərcümə edənləri: Ziya Bunyadov, Vasim Məmmədəliyev
3. http://wap.ixlas.az/sea/files/Kitablar/PDF%20kitablar/Kamil_insan.pdf
4. İbn əl-Ərəbi, "Füsus əl-hikəm"
5. Abdullah Cəvadi Ameli, "Şəmimi-vilayət", Əsra, 1394, s. 422-423
6. Avesta, Bakı, Azərnəşr, 1995, farscadan tərcümə edəni İsmayıl Şəms
7. Əflaki Şəmsəddin Əhməd, "Münağib-ül arifin", tərtibçi Təhsin Yazıçı, iki cild, Tehran, "Kitab dünyası", 2-ci çap, s. 1362
8. Mövləvi Mövlanə Cəlaləddin Məhəmməd, "Şəms külliyyatı", tərtib edəni ustad Bədiiüz- zəman Foruzanfər, Tehran, Əmir Kəbir nəşriyyatı, ş.1367
9. Movlana Cəlaləddin Məhəmməd,"Məsnəviye-mənəvi", (bər əsase-nosxeyi-təshih şodeye-Reynold Nikolson ba moqəddimeyi-ostad Bədiüzzəman Foruzanfər, Enteşartate-Əmir, Mostəuian, Tehran, 1378.

Паша Керимов, доктор филологических наук
Ибрагим Гулиев, доктор философии по филологии

Образ совершенного человека в классических воззрениях

Резюме

Данная статья посвящена исследованию древних философских течений и различных религиозных убеждений о духовном совершенствовании человека, а также суфийской сути великой поэзии Джалаладдина Руми, призванной претворить эту идею в жизнь. Авторы статьи отмечают, что основные воззрения поэта-мыслителя, основанные на любви и свете, а также его убеждения о духовном совершенствовании человека не потеряли актуальность для человечества и в наши дни.

Image of the Perfect Human in the Classical Views

Summary

This article dedicated to the ancient philosophical movements and different religious beliefs about the spiritual improvement of the human and the essence of the great Jalal ad-din Rumi's Sufi poetry designed to put this idea into life. The authors of the article note that the main beliefs of the poet-philosopher based on the love and the light, and today his beliefs about the spiritual improvement of the human not lost relevance to mankind.

SİRACƏDDİN HACI
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
siraceddin-haci@rambler.ru

NİZAMİ GƏNCƏVİNİN "SİRLƏR XƏZİNƏSİ" POEMASI RƏHMƏT EVİ TİKMƏYİN PROQRAMIDIR

Açar sözlər: *Nizami, "Sirlər xəzinəsi", "Rəhmət evi", insan, simvol, dəyər*
Ключевые слова: *Низами, «Сокровищница тайн», «Дом благодати», человек, символ, ценность*
Key words: *Nizami, "The treasure of mysteries", "Paradise", human, symbol, value*

Nizaminin hədəfini açıqlayan ən önəmli anlayışlardan biri "Rəhmət evi"dir. Bu anlayış ona aiddir. O niyyət etdi, istədi, çalışdı, varlığını adadı ki, yer üzündə ilahi nizama uyğun bir Rəhmət evi (sevgi, barış, şəfqət, mərhəmət, ədalət dünyası) tikilsin. Təsadüfi deyil ki, şair təxəllüs olaraq "Nizami" sözünü seçmişdir. Nizami ilahi nizama aid olan deməkdir. O, Nizami təxəllüsünü seçməklə, əslində, uca Allaha söz vermişdir: mən Sənə aidəm, Allahım, varlığımı sənə həsr etmişəm, sənin nizamından kənara çıxmaram, ömrüm Yer üzündə ilahi nizamın hakim olduğu Rəhmət evinin qurulmasına fəda olacaq.

Rəhmət evi tikməyin ilk şərti də iman insanı tərbiyə etməkdir. Bu məqsədin gerçəkləşməsi üçün insanın ağıl, qəlb, iradə və vicdanını ilahi dəyərlərlə inşa edən əsərlər yazmaq zəruridir. "Sirlər xəzinəsi" dastanı (Nizaminin bütün dastanları) insanı insan edən ilahi dəyərləri təbliğ etmək üçün yazılmışdır. Şair deyir ki, dəyər olmadan iman insanı yetişdirmək mümkün deyil. O, ilk dastanının adını "Sirlər xəzinəsi" qoyur. Bu adda iki söz var: "Sirr" və "xəzinə". "Sirr" sözünün lüğəvi mənası "gizli", "bilinməyən", "örtülü" deməkdir. "Sirr" irfanın ən önəmli anlayışlarından biridir. İrfan məktəbinin (sezgi bilgi sisteminin, duyğuya bağlı öyrənmə məktəbinin) təmsilçilərinə (ariflərə) görə, "sirr" uca Allahla qul arasında gizli qalan hallardır. "Sirr" ruh kimi qəlibə qoyulmuş lətif (incə) bir şeydir, ancaq ondan fərqlidir, daha safdır. Ruhlar sevgi məhəlli, qəlblər mərifət məhəlli, sirlər müşahidə məhəllidir. Sirrin sirri də var ki, onu ancaq uca Allah bilir. İrfan əhli deyir ki, azad insanın (nəfsinin istəklərindən sıyrılmış, onu nəzarətə götürmüş, uca Allaha təslim olmuş insanın) könlü sirlər məzarıdır. Sirdə önəmli olan sevgi və dostluq halını gizli tutmaqdır. Onlar sirri yeddi yerə ayırırlar: "Sirri-Haqq" – uca Allahdan başqasının bilmədiyi sirr, "Sirri-xalq" – Haqq ilə qul arasında olan sirr, "Sirri-hal" – Haqqın muradının bilindiyi sirr, "Sirri-həqiqət" – uca Allahın əşyanın içinə qoyduğu həqiqət, elm, "Sirri-elm"- elmin həqiqəti və mahiyyəti, "Sirri-qədər" – qədərin sirri, "Sirri-təriqət" – təriqətin sirri, müridin bütün hallarını sadəcə mürşidinə söyləməsi. İrfan əhli deyir ki, sirr, gizli məna, həqiqətin bilinməsi, elm təslimiyyətə, qəlbin mənəvi kirlərdən arınmasına, nəfsə hakim olmağa bağlıdır, kəşf, sezgi, duyğu yolu ilə öyrənilir.

Nizaminin "Sirlər xəzinəsi" dastanındakı "sirr" sözü mənanı, dəyəri, həqiqəti, elmi ifadə edir. Şair "sirr" sözünü "xəzinə" sözü ilə birgə işlədir, ona yeni anlamlar qazandırır, gizlilik, çoxluq, dəyər, xeyir mənaları yükləyir. "Sirlər xəzinəsi" qəlibi maraq yaradır, cəlb edir, axtarışa yönəldir, əməyin, ürək və alın tərinin önəmini göstərir,

axtaran tapar deyir, insana mesaj verir ki, o xəzinədə çox önəmli nemətlər var, onun qapısını zəhmətlə, sevgi, iman və elmlə açа bilərsən. Düşün, ağlını çalışdır, qəlbini təmizlə, nəfsini idarə et, ilahi iradəyə təslim ol, şeytandan qorun ki, o "Sirlər xəzinəsi"nin mənalarını tapa, görə, anlaya biləsən, xəzinədən həyatına daşıyasan. Bu mənalar səni diriltsin, ehya və inşa etsin, saleh əməllərə yönəlsin, xeyiri çoxaltsın, gözəlliyi artırsın, Yer üzündə Rəhmət evi tikəcək mücahidlər, iman insanları yetişdirsin.

Nizami deyir ki, "Sirlər xəzinəsi"nin ideyaları sirrə, bədii örtüyə, rəmzlərə bürünmüşdür, sən onların üzərindəki pərdəni qaldır, gizli mənaları gör, sözdən mənaya, mənadan məqsədə, məqsəddən hikmətə doğru get, görünəndən görünməyənə səfər et.

Nizami "Sirlər xəzinəsi" dastanında insanı tövhid inancına və ədalətə bağlayan dəyərləri təbliğ edir, deyir ki, insanı ilahi həqiqətlərə bağlı dəyərlərlə tərbiyə etmək olar, insan və vəhy toxum və torpaq kimidir, insanı vəhy torpağında əkməsən, bitməz, insan olmaz. Dəyərin də bir sıra özəllikləri var. Dəyər insanın, toplumun yaradılış fitrətini qoruyur, dəyər bəlli bir zamana, bəlli bir qrupa aid ola bilməz, o, insanlığın ortaq sərvətidir. Dəyər dəyişdirir, tərbiyə edir, o, yeni, təzə, müsbət olmağın təminatıdır. Dəyər fərqləndirir, seçir, doğru ilə yanlışı bir-birindən ayırır. Dəyər sevgi yaradır, onu çoxaldır, insanları bir-birinə sevgi ilə bağlayır. Dəyər həm də yox edir, yox edir ki, var olsun, savaşı yox edir ki, barış olsun, pisliyi yox edir ki, yaxşılıq olsun, küfrü yox edir ki, iman olsun...

Dəyərlər təqdim etməsi Nizaminin hər zaman bir ehtiyac olmasının, insanlıq üçün ana südünə çevrilməsinin, müasirliyinin səbəbidir. Nizami "Sirlər xəzinəsi" dastanında insanlara bu dəyərləri təqdim edir:

Uca Allah hər şeyi mənalı və məqsədli yaradıb;
Uca Allaha təslim olmayan azad olmaz;
Azad olmayanın dəyəri olmaz;
Dəyəri olmayanın dəyəri olmaz;
Kainat Ona səcdəyə köklənmişdir;
İnsanın dəyəri uca Allaha təslim olduğu qədərdir;
Zəhmətsiz rəhmət yoxdur;
İnsanın qədəri seçiminə və əməyinə bağlıdır;
Saleh əməl qədəri dəyişdirər;
Saleh əməllərin varsa, ölümdən qorxma, o, səni sevdiyinə qovuşdurar;
Dəyişimin, yenidən diriliş və islahın ilk şərti tövbədir;
İnsanı acılar tərbiyə edər;
Zaman əmanətdir, mülkiyyət deyil;
İman ümiddir, hər gecə bir gündüzə hamilədir;
Hər gecənin qaranlığında bir ümid gizlənib;
Bütün aləmdə əziz olmağın iki şərti var: uca Allah yolunda cihad və Onun yardımı;
Varlığını göz yaşları ilə islat ki, ürəyin çiçək açsın;
Sən uca Allaha qulluq et, ruzi dərdi çəkmə;
Dinin qulu ol, divin qulu olma;
Qəlbinə hakim olan dünyaya soltan olar;
Nəfsini əz ki, qəlbin yumşalsın;
Xidmətdən gözəl əməl yoxdur;
Əməyi olanın dəyəri olar;

Əməksiz təvəkkül yoxdur;
Kəramət halal yaşamaqdır;
Halal yaşamaq igidlikdir;
İnsanları razı sal ki, uca Allah da səndən razı olsun;
Bu dünyada mətbəx odunu olan axirətdə cəhənnəm otu olar;
Axirətə inanmayan bu dünyanın dəyərini bilməz;
Axirət dünyanın ruhudur;
Dövlətin imanı ədalətdir;
Ədalət nurdur;
Ədalət iki dünyanın sərmayəsidir;
Uca Allahın hidayət qanunu var: Ona təslim ol ki, səni doğru yola yönəltsin;
Uca Allahın dəlalət qanunu var: Onu inkar edən azar;
Uca Allahın təsadüf adlı qanunu yoxdur;
Heç bir uğur təsadüf deyil, əməyin, alın və ürək tərinin nəticəsidir;
Kədər şadlığın müjdəçisidir, ondan sonra sevinc gəlir;
Nur azaldıqca kölgə çoxalar;
Köhnə budaqları kəsməsən, yeni budaqlar çıxmaz;
Bir ölkə inancsızlıqla deyil, zülmlə çökər;
Cihadsız azadlıq yoxdur;
Uca Allahla sağlam münasibətin şərti tövhid inancıdır;
İnsanlarla sağlam münasibətin şərti ədalətdir;
Rəhmət qapısının açarı düzlükdür;
İnsan bu dünyada səfərdədir, o, aman verilmiş yolçudur.

Şair "Kitabın yazılmasının səbəbi" adlı bölmənin ilk beytində "Sirlər xəzinəsi"ni "təzə gül" adlandırır (1,47). Bunun mənası odur ki, "Sirlər xəzinəsi" forma və məzmunu ilə yeni bir əsərdir, öncə belə bir əsər yazılmamışdır, o, başqa əsərlərə bənzəməz. Şair özünü də bu "təzə gül"ün "bülbül"ü adlandırır (1,47).

"Bülbül" – Nizami "təzə gülə" – "Sirlər xəzinəsi"nə aşiq olmuşdur. Şair sevgi, aşiq və məşuq simvolu olan gül və bülbül obrazını seçmişdir. Bunun səbəbi əsəri sevgi ilə, insanlara sevgi bəxş etsin deyə, doğru həyat ölçüləri vermək məqsədilə yazdığını bildirmək istəməsidir. O, bu əsərində qaynağı, kökü ilahi vəhyə bağlı olan dəyərləri yeni biçimdə təqdim etmişdir.

Şair bu bölmədə öz sənətkar idealını, xarakterini açıqlamışdır: "Heç kimsədən borc qəbul etməmişəm" (1,47), yəni heç kimin əsərindən istifadə etməmişəm, "Sirlər xəzinəsi" orijinaldır, "təzə gül"dür. "Ürəyim nə deyibsə, onu yazmışam" (1,47), mənim əsərim inandığım, yaşadığım dəyərləri tərənnüm edir. "Bu kitabımda yeni bir şəbədə qurmuşam" (1,47), yəni ölməz dəyərləri yeni biçimdə təqdim etmişəm. "Təzə qəlibdə yeni bir mücəssəmə yaratdım" (1,47). Şair "təzə qəlib" deyərkən "Sirlər xəzinəsi"nin yazıldığı səri bəhrini nəzərdə tutur. Bilindiyi kimi, Nizamidən öncə səri bəhrində (müftəilun, müftəilun, failun) dastan yazılmamışdır. Bu əsər formaca da heç bir əsərə bənzəmir. "(Ona) səhər sifətli bir neçə ədəb öyrətdim" – şair bu misrada iki məsələni təqdim edir. Öncə əsərin yazılma zamanını. O, əsərini dua vaxtı, arınma zamanı, ilahi rəhmətin, bərəkətin mömin qəlbinə yağış kimi yaydığı zamanda yazmışdır. Onun əsərinin ruhu səhər kimi təmizdir, insanları arındırmaq istəyir, uca Allah sevgisini onların qəlbinin soltanı seçməyə can atır. "Sirlər xəzinəsi" Nizaminin insanlığı hidayətə, uca Allahın doğru yoluna, islamın nuruna qovuşdurmaq istəyi ilə etdiyi səhər duasıdır.

"Səhərin sehr pərdəsindən ona don tikdim" (1,47), yəni mənim əsərim səhər kimi təmizdir, insanlara gözəl duyğular, tərbiyə, ədəb, düşüncə verir, onlara yol və ideal göstərir.

Nizamiyə görə, dərvişlik və şahlığın qidası bu əsərdir: "Dərvişlik və şahlığın mayası ondandır" (1,47). Burada şair "dərvişlik" sözünü insan qəlbinin dünya sevgisindən arınması, uca Allah sevgisinin qəlbə yerləşdirilməsi kimi təqdim etmişdir. Yəni "Sirlər xəzinəsi" qəlbi arındırma elminin əsaslarını, ölçülərini vermişdir. Bu əsər "şahlığın da mayasıdır". Şahlıq anlayışı idarəçiliklə bağlıdır. "Sirlər xəzinəsi"ndə doğru, ədalətli idarəçiliyin ölçüləri bunlardır: Haqqa bağlı olmaq, ədalət, ləyaqət (layiq olana vəzifə verilməli), məşvərət (başqalarının rəyini öyrənmək və doğru olanları nəzərə almaq).

Nizami deyir ki, bu əsər "ilahi sirlərin xəzinəsidir" (1,47). Bu kitabın yazılmasının səbəbi uca Allahın peyğəmbərlər vasitəsi ilə insanlara göndərdiyi elmin (kitabın) sirlərini – mənasını, anlamını onlara izah etməkdir. "Sirlər xəzinəsi" Qurani-Kərimin bədii təfsiridir, uca Allahı və Onun mübarək vəhyini insanlara tanıdan kitabdır, həyatı doğru oxumaq və yaşamaq ölçüləridir. Nizami deyir ki, bu əsərdən baxsan, uca Allahın göstərdiklərini görə bilərsən.

Əslində, kitabın yazılmasının səbəbini izah etmək bu kitab necə oxunmalıdır sualına cavab vermək üçündür. "Sirlər xəzinəsi" şüşələri təmiz olan pəncərədir, bu pəncərədən baxan insan həyatı, varlığı doğru görə bilir. Şair deyir ki, "onun şəkərinə milçək qonmamışdır" (1,47). Burada şair "Sirlər xəzinəsi"ni "şəkər" adlandırır. Bu kitabdakı ideya, mövzu və obrazlar Nizamidən öncə heç bir şairdə yoxdur, bu kitab ilkdir, təzədir, təmizdir, milçək qonmamış "şəkər" kimidir. Nizami özünü də "arı" adlandırır. O, beytləri məna bağı ilə bir-birinə bağlayır, oxucuya "təzə gül" təqdim edir. Bu gülün bülbülü də var, arısı da. Şair arı obrazı ilə bu əsəri yazarkən çox əziyyət çəkdiyini (arı çox zəhmətkeşdir), insanlara xalis bal verdiyini ifadə edib. Arılar güldən deyil, şəkərdən bal çəkəndə o bal xalis olmur, öz dəyərini itirir. "Onun arısı isə heç kimin şəkərinə bulaşmamışdır", şair orijinal əsər yazmışdır, heç kimdən bir şey götürməmişdir, balına şəkər qatmamışdır. Bal min bir dərdin dərmanı olduğu kimi, "Sirlər xəzinəsi" də mənəvi xəstəliklərin dərmanıdır, şəfa qaynağıdır. O, insanlıq üçün halal mənəvi qidadır.

Şair "Sirlər xəzinəsi"nin təkrarsız bir əsər olduğunu ifadə etmək üçün bu obrazlardan istifadə etmişdir: "təzə gül", "gözəl bağ", "gözəl səsli bülbül", "heç kimdən borc qəbul etməmək", "ürəyin dediyini yazmaq", "təzə qəlib", "yeni bir mücəssəmə", "yeni şəbədə", "səhər sifətli", "səhərin sehr pərdəsindən don", "dərvişliyin mayası", "şahlığın mayası", "ilahi sirlərin xəzinəsi", "şəkər", "arı"...

Nizami bu əsərin orijinallığını göstərmək üçün "bəhr" sözündən istifadə edir: "Nuh bu bəhrdə (dənizdə) öz qalxanını atar (məğlub olar)" (1,47). Burada "bəhr" sözü iki mənada işlədilmişdir: əruzun səri bəhri (Nizamiyədək heç bir şair səri bəhrində dastan yazmamışdır), bu yönü ilə "Sirlər xəzinəsi" orijinaldır, ikincisi, məna dənizi mənasında, yəni "Sirlər xəzinəsi"nin məna dənizi elə böyükdür ki, hz. Nuh da bu dənizdə boğular (Bilindiyi kimi, hz. Nuh uca Allahın buyruğu ilə gəmi düzəldir və tufandan xilas olur. Bu "iman gəmisi" hz. Nuhu və ona inananları ölümün pəncəsindən alır). Bu elə bir məna dənizidir ki, hz. Xızır da orada dolçasını sındırar (hz. Xızır əşyanın, hadisənin arxasındakı hikməti görməsi, bilməsi ilə seçilmişdir, ancaq "Sirlər xəzinəsi"ndə elə hikmətlər var ki, hz. Xızır da onları anlamaqda çətinlik çəkər).

ƏDƏBİYYAT

1. Nizami Gəncəvi, "Sirlər xəzinəsi", (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir), Bakı, Elm, 1981, s. 247.
2. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", I kitab, "Nafta-Press", Bakı, 2006;
3. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", II kitab, "Nafta-Press", Bakı, 2008;
4. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", III kitab, "Nafta-Press", Bakı, 2009;
5. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", IV kitab, "Nafta-Press", Bakı, 2010;
6. *Hacı S.* "Həzrət Nizami Gəncəviyə görə, insan qəlbinin həqiqətləri", V kitab, "Nafta-Press", Bakı, 2012;
7. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı ilk dörd məqalənin şərhi" VI kitab, "Nafta-Press", Bakı, 2013;
8. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı V-IX məqalələrin şərhi" VII kitab, "Nafta-Press", Bakı, 2014;
9. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanın şərhi (X-XIII məqalələr)" VIII kitab, "Nafta-Press", Bakı, 2015.
10. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" insanlığın ana yasasıdır", "Nurlar", Bakı, 2015.

Sirajeddin Haji

THE EPOS "THE TREASURE OF MYSTERIES" BY NIZAMI GANJAVI IS A PROGRAM OF BUILDING THE PARADISE

SUMMARY

In the article the writing reasons of the epos "The treasure of mysteries" by Nizami Ganjavi are explained. The author notes that this epos is original, it has been written in order to introduce the truth to the human. Nizami Ganjavi says that the duty of the human is to build the paradise on the Earth. That is why it is necessary to educate the human who tries to build that paradise. The education of the human is possible with the values.

Сираджеддин Гаджи

ПОЭМА «СОКРОВИЩНИЦА ТАЙН» ПРОГРАММА СТРОЕНИЯ ДОМА БЛАГОДАТИ

РЕЗЮМЕ

В статье анализируются причины создания поэмы «Сокровищница тайн» Низами Гянджеви. Автор отмечает, что это произведение оригинальное, написано с целью ознакомления человека с правдой. Низами считает, что обязанность человека построить «Дом Благодати» на земле. По этой же причине необходимо воспитать человека строящего этот дом. А воспитание человека возможна с ценностями.

Rəyçi: f.ü.f.d., dos. Leyli Əliyeva

BƏXTİYAR ƏSGƏROV
Filologiya üzrə fəlsəfə doktoru

POSTMODERN BƏDİİ NƏSRİNDƏ GERÇƏKLİK VƏ PARALEL TARİX

Açar sözlər: *postmodernizm, bədii nəsr, tarixilik, paralel tarix, bədii gerçəklik*
Ключевые слова: *Posmodernizm, художественная проза, историчность, параллельно истории, художественная реальность*
Key words: *Modernism, artistic prose, history, parallel history, artistic reality*

Tarixə zaman-zaman bədii düşüncədə yeni baxış ifadə olunmuş, bununla da tarixlə bugünün və gələcəyin üçbucağı yaranmışdır. Lakin hər zamanın da tarixə öz baxış bucağı olmuşdur ki, bu baxışlar bəzən hər hansı bir "izm"ə gətirib çıxarmışdır. XX yüzildə ideoloji basqılara məruz qalan bədii ədəbiyyat, həm də dünya mədəni, ədəbi, kulturoloji hadisəsi olan postmodernizm hadisəsi ilə qarşılaşmışdır. İdeolojilər tərəfindən saxtalaşdırılan tarixlərin yenidən işlənməsi və yeni tarixin yazılması məsələsi də zaman-zaman öz aktuallığını qoruyub saxlamışdır. Bu mənada ötən yüzilin başında baş verən tarixi-ictimai hadislərlə sonundakı hadisələr arasında xeyli fərqli cəhətlər də yox deyildir. Sosrealizmin ilk mərhələsində tarix və sənətkar, tarixə yazıçı münasibəti tənəzzül mərhələsindən əsaslı şəkildə fərqlənir. Realizm və postmodernizmin isə keçmişə, tarixə öz münasibəti vardır. Bütün bunlar bir yüzillikdə tarix konseptinə fərqli baxışları və tarixin müxtəlif aspektlərdən təsvir edilməsini şərtləndirmişdir.

Azərbaycan ədəbiyyatında XX əsrin sonlarında və yeni yüzilin başlanğıcında təzahür edən postmodernizm yalnız hadisələrə yanaşma tərzi ilə deyil, tarix konsepti ilə də fərqlənmiş oldu. Postmodern estetikanın getdikcə bədii düşüncəmizdə özünə yer etməsindən sonra keçmiş hadiəsələrə münasibətində müəyyən dəyişikliklərin olması onun haqqında birmənalı düşünməyə əsas vermir. Əlbəttə, postmodern konsepsiyada mətn hər şeydən əsasdır; mətnin dekonstruksiyası müəllifə imkan verir ki, tarixi informasiya üzərində müəyyən "əməliyyatlar" apararaq dah geniş və fərqli rakurslardan baxa bilsin. Bütün hallarda keçmişi nəzərə almamaq, onun təsir dairəsindən yan keçmək heç zaman mümkün olmur. Bu mənada keçmiş daim bizim düşüncələrimizə hakim kəsildiyi kimi, həyatımıza da müdaxilə edir, hisslərimizi və düşüncələrimizi istədiyi kimi dəyişdirir. Tarix və keçmiş haqqında yazılan postmodernist romanlarda bunu daha aydın görmək olar. Nəzəriyyəçi-alim Qorxmaz Quliyev postmodernistlərin tarixi hadisələrə münasibətini çox doğru olaraq belə ifadə edir: "...postmodernistlərin fikrincə, tarix təbiətləri etibarilə yayğın, bir-birilə əlaqəsi olmayan dağınıq hadisələri bir araya gətirməyə və onları süni şəkildə bir-birinə calamağa cəhd göstərən mifdən başqa bir şey deyildir. Bədii fikir sahəsində isə roman analoji funksiyanı yerinə yetirir və bir növ tarixin gerçəkliyin bütün hadisələri arasında məntiqi bağlılıq olması haqqında illüziyasını bədii obrazlar vasitəsilə əsaslandırmağa çalışır" (1, 178).

Ədəbiyyatşünas J.Bodriyarın "tarix əsri eyni zamanda roman əsri" kimi göstərməsindən belə bir nəticəyə gəlmək olur ki, tarixi prosesin hər hansı bir zaman kəsiyindən imtina etmək olmaz, nəinki ona başqa bir rakursdan baxmaq. Yəni postmodernizm də keçmişdən total imtinaya çağırmır, ənənəvi baxış bucağlndan imtina edərək yeni baxış sərgiləməyə çalışır. Postmodernstlər tarixilik ideyasını təkcə zamanın

xəttilik prinsipinin təsdiqi hesab etmir, həm də zamanın vahid tarixi məntiqə malik olmaq ideyasını dəstəkləyirlər.

Müasir intellektual fikrinin tanınmış nümayəndələrindən olan Hans-Ukrix Humbrext də "tarixin özünü özlüyündə tarixl dəyişik salındığı iddiasınsdadır (2, 203). Keçmişin təcrübəsi əsasında gələcəyin mümkün variantlarını öyrənməyin yollarını arayan tədqiqatçı yazır: "...**tarixilik xronotopunda Keçmiş, "Tarix" sayılmasından ötrü sırf biliyə çevrilməlidir (Seçmə müəllifindir-B.Ə.)**. Tarixilik tərəfdarları hadisələr barədə canlı şahid ifadələrini qiymətləndirsələr də, şahidlərin özünü nə həmkar kimi, nə də əleyhdar kimi qəbul etmirlər...Tarixilik tərəfdarlarına görə-Tarix, yaxud Keçmişin təcrübəsi olmaqdan ötrü varlığın izləri ideyalara, yaxud da rəqəmlərə çevrilməlidir" (2, 205).

Məlumdur ki, tarixşünaslıq durmadan yeniləşdiyi kimi, tarix özü də yerində durmur, daim ona yeni münasibətlər və qiymətlər üzə çıxır. Bu mənada müstəqilli dövründə üzə çıxan postmodernist romanlarda tarix konsepti yeni dəyərlər kəsb edir. xüsusilə karksist ideologiyanın təsiri və təzyiqi altında yazılmış milli tarix konsepti həm elmi, həm də bədii düşüncədə yenidən işlənməni zəruri edir. Burada tarixilik çərçivəsində alternativ tarix variantları üzə çıxır ki, postmodernistlər bu düşüncədən istifadə etməyə çalışırlar: "tarixilik çərçivəsində asanlıqla alternativ tarix variantlarını düşünə bilməyimiz, bəlkə də elə ondandır ki, biz yavaş-yavaş, tədricən Tarixiliyi mümkün edən və onun vasitəsilə dəgörünməmiş səviyyədə institutuonal ifadəyə imkan vermiş xronotopu tərk etməkdəyik (2, 206).

İ.Hüseynovun sovet dövründə yazdığı əsərlərdən imtinası və "İdeal", "Əbədiyyət" romanlarında tarixə yenidən baxış, "Qəbristan", "Həyatımdan səhifələr" romanlarında tarixi hadisələrə magik realizm prizmasından baxış başlıca yer tutursa, K.Abdullanın "Yarımçıq əlyazma" romanı postmodernizmlə tarixin kəsişməsini təmin etmiş olur. Postmodernist düşüncədə tarixə münasibət və tarixi gerçəklik ənənəvi şəkildə deyil, yeni meyarlarla müəyyənləşir. Burada yazıçı tarixdən götürdüyü hadisələrə, süjet xətləri və şəxsiyyətlərə münasibətində fərqli yanaşmalar sərgiləyir. Yəni Kamal Abdullanın "Yarımçıq əlyazma" romanında tarixi gerçəkliyə yazıçı münasibətinin özündə postmodern düşüncə yerləşir. Tarixi mövzuya postmodernist münasibət İlqar Fəhminin "Qarğa yuvası" romanında janrın inkişafını şərtləndirən amillərdəndir.

K.Abdulla keçmişi yenidən dərk etmək və dəyərləndirmək anlayışı ilə "Yarımçıq əlyazma" romanında hadisələri, süjet xətlərini və obrazları tarixləşdirməyə çalışır. O, tarixə statik yanaşmır, onu muzey statusunda görmür, yeni konsepsiya və düşüncə prizmasından baxır. Görünür, buna görədir ki, ilk təpki də məhz yazıçının keçmişə baxıçşına aid oldu. Ümumiyyətlə, son dövrlərdə "yarımçıq əlyazma" romanın haqqında ən çox yazılan, tənqid və təqdir olunan romanlardandır. Romana olunan tənqidlərin əksəriyyəti yazıçının keçmişə münasibətindən irəli gəlir. Maraqlıdır ki, əgər roman yeni yazılarkən yazıçının keçmişə münasibətində tənqidçilər daha dözümsüz mövqe nümayiş etdirirdilərsə də, sonralar bu mövqedə olanların böyük bir qismi mövqeyini yumşaltmalı oldular. Bu, ona görə belə oldu ki, postmodernizm estetikası bizim ictimai, ədəbi fikrimizdə oturduqca ona münasibət də dəyişməyə doğru getdi və nəticədə romanın postmodernist konsepsiyaya uyğun olaraq qiymət verilməsi tendensiyasına üstünlük verildi. Bir çox tədqiqatlarda isə müəllif romanı dəyərləndirmədə tənqidlə təqdiri yanaşı verə biir. Romanın ilk opponentlərindən olan yazıçı Anar K.Abdullanın bu romanını

yüksək dəyərləndirməsinə rəğmən, razılaşmadığı məqamları da açıq şəkildə bildirirdi. Məlumdur ki, Anarın yaradıcılığında "Dədə Qorqud" filmi başlıca yer tutduğundan romandakı dastan obrazları və süjet xəttinin dəyişdirilməsi ilə heç cür razılaşa bilmirdi. Yazıçı romandakı Dədə Qorqud da daxil olmaqla, bir çox obrazların yeni təqdimadta təsvir edilməsindən razı qalmadığından bir az da kəskinliklə bildirirdi: "Bir sözlə, Kamal Abdulla anti-"Kitabi Dədə Qorqud" yaratmağı qarşısına məqsəd qoymasa da, buna bənzər bir şey alınıb. Bəlkə də dəqiq ifadə işlətmədim. Anti-"Kitabi Dədə Qorqud" yaratmağa yox, epik dastan qəhrəmanlarının məişət antipodlarını təsvir etməyə çalışıb, amma həmin antipodlara məlum dastan personajlarının adlarını verib" (3).

Aydın məsələdir ki, "Yarımçıq əlyazma" romanının əsasında Kitabi Dədə Qorqud və şah İsmayıl Xətainin həyatı və yaradıcılığı ilə bağlı səhifələr təşkil edir. Yazıçı Anar isə tariximizin bu iki səhifəsinin yeni şəkli ilə razılaşa bilmir; Dədə Qorqudun az qala yağı casusu sifətində təqdim edilməsi, özünün kinofilm qəhrəmanı Beyrəyi qorxaq, yaltaq, qeybətcil və fərari kimi verməsi ilə razılaşa bilmir. Üstəlik Oğuzdakı bütün hadisələri-dastanda yerli-dibli olmayan bir motivlə-qəhrəmanların məhəbbət macəralarıyla bağlamağa da heç cür lüzum görmürdü. Lakin K.Abdullanın "Yarımçıq əlyazma" romanı yeni bir əsərdir, "Kitabi Dədə Qorqud" deyil. Şah İsmayıl Xətai ilə bağlı olan hadisələr də yazıçının xalq düşüncəsində yer alan variantlarına müraciət edilir. Əslində K.Abdulla bir alim, yazıçı kimi bunları yaxşı bilir, xalqın təfəkküründə minilliklərdi yol gələn inancları, obrazları, süjet xətlərini yeni variantda təqdim etməyi üstün tutur. Dastanı mükəmməl şəkildə tədqiq edərək onun tədqiqatçısına çevrilən K.Abdulla bu zəngin və möhtşəm abidəyə yni rakursdan baxır. Əsərin özünün strukturundakı şərtilik və tarixilik əsəri ənənəvi tarixi roman olmaqdan istisna edir. Müəllifin romanı Milli Əlyazmalar İnstitutunda tapılan qədim əlyazma nüsxəsi kimi qələmə verməsi romanın tarixi məcrada davam etməsinə bizi inandırır. Romanın süjet xətti yalnız bir zamanda və məkanda deyil, üç zaman və məkanda təsvir edilməsi postmodernizmin estetikasına uyğundur. Yazıçı əsərin "Ön söz, yaxud natamamlığın bütövlüyü" adlı ön sözündə romanın haqqında danışılan əlyazması ilə bağlı fikirləri oxucunu da burada yazılanlara hazırlayır: "İkinci, paralel adlandırdığımız o qat Azərbaycan və İran hökmdarı şah İsmayıl Xətainin həyatı ilə bağlıdır və özü-özlüyündə bitkin bir həyat nöqtəsinin və ya parçasının (?) təsvirinə həsr olunub. tamamilə ağlasığmaz mətləblərin qələmə alınmasıdır. daha çox tarixi yox, bədii rəvayəti xatırladır. Dədə Qorqud-Şah İsmayıl, Şah İsmayıl-Dədə qorqud. Bu iki mətləb, əlbəttə ki, onu demək vacibdir ki, qeyri-bərabər şəkildə (Dədə Qorqudla bağlı hissə həcminə görə daha böyükdür) qurulmuşdur. Bu mətnlərin hər biri öz "dilində" danışsa da, amma yenə elə bil ki, bir-birini əməlli-başlı izləyir və tamamlayır" (4, 12).

K.Abdulla "Yarımçıq əlyazma"da mətn içində mətn yerləşdirir; maraqlıdır ki, bu mətnlər bir-birindən dil və üslub baxımından fərqlənir. Müəllif gah XI əsrə aid olan mətnə keçir, gah da XV əsrə, yaxud müasir dövrə keçir. Əlbəttə, qədim əlyazma kimi verdiyi hadisələrdə "Kitabi Dədə Qorqud" leksikasından yararlanır, hətta burada Anadolu türkcəsindən də istifadə edir.

"Yarımçıq əlyazma"dakı obrazlar yüzillərdi xalqın yaddaşında kök salmış adlarla adlansa da, yeni baxışdır. Burada hər bir obrazın vəzifəsi var ki, bunlar tanıdığımız obrazlar deyil. Dastandan tanıdığımız Dədə Qorqudun romandakı vəzifəsi Oğuz cəmiyyətində özünə yer eləmiş ilk istintaq prosesinin yeganə katibidir. Romanın Dədə qorqudla bağlı yerləri əslində Oğuz cəmiyyətinin istintaqına həsr olunmuşdur.

Akademik Tofik Hacıyev romanın bu cəhətini qeyd edərək yazır: "Və beləliklə, bütövlükdə roman Oğuz cəmiyyətinin istintaqına həsr olunur. Həm də ancaq Oğuz cəmiyyətininmi? Elə olsa, onda bu roman yox, konkret tarixşünaslıq aktı olardı. Romanın və bütöv bədii ədəbiyyatın sözü bütün tarixə, bütün zamanlara və bütün cəmiyyətlərə aiddir" (5).

Yazıçı dastandakı hadisələri bir qədər komikləşdirməklə postmodernizmin ironiya üsulundan istifadə edir; casus motivini və bir çox hadisələri komik şəkildə verir. Mətnin bu hissəsinin konfliktinin mərkəzində ictimai istintaqın komikliyi durur. Bu istintaqla əslində Bayandır xan mövcud cəmiyyətin obyektiv idarəolunmasına işarə etmiş olur. Romanda Bayandır xan, Qazan xan və başqa obrazlar da yeni təqdimatda verilir. Bu cəhətdən Bayandır xan tamamilə yeni bir rakursda təqdim edilir; əslində dastanda o qədər də nəzərə çarpmayan, görünməyən Bayandır xan burada ön mövqedədir. Daha doğrusu, K.abdulla cəsarətlə Bayandır xanı hadisələrin mərkəzinə gətirərək onun statusuna (xaqan) uyğun təsvir edir. Çünki türk dövlətçilik tarixində xaqanın statusu çox böyükdür, dastanda isə onun böyüklüyü, funksionallığı o qədər də hiss edilmir. Qədim türk dövlətçiliyində tətbiq olunan ikimərtəbəli idarəçidən biri Bayandır xan, digəri isə Qazan xandır. Buna görə də K.Abdullanın onu ön mövqeyə çıxarması qanunauyğundur. Romanda bayandır xan ən yüksəkdə duran, əmrlər verən, ölkəni yönətən və onu ideoloji cəhətdən yönləndirən bir rəhbər kimi göstərilir.

ƏDƏBİYYAT

1. Quliyev Q. Postmodernizm. "Azərbaycan", 2005, N9, s. 172-183;
2. Hans-Ulrix H. "Müasir tarix" dəyişən xronotopun indisində. "Tənqid.net", 2008, N5, s. 203-209
3. Anar. Kədərli və işıqlı seçmələr. "Ədəbiyyat qəzeti", 2004, 20 avqust
4. Abdulla K. Yarımçıq əlyazma. Bakı, XX1 "YNE", 2004, 288 s.
5. Hacıyev T. Yarımçıq əlyazma və ya tamamlanmamış süjet, yaxud davamı gözlənən roman haqqında. "525-ci qəzet", 2004, 14 sentyabr

BAKHTIYAR ASGEROV

REALITY AND PARALLEL HISTORY IN POSTMODERN FICTIONAL PROSE

SUMMARY

The study on the Azerbaijan postmodern novels of the independence period shows that postmodernism had different view on historical events and figures. The creativity of writers K.Abdulla, I. Fahmi, Parviz and others are addressed and approaches of postmodernism in various works are studied. Referring to postmodernism theory, there is a thought forwarded that, the writer is free to approach historical events and figures in history novels even try to create a parallel history.

ПОСТМОДЕРН ХУДОЖЕСТВЕННОЙ ПРОЗЫ ПАРАЛЛЕЛЬНАЯ РЕАЛЬНОСТЬ И ИСТОРИЯ

РЕЗЮМЕ

Постмодернистские романы период независимость статье говорится, что отличились возможности постмодернический исторических событий и личностей. Писатели К. Абдулла, И. Фахми, Парвиз и другие прибегают к творческих работ и индивидуальных подходов постмодернизма взгляд на историю показывает что постмодернистический теория осуществляется на основании того, что такая идея, постмодернистский автор исторических романов, движущейся более свободно в отношении исторических событий и личностей, и даже параллельные усилия делаются на сегодняшний день.

NƏRMİN ƏLİYEVA
AMEA Nizami Gəncəvi adına Milli
Azərbaycan Ədəbiyyatı Muzeyi
narminbdu@gmail.com

ŞƏHRİYAR POEZİYASINDA İRFANİ DÜŞÜNCƏLƏR

Açar sözlər: *Şəhriyar fəlsəfəsi, irfani düşüncələr, ilahi eşq*
Ключевые слова: *философия Шахрияра, просветительские мысли, божественная любовь.*
Key words : *Shahriyar's philosophy, educational thoughts, divine love*

Şərq poeziyasının qüdrətli qələm sahibi olan, görkəmli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar dövrünün mütəfəkkir şairi olmuşdur. Bütün dünya xalqlarına səadət arzulayan sənətkarın yaradıcılığı humanist fəlsəfəsi ilə tanınır. Şəhriyar vətənini, ana dilini sonsuz bir məhəbbətlə sevmiş, əsərləri ilə xalqının milli varlığı, heysiyyəti uğrunda yorulmaz mübarizə aparmışdır. Lakin bununla bərabər o, fars xalqına da, bütün başqa xalqlara da hörmətlə yanaşmış, bütün bəşəriyyətə xoşbəxt gələcəyə layiq insanlar birliyi kimi baxmışdır. Şəhriyar irsinin tədqiqatçısı Elman Quliyev şairin humanist fəlsəfəsi barədə deyir: "Şəhriyar yaradıcılığında insan kainatla vəhdət prosesində götürülür. Bu halın daxili mahiyyətinin böyüklüyü ondadır ki, Şəhriyar sənətində proses adi yox, İnsan-Kainat-Vətən fəlsəfi dərinliyində bədii əksini tapır. Bu əqidəyə daxili inam və sədaqət Şəhriyar poeziyasında şübhə doğurmur. Yəni öz xalqına, elinə hədsiz dərəcədə bağlı olan Şəhriyar bütün kainat mövcudluğunu Allah qüdrəti hesab edir. Ona görə də Allahın bərabər, hamı üçün eyni bərqərar etdiyi yer üzünün dilim-dilim sərhəd bölümünü nəinki mənasız, həm də ədalət prinsipinin pozulması kimi qələmə verir, qeyri-bərabərliyin bir mənbəyini də bunda axtarır" (4, s.118-119).

Ədəbiyyatın, poeziyanın əsas vəzifəsini humanizmdə görən şair əsərlərində insanları bütün Yer kürəsinə vahid vətən kimi baxmağa dəvət edir:

Neçün tərlan kimi havalanmayaq
Bütün yer üzünü vətən sanmayaq (6, s.333).

Diqqətlə yanaşdıqda görürük ki, Şəhriyarın humanist fəlsəfəsi Şərq fəlsəfi fikrindən, təsəvvüf, irfan ədəbiyyatından qaynaqlanır. Şəhriyar fəxrlə özünü irfan məktəbinin şagirdi adlandırır:

İrfan kitabxanası kitablarla doludur,
Hafizin şeirindədir məhəbbətdən olan fən (6, s.159).

Təsəvvüfə, vəhdəti-vücud nəzəriyyəsinə görə, Allahdan başqa varlıq yoxdur, bütün mövcüdat Haqqın təcəllisidir. İrfan sahibi, arif yaşaya-yaşaya, mənəvi sınaqlardan keçə-keçə bu vəhdəti dərk edir, onun tərkib hissəsi olur. Şəhriyar irfan fəlsəfəsinə əsasən Şərqin böyük klassikləri Mövlana Cəlaləddin Rumi, Hafiz kimi sənətkarların ədəbi irsi vasitəsilə yiyələnmişdir. Şairə görə, Hafiz sənətinin gücü, qüdrəti irfani mövzulara toxunmasında, Haqqın vəhdətindən danışmasındandır:

İrfan nəğməsi deyir Allah vahidliyindən,
O böyük Xacə Hafiz süsləndirir irfanı (6, s.189).

Ümumiyyətlə, Şəhriyara görə, dünyanı dərk etməyin, bilik əldə etməyin yeganə yolu irfana sahib olmaqdır. Tədqiqatçılar orta əsr mənbələri əsasında bildirirlər ki, "Haqq və həqiqəti tanıma yolu irfan adlanır. Ariflərə görə bəşər öz nəfsini

paklaşdırmaqla, batini işıqlanma və əqli- mənəvi yüksəliş tapmaqla Haqqı tanıya bilər. Ona görə də irfan təkcə əqli-məntiqi dəlillərlə deyil, həm də ruhi kamillik və mənəvi yüksəliş dəyərlərinə sığınaraq həqiqətə qovuşmağı mümkün sayır (3, s.95). Şəhriyar da belə hesab edir ki, dünyanı ancaq irfan biliyi vasitəsilə dərk etmək olar:

Nə bilikdir əxz etdiyinin, onda irfan qüdrəti yox,
Dostum, elə qapı döy ki, dərdinə dəva tapasan (6,s.200).

Şəhriyarın irfani məzmunlu əsərlərindən biri də onun ana dilində yazdığı "Pərvanə və şəm" adlı şeiridir. Altı beytdən ibarət bu qitədə irfani ədəbiyyatda ənənəvi olan pərvanənin şama eşqi yolunda özünü oda vurub qurban verməsindən söhbət gedir. Məlumdur ki, burada pərvanə Yaradana qovuşmaq istəyən aşiqin, şam (onun odu, nuru) isə Yaradanın rəmzidir. Qeyd edək ki, Şəhriyar bu şeirini sadə xalq dilində yazmış, mürəkkəb irfani terminlərə müraciət etməmişdir. Fiziki mənada şamın oduna yanmaq, ilahi eşq mənasında Yaradana qovuşaraq vüsala çatmaq istəyən pərvanə şama yalvarır ki, hicab şüşəsini-lampa şüşəsini ortadan götürsün və o, şamın odunda özünü tezliklə yandıra bilsin. Şam isə cavabında deyir ki, ey eşq iddasında olan, aşiq nə zaman öz istəyinə çatmışdır? Şam pərvanə qədər Yaradana aşiq olduğunu, sonda pərvanəni yandıran şamın özünün də cəzalanacağını, yəni eşqi yolunda yanıb Yaradana qovuşacağını, xəbər verir. Sonuncu beytdə pərvanənin şama eşqi timsalında ilahi eşqdən danışıldığı xüsusi olaraq vurğulanır:

Baxdım ki, şəm söylədi, "Ey eşqə müddəi!
Aşiq haçan olub yetə öz müddəasına?
Bir yari-məhliqadı bizi böylə yandıran,
Səbr eylə, yandıran da çatar öz cəzasına".
Amma bu eşq atəşi ərşidi, candadır,
Qoy yandırıb xodunu yetirsin Xudasına (6, s.73).

Tədqiqatçı Səadət Şıxıyeva bu şeirdəki məcazi, zahiri eşqdən ilahi eşqə keçid barədə söyləyir: "Söz sərrafı Şəhriyarın bu şeirində pərvanə-şəm eşqinin timsalında ilahi vüsala zahiri eşqdən gedilməsi məsələsinə də işarə edilir... Orta əsrlər təsəvvüf ədəbiyyatında, adətən, yaradılmışın ən alisi olan insan zahiri eşqlə kifayətlənməyərək, ilahi eşqə doğru aparan yolu axtarıb tapmağa qadir və kamala yetişmək imkanına malik bir varlıq kimi göstərilir. Şəhriyar isə öz şeirində belə bir yüksəliş halı və təkmilləşmə yolunun tapılmasını pərvanə ilə əlaqələndirir" (7, s.27).

"Yanan pərvanə", "Mənə həmdəm olan ney", "Pərvanən olublar", "Bülbülün naləsi", "Ayın kölgəsi", "Əbədiyyət" kimi farsca yazdığı şeirlərində şair irfani obrazlardan istifadə etmişdir. H.Billuri şairin həyata fəlsəfi, dialektik münasibəti barədə yazır: "Həyat haqqında öz fikir və mülahizələrini qələmə alarkən Şəhriyar böyük humanist kimi çıxış edir. Hər şey gəldi-gedərdi, hər şey dönüb dəyişir, -deyən şair həyat haqqında özünün dərin fəlsəfi, dialektik fikirlərini irəli sürür. Hər şey dönüb dəyişdiyi kimi, insan da dəyişir, qocalır, nəhayət, sıradan çıxır. Bunu çox təbii, real boyalarla verən şair göstərir ki, insandan ancaq yaxşı ad qalır" (2,s.87).

Şəhriyarın "Qardaşım oğlu Huşəngə" adlı poeması həyatın əzəli qanununa-nəsillərin bir-birini əvəz etməsinə həsr edilmiş düşüncələrin bədii ifadəsidir. Təsadüfi deyildir ki, ədəbiyyatşünas alim Q.Beqdeli əsəri "fəlsəfi poema" (1, s.21) adlandırılmışdır. Həyatın sərt qanununa görə, insanın həyatı bir tərəfli hərəkətdən ibarətdir, geriyə yol yoxdur. Faciəli təzad orasındadır ki, dünyaya təzə nəslin gəlməsi, əvvəlki nəslin yavaş-yavaş dünyadan getməsi ilə müşayiət olunur. Bu amansız qanun "Biri ölməsə biri dirilməz" atalar sözü ilə ifadə olunmuşdur.

Poema şairin dünyaya təzə göz açmış qardaşı oğlu Huşənglə söhbət etməsi ilə başlanır. Müəllif uşağın gülməyini, onun saqqalını oyuncaq kimi oynatmağını yeni nəslin öncəki nəslə meydan oxuması, həyat meydanına yenilərinin gəldiyinə görə yaşlıların getməli olduğu zərurətinin vurğulanması kimi mənalandırır:

"Bizimdir növbə" yoxsa söyləyirsən,
"Sənin vaxtın keçibdir" sən deyirsən?
Bu sözdə, doğrusu, var bir həqiqət,
Olur bərbad abadlıqlar nəhayət!
O xaliq ki, səni xəlq eyləyibdir,
Mənə burdan daha çıx söyləyibdir (6, s.101).

Şəhriyar balaca Huşəngi də, həyata yeni gələn nəslin bütün nümayəndələrini də çox sevdiyini, onlara xoşbəxt gələcək arzuladığını bildirir. O, yeni nəslin mütləq həyatda özünə yer tapacağına, əvvəlki nəsli sıxışdırıb meydandan çıxaracağına əmindir. Lakin şair "Mən isə istəməm beylə tez ölmək" deyərək ürəkdə çox arzularının olduğundan, yeni-yeni əsərləri yazıb-yaratmaq eşqi ilə yaşadığından danışır. Müəllif həyatda çəkdiyi əzabları qələminin gücü ilə təsvir etmək istədiyini söyləyir:

Həyat ilə mənim çoxlu işim var,
Könüldə qaynayır arzu-xəyallar...
Ürək istər bahar gəlsin, gül açsın,
Şeir qoşsun o, bülbül tək dil açsın...
Mənə göz yaşları vermiş zəmanə,
Yazam ondan gərək mən bir nişanə, (6, s. 193).

Şair həm də ona görə yaşamaq istəyir ki, ürəyindəki dərdləri, onu narahat edən məsələləri hələ əsərlərində tam əks etdirməmişdir. Poemanın sonu Şəhriyarın qardaşı oğluna, bütün gəncliyə vəsiyyət kimi səslənir. O, yeganə sərvətinin sözdən ibarət olduğunu, əsərlərinin bir sönməz ocaq olduğunu deyir. Xahiş edir ki, ölümündən sonra divanını, setarını da məclisə gətirməklə şairi yad etsinlər. Şəhriyar deyir ki, insan ömrü boyu səadət axtarmalıdır. Səadətə yol göstərən yeganə rəhbər könüldür. Könüldə isə məhəbbət olmalıdır. Bundan başqa, insan heç bir vaxt insanlığı unutmamalıdır.

Şəhriyarın fəlsəfi məzmunlu şeirlərində də onun nikbin sənətkar olduğunu görürük. Həyatda çəkdiyi bütün əzablara, həmvətənlərinin – siravi adamların, zəhmətkeşlərin çətin şəraitdə yaşadıqlarına baxmayaraq şair gələcəyə inamla baxır, çünki həyatı inkişafda, gələcək tərəqqidə görür. H.Billuri bu barədə yazır: "Şəhriyara görə inkişafa, yüksəlişə doğru meyl olan yerdə həyat mənalıdır, əmək şan və şərəf işidir. "Sən həyatın qiymətli daşlarını və mərcanlarını ələ keçirmək istəyirsənsə, həyat dənizində mahir üzücü olmalısan... Həyatın qədr-qiymətini bilən, onu təkamüldə və inkişafda görən Şəhriyar nikbindir" (2, s.77).

1945-ci ilin avqust ayında ABŞ hərbi təyyarələri Yaponiyanın Hirosima və Naqasaki şəhərlərinə yeni icad edilmiş nüvə bombasını atdılar, bir günün içində yüz minlərlə insan məhv oldu. II Dünya müharibəsindən sonra rahat nəfəs almaq istəyən bəşəriyyət yenidən qorxuya düşdü. Mütərəqqi fikirli ziyalılar, alimlər, sənətkarlar dünyanın qüdrətli dövlətlərinin rəhbərlərinə müraciət edərək bütün insanları məhv etməyə qadir olan nüvə silahından istifadəyə son qoymağı tələb etdilər. Nüvə silahı yaradılmasının banilərindən biri olan Albert Eynşteyn bu dəhşətli silahın bəşəriyyət üçün təhlükələrindən ABŞ prezidentini xəbərdar edən kollektiv məktuba imza atdı. Şəhriyarın "Eynşteynə peyğam" şeiri belə bir təhlükəli zamanda yazılmışdı. Əsərdə şair mütərəqqi ziyalıların səsinə səs verir, dünyanı hədələyən nüvə təhlükəsinə qarşı

qüvvələri birləşdirməyə çağırır. Lakin şeirdə əksini tapmış məsələlər bununla bitmir. Yüksək savada, intellektual səviyyəyə malik şair dövrünün həm də dərin fəlsəfi məna daşıyan kəşfini-Eynşteynin nisbilik nəzəriyyəsini şeir dili ilə çox gözəl izah edir, onu Şərq müdriklərinin, irfan sahiblərinin axtarışları ilə əlaqələndirir, elmi-texniki tərəqqidən nələr gözlədiyi, bəşəriyyətin gələcəyə doğru düzgün yolunu necə gördüyü barədə fikirlərini oxucularla bölüşür.

Şeirin əvvəlində şair Şərqin, onun böyük dühalarının, görkəmli elm və sənət adamlarının adından Eynşteyni salamlayır, böyük hörmət və ehtiramını bildirir. Şəhriyar deyir ki, o bu salamı İbn Sinanın vətənindən, Xəyyamın, Hafizin yanından göndərir. O, Şərqin adından "elmin Allahı" adlandırdığı dahi fizik qarşısında diz çökür bu böyük hörmətinin səbəbini izah edir. Məlumdur ki, Eynşteynin nisbilik nəzəriyyəsi sadəcə fizikaya aid olmaqla məhdudlaşa bilməz, bu kəşfin dərin fəlsəfi nəticələri olmuşdur. Nisbilik nəzəriyyəsinə görə, məkan və zamanı bir-birindən ayrı təsəvvür etmək olmaz, enerji ilə maddə biri digərinin dəyişmiş formasıdır. Nəzəriyyənin əsas düsturu budur: $E=m \cdot s^2$. Burada E-enerji,m-kütlə, s isə işıq surətidir. Nəticə aydındır: maddə enerjiyə çevrilir. Şəhriyar burada irfan fəlsəfəsinin təsdiqini görür, çünki irfana görə cism dünyası ruh dünyasının əksidir. Bir sıra Şərq alimləri, filosofları, elmlə dini barışdırmaq istəmişlər. Şair çox sevinir ki, bu ideya, bu işlər dahi Eynşteynin nəzəriyyəsinin köməyi ilə müsbət nəticəsini tapmışdır.

Sən elmi din ilə barışdırmısan,
Dedin: enerjidir maddə əzəldən.
İrfan fəlsəfəsi tükü də seçir,
Bu ulu məktəbin şagirdiyəm mən.
Cism dünyasını ruh dünyasının
Dalğası sayıram, ancaq dalğası (5, s.386).

İndi məlum olur ki, nə üçün müəllif dahi fizikə bütün Şərqin adından minnətdarlıq bildirir. O, Eynşteyni Şərq alimlərinin əsrlərcə gördüyü işin davamçısı saymışdır.

Minnətdarlıq və təbrikdən sonra şair əsas həyəcanını ifadə edir. Eynşteynin elmi nailiyyətlərindən istifadə edərək bütün dünyanı məhv etmək gücünə malik dəhşətli silah yaratmışlar:

Fəqət min əfsus,
Hərif ilhamından, kəşfindən sənin
Bombalar düzəldir.
Dünya qopacaq,
Cahan çıxacaqdır öz məhvərindən (5, s.387).

Şəhriyarın atom bombasının gücü barədə məlumatının dəqiqliyi nəzərə çarpır. Bu silah doğurdan da Yer kürəsinin məhvərindən çıxarmağa qadirdir. Şair alim qarşısında diz çökdüyünü deyir, ondan bu təhlükəni ortadan götürməyi, bəşəriyyəti elmin köməyi ilə daha xoşbəxt gələcəyə aparmağı xahiş edir. Şəhriyar belə hesab edir ki, elmi nailiyyətlər vicdanlı adamların əlində olarsa, milli, dini fərq tanımayan, insanları yalnız qəlbi, elmi ilə dəyərləndirən, məhəbbətə səcdə edən xoşbəxt gələcək qurmaq olar:

Vicdan imperiyası eylə cahanı.
Qoy qəlbi, elmiylə fərqlənsin insan!..
Nə milli fərq olsun,
Nə də irqi fərq.
Din də ayırmasın qoy millətləri,
Məhəbbət yaşatsın ulu bəşəri (5, s.387).

Əlbəttə, Şəhriyar yalnız Eynşteynin dühası, elmi kəşfləri ilə bəşəriyyətin xoşbəxt gələcəyinin təmin ediləcəyinə inanacaq qədər sadəlövh deyildi. "Eynşteynə peyğam"

şeiri şairin bütün oxuculara, bütün dünyaya müraciətidir, onun fəlsəfi düşüncələrinin, gələcək barədə arzularının ifadəsidir. Şəhriyar dahi şair olmaqla yanaşı həm də geniş mütaliə dairəsinə, yüksək savada, intellektual səviyyəyə malik mütəfəkkir olmuşdur. Şairin fəlsəfi məzmunlu əsərləri sübüt edir ki, o Şərq alimləri ilə bərabər Qərbin böyük dühalarının da ideya və nəzəriyyələrini dərindən-dərinə dərk etmiş, bundan çıxış edərək əsərlərində dünyanın, bəşəriyyətin taleyi, gələcəyi barədə fikirlərini ifadə etmişdir.

ƏDƏBİYYAT

1. Beqdeli Q.H.Məhəmmədhüseyn Şəhriyar. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963.
2. Billuri H.Məhəmmədhüseyn Şəhriyar. Bakı: "Elm", 1984.
3. Göyüşov Nəsib. Təsəvvüf anlamları və dərviş rəmzləri. Bakı: "Tural-ə" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2001.
4. Quliyev Elman. Şəhriyar poeziyası və milli təkamül. Filol.elm.dok. ... dis. Bakı, 2004.
5. Şəhriyar Məhəmmədhüseyn. Seçilmiş əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966.
6. Şəhriyar Məhəmmədhüseyn. Seçilmiş əsərləri. Bakı: "Kitab klubu", 2014.
7. Şıxıyeva Səadət. Şəhriyarın "Divani-türki"sində irfani düşüncənin ifadəsi / "Azərbaycan şərqşünaslığı" jurnalı, №2, 2011.

АЛИЕВА НАРМИН

ПРОСВЕТИТЕЛЬСКИЕ МЫСЛИ В ПОЭЗИИ ШАХРИЯРА

РЕЗЮМЕ

В статье под названием «Просветительские мысли в поэзии Шахрияра» находит свое отражение гуманистические воззрения поэта, его просветительство. Произведения поэта, носящие философский характер подтверждают, что единственное познание мира – это знания. Наряду с восточными учеными он глубоко изучал идеи и теории великих ученых Запада, и исходя из этого он излагал в своих произведениях мысли о мире и человечестве.

ALIYEVA NARMIN

EDUCATIONAL THOUGHTS IN SHAHRIYAR'S POETRY

SUMMARY

The article "Educational thought in Shahriyar's poetry" reflects humanistic outlooks of the poet, his enlightment ideas. The works of the poet, which have philosophical content prove that single cognition of the world is in acquiring knowledge. Side by side with oriental sciemtists Shahriyar deeply studied ideas and theory of outstanding philosophers of the West, hence he stated his thoughts about the world and humanity in his works.

Rəyçi: Akademik Rafael Hüseynov

SEVİNC HEYDƏROVA
AMEA Nizami Gəncəvi adına Milli
Azərbaycan Ədəbiyyatı Muzeyi
jsevinj@mail.ru

KLASSİK ƏDƏBİYYATIN ÖYRƏNİLMƏSİ VƏ TƏBLİĞİ

("Ədəbiyyat və incəsənət" qəzetinin 1960-1970-ci illər materialları əsasında)

***Açar sözlər**: "Ədəbiyyat və incəsənət" qəzeti, klassik irs,milli-mənəvi dəyərlər.*

1960-1980-ci illərin tarixi-mədəni kontekstində milli-mənəvi dəyərlərə qayıdışın daha bir ifadəsi klassik irsə münasibətdə görünür. Klassik irs problemi sovet dönəmində başlıca olaraq sinfi məfkurə nöqteyi-nəzərindən çözülürdü. Bu, xüsusən 1930-1950-ci illərin stalinizm epoxasında bir sıra fəsadlar törətmiş, milli mədəniyyəti bütövlüyü və zənginliyi ilə anlamağa əngəl olmuşdu. 1960-cı illərin əvvəllərində də klassikaya sinfi yanaşma prinsipi, klassiklərin yaradıcılığında başlıca olaraq əzilən sinfin, geniş xalq kütlələrinin mənafeyinin axtarılması, sovet ədəbiyyatına xas əmək, xalqlar dostluğu, beynəlmiləlçilik, sinfi mübarizə mövzularına önəm verilməsi "Ədəbiyyat və incəsənət" qəzetinin materiallarından da aydın duyulmaqdadır. İstər klassik ədəbiyyata dair ayrı-ayrı elmi tədqiqatlarla bağlı resenziya yazıları, istərsə də klassiklərin yubileylərinə həsr olunmuş və daha üstünlük təşkil edən məqalələr bu həqiqəti söyləyir.

Belə ki, "Ədəbiyyat və incəsənət" qəzeti 1960-cı illər ərzində klassiklərin yubileyləri ilə bağlı ardıcıl olaraq bir sıra materiallar verir. 1960-cı il ərzində Cəfər Cabbarlının 60 illiyi, 1962-ci ildə Mirzə Ələkbər Sabirin 100 illiyi, M.F.Axundzadənin 150 illiyi, 1965-1967-ci illər arası Cəlil Məmmədquluzadənin 100 illiyi, habelə S.Ə.Şirvaninin 125 illiyi [63], Rəşid Əfəndiyevin 100 illiyinə [4] dair çoxsaylı məqalələr klassik ədəbi dəyərlərə necə böyük əhəmiyyət verildiyini göstərir.

Bununla belə, məsələn, C.Cabbarlının 60 illiyi münasibətilə yubiley yazılarını: redaksiyanın "Həyat və yaradıcılıq", Mehdi Məmmədovun "Mübarizə ruhu, yenilik eşqi", Mirzə İbrahimovun "Böyük yazıçı, sadə insan", Süleyman Rəhimovun "Yanan ürək", Cabir Səfərovun "Qardaş xalqların səhnələrində", Əkbər Ağayevin "Yaşayan ənənələr" və s. məqalələri [5] daha on il sonra Cəfər Cabbarlının 70 illiyi münasibətilə dərc olunmuş yazılarla: İlyas Əfəndiyevin "Azadlıq carçısı" [10], Qasım Qasımzadənin "Milli iftixarımız" (168), Seyfəddin Dağlının "Qüdrətli sənət" [9], Yaşar Qarayevin "Cabbarlı müasirliyi" [66], Məmməd Arifin "Yazıçı və zaman", Məsud Əlioğlunun "Cabbarlının xəlqiliyi" [64], Mirzə İbrahimovun "Ehtiraslı və döyüşkən sənət" [65], Süleyman Rəhimovun "Ürəklər fatehi" [68] və s. bir çox məqalələrlə müqayisə etdikdə, on il ərzində ruh etibarilə irsə yanaşmada milliliyin ön plana çıxdığını görürük. Əgər 60-cı illərin əvvəllərində Cabbarlı irsi hələ yeni, sosializm ideyalarının təbliği baxımından nəzərdən keçirilirsə, onilliyin sonlarında onun əsərləri daha çox milli-mənəvi dəyərlərin daşıyıcısı, tərcümanı kimi aktuallaşır.

Bu məqamı digər yubiley hadisələrinə münasibətdə də müşahidə etmək olar. M.Ə.Sabirin 100 illik yubileyi öz xalqı tərəfindən yüksək səviyyədə keçirilsə də, irsi ilk növbədə məhz "Azərbaycan sovet poeziyasının sələfi" kimi aktuallaşır. İl ərzində böyük şairin beynəlmiləl önəminə diqqət yetirməklə (İ.Abbasov, "Beynəlmiləl" erməni dilində - [6]; M.Müsəddiq, A.İsmayılov, "İran ədəbiyyatşünasları Sabir haqqında" – [6];

"Qardaş respublikalarda" – [6]), qəzet M.Ə.Sabirin yubileyini doğum günü ərəfəsində 29 may 1962-ci il tarixli ayrıca bir sayda qeyd edir (Mehdi Hüseyn "Xalqın şairi"; S.Rəhimov "Sönməz məşəl", Ə.Ağayev "Dünya satirikləri cərgəsində" və s.). Bununla belə, M.Ə.Sabir "proletar şairi" olmaqdan daha çox milli şair kimi, məhz xalqının şairi kimi sevilir.

1960-1970-cı illərin milliləşmə prosesləri bu həqiqəti daha qabarıq şəkildə üzə çıxarır. Tofiq Hacıyevin "Şairin elmi düşüncələri" [52], Salman Mümtazın "Sabir haqqında xatirələr" [54], Sabirin şeirlərinin rus dilinə tərcüməsi G.Sultanova "Bir şeir üç tərcümədə - [56], "Poeziyamızın müqəddəs məşəli" [56], G.Sultanovanın "Sabirin bir tərcüməsi" [57], A.Zamanovun "Müasirləri Sabir haqqında" [58] kitabına dair Kamal Talıbzadənin "Təfərrüatlar və həqiqətlər" məqaləsi [58], A.Zamanovun "Yaşasın şəhriyari-hürriyyət" [59], M.Cəfərin M.Məmmədovun "Sabir və mətbuat" monoqrafiyası haqqında resenziyası [60], Əziz Mirəhmədovun "Hophopnamə: məlum və naməlum adamlar" [61], A.Bağırovun özbək ədəbiyyatına təsirdən söz açan "Sabir və Əczi" [62] və s. kimi materiallar Sabir irsinin getdikcə milli əsaslarda daha dərindən öyrənildiyini göstərir.

Eyni zamanda Sabirin şeirlərinin cəmiyyətdə sevilməsi, kütləviləşməsi yeni bir ənənənin əsasını qoyur. 1970-ci illərdən başlayaraq bu günə qədər hər il şairin doğum günü münasibətilə [11] "Sabir poeziyası günləri" keçirilməyə başlandı və "Ədəbiyyat və incəsənət" qəzetində öz əksini tapdı. Belə ki, 1970-ci illər boyu həmin səhifələrdə: Əli Tudə, Hüseyn Hüseynzadə, Arif Abdullazadə, Davud Ordubadlı, Tacəddin Şahdağlı [11], Rəsul Rza, Nəriman Həsənzadə, Məmməd Araz, Azəroğlu, Sərdar Əsəd, Famil Mehdi, Mədinə Gülgün, Musa Yaqub, İlyas Tapdıq [24], Məmməd İsmayıl [32], Hikmət Ziya, Rüfət Zəbi [37], Mirvarid Dilbazi, Məmməd Araz, Fikrət Qoca, Ağasəfa [40], Rəsul Rza, Fəridə Əlyarbəyli [45], Nüsrət Kəsəmənli, Zəlimxan Yaqub, Abbasağa [50] və b. yeni-yeni şeirlərini çap etdirməklə, müasir şairlər böyük Sabirin ruhu qarşısında, milli klassik şeir sənəti qarşısında hesabat vermiş olurdular. Bu günlər təkcə Sabirin şeirlərinin deyil, həm də Azərbaycan poeziyasının bayramına çevrilirdi.

1975-ci ildən etibarən illik "Sabir poeziya günləri" adlı almanax [1; 174] çıxmağa başladı, əks-sədası "Ədəbiyyat və incəsənət"də (bax: S.Rüstəmxanlı "Sabirin adına layiq" – [47]) göründü və qəzetin bu sahədə gördüyü işi layiqli şəkildə davam etdirməyə başladı.

Klassik irsə milli-mənəvi dəyər mövqeyindən yanaşma ötən əsrin 70-ci illərindən, böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə daha da güclənir. Əslində, dar ədəbi və elmi dairələrdən çıxıb, tədricən ümumxalq sevgisi qazanır. Əgər sovet dönəmində, 60-cı illərin əvvəlləri də daxil olmaqla yubiley tədbirlərinə bir kampaniyaçılıq xas idisə, 1960-cı illərin sonu 70-ci illərdən başlayaraq bu tədbirlər sürəkli və hərtərəfli səciyyə alır. Böyük klassiklərin əsərləri nəinki nəşr və tədqiq olunur, haqlarında əsərlər yazılır, portret və rəsmləri yaradılır, abidələr ucaldılır, əsərləri səhnələşdirilir, tele və kino-filmlər çəkilir. Məqsəd klassik irsi geniş xalq kütlələrinə tanıtmaq, ictimaiyyətə sevdirmək, mənimsətmək, müasir dəyərlərə çevirməkdən ibarət olur.

1968-1969-cu illərdə M.P.Vaqifin 250 illik yubiley günlərindən başlayan ("Ədəbiyyat və incəsənət" qəzetinin 13 iyul, 28 sentyabr, 5 oktyabr, 19 oktyabr, 2, 6 və 30 noyabr, 8 dekabr 1968 və 18 yanvar 1969-cu illər saylarında yubiley yazıları dərc

olunmuşdur) tədbirlər Vaqif irsinə layiqli qiyməti son olaraq Respublika başçısı Heydər Əliyevin 80-ci illərdə Şuşada şairin məqbərəsini yüksəltməsi ilə verir.

İslam Şərqində hünərvər şair kimi tanınan İmadəddin Nəsimi adı az qala 1960-cı illərin sonlarına qədər bizdə yalnız dar ədəbi dairələrdə, ədəbiyyat mütəxəssislərinə tanış idi. Orta əsrlərin böyük Azərbaycan şairinin 600 illik yubileyi "Ədəbiyyat və incəsənət" qəzetinin 1969-cu il saylarından [8] start götürərək, daha sonra məhz Heydər Əliyevin təşəbbüsü ilə hökumət səviyyəsində Yubiley Komitəsi yaradılır və hərtərəfli fəaliyyət nəticəsində tezliklə monumental bir sənət bayramına çevrilir. Bütün 1973-cü il ərzində "Ədəbiyyat və incəsənət" qəzeti, demək olar ki, bütün saylarında yubileylə bağlı tədbirləri izləyir, haqqında yazılar təqdim edir: Nikolay Tixonovun "Böyük humanist şair", Ə.Hüseyninin "Şairin təxəllüsü" [33], Vaqif Aslanovun "Nəsimini oxuyarkən" [31], Zümrüd Quluzadənin "Böyük humanist" [36], B.Azəroğlunun "Nəsiminin "Bəhrül-əsrarı" [36], Şairin "Ümumxalq şöhrəti" [36], M.H.Təhmasibin "Nəsimi və xalq poeziyası" [70], Əlisa Şükürovun "Nəsimi və ədəbi dilimiz" [34], Rəsul Rzanın "Cəsarət və mərdliyin yüksək poeziyası" [69] və s. kimi məqalələr şairin irsinə dərindən nüfuz etməklə bərabər onun müasir təfsirini verir, həmişəyaşar mənalarını üzə çıxarır. Eyni zamanda şairin əsərlərindən nümunələr dərc etməklə (Rübailər – 17 mart və 7 aprel 1973-cü il, Qəzəllər – 21 iyul və 25 avqust 1973-cü il, Bəhrül-əsrar – 18 avqust 1973-cü il saylarında) İmadəddin Nəsimini müasir oxucular arasında populyarlaşdırmaq qayğısına qalır.

Qəzetin 1973-cü il 13, 22 və 29 sentyabr saylarında işıqlandırılan yubiley təntənələri şairin şöhrətinin nəinki Azərbaycanda, habelə Moskvada, ümumittifaq səviyyəsində, dünyada – YUNESKO-nun iştirakı ilə təbliğinin əsl örnəyi olur. Amma Nəsimi irsinin mənimsənilməsi bununla da bitmir, əksinə, bütün 70-ci illərdə davam edən proseslərə bir başlanğıc olur. Nəsiminin əsərlərinin akademik və kütləvi nəşri, tədris proqramlarına daxil edilməsi, haqqında elmi monoqrafiyalar, roman, poemalar, şeirlər, pyeslər yazılması, abidəsinin ucaldılması, geniş tamaşaçı marağı qazanmış "Nəsimi" filminin çəkilməsi və s. tarixi həqiqət olmaqla "Ədəbiyyat və incəsənət" qəzetinin 1970-ci illər saylarında da təsdiqini tapır (20 yanvar, 17 fevral, 28 aprel, 16 iyun, 30 iyun, 21 iyul, 4 avqust, 1, 13, 22 və 29 sentyabr saylarında).

Həmçinin Nəsimi yubileyi klassik irsin təbliği və mənimsənilməsində bir örnək olaraq yeni ənənə yaradır. N.Nərimanovun 100 illik (1970), Aşıq Ələsgərin 150 illik (1972) yubileylərinin də təcrübəsini ümumiləşdirərək, daha sonralar miqyaslı şəkildə Nizami Gəncəvinin 840 illik yubileylərinin təşkili milli-mənəvi dəyərlərin qorunması və yaşadılmasının konkret təcrübəsini nümayiş etdirir.

Böyük Azərbaycan şairi Aşıq Ələsgərin 150 illiyinə ümumxalq marağının yaranmasını xalq yaradıcılığı və klassik ədəbiyyatın geniş təbliğinin bilavasitə nəticəsi hesab etmək olar. "Aşıq Ələsgərin anadan olmasının 150 illiyi qarşısında" silsilə yazılara M.H.Təhmasib "Bizim Ələsgər" [71] və "Ələsgərin dastan yaradıcılığı" [72] məqalələri ilə start verir. Və qəzetin yubiley sayına qədər [25] bir il ərzində artıq Aşıq Ələsgər haqqında sanballı bir "kitabxana"nın yarandığını görürük. Bura həm: İslam Ələsgərovun "Ustadı nəşr edərkən" [15] M.H.Təhmasibin "Pak məhəbbət aşiqi" (30 oktyabr 1971), Osman Sarıvəllinin "Aşığın poetikası" [15], M.H.Təhmasibin "Bir ömür dörd dövr", Xalid Əlimirzəyevin "Eşq atəşində", İsrafil Abbasovun "Xarici tədqiqatda" [26] kimi ciddi araşdırmaları daxildir, həm də ümumxalq sevgisini ifadə edən oçerklər, yazılar (Məmməd Aslan, "Dosta mehriban gözəl"lə görüş" [13], Maarifə Hacıyeva

"Ələsgər şeiri zamanın səsidir" [23], Müzəffər Şükür, "Təcnis ustası" [17], "Adım Ələsgərdir, Göyçə mahalım" [19], Məmməd Aslan, "Günəşin qonşuluğunda" [20]. Ən nəhayət, Aşıq Ələsgərin 150 illiyi Moskvada təntənəli şəkildə qeyd olunur [22] və respublikada bayram tədbirləri ilə başa çatır [27].

Amma irsin araşdırılması bundan sonra da davam edir. M.Yarəhmədovun "Aşıq Ələsgər və Dağıstanın söz sənətkarları" [29], S.Teleyukun "Aşığın möcüzəli poeziyası" [3], İ.İsmayılzadə və M.Aslanın "Ayna daşa toxunanda" [7], M.Həkimovun "Sənətkarlıq sirləri" [7], M.H.Təhmasibin şairin ikicildliyi haqqında "Yüz ölç, bir biç" [18] məqalələri yubiley araşdırmalarının daha geniş əhəmiyyətini üzə çıxarır.

Bütün 1970-ci illər ərzində "Ədəbiyyat və incəsənət" qəzetində habelə klassik və müasir yazıçıların: Ə.Haqverdyevin 100 [12], M.S.Ordubadinin 100 (6 noyabr 1971, 19 fevral, 6 may, 12 avqust, 16 və 23 sentyabr, 4, 11 və 18 noyabr, 2 dekabr 1972), S.Rəhimovun 70 [12], Rəsul Rzanın 60 [12], Əli Vəliyevin 70 [16], M.İbrahimovun 60 [16], Əhməd Cəmilin 60 [35], Məmməd Arifin 70 [39], İ.Əfəndiyevin 60 [39], Abbas Səhhətin 100 [38], M.Əvhədinin 700 [44], S.S.Axundovun 100 (59: 12 iyul, 2 avqust, 24 oktyabr, 15 noyabr, 20 və 27 dekabr 1975), O.Sarıvəllinin 70 [42], Ü.Hacıbəyovun 90 [43], S.Rüstəmin 70 [46], S.Vurğunun 70 [48], Mir Cəlalın 70 [49], M.Müşfiqin 70 [49], Əli Nəzminin 100 [49] illik yubileyləri yeni ənənələr əsasında, həm dərininə tədqiq və həm də genişlikdə təbliğ yolu ilə rəngarəng yazılar, müxtəlif materiallarla qeyd olunmuşdur.

Qəzet klassik irsə daim diqqət ayıraraq Nizami Gəncəvi [21], Məhəmməd Füzuli [30], Mirzə Şəfi Vazeh [28], M.F.Axundov [29], H.Cavid [41] və digər klassiklər haqqında onlarla məqalələr dərc etmişdir.

Bu sıraya dünya və sovet ədəbiyyatının onlarla məşhur simalarının (A.Dante, Ə.Nəvai, V.Şekspir, J.B.Molyer, A.Puşkin, M.Lermontov, L.Tolstoy, T.Şevçenko, A.Mitskeviç, M.Qorki, Tomas Mann, V.Mayakovski, S.Yesenin, Səbahəddin Ali, Musa Cəlil, Pablo Neruda, Nazim Hikmət və b.) yubileylərinin qəzetdə anılmasını da əlavə etsək, klassiklərin 1960-1970-ci illərdə ədəbi prosesdə təbliği yolu ilə "Ədəbiyyat və incəsənət" qəzetinin ədəbiyyatın inkişafı və intişarında əvəzsiz rol oynadığını görürük.

1979-cu ildə isə milli klassiklərin ümümdünya səviyyəsində tanıdılmasının daha bir təntənəsinə şahid olur. Milli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyası dahi sənətkar Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi barəsində sənəd qəbul edir. "Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" adlanan həmin sənəd [53] təkcə qeyri-ordinarlığı ilə seçilmirdi. Belə ki, böyük yubileylər tarixinə uyğun gəlməyən 840 rəqəmi, əslində, milli irsi, N.Gəncəvinin ölməz sənətini müasir dünyaya tanıtmaqla Azərbaycan xalqının böyüklüyü, ucalığını təsbit etmək məqsədi güdürdü.

Bu tədbir həqiqətən də həm elmi nizamişünaslığın inkişafında yeni bir yüksəliş oldu, həm də Nizami irsinin geniş kütlələr arasında tanıdılmasında, Nizami obrazının xalq təfəkküründə möhkəmlənməsində əvəzsiz rol oynadı. O cümlədən "Ədəbiyyat və incəsənət" qəzeti il boyu Dövlət sənədinin yerinə yetirilməsini müntəzəm izləməklə, sanballı məqalələr dərc etməklə [51] bu tədbirlərə öz töhfəsini verdi.

Bununla belə, milli irsi mənimsəmək azdır, onu yeni dəyərlərə çevirmək, xalqın və müasir cəmiyyətin həyatına daxil etmək tələb olunur. Bu baxımdan, ədəbiyyatın qarşısında duran vəzifə həmişə ənənə və novatorluğun vəhdətindən çıxış etmək

olmuşdur. "Ədəbiyyat və incəsənət" qəzetinin 1960-1970-ci illər sayları ilə tanış olduqda, ədəbiyyatımızın bu vəzifənin öhdəsindən layiqincə gəldiyini görürük. XX əsr Azərbaycan ədəbi-nəzəri fikrinin inkişafı prosesində 1960-70-ci illərin söz ustaları öz yaradıcılıqlarında xalq nümunələrindən gərəyincə faydalanmış və milli-mənəvi dəyərlərimizi özlərinə məxsus tərzdə əks etdirmişlər. Məhz bu halda xalqın mənəvi dünyası ilə real həyatı vəhdət şəklində verilmiş olur.

ƏDƏBİYYAT

1. Sabir poeziya günləri (almanax). Bakı, "Gənclik". 1975. 174 s.;
2. "Ədəbiyyat və incəsənət" qəzeti, 15 iyul 1972-ci il;
3. "Ədəbiyyat və incəsənət" qəzeti, 29 iyul 1972-ci il;
4. "Ədəbiyyat və incəsənət" qəzeti, 30 noyabr 1963-cü il;
5. "Ədəbiyyat və incəsənət" qəzeti, 44,19 mart 1960-cı il;
6. "Ədəbiyyat və incəsənət" qəzeti, 21 aprel, 12-19 may 1962-ci il;
7. "Ədəbiyyat və incəsənət" qəzeti, 5 – 19 avqust 1972-ci il;
8. "Ədəbiyyat və incəsənət" qəzeti, 7, 14 iyun, 19 iyul, 13 dekabr 1969-cu il;
9. "Ədəbiyyat və incəsənət" qəzeti, 53, 9 avqust 1969-cu il;
10. "Ədəbiyyat və incəsənət" qəzeti, 53,4 yanvar 1969-cu il;
11. "Ədəbiyyat və incəsənət" qəzeti, 30 may 1970-ci il;
12. "Ədəbiyyat və incəsənət" qəzeti, 16 may, 7 fevral 1970-ci il;
13. "Ədəbiyyat və incəsənət" qəzeti, 16 oktyabr 1971-ci il;
14. "Ədəbiyyat və incəsənət" qəzeti, 55, 2 oktyabr 1971-ci il;
15. "Ədəbiyyat və incəsənət" qəzeti, 20 noyabr 1971-ci il;
16. "Ədəbiyyat və incəsənət" qəzeti, 24 aprel, 4 dekabr 1971-ci il;
17. "Ədəbiyyat və incəsənət" qəzeti, 1 aprel 1972-ci il;
18. "Ədəbiyyat və incəsənət" qəzeti, 11 noyabr 1972-ci il;
19. "Ədəbiyyat və incəsənət" qəzeti, 15 aprel 1972-ci il;
20. "Ədəbiyyat və incəsənət" qəzeti, 20 may 1972-ci il;
21. "Ədəbiyyat və incəsənət" qəzeti, 24 iyun, 22 iyul 1972; 5 yanvar, 21 sentyabr, 12 oktyabr 1974; 31 may 1975, 12 iyul, 24 oktyabr 1975;
22. "Ədəbiyyat və incəsənət" qəzeti, 3 iyun 1972-ci il;
23. "Ədəbiyyat və incəsənət" qəzeti, 5 fevral 1972-ci il;
24. "Ədəbiyyat və incəsənət" qəzeti, 9 iyun 1972-ci il;
25. "Ədəbiyyat və incəsənət" qəzeti, 9 iyun 1972-ci il;
26. "Ədəbiyyat və incəsənət" qəzeti, 9 iyun 1972-ci il;
27. "Ədəbiyyat və incəsənət" qəzeti, 9 iyun 1972-ci il;
28. "Ədəbiyyat və incəsənət" qəzeti, 12 və 19 fevral, 8 iyul 1972; 7 noyabr 1973; 21 sentyabr, 16 noyabr 1974;
29. "Ədəbiyyat və incəsənət" qəzeti, 15 iyul 1972; 59:16 və 23 avqust 1975;
30. "Ədəbiyyat və incəsənət" qəzeti, 8 və 22 aprel, 5 avqust 1972; 57: 13 və 27 yanvar, 5 may 1973;
31. "Ədəbiyyat və incəsənət" qəzeti, 17 fevral 1973-cü il;
32. "Ədəbiyyat və incəsənət" qəzeti, 2 iyun 1973-cü il;
33. "Ədəbiyyat və incəsənət" qəzeti, 20 yanvar 1973-cü il;
34. "Ədəbiyyat və incəsənət" qəzeti, 25 avqust 1973-cü il;
35. "Ədəbiyyat və incəsənət" qəzeti, 27 oktyabr 1973-cü il;

36. "Ədəbiyyat və incəsənət" qəzeti, 5-19 may, 14 iyul 1973-cü il;
37. "Ədəbiyyat və incəsənət" qəzeti, 2 iyun 1974-cü il;
38. "Ədəbiyyat və incəsənət" qəzeti, 21 sentyabr, 5,21, və 28 dekabr 1974-cü il;
39. "Ədəbiyyat və incəsənət" qəzeti, 26 oktyabr, 23 noyabr 1974-cü il;
40. "Ədəbiyyat və incəsənət" qəzeti, 8 iyun 1974-cü il;
41. "Ədəbiyyat və incəsənət" qəzeti, 12 yanvar 1974;
42. "Ədəbiyyat və incəsənət" qəzeti, 19 və 29 noyabr, 1975-ci il;
43. "Ədəbiyyat və incəsənət" qəzeti, 21 noyabr, 5 dekabr 1975-ci il;
44. "Ədəbiyyat və incəsənət" qəzeti, 22 fevral, 12 iyul, 2 avqust, 24 oktyabr, 15 noyabr, 20 və 27 dekabr 1975-ci il;
45. "Ədəbiyyat və incəsənət" qəzeti, 24 may 1975-ci il;
46. "Ədəbiyyat və incəsənət" qəzeti, 14 fevral, 27 mart, 3 aprel və 19 iyun, 1976-cı il;
47. "Ədəbiyyat və incəsənət" qəzeti, 16 oktyabr 1976-cı il;
48. "Ədəbiyyat və incəsənət" qəzeti, 1976-cı il, bütün il ərzində;
49. "Ədəbiyyat və incəsənət" qəzeti, 29 aprel, 6 may, 1 iyul, 23 dekabr 1978-ci il;
50. "Ədəbiyyat və incəsənət" qəzeti, 3 iyun 1978-ci il;
51. "Ədəbiyyat və incəsənət" qəzeti, 14 oktyabr, 2 dekabr və 16 dekabr 1978; 13 yanvar, 10 fevral, 17 fevral, 6 aprel, 14 sentyabr 1979.
52. "Ədəbiyyat və incəsənət" qəzeti, 27 sentyabr 1969-cu il;
53. "Ədəbiyyat və incəsənət" qəzeti, 5 yanvar 1979-cu il;
54. "Ədəbiyyat və incəsənət" qəzeti, 23 may 1970-ci il;
55. "Ədəbiyyat və incəsənət" qəzeti, 12 avqust1972-ci il;
56. "Ədəbiyyat və incəsənət" qəzeti, 14 oktyabr 1972-ci il;
57. "Ədəbiyyat və incəsənət" qəzeti, 12 may 1973-cü il;
58. "Ədəbiyyat və incəsənət" qəzeti, 2 iyun 1973-cü il;
59. "Ədəbiyyat və incəsənət" qəzeti, 2 iyun 1974-cü il;
60. "Ədəbiyyat və incəsənət" qəzeti, 6 oktyabr 1974-cü il;
61. "Ədəbiyyat və incəsənət" qəzeti, 24 may 1975-ci il;
62. "Ədəbiyyat və incəsənət" qəzeti, 3 aprel 1976-cı il;
63. Ədəbiyyat və incəsənət qəzeti, 9 iyul 1960-cı il;
64. Əlioğlu Məsud. Cabbarlının xəlqiliyi. //"Ədəbiyyat və incəsənət", 11 oktyabr 1969-cu il;
65. İbrahimov Mirzə, Ehtiraslı və döyüşkən sənət // "Ədəbiyyat və incəsənət", 18 oktyabr 1969-cu il;
66. Qarayev Yaşar. Cabbarlı müasirliyi // "Ədəbiyyat və incəsənət" qəzeti, 16 avqust 1969-cu il;
67. Qasımzadə Qasım. Milli iftixarımız // "Ədəbiyyat və incəsənət" qəzeti, 2 avqust 1969-cu il; 168
68. Rəhimov Süleyman. Ürəklər fatehi // "Ədəbiyyat və incəsənət" qəzeti,18 oktyabr 1969-cu il;
69. Rəsul Rza. Cəsarət və mərdliyin yüksək poeziyası. // "Ədəbiyyat və incəsənət" qəzeti, 1 sentyabr 1973-cü il;
70. Təhmasib M.H. Nəsimi və xalq poeziyası // "Ədəbiyyat və incəsənət" qəzeti, 11 avqust 1973-cü il;

71. Təhmasib M.H. Bizim Ələsgər // "Ədəbiyyat və incəsənət" qəzeti, 17 iyul 1971-ci il;
72. Təhmasib M.H. Ələsgərin dastan yaradıcılığı // "Ədəbiyyat və incəsənət" qəzeti, 21 avqust 1971-ci il.

СЕВИНДЖ АЯЗКЫЗЫ /ГЕЙДАРОВА/

ИЗУЧЕНИЕ И ПРОПАГАНДА КЛАССИЧЕСКОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ (НА ОСНОВЕ МАТЕРИАЛОВ ГАЗЕТЫ «ЛИТЕРАТУРА И ИСКУССТВО»)

РЕЗЮМЕ

Процесс возвращения национально-духовных ценностей в исторически культурный контекст 1960-1980-х годов просматривается также и в отношении к классическому наследию. В советский период проблема классического наследия в литературе рассматривалась в основном с позиции классовой идеологии. Основными темами того периода в материалах газеты «Эдебийят ве инджесенет» являются: угнетенный класс, интересы широких народных масс, труд, как неизменный атрибут советской литературы, дружба народов, интернационализм и борьба классов.

SEVINJ AYAZQIZI /HEYDAROVA/

THE STUDY AND PROPAGANDA OF CLASSICAL PERIOD AZERBAIJANI LITERATURE (BASED ON MATERIALS OF THE NEWSPAPER "ADABIYYAT VE INJASANAT" ("LITERATURE AND ART")

SUMMARY

The process of recover the national –moral values in historical cultural environment in 1960-1980's is also seen in treatment of classical literary heritage. In soviet time the problem of classical literature was the part of common soviet ideology. The main topics in literature of that time was proletarian class and its interests, the labour described as obligatory attribute of soviet literature, friendship of nations, internationalism and class struggle were reflected in the materials of the newspaper **"**Adabiyyat ve injasanat" ("Literature and art").

Rəyçi: Akademik Rafael Hüseynov

Ş.Ə.MAHMUDOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Müəllimlər İnstitutu

KLASSİK İRSİN UŞAQ ƏDƏBİYYATINA TƏSİRİ

Açar sözlər: *müqayisə, təhlil, bədii əsər, iqtibas, mənzum hekayə, şeir, təmsil, məzmun, ideya*
Ключевые слова: *сравнения, анализ, произведении, цитирует, стих, басня, содержания, идея*
Keywords: *comparisons, reviews, feature articles, quotes, written story, poetry, fable, content, ideas*

Klassiklərin irsinə arxalanmaq, iqtibas etmək, oxşar məzmunlu əsərlər qələmə alaraq ərsəyə gətirmək, onlardan bəhrələnmək bədii ədəbiyyatda mütəmadi təsadüf etdiyimiz hallardandır. Bu xələflərin sələflərinə olan sonsuz məhəbbətindən, ehtiramından irəli gələn bir hadisədir. Həmçinin bu mövzulara müraciət olunması onların aktuallığının göstəricisidir. Bu baxımdan, belə əsərlərin müqayisəli təhlilini aparmaq, oradakı fərqli və oxşar cəhətləri arayıb üzə çıxarmaq, zənnimizcə, filoloji aspektdən də çox maraqlı və böyük əhəmiyyət kəsb edən bir məsələdir.

Deyilənlərə ali məktəblərdə uşaq ədəbiyyatının tədrisi zamanı rastlaşdığımız bir neçə konkret nümunə əsasında aydınlıq gətirmək olar. Məsələn, N.Gəncəvinin özündən sonrakı ədəbiyyat nümayəndələrinə təsiri danılmaz bir faktdır. Onu əbəs yerə söz dünyasının günəşi adlandırmamışlar. Bu günəşin nurundan pay alan şairlərimiz zaman-zaman ondan bəhrələnmiş, onun yolunu davam etdirməyə çalışmış və dahi şairin əsərlərinin motivlərinə dönə-dönə müraciət etmişlər. "Nizami özündən əvvəlkilərlə müqayisədə şeri elə bir əlçatmaz yüksəkliyə qaldırmışdır ki, sonradan gələn sənətkarlar artıq ondan yüksəyə qalxmaq xülyasına düşməmiş, onun yolu ilə getməyi, ona bənzəməyi, onun şagirdi olmağı özləri üçün fəxarət saymışlar. Nizami mövzularında əsərlər yazmaq, ondan mənalar iqtibas etmək artıq bir ənənəyə çevrilmişdi" [5, s.5].

N.Gəncəvi müxtəlif məzmunlu əsərlər yazıb-yaratmışdır ki, bunlardan biri də əmək mövzusudur. Şairin bu mövzuda yazdığı "Süleyman və əkinçinin hekayəti", "Kərpickəsən kişinin hekayəti"mənzum hekayələrinin motivləri əsasında A.Bakıxanov "Xeyirli işin faydası", M.Ə.Sabir "Qoca bağban" əsərlərini yazmışlar . Hər üç əsəri təhlil edək.

Nizaminin "Süleyman və əkinçi" mənzum hekayəsində Süleyman şah qoca əkinçinin şoran torpağa bir ovuc toxum səpdiyini görüb tənə ilə deyir ki, biz sulu torpaqlarda toxum səpib heç nə əldə edə bilmədik. Sənin isə yer şumlamağa nə belin, nə də suyun var. Qoca cavab verir:

Bax, budur suyum mənim - alnımdan süzülən tər,
Lingim, belim, külüngüm - bu dırnaqlar, bu əllər [5, s. 107].

"Kərpickəsən kişinin hekayəti" mənzum hekayəsində isə Şam şəhərində yaşayan qoca kərpic kəsib satmaqla ruzi qazanır. Bir gün cavan oğlan qocaya deyir ki, gecə-

gündüz əziyyət çəkib torpaqla əlləşməsin. Kimə əl açsa, ondan bir qarın çörək əsirgəməz. Müdrik qoca cavanın sözlərini səbirlə dinləyib deyir:

Çörək qazanıram mən, götürmə babalımı,
Min harama dəyişməm birgünlük halalımı [5, s.118].

A.Bakıxanovun "Xeyirli işin faydası" mənzum hekayəsində də əməyə məhəbbət, əməkçi insana hörmət ideyası ön plana çəkilmişdir. Əsərdə cavan bir əmirin bağda qoz ağacı əkən qoca ilə söhbəti təsvir edilir. Cavan əmirin fikrincə, ağacın barını görməyə ömrü çatmayacağını bilə-bilə zəhmət çəkən qoca mənasız iş görür. Zəhmətkeş, müdrik, uzaqgörən, xeyirxah təbiətli qoca təkcə özünü deyil, başqalarını da düşünür. O, özündən sonra gələcək nəsillərə bir yadigar qoymaq istəyir, əməyinin itməyəcəyinə, bu ağacdan xeyir görəcək insanların onu yaxşılıqla yad edəcəyinə inanır.

Əkinçinin sözləri əmirin xoşuna gəlir. Cibindən xeyli pul çıxarıb zəhmətkeş qocaya verəndə o, yenə də öz müdrikliyini göstərir və üzünü cavan əmirə tutaraq deyir:

Mən əkirdim başqalarçın güldü baxt,
Məhsul aldım zəhmətimdən əkən vaxt.
El üçün kim girişərsə bir işə,
Özü dəxi xeyir görər həmişə [4, s.236].

Ədibin fikrincə, insan yalnız özünü deyil, başqalarını da düşünməli, xalqın mənafeyi üçün çalışmalıdır.

İndi isə M.Ə.Sabirin "Qoca bağban" mənzum hekayəsinə diqqət yetirək. Bağın kənarı ilə keçən gənclər görürlər ki, qoca bağban əlləri titrəyə-titrəyə yerdə alma çəyirdəkləri əkir. Onlar təəccüblə soruşurlar ki, yüz yaşında bu işi görməyin, cəfa çəkməyin nə mənası var? Bu gün varsan, sabah yox. Əkdiklərin sənə qismət olmayacaq. Müdrik qocanın cavabı çox ibrətamizdir:

Dedi: "Əkmişlər, almışız, yemişiz,
Xeyirlə yad edib dua demişiz;
Əkəriz biz daha yeyənlər üçün,
Əhli-xeyrə dua deyənlər üçün" [3, s.9].

Bu əsərlərin hər birində iki mövqe, iki həyat tərzi, iki insan psixologiyası qarşılaşdırılır. Hər üç ədibin qəhrəmanı həyatın çətin sınaqlarından üzüağ çıxmış müdrik bir əməkçidir. Onlar özlərindən sonra bir iz qoymaq, gələcək nəsillərə fayda vermək, xeyir-dua sahibi olmaq barədə düşünür, halal zəhmətə önəm verirlər.

Hələ həyatın bərkini-boşunu görməmiş gənclər isə halal əməyin, xeyirxahlığın insana gətirdiyi mənəvi rahatlığı başa düşmür, dünyagörmüş qocaya ağıl verməkdən belə çəkinmirlər. İdeya-məzmun baxımından Nizami Gəncəvinin mənzum hekayələrini xatırladan bu əsərlərin hər birində gənc nəslə halallıq, əməyə məhəbbət kimi müsbət keyfiyyətlər aşılanır.

A.Səhhətin yaradıcılığında da onun həmyerlisi, sələfi olan Seyid Əzim Şirvaninin böyük təsiri duyulur. S.Ə.Şirvaninin "Aslan və iki Öküz" və A.Səhhətin "İki Dana" təmsilləri üzərində təhlillər aparaq.

S.Əzimin "Aslan və iki Öküz" təmsilində Aslan Öküzlərin bir yerdə otladığını görüb anlayır ki, onları parçalayıb yeyə bilməyəcək. Öküzlərdən birini çağırıb hiylə işlətməyi qərara alır:

Dedi: - Ey gavi-xoşələf, hərgah
Olasan ol rəfiqdən ikrah,
Sənə minbəd etmərəm azar,
Olarsan hər çəməndə bərxürdar [2,s.217].

Aslan Öküzə çəmənlikdə tək otlayacağını və heç vaxt ona zərər vurmayacağını vəd etməklə yoldan çıxarır. Nəticədə bir-birindən ayrı düşən Öküzlər Aslanın yeminə çevrilir.

Əsərdə qeyd olunur ki, güc birlikdədir və yalnız birlik olarsa, zülm üzərində qələbə çala bilərsən. Bunun üçün hər an əlbir olmaq, yumruq kimi birləşmək lazımdır.

A.Səhhətin "İki Dana" təmsilində çəmənlikdə otlayan iki Danadan biri axşamın düşməsini görüb geri qayıdır. İkinci Dana - "Tələsmə, çox ertədir," - deyərək havanın qaralmasına məhəl qoymur. Sonda tək qalan Dananı canavarlar parçalayır. Səhər o biri Dana gəlib yoldaşının can verdiyini görür və deyir:

- Ay dana, dana dartadır.
- Dindirmə, dərdim artadır.
- Mən sənə dedim gəl gedək,
  Sən niyə dedin ertədir? [1, s.176]

Göründüyü kimi, hər iki təmsil məzmun və ideya baxımından oxşardır. İkisində də gözü-könlü tox olmaq, birliyi əldən verməmək kimi müsbət keyfiyyətlər təbliğ olunur, acgözlük, tamahkarlıq və başısoyuqluq kimi mənfi xüsusiyyətlər pislənir.

A.Səhhətin "Oğru və anası" şeiri də S.Ə.Şirvaninin "Qarı və oğlu" mənzum hekayəsi ilə səsləşir. Hər iki əsərdə övladına düzgün yol göstərməyən, onun tərbiyəsində mənfi rol oynayan ana obrazı canlandırılmışdır.

Seyid Əzimin "Qarı və oğlu" mənzum hekayəsində duz yerinə qar satan qadının oğlu qonşudan yumurta oğurlayır. Ana isə onu danlamaq əvəzinə, əksinə təqdir edir və nəticədə övladı oğurluğa qurşanır. Onu tutub dar ağacından asmaq istəyirlər. Bu zaman oğlan anası ilə son dəfə görüşmək istədiyini bildirir. Anası gəldikdə oğlu üzünü hökmdara tutaraq:

Dedi: Ey şah, ibtidadə əgər,
Mənə olsaydı bu nəsihətgər,
Oğru olmazdım, ey şəhi-vala,
Mənə etməzdi heç belə bəla.
Pəs anamdır bu möhnətə bais,
Bu qəmü- dərdü zillətə bais [2, s.237].

Hökmdar həqiqəti bildikdə oğlanı azad edir və anasını edam etdirir.

A.Səhhətin "Oğru və anası" əsərində isə bir məktəbli yoldaşının kitabını oğurlayıb evə gətirdikdə ana övladını məzəmmət etmir. Uşaq sonralar daha ciddi oğurluqlar edir və bir gün ələ keçdikdə deyir:

Ay hakimlər, müqəssirəm, doğrudur,
Həqiqətdə mənim anam oğrudur.
Etsə idi anam məni məzəmmət,
Olmaz idim indi bu növ bədbəxt [3, s.31].

Bu əsərlərin fərqli xüsusiyyətləri barədə ancaq onu demək olar ki, XIX əsrdə yazıb-yaratmış S.Ə.Şirvaninin dili XX əsr şairinin dilinə nisbətən daha ağırdır. Yəni fars mənşəli sözlər burada çoxluq təşkil edir. A.Səhhətə gəldikdə isə, əlbəttə ki, o, sələfinin ideyalarını davam etdirərək tərbiyəvi əhəmiyyət daşıyan belə əsərlərdən məharətlə bəhrələnmiş, xələf missiyasını üzərinə götürmüş, ənənəni davam etdirmişdir.

R.Rzanın "Məktəbli qızım" və B.Vahabzadənin "Məktəbli qız" şeirləri isə H.Cavidin "Qız məktəbində" adlı şeiri ilə səsləşir. Hər üçündə, demək olar ki, məzmun və ideya eynidir.

H.Cavidin "Qız məktəbində" əsərinin qəhrəmanı qızdan nə üçün belə sadə geyindiyini və onun altun bilərziklərinin olub-olmadığını soruşduqda o, deyir:

- Var əfəndim, var... lakin
Müəlliməm hər gün söylər, onların yox qiyməti,
Bir qızın anjaq bilgidir, təmizlikdir ziynəti [3, s.62].

"Məktəbli qız" şeirində R.Rza da eyni mövzuya toxunaraq sadəlik və biliyi insanın zinəti kimi qiymətləndirir və qızların bu keyfiyyətlərə üstünlük verməsini tövsiyə edir :

Bil ki, insan zinəti
Bəzək-düzək deyildir.
Gözəlliyin nişanı
Qumaş, ipək deyildir.
...Ağıl, zəhmət, bilikdir
Ən böyük hünər, qızım.

B.Vahabzadənin "Məktəbli qız" şeiri də məzmun və ideya baxımından H.Cavidin "Qız məktəbində" şeirini xatırladır:

Məktəbli qız, əynindəki
Nə şifondur, nə gülməxmər.
Lakin gözəl görünürsən
Bu paltarda sən nə qədər!

Bu məktəbli paltarında
Nə böyük bir sadəlik var,
Dərs oxuyan qızcığaza
Yaraşarmı heç modalar?! [6]

Göründüyü kimi, hər üç şeirdə məktəbli qızlara sadəlik, elmə, biliyə üstünlük vermək kimi keyfiyyətlər aşılanır. Bir fərq ondan ibarətdir ki, H.Cavid dialoq şəklində, R.Rza və B.Vahabzadə isə müraciət formasında qələmə almışlar.

Klassiklərimiz folklordan, yazılı ədəbiyyatdan bəhrələndiyi kimi, sonrakı ədəbi nəsil də sələflərinin yolu ilə getməyi özlərinə şərəf hesab etmişlər. Onların hər biri yüksək səviyyədə orijinal əsərlər yazmaqla yanaşı, həm zəngin folklor nümunələrindən, həm dünya ədəbiyyatından, həm də klassiklərin əsərlərindən faydalanaraq Azərbaycan ədəbiyyatını zənginləşdirməyə nail olmuşlar.

ƏDƏBİYYAT

1. Abbas Səhhət. Seçilmiş əsərləri. Bakı, "Lider" nəşriyyatı, 2005, 456 səh.
2. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. Üç cilddə. I cild. Bakı, "Öndər nəşriyyat", 2005, 248 səh.
3. Azərbaycan uşaq ədəbiyyatı antalogiyası. Üç cilddə. II c. Bakı, "Öndər nəşriyyat", 2004, 264 səh.
4. Bakıxanov Abbasqulu ağa Qüdsi. Seçilmiş əsərləri. Bakı, "AVRASİYA PRESS", 2005, 488 səh.
5. Nizami Gəncəvi. Sirlər xəzinəsi. "Lider nəşriyyat", Bakı, 2004, 264 səh.
6. http://elita.az/library/index.php?id=32841

ШЕЛАЛЕ МАХМУДОВА

ВЛИЯНИЕ КЛАССИЧЕСКОЙ НАСЛЕДИИ НА ДЕТСКОЙ ЛИТЕРАТУРЫ

РЕЗЮМЕ

В статье анализированы произведения путьем вовлечения их к цитированию. Изучены схожие и различительные особенности этих произведений путем сравнительного анализа. Отмечается, что во все времена мастера слов часто в своих произведениях обращались к классикам. Этим путем они обогащали свои произведения как с точки зрения содержания, так и по идее.

SHALALA MAKHMUDOVA

THE IMPACT ON THE HERITAGE OF THE CLASSICAL CHILDREN'S LITERATURE

SUMMARY

The article analyzed the work the way that will draw them to the citation. Studied similar and distinctive features of these products by the comparative analysis. It is noted that at all times the master of words frequently in his works turned to the classics. In this way, they enrich their works both in terms of content and in theory.

Rəyçi: Fikrət Xalıqov
Filologiya elmləri doktoru, professor

RUHƏNGİZ ƏLİYEVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
aliyeva-72@mail.ru

T.ELÇİN YARADICILIĞINDA ŞİFAHİ EPİK FOLKLOR ƏNƏNƏLƏRİ İSTİFADƏ ÜSULLARI

Açar sözlər: *Folklor, uşaq ədəbiyyatı, T.Elçin, nağıllar, yanıltmaclar, tapmacalar*
Ключевые слова: *Фольклор, детская литература, творчество Т.Эльчина, сказки, пословицы, загадки.*
Key words: *folklore, children's literature, creativity of T.Elchin, tales, patters, riddles.*

Keçən əsrin 60-80-ci illər uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan görkəmli sənətkarlardan biri də T.Elçindir. Onun zəngin ədəbi iris ayrı-yarı vaxtlarda elmi-nəzəri firkin marağında olmuş, müxtəlif səpkili araşdırmaların probleminə çevrilmişdir. B.Nəbiyev, Q.Namazov, Z.Xəlil, F.Əsgərli və başqaları istedadlı ədibin yaradıcılığına münasibət bildirmiş, qənaətlərini ümumiləşdirmişlər. Məlum olduğu kimi, 60-cı illər Azərbaycan ədəbiyyatının inkişafında ciddi keyfiyyət dəyişikliklərinin baş verdiyi zaman olaraq xarakterizə edilir. Sovetlər dönəminin formalaşdırmağa çalışdığı düşüncə, idealoji təbliğat artıq bütün müstəvilərdə özünün qüsurları ilə geniş sferada əks-səda doğurmağa başladı. Ədəbiyyat bu prosesdə öncüllük funksiyasını yerinə yetirdi və milli dəyərlərə, milli mədəniyyətin təbliğinə istiqamətləndi. Xalqların min illər boyu formalaşdırıb yaratdığı mədəniyyət, genetik yaddaşdan gələn dəyər prinsipləri bütünlükdə ədəbiyyatın mahiyyət məsələsinə çevrildi. Uşaq ədəbiyyatının görkəmli nümayəndələri klassik ənənəyə əsaslanmaqla folklordan gələn formullar əsasında bir-birindən maraqlı nümunələr yaratdı. T.Elçin də məhz uşaq ədəbiyyatını zənginləşdirmək istiqamətində bu yolu tutdu. "Azərbaycan" şeiri ilə mətbuata gələn şair ilk əvvəl Teymur Əlizadə imzası ilə ədəbi ictimaiyyət arasında tanındı.

T.Elçin Azərbaycan ədəbiyyatının tarixinə uşaq ədəbiyyatının istedadlı sənətkarı kimi daxil olmuşdur. "Qar qız" adlı ilk kitabdan (1955) başlayan bu yol uğurlu olmuş, onu uşaqların sevimli şairi kimi məşhurlaşdırmışdır. "Qulaq asın danışım", "Qızulduz, Yaşar və Nur nənə", "Laylalar", "Şəkərim, duzum", "Torağayın nəğməsi" və s. kitabları uşaqların marağına, könül dünyasının zənginləşməsinə hesablanmışdır. Xalq ruhu, folklordan gələn motivlər, sadə, aydın, səlis dil, təsvir və təcəssüm uşaq ədəbiyyatının mahiyyətində dayanan ən önəmli məsələdir. T.Elçin yaradıcılığı da məhz bu dəyərlərə hesablanmışdır. Məlum olduğu kimi, "Azərbaycan uşaq ədəbiyyatının məhz XIX əsrin son rübündən təşəkkülə başlaması zamanın münbit şəraiti ilə əlaqədar idisə, onun xüsusi bir sahə kimi qısa bir dövrdə özünü təsdiq etməsi xeyli dərəcədə bu ədəbiyyatın tarixi kökləri kimi çıxış edən – folklor və klassik ədəbiyyatla başlı idi" **(6, 50).** Etiraf edək ki, iyirminci yüzillikdə, sovetlər dönəmində uşaq ədəbiyyatı özünün ən zəngin və şərəfli dövrünü yaşamışdır. 60-cı illər uşaq ədəbiyyatının istedadlı nümayəndəsi kimi T.Elçin də məhz bu ənənədə folklordan, klassik ənənədən bəhrələnməklə bütün yaradıcılığı boyu öz üslubuna sədaqət göstərmiş və adını uşaq ədəbiyyatının tarixinə yazmışdır. Müsbət və araşdırılmalı olan odur ki, T.Elçinin yaradıcılığında xalq ədəbiyyatının zəngin fantaziyası ilə uşaqların romantic təsəvvürləri, uşaq fantaziyası üst-üstə düşür və bir-biri ilə möhkəm tellərlə bağlanır. Ona görə də T.Elçin yaradıcılığının tədqiqində ən

önəmli məsələlərdən biri uşaq təsəvvürlərinin genetikasını müəyyənləşdirmək və onun bədii arenaya gətirilmə imkanlarını aydınlaşdırmaqdır.

Xalq öz zəngin şifahi ədəbiyyatında həmişə uşaqları, onların həyatını, maraqlarını, istəyini, təsəvvür və düşüncələrini nəzərə almış və təbii prosesdə meydana gələn nümunələr yaratmışdır. Bu nümunələrdə uşaq zövqünün dahiyanə dərki müşahidə olunur. Uşaq ədəbiyyatının görkəmli nümayəndələri də məhz həmin ənənədən bəhrələnməklə bədii düşüncəni zənginləşdirmiş, uşaqlar üçün bir-birindən maraqlı əsərlər yazmışlar. H.Zərdabi, Y.Əfəndizadə, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, S.S.Axundov, M.Hadi, Ə.Müznib, Ə.Nazim, M.Sidqi, İ.Həqqi, S.Mənsur, Ə.Dai, R.Əfəndiyev, S.M.Qənizadə, M.Cəlal, M.M.Seyidzadə, Ə.Vəliyev, M.Dilbazi, Ə.Cəmil, M.Rzaquluzadə, Ə.Abbasov, Z.Cabbarzadə, Q.İlkin, X.Əlibəyli, T.Mütəllibov, İ.Tapdıq, H.Ziya, M.Günər və s. onlarla sənətkarlarımız məhz bu prinsiplərə sədaqət göstərərək uşaqların marağına, təxəyyüllərinə, təsəvvürlərinə hesablanmış nümunələr yaratmış və bu istiqamətdə ədəbiyyatı zənginləşdirmişlər. Onlar folklora ədəbiyyat, ədəbi düşüncə müstəvisində bir enerji qaynağı kimi baxmış və xalq ruhunu yaradıcılıqlarında yaşatmaq yolunu tutmuşlar. Folklorun motiv, hadisə, süjet və s. faktorlarından istifadə ilə yanaşı, bu sənətkarların yaradıcılığında folklordan gəlmə epik ənənə, janr xüsusiyyətlərinin daşınışı da özünü göstərir. T.Elçinin yaradıcılığında da məhz bu bir istiqamət olaraq aparıcılıqla müşahidə olunur. "Sözlər, nəğmələr, nağıllar, laylalar" (Bakı, Gənclik, 1969) kitabının adı elə ilkin olaraq bu təsəvvürü yaradır. Z.Xəlil, F.Əsgərli "Uşaq ədəbiyyatı adlı dərsliyində T.Elçinlə bağlı bir məqamı xüsusi olaraq vurğulayır: "Müasir Azərbaycan uşaq ədəbiyyatının inkişafında geniş yaradıcılıq imkanlarına malik olan, öz bədii üslubu ilə seçilən şairlərimizdən biri T.Elçin olmuşdur. Orijinal əsərləri ilə uşaqların qəlbinə nüfuz edən şair, bu sahənin ən öndə gedən qələm sahiblərindən biri kimi yorulmadan ədəbi fəaliyyət göstərmişdir" (5, 257). "Tapmacalar, yanıltmaclar", "Köməkçilər", "Karandaşlar", "Nağıllar, mənzumələr" (1) başlığı altında toplanan nümunələr folklordan sistemli və məqsədli şəkildə bəhrələnməsinin faktıdır. Məlum olduğu kimi, sənətkarlar folklordan iki istiqamətdə yararlanır. Belə ki, bir qrup sənətkarlar folklordan düşünülmüş şəkildə, məqsədinə müvafiq olaraq istifadə edirlər. Digər bir qrup sənətkarlar vardır ki, folklor onların ruhunda, varlığında daşınır. T.Elçin məhz bu ikinci qrup sənətkarlar dəstəsinə mənsub yaradıcıdır. Ona görə də onun yaradıcılığı təbiiliyi, obrazlılığı, təsvir özünəməxsusluluğu, canlı olması ilə seçilir.

T.Elçin yaradıcılığının folklor qaynaqları sırasında epik janrın modelləri, təhkiyə formaları bir çoxluqla görünür. Əfsanə, nağıl, rəvayət, lətifə, tmsil kimi janrlardan gələn elementlər bir tərəf kimi həmişə aparıcılıqla müşahidə olunur. "Fikri sadə şəkildə ifadə etmək, yeni formalar tapmaq, uşaqların qəlbinə, şüuruna təsir edə biləcək əsərlər yazmaq T.Elçini həmişə düşündürmüşdür. Şeirin vəzni, qafiyələrin oynaqlığı, sözün məna siqlətinə tabe edilməsi, xüsusilə qələmə aldığı mövzunun inandırıcı, təbii səslənməsi onun yaradıcılığının başlıca keyfiyyətidir" **(4, 270).** Epik folklor modelləri onun yaratdığı nağılların mahiyyətində dayanır. Bir növ uşaqların düşüncə və təsəvvürlərini, maraqlarını ifadə etmək istəyinə hesablanır. "Qarğanın məktəbində", "Qarğa niyə qarr eləyir", "Üç qardaş, bir bacı", "Dovşan, tülkü, canavar", "Billurənin nağılı", "Analar və laylalar", "Qar qız", "Bip-bip", "Qızılduz, Yaşar və Nur nənə" və s. kimi nağılları uşaq ədəbiyyatının tipik nümunəsi kimi əhəmiyyət daşıyır. Bir növ keçən əsrin 60-80-ci illər bədii düşüncəsini ifadə edir.

Göy meşənin kənarında
Bir odunçu yaşayırdı.
Bir özüydü, bir qarısı,
Nə oğlu, nə qızı vardı.
Dərd içində gecə-gündüz
Vururdular ömrü başa.
Qoca dözmür qarısının
Gözlərindən axan yaşa,
Hey ah çəkir, düşünürdü:
-Bir oğlumuz, ya qızımız,
Olsa idi əgər bizim,
Qış gedərdi, yaz gələrdi
Baxcasına ömrümüzün. **(2, 154)**

Göründüyü kimi, bu mətn özlüyündə nağılı xatırladır. Təhkiyənin ümumi formulası, hadisələrin məzmun axarı elə ilk başlanğıcdan nağıl prinsiplərinə hesablanma məqsədi daşıyır. Hətta sənətkar əsərin başlanğıcında "rus nağılı" qeydini verməklə mövzuya aydınlıq gətirir. Burada nağılların spesifik cəhətlərini özündə ehtiva edən "göy meşənin kənarında bir odunçu yaşayırdı" başlanğıcı hadisələrin hansı axarda gedəcəyi haqqında dolğun təsəvvür yaradır. T.Elçin nağıllarımızdan gələn bütün bədiilik elementlərini burada yüksək sənətkarlıqla işlətmiş və mükəmməl bir nağıl-poema yaratmışdır. Poema-nağılda təsvir edilir ki, bir qoca ilə bir qarı olur. Onların övladları yoxdur. Övladsızlıq dərdi bu iki qocanı əldən salır. Günlərin birində qoca ilə qarı uşaqların qartopu oynadığını görür. Qoca qarısına deyir ki, biz də baxcaya gedək. Onlar baxçaya gedirlər. Qarı qardan qız düzəldir. Ona Qar qız adı verirlər. Qar qız dilə gəlir və sizin doğma qızınızam deyir. T.Elçin yaradıcılığı üçün spesifik xüsusiyyətlərdən birisi hadisə və əhvalatlara obrazlı, orijinal yanaşmadır. Uşaq təxəyyülündə, bütünlükdə uşaq ədəbiyyatında boy göstərən fərqli düşüncə, fantaziya sənətkar tərəfindən mətnə gətirilir. Nağıl-poemadakı son epizodu oxuyuruq:

Ürəkləndi, od üstündən
atıldı Qar qız.
Tonqal onu qucağına
alıb gizlədi.
Bir az yana çəkilərək
hamı gözlədi.
Sonra kiçik bir ağ bulud
qalxdıqca qalxdı.
Bizim qızlar heyrət edib
dalınca baxdı.
Buxar oldu bəli, Qar qız
uçdu göylərə...
Bir qış günü qar olacaq,
Qonacaq yerə. **(2, 164-165)**

Uşaq ədəbiyyatında nağıl formullarına müraciət ən çox özünü göstərən xüsusiyyətdir. Epik folklor ənənəsindən bəhrələnmədə bu bir istiqamətdir. XIX əsrin son rübündən başlayaraq, bu həmişə çoxalan şəkildə inkişaf etmiş, bir növ düşüncə tipi kimi modelləşmişdir. T.Elçin də öz yaradıcılığında məhz bundan bəhrələnməklə maraqlı bədii nümunələr yaratmışdır. "Qar qız" nağılı da bunun bariz nümunəsidir. Öz qız yoldaşları ilə meşəyə gedən Qar qız rəfiqələrinin sözündən çıxa bilməyib odun üstündən atılır. Bununla da buluda çevrilir. Qarı ilə Qoca isə meşənin yollarına baxıb Qar qızın gəlməsini gözləyir.

Uşaq ədəbiyyatı üçün ən uğurlu cəhət sənətkarın uşaq dünyasını fəth edə bilmək bacarığıdır. T.Elçin də məhz bu dünyanın zənginliyinə, maraq və ehtiyaclarına bələd sənətkar kimi belə tipik sənət nümunələri yarada bilmişdir. Məlum olduğu kimi, uşaq folklorunun ən maraqlı janrlarından biri nağıllardır. Ümumiyyətlə, nağılları "böyüklər" və ya "uşaqlar" üçün yaranmış nağıllar kimi quruplaşdırmaq olmaz. Bütün nağılları uşaqlar maraqla dinləyir, yadda saxlayır və dönə-dönə həvəslə nağıl edirlər. Ancaq bu janrlar içərisində alleqorik nağıllar qrupu uşaqlar üçün maraqlıdır... Bunlarda uşaqların yaş xüsisuyyətləri, psixologiyası, maraq dairəsi çox məharətlə nəzərə alınmışdır" **(3, 220).** T.Elçin də nağıllardakı bu zənginlikdən bəhrələnmiş, "Pişik və sərçə", "Qarğanın məktəbində", "Qarğa niyə qarr eləyir", "Dovşan, tülkü, canavar" və s. kimi alleqorik xarakterli nağıllar yaratmışdır. Bunlar bir problem kimi tədqiqatlara həmişə ehtiyac doğurmuş və sənətkar istedadının faktı olaraq müxtəlif fikir və mülahizələrə geniş imkan yaratmışdır. Azərbaycan xalqının yaratdığı "Tülkü baba və hacıleylək", "Tülkü və kəklik", "Tülkünün kələyi, "Tülkü və ilan", "Tülkü və canavar" və s. kimi nağıllar həmişə uşaqları özünə cəlb eləmişdir. "Pişik və sərçə" alleqorik nağılında T.Elçin tipik bir mənzərəni mətnə gətirir. Başlanğıc hissədə bir ac pişiyin təsvirini görürük:

Bərk acımışdı
Bığlı pişik.
Qoymamışdı
Yırtıq, deşik.
Axtarmışdı
Həyət-həyət
Tapmamışdı
Bir tikə ət. **(2, 119).**

T.Elçin zəngin yaradıcılıq imkanına malik sənətkarlardandır. Onun yaradıcılığında, göründüyü kimi, mühüm bir hissəni nağıllardan, yanıltmaclardan, tapmacalardan, əfsanə və rəvayətlərdən gələn təsirlər, motiv, hadisə, süjet elementləri təşkil edir. Hətta istedadlı sənətkar yaratdığı bədii nümunələrin əvvəlində "xalq nağılı əsasında" kimi ifadəni işlətməklə bir növ epik ənənədən davamlı olaraq bəhrələndiyini vurğulayır. Uşaq təsəvvüründə hər bir heyvanın (dovşan, tülkü, canavar, pişik, sərçə, qarğa, pələng və s.) özünün dərki və yaratdığı təəssürat vardır. Bunun kökləri bütünlükdə xalqın ilkin düşüncəsindən gəlmə yaddaşa, heyvanların xarakter xüsusiyyətinin təsəvvürünə bağlanır. Məhz T.Elçin də sərçə ilə pişiyin qarşılaşması timsalında bunları bədii arenaya gətirir. "Qarğanın məktəbində" nağılında isə adından da göründüyü kimi, bir başqa mənzərənin şahidi oluruq. Belə ki, "az-çox oxumuş qarğa"nın dil öyrətməsi məsələlərindən danışılır. Uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən olan S.S.Axundovun "Tutuquğu" hekayəsinin təsirində yazılmış bu əsər zahiri baxımdan bir-biri ilə xeyli yaxınlaşsa da, ancaq ideyası, problematikası

anlamında tamamilə fərqlənirlər. S.S.Axundovun nağılında ("Tutuquğu") bütün hadisələr ictimai-siyasi mühitin ifadəsinə, dövrün problemlərini təqdimə hesablanmışdır. Ancaq T.Elçin burada sırf uşaq yaddaşını, quşlar haqqında təsəvvürlərini ifadə etmək və formalaşdırmaq yolunu tutmuşdur.

Məktəbə
Qarğa qaldı,
Bir də tutu quşları;
Onların bir-birindən
Gəlirdi çox xoşları. (1, 46).

Epik folklor ənənəsindən bəhrələnmədə T.Elçin yaradıcılığı həmişə imkanlılıqla, arxetiplərin, müxtəlif düşüncə və təsəvvürlər sisteminin oyanışı və uğurlu təqdimi ilə görünür. Onun nağıllarının, yanıltmaclarının, tapmacalarının mahiyyərində xalqın zəngin təsəvvürləri, həyat bilgisi dayanır. Uşaq folklorunun zəngin poetik sistemi, mətn proyeksiyası təkcə təsəvvürlərin formalaşdırılmasına deyil, bir bütöv olaraq milli yaddaşın müəyyənliyinə, gələcəyə, şəxsiyyət və xarakter fenomenliyinə hesablanmışdı. "Tülkünün kürkü söküldü, kürkünün tükü töküldü", "Qız qazı qaza tutdu, qazı qız ütdü", "Ağacdələn ağacı dəldi, ağaca gələndən, dələnin də acığı gəldi ağacdələndən" **(2, 57-58).** Bütün bunlar T.Elçin poeziyasında epik ənənənin bir sistem təşkil etməsini və özünəməxsus formalarla ədəbi arenaya gətirilməsini göstərir.

İşin elmi nəticələri: T.Elçin zəngin folklor ənənələrinə bağlı sənətkarlardandır. Onun yaradıcılığında epik folklordan gələn elementlər mühüm bir hissədir. Uşaqlar üçün yazdığı əsərlərdə nağıllar, yanıltmaclar, tapmacalar forma və məzmun xüsusiyyətləri ilə yeni formatda bədii arenaya gətirilir.

İşin elmi yeniliyi: Epik folklor uşaq ədəbiyyatının mühüm qaynaqlarındandır. Yazılı ədəbiyyatın bütün nümayəndələri ondan yüksək sənətkarlıqla bəhrələnmişlər. T.Elçin də uşaqlar üçün yazdığı əsərlərdə nağıl, yanıltmac, tapmaca və s. ustalıqla istifadə etmiş və yüksək səviyyəli sənət nümunələri yaratmışdır.

İşin tədqiq əhəmiyyəti: T.Elçin yaradıcılığının epik folklor müstəvisində təhlili bütünlükdə uşaq ədəbiyyatının inkişaf istiqamətini araşdırmaq üçün mühüm əhəmiyyət daşıyır və daha ciddi təhlilləri zəruriləşdirir.

ƏDƏBİYYAT

1. Elçin T. Sözlər, nəğmələr, nağıllar, laylalar. Bakı: Gənclik, 1969, 78 s.
2. Elçin T. Şəkərim, duzum.Bakı: Gənclik, 1977, 223 s.
3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı.Bakı: Maarif, 1992, 477 s.
4. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Maarif, 1983, 276 s.
5. Xəlil Z., Əsgərli F. Uşaq ədəbiyyatı. Bakı: ADPU, 2011, 498 s.
6. Məmmədov M., Babayev Y., Cavadov T. Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı: Maarif, 1992, 288 s.

АЛИЙЕВА РУХАНГИЗ

МЕТОДЫ ИСПОЛЬЗОВАНИЯ УСТНОЙ ЭПИЧЕСКОЙ ТРАДИЦИИ В ТВОРЧЕСТВЕ Т.ЭЛЬЧИНА

РЕЗЮМЕ

Т.Эльчин является видным представителем детской литературы 60-80-х годов XX века. В его творчестве прослеживается достаточно много жанровых особенностей, тем, источником которых является фольклор. В произведениях Т.Эльчина ярко проявляются традиции эпического фольклора. Сказки, пословицы, легенды, предания, загадки составляют источник энергетической силы творчества Т.Эльчина. Он, широко используя поэтические формулировки народного творчества, создал оригинальные образцы искусства и обогатил детскую литературу.

RUHANGIZ ALIYEVA

EPIC FOLKLORE TRADITIONS IN THE CREATIVITY OF T.ELCHIN

SUMMARY

T.Elchin is one of famous members of children's literature of 1960-1980 years. In his creative activity he has used from genre peculiarities, and themes of folklore for many times. Epic folklore traditions show itself as a powerful side in his works. Tales, legends, riddles, patters ensure the most energetic source of T.Elchin's creativity. He also used from poetic formulas of folk literatures and in this way could create original art samples, and could enrich the child's literature too.

Rəyçi: Məhərrəm Qasımlı
Filologiya üzrə elmlər dortoru, professor

GÜLSÜMXANIM HASİLOVA
AMEA Folklor İnstitutunun
"Folklor və yazılı ədəbiyyat" şöbəsinin böyük elmi işçisi
gulsumxanim@rambler.ru

ƏZİZƏ CƏFƏRZADƏ ROMANLARINDA MAHNI MƏTNLƏRİ

Açar sözlər: *xalq mahnıları, etnoqrafiq yaddaş, Əzizə Cəfərzadə, xalq məişəti, roman*
Ключевые слова: *народные песни, этнографическая память, Азиза Джафарзаде,народный быт, роман*
Key words: *folk songs, ethnographic memory, Aziza Jafarzadeh, folk welfare, novel*

Xalq yazıçısı Ə.Cəfərzadənin lirik folklorizmlərdən istifadəsi, konkret olaraq, bədii mətnin folklor dili və düşüncəsindən istifadə etməklə qüvvətləndirilməsinə xidmət edir. Müəllifin nəsrində bu iki şəkildə: bəzən şüurlu bədii yaradıcılıq, bəzən də təbii axarla baş verir. Məsələn, elə olur ki, Ə.Cəfərzadə folklorizmləri şüurlu şəkildə bədii mətnə gətirməklə müəyyən məqsəd güdür. O, bədii situasiyanı məqsədli şəkildə "folklor qəlibinə" yerləşdirməklə bədii hədəfi əldə etmənin folklora məxsus sxemlərindən istifadə etmiş olur. Folklor qəlibləri aydın mənası olan sxemlərə əsaslanır. Belə sxemlər bəzən yazıçıya öz sözünü, fikrini, məqsədini sərrastlaşdırmaq üçün lazım olur. İkinci hal Ə.Cəfərzadənin özünün folklora təbii bağlılığından irəli gəlir. O, folklor mühitində böyümüş, daim folklorla ünsiyyətdə olmuşdur.

Əzizə Cəfərzadə ədəbi-bədii irsində folklordan istifadə xalq lirikası-bayatı, layla-oxşamalar, xalq mərasimlərininin təsviri, inanclar, mahnı mətnləri, uşaq folklorundan qaynaqlanan nəğmə, tapmacalar, atalar sözü və məsəllərə əsaslanır. Bu nümunələrin hər biri yazılı ədəbiyyatda öz janr xüsusiyyətlərinə uyğun işlədilir.

Folklor ədəbiyyatında qərarlaşan mahnı mətnləri bədii əsərlərdə lirik-psixoloji ovqatın verilməsində bu və ya digər dərəcədə obraz yaratma prinsipi, kompozisiyaya öz təsirini göstərir. Bu, mahnı janrının öz poetik təbiəti ilə bağlıdır. Dahi bəstəkar Üzeyir Hacıbəyov yazır ki, el nəğmələri kimlərin əsəri olduğu naməlumdur. Bu əsərlər xalq arasından işlənərək el nəğməsi namı almış və belə havaları hər gecə düzəltmək mümkün deyildir (9, 184). "El mahnıları bəzən yüngül və ağır bəhrəli təsniflərə oxşar; bu musiqinin həm havası, həm də sözləri başlıca xalqın məhsul əsəridir; bunların bir çoxu eşq və məhəbbəti, bir xeylisi də xalq həyatında vücuda gələn və xalq üzərində təsirlər buraxan hadisələri oxşayan qəflətlə bəstələnib, aşıqlar vasitəsilə el ağzına düşüb, Azərbaycanın hər yerini gəzib dolaşır" (8, 189). "İş bundadır, bu gün bizim musiqi və musiqi ədəbiyyatı naminə nəyimiz varsa, o da bizim el mahnılarımızdadır. El mahnılarımız bizim musiqi sərvətimiz və musiqi mənbəyimizdir" (7, 201).

Mahnı bir janr kimi lirik şeirin ən qədim növlərindən biri, avazla oxunmaq üçün yaradılmış şeirdir. Mahnı, adətən, bir neçə bənddən ibarət olur, bəndlər nəqəratla qurtarır. Qədim zamanlarda mahnı xalq tərəfindən çox vaxt musiqi melodiyası ilə birlikdə yaradılır, musiqi və rəqslə qırılmaz şəkildə bağlı olurdu. Mahnı musiqi və rəqsin müşayiəti ilə ya iş zamanı, ya dini və məişət mərasimlərində, ya da el bayramlarında ifa olunurdu. Xalqın mahnı irsində mərasim və qeyri-mərasim mahnılarından ibarət iki növə rast gəlinir. Ailə-məişət mərasimləri ilə əlaqədar mahnılarda xalq həyatının ən əlamətdar məqamları və xüsusiyyətləri öz əksini tapır.

Azərbaycan xalqı əmək prosesində ifa edilən əmək mahnıları, əkin-biçin zamanı oxunan holavarlar, toy mahnıları, məhəbbət mahnıları və s. yaratmışdır. Tarixi və qəhrəmanlıq mahnılarında tarixi, inqilabi hadisələr, xalq qəhrəmanlarının şücaəti tərənnüm edilir (11, 122-123). "Mahnı janrı həm öz yaranma texnikası, həm də janr strukturuna görə çox mürəkkəb hadisədir. O, bir tərəfdən ədəbi mətnə malikdlir, digər tərəfdən mahnının hökmən musiqisi olmalıdır. Bu cəhət onu nəğmələrdən fərqləndirir. Başqa yandan mahnılar da nəğmələr kimi mərasimlərlə sıx bağlıdır. Lakin nəğmələrdən fərqli olaraq, mahnılarda bəstəçilik, yəni onun musiqisinin yaradılması mütləq hadisədir. Bu da mahnını fərdi yaradıcılıq hadisəsinə çevirir. Ancaq xalq mahnılarının müəlliflərinin kim olduğu bəlli deyil. Yenə də bu halda xalq mahnılarının musiqisinin orijinal olması naməlum bəstəçinin varlığını reallığa çevirir"(4, 116). "Mahnıların çoxu bilavasitə iş, əmək prosesində meydana çıxdığından onların melodiyaları da özləri ilə paralel surətdə yaradılmışdır. Əsasən lirik xarakter daşıyan xalq mahnıları məzmunca müxtəlifdir. Onların böyük əksəriyyətində məhəbbət, sevənlərin saf duyğuları həsrət və iztirabları tərənnüm olunur. Xalq mahnılarının müəllifi məlum deyildir" (5, 57-58).

Ən başlıcası və mövzumuzla bağlı tərəfi odur ki, "mahnı xalqın qəlbidir. Mahnı xalqın mənəviyyatı, daxili aləmi, fikri, hissi, düşüncələri, iztirabları, sevinc və kədəridir, mahnı xalqın özüdür. Mahnılarına görə xalqın həyat tərzini, toyunu, yasını, mübarizəsini müəyyənləşdirmək mümkündür" (6, 153).

Qeyd edək ki, Azərbaycan ədəbiyyatında lirik-romantik nəsr bu baxımdan digər epik əsərlərdən "çeviklik, təhkiyədəki hissi emosional boyaların üstünlüyü, romantik çalarlar, insani kompozisiyanın mərkəzinə çəkmək, onun daxili aləminin əhval-ruhiyyəsindəki keçidləri təsirli və incəliklərinə qədər canlandırmaq, düşüncələr axarını "içəridən" açıb göstərmək..." (10, 8) və s. ilə fərqlənir. Qeyd olunan psixologizmin geniş epik həcmli əsərlərdə əksi isə daxili monoloqla yanaşı, lirik mətn-mahnılar əsasında da qurulur. İnsanın emosionallığı, ovqatından yoğrulan xalq lirikası zamanla özünün zəngin nəğmə mətnlərini yaratmışdır ki, bu folklor nümunələri bədii ədəbiyyatın üslub səciyyəviliyində ayrıca poetik mərama çevrilmişdir.

Xalq lirikasının formalaşması, mövzu-tematikası bütün hallarda insan emosiya, hisslərindən qaynaqlanan qədim, zəngin bir mənbədir. Xalq mərasimlərinin rituallarında tarixin müxtəlif dönəmlərində formalaşan ilkin nəğmələr sonradan özünəməxsus ritmikliyini saxlamaqla bitkin musiqi laylarına çevrilmişdir. Daha çox bayatı mətnləri üzərində qurulan mahnıları sonradan gəraylı, qoşma-müxtəlif şeir şəkilləri və digər ölçüdə qurulan mahnı strukturunda mətnlər əvəz etmişdir. "Lirik mahnı fonunun ümumi mənzərəsindən açıq şəkildə görünür ki, bayatılar üzərində qurulan xalq mahnıları həm say etibarı ilə, həm də aktivlik, izlənmə tezliyi baxımından əsas hissəsini təşkil edir". Ə.Cəfərzadənin bədii irsi-romanlarının çoxşaxəli süjet xətti, müxtəlif məzmununda da bayatı üzərində qurulan mahnı mətnlərinə geniş yer verilmişdir. Bu mahnılar ayrı-ayrı obrazların dilindən onların ruhi-mənəvi ovqatları, emosional düşüncələrinin bədii ifadəsi kimi canlanır:

Şamaxı bazarımış,
Mirzələr yazarımış
Nə duman var, nə də çən,
Yar yardan azarımış (3, 136).

"Yad et məni" romanında Şəmsanın hüznlü baxışları altında oxuduğu "Sarıtorpaq" şikəstəsinin bu bayatıya bağlı yanğısı A.Səhhətin duyğuları, nakam sevginin çırpıntılarının ardınca verilməklə mövcud vəziyyəti daha emosional şəkildə

ifadə edir. Xalq mahnılarının tarixi səciyyəsi, bununla da özünün ümumi məzmununda müəyyən sosial, mənəvi hadisələrin qorunması funksionallığına bağlıdır. Mahnıların ümumi təsnifatında tarixi mətnlərdə ayrılan bu nümunələr yazılı ədəbiyyatda yazıçının düşüncə və qayəsinin örtülü, simvolik ifadəsi kimi diqqəti cəlb edir. Məlumdur ki, Azərbaycan ədəbiyyatında istər poeziya, istərsə də nəsrdə Cənub-Təbriz mövzusu həmişə kədər, ayrılıq, xalqın ümumi faciəsi kimi götürülmüş, ayrıca mühacirət ədəbiyyatımızda vətənin istiqlalı ilə bağlı mövzuların önündə dayanmışdır. Ə.Cəfərzadə də "Yad et məni" romanında musiqi folklorumuzda yer alan tarixi hadisəni hambalın parodiyaya çevrilib oxuduğu mahnı mətni üzərində saxlamışdır:

Təbriz üstə Miyana,
Bülbül gülə dayana,
Oxu, bülbülüm, oxu, bala,
Bəlkə yarım oyana.

Təbriz üstü Marağa,
Zülfün gəlməz darağa,
Mənim yarım uşaqdı, bala
Öyrətməyin arağa (3, 207).

Tarixi-siyasi yaddaşın həkk olunduğu bir sıra məqamlardan dolayı ifaya çevrilən bu mahnı mətnindən haşiyə çıxan yazıçı xalqın daha ümumi dərd, bəlalarına toxunur: "Oxuduğun mahnılardakı şəhərlərdən hansıdı vətənin, oğlan? Təbrizinmi, Miyanəninmi, Marağanınmı həsrəti ilə oxuyursan onları. Biçarə, sənin dərdinə ürəkdən yanan Sabir daha yoxdur. Sabir İran inqilabına, sizin hürriyyət divanınıza bir ordudan çox xidmət elədi. Elə Türklərə də...Zəka, zəka, Sabir zəkası !.!"(3, 207).

Əzizə Cəfərzadə "Bakı-1501" tarixi romanında da ayrıca mahnı mətnlərinə yer vermişdir. Folklorumuzda daha çox "əzab çəkən aşiq", "yaralı sevgili" obrazlarının simvollaşdırıldığı "Bülbül"ə müraciətlə başlanan nəğmələr burada sadə xalq nümayəndəsi və el toylarının xanəndəsinin dili ilə verilir:

Bülbülüm geydin yaşılı,
Süsən sünbülə dolaşı.
Ağlamaq mənə yaraşı,
Sən ağlama, mən ağlaram (2, 119).

Qeyd olunduğu kimi, Ə.Cəfərzadə bədii irsində xalq məişəti, həyatının bütün xırdalıqları ilə təsvirinə toy mərasimlərinə ayrıca toxunmuş, bu mərasimin öz əsərlərində geniş epik təsvirini vermişdir. Xalq mahnılarımızın böyük bir qismini ailə-məişət nəğmələrinə aid olduğunu nəzərə alsaq, o zaman bu mərasimlərdə mahnılara geniş yer verildiyi daha çox diqqət mərkəzinə keçir. Ə.Cəfərzadə el-oba toylarının keçirilməsində toyun təşkili, gəlin-bəyin bəzədilməsi, onların uğurlanması və s. yanaşı, toylarda oxunan xalq mahnılarına da mərasimin daxili, struktur özəlliyi kimi ayrıca toxunmuşdur. Bu mahnıların təqdimində yazıçının hər hansı bir hadisə, obraza münasibəti deyil, sadəcə xalqın toy mədəniyyətinə olan müşahidəçi kimi mövqeyi, etnoqraf kimi düşüncəsi yer alır. Aşıq deyişmələri sadə xalq mahnıları, qadın məclislərində günü deyişmələri və s. maraqlı epizodlarda çıxış edən yazıçı Azərbaycan toylarının mahnı üzərində qurulan səciyyəviliyin və bölgələr üzərində dəyişən fərqli xüsusiyyətlərinə toxunur. "Baki-1501" romanında da Ə.Cəfərzadə Taclı xanımın "Xınayaxdı" mərasiminin təsvirini vermişdir.

Taxtın bərəkallah, gəlin,
Bəxtin bərəkallah!
Ağ əllərə əlvan həna,
Yaxdın bərəkallah, gəlin,
Yaxdın bərəkallah" (2, 117).

Ədibin romanlarında xüsusi ilə diqqət çəkən məqamlardan biri qadın məclisləri- "qız yığdı", "paltar kəsdi", "xınayaxdı" mərasimlərində oxunan bir sıra mahnıları ayrıca diqqət mərkəzində saxlaması, xalq məişətinin ailə birliyində müəyyən adətlərə üstüörtülü də olsa öz münasibətini bildirməsidir. Yenə də "Yad et məni" romanında yazıçı "qız yığdı" mərasiminin ümumi təsvirində Vayid qızının günü olan qadınların dilindən oxuduğu mahnı mətnini verir:

Gülü-gülüstan üstünə,
Gün düşdü bostan üstünə,
Gedin deyin o tülküyə,
Gəlməsin aslan üstünə !

Sonra da ikinci arvadın dili ilə söylənilir:

Gülü-gülüstan üstünə,
Şeh düşür bostan üstünə,
Gedin deyin o aslana,
Dağ gəlir aslan üstünə (3, 115).

Hal-hazırda da Azərbaycanın bəzi bölgələrində (o cümlədən Sirvan bölgəsində) "Xınayaxdı", "Qızyığdı" mərasimləri qeyd olunur.

Yazıçının da qeyd etdiyi kimi, "mövzulu rəqslərin təşkili", xüsusilə "günülər rəqsi Şirvan xanımlarının hamısının ürəyinə yatardı" (3, 115). Qadın toylarında ayrı-ayrı mövzularda oxunan mahnılar, eləcə də kiçik səhnələşdirmələrlə müşahidə olunan xalq oyunları ilk baxışda məclisin daha şux, təmtəraqlı, şən keçməsinə bağlıdırsa, digər tərəfindən qadının cəmiyyətdə yeri, hüquqsuzluğu, ailədəki mövqeyi və s. mahnı dilində məclisə çıxarılması, xatırladılmasıdır. Günülərin rəqsi, günü deyişmələrinə müasir Azərbaycan toylarında çox az təsadüf olunduğu halda Ə.Cəfərzadə bu xalq mahnılarını və rəqsini ən qədim örnək nümunəsini bədii əsərlərinin yaddaşına salmaqla tarixi etnoqrafik məlumatın qorunması qayğısına da qalmışdır.

Mahnıların yaranması, yeniləşməsi və parodiyalı ifası məişətdə bu xalq ədəbiyyatı janrının formalaşma və funksionallıqlarının dəyişməsinə bağlıdır. Ə.Cəfərzadə də, bəlkə də, fərqinə varmadan mahnının xalq məişətinə bağlı bu qanunauyğunluğuna əsərlərində geniş yer vermişdir. "Aləmdə səsim var mənim" romanında Nisənin dilindən zümzümə olunan mahnı Şirvanda təzə dəbə düşmüş mahnı kimi təqdim olunur:

Sabah olar qazlar gələr,
Dörd bir yanı tozlar gələr,
Tamaşana qızlar gələr,
Dur get, oğlan, sabah oldu,
Yandı bağrım kabab oldu.
Mənim canım sənə qurban,
Sənin canın həlak oldu (1, 42).

Mahnıların mətin, ifa xüsusiyyətləri janr spesifikasına uyğun olaraq məkan və obraz səciyyəviliyinə görə dəyişir. Məhəbbət, sevgi lirikasının tərənnümündə ifa olunan mahnılar bu əsərlərdə eyni hiss, emosiyaları yaşayan qəhrəmanların dilindən

oxunursa, bəzi parodiyalı nəğmələrin ifası daha fərqli obrazların dilindən verilir. Məsələn, "Aləmdə səsim var mənim" romanında tabakçı yetim Hüseynin oxuduğu "Mütrüb havası" obrazın ətrafdakıları güldürmək məqsədinə bağlıdırsa, "Yad et məni" romanında hambalın ifa etdiyi parodiyalı mahnısa onu dinləyənlərin sayının artması marağından irəli gəlir:

Gedərəm vağzala girrəm,
Dönərəm istoruş ollam,
Qurban ollam palana,
Onu çiyinə salana,
Səni çoxdan sevirəm…..(1, 140)

Ə.Cəfərzadənin bədii irsində xalq mahnı, nəğmələrinin geniş yer verilməsi həm təsnifat, həm də funksionallığı baxımından müxtəlif səviyyələrdədir. İnsan emosiya, düşüncələrinə bağlı mahnı mətnləri yazıçının ayrı-ayrı obrazlarının daxili-mənəvi iztirabları, düşüncələrindən qaynaqlanan məhəbbət və sevgi lirikasından çıxış edir. Bu mahnılar obrazın hadisələrdəki mövqeyinə uyğun seçilərək, yazıçı təfərrüatının qarşısını alır, obraz, hadisəyə münasibəti ümumiləşdirir. İkinci halda isə bu mahnılar tarixi-siyasi, sosial münasibətlərin mahiyyətinə daxil olmaqla yazıçı qayəsi, fikrinin ifadəsində lirik-mətn işarəviliyinə çevrilir.

Ə.Cəfərzadə romanlarında mahnıların funksionallıq göstəricisi onların ifasının məkan, mövqeyi xalq mərasim və rituallarına görə dəyişir. Toy mərasimlərinin, geniş kütlənin içərisində yaranan, oxunan bu mahnılar yazıçının etnoqrafik müşahidələrinə əsaslanmaqla həm də məqsədli səciyyə daşıyır.

Bütövlükdə götürdükdə, qeyd etmək lazımdır ki, xalq nəğmə, mahnıları Ə.Cəfərzadənin romanlarında təsadüfi şəkildə yer almamış, xalq məişətindən irəli gələn etnoqrafik yaddaş olaraq qorunmuş, bədii əsərin süjet sərbəstliyi, obraz səciyyəviliyi, lirik-romantik pafos müəyyənliyində mühüm bədii göstərici, məqam olaraq götürülmüşdür.

Ə.Cəfərzadənin bədii yaradıcılığında mahnı janrından yaradıcı istifadənin təhlili nəzəri cəhətdən bunları göstərir:

Birincisi, bədii ədəbiyyatda mahnı ümumiyyətlə psixologizmə xidmət edir. Mahnı bədii mətndə psixologizmin ifadəsinin ən işlək janrıdır. Ə.Cəfərzadənin yaradıcılığında mahnılardan bu istiqamətdə yaradıcı istifadə geniş xarakterə malikdir.

İkincisi, mahnılar insan mənəviyyatının emosional sahəsi ilə bağlıdır. Mahnılarda hiss-həyəcan, ovqat xüsusi üslub təşkil edir. Yazılı ədəbiyyat, əslində, mahnı üslubu olmadan, bir növ, keçinə bilmir. Mahnı istər bir poetik mətn, istərsə də görünməyən lirik üslub, arzu-istək, həsrət və s. kimi emosiyaların görünməyən qatı kimi Ə.Cəfərzadə nəsrində xüsusi çəkiyə malikdir.

Üçüncüsü, mahnılar Ə.Cəfərzadə nəsrində onun düşüncə və qayəsinin örtülü, simvolik ifadəsi kimi də diqqəti cəlb edir.

Dördüncüsü, Ə.Cəfərzadənin bədii nəsrində daha çox məhəbbət, sevgi mövzusunda olan mahnılar qəhrəmanların dilindən oxunmaqla obrazların mənəvi dünyasının əsas ifadə qəliblərindən biri kimi çıxış edir.

Beşincisi, mahnılar Ə.Cəfərzadənin romanlarında həm də etnoqrafik yaddaş motividir. Bu yaddaş dünənlə bu gün arasında körpü olmaqla onun romanlarında ifadə olunan zamanı dünəndən başlanıb, bu gündən keçməklə gələcəyə gedən əbədiyyət hadisəsinə çevirir.

ƏDƏBİYYAT:

1. Cəfərzadə Ə. Aləmdə səsim var mənim. Bakı: Gənclik, 1972, 224 s.
2. Cəfərzadə Ə. Bakı-1501. Bakı: Yazıçı, 1981, 263s.
3. Cəfərzadə Ə. Yad et məni. Bakı: Gənclik, 1980, 317s.
4. Caferli M. Folklor və Etnik-Milli Şüur. Türkiye Türkcesinə Aktaran Alpertunga Altaylı. Ankara: 2007
5. Elçin, Quluyev V. Özümüz və sözümüz. Bakı: Azərnəşr,1993, 113s.
6. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, 404s.
7. Hacıbəyov Ü. Azərbaycanda musiqi tərəqqisi. Ü Hacıbəyov. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, 194-204s
8. Hacıbəyov Ü. Azərbaycanın musiqi həyatına bir nəzər// Ü. Hacıbəyov. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, s.184-194.
9. Hacıbəyov Ü. El musiqisi haqqında // Ü. Hacıbəyov. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, s.184
10. Hüseynov A. Nəsr və zaman. Bakı: Yazıçı,1980, 183 s.
11. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı: "Azərbaycan ensiklopediyası" N-PM, 1998

GÜLSÜMXANUM QASIMOVA

ПЕСЕННЫЕ ТЕКСТЫ В РОМАНАХ АЗИЗЫ ДЖАФАРЗАДЕ

РЕЗЮМЕ

В статье предоставление широкого спектра народным песням, пениям в художественном наследии Азизы Джафарзаде, на различном уровне как со своей функциональностью, а также с точки зрения классификации. Тексты песен, связанные идеями и эмоциями человека, вызваны любовной лирикой и благорасположением исходящих из внутренно-моральных страданий отдельных образов автора. Народные песни попали в романы Азизы Джафарзаде, не случайно. Они были сохранены как этнографическая память, формировавшаяся из народного быта. И как самостоятельный сюжет художественного произведения являются образной спецификой, важным художественным показателем.

GULSUMHANIM HASILOVA

THE SONG TEXTS IN THE NOVELS OF AZIZA JAFARZADEH

SUMMARY

Giving a large place to the folk songs, melodies in the artistic heritage of A.Jafarzadeh are various levels both from the classification and functionality point of view. The song texts dealing with the human emotion and thoughts perform from love and affection lyrics soldering from internal and spiritual sufferings, thoughts of different images of writer. The folk songs were not taken place in the novels of Aziza Jafarzadeh coincidentally, were saved as an ethnographic memory, the plot liberty of art work, image specificity are noted as an important literary opportunity.

Rəyçi: Kamran Əliyev
Əməkdar elm xadimi, fil.ü.e.d., prof.

ƏSGƏROVA YADİGAR
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
yadigar2012@gmail.com

S. MƏNSUR YARADICILIĞINDA İRONİYA

Açar sözlər: *Səməd Mənsur, tənqid, ironiya, satira, şeir*
Ключевые слова: *Самед Мансур, критика, ирония, сатира, стих*
Key words: *Samad Mansur, critic, irony, satire, poem*

XX əsrin əvvəllərində ədəbiyyatımızda olduqca aktual olan ironik təfəkkür aparıcı ədiblərin çox müraciət etdiyi ifşa üsuluna, tənqid formasına aid idi. Bu dövrün ictimai-siyasi mənzərəsinin romantik və ya realist bədii tərənnümündə estetik kateqoriya kimi ironiya məcaz, sintaktik fiqur, bədii üslub tərzində meydana çıxırdı. C.Məmmədquluzadənin, M.Ə.Sabirin, Ə.Haqverdiyevin, H.Cavidin, M.Hadinin yaradıcılığında müşahidə edilən ironiya texnikası "ideallarla" "gerçəkliyin uyğunsuzluğu"ndan (5, 223), gerçəkliyin fövqündə olmaq düşüncəsindən qaynaqlanırdı…

Metod, növ və janr məhdudluğu olmayan ironiya adi bir danışıqda , bütöv bir mətnin daxilində, ifadə tərzində də meydana çıxa bilir. Zahirən müsbət mənada deyilib mənfi anlam bildirən, fikri dolayı yolla çatdıran kinayə - ərəbcə tənə etmək, toxunmaq deməkdir, yunan sözü olan "ironiya" isə (eironeia), istehza, hiylə mənasındadır. Yerində və məqamında işlətmə ustalığına görə ironiya hər bir yazarın fərdi üslubunda yeni forma və statusda görünə bilir, bəzən isə eyni kinayə texnikası onlarla şairin əsərlərində təkrar işlənir..

İronik düşüncə tərzinin meydana gəlməsini, işlənmə zəruriyyətini dilçilər, psixoloqlar, məntiqçilər, semiotikanı –dil işarələrini tədqiq edən alimlər də araşdırmışlar. Psixoloqlar bu üsulin şüurlu və ya təbii təzahür yollarını, filisoflar ironiyanın məntiqi və qeyri-məntiqi formalarını, semiotika biliciləri isə mətndə kinayənin "kodlaşmasını" və " şifrələrin açılması" problemlərini araşdırmışlar. Dilçilərə görə ironik obrazlar hər bir konkret olayda xüsusi və təkrarolunmazdir (7). Klassik estetikada ironiya komikliyin atributu kimi satirik ədəbiyyatın üsullarından olmuşdur. Alimlərin fikrincə, XVIII əsrin axırı, XIX əsrin əvvəllərində isə "məhz romantik estetika "ironiyanı" həyat fəlsəfəsinin yüksəkliklərinə, spesifik dünyagörüşü səviyyəsinə qaldırdı, ona tragik çalar verdi"(6).

XX əsrin əvvəllərində ədəbi-ictimai aləmdə fəal iştirak edən Səməd Mənsurun yaradıcılılığında ironiyanın xüsusi yeri var. S.Mənsurun istehza, kinayə ahəngi həm bütöv mətndə, həm də ayrı-ayrı detal və obrazlarda ifadə edilə bilir. Zamanın diqtəsi olan ironik üslub S.Mənsurun poeziyasında xüsusi kəskinliyi , hətta fərdi yazı manerası olaraq diqqət çəkir. Bu kinayə şairin təkcə poeziyasında yox, publisistikasında, pyeslərində də tənqid vasitəsitələrindən biridir. İroniya ədibin ictimai- siyasi hadisələrə etiraz pafoslu bədii reaksiyası, özünüifadə üsuludur.

"Ərdəbildəndir" rədifli satiranin bütöv mətnində ironiyanin imkanları tənqidin kəsərli və təsirli olmasını təmin edir. Cənubi Azərbaycanın Ərdəbil şəhərində o dövrdə Bakıdan fərqli olaraq tamam başqa bir həyat yaşanırdı. Ərdəbil mövhumatın, xurafatın, geriliyin kök saldığı bir şəhər olduğundan, onun adının rədif

kimi mətnin sonunda təkrarı, guya etinasız və laqeyd intonasiya ilə işlənmə mexanizmi ironiyanı artırır. Mətndəki obrazlar "imamə baş yaran"," Marksa himmət", "bütün daşnakların püştü-pənahı Mirzəyan şahı", "ona itaət, həm ibadət","gah babi, gah leninçi balaxanılılar" , sonda "bütün millət" Ərdəbildəndir, naqisliklərin mətləb və problemin baş verdiyi yerə yox, kənara, başqa məkana aparılması satira üsulunda tez-tez işlənən ədəbi priyomlardandur (2,24).

Səməd Mənsurun "əlbəttə ki", "həmmalsəvar" rədifli şeirlərində də rədifin mətnlə bağlılığını, ironiyanı artırmaq vəzifəsini də daşıdığının şahidi oluruq. «Həmmalsəvar» sözünün hər misrada təkrarı surətlərin komik vəziyyətləri, tipik xüsusiyyətləri, əsər ətrafında klassik satiradan söz açmağa imkan verir. Qarşımızda açılan mənzərə cəmiyyətin bütün üzvlərini, müxtəlif təbəqələri zahirən məzəli dillə göstərir:

Caddələrdə seyl çay tək axmaqdadır,
Qaspadinlər səfbəsəfdir binizam, həmmalsəvar (1,77).

Müxtəlif ictimai zümrələrin qarşılaşdırılmasında -"qaspadinlər-həmmalsəvar" meydana çıxan təzad və ironiya varlı təbəqələrin təcəssümündə daha qabarıq və məqsədyönlüdür.

Koloritli məişət ifadələri, obrazların spesifik xarakteri, maraqlı bədii müşahidələr satirik tiplərin canlı təsvirini gücləndirir. Şıdırğı yağış səhnəsində cəmiyyətin təbəqələrindən olan tipaj da eyni yumor və kinayə çaları ilə verilir:

Cibdə bir girvənkə qoz, qaçdıqca şaqqıldar, o kim?
Bir mürəttib şəxsidir biehtiram, həmmalsəvar (1,77).

Misralarda təkrarlanan "Həmmalsəvar" sözü təkcə müstəqim mənalı insan daşıyan hambalı deyil, dərd, qəm yüklü, həqarətə məruz qalan heyvan səviyyəsindən də aşağı olan kasıb zümrəsini təmsil edir. İncə yumor və incə kədər hissi əsərin pafosunu, bədii keyfiyyətini müəyyən edir. Zahiri balaqanda "hammalsəvarın" varlığı, rədif kimi hər misrada təkrarı bu kədəri və təzadı davamlı olaraq oxucuya səsləndirir. Sözün fonundakı insan tiplərinin bir-birini əvəz etdiyi səhnə miniatür teatr səhnəsi qədər mənalı və canlı görünür :

Bığların millətindən ötrü tez-tez qırxdıran
Millətin artistləri oynar dram həmmalsəvar (1,77).

Bədii əsərdə müəllifin mövqeyini, məramını müəyyənləşdirən ironiya üsulu Səməd Mənsurun müxtəlif səpkili şeirlərində həm açıq, həm də gizli olaraq görünür. Şairin təsvir səhnələrində ironiya – naqis ziyalılara, siyasətçilərə, riyakar ruhanilərə, mövhumatın, geriliyin mücəssəmələri olan tipajlara yönəlir:

Ağrın alım, boynu qıraxmallı bəy,
Bəsdi sataşdın yekəsaqqallara.
Rövzəxana, mollaya etmə hənəg,
Dəymə dəxi unçuya, baqqallara..(1,55).

Xarici əlamətinə görə seçilən "ziyalını" "dilə tutmağa" çalışaraq "yekəsaqqal" yeri gəldikcə özünü də ifşa edir:

Rumka, matışka, kafeşantan, qumar,
İntelligent bundan ibarət deyil.
Əyri dolaş, kizbü-kələk hər nə var,

Bunlar hamı bizlərə adət deyil(1,55).

Tipajların karikatur mənalı adlarından tutmuş "boynu qiraxmallı bəy"- "yekəsaqqallar"; onlara aid sözlərin anlamına qədər (rumka, matışka, kafeşantan, qumar) ironiyanın izləri, onları danışdiran şairin ifşa üsulu açılır. Müasir ziyalının savadsız və avam zümrənin təmsilçiləri tərəfindən rişxəndlə yad olunması tənqidin kəskinliyini artırır.

"Diplomat oğlan"–"qarı ana" konfliktində intelligentin mənəviyyatı gizli ironiya vasitəsilə, təqdiredici "nəsihətlə" üzə çıxır:

Axır nəyə lazım evdə qoca arvad?
Arvad ki, qocaldı, ana olsun, olar həmzad.
Bayquş kimidir, harda otursa, olur bərbad,
Qov getsin evindən, nə deyən şeydir eyib-zad..(1,54).

Rədiflərdəki "diplomat oğlan"ın təkrarı, misralarda "məsləkdediyin şey bir ağır yükdür", "insafa qulaq vermə ki, pustoy qala qarman", "politik gərək olsun"... kimi əcnəbi sözlərə qarışıq ifadələrlə şair hədəfə vurur - yalançı intelligentin həqiqi portretinin cızılmasına, ironiyanın gücü ilə karikatur rəsmin çəkilməsinə nail olur.

"Söyüşün, ey "nəciblər"lər, söyüşün, fəxri- millət "ədib"lər, söyüşün" misralı satira müəllifin dilindən verilir. O dövrdə ziyalılar arasında gedən konfliktlər çox vaxt gündəlik məsələ səviyyəsinə qaldırılır, günlərlə davam edən həcv- hədyanla nəticələnirdi. Müstəqim müraciətlər, zahirən təhrikedici ironiya Səməd Mənsurun üslubunda çox işlənir:

Daşı gəl tök ətəkdən, getmə, millətin qalmasın başsız,
Bu başsız millətə olmaqdan isə pasiban, getdin(1, 68).

"Ey diplomat" oğlan, uzaq ol qarı anandan..", "bulvarda və bağda gəzən avarə həkimlər", "iski"lər, "ov"lar bu gün "li"ləndilər" misralı satiralarda istehza və kinayə hədəfi ziyalılardır .

Tipajların əksəriyyəti nadan və cahil sözlərlə özünü tənqid hədəfi edir; "Qars kimdi? Müsəlman nədi? Pul, pul mənə candır..."(1,52), "getsin oxumuşlar yanar odlara qalansın, Qars, Ərdəhanın kəndləri əğyarə talansın"(1,60). İroniya açıq-aydın, ifşaedicidir. Azərbaycanın şəhər və kəndlərindən qaçqın düşənlərə laqeyd münasibət, ancaq özünü düşünmə mərəzi, maarifə, təhsilə nifrət və millətin halından bixəbərlik – belə hallarda satirik obraz səliqə ilə naqis və xain düşüncələrini utanmadan bəyan edir. İroniya tipin gülməli məqamında meydana çıxır:

Xəstəlik aləmi tutmuş, bu da bir müjdə, əvət,
Xalq ölər, süfreyi-ehsan düzülər, süfrədə ət,
Ağ plov,turşu badımcan, cücə büryan, şərbət,
Yeyərəm, məst olaram bixəbər, inşaallah!
Onda mən də olaram bəxtəvər, inşaallah!(1,82)

"Qarabağlı" "bakılı", "müsəlman ustası" rədifli satiralarında tipaja yönəlmiş ittiham- ifşa ironiya gücünə görə təsirli və realdır:

Nahəqqi tutub həqqi bütün dan qarabağlı,
Boş işdən ötür qəsdilə sal qan qarabağlı,
Qardaşını qıl qanına qəltan qarabağlı..(1,80).
...Ver yesin malını cindar, mərsiyəxan,
Əcnəbilər daşısın neftini milyan—milyan..(1,45).

"Rəngidir" rədifli məşhur müxəmməsində kamuflyaj xəstəliyinin cəmiyyətə

dərindən sirayət etməsinin, maskalanmanın insan xislətinə hopmasının ictimai-fəlsəfi müstəvidə tərənnümünə ironiya havası da qarışmışdır:

Tapmadım aləmdə bir həmdəm ki, olsun biriya,
Görmədim heç kəsdə bir niyyət qərəzdən maəda,
Küllən əbnayi-bəşər öz nəfsinə olmuş fəda,
Nəfsi uğrunda görürsə hər bəla, hər macəra,
"Məslək"ə isnad edər, məslək, dəyanət rəngidir(1,35).

1926-cı ildə yazdığı "Yəs və təhəssür" şeirində S.Mənsurun sovet quruluşundan narazılığı incə və gizli istehza pərdəsinə bürünmüşdür. "Azad olalım" birləşməsi zahirən müstəqim şəkildədir, "şad olalım" ifadəsində gizli ironiya açılır,"qoymadı xəlq ki" ironiyanın dərəcəsini artırır:

Dedim azad olaraq şad olalım,
Qoymadı xalq ki, azad olalım..(1,30).

Şairin poeziyasında izlədiyimiz ironiya çaları, rişxənd pafosu daxili qafiyələrdə, rədiflərin təkrarında sezilir, çoxmənalı məcazlarla, müqayisələrlə kinayənin işləndiyi məqamlarla ortaya çıxır:" Müstəbidlik bəşərin mayeyi-zatında imiş, Qan içən Şümrü dəğa bizdə də var, sizdə də var". Şeir Sovet quruluşunu ideal bir hakimiyyət forması kimi təqdim edənlərə ünvanlanır, zamanındakı naqisliklәri "bizdə də var, sizdə də var" təkrarlanan rədif-işarənin köməyilə müqayisə fonunda bildirir, bilavasitə deyilənlərin yalan olduğunu təkrar rədiflərdə bildirir:

Mərifət qanmayan ərbabi-rəyasət tək-tək,
Qan udan əhli-ziya bizdə də var, sizdə də var..(1,41).

İroniyanın kəskinliyi, işlənmə amplitudu, ifşa dərəcəsi adi ironiyadan sarkazma, qroteskə qədər böyüyərək, eybəcərləşmə mərhələsinə qədər çata bilir. Dərin savadlı, sayıq, uzaqgörən şair bütün naqis halları tənqid süzgəcindən keçirir:

Gülşıni-bəxtın, a yeznə, nə səbəb, soldu sənin,
Millətə yaxdığın odlar gözüvə doldu sənin..(1,66).

Rusiya çarı Nikolayı "yeznə" adlandıraraq, dəqiq mühakimələrlə siyasi olaylara da qarışan, siyasi ironiya tikanlarını lazımlı məqamlarda işlədən Səməd Mənsur əsil satira ustasıdır.

Yeri gəldikcə, şairin özünüironiya hallarını da müşahidə edə bilirik. Xüsusilə həyatının son günlərinə aid olan bu parçalarda ümidsizlik və kədər vurğuları vardır:

Son zamanlar dəyişib əxlaqım,
Elə bil yolda bitən pıtrağım,
Keçənin şalvarına bənd oluram,
Hər kəsə mayeyi-rişxənd oluram(1,24).

Sovet dövrünün ilk illərində "Bacıoğlunun dayıya ərizəsi" və "Dayının bacıoğluna cavabı" mükalimə - şeirləri Azərbaycanla Rusiyanın arasında gedən satirik "söhbət" həm sətiraltı, həm də müstəqim mənadan heç də az seçilməyən kinayə üslubunda satirik parçalardır. Hər iki hissədə obraz zahirən qarşısıındakını aşağılayaraq özünü ifşa edir:

Arxada mən işimi sazlayım, əncamə salım,
Azəri türklərini qafil edib damə salım..(2,2).

Dərin məntiqin nəticəsi olaraq Səməd Mənsurun əsərlərində aşkarladığımız sərrast və dəqiq ironiya üslubu, məcaz və fiqurlar xüsusi kəsəri, eyham və rişxənd çalarları ilə təkrarolunmazdır. Azərbaycanın mürəkkəb və ağır zamanlarını həssaslıqla

qarşılayan, istiqlal, azadlıq arzuları ilə yaşayan şairin poeziyasındakı tənqid həmvətənlərini insanpərvərliyə, savada, doğruluğa çağırır .

ƏDƏBİYYAT

1. Səməd Mənsur. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2006, 247 s.
2. Səməd Mənsur. Həpsi rəngidir. Bakı: "Nicat", 1993, 30 s.
3. Cəfər Xəndan. Sabirin yaradıcılıq xüsusiyyətləri. Bakı:"Azərnəşr", 1962, 436
4. Akpınar Söner. Cam Yücelin şiirlerinde ironi. www.turkishstudies.net/Makaleler/
5. Г.Н.Поспелов. Теория литературы. М, 1978,350.
6. Валентин Дынник. Литературная энциклопедия. Ирония. feb.web.ru.
7. Е.Третьякова. Ирония в структуре художественного текста. www.relqa.ru.

ЯДИГЯР АСКЕРОВА

ИРОНИЯ В ТВОРЧЕСТВЕ САМЕДА МАНСУРА

РЕЗЮМЕ

В статье исследуется сатирическое творчество выдающегося поэта XX столетия Самеда Мансура, ирония рассматривается как важный инструмент для раскрытия образов. Ироническим отношением к историческим и социально-политическим событиям своей эпохи, поэт ясно выражает протест против насилия, несправедливости, его ирония обладает возможностью высмеивать и разоблачать.

YADIGAR ASKEROVA

THE IRONY IN THE WORKS OF SAMED MANSUR

SUMMARY

The article explores the creativity of the outstanding poet of the twentieth century Samed Mansur considered ironic as an important fod for opening images.Ironical attitude to the historical and sosio- political events of his time, so it is clear protest againist violense, injustice it is capable of irony to ridicule and expose.

Rəyçi: Bədirxan Əhmədov
Filologiya elmləri doktoru, professor.

SƏBUHİ MANAFOV
ADMİU-nun magistrantı
sabuhimanafov@gmail.com

AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA FACİƏNİN TƏŞƏKKÜL VƏ TƏKAMÜL MƏSƏLƏLƏRİ

Açar sözlər: *Azərbaycan ədəbiyyatşünaslığı, «Faciə və qəhrəman», dramatik konflikt.*
Keywords: *Azerbaijan's literary criticism, tragedy and hero, dramatic conflict*
Ключевые слова: *Азербайджанского литературоведения, " Трагедией и героя", драматический конфликт.*

Azərbaycan ədəbiyyatşünaslığında dramaturgiyaya aid nəzəri ədəbiyyatın zənginliyinə baxmayaraq bu vaxta qədər faciə probleminə həsr edilmiş ayrıca, sistemli bir tədqiqat əsəri olmamışdır. Dramaturgiyamızın tarixinə dair tədqiqlərin mühüm bir qismi Mirzə Fətəli Axundzadəyə həsr edilmişdir.

Dramaturgiya ədəbiyyatın xüsusi sahəsi olmaqla gələcəkdə səhnələşdirmək üçün yazılmış əsərin ədəbi modelidir. Onun pyes kimi sözlə təzahür formasıdır. Digər yazılı ədəbiyyat nümunələri kimi pyesdə də bədii obraz şərti-verbal sözlə ifadə olunur. Hadisələri dialoq və monoloq hesabına inkişaf etdiyi pyes hər mətləbdən söhbət açıb izah verə bilən nəsrdən fərqli olaraq obrazlı və ifadəli təsvirin meydana çıxmasına əsas verir.

Azərbaycan faciəsinin yaranma tarixi və faciənin folklor əsasları məsələsinə gəldikdə bu məsələ də bir sıra tədqiqatçıların diqqətini daim maraqlandırmış və düşündürmüşdür. Odur ki, Azərbaycan dramaturgiyasında faciə janrının mənşə və inkişafı ilə bağlı olan bir sıra məsələlər həll olunmamış, yaxud da heç ayrıca elmi bir problem kimi irəli sürülməmişdir. Halbuki Azərbaycan faciəsinin tədqiqatçılar qarşısında böyük imkanlar açan maraqlı problemləri çoxdur.Məsələn, maraqlı ədəbi hadisədir ki, çox uzun bir müddət Azərbaycan ədəbiyyatında faciə təbiətli əsərlər olmuş,faciə qəhrəmanı lirika qəhrəmanı olmuş, faciə qəhrəmanı epos qəhrəmanı şəklində özünü göstərmiş, lakin faciə bir janr kimi XIX əsrin sonlarına qədər meydana çıxa bilməmişdir. Xalqın azadlıq hərəkatı, ictimai və fəlsəfi fikir tarixi ilə sıx bağlı olan bir janr kimi faciənin bizim klassik poeziya ilə ölüm və ölməzlik insan və tale, azadlıq və zərurət haqqında uzun müddət Azərbaycan və Yaxın Şərq fəlsəfələri üçün ənənəvi sayılan görüşlərlə əlaqəsi də öz elmi şərhini tapmamışdır.

Tanınmış alim, professor Yaşar Qarayev «Faciə və qəhrəman» əsərində faciənin yaranması, bu janrın təşəkkül tapmasını şərtləndirən ictimai, fəlsəfi və ədəbi amillər, ən əsası isə Azərbaycan ədəbiyyatında çox uzun müddətdən bəri faciə təbiətli əsərlər olduğu halda niyə məhz XIX əsrin axırlarına qədər faciənin niyə janr kimi də meydana çıxa bilməməsinin səbəbləri üzə çıxarılmışdır.

Faciə yazılı ədəbiyyatın mükəmməl bir janr kimi nə üçün Şərqdə gec yarandı? » sualına cavab axtarmaq üçün müəllif birinci növbədə məsələnin tarixi-ictimai köklərinə enir. Araşdırıcı «Şərq adamının təbiəti dramatik ehtirası rədd edir» kimi iddiaları qəbul etmir. Müəllifin haqlı qənaətinə görə, Qərb

ədəbiyyatı klassiklərinin ən tragik ehtiraslar və xarakterlər yaradarkən şərqlilərə müraciət etməsi maraqlıdır. Yüksək dərəcədə dramatik xarakterlərlə Şərqin ədəbi irsi klassik epik və lirik poeziyası heç də az zəngin deyildi ».

Şərq ədəbi-mədəni tarixində mənəviyyat və əxlaqdan gələn və mühafizəkarlıq deyiləcək qədər də sabit olan bir ənənəvilik prinsipi vardı. Burada yüzillərin sınağından çıxan ənənəvi model formal şəkil alan yenilikçilikdən daha çox qiymətləndirilirdi. Qədim Şərq poeziyasının lokal xüsusiyyətləri ilk növbədə hind ədəbiyyatı timsalında nəzərə çarpır. Birinci minillikdən başlayaraq qədim Hindistanda sanskrit dramaturgiyası formalaşmağa başlayır. Bu sırada Aşvaqxoşa, Bxasa, Şudraki və Kalidasanın dramlarını misal göstərmək olar.

Ədəbiyyatşünas alim Yaşar Qarayev Şərq ədəbiyyatında «yüksək dərəcədə dramatik xarakterlərin» mövcud olmasını «Leyli və Məcnun», «Fərhadnamə», «Xosrov və Şirin»əsərləri ilə sübuta yetirir.bu xarakterlərin faciə qəhrəmanlarına çevrilməsinin səbəbini isə müəllif «Şərqin real ictimai vəziyyəti» ilə izah edir: «Məsələnin əsl tarixi-ictimai köklrini kölgədə buraxan belə bir izahı Qərbin elə öz ədəbi faktları təkzib edir. Əgər Şərq adamının təbiəti fəci dramatik ehtirası doğrudan da rədd edirsə, onda məsələn, nə üçün Şərqli bir ərəb, klassik Qərb faciəsində ən tragik və möhtəşəm təbiətli bir surətdir?»

Yaşar Qarayev Şərq ədəbiyyatında «yüksək dərəcədə dramatik xarakterlərin» mövcud olmasını «Leyli və Məcnun», «Fərhadnamə», «Xosrov və Şirin» əsərləri ilə sübuta yetirir. Bu xarakterlərin faciə qəhrəmanlarına çevrilməsinin səbəbi isə müəllif «Şərqin real-ictimai vəziyyəti» ilə izah edir.

Bir sıra məsələlərin elmi həlli zamanı Şərq dünyası, Asiya qarşısında özünü qalib görən bir dünyanın yetirməsi duyğusundan hərəkət edir. Sadəcə, hər bir mədəniyyət öz dövrü, sosial-tarixi şəraiti çərçivəsində qiymətləndirilməlidir. «Dünya incəsənətində (istər Şərq, istərsə də Qərb) XIX əsrin sonu, XX əsrin başlanğıcı zəngin ənənələrə malik olan xalqlar üçün bir çox estetik keyfiyyətlərin qarşılıqlı inteqrasiyası ilə səciyyələnir. Bu inteqrasiyaların milli və fərdi improvizasiyası ilə müşahidə olunması təbii keyfiyyət kimi üzə çıxır».

Beləliklə, Şərq ədəbiyyatında faciə janrının gec yaranmasını fərdi azadlıq duyğusunun və ya xarakterlərin yoxluğu, ya da zəifliyi ilə izah etmək doğru deyildir. Şərq Qərbə nisbətən daha çox ənənəyə sadiq cəmiyyətdir. Rene Genon da Şərq mədəniyyətlərinin ilk və ortaq vəsfini «ənənəvilik», yəni ənənəvi mədəniyyətlər olduğu fikrini irəli sürmüşdü. Ənənəyə sədaqəti olan cəmiyyətlərdə isə azad fərdihərəkətlərin icrası və ya fərdiazadlıq duyğusu bir o qədər də qabarıq olmur. Lakin bu heç də enerji artıqlığı ilə seçilən faciə qəhrəmanının Şərq mədəniyyətinə yad olduğudemək deyildir.

Azərbaycan ədəbiyyatındakı realist faciələrdən danışarkən müəllif həmin əsərlərdən faciəvilik prinsipi üzərində geniş dayanır. Bu məqsədlə də ilk tarixi faciələr – «Nadir şah» (1988) və «Ağa Məhəmməd şah Qacar» (1907) geniş tədqiq olunur. Milli dramaturgiyamızda tarixi mövzuya münasibətdə niyə «Ağa Məhəmməd şah Qacar» ənənəsinin deyil, hər zaman məhz «Nadir şah» ənənəsinin üstün tutulduğunu da bu monoqrafiyadan öyrənirik. Müəllifə görə, «Nadir şah» dahaçox tarixi salnamə, bədii xronika prinsipi əsasında yazılmış «Ağa Məhəmməd şah Qacar»dan fərqlənir. Nəriman Nərimanovun realist

«Nadir şah» faciəsində əsas götürdüyü prinsipdə tarixilik əslində müasirliyə xidmət etmiş, tarix müasirlik naminə lazım olmuşdur.

Təsadüfi deyil ki, Azərbaycan dramaturgiyasında sonralar yaranan bütün tarixi faciələrin əsas prinsipi bu şəkildə müəyyənləşdirilmişdir. Güclü dramatik səhnələri ilə seçilən, yüksək dramatizmi olan effektli, faciəvi vəziyyətlər üzərində qurulan «Ağa Məhəmməd şah Qacar» faciəsi özünün yüksək bədii üslubu, nəfis, obrazlı dili» ilə müəllifin marağına səbəb olmuşdu. Faciə qəhrəmanını səciyyələndirən bir cəhət də vardır ki, bu onun həqiqət axtarıb tapmaq istəyidir. Yəni faciə qəhrəmanı özünü həqiqət bilən, həqiqət axtaran və həqiqət istəyən filosof hesab edir. ağlın faciəsini yaşayanlara milli dramaturgiyanın Fəxrəddin, Fərhad, İsgəndər, Arif və b. qəhrəmanlarını misal gətirmək olar.

Klassik Azərbaycan dramaturgiyasından gələn bir ənənə də vardır ki, müsbət qəhrəman zaman-zaman da özünü faciə qəhrəmanı şəklində təqdim edir. bununla bağlı olaraq mücərrəd-idealist romantikadan inqilabi-romantik məzmunlu faciəyə doğru yolda Cəfər Cabbarlının «Aydın» və «Oqtay Eloğlu» faciəsi araşdırılır.

Azərbaycan teatrının, səhnəsinin uzun illər canlı ehtiraslardan, qüvvətli, tragik xarakterlərdən məhrum qalmasını alim faciə haqqındakı belə təsəvvürlərin bəsit və tamamilə yanlış olması ilə izah edir. Yaşar Qarayev dramaturgiyamızda bütün dövrlər üçün müasir mövzulu faciələrin gözəl nümunələrini yaratmaq ənənəsinin var olduğu fikrini bir daha vurğulayır, həmin ənənəni bir mənəvi vəzifə kimi yaşatmağı «günün böyük fəlsəfi dastanını yaratmağı», dramaturgiyamızın daha böyük yüksəlişi, ideya və fikir möhtəşəmliyi üçün narahat olan hər bir sənətkarın öhdəsinə buraxılırdı.

Bütövlükdə dramaturgiya tədqiqatçısı və tənqidçisi kimi Yaşar Qarayev özünü ilk dəfə «Faciə və qəhrəman» kitabında təsdiq etdi. O, Azərbaycan ədəbiyyatında faciə janrına, ədəbiyyatşünaslığında janrın poetikasına həsr etdiyi, faciənin məhz faciə kimi təhlil elədiyi və onun ilk elmi tarixini yaratdığı həmin monoqrafik əsəriylə ədəbi ictimaiyyətin geniş təqdirini qazandı.

1950-ci illərdən başlayaraq faciə janrının nəzəri aspektləri sovet ədəbiyyatşünaslığında geniş tədqiqata cəlb edilir. Bu vaxta qədərsə faciəvilik nə bir həyat hadisəsi, nə də dramaturgiyanın janrı kimi qəbul edilmirdi. Görünür müharibə dövrünün fəlsəfi tragizmi və sərt realizmi də öz təsirini göstərmişdir. Bir çox alimlər faciə janrının mənşəyi ilə bağlı tədqiqatlarını davam etdirirlər. Bu dövrdə faciə janrını öyrənən tədqiqatçılar özləri bir neçə sahələrə ayrılmışlar. Onlardan bəziləri faciə əsərlərini sovet həyat tərzi ilə əlaqəsi olmadığından inkar edir. İkincilər realizm rüşeymlərini qədim yunan faciələrində axtarmağa cəhd edir. Bir qism tədqiqatçı isə faciədəki «tale», «ilahi güc» məfhumlarını yeni semantika ilə yükləyir, həmin anlayışlara öz «təfsirlərini» diqtə edirdilər. 1960-cı illərdən başlayaraq N.A.Fyodorov, Y.B.Borev, A.F.Losev və s. Tədqiqatçılar ədəbiyyatda faciə və müasirlik, janrın poetikası ilə bağlı araşdırmalar aparmağa başlamışdılar.

Bu tədqiqatların təbii davamı kimi 1954-cü ildə professor Yaşar Qarayevin «Faciə və qəhrəman» mooqrafiyası ilə Azərbaycan ədəbiyyatşünaslığında yeni bir mərhələnin- faciə poetikasının təməli qoyuldu. Bu monoqrafiyaya qədər ədəbiyyatşünaslığımızda faciə janrının mənşəyi və

inkişafı ilə bağlı məsələlər nəinki öz həllini tapmamışdı, hətta ayrıcabir problem kimi də sistemli olaraq irəli sürülməmişdi.

Azərbaycan ədəbiyyatşünaslığında «Faciə və qəhrəman» kimi bir tədqiqatın məhz 1960-cı illərdə meydana gəlməsini şərtləndirən amillər də vardır. Bu dövr ən əvvəl hərbi-totalitar rejimdə yumşalma əlamətlərinin az-çox özünü gözlədiyi həmin tarixi fürsətdən dərhal bəhrələndiyi bir dövrdür. Bədii fikir, enerji nəhrinin «alt qatdan» dışarı püskürdüyü» bu zaman həmçinin «fəlsəfi-estetik düşüncdə baş verən çevrilmə» ilə səciyyələnir ki, «Faciə və qəhrəman» da «vulqar sinfi və ifrat partiyalı meyarlardan keçərək təmizlənmiş» elə həmin zamanın «ənənəvi nəzəri-estetik təlimindən» qıraqda yaranan bir əsəri idi.

Faciənin xalqın azadlıq hərəkatı, ictimai və fəlsəfi fikir tarixi ilə sıxbağlı olan bir janr kimi səciyyələndirdiyi «Faciə və qəhrəman» əsərində faciənin yaranması, bu janrın təşəkkül tapmasını şərtləndirən ictimai, fəlsəfi və ədəbi amillər, ən əsası isə Azərbaycan ədəbiyyatında çox uzun müddətdən bəri faciə təbiətli əsərlər olduğu halda niyə məhz XIX əsrin axırlarına qədər faciənin niyə janr kimi də meydana çıxa bilməməsinin səbəbləri üzə çıxarılmışdır.

Faciə yazılı ədəbiyyatın mükəmməl bir janr kimi nə üçün Şərqdə gec yarandı? » sualına cavab axtarmaq üçün müəllif birincinövbədə məsələnin tarixi-ictimai köklərinə enir. Araşdırıcı «Şərq adamının təbiəti dramatik ehtirası rədd edir» kimi iddiaları qəbul etmir. Müəllifin haqlı qənaətinə görə, Qərb ədəbiyyatı klassiklərinin ən tragik ehtiraslar və xarakterlər yaradarkən şərqlilərə müraciət etməsi maraqlıdır. Yüksək dərəcədə dramatik xarakterlərlə Şərqin ədəbi irsi klassik epik və lirik poeziyası heç də az zəngin deyildi ».

Şərq ədəbi-mədəni tarixində mənəviyyat və əxlaqdan gələn və mühafizəkarlıq deyiləcək qədər də sabit olan bir ənənəvilik prinsipi vardı. Burada yüzillərin sınağından çıxan ənənəvi model formal şəkil alan yenilikçilikdən daha çox qiymətləndirilirdi. Qədim Şərq poeziyasının lokal xüsusiyyətləri ilk növbədə hind ədəbiyyatı timsalında nəzərə çarpır. Birinci minillikdən başlayaraq qədim Hindistanda sanskrit dramaturgiyası formalaşmağa başlayır. Bu sırada Aşvaqxoşa, Bxasa, Şudraki və Kalidasanın dramlarını misal göstərmək olar.

Hind klassik dramaturgiyasında tamaşaçıya təsir edərək onu kədərləndirə biləcək hər hansı bir elementə yer verilmirdi. Dram sənətinin genezisini yalnız Avropa mədəniyyəti ilə bağlamağa çalışan bir sıra tədqiqatçılar onun Şərq üçün yadolmasını hər zaman isbatlamağa çalışır. Böyük Alman filosofu Hegel Şərqdə dram sənətinin, xüsusilə faciə əsərlərinin yoxluğunu belə şərh edirdi: «Şərq dünyabaxışı dram sənətinin lazımi inkişafına əvvəlcədən yol verməmişdir. Çünki həqiqi tragik hərəkatın mümkünlüyü üçün fərdin azadlıq və müstəqillik prinsipinin baş qaldırması, yaxud da heç olmasa şəxsi müqəddərat duyğusunun oyanması, özəməli və bu əməlin aqibəti üçün sərbəst şəkildə, şəxsən cavabdeh olmağı fərdin arzu etməsi zəruridir; komediyanın ayrılması üçün isə azad subyektivlik və onun tamamilə dərk olunmuş hökmranlığı hüququnun meydana çıxması daha çox tələb olunur. Bunların heç biri Şərqə xas cəhət deyil».

Yaşar Qarayev Şərq ədəbiyyatında «yüksək dərəcədə dramatik xarakterlərin» mövcud olmasını «Leyli və Məcnun», «Fərhadnamə», «Xosrov və Şirin»əsərləri ilə sübuta yetirir.bu xarakterlərin faciə qəhrəmanlarına

çevrilməsinin səbəbini isə müəllif «Şərqin real ictimai vəziyyəti» ilə izah edir: «Məsələnin əsl tarixi-ictimai köklrini kölgədə buraxan belə bir izahı Qərbin elə öz ədəbi faktları təkzib edir. Əgər Şərq adamının təbiəti fəcidramatik ehtirası doğrudan da rədd edirsə, onda məsələn, nə üçün Şərqli bir ərəb, klassik Qərb faciəsində ən tragikvə möhtəşəmtəbiətli bir surətdir?»

Yaşar Qarayev Şərq ədəbiyyatında «yüksək dərəcədə dramatik xarakterərin» mövcud olmasını «Leyli və Məcnun», «Fərhadnamə», «Xosrov və Şirin» əsərləri ilə sübuta yetirir. Bu xarakterlərin faciə qəhrəmanlarına çevrilməsinin səbəbi isə müəllif «Şərqin real-ictimai vəziyyəti» ilə izah edir.

Bir sıra məsələlərin elmi həlli zamanı Şərq dünyası, Asiya qarşısında özünü qalib görən bir dünyanın yetirməsi duyğusundan hərəkət edir. Sadəcə, hər bir mədəniyyət öz dövrü, sosial-tarixi şəraiti çərçivəsində qiymətləndirilməlidir. «Dünya incəsənətində (istər Şərq, istərsə də Qərb) XIX əsrin sonu, XX əsrin başlanğıcı zəngin ənənələrə malik olan xalqlar üçün bir çox estetik keyfiyyətlərin qarşılıqlı inteqrasiyası ilə səciyyələnir. Bu inteqrasiyalarınmilli və fərdi improvizasiyası ilə müşahidə olunması təbii keyfiyyət kimi üzə çıxır».

Beləliklə, Azərbaycan ədəbiyyatında faciə janrı tədqiqatçılar- istər ədəbiyyat tarixçiləri və istərsə də ədəbiyyat nəzəriyyəçiləri və həmçinin estetika məsələləri ilə məşğul olan araşdırıcılar qarşısında geniş üfüqlər açan problemləri ilə daha çox 1960-cı illərdən başlayaraq ardıcıl şəkildə diqqəti cəlb etməyə başlayır. O zamana qədər mənşəyindən əsasən ümumi problemlər çərçivəsində danışılan Azərbaycan faciəsi həmin vaxtdan etibarən ayrıca tədqiq edilir. Ənənəvi fəlsəfi görüşlərlə bağlılığı, faciə təbiətli əsərlərin varlığına baxmayaraq. XIX yüzilliyədək milli ədəbiyyatda faciənin bir janr kimi yoxluğu səbəbləri öz elmi şərhini tapmağa başlayır.

Azərbaycan ədəbiyyatşünaslığında faciə janrının və faciəvilik kriteriyalarının dünya nəzəri-estetik fikri kontekstində tədqiqi tarixini nəzərdən keçirilməsi belə bir qənaətə glməyə imkan verir ki, həqiqətən də düşüncənin qida mənbi kimi hətta faciənin belə qaynağında dayanan faciə insan ruhuna daha çox hakim bir qüvvət və ən yüksək incəsənət şəkli kimi yaradıcı şüurun ədəbiyaşar hadisəsi olduğundan milli ədəbi-nəzəri fikir tarixçilərinin diqqətini bundan sonra da öz üzərinə çəkməkdə davam edəcəkdir. Çünki zamanın fəlsəfəsi bir mənada da faciənin və faciəviliyin elə öz əsəridir.

ƏDƏBİYYAT

1. Allahverdiyev M., Azərbaycan xalq teatr tarixi, B.Maarif, 1978, 235 s.
2. Azərbaycan teatr salnaməsi, Bakı 1975.
3. Ağayev R.Ə., Əlizadə A.İ. Bədii xalq yaradıcılığında tarixilik və varislik. Bakı «Mars Print», 2003
4. Əsgərli Z. Azərbaycan faciəsinin poetikası. Filologiya elmləri doktoru aimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı 1992.
5. Məmməd T. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı Elm 1999
6. Məmmədov M. faciə janrının tədqiqi «Ədəbiyyat və incəsənət» qəzeti 14 may1966.
7. Məmmədov M. Müasir dramaturgiyada faciə problemi. «Azərbaycan» jurnalı 1968 № 5

8. Rəhimli İ. Azərbaycan teatrının estetik prinsipləri. «Çaşoğlu» nəşriyyatı 2006
9. Rəhimli İ. «Azərbaycan teatr tarixi» «Çaşoğlu» nəşriyyatı 2009

САБУХИ МАНАФОВ

ВОПРОСЫ ФОРМИРОВАНИЯ И ЭВОЛЮЦИИ ТРАГЕДИИ В ЛИТЕРАТУРЕ АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

История и методология изучения жанра трагедии в драматургии Азербайджана были исследованы во многих научно-исследовательских трудах. Анализ этих исследований, заложенных М.Ф.Ахундзаде, построение проблемы в научно-теоретической литературе и пути решения изучены в статье.

Статьи, посвященные искусству драмы и, в частности, опубликованные в периодической прессе в начале XX века, а также рецензии на театральные представления, считаются ценными материалами.

SEBUHI MANAFOV

THE FORMATION AND EVOLUTION ISSUES OF TRAGEDY IN AZERBAIJAN'S LITERARY CRITICISM

SUMMARY

İn Azerbaijan dramaturgy the study of the history of the genre of tragedy and methodology is investigated a number of scientific research activities. The research study, which was founded by M.F.Axunzade, statement of scientific and theoretical literature, investment and ways of solving the problem ivestigated in the article. In this area, especially since the beginning of XX century the article about the art of drama in periodical press and review which dedicated to theater performances is considered valuable materials.

Rəyçi: **Gülşən Əliyeva-Kəngərli**
Filologiya elmləri doktoru, professor

SEVİNC BAĞIROVA
ADİU
sevinc.@.mail.ru.

KLASSİK RUS ƏDƏBİYYATINDA İSLAM DİNİNƏ HÖRMƏT VƏ EHTİRAM, İSLAM DİNİ DƏYƏRLƏRİNİN QORUNUB SAXLANILMASI VƏ YAYILMASI

Açar sözlər: *islam, rus ədəbiyyatı, islam dini dəyərləri, peyğəmbər,ərəb dünyası*
Ключевые слова: *ислам, русская литература, ценности исламской религии, пророк.*
Key word: *islam,russian literature,costs of islam religion,prophet.*

Bu gün imperializmə, hegemonluğa, şərə, təkəlçi siyasi düzənə qarşı savaşan, dirənən bir güc varsa, o da islamdır. Bütün dinlər zatən sadaladığım bu şəri, hegemonluğu, zoru, imperializmi dəstəklədi, bizzat özünə çevrildi, onlarla eyni cəbhədə durdu. İslam isə bunu etmədi, edə bilmədi. Ancaq İslamın bir din olaraq imperializmə, hegemonluğa xidmət etməsini biryolluq inkar etmək mümkün deyil.

Çünki tarixdə onlarla müharibələr, qardaş qırğınları, işğallar var ki, İslam bayrağı altında həyata keçirilib. Zaman-zaman "Qurani Kərim"in ayələrinin batini əsrarını çox vaxt yanlış düşüncələrə, məkrli niyyətlərə alət ediblər. Amma islamın bu günə qədər dünyada sürətlə yayılması onu göstərir ki, insanlıq hələ də on dörd əsr əvvəl meydana çıxmış bu dinin dürüstlüyünə inanır. Supergüclərin müsəlman dövlətlərinə qarşı işğalçı və aşağılayıcı siyasətinin kökündə islamın bir din aşağılamaq istəyi də dayanır.

Əslində dünyada dinlərin, mədəniyyətlərin və düşüncələrin savaşı gedir. Şərq öz müdrikliyi ilə şərə qalib gələcəyini düşünə-düşünə geriləyir. Nəticə isə göz qabağındadır. İslamfoblar bu dini terror və cəhalət, gerilik nümunəsi kimi təqdim etməyi bacarır. Bir inanc sistemi olaraq, din olaraq islamı qəbul etməmək olar. Amma bu dinin daşıyıcılarını vəhşi, barbar, terrorist damğası ilə aşağılamaq yolverilməzdir. İslamın bəşər tarixinə, mədəniyyətinə bəxş etdiyi töhfələrə biganə qalmaq mümkündürmü? Dünya mədəniyyətində və ədəbiyyatında islamın yeri və rolu danılmazdır. Qərbdə və xristian dünyasında populyar olan, mötəbər sayılan minlərlə müəllif var ki, islam sayğı və ehtiramla yanaşıb, bu dinin mütərəqqi ideyalarının bir növ təbliğçisinə çevrilib. Təəssüf ki, "Eynşteyn müəlman olub" formatında miflər yaradan düşüncə, böyük bəşəri ideyalardan, islama həqiqi qiymətini verən dahilərdən xəbərsiz qalıb.

Qeyd etdiyim kimi, islamı araşdıran, "Qurani-Kərim"dən yararlanan ciddi müəlliflərin islama münasibəti normal, bəzən isə heyranlıq dərəcəsində olub. Məncə Şərqin və islamın ən böyük heyranlarından biri, islama isti münasibəti ilə tanınan dahi alman ədibi İohan Volfqan Qötedir.

Onun "Mahomet's Gesang"(Məhəmmədin nəğmələri) şeiri ilə başlayan isti münasibəti "Şərq-Qərb divanı"nda heyranlıq dərəcəsinə çatır. Qötenin ahıl yaşlarında islam heyranlığı o dərəcədədir ki, "Qurani-Kərim"i "Kitablar kitabı" adlandırır. 1995-ci ildə Şeyx Əbdülqədir əl-Mürabitin başçılıq etdiyi müsəlman alimləri Vaymar-da tədqiqat aparıb. Tədqiqatlardan sonra əl-Mürabit Qötenin müsəlman olması ilə bağlı fətva verib. Düşünürəm ki, önəmli olan Qötenin müsəlman olması deyil, onun islama göstərdiyi münasibətdir.

Fanatik ifratçılığın, islam alimlərinin lazımsız tədqiqatlarının islama başucalığı gətirmədiyi qənaətindəyəm. Əl-Mürabit kimi üləmaların məntiqi ilə yanaşsaq Rus ədəbiyyatının nəhəngləri hesab olunan Tolstoyun və Puşkinin müsəlman olması ilə

bağlı da fətva verilməlidir. Çünki digər xristian xalqları ilə müqayisədə rus ədəbiyyatında islam və "Qurani-Kərim" motivləri digər xalqlardan daha güclü və dərindir.

İslama və islamın müqəddəs kitabına heyranlığı və Şərqin mənalar aləminə bələdliyi Tolstoyda, Nikolay Qoqolda, Bunində, Bolmontda, Lermantovda, Velmir Xlebnikovda və başqa rus yazarlarında görmək mümkündür. Bu bələdlik və heyranlıq rus-xristian təfəkkürünün daşıyıcısı olan müəlliflərin yeni poetik-ədəbi axtarışlarına böyük təkan verib. İslami motivlər rus ədəbiyyatında Puşkinin ədəbi mühitində formalaşan və onun ənənələrini davam etdirən bir çox müəlliflərin yaradıcılığında xüsusi yer tutur. Bestujev-Marlinski, Benediktov, Vyazemski, Polejayev, Veltman, İlliçevski və başqaları yaradıcılıqlarında şərqi və islamı valehliklə mədh edib.

Ümumiyyətlə rus ədəbiyyatında şərq-islam motivləri, "Qurani-Kərim"in rus ədəbiyyatına təsiri ciddi elmi tədqiqat mövzusudur. Bu baxımdan tanınmış ədəbiyyatşünas professor Asif Hacılının 2009-cu ildə nəşr olunmuş "Qurani-Kərim" rus ədəbiyyatında" adlı kitabını çox qiymətli mənbə hesab etmək olar.

Kitabın elmi redaktoru professor Kamal Abdulla kitaba yazdığı ön sözdə bu sahənin nə qədər aktual və lazımlı olduğunu vurğulayır: "Əlbəttə ki islama digər dinlərin zəka, elm, sənət nümayəndələrinin ehtiramını, islamı dəyərlər ətrafında mənəvi-fəlsəfi axtarışlarını bilmək və xatırlamaq zəruridir . Bu baxımdan, tarixən müsəlmanlarla mənəvi, coğrafi təmasda olmuş rusiyalı görkəmli alim və sənətkarların, yazıçı və şairlərin islama diqqət və sayqısı böyük maraq kəsb edir".

Asif Hacılının "Qurani-Kərim rus ədəbiyyatında" kitabı "Bakı Slavyan Universitetində mühazirələr" silsiləsindən çap olunub.

Kitabda rus ədəbiyyatının qədim dövründən, günümüzəcən islama sərgilədiyi münasibətə işıq tutulur. "Qurani-Kərim"in rus dilinə tərcüməsinin tarixi geniş şəkildə təhlil olunur. Eyni zamanda islamın müqəddəs kitabının qərb dillərinə tərcüməsinin tarixinə nəzər salınır, "Qurani-Kərim"in 1141-1543 illərdə qərb dillərinə ilk tərcümələri və katolik kilsəsinin buna mənfi münasibəti, Avropa mütəfəkkirlərin islama qarşı sərgilədikləri davranış, zaman keçdikcə "Qurani-Kərim"in qərb mədəniyyətinə və ədəbiyyatına dərindən nüfuz etməsi prosesi kültüroloji müstəvidə təhlil edilir.

"And olsun cütə və təkə\And olsun qılınca və haqq döyüşə,\And olsun dan ulduzuna,\And olsun axşam namazına."(A.Puşkin), "Hey şirin Quranı oxumuşam mən,\ gizli mağarada, didərginlikdə" (A.Puşkin), "Ya Məhəmməd! müjdə\Palma ağacı kimi yetişəcək. Bunu eşidib, sənin xalqın\Qoy yeni güclə möhkəmlənsin!" (A.Q. Rotçev), "...Hər şeyi bilənə gizlin aşkardır.." (Manassein), "...lütfən mənə xeyirxah müsəlman kimi baxın" (L.Tolstoy), "Allahdan başqa Allah yox! \ Sirdən güclü güc yoxdur!(İ.Bunin) – rus ədəbiyyatının məşhur simalarının qələmə aldıqları bu fikirlər onların ciddi şəkildə "Qurani-Kərim"dən təsirləndiklərini, islam təfəkkürünə bələd olduqlarını göstərir.

Rusiya bu gün də Şərqə, xüsusilə islam Şərqinə ciddi şəkildə maraq göstərir.

Eyni zamanda Rusiya ərazisində müsəlmanların sayının artması, islam dininə aid kitabların çap olunmasının genişlənməsi onu göstərir ki, Rusiya özü bu məsələdə maraqlıdır. Düşünürəm ki, nəinki rus ədəbiyyatında, ümumiyyətlə dünya ədəbiyyatında islam, şərq, "Qurani-Kərim" motivlərini araşdırmaqda böyük fayda var. Artıq bu sirr deyil ki, İslami düşüncə və "Qurani-Kərim" faktoru dünya ədəbiyyatına ciddi şəkildə təsir edib.

Professor Asif Hacılının "Qurani-Kərim" rus ədəbiyyatında" kitabı rus ədəbiyyatını dərindən anlamaq, rus fikrinə, təfəkkürünə dərindən bələd olmaq üçün

qiymətli vəsaitdir. Eyni zamanda gənc tədqiqatçılar və ədəbiyyatşünaslar üçün əvəzsiz mənbədir.

Peyğəmbər Əfəndimizin (s.ə.s.) gətirdiyi əsas, qanun və prinsiplər həyatın bütün mərhələlərini içinə alar.

Peyğəmbərimizin yaşayışı ən gözəl bir nümunə və möminlər üçün ən açıq bir misaldır. Bu xüsusu Rəbbimiz Qurani Kərimdə belə ifadə edər : «Həqiqətən Allahı, axirət gününü arzulayanlar və Allahı çox zikr edənlər üçün, sizə Allahın Rəsulunda (izləyəcəyiniz) çox gözəl bir nümunə vardır.» (Əhzab, 21)

Peyğəmbərimizin bəzi sünnələri vardır ki, bunlar, onun fitri rəftarları şəklindədir. Geyinməsi, yeyib içməsi, bədəninin baxımı və təmizliyi bu qabildəndir. Bunların bir çoxu davranış sinifinə girməkdədir. Möminlər isə, bu sünnələrə uyğun gəlməklə hərəkətlərini nurlandırmış olarlar.

Rus ədəbiyyatı tarixinə nəzər salsaq, görərik ki, İslam və Şərq motivləri, onlarla bağlı süjet və obrazlar burada birdən-birə deyil, tədricən mövcud olmağa başlayıb. Qədim rus abidələrində, demək olar ki, Şərq elementlərinə heç rast gəlinmir, ya da bu elementlər çox cüzi şəkildə təzahür edir. Rus sənətkarlarının Şərqə və qismən də İslam dininə marağının XVIII əsrin sonlarına doğru formalaşdığını demək mümkündür.

Məhz bu dövrdə rus romantikləri doğma ədəbiyyatda Şərq motivlərindən istifadə edərək, xüsusi bir istiqamət – "Şərq üslubu" yaratmışlar. Buna səbəb romantiklərin ümumiyyətlə dini kitabları və o cümlədən, "Quran"ı dini mahiyyəti ilə yanaşı, həm də yüksək səviyyəli bədii əsər hesab etməsi ilə bağlı idi. Belə ki, "Quran" onlara yeni sənət əsərləri yarada bilmək üçün bol material verən əvəzsiz mənbə idi.

"Quran" ilk dəfə rus dilinə 1716-cı ildə Böyük Pyotrun göstərişi ilə tərcümə olunub (orijinaldan deyil, fransız dilindən). XVIII əsrin sonlarında isə "Quran" ərəb dilindən rus dilinə tərcümə edilərək "Məhəmmədin yazdığı kitab" kimi oxuculara təqdim edildi. İllər keçdikcə tərcümələrin və Rusiyada onu kamil sənət nümunəsi kimi dəyərləndirənlərin sayı artırdı.

Rus ədəbiyyatının "qızıl dövrü" adlandırılan XIX əsrin 20-30-cu illərində sənətkarların əsərlərində şərq və islam motivlərindən istifadə daha geniş vüsət almışdı. Bunun səbəbləri "Şərq romantizmi" ilə həmin dövr şairlərinin sevgi lirikasındakı psixologizmin dərinliyi, şəxsi hisslərin qabarıq ifadə edilməsi, emosionallığın yüksək səviyyəyə çatması kimi ortaq cəhətlərin mövcud olması idi. İslam fəlsəfəsindəki Allahın və yaradılışın birliyini ifadə edən "tovhid" anlayışı rus romantiklərini varlığın fəlsəfi dərkinə yönləndirirdi.

XIX əsrdə rus sənətkarlarının müsəlman Şərqinə marağını şərtləndirən səbəblərdən biri həm də ictimai marağın və elmi-nəzəri araşdırmaların artması ilə bağlı idi. Belə ki, bu dövrdə şərqşünas-alimlərin bu sahədəki araşdırmaları və Şərq dillərindən tərcümələrin sayı durmadan artmaqda idi. XVIII əsrin sonlarından başlayaraq, Şərq dünyasının inciləri Rusiyada kütləvi şəkildə tərcümə edilərək dərc olunmağa başlamışdır. Elə təkcə rusların "əyləndirərək düşündürən, düşündürərək əyləndirən sənətkar" adlandırdıqları Sədinin əsərləri dəfələrlə müxtəlif sənətkarlar tərəfindən tərcümə edilib rus oxucusuna təqdim edilib.

Digər klassik şərq sənətkarları da maraq dairəsindən kənarda qalmırdı. Şərq müdrikliyini ifadə edən rəvayətlər və lətifələrin yayılması da bu baxımdan müəyyən əhəmiyyətə malikdir. Bununla yanaşı, XIX əsrin əvvəllərində rus sənətkarlarının Şərq motivlərinə kütləvi şəkildə üz tutmasının səbəblərindən biri də Qərbin təsiri idi. Hötenin "Şərq-Qərb divanı"ndakı "Şərq şeirləri", Bayronun "Gavur", "Abidos gəlini" əsərləri, Consonun "Rasselas" romanı və digər əsərlər rus sənətkarlarının böyük marağına səbəb olmuş və təbii ki, bu maraq onların yaradıcılığına öz təsirini göstərib.

Başqa sözlə, istənilən sahədə olduğu kimi, islami düşüncənin rus ədəbiyyatına yol tapması məsələsini də kompleks şəkildə dəyərləndirmək lazımdır. Rus ədəbiyyatında məşhur olan "Şərq hekayətləri" silsiləsi tanınmış yazar və şərqşünas O. İ. Senkovskinin adı ilə bağlıdır.

Həcc ziyarətinə gedən O. Senkovski ərəb şərqini üç il müddətində səyahət etmiş, səfər zamanı görüb-eşitdikləri ilə bağlı çoxlu yazılar yazmış, islam dünyası haqqında bir çox elmi araşdırmalar aparıb. Belə məşhur şərqşünaslar sırasında N. N. Berezin, X. D. Fren, A. V. Boldırev və başqa tədqiqatçıların adlarını da çəkmək olar. Bu müəlliflər hesab edirdilər ki, "Quran"ı öyrəndikdən sonra Şərq dünyasının mental xüsusiyyətlərini nəzərə alaraq, hətta "İncil"i də fərqli rakursdan dəyərləndirmək olar. Belə fikirlər rus romantiklərinin yaradıcılığında Şərq motivlərinin yer almasında, üslub cəhətdən formalaşmasında əhəmiyyətli rol oynayıb.

Bir çox rus ziyalıları müsəlman şərqini yalnız elmi materialların deyil, eyni zamanda, bədii əsərlərin köməyilə öyrənməyə, tanımağa başlamışlar. Belə ki, Sədi, Hafiz, Nizami, Firdovsi, Cami kimi klassiklərin əsərləri Şərq dünyasına və İslam təfəkkürünə bələd olmaq üçün əsl xəzinə idi. Bəzi müəlliflər hesab edirlər ki, rus ədəbiyyatında Şərq və İslam mövzusu sadəcə ornament rolunu oynayıb, rus sənətkarlarına özlərinə tənqidi yanaşma üçün istifadəyə imkan yaradıb. XIX əsr sənətkarları içərisində A.Qriboyedov, P. Vyazemski, S. Qlinka, P.Çaadayev, xüsusilə, M. Lermontov və A. Puşkinin əsərlərində islam komponentləri mövcud idi. Böyük rus filosofu V. Solovyovun "Məhəmmədin həyatı", Qoqolun "Əl-Məmun" kimi əsərləri Rusiyada Şərqə olan marağın yalnız etnoqrafik deyil, eyni zamanda, mənəvi-poetik səciyyə daşıdığına işarədir. İnsanların bərabərliyi ideyasının sadiq tərəfdarı olan filosof və şair V.Solovyov 1896-cı ildə "Məhəmməd.

Həyatı və dini təlimi" adlı oçerkində yazırdı ki, İslam Peyğəmbəri həqiqi dinin məzmun və mahiyyətini tovhiddə görmüşdür. Solovyov İslamın ən mühüm özəllikləri arasında niyyət və əməllərin gözəlliyini görürdü. Alim İslam dininə şamil olunan "cəhaləti və fanatizmi yayan, zor və güc hesabına yayılmış din" anlayışlarının əslində bu dinə və Məhəmməd peyğəmbərə (s.) qarşı haqsızlıq olduğunu cəsarətlə vurğulayırdı. O yazırdı: "Məhəmmədin dini bundan sonra inkişaf etməsə də, geniş əhatədə yayılacaq; çünki "Quran"ın mənəvi qidası bütün bəşəriyyət üçün gərəklidir".

Rus ədəbiyyatında islami mətnlərin yaranmasının səbəblərindən biri də Qafqaz faktoru idi. Çar Rusiyası siyasi fəaliyyətinə görə narazı olduğu sənətkarları, adətən, Qafqaza sürgün etdirirdi və bu fakt həmin söz adamlarının yaradıcılığına təsirsiz ötüşmürdü. A. S. Puşkin də Cənuba sürgün olunduğu zaman çərkəzlər, arnautlar, Krım tatarları kimi müsəlman əhali ilə sıx ünsiyyət qurub, onların məişəti və mədəniyyəti ilə yaxından tanış olub.

Şairin yaradıcılığına nəzər salsaq, görərik ki, onun əsərlərində Şərq anlayışı İslam mədəniyyəti kontekstində meydana çıxır. Puşkinin bütün yaradıcılığı boyu Şərq onu cəlb edib: o, məşhur şərqşünas N.Biçurin ilə dostluq edib, kitabxanasında İslam fəlsəfəsini və ədəbiyyatını əks etdirən çoxlu sayda kitabları olub. Şairin ulu babasının ərəb olması da onun İslama marağını artıran səbəblərdəndir.

Puşkin "Böyük Pyotrun ərəbi" povestində babası İbrahim Hannibalın obrazını yaradıb. 9 şeirdən ibarət olan "Qurana nəzirələr" silsiləsi, "Talisman", "Qafqaz əsiri", "Baxçasaray fontanı", "İblis" və s. əsərlərində Puşkin Şərq motivlərindən istifadə edib. O, "Quran"a müraciət edən ilk rus yazarı olub. Tədqiqatçı K.Qordeyev qeyd edir ki, "Qurana nəzirələr" adı ilə yazdığı şeirlərdə müəllifin məqsədi heç də rus oxucusunu Müqəddəs Kitabda yer almış dini-hüquqi məsələlərlə tanış etmək olmayıb, bu əsərlər sırf lirik poeziya nümunələri olaraq meydana çıxıb.

M.Lermontovun da yaradıcılığında Şərq motivləri özünəməxsus yer tutur. Gənc şairin "Aşıq Qərib", "İblis", "Mtsıri" kimi əsərlərində bu motivlər daha geniş əks olunur. Son illərdə bəzi tədqiqatçılar onun Şərqə marağının ata-babalarının müsəlman olması ilə əlaqələndirirlər. M. Sinelnikov M. Lermontov haqqında deyirdi: "Birbaşa həqiqəti sona qədər demək lazım gələrsə, etiraf etməliyik ki, xalis provaslav şeirləri yazan müəllif həm də müəyyən dərəcədə müsəlman olmuşdur". Tədqiqatçı Məryəm Vahidova iddia edir ki, M. Lermontov və L.Tolstoyun Qafqazı ürəkdən sevməsinin səbəbi yalnız bu məkanın qənirsiz gözəlliyi deyil, həm də onların əslən çeçen olması idi. Müəllif yazır ki, Lermontov M. Sinelnikovun dediyi kimi, "müəyyən dərəcədə" deyil, ilk növbədə müsəlman olub və özünü dərk edəndən xristianlıqdan uzaqlaşıb. Bəs bu fikir onun müsəlmanlığı qəbul etdiyi fikrini iddia etmək üçün yetərlidirmi? Tədqiqatçı xanım Mixail Yuriyeviç Lermontovun, əslində, Rusiyanın ən qatı düşmənlərindən olan Beybulat Taymiyevin oğlu olduğunu yazır. Lakin bu fikir yalnız fərziyyə olaraq qalır və dəlillərlə isbatını tapmır.

Odur ki, bu iddiaların həqiqəti nə dərəcədə əks etdirməsi ilə bağlı hələ ki, dəqiq fikir yürütmək olmur. Şairin əsərlərində İslam motivlərinə geniş yer ayırması isə göz önündədir. Rus şairlərinin "islam antologiyası"ndan bəhs edərkən əsərlərində M.Lermontovun təsiri açıq duyulan A. Polejayevin "Hərəmxana", "Qara hörük", "Sultan", V. Benediktovun "Əbdülqadirin məktubu", "Xəlifə və qul" şeirlərini də unutmaq olmaz. İslam təfəkkürünün rus ədəbiyyatına güclü təsirinin ikinci mərhələsini XIX-XX əsrlərə aid etmək olar. İ.Buninin yaradıcılığındakı "Quran" motivləri, N.Qumilyov və B. Lapinin sufi poetikasından yararlanması faktları fikrimizi təsdiqləyir. Həyat və yaradıcılığında ciddi problemlərlə üzləşən İ. Bunin çıxış yolunu dini kitabların mütaliəsində görüb, başqa dini kitablarla yanaşı, "İncil" və "Quran"ı daha ciddi şəkildə oxumağa başlayıb. Həyatının bu mərhələsində qələmə aldığı "İbrahim", "Kövsər", "Qədir gecəsi", "Sirr" və s. əsərlərin süjeti "Quran"dan götürülüb. Zadəgan əsilli L. Tolstoy gəncliyinin müəyyən bir hissəsini Qafqazda hərbi xidmətdə keçirib. Avtobioqrafik səciyyəli "Kazaklar" əsəri və sənətkarın öz sağlığında nə qədər cəhd göstərsə də, dərc etdirə bilmədiyi "Hacı Murad" povestinin əsas qəhrəmanları da elə onun burada tanıdığı real şəxslərin prototipləridir.

ƏDƏBİYYAT

1. 1.Əli Əsgər Məmmədov: Ərəb dili.Zərdabi.LTD.MMC.Nəşriyyat Poligrafiya Mərkəzi. Bakı.2014-cü il.
2. 2.J.A.Belyayev: Müsəlman təriqətləri.Tarixi oçerklər.Bakı 1958-ci il.
3. 3.A.Masse: İSLAM.Bakı.1964-cü il.
4. 4.Ə.Həsənov: Q.Mustafayev: İslamın mahiyyəti.Bakı.1967-ci il.

С.А.БАГИРОВА

ПОЯВЛЕНИЕ ИСЛАМСКИЕ АРЕАЛЫ В РУССКОЙ КЛАССИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

РЕЗЮМЕ

В статье рассматривается образ мусилманина в русской классической литературе и некоторые мысли и выссказивание великих русских классиков как,Бестужев-Марлинский, Бенедиктов, Вяземский, Полежаев,Велтман, Иличевский, Л.Толстой, А.С.Пушкин, М.Лермонтов, А.Грибоедов и др.поэтов и писателей.

Как известно,они в своих произведениях особое место выделили исламский образ жизни,его пророк АЛИ МУХАММЕД и др.мотиви исламский веры .Молодая исследователница Марям Вахидова утвеждала что,все русские классики любовно отнеслись к арабским востоком Исламу и его пророку Мухаммеду и всем мусульманом.

S.A.BAGUIROVA

CLASSIK IN THE RUSSIAN LITERATURE APPERENCE OF THE ISLAM VALUES

SUMMARY

The article speaks of the image a mouslum in Russian classic literature and some opinion Of greal Russian fush as Bestujev-Marlinski, Benediktov, Vyazemski, Polejayev, Veltman, Ilishevski, L.Tolstoy, A.S.Poushkin, M.Lermontov, A.Griboedov and oter writes a know the narrative esterniteves and oter shand dorries and works of M.Lermoontov paken special place among his productive works. A yong investigator mar vash prouved that M.Lermontov find the L.Tolstoy always approche to arabien east and Islam wits gread love. Said that everion should approsh to frabien east Islam wits gread love.Prophet Mukhammed and tien your opinion life world change to better side.

RƏYÇİ: Yussif Suleymanov
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

LALƏ MƏMMƏDOVA
AMEA Nizami adına ədəbiyyat institutu
emrahli_1987@mail.ru

ÇAĞDAŞ NƏSRİMİZƏ FÜZULİ TƏSİRİ

Ключевые слова: *традиции Физули, И.Эфендиев, Иса Муганна, лирико-психологическая проза Анара*
Keywords: *Fizuli tradition, I.Efendiyev, Isa Muganna, lyrical-psychological prose of Anar*

Orta yüzilliklərdə Azərbaycanda formalaşmış poeziya məktəbinin Qətran Təbrizi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Fələki Şirvani və başqa böyük nümayəndələrinin yaradıcılığında öz əksini tapmış milli-mənəvi dəyərlər və yüksək humanist ideyalar çağdaş milli bədii təfəkkürün inkişafında da öz müsbət rolunu oynamışdır.

Ümummilli liderimiz Heydər Əliyev yazırdı: "Azərbaycan xalqının həyatı böyük, çətin mərhələlərdən keçmişdir. Ancaq bütün çətinlikləri keçməkdə Azərbaycan xalqına onun böyük insanlarının, böyük şəxsiyyətlərinin yaratdıqları sənət əsərləri kömək etmişdir. Füzuli bunların arasında görkəmli yer tutur." (1, 241)

Belə bir kəlam çox doğrudur ki: «Əsrinin öksüzüdür dahilər!» Nizami də, Füzuli də, Sabir də, Cavid də öz məğrur tənhalıqlarında bu kəlamın doğruluğunu bir daha sübuta yetirmişlər. Ancaq bu tənhalıq eyni zamanda onların sonrakı ədəbiyyata, mədəniyyətə, mənəviyyata, mənəvi-əxlaqi yüksəlişə təsir gücünün göstəricisidir. Bəşəriyyətin ədəbi-tarixi gedişatında ancaq bu cür «qocaman dağlar» zaman çərçivələrinə tabe olmayaraq çox uzaqlardan görünür, öz cazibə sahələrində neçə-neçə parlaq istedadların yetişməsi üçün münbit zəmin hazırlayırlar. Bu baxımdan belə bir fikri heç cür doğru saymaq olmaz ki, guya Nizami, Füzuli kimi dahilər öz ağırlıqları ilə ədəbiyyatın sonrakı inkişafına imkan vermirlər. Guya ədəbiyyat bu cür dahilərin cazibə sahəsindən çıxa bilmirlər. Əslində isə əsil istedad, yaradıcı şəxsiyyət heç bir cazibə sahəsinə düşə bilməz; yalnız ondan yaradıcı şəkildə bəhrələnə bilər. Necə ki, lirik-psixoloji nəsrimizin Ənvər Məmmədxanlı, Mir Cəlal, İlyas Əfəndiyev, İsa Hüseynov, Anar, Elçin, İsi Məlikzadə, Kamal Abdulla və bir çox başqa istedadlı nümayəndələri öz sələf-xələf münasibətləri ilə bu fikri bir daha təsdiq etmiş oldular. Əlbəttə, hətta M.Ə.Sabir, Mirzə Cəlil kimi satiriklər də Füzulidən bəhrələnmələri ilə fəxr etmişlərsə, bu fəxarətdən nə üçün böyük nasirlərimizə, realist yazıçılarımıza, lirik-psixoloji üslubun nümayəndələrinə pay düşməsin? Halbuki, Füzuli satirikdən, yumoristdən daha çox lirik və eyni zamanda insan qəlbinə dərindən bələd olan psixoloqdur. Demək, bu üslubun təmsilçilərində klassik ədəbiyyatdan və özəlliklə Füzulidən bəhrələnmənin müxtəlif yollarını aşkar etmək tamamilə mümkündür.

Heç şübhə yoxdur ki, Füzuli özlüyündə bir məktəbdir və bu məktəb gecə-gündüz, aylar, illər, yüzilliklər boyu açıqdır; yetər ki, zövqün və istedadın, elmin və vətəndaşlıq qeyrətin olsun – məhz bu test tapşırığını yüksək balla verənlər Füzuli məktəbinə daxil ola, onu uğurla bitirə, onun verdiyi biliklərdən yaradıcı surətdə istifadə edə bilər. Dahi şairin yaradıcılığının məhz bu xüsusiyyətlərini nəzərdə tutan AMEA-nın müxbir üzvü Yaşar Qarayev hələ iyirmi il öncə yazırdı: «...Beş əsrdir ki, «Füzuli məktəbi» Şərq poeziyasını təsir orbitindən buraxmır. «Divan»ı (azərbaycanca «Divan»ı nəzərdə tutulur

– L.M.) və «Leyli və Məcnun»u isə xüsusən türk və islam xalqlarının, istisnasız, bütün nəsillərinin sənət, fəlsəfə, etika və əxlaq ənənəsini özündə birləşdirən vahid bədii dövriyyədə fasiləsiz iştirak edir. **Hər nəsil hər yeni dövrdə bu irsə yenidən qayıdır** (seçmə bizimdir – L.M.). Hər dəfə də Füzuli irsi keçmişin və tarixin yox, müasirliyin beynəlmiləl mənəvi sərvəti kimi yenidən dərk olunur.» (5, 176)

Klassik ədəbiyyatdan yaradıcı istifadə klassik ənənələrin yaşadılması anlamına gəlir ki, bunu təkcə Füzuli poetik məktəbinin görkəmli nümayəndələrinin yaradıcılığında deyil, eyni zamanda, çağdaş Azərbaycan nəsrinin bir çox görkəmli yazıçılarının epik və epik-lirik yaradıcılığında da görmək mümkündür. Bu ənənələrin yaşadılması bir yöndən də ədəbi personajların yaradılmasında özünü göstərir. Klassik Azərbaycan ədəbiyyatının bir çox monumental obrazları məhz bu baxımdan öz ideya-estetik gücü ilə çağdaş nəsrə təsir etmiş və çağdaş nəsrin obrazlar qalereyasının zənginləşməsində öz müsbət rolunu oynamışdır. Qeyd edək ki, məhz monumental obrazların qıtlığı çağdaş Azərbaycan nəsrinin narahatçılığına zəmin yaradan cəhətlərdəndir. Görkəmli nasir Kamal Abdullanın belə bir vətəndaş yanğısına haqq qazandırmamaq olmur. Esselərinin birində o yazır:

«Azərbaycan ədəbiyyatına azərbaycanlı obrazı hava kimi, su kimi lazımdır. Özümüz üçün yox, başqaları üçün. Bizi tanıtmaqdan ötrü. Yoxsa özümüz çalıb, özümüz oynamaqdan əl çəkməyəcəyik. Özümüz öz qazanımızda bişməkdə davam edəcəyik.» (2, 224)

Görkəmli nasirin qeyd etdiyi həmin «azərbaycanlı obrazını» klassik ədəbiyyatın köməyi olmadan yaratmağı ağıla belə gətirmək mümkün deyil. Həm də bizim klassikamızda bir çox monumental azərbaycanlı obrazlarının olduğunu da gərək unutmayaq. Elə Nizaminin «Xəmsə»sindəki Sultan Səncərlə kəllə-kəlləyə gələn Qarı, öz halal çörəyini hər cür sədəqədən üstün tutan Kərpickəsən kişi, Məhinbanu, Şirin, Leyli, Nüşabə, Fitnə obrazları monumental azərbaycanlı obrazları deyilmi? İsmət və sədaqət, tərbiyə və əxlaq mücəssəməsi olan Füzuli Leylisi Türk mentalitetinin daşıyıcısı, azərbaycanlı obrazı deyilmi?

XX yüzilliyin 30-cu illərindən başlayaraq formalaşan lirik-psixoloji, yaxud lirik-romantik üslubun inkişafına müsbət təsir göstərən ədəbi-bədii qaynaqlardan biri də klassik Azərbaycan lirik poeziyası və onun ən böyük nümayəndəsi Məhəmməd Füzulinin yaradıcılığı, xüsusi halda isə azərbaycanca "Divan"ı və "Leyli və Məcnun" poeması olmuşdur.

Özündən sonrakı poeziyaya olduğu kimi, özündən sonrakı nəsrə də ən çox təsir göstərən Füzuli mövzusu – məhəbbət mövzusu olmuşdur. Məhz Füzuli örnəyində aşiq obrazları yaradarkən, çağdaş Azərbaycan nasirləri dahi şairin əsərlərinə daha çox müraciət etmiş və onlardan faydalanmışlar.

Məhəbbət mövzusu yalnız kişi ilə qadın arasındakı duyğusal münasibətlərin bədii təqdimində deyil, həm də bir çox rəngarəng ipostaslarda – Vətən məhəbbəti, övlad məhəbbəti, dost məhəbbəti, təbiətə məhəbbət və s. şəklində öz bədii əksini tapmasına baxmayaraq bunların hamısında Füzuli məhəbbətindən "bir duz" (Cəlil Məmmədquluzadə) tapmaq mümkündür ki, bu da dahi şairin məhəbbət mövzusunu nə qədər çoxqatlı və çoxplanlı işləməsinin göstəricilərindən biri sayıla bilər.

İsa Muğannanın lirik-psixoloji üslubda qələmə alınmış povestlərində tərənnüm edilən məhəbbətin müxtəlif çalarlarında Füzuli izlərini ya birbaşa, ya da dolayısı ilə aşkara çıxarmaq mümkündür. Ən başlıcası isə , Füzulidə olduğu kimi, İsa Muğannada

da, məhəbbət obyektindən asılı olmayaraq, aşiqlərin kövrək və səmimi duyğuları ilk baxışdan nəzərə çarpır və oxucuda adekvat hiss-həyəcan yaradır. Yazıçının özünün məşhur aşiq obrazı olan Fərhada bənzədiyi dəmirçi İsfəndiyar kişinin istər övlad, istərsə də el məhəbbətindən Füzuli könül dünyasından bir cizgi görmək olar. Füzulidəki kimi, burada da məhəbbətin başlıca xüsusiyyətlərindən birini onun dərin qəm və kədərlə çulğaşması təşkil edir. Bu baxımdan Füzuli qəhrəmanı kimi İsfəndiyar kişinin də qəm-kədərdən "sərməst" olması, dünyanı unutması dahi şairlə birbaşa bağlardan xəbər verir.

«Saz» povestində dəmirçi İsfəndiyarın müharibəyə getmiş oğlanlarına qarşı ata sevgisində, ata nisgilində bir Füzuli məhəbbəti çaları var – qəm-qüssə, cövrü cəfa ilə bağrı badaş olan Füzuli məhəbbəti! Povestin müxtəlif epizodlarında dəmirçi İsfəndiyarı təpədən dırnağacan çulğamış bu məhəbbət lirik bir üslubda dilə gətirilir, heç nə ilə dərman edilə bilməyən daxili yanğı kimi öz bədii-psixoloji ifadəsini tapır.

İsa Muğanna da öz qəhrəmanının məhəbbətdən qaynaqlanan kədərini ifadə etmək üçün Füzuli şeirinin ənənələrini öz nəsrinin imkanları daxilində yüksək bədii səviyyəyə qaldırmağa nail olur. Ayrılıq dərdindən sözün həqiqi mənasında ürəyi parça-parça olmuş, ağır infarkt keçirmiş «Həzrət İsfəndiyar» öz yusiflərinin – Rəhmanla Bəhmənin iyini gəlinlərindən və nəvələrindən almaq üçün evə gedir. Yazıçının lakonik təsvirində bu ev Həzrət Yəqubun «beytül-həzəninə» necə də bənzəyir:

«Demək, yenə evə gedirdi. Rəhmansız, Bəhmənsiz evə. Gəlinlərinin, nəvələrinin üzünə baxa-baxa qəm dəryasına qərq olmağa gedirdi...» (6, 12)

Füzulinin lirik qəhrəmanı kimi, İsa Muğannanın da lirik-epik qəhrəmanı İsfəndiyar kişi, məhəbbətlə dərdin birgə hücumundan ağlını itirəcək dərəcədə sərxoş, sərməst ola bilir. Füzulinin «Leyli və Məcnun» poemasının baş qəhrəmanlarından birinin – Məcnunun dilindən verilmiş «Nədir?» rədifli qəzəldə məhz məhəbbətlə kədərin olaqanüstü təsirindən sərməst olmuş bir aşiqin psixoloji sarsıntıları təsvir və tərənnüm olunur:

Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir?
Mən kiməm, saqi olan kimdir, meyü səhba nədir?

Gərçi canandan dili-şeyda üçün kam istərəm,
Sorsa canan, bilməzəm kami-di1i-şeyda nədir? (4, 209)

Sevimli oğlanlarının qara xəbərini eşidən İsfəndiyar kişi də Füzuli Məcnununun düşdüyü eyni sarsıntılı psixoloji vəziyyətə düşür: «Birdən-birə səssiz-ünsüz qaraltılara çevrilmiş qız-gəlinin arasından qapıya, sonra da ay işığında evinə doğru ayaqlarını sürüyəndə elə bil illərin uzaqlığında qalmış röyasını, Bəhmənin səsini xatırladı: «Saz kökdən düşsə... Saz kökdən düşsə...» Ardınca həyətə, içəriyə bir aləm adam getdiyini də bilmədi. Dünya ağırlığında ayaqlarını daha bir addım da çəkə bilmədiyini, taxtın üstünə zorla qaldırıldığını da bilmədi.

Qəmdən Məcnun kimi sərməst olmuş İsfəndiyar kişini Füzuli qəhrəmanlarına yaxınlaşdıran cəhətlərdən biri də – xüsusən, keçən yüzilliyin ortalarında nəsrimizdə öz təsvirini tapmış və milli mentalitetimizə uyğun hesab etdiyimiz ağırtaxtalı, ən kəskin ağrısını belə dost-düşmən arasında büruzə verməyən kişi obrazını sındırmasıdır. Böyük məhəbbətini layiq olduğu böyüklükdə, böyük dərdini də layiq olduğu böyüklükdə yaşamasıdır. Zənnimizcə, bu obraz vasitəsilə çağdaş nəsrin klassik poeziyadan

təsirləndiyi konkret özəllikləri, aldığı konkret izləri aşkar etmək mümkündür.

İsa Muğannanın povestlərindəki «Leyli-Məcnun məhəbbəti» öz təsvirini əsasən «Faciə» və «Ömür karvanı» əsərlərində tapıb. Bu nəsr örnəklərində əks olunmuş kövrək qadın-kişi məhəbbətində füzuliyanə «Leyli-Məcnun məhəbbətində» olduğu kimi, bir faciə çaları da özünü göstərir ki, bu həmin povestlərdə Füzuli təsirinə dəlalət edir.

Ömür karvanı povestinin qəhrəmanları olan Heybətlə Tükəz on beş illik ailə həyatlarında heç bir mənəvi-psixoloji problemlə üzləşməyiblər. Bir-birinin hörmətini saxlayıblar.

Təsadüfən Heybət qonşuya gələn bir qızı görür və hər şey bundan sonra dəyişir. O, hər gün qızın avtobusdan düşüb o evə gəldiyini müşahidə edir. Qız keçib gedəndən sonra, təbii ki, Heybət qırx yaşlı, on beş illik ailə stajlı bir adam kimi xəcalət çəkir, özünə hesab verməyə çalışır; ancaq bütün bunlar qız gözdən itəndən sonra baş verir və nə qədər ki, o, «yüz addımlıqdakı fin evinin darvazasından içəri girməyib», Heybət «ilk gənclik hissləri təzəcə oynayan cəsarətsiz bir yeniyetmə kimicə naçar dayanıb, qəsəbənin qurtaracağındakı bu son duracaqda düşən təkcə sərnişini həsrətli, məftun gözlərlə ötürür.» (53, 400) Bu isə Füzuli vurğunluğuna və məftunluğuna yaxın bir psixoloji haldır:

Derəm, əhvalımı cananə qılam ərz, vəli,
Görə bilməm özümü, onda ki, canan görünür. (4, 133)

Heybət də nə qədər özü ilə mübarizə aparsa da, «canan görünərkən özünü görə bilmir». Özünü cananda görmək, öz varlığını sevdiyin insanın varlığında əritmək klassik poeziyanın çox sevilən bədii priyomları sırasında önəmli yer tutur. «Ömür karvanı» povestinin qəhrəmanı da hansı bir möcüzə iləsə qısa müddət ərzində ixtiyarını əlinə verdiyi gözələ bənzəməyə çalışır, daha doğrusu, bənzəyir də – baxmayaraq ki, onların fizionomiyaları tamamilə bir-birinin əksidir. Bu psixoloji situasiyada Heybətin keçirdiyi heyrət də, əslində özünün başqalaşması, özünü tanıya bilməməsi ilə bağlıdır. Necə ki, Füzuli deyirdi:

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti-halım görən surət xəyal eylər məni. (4, 300)

Heybətin heyrəti onun qırx illik həyatında adət etdiyi, müəyyən mənada həm də qürur duyduğu yaşam tərzini qəfildən dəyişməsi, dəyişə bilməsi ilə bağlıdır. Neçə illərdir, iş yoldaşları onun konservativ əqidəsini dəyişə bilmirlər, onun qarşısında öz gücsüzlüklərini etiraf edirlər. ancaq budur, cəmi bir həftə ərzində hər dəfə cəmi bir neçə dəqiqə gördüyü qız onu özünün də tanımayacağı dərəcədə dəyişib! «Əmma bir həqiqət var ki, daha əvvəlki Heybət deyil, qəfildən yüngülləşib, atılıb-düşən, dingildəyən olub! Bu ağırlıqda gövdəni yerindən oynadan nədir?» (6, 401)

Bu sualın cavabını yazıçı özü bilir, hətta oxucu da artıq bu suala cavab tapıb; üstəlik, Heybətin ömür-gün yoldaşı Tükəzin də dalağı sancıb; təkcə əsərin qəhrəmanı ürəyində «bədbəxtlik» adlandırdığı bu məğlubiyyətlə barışmaq istəmir, hətta özü ilə zarafat etmək cəsarətini də əldən qaçırmır:

«Heybət dodaqlarını büzdü: «Bircə o qalıb deyəm ki, ürəyimdə xəyal bəsləmişəm, bu misalda, bu nişanda bir gözələ qovuşmaq istəmişəm. H-m! Necə deyərlər, potensial

məhəbbət! Ay-hay!.. Dünyamalı kişinin qızını burda boynu buruq qoyub, ayrısının dalınca düşəcəm? Daha yerimdən qalxan deyiləm! İstər Bakının bütün gözəlləri tökülüb səf-səf düzülsün, evimin qabağında gözəllərin ~~rəsmi-keçidi~~ başlansın, qalxan deyiləm!» (53, 401)

Heybətin öz duyğularını hətta içində, özlüyündə də inadla inkar etməsi, əslində onların etirafı kimi səslənir. Onun daxili monoloqundakı ilk ifadəni («bircə o qalıb deyəm ki») çıxarsaq, birinci cümlənin sonrakı hissəsi doğrudan da, sevgi etirafıdır və bu etirafın tarixçəsini biz bir qədər sonra Heybətin xatirələrindən öyrənirik. Gəncliyində Tutu adlı bir gözələ aşiq olmuş, ancaq əqidəsindəki konservativlik ucundan onu itirmiş Heybət şüuraltında bir Tutu obrazı gəzdirdiyinin və bu obraza bənzər hər kəsə aşiq olduğunun fərqindədir. Bu, bir növ proobrazdır, irfandakı sevgili-tanrı obrazıdır. Bu, eyni zamanda, Füzulinin «büti-növrəsi», dil açmış rəsmidir. Yazıçının təsvirində də biz Füzuli gözəlini asanca tanıya bilirik: «Yenə özündə deyildi; eynilə əvvəlki günlərdəkitək cəsarətsiz bir yeniyetmə kimicə matdım-matdım tamaşa eləyirdi; ondan izahat tələb edən canlı adama yox, hansı möcüzə ilə danışmağa başlamış bir rəsmə baxırdı (seçmə mənimdir - L.M.), ipək kimi yumşaqlığı kənardan hiss olunan, azacıq rəng sürtülmüş dodaqların, dümağ çöhrədə tuşla çəkilmiştək nazikcə qaşların tərpənişinə fikir verirdi: «Tutu!.. Tutu!..» O plyajda, o şillədən sonra ölmüş Heybət dirilib qızın döşlərinin arasına ötəri baxıb üzünü kənara tutdu.» (53, 415)

Girib bütxanəyə, qılsan təkəllüm, can bulur şəksiz,
Müsəvvirlər nə surət kim, dərü divarə yazmışlar. (26, 130)

Füzulinin gözəli gözəllərin şəkli çəkilmiş bütxanəyə girib, öz şirin danışığı ilə onları canlandırdığı kimi, Heybətin də danışan surət hesab etdiyi gözəl onu dirildir, on beş illik ölünü dodağının möcüzəsi ilə cana gətirir.

Əlbəttə, aydındır ki, İsa Muğannanın realist nəsrində aşiq qəhrəman, özü də milli dəyərlərin təbliğatçısı və hətta bir qədər fanatik təəssübkeşi olan qəhrəman düşdüyü psixoloji böhrandan çıxmağa özündə güc tapacaqdı və elə yazıçının özü də bu babətdən ona yardımçı olacaqdı. Ancaq bu, heç də Heybətin «parlaq» qələbəsi olmayacaqdı, o, yenidən könüllü olaraq öz «ölü həyatına» qayıdacaqdı.

Heybət də bütün zahiri əzəməti, bütün daxili təmkini, özünü tox tutması ilə yenə də «qafiləsalari-karivani-qəmdir» və bütün ömrü boyu belə də qalacaqdır.

Birbaşa Füzuli qəzəlləri ilə təmasda yazılmış Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı Füzuli "Leyli və Məcnun"u üslubunda bir eşq hekayəsi adlandırıla bilər. Füzuli irsinə məhəbbət, Füzuli yaradıcılığına ciddi maraq – klassik ədəbi irsə maraq, bağlılıq deməkdir və Anarı bu baxımdan yüksək qiymətləndirən akademik Bəkir Nəbiyev də belə bir fikrində tamamilə haqlıdır:

«Allahın xoş saatda yaradıb böyük səxavətlə qüvvətli istedad əta etdiyi Anar klassik ədəbi irsimizlə sabahkı estetik fikrimiz arasında mötəbər mənəvi körpü kimi sözün müstəqim mənasında barmaqla sayılan qədər nadir sənətkarlarımızdan biridir.» (7, 273)

Xüsusən Təhminə obrazı ilə yazıçı Füzuli Leylisi səviyyəsində çağdaş bir məşuqə obrazı yaratmağa nail olmuşdur. Romanın hər bir fəslinin əvvəlində Füzulidən epiqraf verilməsi isə dahi şairin əsərin yaranmasında birbaşa təsiri kimi nəzərdən keçirilə bilər.

Hər bir epiqrafın fəslin məzmunu ilə üzvi vəhdət təşkil etməsi isə sələf-xələf münasibətlərinin Anar tərəfindən nə qədər doğmalıqla və yüksək səviyyədə gerçəkləşdirildiyini göstərir.

Təhminə obrazına nisbətən Füzuli romantikasından daha az bəhrələndiyinə baxmayaraq, Zaur obrazı da şüuraltı səviyyədə Füzulinin aşiq obrazlarına yaxınlaşır, öz yaddaşı ilə çəkişmədə isə müəyyən dərəcədə uduzur. Bu, Füzuli poemasında olduğu kimi, aşiqlərin bir-birini, daha doğrusu, Təhminənin Zauru öz səmimi məhəbbətinin gücü ilə kamilləşdirməsi kimi qiymətləndirilə bilər. Təbii ki, bu kamillik romanda müəyyən qədər şərti xarakter daşısa da, Füzuli təsirinin izlərindən danışmamaq da qeyri-mümkündür. Bu isə Anarın əsərində Füzuli təsirini sxematiklikdən xilas edir və ona xoş bir rəngarənglik gətirir. Bütün bunlar yazıçının Füzuli irsinə nə qədər dərindən bələd olmasının göstəricisi kimi dəyərləndirilə bilər.

Başlıca olaraq iki ipostasda – regional və qlobal səviyyədə aşkar edilən Füzuli kədəri çağdaş nəsrimizin bir sıra görkəmli örnəklərində də öz izlərini qoymuşdur. Ən çox lirik-psixoloji üslubda yazılmış nəsr əsərlərində özünü büruzə verərək üzə çıxan bu izlər çox vaxt Füzuli məhəbbəti ilə çulğaşmış halda, poetik xəlitə kimi nəzərə çarpır.

Çağdaş Azərbaycan nəsrində lirik-psixoloji üslubun ən böyük nümayəndələrindən biri olan İlyas Əfəndiyevin, avtobioqrafizm elementləri ilə zəngin olan "Geriyə baxma, qoca!" romanında məhz Füzuli kədəri və məhəbbəti ayrılmaz ünsürlər kimi birləşmiş, qovuşmuş halda çıxış edir. Bu əsərdə də Füzuli mətninə birbaşa müraciət nəticəsində aparıcı obrazlarla Füzuli qəhrəmanları arasında yaxınlıq, doğmalıq yaradılır.

Tanrısından ayrılmış ruhun çırpıntısı kimi yozulan Füzuli kədəri retrospektiv xarakter daşıdığı kimi, İlyas Əfəndiyevin romanındakı nostalji ovqatı da uşaqlığın "bəzmi-vəslini" yada salan yazıçı ruhunun retrospektiv istiqamətdə çırpıntıları kimi qiymətləndirilə bilər. Elə buna görədir ki, romanın qəhrəmanı Muradın dilindən "dünya kədəri" ifadəsi tez-tez səslənir ki, bu da əslində "Füzuli kədəri" ifadəsi ilə sinonimlik təşkil edir. Bu baxımdan, Füzulinin azərbaycanca "Divan"ı və ölməz "Leyli və Məcnun" poeması "Geriyə baxma, qoca!" romanının əsas mövzu və ideya qaynaqlarından biri kimi çıxış edir və çağdaş nəsrdə Füzuli izlərinin aşkarlanması üçün ən uyğun əsərlərdən biri kimi diqqəti cəlb edir; eyni zamanda, gələcək nəsr əsərlərində Füzulidən bəhrələnmənin ən gözəl örnəklərindən biri kimi presedent rolunu oynayır. Gələcək tədqiqatlarda İlyas Əfəndiyevin bütün yaradıcılığının bu aspektdə öyrənilməsi çox vacibdir və bu yöndə yazılacaq elmi əsərlər ədəbiyyatşünaslığımızı zənginləşdirə bilər.

Füzuli kədərinin çağdaş nəsrə təsir formalarından və yollarından birini də ədəbi-bədii esselərdə onun sənətkar obrazının yaradılması təşkil edir. Bu baxımdan alim-yazıçı Kamal Abdullanın esseləri zəngin material verir. Bu esselərin Füzuli ilə bağlı ən qiymətli cəhətini, yazıçı tərəfindən dahi şairin obrazına yeni baxış bucağının sərgilənməsi təşkil edir.

Füzuli irsinin gözəl bilicilərindən biri olan Kamal Abdullanın Füzuli haqqındakı esselərində əsas diqqəti çəkən odur ki, yazıçı bu miniatür bədii əsərlərdə yaratdığı filosof-sənətkar obrazının köməyi ilə bir örnək, bir təqlid qaynağı ərsəyə gətirir, bu tükənməz mənbədən faydalanmağa, öyrənməyə,nə isə götürməyə çağırır. Bu "nə isə" milli-mənəvi inkişafa xidmət etməli, ölkənin mədəni həyatında praktik əhəmiyyət daşımalıdır. Məhz buna görə çağdaş ədəbiyyatımızın Füzuli səviyyəsinə qalxa bilməməsi yazıçını kədərləndirir və o, bu səmimi kədərinə bir Füzuli kədəri də qatır.

Çağdaş nəsrimizə Füzuli yaradıcılığının və şəxsiyyətinin təsiri olduqca böyükdür və bu yöndə gələcəkdə ciddi şəkildə elmi araşdırmalar aparılmalıdır.

ƏDƏBİYYAT

1. Əliyev Heydər. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, 496 s.
2. Abdulla Kamal. Yarımçıq əlyazma. Bakı, XXI-VHE, 2007, 286 s.
3. Füzuli Məhəmməd. Əsərləri. 6 cilddə, c.1, Bakı, "Şərq-Qərb", 2005, 399 s.
4. Füzuli Məhəmməd. Əsərləri. 6 cilddə, c.2, Bakı, "Şərq-Qərb", 2005, 355 s.
5. Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. B., "Sabah",1996, 712 s.
6. Muğanna İsa. Seçilmiş əsərləri. 6 cilddə, c.1, Bakı, "Avrasiya-Press", 2009,424 s.
7. Nəbiyev Bəkir. Ədəbiyyatımızın Anar fenomeni/Bəkir Nəbiyev. Seçilmiş əsərləri. 5 cilddə.c.5., Bakı, "Çinar-Çap", 2009.

ЛАЛА МАМЕДОВА

ВЛИЯНИЕ ФИЗУЛИ НА НАШУ СОВРЕМЕННУЮ ПРОЗУ

РЕЗЮМЕ

В статье говорится о творческом влиянии классической литературы на современную прозу. Особо обращается внимание на роль «Дивана» Физули на азербайджанском языке и поэмы «Лейли и Меджнун» в формировании лирико-романтического стиля.

Посредством анализа морально-психологического состояния главных героев произведений видных писателей двадцатого столетия Ильяса Эфендиева, Исы Муганны и Анара подтверждается большое влияние творчества Физули на современную лирико-психологическую прозу.

Lala Mammadova

Our contemporary prose in the literary school of Fizuli

Summary

The article is about the creative benefit from classical literature in modern prose. In particular, in the formation of lyrical-romantic style special attention is paid to the position of M.Fizuli's "Divan" in Azerbaijani and the poem "Leili and Majnun".

The outstanding writers of the twentieth century Ilyas Efendiyev, Isa Muganna analyzing the moral and mental state of the main characters in Anar's works confirmed that Fizuli's creativity and personality have had great influence on contemporary modern lyrical-psychological prose.

Rəyçi: Safura Quliyeva,
Filologiya üzrə fəlsəfə doktoru

NAİLƏ QASIMOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

GENDER OF NOUNS AND THEIR COMBINABILITY IN CONTEMPORARY ENGLISH

Açar sözlər: *dil, üsul, cins, kateqoriya, kişi cinsi, qadın cinsi, orta cins, ifadə etmək*
Key words: *language, way, gender, category, masculine, feminine, neuter, to express*
Ключевые слова: *язык, способ, род, категория, мужской род, женский род, средний род, выражать*

In contemporary English there is no grammatical category of gender, since gender of nouns does not find regular morphological expression.

Gender is natural. The distinction of male, female, neuter or common may correspond to the lexical meaning of the noun.

There are four natural genders in contemporary English. They are:

1. *Masculine –male sex*
2. *Feminine – female sex*
3. *Common- either sex*
4. *Neuter- neither sex*

I. Masculine and Feminine Gender.

There are three different ways of expressing masculine and feminine genders in nowadays English. They are the following:

1. by using different words to show gender of nouns. In this case there is an exact identity between contemporary English and Azerbaijani, such as:

Masculine gender

father –ata
brother -qardaş
uncle- əmi, dayı
boy-oğlan
nephew –qardaş/bacı oğlu
son -oğul
man - kişi
husband-ər
sir -cənab
gentleman –cetlmən
bachelor –subay kişi
monk- rahib
cock- xoruz
bull- kələ, buğa
ram- qoç
drake- yaşılbaş (erkək ördək)
dog – köpək

feminine gender

mother –ana
sister-bacı
aunt-xala, bibi
girl- qız
niece-qardaş/bacı qızı
daughter-qız
woman –qadın
wife –arvad
hen- toyuq
spinster – qarımış qız
nun-rahibə
cow-inək
ewe -qoyun
duck-fərə ördək
lady-xanım
madam - madam

2. by adding the suffix –ess.

Masculine	**- Feminine**
host	hostess
jew	jewess
duke	duchess

3. by adding – or or – er into –ress

tiger –tigress
actor-actress
master-mistress

5. by prefixing or suffixing a word denoting the sex, such as:

Masculine	**Feminine**
grandfather	grandmother
manservant	maid servant
landlord	landlady
tom-cat	tib-cat\she-cat
he-goat	she-goat
billy-goat	many –goat
cock sparrow	hen-sparrow

In addition to the above mentioned there are some exceptions, such as:

Masculine	**Feminine**
bridegroom –bəy	bride – gəlin
widower –dul kişi	widow- dul qadın
fox - erkək tülkü	vixen- dişi tülkü

Masculine	**Feminine**
sultan	sultana
hero	heroine
don	donna
testator	testatrix
czar	czarina
beau	belle
signor	signora
administrator	administratrix

Common gender

Nouns in the common gender may denote either males or females, such as: friend, parent, child, bird, baby, servant, person, pupil, teacher, cousin, cat, sheep, deer, rat, elephant, mouse, pig, buyer, seller, debator, thinker, scholar, reader.

The sex of an animal is rarely expressed in contemporary English. English people say: a beautiful cat, whether it is a tom-cat or a tib-cat.

When things without life are personified masculine and feminine pronouns are used. The stronger forces and emotions are masculine, the gentler are feminine (except love)

Masculine are: summer, winter, the sun, winds, rivers, storms, angel, fear, love, war, murder, death.

Feminine are: the moon, the church, the earth, ships, cities, charity, faith, hope, justice, fortune, night, morning, liberty, victory

Neuter Gender

Nouns in the neuter gender denote things without sex, such as:

book, table, flower, tree, pen, pencil, room, house, street, road, wall

It is generally used for:

a) a baby or for a very young child and for:
b) animal

He or she may also be used if the sex is known.

Examples:

a) It is a nice baby child. He is a nice baby.
b) It is a cat. She is a little cat.

The combinability of the Noun.

Combinability is one of the morphological characteristics of any part of speech. According to combinability it is possible to distinguish parts of speech. Each part of speech has its own specific combinability.

The noun may combine:

1) with: a) a preceding and occasionally
b) following adjective, such as:
a) a difficult task, red apples, large cities, simple sentences
b) a decision important, a proposal sensible time immemorial

2) with a preceding noun in common case, such as:
a poetry book, a stone wall, a wooden bridge, a cotton dress

3) with a preceding noun in the genitive case, such as:
My friend's father, his mother's name, her sister's hair.

4) occasionally with a) a following or b) preceding adverb, such as
a) the meeting there
b) the then president

5) with numerals both a) cardinal and b) ordinal, such as:
a) five pupils, ten workers, hundred children
b) the first house, the second day, the third week

6) with prepositions, such as
after classes, before the next election
on\under\near\over\at the table

7) with articles of indefiniteness and definiteness, such as:
a book, the book, a window, the window

8) with a) possessive b) demonstrative
c) indefinite or d) defining pronouns, such as

a) my father, her sister, our country
b) this book; that tree; these houses, those children
c) some people, any question, few friends
d) all the people, every child, each worker

All the words existing in contemporary English are called parts of speech, no matter whether they have full nominative meaning or not.

Before starting to deal with the words it is necessary to classify them into classes. Otherwise it is simply impossible to deal with the words so numerous and different in any language, including contemporary English.

In fact, classification is a scientific method and the starting point of every investigation without which no research can be carried out more or less successfully. Every investigation begins or must begin with the classification of the matter in question. That is the main reason why classification is present in all branches of science, including grammar.

It is a tradition to classify words into certain groups before starting to deal with them, and we also keep to the tradition and want to start learning of parts of speech existing in contemporary English by classifying them into classes.

Traditionally, English words are classified into certain classes according to their grammatical meaning, morphological characteristics and syntactic functions.

In linguistic, grammatical gender is a specific form of noun-class system in which the division of noun classes forms an agreement system with another aspect of the language, such as adjectives, articles or verbs. This system is used in approximately one quarter of the world's languages. In these languages most or all nouns inherently carry one value of the grammatical category called gender.

The only purpose of the category of gender in English is expressing of semantic and lexical relations. Consequently, on the modern stage of the development of English in generally case can be spoken about lexico-semantic category of gender, though at present almost all scientists agree that there is evidently deficiently only semantic criterion to understand complex nature of the grammar gender and it is necessary to use all the linguistics facts, relating to this category.

The category of gender is strictly oppositional. It is formed by two oppositions related to each other on a hierarchical basis.

One opposition functions in the whole set of nouns is dividing them into person (human) nouns and non-person (non-human) nouns. The other opposition functions in the subset of person nouns only, dividing them into masculine nouns and feminine nouns. Thus, the first, general opposition can be referred to as the upper opposition in the category of gender, while the second, partial opposition can be referred to as the lower opposition in this category.

As a result of the double oppositional correlation, a specific system of three genders arises, which is somewhat misleadingly represented by the traditional terminology: the neuter (i.e. non-person) gender, the masculine (i.e. masculine person) gender, the feminine (i.e. feminine person) gender.

In general there is no distinction between masculine, feminine and neuter in English nouns. However, gender is sometimes shown by different forms or different words. Examples: Different words: Masculine- man, father, uncle, boy, husband; Feminine- woman, mother, aunt, girl, wife. Different forms: Masculine- actor, prince, hero, waiter, widower; Feminine- actress, princess, heroine and waitress.

Some nouns can be used for either a masculine or a feminine subject. Examples: cousin, teenager, teacher, doctor, cook, student, parent, friend, relation, colleague, partner, leader. Mary is a doctor. She is a doctor. Arthur is my cousin. He is my cousin.

It is possible to make the distinction by adding the words 'male' or 'female'. Example: a female student; a male cousin for professions, we can add the word 'woman'. Example: a woman doctor; a woman journalist. In some cases nouns describing things are given gender. Examples: I love my car. She (the car) is my greatest passion. France is popular with her (France's) neighbors at the moment.

LITERATURE

1. The grammar book: An ESL\EFL Teacher's Course. Marrianne Celce Murcia, 2012.
2. Grammar Dimensions, Heinl Thomson learning, 2014.
3. Kobrina N. Korneyeva E. An English Grammar Morphology. Moscow, 1985.
4. Quirk R, Greenbaum S. Comprehensive Grammar of the English language. Longman. London, 1998.
5. Azar B. Hagen S. Basic English Grammar. Moscow. 1964.

N.İ.QASIMOVA

MÜASİR İNGİLİS DİLİNDƏ İSİMLƏRİN CİNS KATEQORİYASI

XÜLASƏ

Məqalə İngilis dilinin cins kateqoriyasından bəhs edir. Cins kateqoriyası təbiidir. Kişi, qadın, orta cins ismin leksik mənasına müvafiq olur.

Müasir ingilis dilində isim dörd cins kateqoriyasına malikdir. Kişi cinsi, qadın cinsi, ümumi cins, orta cins. İngilis dilində kişi və qadın cinsini ifadə etmək üçün bir neçə üsul mövcuddur. Bunlardan biri müxtəlif sözlərin istifadə edilməsidir. Cins kateqoriyasını ifadə etmək üçün digər bir üsul suffikslərdən istifadə edilməsidir. Məsələn: actor-actress, poet-poetess. Müasir ingilis dilində cins kateqoriyası haqqında dərindən öyrənmək istəyənlər üçün məqalə yararlı ola bilər.

Н.И.КАСУМОВА

СУЩЕСТВИТЕЛЬНЫХ РОД В СОВРЕМЕННЫЙ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье речь идет о категории родов на английском языке. Родовая категория является естественным. Мужской род, женский род и средний род соответствуют лексического значения.

Современные английские существительные имеют четыре категории по роду. Мужской род, женский род, общий род и средний род. В английском языке есть несколько способов, чтобы выразить мужской и женской род. Одним из них является использование различных слов. Одним из способов, чтобы выразить родовую категорию это использование суффиксов. Например: actor-actress, poet-poetess. Статья может быть полезным для тех кто хочет узнать подробно о родах в современном английском языке.

Rəyçi: dos. F.Ə.Hüseynova

SALATIN ƏHMƏDOVA
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Memarlıq və İnşaat Universiteti,
Azərbaycan dili və ədəbiyyatı kafedrası

HEYDƏR ƏLİYEVİN NİTQLƏRİ ƏDƏBİ-BƏDİİ MƏTN KİMİ

Açar sözlər: Heydər Əliyev, ədəbi mətn, analitik təhlil, poetik özəllik, təfəkkür, nitq mədəniyyəti
Keywords: Heydar Aliyev, literary text, analytical analysis, poetic originality, intelligence, culture of speech
Ключевые слова: Гейдар Алиев, литературный текст, аналитический разбор, поэтическая самобытность, интеллект, культура речи

Fəlsəfi düşüncənin tarixiliyi, siyasi kəsər, təkzibolunmaz məntiq, Azərbaycan dilinin hüdudsuz ifadə imkanları, siyasi iradə və qətiyyət. Öz xalqına, milli keçmişə ehtiram və gələcəyə sarsılmaz inam H.Əliyevin nitq mədəniyyətinin əsas əlamətləridir. Onları ədəbi mətnlər kimi analitik təhlilin predmetinə çevirmək, poetik özəlliyini araşdırmaq mümkündür.

Heydər Əliyevin nitqləri onun kimliyini, tarixə və müasirliyə münasibətini, dövlət və millətin taleyi haqqında düşüncələrini əyaniləşdirən ədəbi mətnlərdir. Bu nitqlər necə deyilibsə eləcə də çap olunub. Ona görə də liderin nitqlərində böyük bir dinamika, canlı nəfəs var. Onun nitqləri tariximizdə və taleyimizdə Heydər Əliyev fenomeninin mahiyyətini açıqlayır. H.Əliyevi hamıdan yaxşı tanıyan, illərlə onunla birgə işləmiş akademik Ramiz Mehdiyev yazır: "Heydər Əliyev fenomini! Bu, bizim seçimimiz idi, ya tarixin? Bəzən fərdlərin seçim imkanının məhdudluğu üzündən tarix onların köməyinə gəlir. Tarix zamanca vaxtına, məkanca yerinə düşmüş şəxsiyyəti onların köməyinə göndərir, çaşqınlıq içərisində yaşayan insanların həyatına müəyyənlik gətirir. Bu, tarixi şəxsiyyətin əbədi tarixi missiyasıdır. Bəşər tarixinin başlanğıcından bu günədək belə olub və bu cür şəxsiyyətlərin rolunu azaltmaq istəyənlərə tarix sübut edib ki, bu qanun zaman ölçüsündən ucadır" (Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001, s.59). Bu mülahizələrdə yüksək tarixilik duyğusu var və akademik R.Mehdiyev Heydər Əliyev fenomeninin tarixi-fəlsəfi mahiyyətini məntiqi surətdə formulə edir. Bu fenomenin əyani təzahürü liderin zəngin nəzəri irsinin hər cümləsində, həm də onun parlaq nitqlərində görürük. Heydər Əliyevin nitqləri müstəqil Azərbaycan dövlətinin qurulması və müstəqilliyin əbədiliyinin təmin edilməsi ilə bağlı ən müxtəlif problemləri əhatə edir. Bu baxımdan ulu öndərin bəyan etdiyi əsas problemlərdən biri müstəqilliyin təməlində dayanan demokratiyanın təminatı idi: "Nəhayət, bizim ən böyük nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycanda demokratik hüquqi, dünyəvi dövlət qurulur, demokratiya bərqərar olur, insanlara azadlıq verilirdi. Biz bu yolla gedirik və gedəcəyik. Bunun nəticəsində də Azərbaycanda sağlam bir cəmiyyət formalaşıbdır. Bu, bizim ən böyük nailiyyətimizdir. Biz demokratik cəmiyyət yarada bilmişik" (Heydər Əliyev, müstəqilliyimiz əbədidir. XV c. Bakı. "Azərnəşr" 2005, s.71. Misallar bu nəşrdən veriləcək). Bu nitqdə işlənən "Nəhayət" sözü ilə H.Əliyev demokratiya haqqında fikrini görülmüş işlərin kontekstinə daxil edir. Demokratiya antik Yunan cəmiyyətindən, qədim türk imperatorluqlarından üzü bəri bəşəriyyətin əldə etdiyi ən

dəyərli nailiyyətdir... Totalitar sovet cəmiyyətinin təsirindən qurtulmuş bir ölkədə - Azərbaycanda demokratiyanın bərqərar olması həqiqətən böyük tarixi nailiyyət hesab oluna bilər.

Heydər Əliyev müstəqilliyini qazanmış ayrıca bir ölkədə demokratiyanın yaşaması üçün regional ziddiyyətlərin, xüsusilə, demokratiyaya qarşı çevrilmiş seperatizm, terror və s. kimi antiinsani halların aradan qaldırılması üçün birgə səylərin tarixi zərurət olduğunu nitqlərində ön plana çəkirdi: "Dünyada bir çox palitoloqlar regional münaqişələri, seperatizmi və terrorizmi obrazlı şəkildə Dünya Birliyinin xərçəng şişi adlandırırlar. Təəssüf ki, bu gün Qafqazı beb bir xəstəlik bürümüşdür. Biz siyasətçilər dinc Qafqaz ideyasını elan etməklə bütün mövcud münaqişələrin aradan qaldırılması ilə məşğul olmaqla Qafqazın bütün xalqlarının dinc və xoşbəxt gələcəyinə nail olmaq istəyirik. Dünyada ən humanist peşənin nümayəndələrinin əməkdaşlığa hazır olması da bir daha göstərir ki, "Ümumqafqaz evi" konsepsiyasının tamamilə gerçəkləşdirilməsi üçün hər cür əsas vardır" (XVIII c. s.l67).

Regional ziddiyyətlərin həlli konsepsiyası H.Əliyevin dünya siyasəti nəzəriyyəsinin tərkib hissəsi idi.

H.Əliyev nitqlərinin gücü bunda idi ki, o, nitqini fikri baxımdan məntiqlə qurmaqla yanaşı, sözlərdən, daha doğrusu, nitqin məzmununa ən uyğun dəqiq ifadələrdən yerli-yerində istifadə edirdi. Əlbəttə, siyasətin, diplomatik nitqin dili quru və sərt olur, lazım gələndə fikri dəqiq çatdırmaq, izahediciliyə yer qoymamaq üçün təkrarlara da yol verilir. Lakin H.ƏHyevin nitqləri səlis, fəlsəfi cəhətdən tutumlu və əksər hallarda obrazlı idi. H.Əliyevin dini-mənəvi dəyərlərə münasibətlə bağlı nitqində beb bir məqam var: "Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir.

Biz İslam mədəniyyətinin, İslam mənəvi dəyərlərinin müqəddəs kitabımız "Qurani-Kərim"də olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dildə desək, günahdır. Biz istəmirik ki, kimsə günaha batsın" (XVIII c.S.352 və 358). Göründüyü kimi, bu nitqdə artıq söz, çətin anlaşılan dönümlər və ifadələr yoxdur. Nitq mövzuya uyğun bir sonluqla tamamlanır: "Biz istəmirik ki, kimsə günaha batsın" - belə bir humanist mənəvi-insani mövqe, insaf amili bu nitqin təsir gücünü artırır, dinləyən sidq-ürəkdən danışanın səmimiyyətinə inanır. Bu nitqdə nəcib və ülvi məqsəd, dahi şəxsiyyətin insanlığa ehtiramı öz ifadəsini tapmışdır. Ulu öndər başqa bir nitqində İslamın rolunu ümummüsəlman kontekstindən ümumdünya kontekstinə keçirərək deyib: "Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində İslam elminin və mədəniyyətinin böyük rolu danılmazdır. Müxtəlif müsəlman xalqlarının birgə səyləri ilə təşəkkül tapmış İslam mədəniyyətinin ən mühüm tərkib hissələrindən biri isə memarlıqdır" (VIII c. s.73).

H.Əliyev nitqlərinin ədəbi mətn kimi bir gözəlliyi, əgər həqiqətdirsə, bir gözəlliyi də səmimiyyətdir. Onun səmimiyyəti özünəinamdan, xalqa güvənməkdən, xalqın ona olan sevgi və etibarına yüksək inamdan irəli gəlir. H.Əliyevin gücü bunda idi ki, o, xalqla açıq danışa bilirdi. Tədqiqatçı yazır: "Heydər Əliyevin səmimiyyəti təvazökarlığa söykənir. Özünün heç bir günahı olmadığı halda xalq qarşısında məsuliyyətini gizlətmir. Elə bu nəcib hərəkətlər də onu xalqın gözündə ucaldır.

Heydər Əliyevin səmimiyyəti etiraflarıdır. O, bu etirafı özündən yaş etibarilə çox gənc olan insanlar qarşısında edə bilir. Etiraf etmək mədəniyyətini dövlətçilik elementi kimi siyasi səhnəyə gətirir. Heydər Əliyevin səmimiyyəti keçmiş həyatını olduğu kimi danışmaqdadır" (Zamanov H. "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti". Bakı, "Elm və təhsil", 2013, s.203).

Səmimiyyət və etiraf şəxsiyyətin ruhən güclü olduğunu əks etdirən başlıca əlamətlərdir. Xüsusilə, nitq söyləyən zaman olanları səmimiyyətlə etiraf etmək qəlbin böyüklüyü, liderin xalqın onu düzgün başa düşəcəyinə inamın ifadəsidir. Etiraf həm də ruhun sakitliyi, səbr və səbat rəmzidir.

H.Əliyev nitqlərində ona görə inamlı idi ki, sözü ilə ruhu arasında mənəvi bağlılıq onun həyatının kredosuna çevrilmişdi. Söz, sənət adamları ilə özü arasında asanlıqla körpü yaradırdı. Elə ona görə də tədqiqatçıların diqqətindən onun bu keyfiyyəti yayınmır: "Heydər Əliyev mənəvi dəyərlərin daha sürətlə bərpası, qaytarılması, Azərbaycanın köklü mənəvi problemlərinin həlli uğrunda mübarizəyə elə bir şərait yaratdı ki, elm və sənət adamları bu mübarizədə çəkinmədən, cəsarətlə iştirak etməyə başladılar" (Əli Rza Xələfli, "Dilimiz - Varlığımız" Bakı MBM nəşriyyatı, 2009, səh.37). H.Əliyevin nitqlərinin səmimiyyəti onun nitqlərinə bədii çalar verməsi, bir sözlə, bu nitqlərin ədəbi mətnə çevrilməsi dili köklü surətdə, dərinliklərinəcən bilməsi ilə bağlı idi. Dil onun üçün siyasi mübarizə, özü də prinsipial, əqidəli, ləyaqətli, siyasi mübarizə silahı olmaqdan başqa, həm də mənəvi həyatın harmoniyasını yaratmaq vasitəsi idi. O, tarixi-mənəvi sərvətləri yaxşı öyrənmişdi. Özü də yaxşı bilirdi ki, gələcəyi qurmağın yolu bu tarixi-mənəvi sərvətləri dəyərləndirməkdən keçir.

Təsadüfi deyildi ki, bir siyasi rəhbər olmaq missiyası ilə bahəm ölkənin bütün iqtisadi-mənəvi mənzərəsini daim diqqətdə saxlayır, insanların maddi rifahını təmin üçün ciddi tədbirlər həyata keçirir. Bu tədbirlərdə yollar göstərir, istiqamətləri aydınlaşdırır və bütün bunlara siyasi görüşlərində olduğu kimi, ayrıca vaxt ayıra bilirdi. Amma onun diqqətində daha bir məsələ vaciblik mahiyyətini qoruyub saxlayır. Bu da görkəmli simaların adlarının əbədiləşdirilməsi, onların tarixi rolu haqqında fikir və düşüncələrini insanlarla bölüşməsi idi. Tədqiqatçı bu mahiyyəti diqqətdə tutub yazır: "H.Əliyev mənəviyyat adamı idi. O, sözü, sənəti, mədəniyyəti həmişə uca tuturdu. Xalqın tarixinə, xüsusilə mənəviyyat tarixinə böyük önəm verirdi. Amma iqtisadiyyatı da yaddan çıxarmırdı - pambığı da, üzümü də, taxılı da, nefti də - hər cəhətdən artırmaq, öz xalqını iqtisadi cəhətdən güclü görmək istəyirdi. Ancaq yaxşı bilirdi ki, xalqa özünün mənəviyyat tarixini öyrətməsən, xalqın mənəvi zənginliyini salnaməyə çevirib onun yaddaşına köçürməsən, xalq nə qədər iqtisadi cəhətdən güclü olur-olsun millətlər içərisində öz imzasını təsdiq edə bilməyəcək. Elə ona görə də xalqa mənəvi gücünü qaytarmaq üçün Nəsimiyə, Cabbarlıya, Cavidə, Nərimana heykəllər ucaldıldı. Onların möhtəşəm, həm xalqın adına layiq, həm də öz adlarına layiq yubileyləri keçirildi" (Ə.Xələfli "Ölməzlik nəğməsi" (ədəbi qeydlər), "Vətən" nəşriyyatı, Bakı - 2013, səh.189). Hələ sovet dövründə, Şuşada Vaqifin məqbərəsinin açılışı mərasimində onu yazıçıların əhatəsində görürük. Eləcə də paytaxtın ayrı-ayrı yerlərində, böyük ədəbiyyat xadimlərinin heykəllərinin ucaldılması, açılış mərasimindəki nitqləri... bu nitqlərdəki səmimiyyət, dildən sevgi ilə yararlanma onun xalqla ünsiyyət körpüsü idi.

Heç vaxt yubileyi keçirilməmiş XX əsrin böyük qəzəlxanı Əliağa Vahidin anadan olmasının 100 illik yubileyində söylədiyi nitqində bu səmimiyyətin ədəbi-fəlsəfi mahiyyəti öz əksini tapıb: "Mən səmimi deyirəm, bu gün salonda oturarkən hisslərim

həddindən çox canlandı, həyəcanlandım, xalqımızın, millətimizin, ədəbiyyatımızın, şeirimizin, incəsənətimizin nə qədər böyük olduğuna görə sizinlə bərabər böyük iftixar hissi keçirdim" (VIIc. s.256).

H.Əliyevin nitqlərində elə deyimlər var ki, onlar ifadə etdikləri fikrin siqlətinə, ədəbi gözəlliyinə və bədii yığcamlığına görə aforizm kimi səslənir. O, fikrini tarixən doğru, ədəbi baxımdan sərrast ifadə edirdi: Məsələn, "Xalqdan heç kəs inciyə bilməz", "Tarixi qaralamaq olmaz". Bu kəlamların işlənmə kontekstinə nəzər salaq: "Bilirsinizmi, xalqdan heç kəs inciyə bilməz. Ola bilər, ayrı-ayrı adamlardan inciyəsən. Ancaq incikliyi saxlamaq lazım deyil, kinli olmaq da lazım deyil. Çünki xalqımızın bu ağır dövründə gərək bu hisslər kənara atılsın. Labüdlük hissiyyatı var. Hamımızın şüurunda bu hissiyyat gərək hakim mövqe tutsun. Biz bu ülvi hissiyyatla yaşamalıyıq" (I c. s.l53).

"Labüdlük hissiyyatı" deyimi, bəlkə də, ilk dəfə məhz H.Əliyevin nitqində işlədilir. "Ülvi hissiyyatla yaşamaq!" bundan gözəl, bundan daha nəcib və humanist qayə və ifadə işlətmək çox çətindir.

Ədəbi mətn kimi H.Əliyev nitqinin gücü tarixilik və səmimiyyətin vəhdətində idi. O, sərt obyektiv tarixi həqiqəti ən səmimi, hətta obrazlı, poetik- şairanə sözlərlə insanların şüuruna və qəlbinə ünvanlamağı bacarırdı: "Hər şey heç vaxt tam gül-çiçək içində olmayıbdır. Biz keçmişdə hansı itkiləri vermişik, amma hansı nailiyyətlər də əldə etmişik - hamısı məlumdur. Ona görə də keçmişi pisləmək lazım deyil. Keçmişdə pis olana pis, yaxşı olana yaxşı demək lazımdır. Mən belə fikirdəyəm" (VIII c. s.84).

H.Əliyev özü xalqın taleyində, onun dünyagörüşünün, təfəkkür tərzində, nitq və üslubunda ədəbi amilin üstünlüyünün, bədii gözəlliyin və emosional təsiri səbəblərini xalqımızm təbiətən yaradıcıhğa meylliyində görürdü. Nitqlərindən birində deyirdi: "Bizim xalqımız, birincisi, öz istedadına görə şair, yazıçı, söz ustası olubdur. İkincisi, bizim xalqımız çoxəsrlik tarixində böyük şairlər, yazıçılar, mütəfəkkirlər yetişdiribdir" (XIII c. s.45).

Yüksək nitq mədəniyyəti çox nadir liderlərə xas bir keyfiyyətdir. H.Əliyevi böyük tarixi şəxsiyyət, dönməz siyasi iradəyə, dövlətçilik təcrübəsinə, tarixin gedişatını duymaq və ona təsir etmək imkanlarına malik rəhbər kimi fərqləndirən, ona hüdudsuz nüfuz gətirən əsas cəhətlərdən biri də parlaq natiq olması idi. Onun nitqləri yüksək məntiq, dərin zəka, çoxcəhətli ədəbi üslubla süslənmiş məzmunlu məntlərdir. Ədəbi mətn kimi H.Əliyev nitqlərində diqqəti cəlb edən üçüncü problem üslub müxtəlifliyidir.

ƏDƏBİYYAT:

1. Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər: Çinar-çap, 2007. - 136 s.
2. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı: nitqlər, məruzələr, çıxışlar. Bakı: Ozan, 1999.- 495s.
3. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, 248 s.
4. Heydər Əliyev və mədəniyyət: müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə. C.1. : 1969-1982, 1993-1996. Nurlar, 2008. - 504 s.

SALATIN ƏHMƏDOVA

SPEECHES OF HEYDAR ALIYEV AS LITERARY AND ARTISTIC TEXT

Speeches of national leader Heydar Aliyev become subject of analytical analysis as literary texts and investigates poetic feature. Power of Heydar Aliyev's speech as literary text is studied in the unity of historicity and sincerity in the research. Speeches of national leader are texts of high logic, deep intellect with versatility.

РЕЧИ ГЕЙДАРА АЛИЕВА КАК ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННЫЙ ТЕКСТ

Статья превращает речи Национального лидера Гейдара Алиева в объект аналитического изучения в качестве литературных текстов, исследует поэтическую особенность. В исследовании изучается сила речи Гейдара Алиева в единстве историчности и искренности, в качестве литературного текста. Речи Национального лидера являются выразительными текстами, составленными с высоким уровнем логики, глубоким разумом, многообразным литературным способом.

Rəyçi: Nizami Cəfərov
AMEA-nın müxbir üzvü

S.V.NOVRUZOVA
Odlar Yurdu Universiteti
e-mail/ novruzovaseadet@gmail.com

İNGİLİS MODERNİST ƏDƏBİYYATININ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *modernizm; realizm; Dünya Müharibəsi; ideologiya*
Key words: *modernizm; realizm; World War; ideology*
Ключевые слова: *модернизм; реализм; Мировая Война; идеология*

Modernizm və realizm XX əsrdə əsasən bir-birilə mübarizə və bir-birini inkar etmək şəraitində meydana çıxmışdır. Bu günə qədər adları açıqlanan cərəyanlar yaradıcılıq baxımından bərabər tərəflər qismində bir-birilə mübarizə aparırdılar. XX əsr modernistlərin realist sənətə və əksinə realizmin modernizmə təsiri şübhəsizdir. Gələcəkdə onların qarşılıqlı münasibətlərinin daha da möhkəmlənməsini, qarşılıqlı təsirinin güclənməsi zəruridir. Bu cərəyanların qarşılıqlı mübarizəsi onların qarşılıqlı şəkildə inkişaf etməsinə təkan yaradırdı.

Modernizm müxtəlif yönümlü və çox zaman qarşılıqlı mübarizə şəraitində mövcud olan və eyni zamanda bir-birini inkar edən cərəyanlardan ibarətdir. Zaman keçdikcə bu cərəyanlar bir-birini əvəz edərək nəticə etibarı ilə müəyyən klassik sənət növlərinə çevrilmişlər. Modernistlər əvvəllər incəsənətin inkişafı nəticəsində meydana gəlsə də, sonradan mövcud ənənə əsasında sabitləşmiş dəyərlərdən, normalardan və qanunlardan imtina edirlər. Onların diqqət mərkəzində daima kütləvi incəsənətin inkişafı və şəxsiyyətin şüurunun formalaşması əsas məqamlardan biridir. Modernistlərin insanın mövqeyi və taleyi probleminə münasibəti fərqlidir.(1, 23)

Əslində modernizm Birinci Dünya Müharibəsi ərəfəsində və müharibədən sonrakı dövrdə formalaşan ədəbi və mədəni nəslin baş verənlərə qarşı etirazı idi.

İngilis ədəbiyyatında modernizm cərəyanın yaranması XX əsrin ortalarına doğru təsadüf etmişdir. Modernistlərin cəhdləri əsasən qəfil və gözlənilməz yeniliklərlə bağlı olurdu. Birinci və İkinci Dünya Savaşları onların baxışlarında güclü dəyişiklər yaratmışdır. Eyni zamanda bu müharibələrin arasındakı böyük intibah dünya ədəbiyyatına təsirsiz ötüşməmişdir. Baş verən hadisələr tarixi zəruriyyət kimi səslənirdi. Dünyanı qan içində boğan ideologiyalar və onların təmsilçiləri dünyanı yenidən bölüşdürmək uğrunda mübarizə apardıqları zamanda köhnə dəyərləri inkar edərək yeni humanist prinsiplərdən çıxış edən modernistlər ədəbiyyatda peyda oldular.

İngilis ədəbiyyatında tüğyan edən modernizm bir-sıra xüsusiyyətlərlə xarakterizə olunurdu. Birinci, ingilis modernistləri mövcud olan ənənələrə qarşı səylə çıxış edirdilər. Onlar əsasən, dini, siyasi və sosial dünya duyumuna qarşı etiraz edirdilər. Onlar inanırdılar ki, dünya dərketmə sayəsində yaranmışdır və dünya bizim gördüyümüz haldadır. Modernistlərin düşüncə tərzinə əsasən, mövcud olan hər şey nisbidir, tamamilə həqiqi olan heç nə yoxdur. Onlar dünyanı xaos halında, qarmaqarışıq halda görürdülər. Fərdin liderliyinə, onun daxili gücünün təntənəsinə inam modernizmin əsas xüsusiyyətlərindən biri hesab olunurdu. Keçmişlə, tarixlə əlaqə və ümidsizlik kimi insani hisslər onların təbiətinə xas olan xüsusiyyətlər idi. İnstiktiv olaraq hadisələr haqqında fikirlər söyləmək və nəticə əldə etmək modernistlər üçün səciyyəvi idi. “The horrors of World War I (1914-19), with its accompanying atrocities and senselessness

became the catalyst for the Modernist movement in literature and art. Modernist authors felt betrayed by the war, believing the institutions in which they were taught to believe had led the civilized world into a bloody conflict. They no longer considered these institutions as reliable means to access the meaning of life, and therefore turned within themselves to discover the answers."(4,55) – "Müharibənin törətdiyi dəhşətlər onların baxışlarında yaratdığı dəyişikliklər ədəbiyyatda və incəsənətdə yaranan modernizm hərəkatında katalizator rolunu oynayırdı. Modernistlər müharibə siyasətçiləri tərəfindən aldadıldıqlarına, qan və qətliam içərisində sivil olan yeni dünyanın qurulmasına inanırdılar. Onlar bir müddət müəyyənləşdirdikləri nəticələri həyatın mənası üçün əsas olduğunu düşünür və yaranan suallara cavab axtarırdılar."

Ənənəvi düşüncə tərzinə qarşı çıxış edən modernistlər daha çox məzmunda deyil, formada dəyişikliklər axtarışında idilər. İngilis modernizm cərəyanın məşhur nümayəndələri sırasına Ceyms Coys, Ford Madoks Ford, Virginia Vulf, Stevi Smis, Aldos Haksli , D.H.Lourens və s. daxil idi.

Bəzi tədqiqatçılar İngilis ədəbiyatında modernizmin yaranmasını XIX əsrin son rübünə aid edirlər. Onlar həmin dövrdə özgələşmə, tənhalıq və s. kimi xüsusiyyətlərin anatagonist xarakter kəsb etməsini fikirlərinin sübutu kimi görürdülər. Bu arada romantizmin xüsusiyyətlərinin öz yerini modernist cərəyana ötürməsi bu cərəyanın bədii-estetik fikirdə aparıcı mövqeyini zərbə altında qoyurdu. Onlar deyirdilər: "Biz min illərin ənənələri ilə qurulan ümumi incəsənətin dərin qatlarında partlayışlar yaradan böhranının içindəyik. Köhnə incəsənətin gözəl idealları birdəfəlik sönür, hiss olunur ki, geriyə yol yoxdur." (7,34)

İngilis modernist ədəbiyyatı insanın həyatında baş verən böhranın səbəblərini araşdıraraq yeni üsul və vasitələrə əl atırdılar. Bir-sıra cərəyanlar bu problemi müxtəlif tərzdə əks etdirirdilər: Naturalizmin nümayəndələri insanın iç dünyasının böhranını bioloji aspektdə, simvolizm ümumi və universal səciyyəli simvollarla, impersionizm isə ifadə etməyə çalışırdılar.

Rus filosofu Nikolay Berdyayev yazırdı: "İngilis modernist ədəbiyyatı dedikdə ilk növbədə Ceyms Coys və onun "Uliss" (1922) əsəri yada düşür. Dünya ədəbiyyatının görkəmli nümayəndələrindən biri hesab edilən C.Coys "Sənətkarın gənclik portreti" (1910), "Kinnegara ehsan" (1929), romanlarının və "Dublinlər" (1914) silsilə novellaların müəllifidir.(5,56)

T.S.Eliyot Ceyms Coysun "Uliss" əsəri haqqında qeyd edirdi: – "It is a book to which we are all indebted and from which none of us can escape," "Yəqin Coys düşünürmüş ki, onun kitablarından sonra daha heç kim heç nə yazmayacaq, çünki yazılacaq hər şey onun kitablarının proyeksiyası ya da anlamsız təkrarına çevriləcəkdi."(2,67).

Coys ənənəvi romandan uzaqlaşaraq, sanki onu darmadağın etmək fikrində idi. Kitabın xarakterik xüsusiyyətlərindən başlıcası daxili monoloqların mövcud olması idi. Roman əslində bir günün konkret xronikasından danışsa da, bu xronika yunan ədəbiyyatının qədim şairi Homerin "Odissey" əsəri ilə bədii şəkildə bağlı idi. Sanki mikrokosmos rolunu oynayan bu roman özündə bütün aləmi birləşdirirdi.

Xorxe Luis Borxes yazırdı: "Başqa sözlə desək, Coys əsərlərini sonuncu kitablar olması üçün yazırdı. Amma yazı adamları bunu tamam başqa cür anladı." (7,78)

C.Coysun romanını oxuyan oxucu daha çox onun eksperiment kimi işlətdiyi texniki vasitələrə diqqət verməli olur: müharibədən əvvəlki dövrdə bir günlük həyatın

şüur axını və daxili monoloqlarla təsvir edən Coys Homerin Odissey əsəri ilə paralellər yaradırdı.

"Uliss" romanı modernist romanın səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirir. Qəhrəmanın iç dünyasının öyrənmək axtarışı "Uliss" romanının əsas məqsədi hesab edilir. "Uliss" əsəri həm də yazıçının yazı üslubuna görə digər əsərlərdən fərqlidir. Əsər təhkiyənin ən yüksək zirvəsində yazılmışdır. Homerin "Odissey" əsərinə paralel olaraq on səkkiz epizoddan ibarət olan "Uliss" əsərində qədim dünyanın bir günü təsvir edilir. İlk baxışdan əsər xaotik və nizamsız xarakter daşısa da, ən mükəmməl modernist əsər hesab edilir. Hər bir epizodun öz mövzusu, yazı texnikası və "Odissey" əsəri ilə xarakterlər arasında bağlılıqları vardır. Əsərin orjinal mətninə Coys epizodların sərlövhələrini və məlum əlaqələri daxil etməmişdir. Coys məktublarında Homerin əsərində istifadə etdiyi başlıqları öz əsərinin epizodları üçün uyğun olduğunu bildirmişdir. Bir çoxları "Uliss" əsərini modernizmin ən mükəmməl əsəri hesab etsə də, digərləri isə bu əsəri axıra qədər belə oxuya bilməmişdir. Borxes qeyd edirdi ki, "Uliss" romanı daha çox "oxunan" yox, haqqında "danışılan" əsərdir. Əsərdə qəhrəmanların, həm şüurdan asılı, həm də şüurdan asılı olmayan hər bir hərəkətlərini, düşüncələrini, hisslərini müəllif diqqətlə izləyirdi. Sanki müəllif öz qəhrəmanlarının şüuruna daxil olmağa çalışaraq, onların fikir axınlarını bərpa etməyə çalışırdı.(7,89)

Ceyms Coys "Uliss" romanının dərcinə qədər bir-neçə sanballı əsər yazsa da, məhz bu romanın nəşrindən sonra daha çox modernist yazıçı kimi tanınmışdır. Dublinin küçələrini dolaşan İrlandiyalı Leopold Blumun 16 iyun, 1904-cü il tarixində keçirtdiyi bir günün təsvirini yaradan C.Coys həmin vaxt Parisdə yaşayırdı. Əsər eyni zamanda Dublin şəhərinin fiziki və coğrafi xüsusiyyətlərinin səlis və təfsilatı ilə təqdim edilməsi ilə diqqətə layiqdir.

Tematik olaraq Coysun əvvəlki əsərlərinə oxşar olaraq "Uliss" romanı müasir insan və tarix, mif arasındakı əlaqələri araşdırır və bu yolla müəllif müasir İrlandiyanın siyasi mədəni müstəqilliyi anında yaranan problemləri vurğulayırdı. Müəllif ölkədə baş verən iqtisadi inkişafın və yüksələn urbanizasiyanın mədəni və mənəvi tənəzzül sayəsində yarandığını diqqətə çatdırırdı. Əsəri yazarkən C.Coysun onu tamamlamaq haqqında ümidləri az idi. Hətta göz xəstəliyindən əziyyət çəkən C.Coys əlyazmaları yandırmağa belə cəhd etmişdir.

"Uliss" əsəri ərsəyə gəldikdən dərhal sonra həm Birləşmiş Krallıqda, həm də Birləşmiş Ştatlarda romanın işıqlandırılması qadağan edilmişdir. Yalnız 1934-cü ildə Coysun "Uliss" romanının Birləşmiş Ştatlarda, iki il sonra isə Britaniyada dərcinə icazə verilmişdir.

C.Coys "Uliss" romanını yazmaqla bir-sıra texniki innovasiyaların yaradılmasına səbəbkar olmuşdur: geniş şəkildə daxili monoloqların işlədilməsi, tarix, ədəbiyyat və mifologiyaya müraciət edərkən mürəkkəb paralellər şəbəkəsinin yaradılması və cinas, eyham və yeni mənalı sözlərin işlədilməsi ilə fövqəladə bədii dilin ərsəyə gəlməsi və s..

C.Coysun sadalanan texniki innovasiyaları ilk dəfə "Gənc artistin portreti" ("A portrait of Artist as a Young Man") əsərində işlədilmişdir. Əsər Ceyms Coysun ilk ciddi romanı hesab edilir.

ƏDƏBİYYAT

1. Baym, Nina. The Norton Anthology of American Literature. New York: W.W. Norton, 2007. Print.
2. Bossy, Michel-André (2001). Artists, Writers, and Musicians: An Encyclopedia of People Who Changed the World. Westport, Connecticut: Oryx Press.
3. Bryne, CJ. "Understanding Modernism and PostModernism" Writing.com
4. Goldman, Jonathan. Modernism Is the Literature of Celebrity. Austin: U of Texas P, 2011. Print. Bloomsbury Guides to English Literature: The Twentieth Century, ed. Linda R. Williams. London: Bloomsbury, 1992, p.311.
5. Dubnick, Randa K. (1984). The Structure of Obscurity: Gertrude Stein, Language, and Cubism. Champaign: University of Illinois Press. pp. 16–20.
6. J. H. Dettmar "Modernism" in The Oxford Encyclopedia of British Literature ed. by David Scott Kastan. Oxford University Press, 2006.
7. "Modernism", The Oxford Companion to English Literature. Edited by Dinah Birch. Oxford University Press Inc. Oxford Reference Online. Oxford University Press.

S.V.NOVRUZOVA

THE PECULARITIES OF ENGLISH MODERNIZM

SUMMARY

The article deals with the peculiarities of English modernism. The Modernist Period in English Literature occupied the years from shortly after the beginning of the twentieth century through roughly 1965. In broad terms, the period was marked by sudden and unexpected breaks with traditional ways of viewing and interacting with the world. Experimentation and individualism became virtues, where in the past they were often heartily discouraged. Modernism was set in motion, in one sense, through a series of cultural shock.

С.В.НОВРУЗОВА

ХАРАКТЕРИСТИКА АНГЛИЙСКОГО МОДЕРНИЗМА

РЕЗЮМЕ

В этой статье говорится о характеристике английского модернизма. Период модернизма в английской литературе занял годы после начала XX века примерно до 1965. В широком смысле, этот период был отмечен резкими и неожиданными перерывами с традиционными способами просмотра и взаимодействия с миром. Эксперимент и индивидуализм стали основными свойствами, которые в прошлом часто препятствовались. В определенном смысле, модернизм был установлен в движениис помощью ряда культурных потрясений.

Rəyçi: fil.ü.f.d,dos. S.X.Abdurahmanova

МАМЕДОВА СВЕТЛАНА
Ведущий научный сотрудник отдела
"Азербайджанский фольклор и письменные памятники"
Института литературы имени Низами НАНА

ЭПОС "КОРОГЛУ" В ИССЛЕДОВАНИЯХ Х.КОРОГЛУ

Açar sözlər: *qəhrəmanlıq, epos, etnoqez, mədəniyyət, rast gəlmək.*
Key words: *heroism, epos, ethnogeny, culture, to meet.*
Ключевые слова: *героизм, эпос, этногенез, культура, встречаться.*

Эпос "Короглу" является Азербайджанским героическим дастаном. Этот эпос был создан вслед за знаменитой "Книгой моего Деда Коркута". Популярность эпоса "Короглу" в истории мировой фольклористики беспрецедентна. Он имеет различные версии у различных по культуре и этногезу народов: западно-турецкую, грузинскую, кумыкскую версию ставропольских туркмен, восходящие к азербайджанской.

Эпос известен также тюркоязычному населению Румынии и Молдавии (гагаузам и добружским татарам). Восточные версии - туркменскую, узбекскую, таджикскую, афганскую, казахскую и др. Отдельные дастаны или эпизоды этого эпоса в виде сказок засвидетельствованы еще у ряда народов Кавказа, Средней Азии и Сибири, например, у тюменских татар. (С.М. из рукописей эпоса "Короглы").

Будучи произведением устно-поэтического творчества, эпос насыщен, прежде всего художественными средствами выразительности, характерными природе и специфике жанра данного народа. В дастанах зачины носят сказочный характер, начинаются с краткого зачина «Bir gün» («Однажды», «В один из дней»), или с более развернутого: "Kimdən sizə xəbər verim?" Ərzincanda Camal paşadan» («о ком мне вам рассказать? - О Джамал-паше из Арзангана»).

Лишь один дастан начинается своеобразным введением ашыка, называемым —устаднаме» («слово учителя», «слово мастера»). Их в дастане три. Между ними приводится трафаретная увязка. За первой устадноме: «Учитель-мастер свою «устадноме» рассказывает не один раз, а два раза. Мы тоже расскажем, чтобы получилось два раза. Пусть будет здоров слушатель (букв: пусть у слушателя голова будет поднятая). Взял саз послушаем (букв. посмотрим), что скажет мастер».

Второе «устаднаме» — «Учитель-мастер свою "устаднаме" рассказывает не два раза, а три раза, мы тоже расскажем, чтобы получилось три. Пусть жизнь врага будет пустой. Взял (саз) учитель учителей, послушаем-ка (посмотрим-ка), что он сказал. От него и мы расскажем, а вы будьте веселыми».

Основной зачин дастана начинается после третьей «устаднаме»: «Да. язык учителя — благословен. Теперь я вам о каких местах и о ком расскажу. Расскажу-ка я вам об отважном Кероглу) из Чардаглы Ченлибеля».

Сама «устаднаме» имеет абстрактно-назидательное содержание. Например, первая «устаднаме» о бренности жизни на земле и о том, что сила находится в руках богача, потому его слово выше, чем слова бедняка: «Богач наврет, а бедняк скажет правду, поверят словам богача».

XV дастан записан со слов Ашык Гусейна Сарачлы, однако начале третьей строфы первой «устаднаме» имеется «подпись» (традиционный прием. Ашык в

последней строфе называет свое имя) ашыка, сложившего «устаднаме». Его имя Аббас. Это - традиция. В качестве «устаднаме» ашык-сказитель берет стихи какого-либо известного ашыка — предшественника или своего учителя (устад).

Вторая «устаднаме» — целиком на назидательную тему. «Подпись» — Дердли Керем. Возможно, что это — известный ашык XVI века Керем, о жизни которого сложен любовно-лирический дастан «Асли и Керем».

Наконец, третья «устаднаме» тоже о бренности жизни на земле и принадлежит она ашыку-исполнителю. Об этом говорит отсутствие "подписи". Как видно, дастаны "Кероглу" почти не имеют зачина (начального клише). Изложение события начинается непосредственно. Но эпос богат промежуточными зачинами-клише, когда, например, сказитель прерывает начатое повествование, чтобы изложить параллельную сюжетную линию, он говорит: "Пусть Демирчиоглу останется здесь, я вам расскажу о Кероглу в Ченлибеле".

Язык дастанов «Кероглу» народный, диалектный. Художественно-изобразительные средства, соответственно определяются общенародными нормами, выработанными в течение сотен лет традицией народно-поэтического творчества. Большое место в этом отводится также сказочному эпосу. Так, в преобладающих случаях прозы дастанов, его изобразительные и поэтические средства совпадают со сказочными. Таковы, например, эпитеты и сравнения, которыми чрезвычайно богаты дастаны эпоса: описание красоты, стилистические приемы — гиперболы, хула в характеристике врага и неприятеля и т. п., частые повторы с целью усиления впечатлений от рассказываемого, фразеологические сочетания типа пословиц и поговорок, идиоматические выражения и другие устойчивые элементы языка. Поэтический эффект достигается очень часто применением ритмической прозы при описании внешности героя, пейзажа и т. п.

Те же художественные средства в стихотворных партиях дастанов создают гармоническое соответствие между стихом и музыкой. Выбор выражений, их аранжировка в соответствии с мелодией саза, очарование слушателей благозвучием рифм — условия, необходимые для ашыкской поэзии.

В эпосе «Кероглу» эпитету отведено особое место и роль. Он придает произведению максимум художественности, гармонию, делает язык эмоционально-выразительным, а главное дает возможность раскрыть и выделить глубинные оттенки характера героя в предельно лаконичной форме.

Основной мотив эпоса - героизм, который находит отображение в эпитетах действующих лиц в особенности главного действующего лица в анализируемом эпосе - Кероглу. Постоянным эпитетом его является "гоч" ("боевой", "воинственный", "отважный").

В художественно-выразительной систем дастанов «Кероглу» большое место занимают сравнения о высоком мастерстве ашыков свидетельствует тщательный отбор объекта сравнения, при котором строго учитываются его свойства, внешние признаки, поведение, черты характера, образа действия — одним словом все то, с чем логически можно сравнить характеризуемого. Как правило, сравнение вводится союзом «кими» («как» и «подобно»). Сравниваются большей частью действия, внешность и характерные черты персонажей, коней и их поведение. Так, стремительное действие Кероглу при уводе Эйваза сравнивается с коршуном: «Как коршун; схватил Эйваза и посадил на круп Гырата». Или: «Как коршун, набросится на Эйваза». Или «Как коршун, нацелившийся на куропатку, Кероглу давно смотрел на Эйваза». Так же он увел Нигяр-ханым: «Вытянув руки, как коршун, схватил Нигяр-ханым и посадил па круп коня». Или: «Вытянул руки и

вытащил Болу-бека из седла, как воробья». Или «Кероглу, как ястреб, налетел на мельницу»; «Как коршун, (налетел) и сел на коня». «Налетел, как сокол, и сел на Гырата»; «Вспорхнул, как птица». Кероглу говорит о себе: «Взовьюсь, как сокол, и улечу». В этой серии объектом сравнений были исключительно пернатые, но в серии сравнений, связанных с Кероглу, много и явлений природы: «Как будто Кероглу ударила молния»; «Погнал Гырата, как молнию». Кероглу говорит о себе: «Погружаясь в море, как водолаз»; «Разгорячусь, как бурная река». Тот же смысл имеет и другое сравнение: чтобы показать, как он подкараулил свою жертву, Кероглу говорит: «Я прячусь в лощинах, как лев». В этом же смысле говорит он, сравнивая себя с ураганом - «Над врагом пронесусь, как ураган». Кероглу сравнивается с солнцем: «Охватит весь мир, как солнце». Пышные сравнения приводятся при характеристике Гырата. Его корм богатырский: «Гырат, как мельница, не успеваешь подносить ячмень и солому». Он не знает покоя: «Бьет копытами, как разъяренный верблюд»; «Под седоком летит, как сокол», «Несется, как ветер», «Он подобен разъяренному тигру».

Когда возвращается в Ченлибель, Гырат, почуяв дом, «летит как сокол».

Большинство сравнений, касающихся Гырата, подчеркивает быстроту его хода, сопоставляя это не только с полетом птиц, «Пустился в путь, как молния»; «Раскрыв пасть, как змея; пустился в галоп». Такие меткие характеристики даются и другим коням, например, «Туркменский конь стал словно разъяренный бык»; «У него был туркменский конь, мчащийся быстрее ветра, быстрее воды».

Характеристика седока также связана со свойством коня: «Погнал Гырата быстрее ветра, быстрее течения горного потока»; «Погнал коня с быстротой молнии»; «Подобно птице он вскочил на Гырата с глазами, как яблоко, и гривой, как локоны девушки». Чрезвычайно образна система сравнений при описании внешности, особенно женщины:

«Вся стать Мехри, ее стройная фигура, ее серые, как (перья) журавля, отнимающие душу глаза, румяные, как яблоко, щеки, кокетливая походка, гордый, как у джейрана, стан — все это встало у него перед глазами». Вот еще одно описание красоты девушки:

«Что за диво девушка, словно осколок луны, как будто в добрый свой день, в добрый час, в хорошую минуту сотворил Аллах такую красоту».

В подобных описаниях часто встречается бессоюзное сравнение в виде самостоятельного уподобления, т. е. даются лишь признаки уподобления, под которыми подразумевается уподобляемое:

«…луна от смущения отвернулась, солнце от стыда спряталось за облака». Это описание красоты Мумине хатун, второй жены Кероглы. «Рот — фисташка, нос — индийский фундук, грудь — самаркандская бумага (белая), глаза с пиалу, лицо подобно луне, сияет красотой»; «(увидев) красоту Дона-хатун, солнце ог стыда спряталось за облака».

В дастанах «Кероглу» дается описание не только красоты девушки или женщин — обитательниц Ченлибеля, но и их отваги, не уступающей отваге мужчин. Так говорится, например, о Зарнишан: «Зарнишан превратилась в разъяренную львицу».

К стилистическим приемам дастана как и народного творчества в целом, относятся повторы, которые условно можно рас членить на малую (лексические, фразеологические) и большие формы (повторение ситуации, мотивов, сюжетных линии и даже целых сюжетов). Приведем несколько примеров. «А сам сиди па таком коне, на таком коне, подобного которому еще мир не видел»; «Надел

кинжал (доспехи), сверху опоясался (букв, замкнулся), надел верхние (доспехи), снизу опоясался». Для подчеркивания какого-либо явления или действия сказуемое повторяется дважды с применением союза «ки», который в данном случае служит как усилитель, не неся никакой семантической на грузки. Так, при появлении Кероглу в доме старухи, она потеряла покой и ашык подчеркивает ее состояние глаголом «Не смогла заснуть и только» (букв.: «не смогла заснуть, не смогла заснуть») Этот вид повтора — наиболее популярный прием. При подковке коня говорится: «Не смог поднять ногу коня и только», сказуемое «bilmədi» повторяется дважды, «Нигяр поняла, что он не отступит от своего — не пойдет и только»- Сказуемое "getməyəcək" повторяется дважды.

Не менее распространен прием повторения действия с той же целью: «Нигяр вдруг заметила, что Гырат так помчался, так помчался, что приди да посмотри». Последний глагол-идиома» вводится союзом «ки» и имеет смысл: «можно диву даваться».

Повторяются и слова -синонимы: "Gözəl-göyçək, özü də igid pəhləvan bir qız idi" - ("Красивая-красивая девушка и сама богатырша"). Здесь повторяющееся слово "igid" и "pəhləvan", так же, как и слова "gözəl-göyçək" синонимы. Еще один пример: "Əgər səssiz-səmirsiz qalsa..." ("Если будет сидеть без звука…"). Здесь "səssiz-səmirsiz" - слова-синонимы.

Высокий художественно-эстетический уровень языка дастанов ""Кероглу" достигнут предельно насыщенной системой образных выражений: клишированными общими местами, фразеологизмом, идиоматикой и другими видами тронов. Лексико-грамматическая характеристика языка соответствует нормам общенациональной устной речи. Наличие же отдельных диалектизмов (стяжения типа "Ченлибель" вместо "Ченлибель" и т.п.) касается лишь лексического строя, не затрагивая грамматического.

Композиция поэтической части дастанов "Кероглу". По форме преобладающее большинство стихов имеет газельную структуру (рифма последней строки первой строфы является также и рифмой последней строки всех последующих строф). Первая строфа стихотворения имеет два вида рифмы: **авав** или **авсв**. Последующие строфы имеют константную рифму **аааb**. Схема рифмы первой строфы в отдельных стихотворениях также **аааb**, но в этих случаях явно не достает первой - организующей строфы, она опущена ашыком при исполнении. Все стихотворения эпоса - изосиллабичны. Система рифмовки высоко упорядочена, что свидетельствует о высокой степени развития поэтической системы эпоса. Приведем один пример:

Salam verdim salam almaz	**а**
Görüm kəssin salam səni!	**в**
Axçasız, pulsuz aşıqam,	**с**
Pulum yoxdu alam səni!	**а**
Güllü bağlarda gəzərsən	**а**
Cahıllar bağrın əzərsən,	**а**
Yuxa kağıza bənzərsən,	**а**
Yaza bilməz qələm səni!	**в**

Xəzinəm yox ağzın açam, **а**
Dövlətim yox tökəm saçam, **а**
əlac budu alam qaçam, **а**
Çənlibelə salam səni! **в**

Hansı dağların qarısan **а**
Hansı bağların barısan, **а**
Niyar, Koroğlu yarısan **а**
Bilir külli aləm səni! **в**

В первой строфе рифмуются между собой второй и четвертый стихи. Схема рифмы: **авсв**. Рифмующими слогами соответственно являются "lam", "ləm", "alam", "qələm", "salam", "aləm". В дальнейшем рифма встречается только в последнем стихе каждой последующей строфы. Что же касается остальных стихов каждой строфы, начиная со второй, то здесь структура, такова что три стиха каждой строфы объединяются между собой единой рифмой: **ааа**. Во второй строфе рифмующими слогами являются "zərcən" ("gəzərsən", "əzərsən", "bənzərsən").

В этом стихотворении, как и во многих других, имеется еще одна особенность - вспомогательное рифмующееся слово, называемое "редиф", которое как и рифма (как спутник рифмы) в первой строфе, повторяется во втором и четвертом стихах: а в дальнейшем - в конце каждой строфы. Таким редифом здесь выступает слово "səni". Разница между редифом и рифмой заключается в их структуре; рифма - это чередующиеся созвучные слоги, а редифом служит слово или сочетание слов (фраза). Приведенный выше редиф можно назвать общим редифом, ибо он пронизывает все стихотворение в целом. В отличие от общего редифа в стихотворениях эпоса встречаются и частные редифы, т.е. одно и то же слово или целая фраза повторяется в пределах только трех стихов строфы вслед за частными рифмами тех же строк.

Развитие событий в эпосе проистекает преимущественно динамично. Это достигается главным образом стилистическими приемами, например, внутренней структурой песенных партий, где наблюдается чередование форм восьмисложника с 11-сложником, с различными расположениями цезуры. Восьмисложные стихи в эпосе применены больше в тех случаях, когда по ходу действия требуется стремительный темп, когда события развиваются беспрерывно или нужно передавать душевное переживание героя в наиболее возвышенной форме, характеристику кого или чего-либо. Для примера приведем монолог Нигяр-ханым из дастана «Поездка Кероглу в Туркмению»:

Qəm, qüssə başımdan aşıb,
Mən tək dərdə dalan yoxdu.
Qürbət eldə bağrım bişib,
Necə yada salan yoxdu.

Necə baxım ev-eşiyə,
Yaralı könül üşüyə.
Toz bürümüş boş beşiyə,
Şirin layla çalan yoxdu.

Горе захлестнуло меня,
Нет такой, как я, погруженной в горе.

На чужбине сердце обливается кровью,
Некому меня вспоминать.

Как мне вести хозяйство,
Раненое сердце поет.
Пылью покрылась люлька,
Некого сладко баюкать.

Соответственно 11-сложники приведены в дастанах эпоса преимущественно для передачи мирных бесед, спокойного излияния чувств.

Так, Нигяр-ханым передает свое душевное состояние грустной песней. Чтобы успокоить ее, заодно и Кероглу, которому передалась тревога Нигяр-ханым, и придать обстановке мирное течение. Ашык Джунун поет песню 11-сложным стихом:

Bürüyüb aləmi şanın, şöhrətin,
Söylə, qoç Koroğlu, nədən məlulsan?
Adın çəkiləndə yağı titrədir,
Söylə, qoç Koroğlu, nədən məlulsan?

Yanında əyləşib ala göz Niyar,
Xanımlar, mehtərlər, dəlilər nə var,
Aşıq Cunun şoqa gəlib oxuyar,
Söylə, qoç Koroğlu, nədən məlulsan?

Поэтическая часть эпоса строго соответствует развитию сюжета в целом и не замечается переход стиха или стихотворения одной сюжетной композиции в другую, как это характерно для многих азербайджанских дастанов.

В дастанах эпоса иногда имеет место переход из одного стихотворения в другое отдельных слов - обращений, например: "Еy ağalar" ("О, господа"), "Еy həzərat" (тот же перевод), "Dəli könül" ("безумное сердце"), "Mən aşığam" ("Я - ашык", или иногда в смысле "Я влюблен") и т.п. Этот вид повтора имеется лишь в начале стихотворения.

Рассмотренная поэтика наглядно свидетельствует о высоком художественно-эстетическом уровне одного выдающихся памятников азербайджанского народного творчества эпоса «Кероглу». Этот уровень достигнут мастерством поколений ашыков, максимально использовавших богатые возможности родной речи.

Итак, можно сделать следующие выводы: очевидно, Кероглу (или Ровшан из рода Кероглу), собрав вокруг себя недовольных тиранией власть имущих, начал свое движение, стал одним из ведущих предводителей джалалийцев. Кероглу, упомянутый у Аракеля Даврижеци и Эвлия Челеби и в архивных документах очевидно, одно и то же лицо.

В такой же степени историчны и многие соратники Кероглу. Возможно, что они были его соплеменниками (например, Эйваз из племени теке). Ядро эпоса складывалось, вероятно, при жизни героя (вторая половина XVI века) или позднее, после его кончины. Этому способствовали, конечно, популярность героя и мастерство сказителя. В дальнейшем, что характерно для фольклорного процесса, происходила постоянная эпизация героя и всех событий, которые были связаны с его именем. Таким образом, было создано огромное число версий и вариантов у различных по культуре и этногенезу народов. Процесс эпического

нарастания образа героя сделал его совершенно отличным от исторического прототипа.

Следует отметить также, что упомянутые в эпосе имена героев, хотя и обнаруживаются в истории в том пли ином контексте, однако нет надобности искать каких-либо прототипов героев или историческую основу сюжета. Эпос «Кероглу» - подлинно народное творчество, отразившее героическую борьбу народа против своих угнетателей. Он вобрал в себя несколько исторических эпох, эпические традиции всех компонентов азербайджанского этноса.

ЛИТЕРАТУРЫ

1. Короглы Х. "Огузский героический эпос". М., 1976, с. 174-175.

2. Азад Набиев. "Азербайджанские героические дастаны" в соавторстве с Х.Короглы. Баку, Язычы, 1996, 308 стр.

SVETLANA MƏMMƏDOVA

“KOROĞLU” EPOSU XALID KOROĞLUNUN ARAŞDIRMALARINDA

XÜLASƏ

"Koroğlu" eposu Azərbaycan qəhrəmanlıq eposudur. O "Kitabi Dədə Qorqud"dan sonra yazılmışdır. "Koroğlu" dastanının populyarlığı dünya folklorşünaslığında danılmazdır.

Mədəniyyət və etnoqezi ayrı olan xalqlarda onun başqa versiyaları da var: türk, gürcü, kumik, türkmən və Azərbaycan başqa olmaqla.

"Koroğlu" eposu həm də Rumıniyada, Moldoviyada, (qaqauz və dobruj tatarlara da) tanışdır. Bu dastanın türkmən, özbək, tacik, əfqan, qazax versiyaları da var. Qafqaz xalqlarının, Orta Asiya, , Silir və Tyumen tatarlarının arasında dastanlar və eposlardan bəzi epizodlara past gəlmək olar.

SVETLANA MAMMADOVA

“KOROGLU” EPIC IN KHALID KOROGHLU’S INVESTIGATIONS

SUMMARY

The epos “Koroglu” is a heroic epic work of Azerbaijan. It was written after “Book of Dada Gorgud”. The popularity of the epos “Koroglu” in the world folkloric studies is undeniable.

It has other versions in the people with different culture and ethnogeny: Turkic, Georgian, Kumyk, Turkmen, Uzbek, Tadjik, Afghan and Azerbaijani.

The epic work “Koroglu” is spread out in Romania and Moldova as well (Gagauz and Dobruj Tatar). This epos has versions in Turkmen, Uzbek, Tadjik, Afghan and Kazakh languages. You may meet some episodes of this epos in the texts created by the Caucasian people, Middle Asia, Silir and Tumen Tatar’s.

Rəyçi: Rafiq Cəfərova,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NAZİRƏ ƏSGƏROVA
AMEA Naxçıvan Bölməsi
E-mail: naziraasgerova@yahoo.com

SEHRLİ NAĞILLARIN MƏZMUN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Folklor, mif, at, div, quş.
Ключевые слова: фольклор, мистика, силы, конь, див, птица.
Key words: folklore, mystery, power, horse, ogre, bird.

Məqalədə məqsəd epik növ folklor mətnlərinin məzmun xüsusiyyətlərinin təhlili və sadə süjet xəttinə malik nağıllardakı mifoloji dəyər sisteminin aşkarlanmasıdır. Tarixi müqayisəli araşdırma metodu ilə qarşılaşdırmalar aparılmış və janr xüsusiyyətləri təhlil olunmuşdur. Məqalədə məzmun xüsusiyyətlərinə geniş şərhlər verilərək sehrli nağılların poetik strukturu öyrənilmişdir. Mistik varlıqların obraz xarakteri açılmış, nağıl janrındakı yeri və əhəmiyyəti qabardılmışdır. Beləliklə sadə süjet və məzmun xarakteri daşıyan nağılların əslində dərin məna ehtva etdiyi aydınlaşdırılmışdır.

Nağıl repertuarında sehrli nağıllar böyük yer tutur. Fikrimizcə, bu, ilk növbədə janrın potensial imkanları ilə əlaqəlidir. Çünki bu tip nağıllar qeyri adi hadisələrlə, fantastik qəhrəmanlarla, möcüzəli əşyalarla zəngin olur. Mürəkkəb quruluşa malik olan sehrli nağıllarda insanların qədim mifik təsəvvürləri özünəməxsus şəkildə əks olunmuşdur. Mifoloji düşüncə obraz, hadisə, element səviyyələrində epik şüurun qaynağına çevrilir. Sehrli nağılların ən səciyyəvi xüsusiyyətlərindən biri odur ki, süjet əfsanəvi məkan və zaman daxilində inkişaf edir.

Əfsanəvi bədii nağıl məkanı real məkandan ayrıdır, bu məkan xüsusi semantikaya malik olur. Hadisələr xəyali səltənət və ölkələrdə cərəyan edir. Sehrli nağıllarda həm də həqiqi dünya – kəndlər və şəhərlər, təbiət, göllər, meşələr, dağlar əks olunur. Ümumiyyətlə, sehrli nağıllarda ənənəvi səciyyələr üzrə hərəkət edən müəyyən surətlər qrupu var, iştirakçılar arasında baş qəhrəman daha mühüm yer tutur. Onların dostlara və düşmənlərə münasibəti nağılın ideya məzmununun açılmasına zəmin yaradır.

Nağıllarda qəhrəmanın çətin anlarında doğuluşu yardımçısına çevrilən sehrli qüvvələrdən biri dərviş obrazıdır. Digər nağıl qəhrəmanlarında ilahi varlıqlara bağlılığı ilə seçilən dərvişlər əksər nağıllarımızda müqəddəs, savab niyyətləri ilə çıxış edirlər (5, s. 140). Sehrli nağıllarda həyatverici mistik qüvvələr daha çox dərviş obrazı, simurq quşu, dünyagörmüş qocalar və s. timsalında verilməklə onların sehrləndirdiyi alma, nar və yaxud ağız suyu-tüpürcəyin vergisi, tilsim oxumaq-açmaq qabiliyyətləri və s. ilə reallaşdırılır (5, s.140). Bu nağılların bir çoxunda övladsız valideynlər dərvişin verdiyi almanı, yaxud da hər hansı təsadüf nəticəsində əldə olunmuş almanı yedikdən sonra arzularına çatırlar. ”Küzəçioğlunun nağılı”nda deyilir ki, padşahla vəziri bikef oturublar.Yoldan keşən Dərviş soruşur: - Niyə bikef oturmusuz? Padşah deyir: - Nə mənim, nə də vəzirin uşağı olur. Dərviş cibinnən hərəsinə bir alma çıxardıb verir. Hərəsi öz arvadıynan almanı bölüb yeyir. Vaxt o vaxt olur ki, padşahın bir oğlu, vəzirin bir oğlu olur (3, s. 118). “İbrahim” nağılında isə təsadüfən tapılmış alma övladsız valideynləri arzusuna çatdırır. Ata-anasının möcüzəli almanı yeməsiylə dünyaya gələn uşaqlar da qeyri-adi keyfiyyətlərilə başqalarından secilirlər. Nağıllarda qəhrəmanlara yardım göstərən sehrli qüvvələrdən simurq quşu, ağ quş və s. göstərmək olar. “Abdulla

ilə Mehriban Sultan" nağılında döyüş zamanı düşmənlər kəmənd ataraq atdan salıb tuturlar. Onu bir sandığa qoyub dəryaya atırlar. Dərya sandığı aparıb bir qayaya vurur,sandıq sınır. Abdulla sandığın bir parçasının üstündə qalır. Bir də görür ki, bir ağ quş gəlib onun başına qonur. Abdulla quşun lələyindən birini çəkir, yumurtasının sarısı ilə məktub yazıb quşun boynuna bağlayır (2, s. 254). "Çöl quşunun yumurtası" nağılında isə quş kişinin qarşısına çıxıb ondan qaça bilmir. Burda isə ağ quş Abdullanın başına qonur. Qarşısına çıxıb qaçmamaqla başına qonub dayanmaq əslində eyni hərəkətdir. Çöl quşu yumurtası ilə, ağ quş isə həm lələyi, həm də yumurtası ilə qəhrəmana kömək göstərir. Hər iki nağılda köməyin işarələndirilməsi də eynilik təşkil edir. Çöl quşu kişinin qarşısına ailənin ağır vəziyyətdə olduğu zaman çıxmışdı. Abdulla da çətinliklərlə, müsibətlə qarşılışanda yenə də quş köməyə gəlir. Quş məktubu Mehriban Sultana çatdırır. Nağılda quşun əsas funksiyası əvəzini gözləmədən qəhrəmanın köməyinə yetməkdir. Bu hərəkət hamilərə aiddir. Dara düşən, ölüm təhlükəsi ilə üz-üzə qalan, heç bir yerdən çarə gözləməyən qəhrəmanı məhz onlar hifz edir,qoruyurlar (4, s. 105). Bəzi süjetlərdə quşların funksiyası iki mərhələdə təqdim olunur,onlar şər qüvvənin zülmünə düçar olur, köməklərinə yetən qəhrəmanı yaddan çıxarmır. Sonradan ona kömək edir. Bu zaman onlar birinci mərhələyə nisbətən ikinci mərhələdə daha fəal olurlar. Bəzi süjetlərdə isə quşların funksiyası bir mərhələdə reallaşır. "Abdulla ilə Mehriban Sultan" nağılında quş qəhrəmana müxtəlif vasitələrlə kömək göstərir. O, hami kimi qəhrəmanı hifz edir, bəlalardan qurtarır.

Sehrli nağıllarda qəhrəmanların dostluq etdiyi, eləcə də mübarizə apardığı sehrli qüvvələrdən biri də div obrazıdır. Əksər nağıllarda şər qüvvələri təmsil edən divlər,müəyyən hallarda qəhrəmanların yardımçısına, dostuna çevrilirlər. Bəzi məqamlarda xeyirxah və bədxah divlərin fərqləndirilməsi üçün xalq nağıllarında bu obrazlar ağ və qara divlər olmaqla rəng baxımından rəmzləndirilir (5, s. 145). Div obrazı bu və ya digər mənada qəhrəmanın yeni şücaətlər göstərməsi, eyni zamanda xalq mifik təfəkküründə yenilməz, qüvvətli, bədheybət varlığa qalib gələ bilən bir qüvvə olaraq səciyyələndirilməsi ilə bağlıdır. "Simanın nağılın"da qəhrəmana yardım göstərən, eyni zamanda onunla mübarizə aparan divlər diqqət mərkəzindədir. Nağılda Dəşgüvar padşahın divlərini məhv edib, özünü öldürən Siman ona yalvaran kiçik divə toxunmur. Adı Adamzad qoyulan div Simanın ən yaxın dostuna, yoldaşına çevrilir. Adamzad qəhrəmanın üzləşdiyi bütün çətinliklərdə ona arxa durur, tilsimə düşdükdə, qaranlıq quyuda əzab çəkdikdə və digər çətin məqamlarda ona yardım göstərir. Siman Adamzadın yoldaşlığını sınayaraq ona sidqi- ürəklə bağlanır, həm də Dəşgüvar padşahın vəzirinin qızını onun üçün alır.

Sehrli nağıllarda div obrazına geniş yer verilməsi bir sıra məqamlarla bağlıdır. Divlərin nağıl dilindəki azmanlığı, fantastik gücü xalqın yaratdığı qəhrəman obrazının qüvvəsini bəlli etməkdə qarşılaşdırılan ən real məntiqi vasitədir (5, s. 145). Daha çox şərin, qara qüvvələrin simvolu olan divlər bu baxımdan sehrli nağıllarda qəhrəman obrazlarının bütün fiziki, əqli qabiliyyətlərinin reallaşdırılmasında seçilən uğurlu bədii tapıntıdır.

"Adamyeyən qız" nağılında kor ər-arvad divlər yetim oğlanı övladlığa götürürlər Oğlan onların qoyunlarını otarır.Bir gün o, ağ divin sürüsünü oğurlayıb gətirir.Kor divlər ona deyirlər ki, qara divin sürüsünə yaxın getmə,ondan yaxa qurtarammazsan (3, s. 207). Nağılda ağ divin qalaçası günçıxanda, qara divinki günbatandadır. Günçıxan- işıqla, günəşlə, xeyirlə bağlıdır. Günbatan isə qaranlıqla, şərlə bağlıdır, qara div şər

gətirəndir. Göründüyü kimi, təkcə divlər yox, onların qalaçalarının yerləşdikləri yer də rənglə əlaqələndirilir (4, s. 43).

"Sehrli üzük" nağılında isə sehrli vasitənin köməyilə qəhrəmanın arzusu tezliklə yerinə yetir. Qəhrəmanın üzüyü dilinin altına qoyub bir neçə kəlmə söz deməsilə onun istəyi həyata keçir. "Üzük, Həzrət Süleyman eşqinə sənnən bir imarət istəyirəm, bir kərpici qızıldan,bir kərpici gümüşdən, özü də o qədər hündür olsun ki, başı buluddan, bünövrəsi yerdəın nəm çəksin. O saat bir də gördü ki, gurultu-nəriltiynən bir imarət hazır oldu ki, keçəlin dediyindən qəşəng (1, s. 53). Hər hansı zəngin imarət nağılda möcüzəli yolla, sehrli köməkçilərin və əşyaların vasitəsilə bir anda hazır olur. Odur ki, hər hansı bir imarətin yolun, bağın və s. yaranması ətraflı təsvir olunmur. Yerdəyişmə epizodu nağıllarda mühüm yer tutur. Qəhrəmanın bir məkandan başqa məkana yerdəyişməsi nağıl hərəkətinin inkişafı üçün başlanğıc olur, qəhrəmanın məqsədinə xidmət edir (6, s. 98).

Nağıllarda qəhrəmana yardıım göstərən sehrli qüvvələrdən biri də atdır."Qırx Qönçə xanım" nağılında şərə düşmüş qızın övladları və yel atı var. Ana şərə düşəndən sonra onun övladlarını böyüdən dəyirmançı ilə arvadı da ölürlər.Bir bacı və bir qardaş qalırdılar. Bir gün qardaş yuxuda görür ki, bir at qapıda dayanıb. Oğlan yuxudan oyanıb gördü ki, doğrudan da, eşikdə bir at dayanıb. At dillə gəliib deyir: -Ay oğlan min belimə, səni elə bir yerə aparacağam ki, orda xoşbəxt olacaqsan (6, s. 123). Beləliklə, atın mediativ funksiyası üzə çıxır, o, qəhrəmanı elə bir yerə aparacaq ki, orda xoşbəxt olsun. Deməli, qəhrəman burda xoşbəxt deyil. At xoşbəxt etməyən dünya ilə xoşbəxt edən dünyaların arasındakı yolun yolçusudur (4, s. 72). Bu yolu ancaq o tanıyır. Qəhrəmanı bu yolla ancaq o apara bilər. Bu məqamda atlar olmasaydı, qəhrəmanlar tək, köməksiz, kimsəsiz qalardılar. Qəhrəmanlara heç kəs qarşıda onları gözləyən təhlükə barədə xəbər verə bilməzdi. Onlar təkbaşına çətin səfərlərin öhdəsindən gələ bilməzdilər. Çətin səfərlərdə daşa dönüb məhv olsaydılar, analarını şərdən qurtara bilməzdilər. Deməli, övladların hifz olunub-qorunması əslində şərə düşmüş qızların şərdən təmizlənməsi, haqqın öz yerini tapması üçündür. Bu qəhrəmanlar bacılarının xahişi ilə gedər-gəlməz yolun yolçusu olur,atların yardımı ilə onları arzularına qovuşdururlar. Atların bu zamankı vasitəçiliyi obrazın mediativ funksiyasına daxildir. Atın qəhrəmanı hifz edib qoruması bu mənada həm də bacıları arzularına qovuşdurmaq deməkdir.

Ümumiyyətlə, sehrli nağıllarda ailə mövzusu mühüm yer tutur.Ailə pərdəsi altında artıq sırf sosial konfliktlər çıxış edir,sosial cəhətdən məhrum adamların nağıl üçün səciyyəvi olan ideallaşdırılması meydana çıxır.Bu tipli nağılların böyük bir bölümündə süjet qardaşlar arasındakı konflikt əsasında inkişaf edir.Belə nağılların mərkəzində kiçik qardaş obrazı durur, kiçik qardaş demək olar ki, bir çox dünya xalqları nağıllarının müsbət qəhrəmandır (6,s.120.) Azərbaycan xalq ədəbiyyatında da üç qardaş haqqında nağıllar yaranmışdır.Bu nağılları iki qrupa ayırmaq olar.Birinci qrup nağıllarda kiçik qardaş pəhləvan kimi göz qarşısına gəlir.Üç qardaş haqqındakı ikinci tip süjetlərdə isə böyüklərlə kiçik qardaş arasındakı konflikt nağılın əsas məzmununu təşkil edir. Kiçik qardaş hiyləgər.paxıl qardaşlara qarşı qoyulur. Bu müqayisədə kiçik qardaşın üstünlüyü,yüksək mənəvi siması üzə çıxır. O, əsl qəhrəman, böyük qardaş yalançı qəhrəman rolunda çıxış edirlər."Məlik Cümşüd" nağılı bu cəhətdən səciyyəvidir.Ata tapşırığı ilə çətin səfərə çıxan böyük qardaşların cəhdi uğursuz olur. Kiçik qardaş bu tapşırığı uğurla yerinə yetirir, qardaşlarını əsirlikdən qurtarır.Rəhmsiz

böyük qardaşlar şirin yuxuda yatmış kiçik qardaşı doğrayıb qara daşın dibində basdırırlar.Əfsanəvi Xızır onu ölümdən qurtarır. Bəlli olduğu kimi Xıdır İlyas obrazı türk xalqları folklorunun ayrı-ayrı janrlarında xeyirxah və xilasedici ruh, mifik hami kimi özünü göstərir. Məhz bu xeyirxah hami, gözəgörünməz xilasedici qüvvə "Kitabi Dədə Qorqut"un birinci boyunda ölümcül yaralanmış qəhrəmana ana südü,dağ çiçəyinin məlhəmi qoyulur.!Məlik Cümşüd"ün nağılında Xıdır İlyas xeyirxah və xilaskar hami vasitəsilə yerinə yetirir. Deməli, "Məlik Cümşüd"ün nağılda bu tipli digər nağıllarda da türklərin qədim mifoloji görüşləri ilə səsləşir.

Birinci mərhələni əks etdirən süjetlərdə qardaşların dostluğu ailədə birliyi əks olunur.İkinci mərhələni əks etdirən süjetlərdə qardaşlar arasındakı konflikt öz əksini tapır, kiçik qardaşın obrazı ideallaşdırılır. Süjet quruluşuna və obrazlarına görə rəngarəng zəngin olan sehrli nağıllar nikbin sonluqla başa çatır.

"Sənəm Cadu" nağılındakı cənnət atı yerin altını,üstünü özündə birləşdirir. Bu model düşüncədə atın yerini bütün genişliyi ilə gerçəkləşdirir (4, s. 68). Nağılın qəhrəmanı qarının fitnəsi ilə çox qorxulu səfərə göndəriləndə bu, əvvəlcədən Cənnət atına əyan olur. Əhməd hər dəfə atın yanına gələndə görür ki, Cənnət atı heç nə yeməyib. At ən qorxulu səfərlər zamanı Əhmədə məsləhətlər verir. Gedər-gəlməz yollardan onu sağ-salamat qaytarır. Atın mediatorluğu, vasitəçiliyi nağıl strukturunda şox əhəmiyyətli rol oynayır. Sənəm Cadunu gətirəndə at deyir: "Əhməd, mənim burda iki bacım var. Onlar mənnən qat-qat üstündülər. İndi gedəndə onun birini sən minəcəksən, birini də bacın minəcəh. Çiy süd əmipsən,çiy süd əmənə etibar olmaz. Onnarı o qədər yaxın görərsən ki, məni unudarsan. Ac-susuz qalaram, ölərəm. Sənnən bircə xahişim odu ki, mən ölsəm, məni insan kimi yu,pük ağa, apar basdır" (2, s. 124). Hiss olunur ki, at Əhmədin onu unudacağını, xoş günlərində yada salmayacağın bilir. Əhməd qətiyyən unutqan olacağını,biganəlik göstərəcəyini ağlına gətirməsə də at bütün bunların baş verəcəyindən xəbərdardır. Cənnət atı sanki xəbərdarlıq etmir, məsləhət vermir.Bir mediator-vasitəçi olaraq sözünü söyləyir (4, s. 69). Əhmədin vəfasızlığından sonra at ölür. Əhməd atı necə vəsiyyət etmişdisə, o cür dəfn edir. Bütün bunlar məsələnin bir tərəfidir. Cənnət atının ölümü ilə tilsimli məkandan gətirilən Sənəm cadu, tutuquşu, almalar, atlar yoxa çıxır. Əhmədin onları Cənnət atının köməyi ilə gətirməyi üst qatda görünənlər imiş, əslində bütün bunları Əhmədə cənnət atı veribmiş. At varsa,tilsimli məkandan gətirilənlər də var, at yoxdursa, onlar da yoxdur. Ağır vəziyyətə düşən, ağlamaqdan kor olan Əhməd sürünə-sürünə gedir. Heç olmazsa qara atın qəbrini qazım, sümüyünnən götürüm, gözlərimə çəkim, bəlkə gözlərim şəfa tapa. Gəlir, qəbri qazır. Görür, qara at hara ölür? Qara atın hər tükündən tər tökülür. Qara at deyir: - "Xoş gəldin. Biz cənnət atıyıx. Bizə ölüm yoxdur" (2, s. 127). At qəbirdən çıxandan sonra Əhmədin gözləri açılır. Tilsimli diyardan gətirdikləri yenidən geri qayıdır.

Sehrli qüvvələr, onların fantastik görüntüləri, xalq qəhrəmanlarının köməkçi varlıqlarla birliyi, nübarizəsi, itkisi, qələbəsi və s. ilkin təsəvvürlərdə bərqərar olan xeyir və şər dünyaları,onların mübarizəsi timsalında davam edən əbədi motiv olaraq qorunub saxlanılır. Qəhrəman obrazına bağlanan yardımçı,sehrli qüvvələrin iştirakı nağılların ayrıca poetik sistemini təşkil etməklə janrın vacib mühüm tərəfi olaraq qəbul edilir. Beləliklə, nağılların poetik özünəməxsusluğundan çıxış edən bu obrazlar bütün təfəkkürü, inancı, dünyagörüşünü ən qədim inamları özündə birləşdirir.

ƏDƏBİYYAT

1. Azərbaaycan ədəbiyyatı inciləri. Nağıllar. Bakı: Yazıçı, 1985, 502 s.
2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, I c., Naxçıvan: Əcəmi; 2010, 506 s.
3. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, III c., Naxçıvan: Əcəmi; 2012, 560 s.
4. Babayev R. Janrın iddiası və imkanları. Bakı: ADRU, 2014, 135 s.
5. Əbilova N. Bahadırlıq nağıllarında qəhrəman obrazı və sehirli qüvvələr / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər XXVIII. Bakı: Elm və təhsil, 2012, s. 139-149.
6. Əliyev O. Azərbaycan nağıllarının struktur xüsusiyyətləri və poetik dili / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər IX. Bakı: Səda, 2000, s. 95-129.

Назира Аскерова

ОСОБЕННОСТИ СОДЕРЖАНИЯ ВОЛШЕБНЫХ СКАЗОК

Целью статьи является анализ особенностей содержания фольклорных текстов эпического типа и выявление мифологической системы ценностей сказок. обладающих простой сюжетной линией. Сопоставления проводились методом сравнительно-исторического исследования, проанализированы жанровые особенности. В статье изучена поэтическая структура волшебных сказок с предоставлением подробных комментариев особенностей содержания. Раскрыт характер образов мистических существ, подчеркнуто их место и значение для жанра сказки. Таким образом, выяснено, что сказки с простым сюжетом и характером содержания заключают в себе глубокий смысл.

Nazira Asgarova

FEATURES OF THE FAIRY TALES CONTENT

The purpose of this paper is to analyze the content features of folklore texts of the epic type and reveal the mythological system of wealth in these tales with a simple storyline. Comparisons were carried out by comparative historical investigation; genre features are analyzed. The poetic structure of fairy tales with detailed comments of the content features is studied in the paper. The nature of the mystical creatures images is revealed, their role and importance for the fairy tale genre are emphasized. Thus, it is revealed that fairy tales with a simple plot story and content character embody the profound meaning.

Bu meqale dekabrin evvellerinden verilib getmeyib ona gore saldim bura

MEHRİBAN BALAKİŞİYEVA
Odlar Yurdu Universitetinin
"Xarici dilin tədrisi metodikası
və metodologiyası" ixtisasının magistrantı
Mehriban131286@gmail.com

ATALAR SÖZLƏRİNİN TƏSNİFİ

Açar sözlər: Atalar sözləri, zərbi – məsəllər, folklor, alleqorik, xalq yaradıcılığı
Key words: Proverbs, sayings, folklore, allegorical, folk art
Ключевые слова: Пословицы, поговорки, фольклор, аллегорический, народное искусстио

Dünya xalqlarının həyat fəaliyyətinin, yaşayış tərzinin, mənəvi və ruh aləminin, ağlının və xarakterinin səciyyəvi cəhətləri parlaq, kəskin və sərrast ifadəsini atalar sözlərində olduğu qədər başqa heç bir folklor janrında və ya bədii əsərdə tapmır.Xalqların tarixən sınaqdan çıxarmış həyat müşahidələrinin gəldiyi nəticələrin bədii ifadəsi olan atalar sözləri özünəməxsus şəkildə əbədiləşdirilir.Həyatda hər nə dəyişsə də həqiqət və hikmətləri əks etdirən atalar sözləri dəyişməz qalır və yaşayır.

Dünya xalqlarının hamısının şifahi xalq yaradıcılığında rast gəlinən atalar sözləri folklorun universal xarakterli janrlarından sayılır.Hər xalqın, hər yerin, hər zamanın özünəməxsus, yerli adət-ənənələrlə bağlı atalar sözləri olduğu kimi, bütün xalqlar üçün ümumi olan, universal səciyyə daşıyan atalar sözlərinin də olduğu danılmaz faktdır.Bu atalar sözlərinin ümumbəşəri olması və humanist səciyyə daşımasından xəbər verir.

Qədim zamanlardan ağıllı, fərasətli adamlar tərəfindən təsadüfən söylənilən zəngin məzmun çalarına malik, dərin mənalı, ancaq yığcam formalı fikirlər hər kəs tərəfindən bəyənilmiş və bütün tayfa və ya etnosun ümumi mənəvi dəyərinə çevrilmişdir. Fikri söyləyən adamın adı yaddan çıxmış, atalar sözləri isə nəsildən-nəsilə keçərək şifahi xalq ədəbiyyatında özünəməxsus yer tutmuşdur.Necə deyərlər "özü getmiş sözü isə dünyada qalmışdır."

Atalar sözləri bir yaradıcılıq məhsulu olaraq hər hansı bir bağlı həqiqəti açmır, yalnız kəşf olunmuş həqiqəti ifadə edir. Mövcud olan həqiqətlərin hər hansı bir şəkildə ifadə olunması isə həyatın müşahidə və sınaqlarından doğur. Başqa cür desək, atalar sözləri müşahidə və sınaq yolu ilə dərk olunmuş gerçəklərin bədii ifadə formasıdır.

Xalq arasında ibrətamiz ifadələr adı ilə də tanınan atalar sözlərində hökm qəti şəkildə təsdiqlənir. Atalar sözlərini belə təsnif etmək olar:

Vətən, dostluq, səadət haqqında yaranmış atalar sözləri:

Bura vətənpərvərlik, etibarlılıq mövzusunda yaranmış atalar sözləri daxildir. Məsələn: " El bir olsa dağ oynadar yerindən" , " Elə arxalananın kürəyi yerə dəyməz" , " El sevəni el sevər", " Dost yaman gündə tanınar" , " Dostun atdığı daş baş yarmaz" və s.

Əmək haqqında yaranmış atalar sözləri:

Burada əməyin insanın sağlamlığı və insan üçün şərəfli iş olması barədə yaranmış atalar sözlərindən bəhs edilir. Məsələn: " İş insanın cövhəridi" , " İşləyən dəmir işıldar" , " Atlar işlər, ər öyünər" , " Nə əkərsən onu da biçərsən" .

Zülm, ədalət, qadın hüquqsuzluğu haqqında yaranan atalar sözləri:

Burada zülmə etiraz, azadlığa meyl barəsində yaranmış atalar sözlərindən bəhs edilir. Məslən: “ Qulun qadını işlək olar” , “ Zor qapıdan girər, şər bacadan çıxar” , “ Ağaya ağ olan boynuna kəfən salar” , “ Ağa deyir sür dərəyə, sür dərəyə” və s.

Əxlaq- tərbiyə və gözəllik haqqında yaranmış atalar sözləri:

Atalar sözlərində gözəlliyin və yüksək əxlaq-tərbiyənin tərənnümü xüsusən yer almışdir. Məsələn: “ Doğruya zaval yoxdur” , “ Vicdan ləkəsi silinməz” , “ Böyüyün qulluğunda kiçik dayanar” , “ Gözələ məhəbbət qəbahət olar” , “Gözəllər məclisi rəvan keçər” və s.

Atalar sözləri xalq tərəfindən yaradılan və xalqın özünə həyat düsturu olaraq qəbul etdiyi hikmətli sözlərdir. Atalar sözlərinin bir sıra özünəməxsus cəhətləri var. Bu cəhətlərə mövzu müxtəlifliyi, bitmiş fikir, ümumiləşdirmə və nəticə kimi xüsusiyyətlər daxildir. Böyük əxlaqi-tərbiyəvi əhəmiyyət kəsb edən atalar sözləri xalqın həyatda sınanmış, müdrik və nəsihətli fikirlərinin təzahürüdür. Həcmcə kiçik olması, lakin mənaca hikmətli və nəsihətli olması atalar sözlərinin əsas xüsusiyyəti sayılır. Bitmiş fikir ifadə edən atalar sözləri həm həqiqi, həm də məcazi mənada işlənə bilir. Həqiqi mənada işlənənlərə misal olaraq aşağıdakı atalar sözlərini göstərmək olar:

“ Doğru söz acı olar” , “ İş insanın cövhəridir” , “ Yaxşı dost qardaşdan irəlidir”, “ Çıxan can geri qayıtmaz” və s.

Məcazi mənada işlənənlərə isə misal olaraq aşağıdakıları göstərmək olar:

“ İlanın ağına da lənət, qarasına da” , “ Buynuzsuz qoçun qisası buynuzlu qoçda qalmaz” , “ Ağacı qurd içindən yeyər” , “ İslanmışın yağışdan nə qorxusu” ,“ Qudurmuş köpəyin ömrü qırx gündür” və s.

Atalar sözləri arasında alleqorik atalar sözleri de az deyil. Ən çox işlətdiyimiz bu ifadələr arasında məhz alleqorik atalar sözləri özünəməxsus yer tutur. Bu onların epik əsərlərdən, nağıllardan, təmsillərdən yaranması ilə bağlıdır. Alleqorik atalar sözlərinə bu nümunələri göstərə bilərik: “Ac ayı oynamaz” , “Ala it çaqqalın dayısıdır”, “İki qoçun başı bir qazanda qaynamaz”, “Eşşek işlər, at yeyər”,“ İt hürər, karvan keçər”, “Anasından qabağa düşən qulunu qurd yeyər” , “ Aslanın dişisi erkəyi olmaz”, “Ac toyuq yuxusunda darı görər” və s.Bunlar xalq arasında çox işlənən nümunələrdəndir.

Azərbaycan atalar sözlərində işlədilmiş bədii təsvir ifadələri arasında geniş miqyasda işlənmiş kinayə və mübaliğəni göstərə bilərik.

Bizim gəlin bizdən qaçar,
Üzün tutar, qılçın açar,

Bu misalda kinayəni görə bilərik.

Boynum qıldan nazikdir

Bu nümunədə isə biz mübaliğənin çox üstün təsirini görə bilirik.

Atalar sözlərinin şifahi xalq ədəbiyyatının nümunəsi olması ilə yanaşı yazılı ədəbiyyatda da geniş istifadə olunduğunu görə bilərik. Nəcəf bəy Vəzirovun “ Daldan atılan daş topuğa dəyər” , “Yağışdan çıxdıq yağmura düşdük” , “ Sonrakı peşmançılıq fayda verməz” , Abbas Səhhətin “ Yoxsulluq eyib deyil” , Əbdürrəhim bəy Haqverdiyevin “ Yeyərsən qaz ətini, görərsən ləzzətini” əsərlərinin adları buna əyani sübut ola bilər.

Azərbaycan folklorunda atalar sözlərinin həm nəzm formasında, həm də nəsr formasında olduğunun şahidi oluruq. Məsələn:

Hər nə yedin dadındır,
Hər nə verdin adındır,

Hər nə qaldı yadındır,

İgid odur atdan düşüb atlana,
İgid odur hər əzaba qatlana.

İgid ölər, adı qalar,
Müxənnətin nəyi qalar?

Sən ağa, mən ağa,
İnəkləri kim sağa?

Açaram sandığı,
Tökərəm pambığı.

Yüz ölç,
Bir biç.

Görünən dağa bələdçi lazım deyil.
Böyüksüz evdə xeyir-bərəkət olmaz.

Bu günün işini sabaha qoyma
İş insanın cövhəridir.
Kitab bilik mənbəyidir.

Dramatik və təhkiyə ünsürlərinin mövcudluğu mənsur atalar sözlərində diqqəti cəlb edən cəhətlərdəndir.

Yaxşılığa yamanlıq, kor eşşəyə samanlıq.
Dəmirsiniz, missiniz, hamınız bir cinssiniz.
Tısbağaya xalası, hər kəsə öz balası və s.

Atalar sözlərinin yaranmasında məcazların da rolu böyükdür. Atalar sözlərində məcazların demək olar ki, bütün növləri ilə – təşbeh, epitet, metonimiya, kinayə, sinekdoxa, təzad,mübaliğə və s. rastlaşa bilirik. Bele atalar sözlərinə misallar göstərə bilərik.:

“ İt hürər, karvan keçər”
“ El elə sığar, ev evə sığmaz”
“At ölüb, itlərin bayramıdır”
“ İlanın ağına da lənət, qarasına da”

Tərkibində məcaz olan belə atalar sözlərinə aid çox misallar gətirmək olar.
Atalar sözlərinin adı çox vaxt mənbələrdə zərbü-məsəllərlə qoşa çəkilir. “ Atalar sözləri və məsəllər” ifadəsi ilə tez-tez rastlaşırıq.

S. Cəfərovun Müasir Azərbaycan dilinin leksikası kitabında “ Atalar sözü və zərbü-məsəllər” adı altında başlıqlar vardır ki, Cəfərov bu başlıqlar haqqında ayrı-ayrılıqda ətraflı məlumat vermişdir. Müəllif qeyd etmişdir ki, zərbü-məsəlləri sadəcə məsəllər də adlandırırlar. Bunlar məna və qrammatik quruluşuma görə atalar sözlərinə çox yaxındır, hətta onları bir-birindən ayırmaq belə çətin olur. Zərbü-məsəlləri atalar sözlərindən fərqləndirən cəhət məsəllərdə fikrin nisbətən daha tam şəkildə ifadə

olunması və bundan nəticə çıxarılmasıdır. Bundan başqa zərbü-məsəllər müəyyən bir hədəfi güdür və bu və ya digər şəxsin xüsusiyyətinə aid olması ilə fərqlənir.

Burada müəllifin " məsəllər müəyyən hədəfi güdür" fikrinə nəzər salsaq görərik ki, atalar sözlərini məsəllərdən ayıran əsas əlaməti də elə budur. Atalar sözləri zərbü-məsəllərdən fərqli olaraq heç bir hədəf güdmür. Bu ifadələr ümumi hökm bildirir. Məsələn: " Halva, halva deməklə ağız şirin olmaz" , " İki qılınc bir qına sığmaz" , " Nə əkərsən onu da biçərsən" , " İşləməyən dişləməz".

Bunlar atalar sözləri olaraq, heç bir konkret şəraitlə əlaqədar olmayıb, ümumiləşmiş hökmləri ifadə edirlər.

V.P.Jukov da öz növbəsində atalar sözləri və məsəlləri bitkin cümlə formasına malik hökmlər kimi qələmə vermişdir. Müəllif atalar sözlərinə eyni zamanda hərfi və obrazlı planı olan, və ya təkcə obrazlı planı olan yığcam xalq deyimləri kimi yanaşmışdır.

Jukov qeyd etmişdir ki, atalar sözlərinin ikiplanlı olması onları məsəllərdən fərqləndirir. Müəllif atalar sözləri və məsəllərin arasında ara vahidlərini də ayırmış və onları atalar sözləri və məsəllərin xüsusi bir tipi kimi qələmə vermişdir. Belə ifadələr tərkibindəki sözlərin bir qisminin birbaşa, digər qisminin isə məcazi mənada olması ilə xarakterizə olunurlar. Məsələn: " Araz aşığından, Kür topuğundan" , " Ağıllı fikirləşincə, dəli çayı keçər" , " Dəliyə həmişə bayramdır". Bu kimi atalar sözlərində məcazilik özünü göstərir. Təbii ki, bədii dil vasitəsi olan məcazların hesabına atalar sözlərindəki ifadələr daha da qüvvətli təsirə malik olur.

Ümumiyyətlə, folklor o qədər zəngin bir mənəvi sərvətdir ki, heç bir xalqın mədəniyyət tarixini bunsuz təsəvvür etmək mümkün deyil. Yazılı ədəbiyyat yaranarkən folklor xalqın mənəvi ehtiyacını bütünlüklə ödəmişdir, müəllifli ədəbiyyatdan sonra da xalq öz yaradıcılığını fasiləsiz olaraq davam etdirmişdir.

XX əsrin birinci rübünə qədər atalar sözlərinin toplanması, nəşri və öyrənilməsi kortəbii səciyyə daşımış və ayrı-ayrı maraq sahiblərinin zövqünə uyğun şəkildə görülmüşdür. XVII-XVIII əsrlərdə yazıya köçürülən atalar sözlərinin həyat üzü görmələrində ziyalılarımızın böyük əməyi olduğunu da söyləməliyik.

XIX əsrin sonlarında İbrahim Məhərrəmzadə, Məhəmmədəli Qəmərli, Muhəmməd ibn Əli Quli, Axundzadə Mirzə Əli ibn Hacı Molla Mustafa Əlbadkubeyn, XX əsrin əvvəllərində F. Köçərli və başqalarının folklor əsərlərində, xüsusən də onun ən dəyərli və kütləvi janrı olan atalar sözlərinin toplanması, nəşri və öyrənilməsi işində məxsusi xidmətləri olmuşdur. Bu sahədə Eynəlibəy Sultanovun da xidmətlərini xatırlatmaq yerinə düşərdi.

Azərbaycan ədəbiyyatı tarixində atalar sözü və zərbi-məsəllərin toplanması və nəşrinin daha çox Hənəfi Zeynallı və Əbdülqasım Hüseynzadənin adı ilə bağlı olduğunu da qeyd etməliyik. Bu müəlliflərdən H.Zeynallı atalar sözlərini toplayıb nəşr etdirməklə bahəm bu janrın elmi cəhətdən mahiyyətinin açılmasına daha çox əhəmiyyət vermiş, tədqiqatçı kimi ad qazanmışdır. Ə.Hüseynzadə isə böyük zəhmət hesabına dilimizdəki atalar sözlərini toplamış, ən asası isə atalar sözü fondunun yaradılmasında əvəzedilməz fəaliyyət göstərmişdir.

Xalqın fəlsəfi düşüncəsini, məntiqi mühakiməsini, bədii yaradıcılıq imkanlarını, gündəlik həyat və məişətini əks etdirən atalar sözləri xalqın bütün tarixi təcrübəsini əhatə edir. O cümlədən, atalar sözləri xalqın mədəni dəyərlərinin, milli mentalitetinin ən qabarıq şəkildə ifadəsidir. Xalqın özünüifadə vasitəsi olan atalar sözlərini öyrənməklə

biz hər hansı bir xalqı hərtərəfli tanıya bilərik. Mümkün olduğu qədər bütün işlərimizdə atalar sözlərini tətbiq etsək, bunun yalnız faydasını görə bilərik. Necə deyərlər: "Məsləhətli don gen olar".

Ədəbiyyat siyahısı

1. Abbasquliyev T.-İngilis atalar sözləri və məsəlləri və onların azərbaycanca, rusca qarşılıqları. Bakı: Elm, 1981, 211.s.
2. Abbaslı İ. Ön söz // Atalar sözü / tərtib edən: Məmmədvəli Qəmərli transliterasiya və sözlüyün müəllifi R. Xəlilov. Bakı, Səda 2003.s.6-22
3. Atalar sözü / tərtib edəni Hş Zeynallı, Bakı, Azərnəşr,1926, 123.s
4. Atalar sözü /tərtib edəni: Ə. Hüseynzadə, Bakı: Azərnəşr,1938. 230.s
5. Atalar sözü /tərtib edəni: Ə. Hüseynzadə, Bakı: Azərnəşr, 1949.311.s
6. Atalar sözləri/ tərtib edəni: M.V.Qəmərli transliterasiya və sözlüyün müəllifi R. Xəlilov, ön söz müəllifi İ.Abbaslı,elmi redaktoru H.İsmayılov. Bakı, Səda, 2003. 565.
7. Əlizadə Z. Azərbaycan atalar sözlərinin həyatı. Bakı: Yazıçı 1985, 245.s.

BALAKISHIYEVA MEHRIBAN

THE CLASSIFICATION OF PROVERBS.

SUMMARY

Proverbs are the wise words created by people and received as a life formula. Proverbs are considered universal characteristic genre of folklore and founded in folk art of all nations of the world. Being small volume, but rich, wise, moralizing in meaning is considered the main features of proverbs.

БАЛАКИШИЕВА МЕХРИБАН

КЛАССИФИКАЦИЯ ПОСЛОВИЦ

РЕЗЮМЕ

Пословицы созданы народом и эти мудрые слова стали формулом из жизни. Пословицы считаются универсалъным жанром фолклора, их можно встретитъ в мировом народном творчестве. Особенности этих пословиц в том, что они богатые мудрые поучителъные.

Rəyçi: dosent Ülviyyə Nəsirova

GÜNEL RZAYEVA
Qafqaz Universiteti magistr 2-ci kurs tələbəsi
gunel.r.k@mail.ru

BRITISH ROMANTICISM AND WALTER SCOTT

Açar sözlər: Böyük Britaniya xalqları, tarix, romantisizm, Valter Skott
Ключевые слова: Великобритания народы, история, романтизм, Сер Вальтер Скотт
Key words: People`s of Great Britain, history, romanticism, Sir Walter Scott

Nineteenth century English literature is prominent both for figurative achievement and variety. Two great movements determined the destiny of English nineteenth century life and literature. They were the Romantic revolution and its Industrial counterpart. The greatest literary movement of this period was Romanticism. It was born in the environment of economic and political noises that happened in the last decade of 18th and first decades of 19th century. The explosion of political activity brought on by the Great French Revolution of 1789. The bitter wars with Napoleon's France that destroy Europe for almost 25 years were the dominant political forces at work. The agrarian and industrial revolution affect all aspects of social life in England.

Great trouble was caused by landowners close millions of their work places. As a result many people tried to support themselves by working 12-14 hours a day for wages which was below level for living. There were no any trade unions, majority of people couldn't read and write, landlords and manufactures did what they pleased with their own. These situations became worse after the Waterloo war in 1815, soldiers who came from war to their country, find that the laboring people were almost all become poor and beggar.[1] The wealthy ruling classes were frightened to see rebellion in any attempt by workers. This was the background of the English Romantic Movement. The first English poet of the age of great bourgeois revolution was William Blake.

The year 1798, the publication of Lyrical Ballads by Wordsworth and Coleridge, would be called the turning point of English literature for its last stage. It is perfectly known that, no immediate general effect was produced by the book and that no second book till "The Lady of Last Minstrel" seven years

The most important person of this period was Samuel Taylor Coleridge who was born in Devonshire in 1772. He has educated at Christ`s Hospital and then went to Jesus College, Cambridge which leave for army. In 1795 he married with the sister of Southey's wife, Edith. In 1794 he published "the Fall of Robespierre" together with Robert Southey. His share in Lyrical Ballads included some of his best work and the same time "Kublai Khan" and "Cristobel" and the tragedy of "Osorio". During a visit to Germany with Wordsworth he began to translate "Wallenstein". In 1816-18 he published "Christabel", "Biographia Literaria", Zapolya" and the book "Friend". "The Prelude" never published during author's lifetime. It is his masterpiece undoubtedly

[1] GEORGE SAINTSBURY, 1925, Macmillan and Co Limited, St. Martin's Street, London, "A Short History of English Literature"

which is about writer's childhood, education, here describes not only the joys of his childhood, but terrors, pain and early miseries.[2]

Coleridge`s importance in English literature is irreplaceable, first as an influence, as a prose writer, especially in criticism and as a poet. As a prose-writer his importance is limited to criticism. "The Ancient Mariner" and "Christabel" are Coleridge`s only great productions of any bulk. "Kublai Khan" is very short. One thing that differ Coleridge from other writers is he took importance not the quantity of a work but quality. "Kublai Khan" is a best example to it. "Kublai Khan" or vision in a dream was left unfinished poem. Coleridge tell about his poem in preface that, this poem came to him in his sleep after taking opium and reading volumes of Samuel Purchas and notes about the life of Marco Polo at the court of the Mongolian khan Kublai Khan in Kambalu. After waking up he began to write lines which came to him in his dream until he was interrupted by his servant with a message that came to him a man from Purlock. When he went out to meet the guest, when came back he realized that already forgot the lines of poem.

The collaborator of Coleridge in "The Lyrical Ballads" was William Wordsworth who was a remarkably different person from his partnership. Wordsworth was born in Cumberland in 1770. He was a son of lawyer, but his father died when he was thirteen. But this is not impact the writer's education at Cambridge. He met with Coleridge in the South of England. The entire life of Wordsworth was domestic and literary. For the last seven years of his life he was Poet Laureate and he died in 1850. Wordsworth was very different from Coleridge. There is no any similarity more than one point that both of them were poet. Wordsworth depicts mostly the tendency of eighteenth century, politics, systems of philosophy, nature, the inner moral life of man and religion. In "Tintern Abbey" and "The Ode on Intimations of Immortality" he depicted worship of nature. And these two are accordingly among the great poems of the world. [3]

If we look the elements of Romanticism can easily find nature depicted works. This is more experienced in Wordsworth, Coleridge's works. Beyond this the supernatural elements was also the theme for this period. William Blake was the one who was used some supernatural creations in his works. If we look his life, in his 3 years old it is saying that, William Blake has seen God watching him through the window, another claim is that he has seen a tree full of angels. In his "Chimney sweeper" Blake depicted angel that survive children from the coffin.

England is the southern, and Scotland is the northern part of the celebrated island called Great Britain. England is greatly larger than Scotland, and the land is much richer, and produces better crops. Scotland on the contrary is full of hills and huge moors, wilderness, which bear no corn, and afford but little food for flocks of sheep or herds of cattle. But the level ground that lies along great rivers is more fertile and produces good crops. The natives of Scotland are accustomed to live more hardily in general than those of England.

Now, as these two nations live in different ends of the same island and are separated by huge seas from all other parts of the world, it seems natural that they

---

[2] "Scott, Sir Walter." Microsoft Encarta Online Encyclopedia. 2000. http;//encareta.msn.com 1997-2000 Microsoft Corporation

[3] A history of English literature", Peter Quenmell and Hamish Johnson, Fendale Editions, London, 1973

should have been friendly to each other and that they should have lived as one people under the same government. Accordingly about two hundred years ago, the King of Scotland becoming King of England, the two nations have ever since then been joined in one great kingdom, which is called Great Britain. But before this happy union of England and Scotland, there were many long, cruel and bloody wars between the two nations; and far from helping or assisting each other, as became good neighbors and friends, they did each other all the harm and injury that they possibly could, by invading each other's territories, killing their subjects, burning their towns, and taking their wives and prisoners. This lasted for many hundred years.

A long time since, eighteen hundred years ago and more there were people who were brave and warlike called the Romans. The aim of this nation was to conquer the whole world and subdue all countries for making their own city of Rome, the head of all nations. After conquering the far and the near, at last they came to Britain and make a great war to inhabitants, called British or Britons. Well armed and brave Romans beat the Britons and took almost all the flat part of the island, which is now called England. But they couldn't make their way to high mountains of Scotland where there were no any chance for feeding their soldiers and where they meet much more oppositions by inhabitants. So they gave up subduing this impenetrable country and, remaining satisfied with that level of ground of which they had already possessed themselves. [4]

After a while the people of Scotland began to come down from the mountains that the Romans couldn't subdue and inroad upon that part of the country which had been conquered by Romans. These people of the southern part of the Scotland were not one nation, but divided into two, called Scots and the Picts. They didn't get on well with each other, but against Romans they joined together. At length for prevent Scots and Picts, Romans built a long wall between one side of the island, so none of Scots or Picts should come into the country on the south side of the wall. After these Romans built towers on this wall, they make camps with soldiers in order if the Scots attack they might hasten to defend any part of the wall. Some parts of the wall is remained today in the island of Britain. Displeased Scots and Picks assembled themselves in great numbers and climb to the wall, in spite of all that the Romans could do oppose to them. A man named Grahame, is said to have been the first soldier who got over and common people is still call the remains of wall Grahame`s Dike. After the countless attack, the Romans began to build much stronger one than the first, sixty miles farther back from Scots and Picts. The second wall was defended so well by Romans. In the meantime Britons had very unhappy life among these wars and they were already much weaker as the Romans taken away all their arms and they had already lost their habit of using them or defending themselves. [5]

But at this time there were great quarrels and confusions, civil wars in Rome, so the Roman Emperor called back all the soldiers for protecting their country against these wars. After departure of Roman, Britons could not protect their country against to Scots and Picts and they invite Anglo-Saxons from the North of Germany to assist

[4] N.Y. Dyakonova, T.A. Amelina, "An Anthology of English Literature", XIX, Leningrad,"Prosveshenie", 1978.

[5] Summary of Waverley by Michael McGoodwin, 2007

them. Anglo-Saxons were a very brave and warlike people and they came with their ships from Germany and landed in the south part of the Britain and helped Britons to fight with the Scots and Picts. [6]Saxons saw that how a rich and beautiful country Britain is and the people is weak to protect themselves and defend their country, they resolved to take the land and make Britons their slaves. The Britons were very unwilling have their country taken from by Saxons whom they had called for assistance, they began to oppose them but Saxons were stronger than them so they defeat them. The bravest part of Britons fled into a very hilly part of country called Wales and defended themselves against Saxons for a many years. Today their descendants still speak the ancient British language called Welsh. And Anglo-Saxons spread to the south part of the Britain and they changed the name of country from Britain to England which means a land of the Anglo-Saxons who had conquered it.

From the other side behind the Roman wall Scots and Picts were fighting together. At last, after many battles Scots got completely the victory and they took some of them as slaves and drive the others out of the country. At least Picts were never heard of in history after these great defeats and Scots gave their own name to the north part of Britain as the Angles did the south part and so came the name of Scotland, the land of Scots and England the land of English.

Therefore Britain divided into three parts who were enemies to each other. There was England which was the richest and best part of island inhabited by English, Scotland full of hills, great lakes and mountains, difficult and dangerous precipices, inhabited by Scots or Scottish men and The Wales also very wild and mountainous country where the remains of Britons had fled to obtain safety from Saxons. [7]

Norman Conquest of England effected upon their neighbor Scotland. Saxons were fed up from the cruelty of William the Conqueror and went to Scotland and this had a considerable effect in civilizing in Scotland. In this period Saxons were inferior to the Normans and they learning from Norman's arts and other things, but they were superior to Scotts who were a rude and very ignorant people. Among the people who leave England was young prince named Edgar Etheling, the relative of King Edward the confessor. This young prince brought his two sisters to Scotland, Margaret and Christian. They were received by much kindness by Malcolm III who remembered the assistance of Edward the Confessor and felt himself obliged to behave generously towards his family. He himself married Princes Margaret in 1068 and made her the Queen of Scotland. Princes Margaret was a beautiful, gentle woman. Not only Saxons, but Norman themselves came to settle in Scotland. All of them were welcomed by Malcolm III, he was desirous to retain these brave men in his service and for this reason he gave them great grants on land. Most of Scottish nobility are of Norman descent

[6] "An Anthology of English Literature", XIX-XX Centuries, Aleksandr Anikst, Moscow 1949.

[7] Adam and Charles Black, Edinburg, 1869, "Tales of Grandfather" being the History of Scotland from Earliest Times (Addressed to his grandson, Hugh Littlejohn) by Sir Walter Scott.

today. Malcolm was a brave men but he was uneducated. It is saying that he was unable to read his wife's prayer-books, but by kissing them he expressed his deep respect for what he didn't understand. Queen Margaret was a religious woman and she was called Saint Margaret. King Malcolm was died in one of battles and Queen Margaret was ill in that time, after the she heard the death of his husband and son, she died too.

In those times the warriors went into battle clad in complete armour, which covered them from top to toe. On their head they wore iron helmets. The knights, king or lord distinguished themselves to theirs followers in battle with two ways. The first one is by a sword which with strange decoration such as a figure of lion, a wolf on a hand holding sword, the second one is these warriors decorate on the top of their helmets with emblematical figures such as a crest of cock. These emblems became general, and at least no one was permitted to bear such clothes except he either had the right to carry it by inheritance, or it had been confirmed by some sovereign prince. Today these clothes painted on carriages or placed above the principal door of country houses. One of King of Scotland chose for his armorial bearing a Red Lion and for this he acquired the name of William the Lion. [8]

REFERENCES;

1. GEORGE SAINTSBURY, 1925, Macmillan and Co Limited, St. Martin's Street, London, "A Short History of English Literature"
2. "Scott, Sir Walter." Microsoft Encarta Online Encyclopedia. 2000. http;//encareta.msn.com 1997-2000 Microsoft Corporation
3. "A history of English literature", Peter Quenmell and Hamish Johnson, Fendale Editions, London, 1973
4. N.Y. Dyakonova, T.A. Amelina, "An Anthology of English Literature", XIX, Leningrad,"Prosveshenie", 1978.
5. Summary of Waverley by Michael McGoodwin, 2007
6. "An Anthology of English Literature", XIX-XX Centuries, Aleksandr Anikst, Moscow 1949.
7. Adam and Charles Black, Edinburg, 1869, "Tales of Grandfather" being the History of Scotland from Earliest Times (Addressed to his grandson, Hugh Littlejohn) by Sir Walter Scott.

Гюнель Рзаева

БРИТАНСКИЙ РОМАНТИЗМ И ВАЛЬТЕР СКОТТ

РЕЗЮМЕ

Более ста лет назад, сэр Вальтер Скотт, был одним из величайших писателей мировой литературы. Бальзак видел его романы в качестве примеров художественного совершенства, Стендаль говорил о нем с большим одобрением, Белинский восхищался его, Пушкин назвал его «шотландский волшебник». По мотивам его произведений художника рисовать свои картины, композиторы

[8] Adam and Charles Black, Edinburg, 1869, "Tales of Grandfather" being the History of Scotland from Earliest Times (Addressed to his grandson, Hugh Littlejohn) by Sir Walter Scott.

сочинять оперу.. Сотни европейских писателей писать романы «на манер Вальтера Скотта».

Вальтер Скотт был также коллекционером баллад, критик, поэт, сделал романа самый популярный литературный жанр из XIX и XX веков, воссоздающих прошлое своей страны. Он создал захватывающие истории, связанные с революция, восстание, социальный конфликт, и запоминающихся персонажей из всех слоев общества.

Во время бурных социальных и политических изменений, роман стал важным в связи с возможностью детального анализа записи и эти процессы. Влияние Скотт не ограничивается Британских островах. Он считается отцом исторических романов. Скотт довести до литературы новые жанры с его нового вида романов. И это принесло ему известность по всей стране и за рубежом. Новый способ Скотта мышления, его историческая задача является новой идеей в литературе для тех времен. Но это не единственная причина, почему шотландец получил известность в мире. Это наиболее ценится, что до конца его жизни шотландец пытался что-то сделать для своей страны и народа.

Günel Rzayeva

BRİTANİYA ROMANTİSİZMİ VƏ VOLTER SKOT

XÜLASƏ

Yüz ildən çodur ki, Valter Scott, dünya ədəbiyyatının ən böyük yazıçılarından biri hesab olunur. Balzaka görə onun əsərləri bədii kamillik nümunələridir, Stendal onu dərin rəğbətlə yad edir, Belinski ona heyranlığını vurğulayır və Puşkin onu "Şotland sehirbazı" adlandırır. Onun əsərlərinin motivləri əsasında rəssamlar bədii əsərlərini boyayır, bəstəkarlar operalar bəstələyir. Yüzlərlə Avropa yazıçıları Volter Skotu örnək alaraq öz əsərlərini yazmışlar.

Walter Scott, öz ölkəsinin qədim tarixini yenidən yaradaraq XIX və XX əsrlərdə novel janrını ən məhşur ədəbi janr halına gətirmiş, balladalar toplamış, tənqidçi, yazıçı olmuşdur. O, cəmiyyətin bütün səviyyələrdə inqilab, qiyam, sosial münaqişə və yaddaqalan simvolları ilə bağlı maraqlı hekayələr yaratmışdır. Onun yaşadığı dövrdə gur, sosial və siyasi dəyişikliklər zamanı roman janrı mühüm əhəmiyyət kəsb edirdi, çünki bu baş verən hadisələrin təhlili və qeydə edilmsi üçün əhəmiyyətli rol oynayırdı.

Skotun məhşurluğu təkcə Britaniya ilə məhdudlaşmır. O, tarixi roman janrının atası hesab olunur. Özünün fərqli novelləri ilə o ədəbiyyata yeni növ, janr gətirmişdir. Bu isə öz növbəsində ona ölkə daxilində və xaricində ona məhşurluq bəxş etdi. Skotun yeni düşüncə tərzi, onun tarixi əsərləri o vaxtlar üçün ədəbiyyatda yeni ideya idi. Skotun dünya üzrə məhşurluğunun səbəbi sadəcə bu deyildi. Skot ömrünün sonuna qədər Şotlandiya və xalqına əvəzolunmaz xidmət etmişdir.

Rəyçilər: Elm. Dr. Şahin Xəlilli

Odenis etmemisdi edib deye atdim

MƏTANƏT QURBAN QIZI ŞAHALİYEVA
AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı
elshad35@mail.ru

XIX ƏSRİN İKİNCİ YARISINDA CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA POEZİYA
1

Açar sözlər: *XIX əsr, Cənubi Azərbaycan, Məhəmmədbağır, Xalxali yaradıcılığı, Sələbiyyə poeması.*
Ключевые слова: *девятнадцатого века, Южный Азербайджан, Мохаммад Халхали творчество, Салабиййа поэма.*
Key words: *the nineteenth century , the South Azerbaijan, Mohammad Khalkhali creativity, Salabiyya poem*

XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Ağa Məhəmməd Bağır Xalxalidir.

Vüqar Əhməd yazır: "Ədəbiyyatşünaslığımızın qarşısında duran mühüm vəzifələrdən biri də Cənubi Azərbaycandakı ədəbi prosesi öyrənməkdir. Cənub mövzusunda aparılan tədqiqatlar Şimali Azərbaycandakı ədəbi proseslərlə qarşılıqlı təsir və əlaqə şəklində aparılmaqla Güneydə yaşayan soydaşlarımızın istər nəsr, istərsə də poeziyada demokratik ideyaları ictimai motivlər müqayisə edilməklə araşdırmaların leytmotivini təşkil etməlidir. Sovet dövründə kommunist ideologiyası ilə layihələnən Cənub mövzusunda dissertasiyalar, ədəbi araşdırmalar, ümumiyyətlə bu mövzudakı araşdırmalar yenidən nəzərdən keçirilməlidir"(1, 186).

Vüqar Əhmədin fikrinə qoşularaq bizdə, elmi faktlara əsaslanaraq Ağa Məhəmməd Bağır Xalxalinin yaradıcılığına nəzər salacağıq.

Ağa Məhəmməd Bağır Xalxali XIX əsrin ortalarında Cənubi Azərbaycan poeziyasında satirik realist təmayüllü poeziyanm görkəmli nümayəndələrindən biridir.

İbrahim Təvəkküli yazır ki, Xalxali Xalxal əyalətində, nəsildən-nəsilə öz təhsili və maarifpərvərliyi ilə tanınan bir ailədə anadan olmuşdur. O, zəmanəsinə görə mükəmməl dini təhsil görmüş "Seyqülüqud" kitabının müəllifi Axund Molla Əli Müctəhid kimi məşhur islam alimlərindən dərs almışdır. Təhsilini bitirdikdən sonra Xalxali doğma yurduna qayıdaraq şəriət məhkəmələrində çalışmış, eyni zamanda müəllimlik etmişdir. Təvəkküli şairin o dövrün ziyalıları, həmçinin Nəsrəddin şahın yaxınları arasında böyük hörmət qazandığını qeyd edir.(2,3)

Təvəkkülinin təsdiq etdiyinə görə, şair şahı və onun ailəsini tərifləmək üçün heç vaxt əlinə qələm almasa da, Nəsrəddin şah Xalxaliyə biliyinə, istedadına hörmət və ehtiram əlaməti olaraq fəxri fərman və xələt (əba) göndərmişdir. Sonra Təvəkküli məlumat verir ki, Xalxali Müzəffərəddin şah hökmranlığı dövründə, 72 yaşında vəfat etmişdir.(2,3)

Təvəkküli "Sələbiyyə"nin oxucular arasında böyük rəğbət qazandığını və bir neçə dəfə təkrar nəşr edildiyini göstərməklə yanaşı, həm də əvvəlki nəşrlərdə çoxlu səhv və yanlışlıqlar olduğunu da qeyd edir. Təvəkküli Xalxalidən böyük hörmət və məhəbbətlə yazır, onun yaradıcılığını yüksək qiymətləndirir.

Məhəmmədəli Tərbiyət Xalxali barədə yazır ki, "Xalxali Xalxal vilayətinin Qarabulaq kəndindəndir. O, hicri 1310-cu ilədək yaşamışdır. Onun aydın və fəsahətli

dillə yazdığı "Sələbiyyə" məsnəvisi dönə-dönə çap edilib yayılmışdır". Bu kitab məlumat xarakterli olduğundan Tərbiyət şairin yaradıcılığını şərh etmir (4,62). Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" kitabında yazdığı "Ağamirzə Məhəmməd Bağır Xalxali" oçerkini "Sələbiyyə" poemasının ilk tənqidi təhlili saymaq olar. Bu oçerkdə demək olar ki, bioqrafik məlumat yoxdur, müəllif bircə onu qeyd edir ki, Xalxali Xalxal əyalətinin Qarabulaq kəndində anadan olub. Köçərli şairin üslubunu yüksək qiymətləndirir və yazır: "Ağamirzə Məhəmməd Bağır Xalxali, demək olar ki, Azərbaycani-Əcəmdə ən müqtədir və rəvantəblisidir" (5,63).

Xalxalidən fərqli olaraq Köçərli insanı öz cəmiyyətini, öz münasibətlərini quran bir varlıq kimi qiymətləndirir. Köçərli, eyni zamanda Xalxalinin qadına münasibət barədəki fikri ilə də razılaşmır. Sonda qadınları iki qrupa ayırır: həyalılar, namuslular, birdə əxlaqsızlar, abırsızlar. O, qadının əsas vəzifəsini ərinə dönmədən və sədaqətlə xidmət etməkdə, şəriətin bütün qaydalarına əməl etməkdə görür. Halbuki Köçərli bunu kafi hesab etmir. O yazır ki, qadın da kişi kimi təhsil hüququna malikdir və hətta belə hesab edir ki, bu, zəruridir, çünki gələcək nəslin başlıca tərbiyəçisi qadındır. Xalxali tamahkarlığı tənqid edir və qazandığına qane olmayanları, həmişə nəsə bir şey qoparmaq istəyənləri məzəmmət edir.

Köçərli hesab edir ki, daha çox qazanmaq (lap var-dövlət) arzusu olmadan inkişafda olmaq, tərəqqi etmək çətindir.

Firidun bəy Köçərli qeyd edir ki, məişətimizdə və gündəlik həyatımızda elə bir məsələ yoxdur ki, Xalxali öz əsərində ona toxunmamış olsun. O, öz fikirlərini maraqlı poetik formalarla ifadə edərək, zəngin xalq yaradıcılığından, atalar sözündən, zərb-məsəllərdən və s. geniş istifadə etmişdir. Köçərli Xalxalinin "Sələbiyyə"sini Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirən bir əsər hesab edir.

F.Qasımzadə "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" kitabında İbrahim Təvəkkülinin müqəddiməsindən aldığı məlumatlara söykənərək, Xalxalinin 1829-cu ildə doğulub, 1901-ci ildə öldüyünü söyləyir. Sonra isə o, Xalxalinin şagirdi Bihudiyə istinad edərək şairin üç dildə azərbaycanca, farsca və ərəbcə yazdığını və onun bu dillərdə əsərlərindən ibarət olan divanının mövcudluğunu qeyd edir. Ancaq F.Qasımzadə təəssüflə bildirir ki, əlimizə şairin yalnız azərbaycanca divanı gəlib çatmışdır. O, həmin divanın hicri 1319 (1940)-cu ildə İbrahim Təvəkküli tərəfindən nəşr edildiyi barədə məlıımat vcrir. Bu divana "Sələbiyyə"dən başqa 30-a yaxın qəzəli və Azərbaycan və fars dillərində olan 20-yə qədər müxtəlif şeir daxil edilmişdir.

"Sələbiyyə" poemasını araşdırarkən F.Qasımzadə bu əsərin xarakterik və fərqləndirici cəhətləri üzərində dayanır və qeyd edir ki, "Sələbiyyə"nin mövzusu və süjeti Tülküyə həsr olunmuş təmsillərdən götürülüb, ancaq canavar və tülkünün həmişə mənfi qəhrəman kimi təsvir olunduğu heyvanlar barədəki digər əsər fərqli olaraq, Xalxalinin qəhrəmanı (Tülkü) süjetin ümumi axarından və müəyyən vəziyyətlərdən asılı olaraq gah müsbət, gah da mənfi obraz kimi təsvir olunur. Özündən zəiflərlə münasibətdə Tülkü xain, qəddar və bicdir, öz ailəsinə gəldikdə işə qayğıkeş ailə başçısı, sevimli oğul, mehriban ata və ərdir. F.Qasımzadə şairin ricətlərinə xüsusi yer verir və belə hesab edir ki, Tülkü haqqındakı hekayət əsərdə ikinci dərəcəli rol oynayır, belə ki, əsərin həqiqi dəyərini müəllifin lirik ricətləri, onun fikir və düşüncələri özündə ehtiva edir.

F.Köçərli kimi F.Qasımzadə də "Sələbiyyə" ilə Molla-Ruminin məşhur "Məsnəvi"si arasındakı yaxınlığı qeyd edir. O göstərir ki, bu əsər həm də öz təkrarsız milli koloritinə görə o dövr Cənubi Azərbaycanm ab-havasının, məişətinin, adət-ənənələrinin təsvirinə görə qiymətlidir. Əsərdə feodalizm quruluşunun ziddiyyətləri aydın ifadə olunmuşdur. Tülkü və Canavar obrazlarında biz zalımlarla üz-üzə gəliriksə,

nisbətən zəif canlılar (məsələn, Xoruz) özündə məzlumluğu təcəssüm etdirir. Alim, eyni zamanda qeyd edir ki, Xalxali öz əsərində ailədaxili məsələlərə toxunarkən ikiarvadlılığa, xəyanətə, pintiliyə və s. qarşı kəskin çıxış edir.

F.Qasımzadə Xalxalinin əsərlərində açıq-aşkar özünü büruzə verən ziddiyyətlərə də diqqəti cəlb edir. Varlılar və yoxsullar, zalımlar və məzlumlar arasındakı fərqi, ədalətsizliyi dəqiq görən Xalxali, nəinki bunlara qarşı necə mübarizə aparmaq lazım gəldiyini göstərmir, hətta səbrə və itaətə çağırır. Xalxalinin poemasını yüksək qiymətləndirməsinə baxmayaraq F.Qasımzadə F.Köçərlinin bu əsərə verdiyi qiyməti şişirdilmiş hesab edir.

Xalxali yaradıcılığı həm də Ə.Hüseyni və E.Piriyevin tərtib etdikləri "Cənub ulduzları" kitabında təmsil olunmuşdur. Kitab XIX əsr Cənubi Azərbaycan poeziyasının üç məşhur şairinin - Mirzə Mehdi Şükuhinin, Əndəlib Qaracadağinin, Məhəmməd Bağır Xalxalinin yaradıcılığına həsr olunmuşdur. Kitabda bu tanınmış şairlərin əsərlərindən başqa, onların yaradıcılığının təhlil olunduğu müqəddimə də verilmişdir. Həmin müqəddimədə Xalxali haqqında ayrıca olaraq deyilir: "O, XIX əsrin ikinci yarısında güclənən realist poeziyanın görkəmli nümayəndəsi kimi zülmə və feodal-patriarxal quruluşun yaratdığı bütün bəlalara qarşı mübarizə aparmışdır". (4,9)

Bu qiymətlə çətin razılaşmaq olar, çünki Xalxali öz əsərlərində feodalizm quruluşunun bütün yaralarını göstərsə də, ona qarşı mübarizəyə yox, onunla razılaşmağa çağırıb. Müqəddimədə müəlliflər Xalxalinin tərcümeyi-halının bəzi məqamları üzərində dayanır, onun mövcud olmuş divanını xarakterizə edir və "Sələbiyyə"nin təhlilini verirlər.

Müqəddimə müəlliflərinin Xalxali yaradıcılığının bədii və kompozisiya keyfiyyətləri barədə rəyi yüksəkdir. Onlar şairin qafiyə sisteminin orijinallığını, eləcə də dilinin zənginliyini xüsusi qeyd edirlər. Məhəmməd Əli Müdərris özünün ensiklopedik xarakter daşıyan "Reyhanətül-ədəb" adlı çoxcildliyinin ikinci cildində yenə də Təvəkkülinin verdiyi materiala əsaslanaraq, Xalxali haqqında məlumat verir, ancaq Müdərris Xalxalinin ölüm tarixini dəqiq göstərir (doğrudur, məlumatı hansı mənbədən aldığını qeyd etmir). O yazır ki, Xalxali 1316-cı ilin 14 şəvvalında (müsəlman qəməri təqviminin 10-cu ayı), şənbə günü vəfat etmişdir. (5,156)

Xalxali yaradıcılığının ədəbiyyatımızdakı rolu və yeri, şairin tərcümeyi-halı barədəki məlumatlar, "Sələbiyyə" poemasının təhlili üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin II cildində də verilmişdir. Bu əsərdə, təəssüf ki, Xalxali artıq o vaxt məlum olan başqa əsərləri ilə birlikdə təmsil olunmamışdır.

Kamran Məmmədov yazır ki, Xalxali yaradıcılığının əsas cəhətlərindən biri onun zülmə qarşı ardıcıl mübarizəsi, yoxsulları və məzlumları müdafiə etməsidir. Onun fikrincə, insanın vicdanını oyatmaq Xalxalinin bütün yaradıcılığında bir ana xətt kimi keçir. K.Məmmədov Xalxalinin poemanın sonunda böyük şahənşahın tədbiri sayəsində xoşbəxt və ədalətli bir zəmanədə yaşadığına görə Allaha şükranlar etməsində sətir-altı məna görür və onu açıqlayır. (7,125)

Doktor Cavad Heyət özünün "Azərbaycan ədəbiyyatı tarixinə bir nəzər" kitabında Xalxali barədə qısa biblioqrafik məlumat verir və əsərlərindən nümunələr gətirir.(8,133,136)

1985-ci ildə "Cənubi Azərbaycan tarixinə dair oçerklər (1828-1917-ci illər)" kitabı çıxdı. Kitabda tarixi materiallarla yanaşı, bu dövr Cənubi Azərbaycan ədəbiyyatının tənqidi xülasəsi də verilmişdir. Xalxali yaradıcılığını və ayrıca onun "Sələbiyyə" poemasını xarakterizə edən oçerk müəlliflərinə qeyd edirlər ki, "Zahirən uşaqlar və sadə adamlar üçün yazılmış bu məsnəvidə təmsil şəklində tülkü vasitəsilə həyatın, xüsusilə zəhmətkeş kəndlilərin ağır məişətinin real təsviri verilmişdir (9,264). Məlum olduğu

kimi, Xalxalinin poeması dəfələrlə nəşr olunmuşdur. Müxtəlif nəşrlərin xüsusiyyətləri və həmin nəşrlərə çəkilmiş illüstrasiyalar barədə İslam Ağayev özünün "Xalxali əsərlərinin nəşri tarixi, "Sələbiyyə" və kalliqraf rəssamlar haqqında" adlı məqaləsində söhbət açır. Məqalədə "Sələbiyyə" poemasınm nəşr olunma tarixi izlənir, oxucu bu məqalədə həmiri əsərə çəkilmiş gözəl illüstrasiyaların müəllifləri ilə tanış olur. Məqalə müəllifı qeyd edir ki, 1310-cu (1892) ildən 1329-cu (1911) ilədək olan dövrdə "Sələbiyyə" litoqrafiya üsulu ilə təxminən 9 dəfə çap olunmuşdur. İslam Ağayev göstərir ki, Azərbaycanda realist kitab qrafikasının yaranması XIX əsrdə realist bədii ədəbiyyatın inkişafı ilə əlaqədardır (10).

İran İslam inqilabından sonra İranda nəşr olunan jurnallarda da Xalxali yaradıcılığına dair ara-sıra tədqiqatlara rast gəlirik. Xalxali yaradıcılığına X.Sadiqin "Yeddi məqalə" kitabında daha obyektiv və hərtərəfli baxılmışdır. Həmin kitabda yeddinci məqalə Xalxalinin həyat və yaradıcılığına həsr edilmişdir.(11,142-198)

Xalxalinin doğum və ölüm tarixi barədə onun gəldiyi qənaət aşağıdakılardan ibarətdir. Həhmaninin məktubunda göstərilir ki, Xalxali hicri 1250-1311-ci illər arasında yaşamışdır. Sadiq hərtərəfli təhlildən sonra doğum ta- rixinin dəqiqliyi ilə razılaşır, lakin "Sələbiyyə" poemasının 1311- ci ildə bitirildiyini həm də həmin ildə şairin sağ olması faktını nəzərə alaraq, 1311-ci ili Xalxalinin ölüm tarixi olaraq qəbul etmir. Odur ki, Sadiq Xalxalinin hicri 1316-cı ildə ölməsi barədə Müdərrisin "Reyhanətül ədəb" kitabında irəli sürdüyü fərziyyəni məqbul sayır.

Sadiq Xalxalinin adını çəkən və artıq bizim bəhs etdiyimiz Müdərrisinin "Reyhanətül ədəb", Tərbiyətin "Danişməndane Azərbaycan" əsərlərindən başqa, Xanbaba Moşarın kataloqu (2 cild), Ağa Bozarginin "Əlzariyyə" və Xiyampürün "Fərhənge soxənvaran" kimi mənbələri də tədqiqata cəlb etmişdir. Sadiq Xalxali yaradıcılığına "Sələbiyyə" poemasına xas olan, şairin cəmiyyətdə tutduğu ictimai mövqeyindən doğan ziddiyyətlərlə qiymət verir.

"Sələbiyyə" poemasını hərtərəfli təhlil edən Sadiq qeyd edir ki, poemada tez-tez rast gəlinən Molla Gülmirzə (ibrətamiz hekayələrin əksəriyyəti onun dilindən verilir) şairin müəllimlərindən biri olan Molla Gül Məhəmmədəlinin obrazıdır. Tədqiqatçı qeyd edir ki, Xalxali "Sələbiyyə"də 60 atalar sözündən istifadə etmişdir. Sadiq "Sələbiyyə"ni farscaya çevirən Qubad Tufar-qaninin məlumatına əsaslanaraq Xalxalinin Azərbaycan dilində bir neçə iri həcmli dastan yaratdığını göstərir.(10, 229)

Xalxali yaradıcılığı bir sıra ədəbiyyatşünasların diqqətini özünə cəlb etmiş və cəlb etməkdədir. Əlbəttə, şairin yaradıcılığının bəzi aspeklləri ilə əlaqədar müxtəlif nöqteyi-nəzərlər mövcuddur, lakin Xalxali yaradıcılığına müraciət edən tənqidçilərin əksəriyyəti bu fikirdə həmrəydirlər ki, poema realist Cənubi Azərbaycan poeziyasının ilk qaranquşudur, müəllif bu əsərində feodalizmə məxsus olan bütün ziddiyyətləri böyük ustalıqla təsvir etmiş, öz dövrünün həqiqi mənzərəsini vermişdir. Bütün tədqiqatçılar poemanm estetik-bədii dəyərlərini və dilinin koloritli olduğunu da qeyd etməkdədirlər.

Ağa Məhəmməd Bağır Xalxali 1250 (1834)-ci ildə Xalxal əyalətinin Şeyxdərabad kəndində iri mülkədar ailəsində doğulmuşdur.

Xalxali 1316-cı (1898) ildə vəfat etmişdir.

Xalxalinin Azərbaycan dilində bir neçə irihəcmli əsəri, həmçinin azərbaycanca, farsca və ərəbcə şeirləri olsa da, bu gün əlimizdə olan şairin divanı və "Sələbiyyə" poemasının ərəb qrafikası ilə 8 nəşri, eyni zamanda, Azərbaycanda müxtəlif toplularda çap olunmuş bəzi şeirləri və "Sələbiyyə" poemasından parçalardır. Xalxalinin Azərbaycan EA Əlyazmalar Institutunda XVI-əsərdə saxlanan divanı 1319-cu (1940) ildə Tehranda çap olunmuşdur. Bu divan ədəbiyyatşünaslığımızda "Xalxalinin Azərbaycan dilində divanı" kimi tanınır. Bu divan özündə azərbaycanca olan

"Sələbiyyə" poemasmı, həmçinin 40-a qədər qəzəli, 11 rübaini, 3 təcnisi və bir neçə müxtəlif şeiri birləşdirir, lakin bu divana şairin farsca yazdığı şeirlər və 34 müəmması da daxil edilmişdiı . Divanın həcmi 144 səhifədir. Başdan cənab Təvəkküliniıı müqəddiməsi gəlir, onun ardmca fafsca, sonra isə azərbaycanca şcirlər və 50-ci səhifədən "Sələbiyyə" çap edilmişdir. "Cənubi Azərbaycan poeziyası antologiyasmda, həmçinin "Cənub ulduzları" toplusunda Xalxalinin divanından danışılır, lakin bu kitabların hər ikisində tədqiqatçılar şairin azəıbaycanca yazdığı şeirlər üzərində dayanırlar. Belə bir fakt da az əhəmiyyət kəsb etmir ki, kiçik həcmdə olsa da, Xalxalinin farsca yazdığı əsərlər əlimizdədir və biz onlar haqda zümüzdə müəyyən təsəvvür yarada bilərik.

"Sələbiyyə" poemasından yalnız bəzi parçalar və Azərbaycan dilində müxtəlif şeirlər çap olunmuşdur.

"Sələbiyyə"nin ərəb qrafikası ilə nəşrinə gəldikdə isə bu barədə İslam Ağayevin məqaləsində kifayət qədər dolğun məlumat verilib.

Lakin bir sıra xüsusiyyətləri qeyd etmək lazımdır. "Sələbiyyə"nin ərəb qrafikası ilə bütün nəşrlərində başlıqlar farsca, mətnin özü isə azərbaycanca yazılıb.

Ayrı-ayrı nəşrlərdə başlıqların adı müxtəlif variantlarda gedib. Xalxali haqda əldə olan materiallar açıq-aydın göstərir ki, bu gün onun yaradıcılığının cüzi hissəsindən xəbərdarıq. Bununla belə, tanış olduğumuz bu əsərlər də onun həqiqətən istedadlı şair, zəmanəsinin novatoru olduğundan xəbər verir.

Mirzə İbrahimov "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nın 1-ci cildinə yazdığı ön sözdə söhbət açır. () yazır ki, Xalxalinin lirikasında klassik qəzəl janrına xas olan fikirlərə, mövzulara, obraz və bədii ifadə vasitələrinə rast gəlinsə də, şair ədəbiyyata yeni motivlər gətirmişdir: "... o, bu motivləri təkrar etmir, onların bədii inikasında özünəməxsus formalar, ifadələr və obrazlar tapır"(12,32).

Xalxalini məşhurlaşdıran və onu Cənubi Azərbaycanın XIX əsrdəki Şükuhi, Hidəci, Sərraf kimi mütərəqqi şairləri ilə bir sıraya çıxaran onun qəzəlləri və başqa ənənəvi şeirləri deyil, şöhrəti Xalxaliyə "Sələbiyyə" poeması gətirmişdir.

Xalxalinin "Sələbiyyə" poeması Şərq poeziyasının ən yaxşı ənənələrini özündə əks etdirir.

Əsas süjet xəttini Tülkü barədə hekayələr (82 hekayət) təşkil edir. Ancaq şairin həyata və baş verən hadisələrə münasibəti, duyğu və düşüncələri əsərin dəyərini xüsusilə artırır.

Tülkü, Canavar, Xoruz obrazları gerçəkliyi doğru-düzgün əks etdirmək üçün şairin əlində bir bədii vasitədir. "Sələbiyyə" poeması Azərbaycan şeirində yeni bir səhifədir. İlk dəfədir ki, poetik əsərdə lirik münasibətlər deyil, ictimai-məişət problemləri əsas mövzu kimi götürülür. "Sələbiyyə" poeması alleqorik formada yazılan ilk realist əsərlərdəndir.

Poemada o dövrkü Cənubi Azərbaycanın həyatı dürüst təsvir edilmişdir. Əhalinin müxtəlif təbəqələrini təmsil edən nümayəndələr dəqiq cizgilərlə qələmə alınmış, onların ictimai mənşəyi koloritli, zəngin çalarlarıyla öz əksini tapmışdır. Sonda bu nəticəyə gəlirrik ki, aparılan araşdırmalar Xalxalinin həyat və yaradıcılığının öyrənilməsinə təkan verə bilər.

ƏDƏBİYYAT

1. Vüqar Əhməd. Elmi-filoloji qaynaqlar, ədəbi simalar haqqında düşüncələr. Bakı, 2010.
2. Xalxali. Divan-ədəbiyyatı 1940.
3. Məhəmmədəli Tərbiyyət Danişməndane Azərbaycan, 1314.
4. F.Köçərli. Azərbaycan ədəbiyyatı, II c. 1981, Cənubi Azərbaycan ədəbiyyatı tarixi XIX -XX əsrlər. Bakı, 2009.
5. Cənub ulduzları Bakı, 1984.
6. Müdərris Reyhanətül-ədəb II c., Təbriz, 1347.
7. K.Məmmədov. XIX əsr Azərbaycan poeziyasında satira. Bakı, 1975.
8. Cavad Heyət. Azərbaycan ədəbiyyatı tarixinə bir nəzər. Tehran, 1358.
9. Cənubi Azərbaycanın tarixi oçerkləri. Bakı-1985.
10. Azərb. SSR. E.A xəbərlər. Bakı, (Dil ədəbiyyat və incəsənət)№1, 1983.
11. X.Sadiq Həft məqale İran-2537.
12. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. Bakı, Ic 1981

MATANAT KURBAN GIZI SHANALIYEVA

ЮЖНАЯ АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРЫ, ПОЭЗИИ ОТ ВТОРОЙ ПОЛОВИНЫ XIX ВЕКА

РЕЗЮМЕ

В этой статье, вторая половина XIX века, один из самых ярких представителей Южной азербайджанской литературы Мохаммад Халхалинин посмотреть на исследования о жизни и сравнений, проведенных во время месте поэта в Салабиййа был проинформирован о стихотворении. Поэма "Салабиййа", новая страница в стихотворении. Впервые, лирическая, поэтическая работа, отношения, социальные и бытовые проблемы принимаются в качестве основной темы. Поэма "Салабиййа", написанной в аллегорической форме первые реалистические произведения.

MATANAT KHURBAN KIZI SHAHALIYEVA

SOUTH AZERBAIJAN LITERATURE, POETRY OF THE SECOND HALF OF THE XIX CENTURY

SUMMARY

In this article, the second half of the nineteenth century, one of the prominent representatives of South Azerbaijan literature Mohammad Xalxalinin look at the research about the life and comparisons have been carried out, during the poet's place in Salabiyya has been informed about the poem.

"Salabiyya" poem, a new page in the poem. For the first time, lyrical, poetic work, relationships, social and domestic problems are taken as the main theme.

"Salabiyya" poem written in allegorical form the first realistic works.

Rəyçi: f.e.d.prof. Qəzənfər Kazımov

RƏYLƏR

FƏRRUX RÜSTƏMOV,
Pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi
farrukhrustamov@gmail.com

FUNDAMENTAL "AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ " DƏRSLİYİ

"Ey oğul! Bütün dünyanı elmlə, gözəlliklə dolu kuzə bil…"
M. C. Rumi

Son dövrlərdə ədəbi-mədəni mühitimizdə müxtəlif istiqamətli araşdırmaların, təhlillərin bolluğu ilə qarşılaşırıq. Bu, müsbət haldır və həm ədəbiyyatımızın, həm də ədəbiyyatşünaslığımızın boy artımına xidmət edən uğurlu tendensiyadır. Müasir ədəbi mühit bütün müstəvilərdə rəngarəngliklə, düşüncə tipləri, imza müxtəliflikləri ilə maraq doğurmaqdadır. Poeziyada, nəsrdə, dramaturgiyada, publisistikada olan canlanma Azərbaycanın müstəqilliyindən sonarkı dövrdə mərhələ səciyyəsi ilə seçilir və daha çox milli düşüncəyə, etnos təsəvvürlərinin, genetik yaddaşın açılışına hesablanır. Klassik ədəbiyyatın öyrənilməsi, bu yönümdə təhlillərin aparılması həmin zənginlikdə ayrıca bir istiqamətdir. Həm də digər sahələrdən, dövrlərdən fərqli olaraq ağır və böyük zəhmət, məsuliyyət tələb edən istiqamətdir. Məhz bu səbəblərə görə də klassik ədəbiyyatın öyrənilməsi, bu sahədə monoqrafik araşdırmaların aparılması sahəsində bir qədər kasadlıq nəzərə çarpır. Ancaq onu da etiraf edək ki, klassik ədəbiyyatımızın, ərəbdilli, farsdilli Azərbaycan poeziyasının öyrənilməsi istiqamətində olduqca ciddi və əhəmiyyətli işlər görülmüşdür və bu gün də görülməkdədir. Görülən işlərin məsuliyyəti, xidmətin şərəflə aparılması xətti sevindiricidir. Bizlərdən əvvəlki nəslin elm və qələm sahibləri gediləcək yolu müəyyənləşdiriblər. Bu istiqamətdə lazım olan ənənəni və elmi məktəbi yaradıblar. Bu gün də ədəbi-mədəni mühitdə həmin ənənənin lazımi qədər uğurlu nümayəndələri və nümunələri görünməkdədir. Anadilli poeziyanın orta əsrlər mərhələsinin tədqiqatları da bura daxildir.

Orta əsrlər Azərbaycan ədəbiyyatının istedadlı tədqiqatçısı, ədəbi-mədəni sferada lazımı qədər ciddi və orijinal söz sahibi, filologiya üzrə elmlər doktoru, professor Yaqub Babayevin elmi yaradıcılığı məhz bu baxımdan daha çox maraq doğurur. Alimin "Pedaqoji mühit və uşaq ədəbiyyatı" (Məmməd Məmmədov, Təyyar Cavadovla birlikdə, 1992), "Təriqət ədəbiyyatı: sufizm, hürufizm" (2011), "Anadilli Azərbaycan ədəbiyyatının təşəkkülü və epik şeirin inkişafı (XIII-XIV əsrlər)" (2008), "XIII-XIV əsrlər anadilli lirik şeirimizin inkişaf yolu" (2009) və s. kimi elmi kitabları onun ədəbiyyatşünaslığımızda yerini və nə qədər gərəkli işlər gördüyünü təsəvvür etməyə əsas verir.

Azərbaycanın müstəqilliyindən sonra ədəbi-mədəni və elmi mühitdə bir kitab bolluğu hökm sürməkdədir. Bu müsbət haldır, ancaq onun doğurduğu mənfi fəsadlar, kitab yazmanın məsuliyyəti və necə gəldi kitab xatirinə kitab çıxarmaq tendensiyası bir qədər narahatlıqlar doğurur. Ədəbi tənqidin loyallığından, öz funksiyasını lazımi qədər yerinə yetirə bilməməsindən doğan bir məyusluq da hökm sürməkdədir. Nədənsə elə bir dövrə gəlib çıxmışıq ki, ədəbi tənqid hətta lazımi qədər gərəkli olanın, uğurlu

araşdırmaların nümunəsinə çevrilən kitabların da dəyərini verməkdə gözləmə mövqeyi tutur. Təhlillərin böyük bir qismi şəxsi meyarlara, subyektiv münasibət səviyyəsinə dayanır. Ona görə də biz bir sıra məsələlərdə, elmi-nəzəri fikrin irəliyə doğru hərəkətində və yüksəlişində bir qədər gecikirik. Klassik ədəbiyyatın öyrənilməsində də bu hallar müşahidə olunur. Ancaq sevindirici odur ki, fərqli tendensiyalara baxmayaraq, ədəbiyyata lazımi qədər ciddi, məsuliyyətlə yanaşan, hər sözün, cümlənin, fikrin qədrini bilən, onun keşiyində dayanan cəfakeş bir nəsil də formalaşmaqdadır. Və hətta mən deyərdim ki, formalaşmışdır. Ədəbiyyatşünaslıq elmimizin mövcud ağırlıq mərkəzi onların üzərindədir. Yaqub Babayev də məhz belə alimlərimizdəndir. Onun son dövrlərdə çıxan ***"Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər)"*** (Bakı, Elm və təhsil, 2014) dərsliyi bunun parlaq nümunəsidir. Deyəcəklərim də məhz daha çox bu dərsliklə bağlıdır.

Etiraf edək ki, son dövrlərdə ən çox mübahisə, söz-söhbət predmeti olan dərsliklərdir. Orta məktəb dərslikləri üzərində gedən mübahisələr, mətbuat səhifələrində, televiziya ekranlarında, internet saytlarında gedən yazışmalar, fikir ayrılıqları buna nümunədir. Bunun da köklü, narazılıqlara gətirib çıxaran ciddi səbəbləri və tərəfləri vardır. Bu fikir ayrılıqları, mübahisələr, heç şübhəsiz ki, özlüyündə məsuliyyəti artırır. Daha yaxşı olanı, dərsliyin prinsiplərinə cavab verən kitabların yazılmasını aktuallaşdırır. Burada həm obyektiv, həm də subyektiv səbəblər və meyillər də özünü büruzə verə bilər. Bu səbəb və meyillərin mövcudluğunu da danmaq mümkün deyil. Ancaq bütün bunlara baxmayaraq dərslik yazmağın məsuliyyəti və gərəklilik səviyyəsi daha böyükdür. Dərslik yazmaq iddiasına düşən hər bir kəs ilk öncə bunları nəzərə almalıdır. Bilməlidir ki, dərslik həm elmi, həm də pedaqoji problemdir. Onun uğurlu alınması müəllifin həm elmi, həm də pedaqoji-psixoloji hazırlığından asılıdır. Elmi tutumla yanaşı dərsliyin hansı auditoriyaya hesablandığının, ondan istifadə edənlərin yaş və fərdi xüsusiyyətlərinin, dərsliyin funksiyalarının və onun tərtibinə verilən pedaqoji-psixoloji, valeoloji tələblərin nəzərə alınması onun uzunömürlüyünü təmin edən əsas şərtlərdəndir. Dərsliyə daxil edilən hər bir bədii nümunə, mətləb, oçerk yüz ölçülüb, bir biçilməlidir.Həmin mətnin tələbələrdə hansı kompetensiyanı formalaşdıra biləcəyi öncədən bilinməlidir. Yaqub Babayevin pedaqoji təhsilli olması, pedaqogika və psixologiyanı yaxşı bilməsi, pedaqoji mətbuatımızı və klassik məktəb dərsliklərimizi dərindən araşdırması onun dərslik yazmaq kimi çox çətin və məsuliyyətli bir işdə uğur qazanmasının başlıca səbəblərindən olmuşdur. Doğrudur, bizim klassik ədəbiyyatla bağlı dərslik yaratmaq ənənəmiz olubdur. Sırf ədəbiyyata, xalqımızın övladlarının maarifləmməsinə xidmət edən dərsliklərimiz vardır. Prof. Yaqub Babayevin də dərsliyi məhz bu ənənəyə əsaslanaraq yazılmışdır.

Orta əsrlər Azərbaycan ədəbiyyatı tarixinin ən zəngin, həm də kifayət qədər orijinallıqlarla dolu olan məxsusi bir mərhələsidir. Bu mərhələdə bir-birindən böyük, istedadlı sənətkarlarımız olmuş və onlar bütün varlıqları ilə ədəbiyyata xidmət etmişlər. S.Z.Şirvani, H.Təbrizi, N.Tusi, M.Şəbustəri, İ.Həsənoğlu, M.Əvhədi, Ə.Təbrizi, F.Nəimi, İ.Nəsimi, A.Ərdəbili, Q.Bürhanəddin, Bəsiri, Süruri, Fəzli, B.Şirvani, Ş.Q.Ənvar, M.C.Həqiqi, Xəlili, Kişvəri, H.İsfahani, Ş.İ.Xətai, M.Füzuli, Fədai, M.Əmani, S.Təbrizi, Q.Təbrizi, N.Şirvani, Ş.Şirvani, M.Şirvani, M.V.Vidadi, M.P.Vaqif və s. sənətkarlar öz zamanında ədəbiyyata şərəflə xidmət etmiş, layiqli töhfələr vermişlər. Müasir ədəbiyyatımız məhz bu böyük sənətkarların ideallarına, amallarına xidmət etməklə həmin zənginliyi yaşatmaq, gələcəyə daşımaq yolunu tutmuşdur. Bu özlüyündə ən vacib, həm də alqışlanmalı məsələdir. İstedadlı ədəbiyyatşünas alimimiz Y.Babayev məhz bu böyük simaların həyat və

yaradıcılıqlarını öyrənməklə həm də onların müqəddəs amallarını geniş elmi, pedaqoji ictimaiyyətə tanıtmaq missiyasını yerinə yetirir. O, eyni zamanda ədəbi ictimaiyyətimizə, geniş oxucu kütləsinə vaxtaşırı onlarla bağlı araşdırmalarını, təhlil-oçerklərini, elmi məqalələrini təqdim edir. Mətbuat səhifələrində bir-birindən maraqlı yazılarla çıxış edir. Yuxarıda adını çəkdiyimiz monoqrafiyalar uzun illərin araşdırmasının, zəngin və çoxsaylı materialların izlənilməsinin nəticəsidir.

Azərbaycan xalqının ictimai, siyasi, mədəni həyatında orta əsrlər ziddiyyətlər, feodal çəkişmələri, müharibələr, xarici və daxili gərginliklərlə dolu olan keşməkeşli bir dövrdür. Bu mərhələdə tiranlığın, fironluğun meydan suladığı da tarixin daş yaddaşından silinməmişdir. Belə bir zamanda bütün ziddiyyətlərə, gərginliklərə, qılınc toqquşmalarına cavab verəcək, onun qarşısında duruş gətirəcək ədəbiyyat vardır. Poeziya həmin mərhələdə bütün qələbələrin, milli yaddaşı qorumağın, etnos varlığının mühafizəsinin və gələcəyə gedişin, qurtuluşun enerji qaynağı idi. Həmin böyük sənətkarlar öz qələmlərinə sarılmaqla bir növ ideallarına sədaqət göstərmiş, geniş kütləni arxasınca aparmaq, milli etnos yaddaşına, milli mənsubluğa sahiblik missiyasını yerinə yetirmişlər. Bir növ öz əsərləri ilə şahlardan, tiranlardan fərqli olaraq xalqın həqiqi tarixini yazmışlar. Ona görə də klassiklərin yaradıcılığı milliliyin, mənəvi-əxlaqi dəyərlərin, genetik yaddaşın qorunuşu müstəvisində əvəzsiz mənbədir. Ədəbiyyatşünas Y.Babayev də öz mülahizələrini təkcə mətn müstəvisində poetik nitq aktları, janr tipləri kontekstində qurmur. Geniş ümumiləşdirmələr aparır, dövrün xülasəsini verməklə sənətkar və mühit məsələlərinə də diqqət yetirir.

Ümumiyyətlə, XIII-XVIII əsrlər Azərbaycan ədəbiyyatının ağırlıq mərkəzini özündə ehtiva edən ciddi bir mərhələdir. Burada İ.Nəsimi, Ş.İ.Xətai, M.Füzuli, S.Təbrizi, M.V.Vidadi, M.P.Vaqif kimi nəhənglər vardır. Onu da əlavə edək ki, bu sənətkarlar təkcə Azərbaycan ədəbiyyatı çərçivəsində deyil, dünya ədəbiyyatı sferasında tanına bilən nəhəng ədəbi simalardır. Onların auditoriyada sistemli şəkildə tələbələrə öyrədilməsi, mühit səviyyəsində tipoloji araşdırmalarla təhlil olunmaları ən ümdə məsələlərdir.

Müasir dövr üçün başlıca və birinci dərəcəli məsələ obyektiv qiymətləndirmələrin aparılmasıdır. Son illərin ədəbi mühiti, demokratiya təsəvvürləri bəzən sərhədlərin aşılmasını, əndazələrin pozulmasını ortaya qoyur. Fakta, bədii nümunəyə, tarixi prosesə tendensiyalı, iddialı yanaşmalar çoxluq təşkil edir. Bu, ədəbiyyat adamlarına, sözün həqiqi mənasında ədəbiyyatla yaşayanlara, Yaqub Babayev kimi ciddi tədqiqatçılara aid edilə bilməz. Bir də müasir mühitdə bu sənətkarların sahibi olmadığı üçün daha məqsədli tendensiyalara, münasibətli yanaşmalara yer qalmır.Təəssüf ki, son dövrün orta məktəb dərsliklərində şedevrlərin, klassiklərin sıxışdırılması, bəzi təsadüfi ədəbi şəxsiyyətlərin dərsliklərə salınması hadisəsi özünü göstərməkdədir. Bu qorxulu, həm də təəssüflənməli tendensiyadır. Azərbaycan balalarına gərəkli olanı öyrətmək lazımdır. Bütün münasibətlərdən ucada xalq, milli mənafe, klassika dayanır. Məhz bu baxımdan Y.Babayevin dərsliyi son onilliklərin dərslikləri arasında ən uğurlu nümunədir.

Azərbaycan ədəbiyyatı müstəvisində dərslik yazmanın H.Araslı, F.Qasımzadə, P.Əfəndiyev, Ə.Səfərli, X.Yusifli, M.Cəlal, F.Hüseynov, P.Xəlilov, A.Hacıyev və s. kimi ədəbiyyatşünaslara məxsus ənənəsi vardır. Təkcə bir nümunəni misal çəkək ki, prof. P.Əfəndiyevin "Azərbaycan şifahi xalq ədəbiyyatı" dərsliyi 45 ildir ki, tələbələrin, müəllimlərin stolüstü kitabıdır. Son dövrlərdə "Azərbaycan şifahi xalq ədəbiyyatı" adında bir neçə dərslik yazılmışdır. Lakin onların heç birisi auditoriyada özünə yer tapa bilməmişdir. Dərslik yazmaq iddiasında olan kəs gərək auditoriyanı və predmeti kifayət qədər bilsin. Nəyi və necə deməyi yaxşı anlasın.

Ədəbiyyatşünas Yaqub Babayev orta əsrlər ədəbiyyatının tədqiqatçısıdır. Mənbələrə, faktlara, sənətkarların həyat yoluna lazımı qədər bələddir. Ədəbi sferada orta əsrlərin layiqli mütəxəssisi, o dövrün həqiqi söz sahibi kimi tanınmışdır. "Təriqət ədəbiyyatı: sufizm, hürufizm", "Anadilli Azərbaycan ədəbiyyatının təşəkkülü və epik şeirin inkişafı (XIII-XIV əsrlər)", "XIII-XIV əsrlər anadilli lirik şeirimizin inkişaf yolu" monoqrafiyaları klassik ədəbiyyatımızın tədqiqinə həsr olunmuş monumental tədqiqat əsərləridir. Bu kitabların hər birisi özlüyündə ciddi araşdırmaların, uzunmüddətli zəhmətin, mənbələri diqqətlə öyrənməyin nəticəsidir.

Məlum olduğu kimi, orta əsrlər Azərbaycan ədəbiyyatının mahiyyətində özül təşkil edəcək qaynaqlar və istiqamətlər vardır. Bunlardan biri və bəlkə də, birincisi ədəbiyyatda boy göstərən təriqət ideyalarıdır. Bir növ milli düşüncənin, mənəvi zənginliyin hadisəsi kimi böyük sənətkarlar təriqət ideyaları ilə xalqın, etnosun mənəvi dəyərlərini zənginləşdirmək, qoruyub gələcək nəsillərə çatdırmaq yolunu tutublar. Ədəbiyyat, daha doğrusu, orta əsrlərin poeziyası özlüyündə bu missiyanın, amalın daşıyıcısı funksiyasında çıxış etmişdir. Z.Şirvani, H.Təbrizi, N.Tusi, M.Şəbustəri, İ.Həsənoğlu, M.Əvhədi, Ə.Təbrizi, F.Nəimi, İ.Nəsimi, A.Ərdəbili, Q.Bürhanəddin, Bəsiri, Süruri, Fəzli, B.Şirvani, Ş.Q.Ənvar, M.C.Həqiqi, Xəlili, Kişvəri, H.İsfahani, Ş.İ.Xətai, M.Füzuli və digərlərinin yaradıcılığı bunun bariz nümunəsidir. Onu da etiraf edək ki, bu sənətkarlar təkcə Azərbaycan ədəbi məkanında tanınmış ədəbi şəxsiyyətlər deyillər. Bütünlükdə Şərq və dünya ədəbiyyatı xəzinəsinə öz töhfələrini vermiş, adlarını böyük ədəbiyyata yazdırmış simalardır. Yaqub Babayevin müasir ədəbi-nəzəri düşüncənin prinsipləri əsasında apardığı təhlillər özünün funksional xarakteri, filoloji təhlil mexanizmi ilə yeni və maraqlı görünür.

Bir məsələni xüsusi olaraq vurğulayaq ki, ədəbiyyatşünas alim, prof.Yaqub Babayev Azərbaycan ədəbi-nəzəri fikrinin görkəmli nümayəndəsi prof.Məmməd Məmmədov elmi məktəbinin yetirməsidir. Ondakı bir sıra keyfiyyətlər, ciddilik, məsuliyyət, hadisə və faktların dəqiqliklə öyrənilməsi, sinxron və diaxron müstəvidə ən kiçik məsələləri izləyib mahiyyətinə varmaq və s. hamısı həmin məktəbdən irəli gəlir.Onun elmə məhz ilk addımlarını görkəmli ədəbiyyatşünas Məmməd Məmmədovun rəhbərliyi ilə atması sonrakı dövrlərdə öz töhfələrini verdi. Elmi və pedaqoji fəaliyyəti ciddilik, xeyirxahlıq və məsuliyyət üzərində qurulmuşdur. Məhz bu günlərdə nəşr olunan möhtəşəm "Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər" dərsliyi də bunun bariz nümunəsidir. Yeri gəlmişkən bir məsələni də qeyd edək ki, aspirant yoldaşım Yaqub Babayev zəngin, şərəfli, həm də olduqca maraqlı ömür yolu keçmişdir. O, 1958-ci ildə Gədəbəy rayonunun Dəyəqarabulaq kəndində anadan olmuş və həmin kənddə səkkizillik məktəbi bitirmişdir. Böyük Qarabulaq (indiki Miskinli) kəndində orta təhsil almışdır. Gəncə Dövlət Universitetində ali təhsilə yiyələnmışdır. 1985-1988-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin aspiranturasında oxumuşdur. Elə sonrakı həyatı da Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə bağlı olmuşdur. Və indi də orada fəaliyyət göstərir. Filologiya üzrə elmlər doktoru, professordur. İlk tədqiqatı XX əsr uşaq nəsri ilə bağlıdır. Bu xarakter və keyfiyyətlərin formalaşmasında onun boya-başa çatdığı Gədəbəyin əsrarəngiz təbiəti, dağların əzəməti, füsunkar gözəllikləri, heç şübhəsiz ki, müstəsna rol oynamışdır.

Ədəbiyyatşünas alim, prof.Yaqub Babayevin yazdığı dərsliyin kifayət qədər uğurlu keyfiyyətləri vardır. Onu da etiraf edək ki, bu dərslik yoxdan yaranmamışdır. Yaqub Babayevə qədər görkəmli ədəbiyyatşünas alimlər Ə.Səfərli və X.Yusifli tərəfindən "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı" adlı dərslik yazılmışdır. Bu gün də bu dərslik auditoriyalarda istifadə olunmaqdadır. Belə olan tərzdə Yaqub

Babayevin XIII-XVIII əsrlər Azərbaycan ədəbiyyatına aid dərslik yazması xeyli çətin idi. İlk anda belə təsəvvür yaranırdı ki, Yaqub Babayev burada təsirə, təkrarçılığa qapılacaqdır. Ancaq müəllifin auditoriyanı dərindən bilməsi, özünə qədərkilərdə nələrin çatışmadığını həssas duyumla fəhm etməsi onu uğurlu bir dərslik yazmağa gətirib çıxarmışdır. Söhbətlərimizdə, mətbuat səhifələrində çıxan yazılarında da bu araşdırmaların son olaraq dərsliyə gəlib çıxacağını düşünürdüm. Təxminən keçən əsrin doxsanıncı illərindən mənbələri, arxiv materiallarını, yeni yazılan məqalə və monoqrafiyaları izləyən Yaqub müəllim auditoriya üçün zəriru olan faktların, şəxsiyyətlərin ədəbi və elmi-ictimai mühitə çatdırılması sahəsində də araşdırmalar aparırdı. Onun müxtəlif illərdə mətbuat orqanlarında çıxan məqalələri, portret oçerkləri, eləcə də anadilli ədəbiyyatın təşəkkülü ilə bağlı tədqiqatları ciddi marağa səbəb olurdu. Yaqub Babayevin dərsliyinin uğurunun bir istiqaməti də məhz bununla bağlıdır.

İkinci bir istiqamət yeni əlavələrlə, portret oçerklərlə dərsliyin zənginləşdirilməsidir. Yaqub Babayevin dərsliyi Rami Təbrizi, Şeyx Səfiəddin Ərdəbili, Nəsir Bakuyi, Əbdülqadir Marağayi, Hinduşah Naxçivani və Hüsaməddin Xoyi, Yusif Məddah, Salman Savəçi, Cahanmələk Xatın İncəvi, Sadəddin Həriri, Puriya Vəli, Nəsirəddin Tusi, Fəzli, Ruhi Bağdadi, Əfsəhəddin Hidayətullah, Əşrəf Marağayi, Şeyx Vəli Şirazi, Tərzi Əfşar, Təsir Təbrizi, Baba Şirvani, Şəkili Nəbi və s. sənətkarlar barədə gərəkli elmi məlumatları özündə ehtiva etməsi ilə də diqqəti cəlb edir.

Dərslikdə digər müsbət cəhət müəllifin sosioloji və ideoloji təhlillərdən imkan daxilində qaçmağa çalışmasıdır. Əlbəttə, yüzə-yüz sosioloji təhlillərdən yan keçmək mümkün də deyildir. Bunu etmək özü də son olaraq bir başqa istiqamətdə qüsur kimi görünərdi. Yaqub Babayev məhz təhlillərdə daha çox poetik mahiyyəti, mətn informasiyasını, sənətkarlıq məsələlərini açmağa və auditoriyaya çatdırmağa üstünlük vermişdir. Əslində son dövrlərə qədər yaranan bütün dərsliklərdə sosioloji, ideoloji təhlillər üstünlük təşkil edirdi. Yaqub Babayev öz yeni dərsliyi ilə sovet dönəmində müəyyənləşmiş bu ənənəvi prinsipləri pozmuş və daha uğurlu yol seçmişdir.

Ali məktəb auditoriyaları zaman-zaman yeni dərsliklərə, ayrı-ayrı problemlərin fərqli baxış müstəvisində təhlilinə ehtiyaclıdır. Azərbaycan ədəbiyyatının ən maraqlı mərhələsini təşkil edən orta əsrlər mərhələsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Çünki bu mərhələdə ərəbdilli, farsdilli və anadilli ədəbiyyatın özünəməxsus inkişaf tendensiyası, sufizm və hürufizm kimi təriqət cərəyanlarının özünəməxsus ideyalarının hakim olduğu ədəbi-məfkurəvi proses vardır. Təriqət ideyaları bu əsrlərdə ədəbiyyatın, ədəbi-mədəni mühitin canına, qanına hopmuşdu. Bütünlükdə Şərq düşüncə tərzi bu ideyalara yüklənmişdi. Onun Azərbaycan ədəbiyyatı müstəvisində təhlili, auditoriyaya gətirilməsi, ümumiyyətlə, təriqət görüşlərinin ədəbiyyatda hansı məqsədi daşıması və s. məsələlər son dövr dərslikləri üçün zəruri görünürdü. Yaqub Babayev öz kitabında bunları reallaşdırdı.

Son olaraq ədəbiyyatşünas alimin bu uğurlarının mahiyyətində auditoriya ilə bağlılığı dayanır. Yaqub Babayev həm də gözəl müəllimdir. Onun bütün davranışları, hərəkətləri nümunə olmağa, müəllim adına hesablanmışdır. Prof. Yaqub Babayevin auditoriyanı gözəl bilməsi, uzun illər Orta əsrlər Azərbaycan ədəbiyyatını tələbələrə öyrətməsi onun araşdırmalarına əlavə dəyər gətirmişdir. Bütün bunlar bir şəxsiyyət kimi Yaqub Babayevi tamamlayır, ədəbiyyatşünas alim kimi ədəbiyyat tariximizdə yerini müəyyənləşdirir.

Rəyçi: Nadir Məmmədli
Filologiya üzrə elmlər doktoru, professor

MÜNDƏRİCAT

E.Q.Yusifov. Söz mənasının dəyişməsi alman dilinin lüğət tərkibinin zənginləşməsi yollarından biri kimi 3
Ир. М. Ковальчук. Термины, номинирующие заимствованный материал, в диахроническом аспекте 8
Olga Aleksieieva. The classification of internet discourse users nominations in the usa and Ukraine....16
T.B.Məmmədova. Azərbaycan dili frazeoloji birləşmələrinin alman dilinə tərcüməsi yolları....23
Shafagat Mahmudova. Deixis in English....29
İlahə Əliyeva. Budaq cümləsi frazeologizm olan tabeli mürəkkəb cümlə 35
Xəyalə Mürsəliyeva. Feilin intensivlik yaratmada rolu 41
Elnurə Rzayeva. "İşıq" qəzeti və ədəbi dilin fonetik norması 46
Адышова Самира. Восприятие признаков эмоциональной напряженности в звучащей речи 51
Günel Süleymanova. İngilis dilində sual cümlələrinin növləri....61
Pakizə Məmmədzadə. Omonomika semisiologiyanın tərkib hissəsi kimi və ingilis-Azərbaycan dillərində onların semantik xüsusiyyətləri....68
Rübabə Musayeva. İngilis dilinin sintaksisində tabeli mürəkkəb cümlə daxilində təyin budaq cümlələrinin rolu və funksional xüsusiyyətləri....73
Sevinc Yusifova. Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində ingilis dili və başqa Qərbi Avropa mənşəli alınmaların rolu və əhəmiyyəti....78
Zamirə Məmmədova.
Zenfira Niftəliyeva. Müasir ingilis və Azərbaycan dillərində əvəzliklərin mətnyaratma prosesində rolu və əhəmiyyəti 83
Leyla Eminova,
Şəfiqə Əliyeva. Müstəqillik dövründə azərbaycanda xarici dilin, o cümlədən ingilis dilinin tədrisinin əsas istiqamətləri....88
Dilbər İbrahimova. Müxtəlif sistemli dillərdən alınma frazeologizmlərin ingilis ədəbiyyatında, şair və yazıçıların əsərlərində işlənməsi və onların Azərbaycan dilində ifadə vasitələri....93
Məleykə Əsədova,
İradə Bədəlova. Müasir ingilis dilində elmi-texniki tərcümənin leksik problemləri və onun azərbaycan dilində ifadəsi....98
Alxasova Çimnaz,
Şükürova Aida. İngilis və Azərbaycan dillərində qrammatik zaman və modallıq bildirən sözönülərin leksik-semantik təhlili....103
Fil.f.d. Nuriyyə Əliyeva. Müasir ingilis və Azərbaycan dillərində sadə nəqli cümlələrin eksperimental təhlilinə dair bəzi qeydlər....108
Fil.f.d. Şəhla Kərimova. Mətnin yaranmasında verbal və qeyri verbal ifadə vasitələrinin rolu haqda....113
Гюльнара Исмаилова. Некоторые проблемы метафоры и ее функции в современном английском языке....118

Гюльнара Джаббарова. Неологизмы и явление парономии в современном английском языке……. 123
Aytən Quliyeva.
Xalidə Zamanova. Müxtəlif sistemli dillərin linqvistik araşdırılmalarında sintaktik sinonimlik problemi 128
Lalə Hüseynova. İngilis dili mənşəli yer və şəxs adlarının yaranma səbəbləri, inkişaf tarixi və qədim antroponimik model 133
Leylaxanım Nəcəfova. Azərbaycan və ingilis dillərinin leksik sistemində antroponimlərin semantik və üslubi xüsusiyyətləri 138
Mina Mövliyarova,
Şərafət Əliyeva. Fransız və Azərbaycan dillərində tabeli mürəkkəb cümlə daxilində bağlayıcıların rolu və əhəmiyyəti 143
Mehriban Muradova.
Qənirə Allahverdiyeva. Müasir ingilis dilində ölçü vahidlərinə etmologiyası və ixtisasyönümlü adların işlənməsinə ötəri baxış 148
Фирандухт Сафикулиева. Лингвистический анализ субстантивации прилагательных в художественных произведениях русского языка 153
Нина Бунятова. Лексико-семантический анализ паремиологического концепта «truth»а в пословицах английского языка 158
Yeganə Qurbanova,
Şəfəq Məhərrəmova. Müasir ingilis dilində" present perfect"və "past perfect" zaman formalarının Azərbaycan dilində ifadə vasitələri 163
Aybəniz Həsənova,
Könül Rzayeva. Fransız dilində feilin məsdər forması və hissəvi artiklın Azərbaycan dilində ifadə üsulları 168
Yeganə Ələsgərova
Sevinc Babayeva. Müasir ingilis dilində ismin cins kateqoriyasının süppletivizm üsulu ilə düzəldilməsi və onun Azərbaycan dilində məqbul ekvivalentləri 173
Nailə Qasımova,
Aynur Yunsurova. Building and improving vocabulary 178
Ləman Qasımlı. Sifətin leksik-semantik məna çalarları Azərbaycan dilçiliyində ... 184
Nərmin İsgəndərova. Təlim materiallarının seçilməsinə dair tövsiyyələr 190
Esmira Quliyeva. Azərbaycan ədəbi dilinin inkişaf təmayülü: dil və nitq 195
Yeganə Abbasova. Dilin tarixi əhəmiyyəti və mədəniyyəti, onun cəmiyyətdə rolu 202
Мамедова Джавахир Фуад. Средства обучения русскому языку и их роль в процессе формирования деловых качеств студентов 207
Məmmədova Sevinc. Bəxtiyar Vahabzadə dilinin leksik üslubi xüsusiyyətləri 213
Tamella Mehdiyeva. Speech, writing and listening 218
Aynurə Əliyeva. Ağdam rayonunun bəzi antropotoponimləri 224
Pəri Əhmədova. Semantik üsulla yaranan pedaqogika terminləri 230
Aynur Muradova. Müasir dilçilikdə tematik proqressiyanın diskursyaratma imkanları 236

ƏDƏBİYYATŞÜNASLIQ

Paşa Kərimov,
İbrahim Quliyev. Klassik düşüncədə kamil insan obrazı.....247
Siracəddin Hacı. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması rəhmət evi tikməyin proqramıdır.....253
Bəxtiyar Əsgərov. Postmodern bədii nəsrində gerçəklik və paralel tarix.....259
Nərmin Əliyeva. Şəhriyar poeziyasında irfani düşüncələr.....264
Sevinc Heydərova. Klassik ədəbiyyatın öyrənilməsi və təbliği.....269
Ş.Ə.Mahmudova. Klassik irsin uşaq ədəbiyyatına təsiri.....276
Ruhəngiz Əliyeva. T.Elçin yaradıcılığında şifahi epik folklor ənənələri istifadə üsulları.....281
Gülsümxanım Hasilova. Əzizə Cəfərzadə romanlarında mahnı mətnləri.....287
Əsgərova Yadigar. S. Mənsur yaradıcılığında ironiya.....293
Səbuhi Manafov. Azərbaycan ədəbiyyatşünaslığında faciənin təşəkkül və təkamül məsələləri.....298
Sevinc Bağırova. Klassik rus ədəbiyyatinda islam dininə hörmət və ehtiram, islam dini dəyərlərinin qorunub saxlanılması və yayılması.....304
Lalə Məmmədova. Çağdaş nəsrimizə füzuli təsiri.....310
Nailə Qasımova. Gender of nouns and their combinability in contemporary English.....317
Salatın Əhmədova. Heydər Əliyevin nitqləri ədəbi-bədii mətn kimi.....321
S.V.Novruzova. İngilis modernist ədəbiyyatının xüsusiyyətləri.....327
Мамедова Светлана. Эпос "Короглу" в исследованиях Х.Короглу.....334
Nazirə Əsgərova. Sehrli nağılların məzmun xüsusiyyətləri.....338
Mehriban Balakişiyeva. Atalar sözlərinin təsnifi.....343
Günel Rzayeva. British romanticism and walter scott.....348
Mətanət Qurban qızı Şahaliyeva. XIX əsrin ikinci yarısında cənubi Azərbaycan Ədəbiyyatında poeziya.....354

RƏYLƏR

Fərrux Rüstəmov. Fundamental "Azərbaycan ədəbiyyatı tarixi" dərsliyi.....360

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ
Çapa imzalanmış **15.12.2015.**
Şərti çap vərəqi **32,75.** Sifariş **№ 559.**
Kağız formatı **84x108 1/16.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gamil.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.